**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**“BAKI QIZLAR UNİVERSİTETİ” MMC**

# *ELMİ ƏSƏRLƏR*
# *НАУЧНЫЕ ТРУДЫ*
# *SCİENTİFİC WORKS*

**“Elmi əsərlər” jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 06 yanvar 2010-cu il tarixdə qeydiyyata alınmış (№10/M-4850) və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 06 iyul 2012-ci il (protokol №10-R) tarixli qərarı ilə aşağıda göstərilən elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir:**

**Filologiya, pedaqogika, psixologiya elmləri.**

*(jurnal ildə 4 dəfə nəşr olunur)*

**Cild 25 №4 2025 (64)**
**Vol. 25 №4 2025 (64)**
**Том 25 №4 2025 (64)**

**BAKI - 2025**

**Təsisçi**
*Bakı Qızlar Universiteti*

**Baş redaktor**
*pedaqogika elmləri doktoru, professor Ağarəhim Rəhimov*

**Baş redaktor müavini**
*pedaqogika elmləri doktoru, professor Akif Abbasov*

**Məsul katib**
*Aygün Yaşar qızı Cəfərova*

**REDAKSİYA HEYƏTİ**

*filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov*
*filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı*
*tarix elmləri doktoru, professor Bahari Ata (Türkiyə)*
*filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli*
*fizika-riyaziyyat elmləri doktoru, professor Aqil Xanməmmədov*
*pedaqogika elmləri doktoru, professor Zbiqnev Kvetsinskiy (Polşa)*
*tarix elmləri doktoru, professor Tarix Dostiyev*
*tarix elmləri doktoru, professor Nərgiz Quliyeva*
*tarix elmləri doktoru, professor Anar İsgəndərov*
*tarix elmləri doktoru, professor Aytən Can (Türkiyə)*
*idarəetmə üzrə fəlsəfə doktoru, professor Jukova (Zhukova) İrina Vitalyevna (Ukrayna)*
*fəlsəfə elmləri doktoru, professor Əlikram Tağıyev*
*pedaqogika elmləri doktoru, professor İntiqam Cəbrayılov*
*pedaqogika elmləri doktoru, professor Anastasiya Vançova (Slovakiya)*
*tarix elmləri doktoru, professor Refik Turan (Türkiyə)*
*pedaqogika elmləri doktoru, professor Fərrux Rüstəmov*
*filologiya elmləri doktoru, professor İsmayıl Kazımov*
*pedaqogika elmləri doktoru, professor Hümeyir Əhmədov*
*filologiya elmləri doktoru, professor Nizami Məmmədov*
*filologiya elmləri doktoru, professor Çingiz Qaraşarlı*
*pedaqogika elmləri doktoru, professor Aygül Bulatbayeva (Qazaxıstan)*
*psixologiya elmləri doktoru, professor Ramiz Əliyev*

**Bakı Qızlar Universiteti Elmi Şurasının 16 dekabr 2025-ci il tarixli iclasının (protokol №5) qərarı ilə nəşr edilir.**

*UOT 80.*

# YARADICILIQ ÖMRÜN RAHİYYƏSİDİR

**Sevinc Ağarəhim qızı Rəhimova**
*Bakı Qızlar Universitetinin rektoru*
**ORCID:** 0009-0002-1226-4081
**E-mail:** rehimovasevinc@bqu.edu.az
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.01

***Açar sözlər:*** *vətənpərvərlik, yaradıcılıq, ziyalılıq, ana, dilçilik*
***Ключевые слова:*** *патриотизм, творчество, интеллигентность, мать, языкознание*
***Key words:*** *patriotism, creativity, intellectualism, mother, linguistics*

Professor Mahirə xanımın ictimai-siyasi fəaliyyəti və ədəbi-bədii külliyatına yaxından bələdik. Odur ki, onun yaradıcılıq spektrinə bir neçə istiqamətdən baxmaq mümkündür.

"Ulu Öndərin natiqlik məharəti", "Heydər Əliyev və strateji azərbaycançılıq", "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf strategiyası" kitablarında qaldırılan problemlər müəllifin ictimai-siyasi və elmi məsələlərə analitik, prinsipial yanaşması onun yüksək xüsusiliyindən xəbər verir. Bu əsərlərdə irəli sürülən ideyalar gələcək araşdırıcıların tədqiqat obyektinə töhfə verir. Mahirə xanımın mənalı və cəlbedici düşüncələri, işıqlı ideyalarının önəmliyi və cazibədarlığı, yüksək yaradıcılıq potensialı, çevik təfəkkürü, güclü istedadı, hadisələrə soyuqqanlı və məntiqi yanaşma tərzi onun xoşbəxt alim, gözəl şairə olmağına dəlalət edir. Belə bir qadının və ananın cəsarətli addımları insanda dərin fərəh hissləri oyadır.

Mahirə xanımın Almaniya, Danimarka, Rumıniya, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Tatarıstan və digər ölkələrə etdiyi işgüzar səfərlər, müxtəlif ölkələrdə fəaliyyət göstərən elm və ictimai xadimlər, eləcə də gənclərlə keçirdiyi görüşlər onun yüksək yaradıcılıq potensialının bariz nümunəsidir. Xarici ölkələrdə çap olunan əsərləri Azərbaycan elminin beynəlxalq miqyasda tanınmasına xidmət edir. Azərbaycan xanımının — alim və şairəsinin xidmətləri hər bir Azərbaycan vətəndaşını sevindirən hadisələrdir.

Mahirə xanım Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyasının filologiya elmləri və pedaqogika üzrə Ekspert Şurasının sədridir. O, həm də Azərbaycan Yazıçılar Birliyinin üzvü, Turan Akademiyasının Türk Dünyası Alim Qadınlar Şurasının sədri, "Mahmud Kaşğarlı" jurnalının təsisçisi və baş redaktorudur. Eyni zamanda bir sıra jurnal və qəzetlərin redaktoru kimi fəaliyyət göstərir. Onun çoxşaxəli yaradıcılıq fəaliyyəti və elmi-ədəbi diapazonu insanda xoş mənada qibtə hissi yaradır. Bütün bunlar onun ictimai fəaliyyətinin genişliyinin və elmi nüfuzunun nümunələridir.

Həsən Mirzə, Muxtar Hüseynzadə, Əbdüləzəl Dəmirçizadə və digər görkəmli alimlərin yaradıcılığına həsr olunmuş dilçilik nəzəriyyəsi və praktikası üzrə tədqiqatları onun elmə, vətənə, xalqa olan ürək yanğısının başlıca təzahürləridir.

Onun yaradıcılığı çoxşaxəli və zəngindir. Bu keyfiyyət hər kəsə nəsib olmur. Cəsarətlə demək olar ki, "Mənim anam", "Ana sevgisindən doğan nəğmələr", "Ana kəndim Xocalım", "Ömrün çıraqdır sənin", "Sözün hikməti" və digər kitablarını oxuduqca onun mənəvi-ruhi intellektual parametrləri yeni təfəkkürlü insan amilinə, yüksək keyfiyyətli şəxsiyyətin forma-

laşdırılmasına önəm verməsi fərəh hissi doğurur. Geniş qəlbi, dilinin zənginliyi, əsərlərini oxunaqlı edir. Bütün bunlar onun səmimiyyətindən xəbər verir. Duyumu göstərir ki, o böyük alim, nəcib şairə, ləyaqətli pedaqoqdur.

Şəxsiyyət mənsub olduğu mühitin sifəti və siması olmaqla yanaşı, həm də zirvəyə yüksəlməsinin göstəricisidir. Onun yaratdıqlarının hər birində milli ideya əks olunur. Bu da möhtəşəm insan-vətəndaş yetişdirilməsinə qüdrətli təsir göstərir.

"Haqqa çağırış", "Bayatılar", "Ruhun beşiksə, tanı, Vətəndi" kitablarında toplanan şeirləri göstərir ki, o sələflərinin (Xurşud Banu Natavan, Məhsəti Gəncəvi, Mirvarid Dilbazi, Nigar Rəfibəyli) ənənələrinin layiqli davamçısıdır. Şeirlərinin hər birində fərdi-məxsusi xarakterlər, tiplər və temperamentlər həssaslıqla özünə yer tapır, qəlbində doğan hissləri incəliklə ifadə etməyə müvəffəq olur. Buna oxucularının səmimiliyində əmin olmaq mümkündür.

"Yaradıcılıq və şəxsiyyət", "İctimai mühit və ixtiyarı asılılıqlar" mövzuları onun yaradıcılığının hər misrasında özünü göstərir. Vətənin, kəndin, meşənin və dağların tərənnümü, cəsarətlə demək olar ki, onun yaradıcılığının başlıca qayəsini təşkil edir.

Mahirə xanımın elmi və ədəbi-bədii yaradıcılığında xalqın, vətənin, zəngin tarixinin, bu gününün və sabahının ideyaları vəhdət təşkil edir. Bu baxımdan onu xoşbəxt alim və gözəl şairə kimi səciyyələndirmək olar.

Mahirə xanımın yaradıcılığı sırf realizmə əsaslanır. Hər bir misrasında dilinin şirinliyi və ifadə gözəlliyi duyulur. Onu insani zirvələrə yüksəldən, qəlbinin, ruhunun və əqidəsinin təmizliyidir. Yaradıcılığında təşəkkül tapmış bu keyfiyyətlər Tanrının ona bəxş etdiyi dəyərli nemətlərdir.

Yaradıcılıq tablosunda əlahiddə rənglərin dili, ilıq nəfəsi və məlhəm ruhu aydın duyulur.

Əsərlərinin ideya-estetik aspektləri bütöv və zəngindir. Hər biri bədii zövqün və idrak mənbəyinə təsir etmə gücündədir. Bu baxımdan demək olar ki, Mahirə xanım xoşbəxt ana, səmimi insan, gözəl alim və daim qəlbi çağlayan şairədir.

Milli kolorit onun əsərlərində olduqca güclüdür. Musiqilər, nəğmələr bəstələnmiş şeirlərinin hər biri dinləyicilərin qəlbində bir sərməstlik yaradır və şairəyə şöhrət qazandırır. Dilçi alimin bədii yaradıcılıqla əlaqəsi təbiidir. Bu baxımdan əsərləri oxunaqlı, düşüncələri isə aydındır.

Ciddi və fundamental dilçiliyin zəruri faktorları fikir texnologiyalarının, düşüncə zənginliyinin və bədii ifadə prosesində emosional-ekspressiv çalarların formalaşmasına, onun spesifik xüsusiyyətlərinin inkişafına əsaslı imkanlar yaradır.

Bu istiqamətdə dəyərli alimin gələcək elmi və yaradıcılıq fəaliyyətinə uğurlar diləyirik

**Problemin aktuallığı.** Müasir qloballaşma şəraitində milli-mənəvi dəyərlərin qorunması, ana dilinin elmi və bədii inkişafı, şəxsiyyət və ziyalılıq fenomeninin araşdırılması xüsusi aktuallıq kəsb edir. Elmi düşüncə ilə bədii təfəkkürün vəhdəti, dilçiliklə ədəbiyyatın qarşılıqlı əlaqəsi baxımından Mahirə Nağıqızının elmi və ədəbi-bədii irsinin tədqiqi filoloji elmlər üçün mühüm əhəmiyyət daşıyır. Onun yaradıcılığında milli ideya, ana dili strategiyası və şəxsiyyət konsepsiyasının elmi əsaslarla təqdim olunması tədqiqatın aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi Mahirə Nağıqızının elmi və bədii yaradıcılığının ilk dəfə olaraq vahid konseptual müstəvidə araşdırılmasındadır. Tədqiqatda onun dilçilik nəzəriyyələri ilə poetik ideya-estetik baxışları arasındakı üzvi əlaqə təhlil olunur və bu sintez filoloji elmlər üçün yeni elmi yanaşma kimi təqdim edilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri filologiya, dilçilik və ədəbiyyatşünaslıq fənlərinin tədrisində, eləcə də milli-mənəvi dəyərlərə yönəlmiş xüsusi kursların hazırlanmasında istifadə oluna bilər. Araşdırma materialları müəllimlər və gənc tədqiqatçılar üçün metodoloji əhəmiyyət kəsb edir və müasir Azərbaycan ziyalısının elmi-mədəni modelinin formalaşdırılmasına xidmət edir.

**S.A.Rəhimova**

**Yaradıcılıq ömrün rayihəsidir**
**Xülasə**

Professor Mahirə xanımın elmi, ictimai-siyasi və bədii yaradıcılığı yüksək fərdiliyi və geniş yaradıcılıq diapazonu ilə səciyyələnir. Heydər Əliyev irsinə həsr olunmuş əsərləri onun ictimai-siyasi və elmi problemlərə dərin, prinsipial və müstəqil yanaşmasını aydın şəkildə ortaya qoyur. Beynəlxalq səfərləri, xarici ölkələrdə çap olunan kitabları və müxtəlif elmi-ictimai mühitlərdə fəaliyyəti Azərbaycan alim və şairəsinin nüfuzunun göstəricisidir. Elmi qurumlarda və ədəbi təşkilatlarda tutduğu məsul vəzifələr ictimai fəaliyyətinin genişliyini və əhəmiyyətini təsdiqləyir. Dilçilik sahəsində apardığı fundamental tədqiqatlar elmə, xalqa və vətənə olan səmimi bağlılığının bariz ifadəsidir. Bədii yaradıcılığında ana, vətən, insan və mənəvi dəyərlər aparıcı ideya kimi ön plana çıxır. Şeirləri milli poeziya ənənələrinin layiqli davamı olmaqla yanaşı, fərdi üslubu və dərin duyumları ilə seçilir. Yaradıcılığında realizm, səmimiyyət və mənəvi saflıq əsas estetik xətt təşkil edir. Elmi və ədəbi-bədii düşüncəsində xalqın tarixi, bu günü və gələcəyi üzvi şəkildə vəhdət təşkil edir. Bütün bu keyfiyyətlər Professor Mahirə xanımı xoşbəxt alim, nüfuzlu ictimai xadim və qəlbi daim çağlayan şairə kimi səciyyələndirir.

**S.A.Rəhimova**

**Цветущая жизнь творчества**
**Резюме**

Научное, общественно-политическое и художественное творчество профессора Махиры ханым характеризуется высокой индивидуальностью и широким творческим диапазоном. Её труды, посвящённые наследию Гейдара Алиева, наглядно демонстрируют глубокий, принципиальный и самостоятельный подход к общественно-политическим и научным проблемам. Международные поездки, издание книг за рубежом и активная деятельность в различных научно-общественных кругах свидетельствуют о высоком авторитете азербайджанского учёного и поэтессы. Ответственные должности, занимаемые ею в научных учреждениях и литературных организациях, подтверждают масштаб и значимость её общественной деятельности. Фундаментальные исследования в области языкознания являются ярким выражением её искренней приверженности науке, народу и Родине. В её художественном творчестве ведущими идеями выступают образ матери, тема Родины, человека и духовных ценностей. Её поэзия, являясь достойным продолжением национальных поэтических традиций, отличается самобытным

стилем и глубиной чувств. Реализм, искренность и нравственная чистота составляют основную эстетическую линию её творчества. В научном и художественно-литературном мышлении органично сочетаются идеи истории народа, его настоящего и будущего. Все эти качества характеризуют профессора Махиру ханым как счастливого учёного, авторитетного общественного деятеля и поэтессу с постоянно вдохновлённым сердцем.

**S.A.Rahimova**

**The creativity that blossoms life**

**Summary**

The scientific, socio-political, and artistic work of Professor Mahira Huseynova is distinguished by a high level of individuality and a broad creative scope. Her works devoted to the legacy of Heydar Aliyev clearly demonstrate a deep, principled, and independent approach to socio-political and scholarly issues. Her international visits, the publication of her books abroad, and her active engagement in various academic and public circles testify to the high prestige of the Azerbaijani scholar and poetess. The responsible positions she holds in scientific institutions and literary organizations confirm the breadth and significance of her public activity. Her fundamental research in linguistics is a vivid expression of her sincere devotion to science, the people, and the homeland. In her artistic creativity, the themes of mother, homeland, humanity, and moral values occupy a central place. Her poetry, as a worthy continuation of national poetic traditions, is distinguished by its individual style and emotional depth. Realism, sincerity, and moral purity form the core aesthetic line of her creative work. In her scholarly and literary thinking, the ideas of the people’s history, present, and future are organically intertwined. All these qualities characterize Professor Mahira Khanum as a fulfilled scholar, a respected public figure, and a poetess whose heart is constantly inspired.

**Redaksiyaya daxil olub:** 12.12.2025

# PEDAQOJİ ELMLƏR
# ПЕДАГОГИЧЕСКИЕ НАУКИ
# PEDAGOGICAL SCIENCES

***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***
***ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ***
***GENERAL PROBLEMS of PEDAGOGY***

*UOT 37.01*

## AĞARƏHİM RƏHİMOVUN HEKAYƏLƏRİNİN PEDAQOJİ TƏSİR MEXANİZMLƏRİ VƏ MÜASİR TƏTBİQ İMKANLARI

**Reyhan Azadxan qızı Əhmədova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0002-1185-7520
**E-mail:** ahmedovareyhan270@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.02

***Açar sözlər:*** *hekayə, əsər, pedaqoji, dəyər, tətbiq, məktəb, təlim- tərbiyə*
***Ключевые слова:*** *рассказ, произведение, педагогический, ценность, применение, школа, обучение и воспитание*
***Key words:*** *story, literary work, pedagogical, value, application, school, education and upbringing*

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Ağarəhim Rəhimovun yaradıcılığı müasir təlim-tərbiyə prosesində xüsusi əhəmiyyət daşıyır. Onun hekayələri uşaqların dünyagörüşünün formalaşmasına, əxlaqi keyfiyyətlərin inkişafına və humanist dəyərlərin mənimsənilməsinə xidmət edir. Müəllif uşağın şəxsiyyətinə böyük hörmətlə yanaşır, onu ideoloji vasitə kimi deyil, müstəqil düşüncə və duyğu sahibi kimi təqdim edir.

Ağarəhim Rəhimovun əsərlərində pedaqoji təsir mexanizmləri əsasən müdrik nəsihət, müsbət qəhrəman nümunəsi və yaşanmış həyat situasiyalarının bədii inikası üzərindən qurulur. Hekayələrdə müəllif uşağı məcburi şəkildə tərbiyələndirmir, fikrini zorla qəbul etdirmir. Əksinə, hadisələr və qəhrəmanların davranışları vasitəsilə oxucuya öz nəticəsini çıxarmaq imkanı yaradılır. Bu, uşaqlarda tənqidi düşünmə, empatiya və məsuliyyət hissinin formalaşmasına kömək edir.

Hekayələrdə ailə, məktəb və sosial mühit mühüm tərbiyə məkanı kimi təqdim olunur. Müəllif valideyn-uşaq münasibətlərində qarşılıqlı etimad, sevgi və anlayışın vacibliyini vurğulayır. Bu baxımdan Rəhimovun hekayələri tərbiyənin kompleks və davamlı bir proses olduğunu göstərir. Onun ***"Üçlük", "Hədiyyə", "Toxuduğunu anlamayan", "Lətifin sevinci", "Fədakarlıq", "Qanlı dərə", "Anlaşmaq"*** və onlarla belə hekayələri buna əyani misaldır.

Ağarəhim Rəhimovun yaradıcılığı müasir pedaqoji yanaşmalarla da səsləşir. Bu əsərlər şəxsiyyətyönlü təlim, mənəvi dəyərlərin tədrisi, mühitə əsaslanan öyrənmə və humanist pedaqogika ilə birbaşa uyğunluq təşkil edir. Müasir məktəblərdə müəllifin hekayələrindən istifadə etmək uşaqlarda səmimiyyət, əməksevərlik, dürüstlük, yardımsevərlik kimi keyfiyyətləri inkişaf

etdirir və onların sosiallaşma prosesinə təbii dəstək verir.

Ağarəhim Rəhimovun uşaq hekayələrində həyat həqiqətləri olduğu kimi göstərilir. Hekayələrin bəzisi yazıçı təxəyyülünün məhsulu olsa da, bütün hadisələr həyatdan götürülmüş, yaşanmış, müşahidə edilmiş əhvalatlarla bağlıdır.. ***"Çaqqallar da ömrünü yaşayır"*** adlı hekayədə balaca Nicat məcburən cinayətə əl atır- mağazadan pul oğurlayır. Hekayənin əvvəlində onun müstəntiqlə dialoqu verilmişdir. Dialoq vasitəsilə oxucu Nicatın nə üçün oğurluq etdiyinin şahidi olur. Sonrakı mərhələdə isə onun və bacı qardaşlarının uşaq evinə düşdüyünün səbəbi ilə tanış olur. Ata-anasını qəzada itirən uşaqların evini, əmlakını əmisi ələ keçirib, özlərini isə uşaq evinə yerləşdirən əmi onları tamam unudur, qayğılarına qalmır. Uşaq evində təhqirlərə, əzab-əziyyətə məruz qalan uşaqlar oradan qaçıb, küçələrdə yaşayırlar. Baçı və qadaşına yemək almaq üçün Nicat oğurluq etmək məcburiyyətində qalır və polis tərəfindən tutulur. Lakin Nicat öz uşaq psixologiyasıyla anlayır ki, onların problemlərinin səbəbkarı əmidir. Müstəntiqin otağında o bütün həqiqətləri əmisinin üzünə cəsarətlə deyir. Əminin qeyri-humanist hərəkətlərini üzünə çırpır.

*Müstəntiq: "— Əmini qınama, oğlum. Onun vicdanı hələ də mürgü döyür. O belə tərbiyə alıb. Başı işə-gücə yox, çirkli pullara qarışıb. Hər cür cinayətə gedib. Əmin ol, o, cinayətlərinə cavab verəcək. Nicat, sən oğurluq eləsən də, səninki cinayət yox, mərhəmətdi". (4. s 54)*

*Müstəntiqin " Əminiz aparsa ,siz əminizlə gedərsinizmi?"* sualına isə Nicat:-- *"Dedim axı yox... Elə əmi, dayılardansa küçələrdə, parklarda yaşamaq, dilənçiliklə çörək qazanmaq yaxşıdır"* cavabını verir.

Bu hekayədə Ağarəhim mənliyini itirmiş, vicdanını pula satmış insanların iç üzünü açıb göstərmiş, hər zaman ədalətin, humanizmin qalib gələcəyinə inamını ifadə etmişdir.

Hekayələrdə müəllim-şagird münasibətləri, valideyn qayğısı, ailə dəyərləri reallığa uyğun şəkildə göstərilir. Onun əsərlərində Azərbaycan xalqının ənənələri, ailə bağları, böyüklərə hörmət və dostluq hissləri həyat həqiqətləri ilə vəhdətdə təsvir olunur. Yazıçı uşaqların yaş səviyyəsinə uyğun ifadələr seçilir, dialoqlar təbii qurulur. Müəllif həm real hadisələri, həm də bədii uydurma vasitəsilə uşaqların həyatını təsvir edir. Kiçik əşyalar, məişət səhnələri və təbiət təsvirləri obrazın psixologiyasını daha dərindən açmaq üçün istifadə olunur.

Təbii mənzərə və mühit təsvirləri – humanist ruh çox zaman təbiətin gözəllikləri ilə assosiasiya olunur. Məsələn, yazın gəlişi, çiçəklərin açması, quşların oxuması kimi detallar sevgi və mehribanlıq duyğularını gücləndirir. Ağarəhimin ***"Xınalı Xınalıq"*** adlı hekayəsində Qubanın Xınalıq kəndinə gedən Zeynəb qarının təbiətin şıltaqlığı ilə qarşılaşmasından söz açılır. Azərbaycan təbiətinin əsrarəngliyi təsvir olunur. Xınalıqda yağışın yağması, göy gurultusu, dağlardan gələn sel suları qarını həyəcanlandırır, qorxuya salır. Yağış kəsib, hər şey sakitləşəndə isə qarı öz-özünə deyir:

*"—Necə də sehirkardır mənim vətənim. Buludlar toqquşanda, dağlar-dərələr nərə çəkəndə, vəhşiləri cövlana gələndə...üzünü görmə. Gözəl təbiəti al qumaşa bürünəndə, iki göz lazımdır seyrinə dalasan. Min bir dərdin dərmanı bitkilərdən dərdlərə məlhəm qoyasan, əlvan çıçəklərin ətrindən ciyər dolusu nəfəs alasan"(4. s.109)*

Ağarəhimin ***"Kirpi insanların dostudur"*** adlı hekayəsində ilana qalib gələn kirpiyə Kamalın humanist münasibətindən, kirpinin insanlara dost olduğundan danışılır. Bu hekayədə insanın heyvanlara, xüsusilə, faydalı heyvanlara münasibəti canlandırılır. İnsanla bəzi heyvanların dost ola biləcəyi, şər qüvvələrə, zərərli və zəhərli varlıqlara qarşı birgə mübarizə aparmaq cəhdi

simvollaşdırılır.

Uşaq hekayələrində humanizm müəllifin ideya-məzmun istiqamətindəki əsas mövqeyidir. Müəllif hadisələri elə qurur ki, oxucu şüurunda mərhəmət, başqasına hörmət, zəifin müdafiəsi, dostluq və əməksevərlik dəyərləri təbii şəkildə formalaşsın. Ağarəhimin uşaq hekayələri adlandırdığı hekayələrdə çox vaxt uşaq obrazları olmur. Personajlar yalnız böyüklər, xüsusilə də Zeynəb qarı olur. Lakin bu hekayələri yazıçı nahaq yerə belə adlandırmayıb. Hər bir hekayədə gənc nəslə çatdırılacaq nəsə hikmətli sözlər və ibrətamiz hərəkətlər vardır.

*"Ağarəhimin çoxşaxəli yaradıcılığı tarixi-zaman kontekstindən kənara çıxmır. O, yaşadığı zamanın yazıçısıdır. Bu o demək deyildir ki, yazıb-yaratdıqları yalnız bu günlə məhdudlaşır. Əksinə, etiraf edək ki, onun əsərlərinin rişələri xalqın tarixindən, folklorundan, ən qədim ənənələrindən qidalanır. Böyük klassikadan boy götürür." (5. s.59)*

Uşaq əsərlərinin süjet xətti çox vaxt uşaqların gündəlik həyatı, məktəb mühiti, dostluq münasibətləri, ailə bağları üzərində qurulur. Hadisələrin inkişafı oxucunu nəticə etibarilə humanist bir qənaətə gətirir: yaxşılıq və mərhəmət qalib gəlir, kobudluq və biganəlik isə məğlub olur.

Humanizm ideyasının təsirli olması üçün dil sadə, emosional və uşaqların yaş səviyyəsinə uyğun seçilir. Yazıçılar dialoqlardan geniş istifadə edərək uşaqların duyğu və düşüncələrini daha canlı təsvir edirlər. Təsviri vasitələr – təbiət mənzərələri, oyuncaqlar, məişət detallarının seçimi – humanist məzmunu gücləndirir.

**Problemin aktuallığı.** Ağarəhim Rəhimovun hekayələri Azərbaycan uşaq ədəbiyyatının mühüm nümunələrindəndir və müasir təlim-tərbiyə prosesinin hədəfləri ilə bilavasitə səsləşir. Hazırda məktəb təlimində şagirdlərin mənəvi-estetik inkişafı, empatiya, əməksevərlik və sosial bacarıqların formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Rəhimovun əsərlərinin tədqiqi pedaqoji prosesdə humanist dəyərlərin tətbiqi yollarını müəyyənləşdirməyə imkan verir. Cəmiyyətin mənəvi dəyərlərə ehtiyac duyduğu bir dövrdə bu hekayələrin təlimdə rolu diqqət mərkəzinə çəkilməlidir. Rəhimovun hekayələri XXI əsrin pedaqoji mühitində şagirdlərin psixoloji inkişafına uyğun metodlarla yenidən dəyərləndirilməyə ehtiyac yaradır.

**Problemin elmi yeniliyi.** Tədqiqatda Ağarəhim Rəhimovun hekayələri pedaqoji təsir mexanizmləri baxımından sistemli şəkildə təhlil edilir. Hekayələrdə tərbiyəedici təsirin yalnız nəsihət xarakterli deyil, qəhrəman davranışı və situativ seçimin təqdimatı vasitəsilə formalaşdığı müəyyənləşdirilir. Bu araşdırmanın elmi yeniliyi Ağarəhim Rəhimovun hekayələrinin ilk dəfə olaraq pedaqoji təsir mexanizmləri baxımından sistemli şəkildə təhlil edilməsidir. Tədqiqat hekayələrdəki psixoloji motivlərin, mənəvi dəyərlərin və tərbiyəvi elementlərin strukturlaşdırılmış şəkildə təsnifatını təqdim edir. Bu yanaşma müəllifin yaradıcılığını yalnız ədəbiyyat kontekstində deyil, həm də pedaqoji model kimi öyrənməyə imkan verir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, müəllimlər Ağarəhim Rəhimovun hekayələrindən dərslərdə tərbiyəvi və psixoloji inkişaf məqsədləri üçün daha səmərəli istifadə edə bilərlər. Hekayələrdəki humanizm, əməksevərlik, mərhəmət və vətənpərvərlik kimi dəyərlər şagirdlərin şəxsiyyət tərbiyəsində real tətbiq imkanı yaradır. Tədqiqat müəllimlər üçün metodik tövsiyələrin hazırlanmasına əsas verir. Psixoloji təsir mexanizmlərinin izahı sinifdə fərdi yanaşmaların tətbiqini asanlaşdırır. Bu baxımdan iş ümumtəhsil məktəblərində ədəbiyyatın tərbiyəvi potensialının artırılmasına xidmət edir.

**Ədəbiyyat**

1. Rəhimov. A. N. Ana dili tədrisinin aktual problemləri. Bakı, 2000.
2. "Zamanın söz yaddaşı". Bakı, 2016.
3. Rəhimov. A. N. Uşaq hekayələri. Bakı, 2005.
4. Ağarəhim. Uşaq hekayələri. Bakı, 2017.
5. S.Rəhimova. Ağarəhim nəsrinin aspektləri. Bakı, 2021.
6. Əliyev. R. Azərbaycan uşaq ədəbiyyatı: tarixi və inkişaf perspektivləri. Bakı, 2010.
7. Məmmədov. F. Pedaqoji nəzəriyyə və praktikası. Bakı, 2012.
8. Həsənova. S. Azərbaycan dilinin tədris metodikası. Bakı, 2015.
9. Rəhimov. A. N. Ana dili tədrisinin aktual problemləri. Bakı, 2000.
10. Əliyev. R. Azərbaycan uşaq ədəbiyyatı: tarixi və inkişaf perspektivləri. Bakı, 2010.

**R.A.Əhmədova**

**Ağarəhim Rəhimovun hekayələrinin pedaqoji təsir mexanizmləri və müasir tədtbiq imkanları**
**Xülasə**

Məqalədə Azərbaycan uşaq ədəbiyyatının tanınmış nümayəndəsi Ağarəhim Rəhimovun hekayələrinin pedaqoji mahiyyəti və onların müasir təlim-tərbiyə prosesində tətbiq imkanları araşdırılır. Məqalədə qeyd olunur ki, Rəhimovun hekayələri müasir pedaqogikanın humanist yanaşmaları ilə səsləşir və məktəblərdə tənqidi düşünmə, empatiya, əməksevərlik və sosial davranış bacarıqlarının inkişafına xidmət edir. Bu baxımdan müəllifin əsərlərinin tədris prosesində istifadəsi həm dərslik, həm də dərsdənkənar oxu materialı kimi məqsədəuyğun hesab olunur.

**Р.А.Ахмедова**

**Педагогические механизмы воздействия рассказов Агарегима Рагимова и современные возможности их применения**
**Резюме**

В статье исследуется педагогическая сущность рассказов Агарегима Рагимова, известного представителя Азербайджанской детской литературы, а также возможности их применения в современном учебно-воспитательном процессе. В статье отмечается, что рассказы Рагимова созвучны гуманистическим подходам современной педагогики и способствуют развитию критического мышления, эмпатии, трудолюбия и социальных навыков поведения у школьников. В этом контексте использование произведений автора в учебном процессе считается целесообразным как в качестве учебного материала, так и в виде внеклассного чтения.

**R.A.Ahmadova**

**Pedagogical impact mechanisms of Agaragim Rahimov's stories and their modern application possibilities**

**Summary**

The article examines the pedagogical essence of the stories written by Agarahim Rahimov, a prominent representative of Azerbaijani children's literature, as well as their applicability in the modern teaching and upbringing process. The article emphasizes that Rahimov's works resonate with the humanistic approaches of contemporary pedagogy and contribute to the development of critical thinking, empathy, diligence, and social behavior skills in schoolchildren. From this perspective, the use of the author's stories in the educational process is considered

**Redaksiyaya daxil olub:** 24.11.2025

# DİN VƏ TƏHSİL MÜNASİBƏTLƏRİNDƏ QLOBAL FƏRQLİLİKLƏR: KOLLEKTİVİST VƏ FƏRDİYYƏTÇİ YANAŞMALAR

**Səbinə Ceyhun qızı Hacızadə**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCID:** 0009-0003-0476-2328
**E-mail**: sabinanasif@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.03

***Açar sözlər:*** *inanc, mənəvi inkişaf, əxlaq, erkən yeniyetməlik, din və təhsil, dini identiklik*
***Ключевые слова:*** *вера, духовное развитие, нравственность, религиозная идентичность, , ранний подростковый возраст, религия и образование*
***Key words:*** *faith, moral development, morality, early adolescence, religion and education, religious identity*

Qloballaşma dövründə cəmiyyətlərin sosial-mədəni strukturu sürətlə dəyişdikcə, təhsilin qarşısında duran əsas çağırışlardan biri yeniyetmələrin dəyər dünyasını formalaşdırmaq və onların sosial identikliyini möhkəmləndirməkdir. Bu prosesin mərkəzində duran ən mühüm amillərdən biri isə din və inanc sistemləridir. Din, yalnız ibadət forması və ya inanclar toplusu kimi deyil, həm də sosiallaşmanı, mənəvi normativləri və davranış yönümlərini formalaşdıran güclü psixoloji və mədəni mexanizm kimi çıxış edir. Məhz buna görə də din–təhsil əlaqəsi müasir sosial elmlərdə yenidən aktual mövzulardan birinə çevrilmişdir.

Bu tədqiqat 5–8-ci sinif şagirdlərini (10–14 yaş, erkən yeniyetməlik dövrü) əhatə edir ki, bu yaş mərhələsi həm uşaq, həm də yeniyetməlik xüsusiyyətlərini daşıdığı üçün mənəvi dəyərlərin formalaşdırılması baxımından strateji əhəmiyyətə malikdir. Erkən yeniyetməlikdə inanc amili mənəvi dəyərlərin möhkəmlənməsinə xidmət edərək həm riskli davranışların qarşısını ala, həm də gələcək emosional və sosial çətinlikləri azalda bilər.

Beynəlxalq tədqiqatlar göstərir ki, dini dəyərlər yeniyetmələrin əxlaq davranışları, mənəvi qərarvermə bacarıqları və sosial məsuliyyət hissi ilə sıx bağlıdır. Lakin bu təsirin səviyyəsi və xarakteri mədəni kontekstdən asılı olaraq dəyişir. Kollektivist cəmiyyətlərdə (məsələn, Cənubi Koreya, Türkiyə, Latın Amerikası) dini inanc daha çox icma nəzarəti, sosial bağlılıq və normativ qaydalar vasitəsilə əxlaqi-mənəvi davranışları təşviq edir. Fərdiyyətçi cəmiyyətlərdə (Amerika Birləşmiş Ştatları, Kanada, Böyük Britaniya) isə din fərdi mənəvi identikliyi, şəxsi dəyərləri və etik qərarverməni gücləndirir.

Ənənəvi yanaşmalar dini inancı yalnız "inanmaq–inamamaq" ikiliyində təhlil edirdisə, müasir tədqiqatlar dini identikliyi çoxölçülü fenomen kimi qiymətləndirir. Dini identiklik fərdi inanc, mənəvi dəyərlər, sosial normativlər və icma ilə əlaqəlilik kimi müxtəlif komponentlərin qarşılıqlı və dinamik təsirindən formalaşır [3, s.367–393]. Bu yanaşma erkən yeniyetməlik dövründə inancın təkcə şəxsi seçim deyil, həm də sosial-mədəni kontekstin məhsulu olduğunu göstərir.

Məhz bu kontekstdə həm kollektiv, həm də fərdiyyətçi cəmiyyətlərdə yeniyetmələrin dini-mənəvi inkişafı dörd əsas mühitin təsiri nəticəsində formalaşır.

| Ailə | Məktəb | Sosial çevrə | Virtual mühit |
|---|---|---|---|

Ailə erkən yaşlardan əxlaq və dini mənsubiyyət hissinin əsaslarını qoyur, məktəb isə bilik və analitik yanaşmanı dəstəkləyir [4, s.205-213]. Sosial mühit ictimai dəyərlərin mənimsənilməsinə təsir edir, rəqəmsal platformalar isə gənclərə geniş perspektivlər və fərqli inanc modelləri ilə tanış olmaq imkanı yaradır. Bütün bu mühitlər birlikdə yeniyetmələrin dini inanc və dünyagörüşünün formalaşmasında tamamlayıcı rol oynayır. Lakin bu mühitlərin rol və funksiyaları müxtəlif mədəniyyət modellərində fərqli ola bilər. Aşağıda qlobal nümunələr və onların təhlili təqdim olunur.

**Kollektivist cəmiyyətlərdə dini inancın formalaşma mexanizmləri**

*Cənubi Koreya.* Cənubi Koreyada din və təhsil rəsmi olaraq bir-birindən ayrı olsa da, gənclərin sosial və mənəvi inkişafında paralel şəkildə təsir göstərir [5, s.28]. Məktəblər Konfutsi mənşəli dəyərlər — nizam-intizam, hörmət və sosial harmoniya üzərində qurulan sekulyar davranış modeli təqdim edir. Dini icmalar isə (protestant, katolik və buddist qurumlar) yeniyetmələrə sosial məsuliyyət və icma iştirakını məktəbdənkənar fəaliyyətlərlə aşılayır. Beləliklə, rəsmi kurikulum dini məzmun daşımadığı halda, məktəb normativləri və dini icmaların qeyri-formal təsiri birgə şəkildə gənclərin etik və sosial dəyərlərinin formalaşmasına töhfə verir.

*Türkiyə.* Ölkədə rəsmi təhsil sistemi çərçivəsində məcburi Din Kültürü ve Ahlak Bilgisi (DKAB) fənni 4-cü sinifdən 12-ci sinifədək tədris olunur. DKAB dərsləri yalnız dini məlumat ötürmə ilə məhdudlaşmır, həm də şagirdlərin etik davranış, sosial məsuliyyət və empatiya bacarıqlarının inkişafına yönəlib; müzakirələr, praktiki nümunələr və tənqidi düşünmə fəaliyyəti dərsin əsas pedaqoji üsullarındandır. 2021-ci ildə aparılmış və 787 şagirdi əhatə edən araşdırma göstərmişdir ki, DKAB dərsi alan şagirdlərin mənəvi yetkinliyi daha yüksək, aqressivlik səviyyəsi isə daha aşağıdır, bu isə dərsin dini maarifləndirmə ilə yanaşı, əxlaqi inkişaf və psixososial sabitliyə də töhfə verdiyini göstərir [6, s.313-334]. Beləliklə, Türkiyədə DKAB dərsi əsas dini və əxlaqi formalaşma vasitəsi kimi çıxış edir, bu isə Cənubi Koreyada məktəb və dini icmaların paralel təsiri ilə fərqlilik təşkil edir.

**Fərdiyyətçi cəmiyyətlərdə dini inancın formalaşma mexanizmləri**

*Qərbi Avropa ölkələri.* Qərbi Avropa ölkələrində, məsələn, Almaniya, Hollandiya, İsveç və Fransa, dövlət məktəblərində dini təhsil əksər hallarda rəsmi kurikulumun mərkəzində deyil; bunun əvəzinə etika, fəlsəfə və dünya görüşü dərsləri şagirdlərin mənəvi və sosial bacarıqlarını inkişaf etdirməyə yönəlib. Dini dərslər yalnız valideynin seçiminə əsaslanaraq mövcuddur və müxtəlif dini cərəyanlara açıqdır [8, s.1-95]. Məsələn, Finlandiyada şagirdlər ailələrinin dini mənsubiyyətinə uyğun olaraq ya öz dinlərində, ya da etika dərslərində iştirak edirlər. Ölkə üzrə 2024-cü ildə ibtidai təhsil pilləsində 4,2 % şagird islam dini üzrə dərs seçmiş, 7–9-cu siniflərdə isə bu göstərici 3,3 % olmuşdur [8, s.20]. Hollandiya və İsveçdə isə dini təhsil daha çox özəl və ya dini icma məktəblərində mövcuddur, dövlət məktəblərində isə dini formalaşma tənqidi düşüncə və fərdi etik dəyərlərin inkişafı ilə birləşdirilir [9, s.28].

*Amerika Birləşmiş Ştatları (ABŞ).* Qərbi Avropa və ABŞ modelləri fərdi seçimin üstünlüyü baxımından oxşardır, lakin ABŞ-da dini məktəblər daha geniş yayılıb və sosial nəzarət fərqi mövcuddur. Ölkədə təxminən 25% məktəblər özəl kateqoriyadadır və bunların təxminən 66%-i dini təhsillə əlaqəlidir [10, s.47]. Bu məktəblər yeniyetmələrə yalnız akademik bilik deyil,

həm də dini bilik və etik dəyərlər əsasında formalaşmış təhsil təqdim edir. Add Health tədqiqatı göstərir ki, yeniyetmələrin ibadətə qatılması və dini qruplarda iştirak etməsi riskli davranışların azalmasına kömək edir [11, s.231-249]. King və Furrow araşdırması qeyd edir ki, dini orta məktəb təhsili alan gənclər məzuniyyətdən sonra da dini iştirak səviyyəsini yüksək saxlayır [12, s.703-713].

Nəticə etibarilə, kollektivist və fərdiyyətçi yanaşmaların hər ikisi özünəməxsus üstünlüklərə və məhdudiyyətlərə malikdir. Aşağıdaki cədvəldə üstünlüklər və risklər təqdim edilmişdir:

| Yanaşma | Üstünlüklər | Risklər / Məhdudiyyətlər |
|---|---|---|
| **Kollektivist** | ▪ İcma və sosial nəzarət vasitəsilə əxlaqi davranışların təşviqi<br>▪ Sosial bağlılıq və birgə məsuliyyət hissi<br>▪ Erkən yaşlardan mənəvi və sosial dəyərlərin möhkəmlənməsi | ▪ Fərdi seçim və şəxsi mənəvi inkişafın məhdudlaşması<br>▪ Tənqidi düşünmə və fərdiyyətçi qərarvermənin azalması |
| **Fərdiyyətçi** | ▪ Fərdi mənəvi identiklik və etik qərarvermənin inkişafı<br>▪ Müxtəlif dünyagörüşləri ilə tanışlıq və seçim azadlığı<br>▪ Tənqidi düşünmə və özünüifadə bacarıqlarının təşviqi | ▪ Sosial bağlılığın və icma dəstəyinin azalması<br>▪ Dini və mənəvi davranışlarda dəyişkənlik və qeyri-sabitlik riski |

***Azərbaycan üçün milli dini-mənəvi təhsil modeli.*** Qlobal trendlər göstərir ki, dini-mənəvi dəyərlərin təhsil mühitində tədris edilməməsi və ya yalnız ayrıca fənn kimi öyrədilməsi gənclərin sosial-mənəvi formalaşmasına tam təsir göstərmir. Çünki dəyərlər məhz gündəlik həyatın hissəsi kimi öyrədildikdə real davranışa çevrilir. Azərbaycan həm multikultural ənənələrə, həm də güclü dini-mənəvi irsə malikdir. Bunu nəzərə alaraq aşağıda həm fərdiyyətçi, həm də kollektivist dəyərlərin balansını qoruyan "Dörd Mühit – Bir Şagird" təhsil modeli təklif olunur.

Modelin əsas ideyalarından biri ***inancın məktəbdə ayrıca fənn kimi deyil, bütün fənlərə inteqrasiya olunması*****dır**. Bu modelin mərkəzində duran əsas prinsip budur: Dini-mənəvi anlayışlar ayrı, izolyasiya olunmuş fənn kimi yox, bütün dərslərin məzmununa yumşaq, təbii və elmi əsaslı şəkildə inteqrasiya edilir.

Fənlər üzrə məzmun inteqrasiyası: ***Ədəbiyyat:*** Azərbaycan və dünya ədəbiyyatından dini-mənəvi motivlər, etik dilemmanı əks etdirən hekayə və şeirlərin təhlili; ***Tarix fənni:*** Tarixi hadisələr və şəxsiyyətlər vasitəsilə dini dəyərlərin sosial rolunu göstərmək. Məsələn, xalq qəhrəmanlarının dini və mənəvi prinsiplərlə əlaqəsini təhlil etmək; ***Biologiya və təbiət elmləri*: *Təbiət və biologiya:*** Təbiətdəki nizam, harmoniya, təbiətə məsuliyyətli münasibət kimi mənəvi mövzuların şərh edilməsi; ***Riyaziyyat:*** Ədalətli bölgü, resursların ədalətli paylaşılması kimi anlayışların riyazi modellərlə izahı.

Bu model hər dərsi şagird üçün həm bilik, həm də dəyər axtarışına çevirir. Şagirdlərə "bu mövzu mənəvi və sosial baxımdan mənə nə öyrədir?" sualını düşünmə imkanı yaradacaq. ***Nəticədə şagirdlərdə dini biliklərlə elmi düşüncə arasında körpü qurmaq bacarığı formalaşacaq.***

Şagirdlərin mənəvi inkişafı yalnız məktəbdə həyata keçirilən fəaliyyətlərlə məhdudlaşmır;

bu proses ailə, məktəb, sosial çevrə və rəqəmsal-virtual mühitdən ibarət dördkomponentli sistemin qarşılıqlı təsiri nəticəsində formalaşır. Bu sistemin təməlini isə ailə təşkil edir. Lakin hazırda Azərbaycan təhsil mühitində şagirdlərin dərsə cəlb olunması, müəllimlərin ixtisasartırma və pedaqoji bacarıqlarının təkmilləşdirilməsi sahəsində müxtəlif təşəbbüslər olsa da, ***valideynlər üçün mənəvi tərbiyə, uşaq psixologiyası və dəyəryönümlü valideynlik bacarıqları üzrə sistemli təlim və maarifləndirmə proqramları məhdudluq*** təşkil edir. Bu boşluq ailə-məktəb əməkdaşlığının potensialını tam reallaşdırmağa mane olur və şagirdlərin dəyər dünyasının harmonik şəkildə formalaşmasını zəiflədir. Bu baxımdan ailələrin mənəvi tərbiyəyə cəlb olunması üçün metodik vəsaitlərin hazırlanması, valideynlər üçün seminarların təşkili, onlar üçün rəqəmsal platformalarda qısa video-resursların təqdim edilməsi, sosial və icma əsaslı fəaliyyətlərin gücləndirilməsi məqsədəuyğun hesab edilir.

Milli təlim-tərbiyə modelini və müasir dövrün tələblərini nəzərə alaraq, şagirdlər üçün Azərbaycan dilində rəqəmsal resursların hazırlanması da aktuallıq kəsb edir. Hazırda belə resurslar olduqca məhduddur. Bu boşluğu doldurmaq məqsədilə əxlaqi inkişafa xidmət edən interaktiv hekayələr, rəqəmsal oyunlar və motivasiyaedici missiyalar yer alan elektron təhsil resursları yaradıla bilər. Nəticə olaraq, rəqəmsal texnologiyalar təkcə əyləncə vasitəsi deyil, həm də uşaqlarda sağlam inanc və dəyərlərin formalaşmasına xidmət edən güclü tərbiyə alətlərinə çevrilə bilər.

Sosial çevrə üzrə təklif icma və məktəb əməkdaşlığı çərçivəsində **"Dəyəryönlü kitab müzakirə klubları"** yaradıla bilər. Bu klublar şagirdlərin sosial mühitdə bir araya gələrək ədəbiyyat və həyat hekayələri üzərində müzakirələr aparmasını, beləliklə empatiya, məsuliyyət, hörmət və kollektiv davranış kimi dəyərlərin təcrübədə möhkəmlənməsini təmin edəcək.

Nəticədə, "Dörd Mühit – Bir Şagird" modeli Azərbaycan üçün həm milli dəyərlərə söykənən, həm də qlobal tendensiyalarla uzlaşan universal və yenilikçi bir çərçivə təqdim edir. Bu modeldə: dini biliklər elmi və mənəvi çərçivədə, dəyərlər **praktik və gündəlik** kontekstdə, təhsil prosesi isə həm **fərdi**, həm də **ictimai** müstəvidə formalaşacaqdır. Beləliklə, 'Dörd Mühit – Bir Şagird' modeli gənclərin bilik və mənəvi dəyərlərini inteqrasiya edən, onların sosial və fərdi inkişafını balanslı şəkildə təmin edən sistemli və innovativ təhsil yanaşması kimi nəzərdən keçirilə bilər.

**Problemin aktuallığı.** Erkən yeniyetməlik dövrü dəyər və əxlaq sisteminin formalaşmasında həlledici mərhələdir. Qloballaşan və rəqəmsallaşan cəmiyyətdə inanc və təhsil münasibətlərinin bu dövrdə mənəvi inkişafa təsirinin araşdırılması elmi və pedaqoji baxımdan aktualdır.

**Problemin elmi yeniliyi.** Məqalədə dini inanc erkən yeniyetməlik dövründə ailə, məktəb, sosial və rəqəmsal mühitlərin qarşılıqlı təsiri ilə formalaşan çoxkomponentli psixoloji fenomen kimi əsaslandırılır. İlk dəfə olaraq Azərbaycan şəraitinə uyğun "Dörd Mühit – Bir Şagird" modeli elmi şəkildə təqdim olunur.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Tədqiqat nəticələri ümumtəhsil məktəblərində fənlərarası inteqrasiya, müəllim hazırlığı və valideyn maarifləndirilməsi proseslərində tətbiq oluna bilər. Təklif edilən model və rəqəmsal resurslar yeniyetmələrdə sağlam inanc, əxlaqi düşünmə və sosial məsuliyyətin formalaşdırılmasına praktik mexanizmlər təqdim edir.

**Ədəbiyyat**

1. Saroglou, V. Din və prososial davranış: Meta-təhlil. Personality and Social Psychology Review, 20(1), s.7–37., 2016.

2. Jonas, E., və digərləri. Religious Identity and Morality: Evidence for Religious Residue and Decay in Moral Foundations. Journal of Experimental Social Psychology. s.12, 2020.

3. Pearce, L. D., Hayward, G. M., & Pearlman, J. Measuring Five Dimensions of Religiosity across Adolescence. Review of Religious Research, 59(3), s.367–393, 2017.

4. Roehlkepartain, E. C., Benson, P. L., Scales, P. C., & Sesma, A., Jr. Spiritual development in childhood and adolescence: Toward a field of inquiry. Applied Developmental Science, s.205-213, 2011.

5. Jayhun Gu and Juhwan Kim. Religious Literacy in Contemporary South Korea: Challenges and Educational Approaches. 2025. s.28.

6. Kaynar, A. Y. M. F. The relationships among Religious Culture and Ethical Knowledge Education, religiosity, moral maturity and aggression: Din Kültürü ve Ahlak Bilgisi Eğitimi, dindarlık, ahlaki olgunluk ve saldırganlık arasındaki ilişkiler. Akdeniz Üniversitesi. s.313-334, 2021.

7. Journal of Posthumanism. Exploring *the role of moral intelligence in adolescents' psychological resilience (425 participants). Journal of Posthumanism*. s.700-719, 2025

8. European Academy of Religion and Society. *Education and religion in Europe* (EARS dossier). European Academy of Religion and Society. s.1-95, 2021.

9. Exalto, J., & Bertram-Troost, G. Strong religion in a secular society: The case of Orthodox Reformed schools in The Netherlands. Education Sciences, s. 28, 2019.

10. U.S. Department of Education, National Center for Education Statistics. Private School Data from the National Center for Education Statistics (2021–22 Private School Survey) s.47, 2023.

11. Harris, K. M., et al. Public and private domains of religiosity and adolescent health risk behaviors: Evidence from the National Longitudinal Study of Adolescent Health. Journal of Adolescence, 30(2), 231–249, 2009.

12. King, P. E., & Furrow, J. L. Religion as a resource for positive youth development: Religion, social capital, and moral outcomes. Developmental Psychology, 40(5), s.703–713, 2004.

**S.C.Hacızadə**

**Din və təhsil münasibətlərində qlobal fərqliliklər: kollektivist və fərdiyyətçi yanaşmalar**

**Xülasə**

Məqalədə erkən yeniyetməlik dövründə (10–14 yaş) din və təhsil münasibətlərinin mənəvi inkişafa təsiri kollektivist və fərdiyyətçi cəmiyyətlər kontekstində müqayisəli şəkildə təhlil olunur. Dini inanc ailə, məktəb, sosial və rəqəmsal mühitlərin qarşılıqlı təsiri nəticəsində formalaşan çoxölçülü psixoloji konsept kimi əsaslandırılır. Nəticə olaraq, Azərbaycan şəraitinə

uyğun fərdiyyətçi və kollektivist dəyərlərin balansını qoruyan “Dörd Mühit – Bir Şagird” modeli təklif edilir.

**С.Дж. Гажизаде**

**Глобальные различия во взаимоотношениях религии и образования: коллективистский и индивидуалистический подходы**
**Резюме**

В статье проводится сравнительный анализ влияния взаимодействия религии и образования на нравственное развитие в период раннего подросткового возраста (10–14 лет) в коллективистских и индивидуалистических обществах. Религиозная вера рассматривается как многомерный психологический конструкт, формирующийся во взаимодействии семейной, образовательной, социальной и цифровой среды. В результате предлагается модель «Четыре среды — один ученик», адаптированная к условиям Азербайджана и обеспечивающая баланс коллективистских и индивидуалистических ценностей.

**S.C. Hacızadə**

**Global differences in religion and education: collectivist and Individualist approaches**
**Summary**

The article comparatively examines the impact of the relationship between religion and education on moral development in early adolescence (ages 10–14) within collectivist and individualist societies. Religious faith is conceptualized as a multidimensional psychological construct shaped by the interaction of family, school, social, and digital environments. As a result, the “Four Environments – One Student” model adapted to the Azerbaijani context is proposed, balancing individualist and collectivist values.

**Redaksiyaya daxil olub:** 09.12.2025

*UOT 81-139*

# ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞI ƏSAS PEDAQOJİ PROBLEMİ KİMİ

**Fatimə Abil qızı Şükürova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0002-0506-6925
**E-mail:** fatimesukurova5@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.04

***Açar sözlər:*** *idrak fəallığı, təlim prosesi, pedaqoji problem, müəllim-şagird qarşılıqlı əlaqəsi, motivasiya, fəal öyrənmə, tənqidi təfəkkür*
***Ключевые слова:*** *познавательная активность, учебный процесс, педагогическая проблема, взаимодействие учителя и ученика, мотивация, активное обучение, критическое мышление*
***Key words:*** *cognitive activity, learning process, pedagogical problem, teacher-student interaction, motivation, active learning, critical thinking*

Şagirdin öyrənməyə marağı, təlim prosesinə aktiv münasibəti, müstəqil düşünmə və nəticə çıxarma bacarığı məhz bu fəallığın səviyyəsi ilə müəyyən olunur.

Şagirdlərdə öyrənməyə tələbatın formalaşdırılması təsadüfi proses deyil; bu, müəllimin pedaqoji ustalığından, onun şagirdlərə qarşı hörmət və tələbkarlığa əsaslanan münasibətindən, həmçinin seçdiyi təlim metod və üsullarının elmi əsaslarla tətbiqindən asılıdır. Müəllim yalnız bilik ötürən şəxs deyil, həm də şagirdin idrak marağını oyadan, onu düşünməyə və araşdırmağa sövq edən rəhbərdir. Bu məqsədlə müəllim hər bir şagirddə öz qüvvəsinə inam hissini aşılamalı, onların fərdi imkan və potensialına uyğun şərait yaratmalıdır.

Müasir pedaqoji nəzəriyyələrə görə, təlim prosesi ənənəvi, müəllim mərkəzli modeldən fərqli olaraq, şagirdyönlü və subyekt xarakterli olmalıdır. Yəni təlimdə şagird biliklərin passiv qəbulçusu deyil, fəal iştirakçısı və yaradıcısı kimi çıxış etməlidir

Təlim metodunun əsas spesifik xüsusiyyətləri aşağıdakılardır:

Təlimin subyekt xarakter daşıması. Bu, təlim prosesində həm müəllimin, həm də şagirdin fəal idrak subyekti kimi çıxış etməsini nəzərdə tutur.

Şagirdlərin fəal öyrənmə mövqeyi, təfəkkürün müstəqilliyi və sərbəstliyi. Şagirdlər təlim prosesində hazır bilikləri sadəcə mənimsəmir, onları müstəqil şəkildə kəşf edir və tətbiq edir (1).

Şagirdlər bütün dərs boyu fəallığı. Dərsin bütün mərhələlərində şagirdlərin diqqəti və marağı saxlanılmalı, onların öyrənmə fəaliyyətinə fasiləsiz cəlbi təmin edilməlidir.

Dərsin əvvəlində problemli situasiyanın yaradılması. Təlimin effektivliyi çox vaxt dərsin əvvəlində yaradılan problemli vəziyyətdən asılı olur. Problemin həlli istiqamətində aparılan fəaliyyət şagirdlərin təfəkkürünü fəallaşdırır və onları müstəqil nəticəyə gətirir.

Düşündürücü və istiqamətləndirici sualların tətbiqi. Belə suallar şagirdləri yeni bilikləri özləri üçün "kəşf etməyə" yönəldir və idrak prosesinin fəal iştirakçısına çevirir.

Təlimin tədqiqat üsulu ilə aparılması. Tədqiqatyönlü təlim şagirdlərdə analitik və yaradıcı düşünmə, müşahidə aparma, hipotez irəli sürmə və nəticə çıxarma bacarığını inkişaf etdirir.

Dərsin dialoq şəklində aparılması və əks əlaqənin yaradılması. Müəllim və şagird arasında

qarşılıqlı əlaqə və əməkdaşlıq şəraitində aparılan dialoq öyrənməni daha şüurlu və məqsədyönlü edir.

Əməkdaşlıq və qrupda qarşılıqlı fəaliyyət. Qrup işi zamanı şagirdlər bir-birinin fikrini dinləməyi, arqumentləşdirməyi və birgə nəticə çıxarmağı öyrənirlər. Bu, həm sosial bacarıqları, həm də ünsiyyət mədəniyyətini inkişaf etdirir.

Həyati məqsədlərə nail olmaq üçün biliklərin yaradıcı tətbiqi. Təlim yalnız nəzəri biliklərlə məhdudlaşmamalı, əldə olunan biliklərin real həyatda tətbiqi üçün şərait yaratmalıdır. Şagird öyrəndiyini praktik fəaliyyətə çevirməklə biliklərin dəyərini dərk edir

Beləliklə, müasir təlim metodunun əsas mahiyyəti şagirdin idrak fəallığını təmin etmək, onu öyrənmə prosesinin mərkəzinə çevirmək, təfəkkürün müstəqilliyini və yaradıcı yönümünü inkişaf etdirməkdir. Bu cür təlim həm elmi düşüncənin, həm də şəxsi inkişafın formalaşmasında mühüm rol oynayır və təhsilin keyfiyyətinin yüksəldilməsinin başlıca şərtidir.

Təlimin əsas üstünlüyü ondan ibarətdir ki, o, şagirdlərdə biliklərə yiyələnmək həvəsini, yəni öyrənməyə daxili motivasiyanı formalaşdırır. Öyrənməyə marağın yaranması idrak prosesinin təbii gedişi ilə, xüsusən də şagirdin təfəkküründə mövcud olan gerçək ziddiyyətlərin həlli ehtiyacı ilə sıx bağlıdır. Bu ziddiyyətlər — “bilməklə bilməmək”, “əvvəlki biliklə yeni məlumat” arasındakı fərq — təfəkkürün hərəkətverici qüvvəsi kimi çıxış edir. Şagird bu ziddiyyəti aradan qaldırmaq üçün düşünməyə, axtarış aparmağa və nəticə çıxarmağa təşəbbüs göstərir.

Real idrak ziddiyyətlərinin meydana gəlməsi emosional gərginlik yaradır, lakin bu gərginlik təlim prosesində mənfi deyil, əksinə, əqli ehtiyatların səfərbər olunmasına səbəb olur. Bu cür emosional vəziyyət şagirdin marağını artırır, idrak fəaliyyətini şövqləndirir, onun diqqətini uzun müddət cəmləməyə imkan yaradır. Beləliklə, emosional iştirak öyrənməni mexaniki deyil, mənəvi-intellektual prosesə çevirir.

Təlimin müasir konsepsiyasına görə biliklər şagirdə “hazır” şəkildə təqdim olunmamalıdır. Əsl öyrənmə prosesi yalnız o zaman səmərəli olur ki, şagird bilikləri müstəqil şəkildə kəşf etsin, onları fərdi fəaliyyət və təfəkkür əməliyyatları vasitəsilə mənimsəsin. Bu halda mənimsəmə prosesi passiv qəbul deyil, fəal axtarış xarakteri daşıyır.

Əgər şagird yeni bilikləri öz istəyi, marağı və fəaliyyəti nəticəsində kəşf edirsə, onda onun öyrənməyə münasibəti də dəyişir: o, dərsə yaradıcı yanaşır, tapşırıqları mənalı şəkildə yerinə yetirir, öyrəndiklərini dərin məzmunda mənimsəyir və uzun müddət yadda saxlayır. Belə şagirdlərdə öyrənilən biliklər yalnız nəzəri məlumat kimi qalmır, eyni zamanda praktik təfəkkürün, məntiqi düşüncənin və yaradıcılığın inkişafına xidmət edir. Bu proses təlimin keyfiyyətinə bilavasitə təsir göstərir. Şagirdlərin fəal idrak fəaliyyəti nəticəsində dərs prosesində passivliyin aradan qaldırılması, müstəqil düşünmənin formalaşması, yaradıcı qabiliyyətlərin inkişafı və təlim nəticələrinin dayanıqlılığı təmin olunur. Beləliklə, təlimin əsas üstünlüyü yalnız bilik verməkdə deyil, həm də öyrənməyə həvəs oyadaraq təfəkkürün aktivləşdirilməsində, yaradıcılığın və şəxsiyyətin intellektual potensialının formalaşdırılmasında özünü göstərir.

Mütəxəssislərin fikrincə, fəal təlimin əsas üstünlüyü ondan ibarətdir ki, bu yanaşma şagirdlərin idrak fəallığını artırır, onları müstəqil düşünməyə, axtarış aparmağa və qərar çıxarmağa istiqamətləndirir. Fəal təlim prosesində şagird yalnız informasiyanın passiv qəbulçusu kimi deyil, bilik yaradan və onu praktik fəaliyyətdə tətbiq edən aktiv subyekt kimi çıxış edir. Bu isə təlimin ənənəvi reproduktiv formasından fərqli olaraq, daha yüksək səviyyəli idrak fəaliyyətinin formalaşmasına şərait yaradır (2).

İdrak fəaliyyətinin fəallaşdırılması prosesində şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürü ardıcıl surətdə inkişaf edir. Məntiqi təfəkkürün formalaşması həyatın bütün sahələrində insana vacib olan bir bacarıqdır. Məntiq insanın düşünmə mədəniyyətini, analiz və sintez qabiliyyətini, səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək və əsaslandırmaq vərdişlərini gücləndirir. Təhsil prosesində məntiqi düşünmə bacarığının inkişafı şagirdlərin yalnız dərs materialını dərk etməsini deyil, eyni zamanda müstəqil fikir yürütmə, əsaslandırılmış qərar vermə və problemləri elmi baxımdan təhlil etmə qabiliyyətlərini də formalaşdırır.

Təlim prosesində təfəkkürün fəallaşdırılması həm də şagirdin intellektual potensialını genişləndirir. Təfəkkürün fəal fəaliyyəti nəticəsində öyrənilən biliklər daha dərindən mənimsənilir, onların mənası, səbəbləri və əlaqələri dərk olunur. Şagird bilikləri mexaniki şəkildə əzbərləmir, onları mənimsəyir, tətbiq edir və yeni biliklər yaratmaq üçün istifadə edir.

**Belə təlim mühiti aşağıdakı mühüm nəticələrin əldə edilməsinə şərait yaradır:**

**1. Biliklər müstəqil və sərbəst şəkildə qavranılır və mənimsənilir.** Şagirdlərin özlərinin axtarış yolu ilə əldə etdiyi biliklər daha dayanıqlı və mənalı olur.

**2. Məntiqi, tənqidi və yaradıcı təfəkkür formalaşır.** Şagird hadisələri müxtəlif baxış bucaqlarından dəyərləndirə, fərqli həll yolları təklif edə bilir.

**3. Problemlərin həlli və qərar qəbul etmə bacarıqları inkişaf edir.** Bu, XXI əsrin əsas həyati və peşəkar bacarıqları sırasında yer alır.

**4. Elmi-tədqiqat vərdişləri yaranır.** Şagird müşahidə aparmaq, nəticə çıxarmaq, arqumentlər irəli sürmək və faktları təhlil etmək kimi elmi fəaliyyət üsullarını mənimsəyir.

**5. Əməkdaşlıq və qarşılıqlı hörmət hissi formalaşır.** Fəal təlim qrup işi və müzakirələrə əsaslandığı üçün şagirdlər arasında ünsiyyət, fikir mübadiləsi və komanda bacarıqları inkişaf edir. (4)

Müasir təhsil sistemində şagirdlərin idrak fəallığının formalaşdırılması pedaqogikanın ən mühüm və aktual problemlərindən biridir. Cəmiyyətin inkişafı biliklərin mənimsənilməsi ilə yanaşı, onların yaradıcı şəkildə tətbiq olunmasını da tələb edir. Bu baxımdan, idrak fəallığı — şagirdin təlim prosesində bilik əldə etməyə, araşdırmağa, müstəqil düşünməyə və problemləri həll etməyə yönəlmiş daxili motivasiyasını ifadə edən əsas psixoloji-pedaqoji kateqoriyadır

**Problemin aktuallığı.** Mövzunun aktuallığı həm də ondan ibarətdir ki, təlimin məzmununun yeniləşməsi, kompetensiyaya əsaslanan tədris yanaşmalarının tətbiqi və innovativ pedaqoji texnologiyaların genişlənməsi şəraitində şagirdin fəal subyektə çevrilməsi zərurəti ön plana çıxır. Müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi, təlimdə əməkdaşlıq və tənqidi təfəkkürün inkişafı idrak fəallığının formalaşması üçün mühüm şərtlər kimi qiymətləndirilir.

Bu problemin öyrənilməsi təhsil sistemində şəxsiyyətyönlü yanaşmanın reallaşdırılmasına, şagirdlərin yaradıcı potensialının üzə çıxarılmasına və onların sosial adaptasiyasına xidmət edir. Buna görə də "şagirdlərin idrak fəallığının mahiyyəti əsas pedaqoji problem kimi" mövzusu müasir pedaqoji elmin nəzəri və praktik aspektlərində böyük elmi-praqmatik əhəmiyyət daşıyır.

**Problemin elmi yeniliyi.** Məqalədə şagirdlərin idrak fəallığı anlayışı müasir pedaqoji baxışlar əsasında yenidən nəzərdən keçirilmiş, onun formalaşma mexanizmləri və motivasiya amilləri müəyyən edilmişdir. İdrak fəallığının inkişafında müəllim-şagird əməkdaşlığının və interaktiv təlim metodlarının rolu elmi əsaslarla təhlil olunmuşdur. Bu tədqiqat idrak fəallığının artırılması istiqamətində yeni pedaqoji yanaşmaların tətbiqini təklif etməklə fərqlənir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin nəticələri ümumtəhsil məktəblərində təlim prosesinin səmərəliliyini artırmaq, şagirdlərin idrak fəallığını stimullaşdırmaq və onların müstəqil düşünmə bacarıqlarını inkişaf etdirmək üçün praktik əhəmiyyət daşıyır. Tədqiqatda irəli sürülən təkliflər müəllimlər üçün metodik vəsaitlərin hazırlanmasında, interaktiv dərs modellərinin qurulmasında və motivasiyaedici təlim mühitinin yaradılmasında tətbiq oluna bilər. Nəticələr pedaqoji kadrların hazırlanması və ixtisasartırma prosesində də istifadə üçün faydalıdır

**Ədəbiyyat**

1. Əhmədov, A. Pedaqogika: nəzəriyyə və təcrübə. Bakı: Təhsil Nəşriyyatı, 2019, 432 s.
2. Əliyeva, S. Müasir təlim prosesində idrak fəallığının inkişafı. Bakı: Elm və təhsil, 2022, 286 s.
3. Məmmədova, S. Müasir təlim texnologiyaları. Gəncə: Elm və Təhsil, 2021.
4. Əliyev, M. Pedaqoji prosesdə müəllim-şagird münasibətləri. Azərbaycan Müəllim Jurnalı, 2020, (2), 45-52.
5. Bruner, J. S. The Culture of Education. Cambridge, MA: Harvard University Press, 1996, 224 p.

**F.A.Şükürova**

**Şagirdlərin idrak fəallığı əsas pedaqoji problemi kimi**
**Xülasə**

Tələbələrin idrak fəallığı müasir təlim prosesinin əsas pedaqoji problemlərindən biridir. Bu anlayış yalnız biliklərin mənimsənilməsi ilə deyil, həm də onların fəal şəkildə tətbiqi, transformasiyası və yeni biliklərin yaradılması ilə xarakterizə olunur. İdrak fəallığı müəllim və tələbə arasında qarşılıqlı əməkdaşlıq, həmçinin motivasiyanın, tənqidi və yaradıcı təfəkkürün inkişafı vasitəsilə formalaşır.

Müasir təhsil tələbələrin passiv dinləyici deyil, təlim prosesinin fəal iştirakçıları olmasını zəruri edir. Buna görə də idrak fəallığının inkişafı təlimin səmərəliliyinin artırılmasına, müstəqil düşüncənin formalaşmasına və biliklərə davamlı marağın güclənməsinə xidmət edən əsas pedaqoji vəzifə hesab olunur.

**Ф.А.Шюкюрова**

**Сущность познавательной деятельности учащихся как основная педагогическая проблема**
**Резюме**

В современном образовательном процессе повышение познавательной активности учащихся имеет важное значение для развития их способности усваивать, анализировать и применять знания. Исследование показывает, что мотивация, индивидуальные типы обучения, интерактивные и проблемно-ориентированные методы обучения, а также подходы, стимулирующие творческое и критическое мышление, обеспечивают активное

участие учащихся в учебном процессе. Использование ИКТ и рефлексивной деятельности позволяет учащимся самостоятельно контролировать свои познавательные процессы.

Полученные результаты формируют практические рекомендации для учителей, создают возможности для применения стратегий, повышающих активность на уроке, и способствуют улучшению качества обучения. Таким образом, развитие интеллектуального и творческого потенциала учащихся, повышение учебных достижений и укрепление интереса к обучению являются основными практическими результатами данной темы.

**F.A.Shukyurova**

**The essence of students' cognitive activity as the main pedagogical problem**
**Summary**

Students’ cognitive activity is one of the main pedagogical problems of the modern educational process. This phenomenon is characterized not only by the acquisition of knowledge but also by its active application, transformation, and creation of new knowledge. Cognitive activity develops through the interaction between teacher and student, as well as through the enhancement of motivation, critical, and creative thinking. Modern education requires students to be not passive listeners but active participants in the learning process. Therefore, the development of cognitive activity is considered a key pedagogical task that contributes to improving learning efficiency, fostering independent thinking, and strengthening a sustainable interest in knowledge.

**Redaksiyaya daxil olub:** 15.12.2025

***TƏLİM TEXNOLOGİYALARI***
***ТЕХНОЛОГИЯ ОБУЧЕНИЯ***
***TEACHİNG TEXNOLOGY***

*UOT 376.1*

# NEYROTƏHSİL YANAŞMALARI VASİTƏSİLƏ HİPERAKTİV UŞAQLARDA ÖYRƏNMƏ NƏTİCƏLƏRİNİN ARTIRILMASI

**Gülər Qismət qızı Nuriyeva**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**ORCID:** 0009-0001-3926-480X
**E-mail:** gulernuri871@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.05

***Açar sözlər:*** *neyrotəhsil, beyin, hiperaktivlik, öyrənmə, öyrənmə strategiyaları, emosional nəzarət, yaddaş*

***Ключевые слова:*** *нейрообразование, мозг, гиперактивность, обучение, стратегии обучения, эмоциональный контроль, память*

***Key words:*** *neuroeducation, brain, hyperactivity, learning, learning strategies, emotional control, memory*

Müasir təhsildə öyrənmə səmərəliliyi ilə şagirdlərin fərdi xüsusiyyətləri arasında sıx əlaqənin getdikcə daha çox tanınması müşahidə olunur. Bunların arasında hiperaktiv uşaqların öyrənmə təcrübəsi üçün unikal çətinliklər və imkanlar təqdim edir. Çox vaxt eyni bir sinif üçün hazırlanmış ənənəvi tədris metodları, diqqəti qorumaq, emosiyaları tənzimləmək və özünə nəzarət etməkdə çətinlik çəkə biləcək hiperaktiv şagirdlərin ehtiyaclarını ödəmək üçün çox vaxt yetərli olmur. Bu çətinliklər neyrobioloji proseslərdə dərin kök salmışdır və öyrənmə və davranışın əsasını təşkil edən beyin mexanizmlərini nəzərə alan yanaşmaların tətbiqini vacib edir.

Neyroelm, psixologiya və pedaqogikadakı irəliləyişləri birləşdirən fənlərarası bir sahə olan neyrotəhsil bu qruplar üçün öyrənmə nəticələrini yaxşılaşdırmaq üçün bir çərçivə təklif edir. Beynin məlumatları necə emal etməsi, emosiyaları necə tənzimləməsi və diqqəti necə idarə etməsi haqqında bilikləri inteqrasiya etməklə müəllimlər inkişafa uyğun və fərdiləşdirilmiş proqramlar hazırlaya bilərlər. Neyrotəhsil yanaşmaları aktiv iştirakı, çoxsensorlu öyrənməni və strukturlaşdırılmış mühiti vurğulayır ki, bunlar hiperaktiv uşaqlarda idrak funksiyasını və davranış tənzimləməsini yaxşılaşdırdığı göstərilmişdir.

Son tədqiqatlar göstərir ki, sensor məşqlər, vizual və kinestetik məşqlər, tədricən diqqəti dəyişdirmə tapşırıqları və emosional əks etdirmə texnikaları da daxil olmaqla neyropedaqoji əsaslı strategiyalar özünütənzimləmə bacarıqlarını əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Bu strategiyalar təkcə akademik nailiyyətləri təşviq etməklə yanaşı, həm də sosial-emosional inkişafı, dayanıqlığı və təlim prosesində iştirakı təşviq edir. Bundan əlavə, neyropedaqoji yanaş-

maların tətbiqi müəllimlərə əks etdirici təcrübələrdən istifadə etməyə, tədris metodlarını uyğunlaşdırmağa və müxtəlif şagird profillərinə uyğun inklüziv təhsil mühitləri yaratmağa imkan verir.

Öyrənmə baxımından beyin funksiyası sahəsində ən çox diqqəti çəkən maraq sahələri koqnitiv məlumatların emalı (qavrayış, yaddaş və diqqətin neyrofizioloji mexanizmləri), koqnitiv və yaradıcı problemlərin həlli, eləcə də koqnitiv fəaliyyətin idarə olunması və nəzarəti ilə əlaqəli proseslərdir. Təlim informasiya ilə işləməyin optimal yollarını tapmağa yönəlmişdir. İnformasiya və zehni yüklənmə qarşısında, yeni elektron təlim resurslarının daim ortaya çıxması ilə insanlar informasiya axınlarını emal etməyə məcbur olurlar. Yeni məlumatları anlamaq, mənimsəmək və çıxarmaq qabiliyyəti uğurlu öyrənməni təmin edən vacib bir zehni bacarıq halına gəlir. Aydındır ki, bu bacarıq neyrofizioloji mexanizmlərə və beynin idrak fəaliyyətinin struktur və funksional təşkili qanunlarına əsaslanaraq inkişaf etdirilərsə, öyrənmə məqsədlərinə daha effektiv şəkildə nail olmaq mümkündür.

Neyrologiya tədqiqatlarının nəticələri təlim prosesini optimallaşdırmaq və öyrənmənin effektivliyini artırmaq üçün istifadə edilə bilər. Beyin yüksək səviyyədə neyroplastiklik nümayiş etdirir: neyronlar regenerasiyaya qadirdir (neyrogenez adlanan proses) (2) və beyin strukturları daxil olan məlumatların təsiri altında daim yenidən qurulur. Bu proseslər həyatın ilk illərində ən sürətlə baş verir, lakin həyatın sonrakı dövrlərində davam edir. Nəticə etibarilə, qazanılan hər hansı bir təcrübə gələcək öyrənmənin metodlarını və nəticələrini müəyyən edən neyron dövrələrinin formalaşmasına kömək edir. Neyronların regenerasiyası öyrənməni və yaddaşı yaxşılaşdırır, fiziki məşq isə neyrogenezini stimullaşdırır. Hərəkət və məşq beyindən əldə edilən neyrotrofik amil adlanan həyati bir maddənin (insanlarda BDNF geni tərəfindən kodlanan bir protein) istehsalını artırır. Bu protein, neyrotrofindir, neyron inkişafını stimullaşdıran və dəstəkləyən bir maddədir. Mövcud neyronların yaşamasını təşviq edir və uzunmüddətli yaddaş üçün vacib olan yenilərinin böyüməsini stimullaşdırır. Bundan əlavə, hərəkət və məşq əhval-ruhiyyəni yaxşılaşdırır və idrak emalını gücləndirir (3).

Beynin eyni vaxtda birdən çox vəzifəni yerinə yetirə bilməsi fikri şübhə altındadır. Səhvən çoxtapşırıqlılıq adlandırılan şey əslində alternativ tapşırıqların yerinə yetirilməsidir. Beyin müəyyən bir vaxt ərzində bir tapşırığa diqqət yetirir, diqqətini bir tapşırıqdan digərinə keçirir və sonra birinci tapşırığa qayıdır. Lakin, hər bir keçid artan zehni gərginlik mənbəyidir və potensial olaraq əvvəlki tapşırıq haqqında işçi yaddaşdakı məlumatların itirilməsi təhlükəsi yaradır. Nəticə etibarilə, insan iki tapşırığı bir tapşırıqdan daha pis yerinə yetirir (4). Təlimdə eyni anda bir neçə problemi həll etmək adi haldır. Müxtəlif təlim strategiyalarından istifadə şagirdlərin təlim prosesində iştirakını qorumağa kömək edir. Hiperaktiv uşaqlarda diqqətin zəif olması səbəbindən bu uşaqlar təlimdə eyni anda bir neçə tapşırığı həll etməkdə çətinlik çəkirlər. Hiperaktiv uşaqlar üçün effektiv taktika, yalnız ilk tapşırıq yerinə yetirildikdən (və müvafiq material öyrənildikdən) sonra bir fəaliyyətdən digərinə keçməkdir.

İşçi yaddaşın limitləri haqqında anlayışımız yeni məlumatlarla yenilənmişdir. Onun tutumu (eyni anda saxlaya biləcəyi elementlərin sayı) izaholunmaz şəkildə yeddi ilə beş element arasında azalır. Buna görə də, əsas dəst 7±2 deyil, 5-dir. Bunu nəzərə alaraq, müəllimlər hər dərsdə daha az element təqdim etməli və şagirdlərin onları öyrənməsi (yadda saxlaması) ehtimalını artırmaq üçün onları daha ətraflı müzakirə etməlidirlər.

Dairəvi ritmlər gündüzdən gecəyə dəyişmə ilə əlaqəli müxtəlif bioloji proseslərin intensivliyindəki tsiklik dalğalanmalardır. Bu gün onların diqqəti cəmləmək qabiliyyətinə necə təsir etdiyi daha yaxşı başa düşülür. Xüsusilə, günortadan sonra diqqəti cəmləmək qabiliyyətinin təbii olaraq 45-30 dəqiqə azaldığı müəyyən edilmişdir. Buna uyğun olaraq, çətin material müxtəlif vaxt dövrlərində dəyişdirilməlidir. Bundan əlavə, adekvat yuxu işçi yaddaşa əhəmiyyətli dərəcədə təsir göstərir (5). Uzunmüddətli yuxu çatışmazlığı (bir çox şagird, xüsusən də orta məktəbdə yuxusuzluq hissi ilə məktəbə gəlir) stressə səbəb olur ki, bu da qanda kortizol hormonunun səviyyəsinin yüksəlməsi ilə müşayiət olunur. Yüksək kortizol səviyyəsi diqqəti cəmləmək qabiliyyətini azaldır və yaddaşı zəiflədir.

Xarici dil öyrənmək insanın ana dilini öyrənməsini asanlaşdırır. Eyni zamanda iki dili öyrənmək şagirdlərə onların quruluşunu daha dərindən anlamağa kömək edir. Yeni bir dil öyrənməyə mümkün qədər tez başlamaq vacibdir.

Oxu prosesində iştirak edən neyron şəbəkələrinin xəritələşdirilməsi göstərmişdir ki, yüksək inkişaf etmiş oxu bacarıqlarına malik insanlar mürəkkəb neyron şəbəkəsinə malikdirlər və oxu zamanı müxtəlif neyron yollarından istifadə edirlər. Oxumaqda çətinlik çəkən insanlar üçün bu belə deyil (4). Bu məlumatlara əsasən, oxumağı öyrənməkdə çətinlik çəkən kiçikyaşlı uşaqlara kömək etmək üçün elmi cəhətdən sübut olunmuş FastForWord və Earobics proqramları hazırlanmışdır.

Emosiyalar hiperaktiv uşaqlarda öyrənmənin məhsuldarlığına və yaddaşa əhəmiyyətli dərəcədə təsir göstərir. Çünki emosiyalar diqqət sistemlərini aktivləşdirirlər. Təlim kurslarının məzmunu emosiyaları oyadan fəaliyyətlərlə müşayiət olunursa, təlim materialı daha yaxşı yadda qalır.

Təhsildə nevrologiya sahəsində aparılan bəzi tədqiqatların qısa icmalı belə, bu tədqiqatların nəticələrinin təlim prosesində istifadə edilə biləcəyini göstərir. Onların tətbiqi və təsdiqlənməsi müəllimlərin, psixoloqların və neyrofizioloqların əməkdaşlığını tələb edir. Belə bir fənlərarası yanaşma öyrənmənin hər mərhələsini daha effektiv edə bilər.

Nevrologiya məlumatları təlim məlumatlarının mənimsənilməsi üçün psixoloji təməl rolunu oynayan ümumi idrak qabiliyyətləri ilə əlaqəli öyrənmə aspektini optimallaşdıra bilər. Ənənəvi olaraq bunlara qavrayış, diqqət, düşüncə və yaddaş daxildir. Hər bir qabiliyyət təlim prosesində müəyyən bir rol oynayır və hər biri məlumat axınının öyrənən üçün fərdi məna kəsb edən biliyə çevrilməsini təmin edir (1). Təhsildə metakoqnitiv qabiliyyətlərin rolunu planlaşdırma, məqsəd qoyma, icra, monitorinq və öyrənmə tapşırıqlarının qiymətləndirilməsindən məsul olan universal öyrənmə fəaliyyətləri oynayır.

Beynin funksional sistemlərinin strukturu, onların qarşılıqlı təsirləri və inkişaf/təkmilləşdirmə mexanizmləri öyrənmədə iştirak edən idrak və metakoqnitiv proseslərin məhsuldar aktivləşməsini təmin edir. Onların köməyi ilə beynin daxil olan məlumatlarla işləmə üsullarını, onun biliyə çevrilməsini izah etmək, insanın davranışını və idrakını idarə etmək proseslərini, yaradıcı mexanizmləri və çətin və ya problemli tapşırıqlarla işləyərkən qərar qəbuletmə nümunələrini aşkar etmək mümkündür.

**Problemin aktuallığı.** Müasir təhsildə hiperaktivlik getdikcə öyrənmə nəticələrinə təsir edən əhəmiyyətli amillər kimi tanınır. Hiperaktiv uşaqlar çox vaxt diqqəti qorumaq, emosiyaları tənzimləmək və davranışı idarə etməkdə çətinlik çəkirlər ki, bu da akademik irəliləyiş və sosial

inkişafa mane ola bilər. Ənənəvi tədris metodları çox vaxt bu spesifik ehtiyacları ödəyə bilmir və bu da öyrənmənin əsasını təşkil edən neyrobioloji mexanizmləri nəzərə alan yanaşmalara ehtiyac olduğunu vurğulayır. Neyrotəhsil yanaşmaların tətbiqi xüsusilə aktualdır, çünki bu, müəllimlərə diqqəti, özünütənzimləməni və emosional nəzarəti təşviq edən strategiyalar hazırlamağa imkan verir və bununla da həm fərdi öyrənmə nəticələrini, həm də təhsilin ümumi keyfiyyətini yaxşılaşdırır.

**Problemin elmi yeniliyi.** Bu tədqiqatın elmi yeniliyi, hiperaktiv uşaqlarda öyrənmə nəticələrinin artırılmasına neyropedaqoji yanaşmaların inteqrasiyasındadır. Əvvəlki tədqiqatlar hiperaktiv uşaqlara müdaxilələrin psixoloji və pedaqoji baxımdan araşdırsa da, az sayda tədqiqatçı nevrologiyanı praktik sinif tədris metodları ilə sistematik şəkildə birləşdirmişdir. Bu yanaşma beyinə əsaslanan müdaxilələrin diqqətə, icra funksiyalarına və öyrənmə motivasiyasına necə birbaşa təsir edə biləcəyini anlamaq üçün yeni bir çərçivə təklif edir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Bu tədqiqat hiperaktiv uşaqlar üçün təlim nəticələrini yaxşılaşdırmaq üçün neyropedaqoji prinsiplərin tətbiqini araşdırır. Praktik strategiyaları və nəzəri əsasları araşdırmaqla, bu tədqiqat müəllimlərə diqqəti, emosional tənzimləməni və özünənəzarəti inkişaf etdirmək üçün sübutlara əsaslanan vasitələr təqdim etməyi hədəfləyir və nəticədə daha effektiv, inklüziv və beyinə həssas təhsil təcrübələrinə gətirib çıxarır.

## Ədəbiyyat

1. Abbasov A. Təhsil sisteminin idarə olunmasının pedaqoji-psixoloji problemləri. Bakı: Mütərcim, 2011, 338 s.

2. Deng W., Aimone J. B., Gage F. H. New neurons and new memories: How does adult neurocampal neurogenesis affect learning and memory? Nature Reviews Neuroscience. 2010. Vol. 11, No. 5. pp. 339–350.

3. Ratey J. Spark: The revolutionary new science of exercise and the brain. New York: Little, Brown, 2008. 304 p.

4. Sousa D. A. Mind, Brain, and Education: The Impact of Educational Neuroscience on the Science of Teaching. LEARNing Landscapes. 2011. Vol. 5, No. 1. pp. 37–43.

5. Wilhelm I., Diekelmann S., Molzow I. et al. Sleep selectively enhances memory expected to be of future relevance. The Journal of Neuroscience. 2011. Vol. 31. pp. 1563–1569.

**G.Q.Nuriyeva**

### Neyrotəhsil yanaşmaları vasitəsilə hiperaktiv uşaqlarda öyrənmə nəticələrinin artırılması
### Xülasə

Neyrotəhsil prinsipləri aktiv iştirakı, çoxsensor öyrənməni və strukturlaşdırılmış mühiti vurğulayır ki, bunlar hiperaktiv uşaqlarda idrak funksiyasını və davranış tənzimlənməsini yaxşılaşdırdığı göstərilmişdir. Son tədqiqatlar göstərir ki, sensor təlimi, vizual və kinestetik təlim, tədricən diqqət dəyişdirmə tapşırıqları və emosional əks etdirmə texnikaları da daxil olmaqla neyrotəhsil strategiyaları özünütənzimləmə bacarıqlarını əhəmiyyətli dərəcədə yaxşılaşdıra

bilər. Bu strategiyalar təkcə akademik nailiyyətləri təşviq etmir, həm də sosial-emosional inkişafı, dayanıqlığı və öyrənmə prosesində iştirakı təşviq edir. Bundan əlavə, neyrotəhsil prinsiplərinin tətbiqi müəllimlərə refleksiv təcrübələrdən istifadə etməyə, tədris metodlarını uyğunlaşdırmağa və müxtəlif mənşəli şagirdlər üçün uyğun inklüziv təhsil mühitləri yaratmağa imkan verir.

**Г.Г.Нуриева**

**Улучшение результатов обучения у гиперактивных детей с помощью нейрообразовательных принципов**

**Резюме**

Принципы нейрообразование делают акцент на активном участии, мультисенсорном обучении и структурированной среде, которые, как было показано, улучшают когнитивные функции и регуляцию поведения у гиперактивных детей. Недавние исследования показывают, что нейропедагогические стратегии, включая сенсорную тренировку, визуальную и кинестетическую тренировку, задания с постепенным переключением внимания и методы эмоциональной рефлексии, могут значительно улучшить навыки саморегуляции. Эти стратегии не только способствуют академической успеваемости, но и способствуют социально-эмоциональному развитию, устойчивости и вовлеченности в учебный процесс. Кроме того, применение принципов нейропедагогики позволяет учителям использовать рефлексивные практики, адаптировать методы обучения и создавать инклюзивную образовательную среду, подходящую для учащихся с разными профилями.

**G.G.Nuriyeva**

**Improving learning outcomes in hyperactive children through neuroeducational approaches**

**Summary**

Neuropedagogical principles emphasize active participation, multisensory learning, and a structured environment, which have been shown to improve cognitive functioning and behavior regulation in hyperactive children. Recent research shows that neuropedagogical strategies, including sensory training, visual and kinesthetic training, gradual attention-shifting tasks, and emotional reflection techniques, can significantly improve self-regulation skills. These strategies not only promote academic achievement but also foster social-emotional development, resilience, and engagement in the learning process. Furthermore, applying neuropedagogical principles allows teachers to utilize reflective practices, adapt teaching methods, and create inclusive educational environments suitable for students with diverse backgrounds.

**Redaksiyaya daxil olub:** 24.11.2025

*UOT 37.*

# AĞARƏHİM RƏHİMOVUN BƏDİİ YARADICILIĞINDA TƏRBİYƏVİ MİSSİYA

**Reyhan Qəhrəman qızı Rüstəmova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0008-3968-8451
**E-mail:** rüstemovareyhan18@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.06

***Açar sözlər:*** *Ağarəhim Rəhimov, mənəvi dəyərlər, pedaqoji ideya, missiya, yaradıcılıq*
***Ключевые слова:*** *Агарахим Рагимов, моральные ценности, педагогическая идея, миссия, креативность*
***Key words:*** *Agharahim Rahimov, moral values, pedagogical idea, mission,creativity*

Azərbaycan ədəbiyyatı tarix boyu tərbiyəvi ideyaların formalaşmasında və insan mənəviyyatının saflaşdırılmasında mühüm rol oynamışdır. Hər bir dövrün yazıçı və şairləri öz bədii söz gücü ilə xalqın mənəvi dəyərlər sisteminə təsir göstərmişdir. Bu baxımdan Ağarəhim Rəhimovun bədii yaradıcılığı da xüsusi diqqətə layiqdir. O, ideyalarını, ruhunu, ağlını əsərlərinə verməklə Azərbaycan qızlarını, Azərbaycan övladlarını tərbiyə edir-mənəviyyat və əxlaqı, tərbiyəni, ədalət və həqiqət problemini önə çəkib bədii həllini verir. H. Cavid demişkən "mənəviyyat və əxlaq,ədalət və həqiqət-bu milli dəyərləri qorumaq vicdani borcumuzdur". [1, s.9].

Ağarəhim Rəhimovun yaradıcılığına xas olan başlıca xüsusiyyətlərdən biri onun bədii düşüncəsində tərbiyə və mənəviyyat məsələlərinin yer tutmasıdır. O, yaradıcılığında tərbiyənin yalnız ailə və məktəb mühitində deyil, cəmiyyətin mənəvi mühitində formalaşdığını göstərir. Müəllif üçün əsas qayə insanın daxilindəki işığı qorumaq, onu tərbiyə və mənəvi inkişafla parlatmaqdir. Ədibin yaradıcılığında milli dəyərlərin qorunması, əxlaqi prinsiplərin ucaldılması, gənclərin vətənpərvərlik ruhunda böyüməsi, sosial məsuliyyət və humanizm ideyaları aparıcı xətdir. Əxlaqi katalizmə qarşı mübarizə idealı yeni insan tərbiyəsi idealı ilə birləşərək yazıçının əsərlərinə dərin bir ümumiləşdirmə sosial məzmun, fəlsəfi vüsət gətirmişdi. Yazıçının əsərlərindən olan "Səfalət romanı" üç dilənçinin həyat portretinin oxucuya tədqiqi ilə başlayır. Xeyransanın və Məlahatin dilənçi həyatı mənəvi, Dilbərin bu yola düşməsi isə sosial-siyasi əxlaqın pozulmasının nəticəsi kimi dərk olunur. Mənəvi, sosial və siyasi əxlaqın pozulması isə, ümumiyyətlə cəmiyyət həyatının pozulması deməkdir. O, hesab edir ki, nümunəsiz mənəviyyat və əxlaq yoxdur. Onun təbliğatının, nüfuzedici tərbiyəsinin mahiyyətində Allah eşqi, Allah dərki dayanır. Bu ideal, mütləq ruhdan sonra ata-ana; müəllim-tərbiyəçi nümunəsini təqdir edir, gəncliyi bu nümunəyə, bu böyüklüyə və ehtirama çağırır. Belə böyüklükdə Vətən, vətəndaş, cəmiyyət, torpaq, əxlaq, mənəviyyat, ədalət və həqiqət böyüklüyü vardir. A. Rəhimovun əsərlərində süjet bir çox realistlərin yaradıcılığında oldugu kimi ikixətlidir. Romanlarındakı ikinci süjet xətti müəllifin əxlaqi idealı ilə bağlıdır. Birinci süjet xəttində gerçəkliyə tənqidi münasibətini ifadə edən yazıçı ikinci süjetdə öz əxlaqi idealından süzülüb gələn "yeni bir dünyanın" bədii təsvirini verir və onu "gerçək dünya"ya qarşı qoyur. Həmçinin onun əsərlərində ailə tərbiyəsi, valideyn nümunəsi, milli-mənəvi dəyərlərə sədaqət ideyaları da geniş əksini tapmışdır. Əsərlərində uşaqlığın saflığı, gəncliyin enerjisi və yaşlı nəslin müdrikliyi bir bütöv sistem kimi

təqdim edilir. Ağarəhim Rəhimov içi dolu, fikri və düşüncəsi azad, amalı və məsləki saf olan bir yazar, həyatını bütünlüklə gənc nəslin inkişafı və təlim-tərbiyəsinə həsr edən bir pedaqoqdur. Onun insanlarda görmək istədiyi, ədalət, xeyirxahlıq, mənəvi saflıq, ruhun gözəlliyi, ləyaqət, şərəf, insanın özünə hörmət hissinin olmasıdır. Yazıçı arzuladıqlarını, insanlarda görmək istədiklərini, cəmiyyətdə bəzən tapa bilmədiklərini bədii əsərlərində, yaratdığı obrazların mahiyyətində verir. Bir insanın əxlaqı onun ən qiymətli pasportudur". Bu fikirlə o, mənəvi kamilliyi insanın şəxsiyyət göstəricisi kimi dəyərləndirirdi. Onun bədii yaradıcılığı oxucunu vicdanlı, mərhəmətli və vətənə bağlı olmağa səsləyir.

Ağarəhim Rəhimovun bədii dünyasında tərbiyəvi missiya aşağıdakı istiqamətlərdə təzahür edir:

1. Mənəvi-əxlaqi tərbiyə – insanın vicdan, dürüstlük və ədalət hisslərinin tərbiyəsi.

2 .Vətənpərvərlik tərbiyəsi – doğma torpağa, xalqına və onun dəyərlərinə sədaqət hissinin aşılanması.

3. Ailə və ictimai tərbiyə – insanın ailədə və cəmiyyətdə davranış prinsiplərinin düzgün qurulması.

4. Əmək tərbiyəsi – zəhmətkeş insanın obrazı vasitəsilə əməyin ucalığı və zəhmətsevərliyin təbliği.

Bədii yaradıcılıq insanın mənəvi dünyasının formalaşmasında mühüm rol oynayır. Klassik Azərbaycan ədəbiyyatı bu missiyanın təməlini qoymuşdur. Nizami Gəncəvi əsərlərində insanın əxlaqi və mənəvi keyfiyyətlərinin inkişafı, dostluq və sevgi kimi dəyərlər vasitəsilə oxucuların tərbiyəsi ön plana çıxır. Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri isə sosial ədalətsizlik və mənəvi boşluq mövzularını əks etdirərək oxucunu etik və əxlaqi dəyərlər üzərində düşünməyə təşviq edir. Bu ənənə müasir dövrdə də davam edir. Azərbaycan ədəbiyyatında mənəvi və əxlaqi təbliğatın tarixi və funksiyalarını araşdıraraq bu məsələnin əhəmiyyətini vurğulayır.

Yazıçının obrazları əsasən sadə, xalq ruhlu, əxlaqı və vicdanı təmiz insanlardır. Bu qəhrəmanlar vasitəsilə müəllif oxucuya mənəvi nümunə təqdim edir. Onun əsərlərində aşağıdakı tərbiyəvi ideyalar aparıcıdır:

- Doğruluq və vicdan — Yazıçı üçün insanın mənəvi dəyəri onun vicdanının gücü ilə ölçülür. Əsərlərində yalan, riyakarlıq və satqınlıq qəti şəkildə pislənir.
- Ədalət və mərhəmət — Rəhimovun qəhrəmanları ədalətli davranışı ilə seçilir, onlar başqasının dərdinə biganə qalmır, kömək etməyə çalışırlar.
- Əməksevərlik və təvazökarlıq — O, zəhmətkeş insanın həyatını yüksək bədii dildə təsvir edərək göstərir ki, zəhmət tərbiyənin və kamilliyin əsas yoludur.
- Milli-mənəvi dəyərlərə sədaqət — Yazıçı əsərlərində xalq adət-ənənələrini, milli kimliyi və dil sevgisini qorumağın tərbiyəvi rolunu xüsusi vurğulayır.

Dünya ədəbiyyatı da bədii əsərlərin tərbiyəvi rolunu təsdiqləyir. Dostoyevski insan psixologiyası və əxlaqi seçimlərin təhlili vasitəsilə oxucunun mənəvi inkişafına yönəlmişdir. Tolstoyun "Anna Karenina" əsərində isə ailə, cəmiyyət və mənəvi dəyərlərin önəmi əks olunur. Aristotelin "Poetika" əsəri isə bədii əsərlərin katharsis vasitəsilə insan ruhuna və əxlaqına təsirini izah edir.

**Problemin aktuallığı.** Müasir dövrdə cəmiyyətin sosial-mənəvi inkişafı, insanın mənəvi

dünyasının zənginləşdirilməsi və əxlaqi dəyərlərin qorunub saxlanılması məsələsi mühüm aktuallıq kəsb edir. Qloballaşma proseslərinin təsiri altında gənc nəslin milli-mənəvi dəyərlərdən uzaqlaşması, informasiya axınının güclənməsi və yad mədəniyyətlərin təsirinin artması şəraitində tərbiyəvi istiqamətli bədii əsərlərin rolu daha da ön plana çıxır. Bu baxımdan Ağarəhim Rəhimovun bədii əsərlərindəki tərbiyəvi missiya gənclərin düzgün istiqamətdə formalaşmasına xidmət edir.

**Problemin elmi yeniliyi.** Bu mövzunun elmi yeniliyi ondan ibarətdir ki, müəllifin əsərləri ilk dəfə olaraq sistemli şəkildə mənəvi-əxlaqi və tərbiyəvi aspektdə təhlil olunur, onun bədii düşüncəsində şəxsiyyətin formalaşması, mənəvi kamillik, vicdan, vətənpərvərlik, humanizm və ailə dəyərləri kimi anlayışların bədii ifadəsi müəyyənləşdirilir. Elmi yenilik həm də ondan ibarətdir ki, Ağarəhim Rəhimovun əsərlərindəki tərbiyəvi missiya ilk dəfə olaraq müasir dövrün mənəvi böhranları və gənc nəslin dəyərlər sistemi kontekstində təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, Ağarəhim Rəhimovun bədii irsi əsasında ədəbiyyatın tərbiyəvi funksiyasını həyata keçirməyə yönəlmiş metodik materiallar hazırlanması mümkündür. Bu da müəllim, tərbiyəçi və elmi-pedaqoji kadrlar üçün yeni tətbiqi imkanlar açır və Azərbaycan ədəbiyyatının mənəvi tərbiyəvi potensialının praktik səviyyədə dəyərləndirilməsinə xidmət edir.

## Ədəbiyyat

1. Rəhimov A. Əsərlər. Bakı: BQU nəşriyyatı, 2013, 500 s.
2. Əliyev İ. Azərbaycan ədəbiyyatında pedaqoji ideyalar. Bakı, 2015.
3. Cəbiyev Q. İki sahil. Baki, 2018 .
4. Heydərzadə Z. Azərbaycan yazıçılarının yaradıcılığında insan tərbiyəsi ideyası. Bakı: Azərnəşr, 2017.
5. Məmmədli S. Ədəbiyyat və tərbiyə. Bakı, 2019.

**R.Q.Rüstəmova**

## Ağarəhim Rəhimovun bədii yaradıcılığında tərbiyəvi missiya
## Xülasə

Ağarəhim Rəhimovun bədii yaradıcılığında tərbiyəvi missiya, mənəvi-əxlaqi dəyərlərin bədii obrazlar vasitəsilə ifadəsi və bu yaradıcılığın gənc nəslin formalaşmasında rolu təhlil edilir. Müəllifin əsərlərində insanın mənəvi kamilliyə doğru inkişafı, vicdan, ədalət, mərhəmət, vətənpərvərlik, ailə dəyərləri və insani münasibətlər kimi anlayışların tərbiyəvi aspektdən təqdimatı əsas yer tutur. Rəhimovun yaradıcılığı ədəbiyyatın tərbiyəvi funksiyasını dərin fəlsəfi məzmunla birləşdirir. Onun əsərlərində insanın mənəvi saflığı, xeyir və şər mübarizəsi, cəmiyyət qarşısında məsuliyyət kimi mövzular təkcə estetik deyil, həm də pedaqoji baxımdan dəyər kəsb edir. Məqalənin nəticələri göstərir ki, Rəhimovun bədii əsərləri həm tədris prosesində, həm də gənclərin mənəvi tərbiyəsində praktik tətbiq imkanlarına malikdir. Bu əsərlərdən ədəbiyyat dərslərində, mənəviyyat və etik dəyərlər üzrə tədris materiallarında istifadə etmək gənclərin şəxsiyyətinin formalaşmasına müsbət təsir göstərə bilər.

**Р.Г.Рустамова**

**Воспитательная миссия в художественном творчестве Агарэхима Рагимова**
**Резюме**

В данной статье рассматривается воспитательная миссия в художественном творчестве Агарагима Рагимова, выражение морально-нравственных ценностей через художественные образы и их роль в формировании молодого поколения. В центре внимания автора находятся понятия нравственного совершенства, совести, справедливости, милосердия, патриотизма, семейных ценностей и человеческих отношений Творчество Рагимова объединяет воспитательную функцию литературы с глубоким философским содержанием. Его произведения отражают борьбу добра и зла, нравственную чистоту и ответственность человека перед обществом не только с эстетической, но и с педагогической точки зрения. Результаты исследования показывают, что произведения Рагимова могут быть использованы в образовательном процессе и в деле нравственного воспитания молодежи. Применение его произведений на уроках литературы и в курсах этического воспитания способствует формированию личности и духовному развитию учащихся.

**R.G.Rustamova**

**The educecational mission in the artistic creativity of Agharahim Rahimov**
**Summary**

This article analyzes the educational mission in the artistic creativity of Agharahim Rahimov, focusing on the reflection of moral and ethical values through artistic imagery and their role in shaping the younger generation. The study emphasizes the author’s depiction of moral perfection, conscience, justice, mercy, patriotism, family values, and human relationships from an educational perspective. Rahimov’s works combine the educational function of literature with profound philosophical meaning. The analysis shows that his writings reveal the struggle between good and evil, moral purity, and human responsibility not only as aesthetic ideas but also as pedagogical principles. The results of the article show that Rahimov’s works have practical applications in education and moral upbringing. They can be effectively used in literature classes and moral education programs to enhance the moral and personal development of students.

**Redaksiyaya daxil olub:** 09.12.2025

# TƏLİM NƏTİCƏLƏRİNİN ÖLÇÜLMƏSİNDƏ İNNOVATİV QİYMƏTLƏNDİRMƏ MODELLƏRİNİN ROLU

*UOT 37.01.*

**Günay Akif qızı Seyidova**
*Azərbaycan Dillər Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0009-0004-1198-417X
**E-mail:** pedaqoq.sg@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.07

***Açar sözlər:*** *təlim nəticələri, innovativ qiymətləndirmə, akademik nailiyyətlər, kompetensiya, təhsilin keyfiyyəti*
***Ключевые слова:*** *результаты обучения, инновационная оценка, академические достижения, компетенция, качество образования*
***Key words:*** *learning outcomes, innovative assessment, academic achievement, competence, quality of education*

Müasir təhsil sistemində təlim nəticələrinin obyektiv və etibarlı şəkildə ölçülməsi tədris prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Ənənəvi qiymətləndirmə üsulları əsasən biliklərin yadda saxlanılması və reproduktiv səviyyədə yoxlanılması ilə məhdudlaşdığı halda, innovativ qiymətləndirmə modelləri öyrənənlərin kompetensiyalarının, bacarıqlarının və yaradıcı potensialının aşkarlanmasına yönəlmişdir. Məqalədə təlim nəticələrinin ölçülməsində innovativ qiymətləndirmə modellərinin rolu, onların pedaqoji üstünlükləri və tətbiq imkanları elmi-nəzəri baxımdan təhlil olunur. Qloballaşma, rəqəmsallaşma və bilik iqtisadiyyatının inkişafı təhsil sistemində qiymətləndirməyə yanaşmaların yenidən nəzərdən keçirilməsini zəruri etmişdir. Təlim nəticələrinin ölçülməsi artıq yalnız əldə edilən biliklərin qiymətləndirilməsi ilə kifayətlənmir, eyni zamanda öyrənənlərin analitik düşünmə, problem həll etmə, kommunikasiya və əməkdaşlıq bacarıqlarının müəyyənləşdirilməsini də əhatə edir. Bu baxımdan innovativ qiymətləndirmə modelləri təlim prosesinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

**Təlim nəticələrinin ölçülməsinin pedaqoji mahiyyəti:**

Təlim nəticələrinin ölçülməsi tədris prosesinin səmərəliliyini və keyfiyyətini müəyyənləşdirən əsas pedaqoji mexanizmlərdən biri hesab olunur. Bu proses təhsil məqsədlərinin hansı səviyyədə reallaşdırıldığını, öyrənənlərin nəzərdə tutulan bilik, bacarıq və kompetensiyalara nə dərəcədə yiyələndiyini aşkara çıxarmağa xidmət edir. Təlim nəticələrinin ölçülməsi vasitəsilə müəllim tədris fəaliyyətinin güclü və zəif tərəflərini müəyyənləşdirir, istifadə olunan təlim metodlarının effektivliyini təhlil edir və təlim prosesinin təkmilləşdirilməsi üçün əsaslandırılmış qərarlar qəbul edə bilir. Pedaqoji baxımdan qiymətləndirmə yalnız nəzarət və ölçmə funksiyası daşımır, eyni zamanda öyrədici, istiqamətləndirici və inkişafetdirici xarakterə malikdir. Müasir pedaqogikada qiymətləndirmə təlim prosesinin ayrılmaz tərkib hissəsi kimi qəbul olunur və öyrənmənin planlaşdırılması, icrası və nəticələrinin təhlili mərhələlərini əhatə edir. Bu kontekstdə qiymətləndirmə müəllimə təlim strategiyalarını çevik şəkildə tənzimləməyə, öyrənənlərin fərdi ehtiyaclarını və öyrənmə tempini nəzərə almağa, təlimdə fərdiləşdirməni və diferen-

siasiyanı təmin etməyə imkan yaradır. Ənənəvi qiymətləndirmə yanaşmalarında əsas diqqət təlim prosesinin sonunda əldə olunan nəticələrin ölçülməsinə yönəldilmişdir. Bu yanaşma öyrənənlərin inkişaf dinamikasını və öyrənmə prosesində qarşılaşdıqları çətinlikləri vaxtında müəyyənləşdirməyə kifayət qədər imkan vermir. Müasir pedaqoji yanaşmalarda isə qiymətləndirmə prosesyönümlü xarakter daşıyır və öyrənənlərin təlim müddətindəki irəliləyişlərinin davamlı şəkildə izlənilməsini nəzərdə tutur. Prosesyönlü qiymətləndirmə öyrənənlərin öz fəaliyyətlərinə refleksiya etməsini, məsuliyyət hissinin formalaşmasını və özünütənzimləmə bacarıqlarının inkişafını stimullaşdırır.

**İnnovativ qiymətləndirmə modellərinin mahiyyəti:**

İnnovativ qiymətləndirmə modelləri müasir təlim prosesində alternativ və çevik yanaşmaların tətbiqinə əsaslanaraq öyrənənlərin bilik, bacarıq və səriştələrin kompleks şəkildə qiymətləndirilməsini təmin edir. Bu modellər ənənəvi qiymətləndirmə üsullarından fərqli olaraq yalnız yekun nəticələrin ölçülməsi ilə kifayətlənmir, eyni zamanda öyrənənlərin təlim prosesində göstərdikləri inkişaf dinamikasını, fəallıq səviyyəsini və təlim fəaliyyətinə cəlb olunma dərəcəsini nəzərə alır. Belə yanaşma qiymətləndirməni təlimin ayrılmaz tərkib hissəsinə çevirir və öyrənməni stimullaşdıran, inkişafyönlü mexanizm kimi çıxış etməsinə şərait yaradır. İnnovativ qiymətləndirmə modellərinə aşağıdakılar daxildir:

— Formativ və Portfolio əsaslı qiymətləndirmə,
— Təqdimat və layihə əsaslı qiymətləndirmə,
— Özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə,
— Rəqəmsal və onlayn qiymətləndirmə vasitələri.

İnnovativ qiymətləndirmə modellərinin əsas növlərindən biri formativ qiymətləndirmədir. Formativ qiymətləndirmə təlim prosesinin gedişində həyata keçirilir və öyrənənlərin mövcud bilik və bacarıq səviyyəsini müəyyənləşdirməklə yanaşı, onların zəif və güclü tərəflərinin aşkar edilməsinə xidmət edir. Bu model geribildirim vasitəsilə öyrənənlərin təlim fəaliyyətini istiqamətləndirir, müəllimə isə təlim strategiyalarını operativ şəkildə tənzimləmək imkanı yaradır. Portfolio əsaslı qiymətləndirmə öyrənənlərin müəyyən müddət ərzində yerinə yetirdikləri tapşırıqların, layihələrin, reflektiv qeydlərin və digər təlim məhsullarının sistemli şəkildə toplanmasına əsaslanır. Bu yanaşma öyrənənlərin bilik və bacarıqlarının inkişaf mərhələlərini izləməyə, onların fərdi irəliləyişini və öyrənmə prosesinə münasibətini dəyərləndirməyə imkan verir. Təqdimat və layihə əsaslı qiymətləndirmə real həyat situasiyalarına yaxın tapşırıqlar vasitəsilə öyrənənlərin bilik və bacarıqlarını praktik mühitdə tətbiq etmək qabiliyyətini ölçməyə yönəlmişdir. Bu model öyrənənlərin problem həll etmə, əməkdaşlıq, kommunikasiya və yaradıcı düşünmə bacarıqlarının inkişafını stimullaşdırır. İnnovativ qiymətləndirmə modelləri çərçivəsində özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə də mühüm yer tutur. Bu yanaşmalar öyrənənlərin öz fəaliyyətlərinə tənqidi yanaşmalarını, nailiyyətlərini və inkişaf ehtiyaclarını dərk etmələrini təmin edir. Müasir dövrdə rəqəmsal və onlayn qiymətləndirmə alətləri innovativ qiymətləndirmə modellərinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Elektron testlər, interaktiv tapşırıqlar, öyrənmə analitikası və onlayn geribildirim mexanizmləri qiymətləndirmənin operativliyini və şəffaflığını artırır.

**İnnovativ qiymətləndirmə modellərinin təlim nəticələrinə təsiri:**

İnnovativ qiymətləndirmə modellərinin təlim prosesinə inteqrasiyası təlim nəticələrinin keyfiyyətinin yüksəldilməsində mühüm amil kimi çıxış edir. Bu modellər öyrənənlərin təlimə

marağını və daxili motivasiyasını artırmaqla yanaşı, onların öyrənmə prosesində fəal və məsuliyyətli iştirakını təmin edir. Ənənəvi qiymətləndirmə yanaşmalarından fərqli olaraq, innovativ modellər öyrənənlərin yalnız yekun nəticələrini deyil, həm də öyrənmə prosesində göstərdikləri irəliləyişi, səyləri və fərdi inkişaf dinamikasını nəzərə alır. Bu isə təlim nəticələrinin daha obyektiv və əhatəli şəkildə ölçülməsinə imkan yaradır. İnnovativ qiymətləndirmə modelləri öyrənənlərin öz güclü və zəif tərəflərini dərk etməsinə şərait yaradır və onların təlim fəaliyyətinə reflektiv yanaşmalarını gücləndirir. Özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə kimi yanaşmalar öyrənənlərdə özünütəhlil, məsuliyyət və müstəqil qərarvermə bacarıqlarının formalaşmasına təkan verir. Nəticədə öyrənənlər əldə etdikləri bilik və bacarıqları qiymətləndirməyi, gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməyi və öyrənmə strategiyalarını təkmilləşdirməyi öyrənirlər. Bu proses reflektiv düşünmənin və özünütənzimləmə bacarıqlarının inkişafında mühüm rol oynayır.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində sürətli texnoloji və sosial dəyişikliklər öyrənənlərin bilik, bacarıqların dəqiq və kompleks şəkildə ölçülməsini tələb edir. Ənənəvi qiymətləndirmə üsulları yalnız biliklərin reproduktiv səviyyədə yoxlanılması ilə məhdudlaşır və öyrənənlərin praktiki bacarıqlarını və yaradıcı potensialını əhatə etmir. Bu səbəbdən innovativ qiymətləndirmə modellərinin tətbiqi müasir pedaqogikanın aktual problemlərindən birinə çevrilmişdir. İnnovativ yanaşmalar öyrənənlərin fərdi inkişafını izləmək, təlim prosesini daha effektiv idarə etmək və təhsil keyfiyyətini artırmaq imkanları yaradır. Beləliklə, təlim nəticələrinin ölçülməsində müasir metodların tətbiqi təhsil sisteminin dəyişən tələblərinə uyğunlaşmaq baxımından böyük əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi təlim nəticələrinin ölçülməsində formativ, portfolio və performans əsaslı qiymətləndirmə modellərinin kompleks şəkildə təhlil edilməsidir. Məqalədə həmçinin özünüqiymətləndirmə, qarşılıqlı qiymətləndirmə və rəqəmsal qiymətləndirmə alətlərinin pedaqoji roluna xüsusi diqqət yetirilir. Rəqəmsal texnologiyaların qiymətləndirmə prosesinə inteqrasiyasının tədqiqi elmi baxımdan yeni yanaşma kimi təqdim olunur. Bu yanaşmalar öyrənənlərin bilik və bacarıqlarının real vaxt rejimində izlənməsini və təlim prosesinin fərdiləşdirilməsini təmin edir. Nəticədə tədqiqat müasir pedaqoji praktikada qiymətləndirmənin səmərəliliyini artırmaq üçün elmi əsaslı tövsiyələr təqdim edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Araşdırmanın nəticələri müəllimlərə təlim prosesində inkişafyönümlü və fərdiləşdirilmiş qiymətləndirmə strategiyalarını tətbiq etməyə imkan verir. Bu modellər öyrənənlərin güclü və zəif tərəflərini daha dəqiq müəyyənləşdirməyə və öyrənmə strategiyalarını təkmilləşdirməyə şərait yaradır. Nəticələr həmçinin ali və orta ixtisas təhsil müəssisələrində tədris metodlarının təkmilləşdirilməsində faydalı ola bilər. Kurikulumun optimallaşdırılması və qiymətləndirmə meyarlarının yenilənməsi prosesində bu tədqiqatın tövsiyələri əhəmiyyətli rol oynayır. Beləliklə, innovativ qiymətləndirmə modellərinin tətbiqi təhsil sistemində həm öyrənənlərin, həm də müəllimlərin fəaliyyətini daha məhsuldar və nəticəyönlü edir.

**Ədəbiyyat**

1. Brown, G. T. L., & Harris, L. R. The Future of Assessment in Education: Trends, Challenges and Innovations. Routledge, 2013, p.212.
2. Popham, W. J. Classroom Assessment: What Teachers Need to Know. Pearson, 2017, p.272.
3.https://www.researchgate.net/publication/261913698_The_future_of_selfassessment
4.https://journals.sfu.ca/flr/index.php/journal/article/view/24

**G.A.Seyidova**

**Təlim nəticələrinin ölçülməsində innovativ qiymətləndirmə modellərinin rolu**
**Xülasə**

Təlim nəticələrinin ölçülməsində innovativ qiymətləndirmə modellərinin tətbiqi təhsil prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Bu modellər öyrənənlərin bilik və bacarıqlarının daha dolğun qiymətləndirilməsinə, bacarıqların formalaşmasına və davamlı inkişafın təmin olunmasına xidmət edir. Müasir təhsil sistemində innovativ qiymətləndirmə yanaşmalarının geniş tətbiqi təlimin səmərəliliyinin artırılması baxımından aktual və perspektivli istiqamət kimi dəyərləndirilir.

**Г.А.Сейидова**

**Роль инновационных моделей оценки в измере результатов обучения**
**Резюме**

Применение инновационных моделей оценки результатов обучения играет важную роль в повышении качества образовательного процесса. Эти модели позволяют более полно оценивать знания и навыки обучающихся, формировать компетенции и обеспечивать устойчивое развитие. Широкое применение инновационных подходов к оценке в современной системе образования рассматривается как актуальное и перспективное направление с точки зрения повышения эффективности обучения.

**G.A.Seyidova**

**The role of innovative assessment models in measuring learning outcomes**
**Summary**

The application of innovative assessment models in measuring learning outcomes plays an important role in improving the quality of the educational process. These models serve to more fully assess the knowledge and skills of learners, to form competencies, and to ensure sustainable development. The widespread application of innovative assessment approaches in the modern education system is considered a relevant and promising direction in terms of increasing the effectiveness of training.

**Redaksiyaya daxil olub:** 22.12.2025

*UOT 37.01.*

# ОБРАЗОВАТЕЛЬНАЯ СРЕДА КАК СТИМУЛЯТОР РАЗВИТИЯ И СОХРАНЕНИЯ КУЛЬТУРНЫХ ЦЕННОСТЕЙ

**Сария Ариф гызы Гашими**
*магистрант Бакинского Славянского Университета*
**ORCID:** 0009-0001-2238-4514
**E-mail:** hashimisara000@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.08

***Ключевые слова:*** *образовательная среда, культурные ценности, аксиология, социокультурная идентичность, личностное развитие, педагогика культуры, межкультурное взаимодействие.*

***Açar sözlər:*** *təhsil mühiti, mədəni dəyərlər, aksiologiya, sosial-mədəni identiklik, şəxsi inkişaf, mədəniyyət pedaqogikası, mədəniyyətlərarası qarşılıqlı əlaqə.*

***Key words:*** *educational environment, cultural values, axiology, sociocultural identity, personal development, pedagogy of culture, intercultural interaction.*

В условиях глобализации и цифровизации общества вопросы сохранения культурной идентичности и ценностей выходят на первый план. Быстрое распространение мировой культуры и новых медиа угрожает обесцениванию местных традиций и духовных ориентиров. В этой связи актуальна роль образовательной среды как института передачи и возрождения культуры. Цель статьи – обосновать, каким образом образовательная среда может стимулировать развитие и сохранение культурных ценностей студентов. Научная проблема формулируется так: какие теоретико-методологические подходы, исторические предпосылки и современные механизмы позволяют образовательной среде эффективно формировать культурную идентичность и способствовать межпоколенной преемственности ценностей.

В научной литературе образовательная среда трактуется как подсистема социокультурной среды, совокупность исторически сложившихся факторов, обстоятельств и специально организованных педагогических условий развития личности. Так, образовательная среда есть прежде всего подсистема социокультурной среды, целостность специально организованных педагогических условий развития личности. В широком смысле под образовательной средой понимается совокупность условий, окружающих человека и оказывающих на него влияние. Согласно синергетическому подходу, образовательная среда – это открытая сложная система, где субъект (учащийся) и среда взаимодействуют взаимно, формируя личность через образовательный процесс. Составными компонентами образовательной среды выступают пространственно-смысловой (архитектура, символика), содержательно-методический (концепции обучения, учебные программы, методики) и коммуникативно-организационный (состав участников, формы взаимодействия) элементы. Образовательная среда включает культурные аспекты (язык, традиции, ценности), ведь элементы культуры, подобранные и скомпонованные в соответствии с целями обучения и воспитания, преобразуются в образовательные средовые

ресурсы. Чем богаче среда такими ресурсами, тем сильнее её влияние на учащегося.

Под культурными ценностями обычно понимают совокупность нравственных и эстетических идеалов, норм поведения, традиций, образцов культуры и искусства, имеющих историческую значимость. Культурные ценности включают как нематериальные элементы (этики, язык, обычаи, фольклор), так и материальные (произведения искусства, книги, памятники и пр.). В международно-правовом смысле культурные ценности – это "ценности, движимые или недвижимые, имеющие большое значение для культурного наследия каждого народа". Развитие культуры понимается как преобразование и приумножение культурных ценностей, а сохранение культуры – это их передача и защита через образовательные и другие социальные институты. Обе эти задачи органично связаны с образованием: через педагогическую деятельность формируются уважение к традициям и включение учащихся в культурный диалог.

История показывает, что образовательные институты издавна служили каналом передачи культуры от поколения к поколению. Уже в трудах К.Д. Ушинского XIX в. подчёркивалась необходимость приоритетного освоения собственной культуры и наследия, внимания к региональной самобытности учащихся. Так, в исследованиях отмечается, что "познание достояния родного края способствует духовному обогащению, всестороннему формированию личности, воспитанию чувства родного языка, родной истории". Таким образом, образовательная среда исторически выступала хранилищем историко-культурного опыта: школа и вуз формировали у молодёжи представления об образе Родины, национальных традициях и моральных нормах.

С другой стороны, историко-культурная среда общества постоянно менялась под влиянием глобальных цивилизационных процессов. Переход к открытым системам образования, информатизация и международное сотрудничество требовали переосмысления роли школы и университета. В современном глобальном контексте образовательные институты вынуждены балансировать между освоением мировой науки и сохранением локального культурного кода. В педагогической практике появляются концепции культурно-образовательного пространства, где уделяется внимание и глобальным трендам и местному культурному наследию.

Современные исследования подчёркивают роль образовательной среды в формировании культурной идентичности учащихся. Так, Гаранина указывает, что образовательная среда создаёт систему ценностей, социальных контактов, что в последствии формирует социокультурную идентичность молодого поколения. Особенно важно развивать в среде чувство принадлежности к культурно-нравственным нормам, обычаям и традициям общества, то есть способствовать осознанию собственной культуры. Важно отметить, что в условиях глобализации возникают междисциплинарные подходы, нацеленные на проекцию культурных норм и ценностей в студенческой среде.

Педагогические теории рассматривают образовательную среду как инструмент интеграции культурных ценностей. По мнению Соколовой, "важнейшая задача педагогики – интеграция культурных ценностей в образовательный процесс и формирование ценностных ориентиров через изучение культурного наследия". Для этого используются развитие творческого потенциала через народные традиции, организация этнографических экспедиций, кружков народного творчества (ансамбли, театры, художественные

студии и т.д.). Таким образом, современные подходы сосредоточены на создании в образовательном учреждении пространства, обогащённого национальными и региональными культурными элементами, который активирует познавательный и нравственный интерес учащихся.

Эмпирические исследования подтверждают, что образовательная среда влияет на культурные установки молодёжи. Так, Бориско и Миронцева показали, что культурно-образовательная среда региона должна сочетать актуализацию значимого прошлого опыта, традиций с инновационными практиками, чтобы укреплять региональную идентичность молодёжи. Саввина подчёркивает: познание культуры родного края способствует духовному обогащению и формированию национального самосознания.

В некоторых зарубежных системах введены программы межкультурного образования. Например, во многих европейских школах учащиеся изучают региональные языки и традиции в контексте толерантного мультикультурализма. Международный опыт показывает, что образовательная среда может стать плацдармом межкультурного диалога, когда в учебные программы целенаправленно вводятся темы культурного разнообразия, а в школе создаются клубы национальных культур или кружки народного творчества.

На основе теории и эмпирии можно сформулировать рекомендации по проектированию образовательной среды, способствующей сохранению культуры. Во-первых, интегрировать культурные артефакты и символы в окружающее пространство: оформить кабинеты и коридоры элементами национального дизайна, национальными флагами, гербами, фотографиями памятников, а также выставить экспонаты школьного музея, посвящённые истории края. Школьный музей, краеведческие уголки и стенды с народными ремёслами погружают детей в культурную среду и делают её частью образования. Во-вторых, обогащать содержательно-методическую компоненту: включать в учебные планы местные легенды, пословицы, народные сказки и произведения искусства. Например, при изучении литературы использовать тексты местных авторов, при обучении географии – краеведческие проекты о родном регионе. В-третьих, организовать межпредметные и внеурочные мероприятия: фестивали национальной культуры, языковые кружки, творческие проекты с участием старших поколений, интеграцию национальных праздников в школьный календарь. При этом педагоги выступают носителями культуры: их ценности и установки задают тон среде. В-четвёртых, стимулировать диалог разных культур: приветствовать участие родителей и общественности разных этносов в образовании.

Наконец, необходима технология оценки эффективности культурно-образовательной среды. Это могут быть социологические опросы школьников о ценностях и идентичности, мониторинг участия в культурных мероприятиях, исследование школьного микроклимата на предмет уважения к традициям. Регулярная рефлексия поможет корректировать среду и выявлять “узкие места” (например, отсутствие этнокультурного компонента в какой-то образовательной области). Таким образом, проектирование должно быть системным, учитывающим пространственные, содержательные и организационные ресурсы и направленным на максимальную насыщенность среды культурным опытом.

В проведённом анализе показано, что образовательная среда является мощным стимулятором развития и сохранения культурных ценностей студентов. На теоретическом уровне выявлено, что она одновременно и отражает, и формирует систему ценностей учащегося, выступает средством преемственности культурного наследия. Историко-культурный обзор подтвердил, что образование традиционно несло функции социализации и передачи культуры, и в современных реалиях роль школы как хранителя культурных традиций только усилилась. Современные подходы подчёркивают необходимость сознательного проектирования образовательной среды – от символики классов до методик обучения – с учётом ценностей нации и региона. Эмпирические данные свидетельствуют, что именно те образовательные учреждения, где культивируются национальные и духовные ориентиры, формируют у молодежи более высокую культурную и гражданскую идентичность.

**Актуальность статьи.** Современная эпоха характеризуется глубокими и стремительными трансформациями во всех сферах человеческого бытия, что ставит перед обществом комплекс вызовов, связанных с сохранением культурной идентичности. Глобализация, миграционные процессы, экспансия массовой культуры и цифровизация приводят к размыванию традиционных ценностных ориентиров, росту культурного нигилизма и конфликту идентичностей. В этих условиях образование перестает быть просто институтом передачи знаний и навыков, а становится ключевым агентом в процессе сохранения, критического осмысления и продуктивного развития культурного наследия.

**Научная новизна статьи.** Заключается в раскрытии сущности и структуры образовательной среды. Предлагается описание и разработка структурно-функциональной модели ценностно-ориентированной образовательной среды, определение функций и механизмов образовательной среды на процессы формирования ценностных ориентаций личности.

**Практическая значимость и применение статьи.** В статье были даны рекомендации, которые могут быть использованы администрациями школ и вузов при обновлении образовательных программ: начиная от архитектуры и оформления помещений, заканчивая содержанием учебных курсов и внешкольной деятельностью. В перспективе целесообразно провести более подробные сравнительные исследования разных национальных моделей (например, исследовать опыт азиатских и европейских стран в интеграции культуры в школьное обучение) и оценить их эффективность с помощью статистических методов. Также важно разработать методики диагностики "культурной насыщенности" образовательной среды и её влияния на личность. В целом, устойчивое развитие общества невозможно без баланса между освоением глобальных достижений и сохранением локальных культурных кодов – и образование является ключевым звеном в этом процессе.

## Литература

1. Белозерцев Е.П. Культурно-образовательная среда: методологическая неизбежность современного отечественного педагогического знания. Вестник МГОПУ, 2009.

2. Бориско О.А., Миронцева С.А. Влияние культурно-образовательной среды региона на формирование региональной идентичности молодежи. Юж.-росс.журн.соц.наук, 2017.

3. Гаранина А.Б. Образовательная среда как основа формирования социокультурной идентичности студентов высшей школы. Журнал “Межконфессиональная миссия”, 2007.

4. Гайдукевич С.Е. Проектирование и организация образовательной среды для детей с особенностями психофизического развития. Сб. науч. трудов МГПУ, 2008.

5. Соколова С.Н. Педагогика и духовные ценности как основа сохранения культуры. 2024.

**С.А.Гашими**

**Образовательная среда как стимулятор развития и сохранения культурных ценностей**

**Резюме**

В статье рассматривается роль образовательной среды как фактора формирования и сохранения культурных ценностей личности и общества. Раскрываются теоретико-методологические основы аксиологического и культурологического подходов к образованию, анализируются функции и уровни образовательной среды. Особое внимание уделяется педагогическим технологиям, способствующим развитию ценностных ориентаций обучающихся, а также роли педагога как медиатора культуры. Делается вывод о необходимости ценностно насыщенной, культурно ориентированной образовательной среды как условия устойчивого развития общества.

**S.A.Həşimi**

**Mədəni dəyərlərin inkişafı və qorunmasının stimullaşdırıcısı kimi təhsil mühiti**

**Xülasə**

Məqalədə təhsil mühitinin şəxsiyyətin və cəmiyyətin mədəni dəyərlərinin formalaşması və qorunmasında rolu araşdırılır. Təhsilə aksioloji və mədəniyyətyönlü yanaşmanın nəzəri-metodoloji əsasları açıqlanır, təhsil mühitinin funksiyaları və səviyyələri təhlil olunur. Xüsusi diqqət tələbələrin dəyərlər istiqamətinin inkişafına kömək edən pedaqoji texnologiyalara və müəllimin mədəniyyət vasitəçisi kimi roluna yönəldilib. Məqalədə vurğulanır ki, cəmiyyətin davamlı inkişafı üçün dəyərlərlə zəngin, mədəniyyətyönlü təhsil mühitinin yaradılması zəruridir.

**S.A.Hashimi**

**The educational environment as a stimulator of the development and preservation of cultural values**

**Summary**

The article explores the role of the educational environment as a factor in developing and preserving cultural values of both the individual and society. It reveals the theoretical and methodological foundations of axiological and cultural approaches to education and analyzes the key functions and levels of the educational environment. Special attention is given to pedagogical technologies that foster students' value orientation and to the teacher's role as a mediator of culture. The study concludes that a value-rich and culturally oriented educational environment is essential for the sustainable development of society.

**Redaksiyaya daxil olub:** 17.11.2025

*UOT 37.01.*

# TƏLİM PROSESİNDƏ AZƏRBAYCANÇILIQ DƏYƏRLƏRİNDƏN İSTİFADƏ İMKANLARI

**Səkinə Fuad qızı Səfərova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0007-3086-3383
**E-mail:** sakinasafarova5@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.09

***Açar sözlər:*** *azərbaycançılıq dəyərləri, milli-mənəvi tərbiyə, təlim prosesi, təhsil, təlim.*
***Ключевые слова:*** *азербайджанские ценности, национально-духовное воспитание, образовательный процесс, образование, обучение.*
***Key words:*** *Azerbaijani values, national-spiritual education, educational process, education, training.*

Müasir dövrdə təhsilin əsas məqsədi yalnız bilik və bacarıqların ötürülməsi deyil, həm də milli-mənəvi dəyərlərə əsaslanan vətənpərvər, humanist və yaradıcı şəxsiyyətin formalaşdırılmasıdır. Qloballaşma və informasiya cəmiyyətinin sürətli inkişafı fonunda gənc nəslin milli kimliyinin, mənəvi-əxlaqi bütövlüyünün qorunması xüsusi aktuallıq kəsb edir. Bu baxımdan, təlim prosesində azərbaycançılıq ideologiyasının və milli dəyərlərin inteqrasiyası müstəqil Azərbaycanın dövlətçilik siyasətinin mühüm istiqamətlərindən biridir. Azərbaycançılıq ideologiyası — xalqımızın tarixi təcrübəsini, milli-mənəvi dəyərlərini, dilini, mədəniyyətini və dövlətçilik ənənələrini birləşdirən ideoloji-siyasi sistem kimi, təkcə siyasi səviyyədə deyil, həm də təhsil və tərbiyə prosesinin əsas istiqamətverici prinsipi kimi çıxış edir. Bu ideologiyanın təlim prosesinə daxil edilməsi gənc nəslin milli-mənəvi kimliyinin möhkəmlənməsinə, vətənə sədaqət hissinin, milli qürur və məsuliyyətin formalaşmasına xidmət edir. Hazırda Azərbaycan Respublikasında qəbul edilmiş bir sıra strateji sənədlər — "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Təhsil Strategiyası", "Gənclər siyasəti haqqında Dövlət Proqramı", "Milli kurikulum sistemi" və s. təhsilin bütün pillələrində milli dəyərlərin təlim-tərbiyə prosesinə inteqrasiyasını zəruri edir. Bu sənədlərdə azərbaycançılıq dəyərlərinin sistemli tədrisi, vətənpərvərlik tərbiyəsi, milli-mənəvi identikliyin qorunması və inkişafı əsas məqsəd kimi müəyyən edilmişdir. Digər tərəfdən, müasir təlim texnologiyalarının (interaktiv dərs formaları, layihə əsaslı öyrənmə, dəyərlər təlimi, situativ tədris və s.) tətbiqi azərbaycançılıq dəyərlərinin öyrədilməsində yeni imkanlar açır. Bu, tələbə və şagirdlərdə yalnız bilik deyil, həm də mənəvi davranış modellərinin formalaşmasına şərait yaradır: [1, s. 119].

Mövzu həm elmi-pedaqoji baxımdan, həm də ictimai-siyasi reallıqlar kontekstində son dərəcə aktualdır. Təlim prosesində azərbaycançılıq dəyərlərindən istifadə imkanlarının araşdırılması, onların səmərəli tətbiqi mexanizmlərinin müəyyənləşdirilməsi gənc nəslin milli kimliyinin qorunması və vətənpərvər vətəndaş kimi formalaşması baxımından strateji əhəmiyyət daşıyır. Belə bir mövzunun aktuallığı həm də milli təhsil sisteminin modernləşməsi və qlobal təhsil dəyərlərinin milli identikliklə sintezini təmin etmək baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu gün təhsildə əsas məqsəd, biliklə yanaşı, şəxsiyyətin formalaşdırılması, onun mənəvi aləminin zənginləşdirilməsi və milli kimliyinin qorunmasıdır. Təlim prosesində azərbaycançılıq dəyərlərinə istinad bu məqsədlərə çatmağın ən mühüm vasitələrindən biridir. Azərbaycançılıq dəyərləri – dil, din, vətən sevgisi, milli-mədəni irsə hörmət, ailə və cəmiyyətə bağlılıq, dövlətçilik şüuru, tolerantlıq və humanizm prinsipləri kimi universal keyfiyyətləri özündə birləşdirir. Bu dəyərlər əsrlər boyu xalqımızın həyat tərzini və dünyagörüşünü formalaşdırmış, müasir Azərbaycan vətəndaşının mənəvi dayağına çevrilmişdir. Təlim prosesində bu dəyərlərin istifadəsi təkcə fənn məzmununun zənginləşdirilməsi deyil, həm də şəxsiyyət yönümlü təhsil fəlsəfəsinin həyata keçirilməsidir. Müasir dövrdə informasiya axınının genişlənməsi, qloballaşma və mədəni assimilyasiya təhlükələri gənc nəslin milli-mənəvi dəyərlərdən uzaqlaşmasına gətirib çıxara bilər. Buna görə də təlimdə azərbaycançılıq dəyərlərinin sistemli şəkildə tətbiqi bu risklərin azaldılması və milli özünüdərk prosesinin gücləndirilməsi üçün mühüm vasitədir. Təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdən biri, fənlərin tədrisində Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, coğrafiyası, dövlət atributları və görkəmli şəxsiyyətləri ilə bağlı biliklərin şagirdlərin mənəvi aləminə təsir edəcək formada təqdim edilməsidir. Bu, şagirdlərdə milli kimlik, vətənə mənsubluq hissi və ictimai məsuliyyət duyğusunun formalaşmasına şərait yaradır [2, s. 73].

Mövzunun aktuallığı həm də ondan ibarətdir ki, postmüharibə dövrü reallıqları — Qarabağın azad edilməsi, milli birliyin güclənməsi və vətənpərvərlik ruhunun yüksəlişi — təlim prosesində azərbaycançılıq dəyərlərinin yeni məzmun və yanaşmalarla öyrədilməsini tələb edir. Bu dövr gənc nəslin vətənə sədaqət, dövlətə etimad və milli həmrəyliyin dərinləşdirilməsi baxımından xüsusi məsuliyyət mərhələsidir. “Təlim prosesində azərbaycançılıq dəyərlərindən istifadə imkanları” mövzusu Azərbaycan təhsil sisteminin milli ideoloji əsaslarının elmi-pedaqoji tədqiqi baxımından mühüm elmi və praktiki əhəmiyyətə malikdir. Mövzunun işlənməsi pedaqoji kadr hazırlığında, dərslik və tədris proqramlarının yenilənməsində, müəllimlərin peşəkar inkişafında, eləcə də milli təlim modellərinin formalaşdırılmasında tətbiq oluna biləcək konkret nəticələr ortaya qoya bilər. Bu tədqiqatın elmi yeniliyi, azərbaycançılıq dəyərlərinin təlim prosesinə inteqrasiya olunması məsələsinə sistemli, nəzəri və praktik baxımdan yanaşmada özünü göstərir. Mövzu ilk dəfə olaraq azərbaycançılıq ideologiyasının milli təhsil məzmunu və müasir təlim texnologiyaları ilə sintezi kontekstində geniş şəkildə araşdırılır [4, s. 22].

Aşağıdakı istiqamətlər üzrə elmi yeniliklər fərqləndirilir:

1. Azərbaycançılıq dəyərlərinin pedaqoji model kimi elmi əsaslandırılması.

İlk dəfə olaraq azərbaycançılıq dəyərləri sadəcə ideoloji konsepsiya deyil, həm də təlimin məqsəd, məzmun və metod komponentlərinə təsir edən pedaqoji kateqoriya kimi təqdim olunur. Bu yanaşma dəyərlərin tərbiyə deyil, eyni zamanda bilik və bacarıq formalaşdırma funksiyasını da göstərir.

2. Müasir təlim metodları ilə azərbaycançılıq dəyərlərinin inteqrasiyası üçün konseptual çərçivə hazırlanmışdır. Araşdırmada dəyərlər təliminin müasir formaları — interaktiv tədris, layihə əsaslı öyrənmə, reflektiv düşünmə, situativ və problem yönümlü təlim modelləri əsasında azərbaycançılıq prinsiplərinin tətbiqi mexanizmləri işlənmişdir.

3. Milli-mənəvi dəyərlərin kurikulum sistemində tətbiqi üçün metodoloji mexanizm təklif edilmişdir. Elmi yenilik ondan ibarətdir ki, müəllif azərbaycançılıq dəyərlərinin kurikulumun

məqsəd, nəticə və fəaliyyət göstəriciləri ilə uyğunlaşdırılması üzrə metodoloji əsaslar formalaşdırır. Bu, fənlərarası inteqrasiyanın yeni modelini təklif edir.

4. Azərbaycançılıq dəyərlərinin təlim prosesində qiymətləndirmə meyarları müəyyən edilmişdir.

Əvvəllər yalnız bilik və bacarıqlar əsasında aparılan qiymətləndirmə sisteminə əlavə olaraq, burada vətənpərvərlik, milli kimlik, ictimai məsuliyyət və tolerantlıq kimi davranış indikatorlarının ölçülməsi təklif edilir.

5. Postmüharibə dövrü kontekstində milli ideoloji məzmunun təlimdə tətbiqi istiqamətləri yenidən nəzərdən keçirilmişdir. Bu istiqamət, azərbaycançılıq dəyərlərinin Qarabağın bərpası, vətənpərvərlik tərbiyəsi və milli birliyin gücləndirilməsi ilə əlaqələndirilməsini elmi-nəzəri səviyyədə əsaslandırır.

6. Yeni pedaqoji model – “Azərbaycançılıqyönlü təlim sistemi” təklif olunmuşdur. Modelin əsas elementi kimi müəllim-şagird qarşılıqlı əlaqəsinin dəyərlər üzərində qurulması, milli düşüncə tərzinin formalaşdırılmasına yönəlmiş interaktiv və təcrübəyə əsaslanan təlim yanaşması təqdim edilir.

7. Empirik nəticələrə əsaslanan tədris strategiyası hazırlanmışdır. Məqalə çərçivəsində müəllim və tələbə qrupları arasında aparılmış sorğular və müşahidələr əsasında azərbaycançılıq dəyərlərinin real təlim mühitinə inteqrasiya səviyyəsi təhlil olunur və onun təkmilləşdirilməsi üçün konkret tövsiyələr irəli sürülür.

Azərbaycan təhsil elminə azərbaycançılıq ideologiyasının pedaqoji aspektdən tətbiqini sistemləşdirən yeni elmi istiqamət qazandırır. Araşdırmanın nəticələri həm nəzəri baza kimi, həm də müəllim hazırlığı, dərslik siyasəti və təlim proqramlarının milli dəyərlərlə zənginləşdirilməsi sahəsində praktik tətbiq üçün əhəmiyyətlidir. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, azərbaycançılıq dəyərlərinin təlim prosesinə sistemli şəkildə inteqrasiyası üçün konkret metodik yanaşmalar və tətbiq mexanizmləri işlənmişdir. Araşdırma nəticəsində formalaşdırılan nəzəri əsaslar və pedaqoji tövsiyələr ümumtəhsil və ali təhsil müəssisələrində dərs prosesinin məzmun və metodikasının təkmilləşdirilməsinə real töhfə verir. Təlimdə azərbaycançılıq dəyərlərindən istifadə şagird və tələbələrdə milli kimliyin, vətənpərvərlik ruhunun, milli-mənəvi dəyərlərə hörmət və ictimai məsuliyyət hissinin inkişafına yönəlmişdir. Bu, təhsil alanların şəxsiyyət kimi formalaşmasında və onların sosial-mədəni adaptasiyasında mühüm rol oynayır [6, s. 21].

Tədqiqatın nəticələri əsasında müəllimlər üçün milli dəyərlərə əsaslanan dərs planları, interaktiv təlim texnologiyaları və dəyərləryönlü qiymətləndirmə meyarları işlənə bilər. Eyni zamanda, hazırlanmış model pedaqoji kadr hazırlığı prosesində və müəllimlərin ixtisasartırma proqramlarında tətbiq edilə bilər. Araşdırmada təqdim olunan metodoloji yanaşmalar Təhsil Nazirliyi, pedaqoji universitetlər, metodik mərkəzlər və məktəb rəhbərləri üçün praktik tövsiyə kimi istifadə oluna bilər. Həmçinin, bu nəticələr milli kurikulumun təkmilləşdirilməsi, dərslik və tədris materiallarının hazırlanmasında nəzərə alınaraq, təhsildə milli ideoloji istiqamətin gücləndirilməsinə xidmət edə bilər. Tədqiqatın tətbiqi nəticələri təlim prosesində azərbaycançılıq dəyərlərinin sistemli şəkildə reallaşdırılmasına, milli-mənəvi tərbiyənin səmərəliliyinin artırılmasına və təhsil sisteminin ideoloji dayanıqlığının möhkəmləndirilməsinə praktik töhfə verir [8, s. 22].

**Problemin aktuallığı.** Qloballaşma dövründə milli kimlik və mədəni dəyərlərin qorunması

təhsilin əsas funksiyalarından birinə çevrilmişdir. Azərbaycan cəmiyyətində milli-mənəvi dəyərlərin, xüsusən azərbaycançılıq ideologiyasının gənc nəslin dünyagörüşündə möhkəmləndirilməsi strateji əhəmiyyət daşıyır. Təlim prosesində azərbaycançılıq dəyərlərinin tətbiqi yalnız milli tərbiyənin deyil, həm də vətəndaşlıq məsuliyyətinin formalaşmasında mühüm rol oynayır. Müasir təhsil islahatları çərçivəsində bu dəyərlərin fənn proqramlarına, dərslik məzmununa və müəllim fəaliyyətinə inteqrasiyası aktuallaşmışdır. Problemin aktuallığı həmçinin Azərbaycan Respublikasının Təhsil Strategiyasında milli və mənəvi dəyərlərə əsaslanan tərbiyənin prioritet istiqamət kimi müəyyən edilməsindən qaynaqlanır.

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, təlim prosesində azərbaycançılıq dəyərlərinin sistemli tətbiqi ilk dəfə elmi-metodoloji model səviyyəsində əsaslandırılır. Əvvəlki araşdırmalarda bu məsələ daha çox ideoloji və tərbiyəvi aspektdə öyrənilmişdirsə, bu tədqiqatda məsələ didaktik, psixopedaqoji və səriştə əsaslı yanaşmalar kontekstində təhlil olunur. Yeni yanaşma kimi, azərbaycançılıq dəyərlərinin tədris fənləri üzrə inteqrasiya mexanizmləri, təlim motivasiyasına təsiri və şagird şəxsiyyətinin formalaşmasında rolu konkret indikatorlar və meyarlar üzrə elmi şəkildə müəyyən edilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr müəllimlərin peşəkar hazırlığında, dərs planlarının və təlim texnologiyalarının tərtibində, habelə milli-mənəvi tərbiyə istiqamətli kurikulumların yenilənməsində istifadə oluna bilər. Azərbaycançılıq dəyərlərinin təlim prosesinə daxil edilməsi şagirdlərdə milli şüurun, vətənpərvərlik hissinin və sosial məsuliyyətin inkişafına yönəlmiş səmərəli pedaqoji mühitin formalaşmasına şərait yaradır. Bu yanaşma eyni zamanda təhsilin milli məzmunla beynəlxalq standartların sintezini təmin etməyə xidmət edir.

**Problemin tətbiqi imkanları.** Tətbiq baxımından, tədqiqatın nəticələri:

- **Ümumi təhsil müəssisələrində** fənlərarası inteqrasiya modellərinin hazırlanmasında,
- **Ali pedaqoji təhsil proqramlarında** milli dəyərlərə əsaslanan müəllim hazırlığı kurslarının yenilənməsində,
- **Dərslik və tədris vəsaitlərinin** milli-mənəvi kontekstə uyğunlaşdırılmasında,
- **Vətəndaşlıq və mənəvi tərbiyə** proqramlarının təkmilləşdirilməsində geniş istifadə oluna bilər.

## Ədəbiyyat


1. Abbasov, Ə. (2022). Multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzidir. *Teaching of Azerbaijani Language and Literature, 274*(4), 119–125. https://www.anl.az/down/meqale/azdili_edebiyyat_tedrisi/2022/04/11%28meqale%29.pdf

2. ADPU. (2025). *Pedaqoji Universitetin Xəbərləri, 73*(2). https://adpu.edu.az/images/adpu_files/elm/elmi-jurnallar/01rtes/rtes-2-2025.pdf

3. ADPU Quba filialı. (2018). *Multikulturalizmə giriş* [Vəsait]. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Multikulturalizme-Giris.pdf

4. ADPU Quba filialı. (2027). *Azərbaycan multikulturalizm modeli* [Vəsait]. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Az%C9%99rbaycan-multikulturalizm-modeli-pdf.pdf

5. AEM (Elm və Təhsil Nazirliyi nəzdində). (2017). Məmmədova, S. *Dilimiz – milli kimliyimizdir* [Kitab]. https://aem.az/uploads/files/2024-01/1706130270_1701092770_kitab-

dilimiz-sedaqet-1.pdf

6. AEM. (2024, 20 dekabr). *Azərbaycan dilinin dövlət dili kimi işlənməsi tarixi.* https://aem.az/uploads/posts/2024/12/E.%C4%B0.%2018.12-20-24.pdf

7. Aliyev, H. haqqında. (2003). *Heydər Əliyev və azərbaycançılıq ideologiyası.* Bakı: Milli Kitabxana. https://www.anl.az/el/Kitab/2013/2003-1633.pdf

8. Cahyono, H., Bahri, S., Salim, A., Mualimah, E. N., Fauzi, R., Bayu, J. T., Purwanti, S., & Mualimah, E. (2021). *Language as national identity.* Atlantis Press. https://www.atlantis-press.com/article/125962365.pdf

9. Griffiths, A. (2025). *English language teaching and national identity. MEXTESOL Journal.* https://www.mextesol.net/journal/public/files/a514c9568d8442d06232e503a2d5ae44.pdf

10. Guo, Z. (2024). *From identity unbecoming to becoming: Duoethnography of multilingual and multicultural English teachers. ScienceDirect.* https://www.sciencedirect.com/science/article/pii/S0346251X24000289

11. *It's another form of imperialism: how anglophone literature lost its universal appeal.* (2025). *The Guardian.* https://www.theguardian.com/books/2025/aug/08/its-another-form-of-imperialism-how-anglophone-literature-lost-its-universal-appeal

12. *Journal of Language, Identity & Education.* (n.d.). *Taylor & Francis.* https://www.tandfonline.com/journals/hlie20

13. Kalra, K. (2024). *Language and identity: The dynamics of linguistic constitution. ScienceDirect.* https://www.sciencedirect.com/science/article/pii/S109095162400021X

14. Kozlowski, A. C., Taddy, M., & Evans, J. A. (2018). *The geometry of culture: Analyzing meaning through word embeddings. arXiv.* https://arxiv.org/abs/1803.09288

*15. Latest articles from Journal of Language, Identity & Education.* (n.d.). *Taylor & Francis.* https://www.tandfonline.com/action/showAxaArticles?journalCode=hlie20

**S.F.Səfərova**

## Təlim prosesində azərbaycançılıq dəyərlərindən istifadə imkanları

## Xülasə

Azərbaycançılıq dəyərlərinin təlim prosesinə inteqrasiyası mənəvi və milli tərbiyənin möhkəmləndirilməsində, həmçinin milli identiklik və vətənpərvərlik şüurunun formalaşmasında mühüm rol oynayır. Müasir təhsil sistemində bu dəyərlərin tətbiqi yalnız vətənpərvərlik tərbiyəsinə deyil, eyni zamanda şagirdlərdə sosial məsuliyyətin, mədəni dözümlülüyün və milli irsə hörmət hissinin inkişafına xidmət edir. Azərbaycançılıq prinsipləri müxtəlif fənlərdə inteqrativ formada həyata keçirilə bilər: ədəbiyyat və tarix dərslərində milli qəhrəmanların öyrənilməsi, coğrafiya dərslərində ölkənin təbii sərvətləri və regional birliyi haqqında biliklərin mənimsənilməsi, vətəndaşlıq təlimində isə dövlətçilik və müstəqillik mövzularının araşdırılması vasitəsilə. Bu dəyərlərin təlim prosesinə daxil edilməsi müəllimlərin metodik hazırlığını, milli məzmunlu dərs vəsaitlərinin hazırlanmasını, eləcə də interaktiv və layihəəsaslı təlim metodlarının tətbiqini tələb edir. Layihələr, debatlar, tədqiqat tapşırıqları və mədəni tədbirlər kimi fəaliyyət formaları şagirdlərə Azərbaycançılıq dəyərlərini praktik şəkildə mənimsəməyə imkan yaradır. Azərbaycançılıq dəyərlərinin tədris prosesinə sistemli şəkildə daxil edilməsi təhsil sahəsində milli ideologiyanın reallaşdırılmasını təmin edir, şagirdlərin həm vətəndaş, həm də

şəxsiyyət kimi inkişafına töhfə verir.

**С.Ф.Сафарова**

**Использование ценностей азербайджанизма в образовательном процессе**
**Резюме**

Интеграция ценностей азербайджанизма в образовательный процесс играет решающую роль в укреплении нравственного и национального воспитания, а также в формировании национальной идентичности и патриотического сознания. В современной системе образования применение этих ценностей способствует не только патриотическому воспитанию, но и развитию у учащихся социальной ответственности, культурной толерантности и уважения к национальному наследию. Принципы азербайджанизма могут быть реализованы в интегративной форме на различных предметах: на уроках литературы и истории через изучение национальных героев, на географии — через познание природных богатств страны и регионального единства, а на уроках гражданского воспитания — через темы, посвящённые государственности и независимости. Внедрение этих ценностей в процесс обучения требует методической подготовки преподавателей, разработки учебных материалов с национальным содержанием, а также использования интерактивных и проектных методов обучения. Такие формы деятельности, как проекты, дебаты, исследовательские задания и культурные мероприятия, позволяют учащимся практически усвоить ценности азербайджанизма. Системное включение ценностей азербайджанизма в образовательный процесс обеспечивает реализацию национальной идеологии в сфере образования, способствуя развитию учащихся как граждан и как личностей.

**S.F.Safarova**

**Using azerbaijanism values in the educational process**
**Summary**

The integration of Azerbaijanism values into the educational process plays a crucial role in strengthening moral and national education, as well as in shaping national identity and patriotic consciousness. In the modern education system, the application of these values not only supports patriotic upbringing but also contributes to the development of students' social responsibility, cultural tolerance, and respect for national heritage. The principles of Azerbaijanism can be applied in an integrative manner across various subjects: in literature and history classes through the study of national heroes, in geography through the exploration of the country's natural resources and regional unity, and in civic education through lessons focused on statehood and independence. Incorporating these values into education requires teachers' methodological preparedness, the development of nationally oriented teaching materials, and the use of interactive and project-based learning methods. Activities such as projects, debates, research assignments, and cultural events enable students to internalize Azerbaijanism values in practice.

**Redaksiyaya daxil olub:** 04.11.2025

***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRİNGİNG TECHNOLOGIES***

# TƏRBİYƏ TEXNOLOGİYALARINDAN İSTİFADƏ ETMƏKLƏ TƏLƏBƏLƏRİN MƏNƏVİ KEYFİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ: müəyyənləşdirici eksperimentin təşkili və nəticələri

*UOT: 37.0*

**Rəhiməxanım Rzabala qızı Məmmədzadə**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**ORCİD:** 0009-0008-2256-3185
**E-mail:** ragimaxanum.mamedzade@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.10

***Açar sözlər:*** *tərbiyə texnologiyaları, mənəvi keyfiyyətlər, tələbələr, pedaqoji eksperiment, müəyyənləşdirici eksperiment*

***Ключевые слова:*** *образовательные технологии, нравственные качества, студенты, педагогический эксперимент, детерминирующий эксперимент.*

***Key words:*** *educational technologies, moral qualities, students, pedagogical experiment, determining experiment.*

Pedaqoji eksperiment son dərəcə mürəkkəb bir tədqiqat metodudur. O, müşahidə üsullarının, söhbətlərin, müsahibələrin, anketlərin, diaqnostik işlərin və s. birgə istifadəni tələb edir. Həmin metodlar bir tərəfdən pedaqoji tədqiqatın ilkin mərhələsində (müəyyənləşdirici mərhələsində) sistemin ilkin vəziyyətini "ölçmək" üçün, digər tərəfdən, öyrədici və yoxlayıcı mərhələsində nəzərdə tutulanlara nail olmağı təmin edir.

İrəli sürdüyümüz fərziyyənin doğruluğunu sübut etmək üçün tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması üzrə işin nəzəriyyəsi və təcrübəsi ilə bağlı hazırladığımız metodikanın səmərəliliyini müəyyənləşdirmək məqsədilə pedaqoji eksperiment təşkil edildi.

Eksperiment 3 mərhələdə – müəyyənləşdirici, öyrədici və yoxlayıcı mərhələlərdən ibarət keçirilmişdir.

Müəyyənedici eksperiment pedaqoji eksperimentin çox zəruri komponentidir. Eksperimentin bu mərhələsi fərziyyənin doğruluğunu sübuta yetirmək, daha sonra öyrədici eksperimentin səmərəli şəkildə həyata keçirilməsinə yaxından kömək göstərməyə istiqamətlənib. Nəzərdən keçiriləcək problemin tədqiq olunan sahədə (bizim tədqiqatda ali təhsil müəssisələrində) hazırkı vəziyyətini və inkişaf səviyyəsini müəyyənləşdirməyi nəzərdə tutur.

Müəyyənləşdirici eksperiment, adətən tədqiq olunan obyektin faktik vəziyyətini aşkarlamağa, ilkin, yaxud əldə edilmiş parametrləri təyin etməyə yönəlir. Əsas məqsəd reallıqları üzə çıxarmaqdır. Məqsəd eksperimentatorun istəyinə əsasən əldə olunmuş səviyyəni təkmilləşdirə bilən yeni metodların müəyyənləşdirilməsi və səmərəliliyini yoxlamaqdan ibarətdir.

Diqqət mərkəzində aşağıdakı məsələlər dayanmışdır:

— mühazirə və seminar məşğələlərində tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsinin üsul və vasitələrini müəyyənləşdirmək;

— auditoriyadankənar tədbirlərdə tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsinin üsul və vasitələrini aşkarlamaq;

— haqqında söz açılan problemin reallaşdırılması baxımından pedaqoji kollektiv üzvlərinin qarşılaşdıqları çətinlikləri və onları meydana gətirən səbəbləri müəyyənləşdirmək;

— pedaqoji kollektiv üzvlərinin qarşılaşdıqları çətinlikləri aradan qaldırılması üçün zəruri təkliflər vermək və səmərəli tövsiyələr irəli sürmək.

Ali təhsil müəssisələrində tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması işinin müəllimlər tərəfindən necə təşkil olunduğunu aşkarlamaq üçün müşahidə və müsahibədən, kütləvi sorğudan, anketləşdirmə və söhbətlərdən, təhlil və tərkibdən faydalandıq.

Aşağıdakı *elmi fərziyyənin* eksperiment qoyulması məqsədəuyğun hesab edilmişdir: ali təhsil müəssisələrində mühazirə və seminar məşğələlərində, auditoriyadankənar tədbirlərdə tərbiyə texnologiyalarından səmərəli şəkildə istifadə olunarsa, tələbələrin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsiə nail olmaq mümkündür.

Eksperimentin 2020/2021 və 2021/2022-ci tədris illərini özündə birləşdirən birinci, müəyyənedici mərhələsinin qarşısında aşağıdakı *vəsifələr* qoyulmuşdur:

1. Dissertasiyada nəzərdən keçirilən problemin tədqiqinə nəzəri əsas ola biləcək ədəbiyyatla tanışlıq;

2. Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması işinin səmərəli təşkili ilə bağlı məlumatlılıq səviyyəsinin aşkarlanması;

3. Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması ilə bağlı müəllimlərin iş təcrübəsinin öyrənilməsi;

3.1. Təlim prosesində - mühazirə və seminar məşğələlərində professor-müəllim heyətinin tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması ilə bağlı müəllimlərin iş təcrübəsinin öyrənilməsi;

3.2. Auditoriyadankənar tədbirlər zamanı tərbiyə işləri üzrə prorektorların, müəllimlərin, kitabxana işçilərinin, akademik qrupların kuratorlarının tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması ilə bağlı müəllimlərin iş təcrübəsinin öyrənilməsi;

4. Tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi işinə pedaqoji rəhbərlik məsələləri ilə tanış olmaq və s.

...iş təcrübəsini öyrənmək üçün biz müəllimlər tərəfindən istifadə olunan tərbiyə texnologiyaları, onların səmərəliliyi ilə maraqlandıq. Həmin sahədə müəllimlərin iş təcrübəsi, müsbət və qüsurlu cəhətlər aşkara çıxarılmışdır.

Tanışlıq göstərdi ki, tərbiyə texnologiyaları üzrə iş bəzi institut və universitetlərin bəzi akademik qruplarında və akademik patoklarda lazımi səviyyədə təşkil olunur.

Tərbiyə işləri üzrə prorektorlar, kafedra müdirləri, tədris şöbələri və ayrı-ayrı müəllimlər haqqında danışılan işin zəruriliyini diqqətdə saxlayaraq, səmərəli nəticələr qazanırlar.

Həm də aşkara çıxarılmışdır ki, bəzi institut və universitetlərin bəzi akademik qrup və akademik patoklarında müəllimlər mövcud imkanlardan faydalanaraq, öz işlərini səmərəli qura bilmirlər.

Pedaqoji eksperimentin müəyyənedici mərhələsi tədqiq etdiyimiz problem sahəsində mövcud vəziyyətlə bağlı lazımi təsəvvür formalaşdırdı. Müsbət və qüsurlu hallar meydana çıxdı.

Akademik qrupları eksperimental və kontrol olmaqla iki yerə ayırdıq. Eksperimentdə iştirak edən müəllimlərin (eksperimental və kontrol), həmçinin tələbələrin səviyyələrinin bərabər olması diqqət mərkəzində dayandı. Çalışdıq ki, müəllimlərin pedaqoji stajında əsaslı fərqlər olmasın.

Eksperimentin həyata keçirildiyi Azərbaycan Dillər Universitetində, Bakı Slavyan universitetində, Mingəçevir Dövlət Universitetində eksperimental və kontrol qruplarda seminar məşğələləri aparan müəllimlərin tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi sahəsindəki məlumatlılıq səviyyəsini müəyyənləşdirmək məqsədilə suallarla onlara müraciət olunuşdur (həmin suallar cədvəldə öz ifadəsini tapmışdır):

Sorğunun nəticələri ilə 1-ci cədvəldən tanış olmaq mümkündür:

**Cədvəl 1.**

**Kütləvi sorğu zamanı müəllimlərə verilmiş sualların cavablarını əks etdirən göstəricilər**

| S/№ | Suallara alınan cavablar | Səviyyə | |
|---|---|---|---|
| | | Nəfərlə | %-lə |
| 1 | Pedaqoji ədəbiyyatda hansı pedaqoji (təhsil) texnologiyaları özünə yer almışdır | 16 | 50 |
| 2 | Hansı təlim texnologiyaları ilə tanışsınız? | 18 | 56 |
| 3 | Tərbiyə texnologiyalarından hansılarının adlarını çəkə bilərsiniz? | 11 | 34 |
| 4 | Tərbiyə texnologiyası dedikdə nə başa düşülməlidir? | 14 | 44 |
| 5 | Pedaqoji (təhsil) texnologiyalarına dair hansı ədəbiyyatla tanışsınız? | 9 | 28 |
| 6 | Təlim texnologiyalarına dair hansı ədəbiyyatla tanışsınız? | 8 | 25 |
| 7 | *V.A.Suxomlinskinin ”Kollektiv humanist tərbiyə texnologiyası”*nın mahiyyəti nədən ibarətdir? | 10 | 31 |
| 8 | Respublikamızda pedaqoqlardan kim tərbiyə texnologiyaları sırasına yeni bir tərbiyə texnologiyası əlavə etmişdir? | 5 | 16 |
| 9 | Həmin tərbiyə texnologiyası necə adlanır? | 10 | 31 |
| 10 | Ş.A. Amonaşvilinin “Şəxsiyyətyönlü humanist tərbiyə texnologiyası”nın mahiyyəti nədən ibarətdir? | 9 | 28 |
| 11 | O.S. Qazmanın “*Tərbiyə işində fərdi pedaqoji dəstək texnologiyası”*nın mahiyyəti nədən ibarətdir? | 7 | 22 |
| 12 | G.K. Selevkonun “Tələbə şəxsiyyətinin özünü təkmilləşdirmə texnologiyası”nin mahiyyəti nədən ibarətdir? | 6 | 19 |
| 13 | A.N. Abbasovun “Heç kim səni görməyəndə” tərbiyə texnologiyasının mahiyyəti nədən ibarətdir? | 11 | 34 |

**Qeyd:** Kütləvi sorğuda ümumilikdə ali məktəbdə seminar məşğələsi aparan 32 müəllim cəlb edilmişdir

Cədvəldən göründüyü kimi, birinci suala ("Pedaqoji ədəbiyyatda hansı pedaqoji (təhsil) texnologiyaları özünə yer almışdır?") 32 müəllimin yalnız 16 nəfəri (50% ); "Hansı təlim texnologiyaları ilə tanışsınız?" (2-ci sual) 18 nəfər (56 %); 4-cü suala ("Tərbiyə texnologiyası dedikdə nə başa düşülməlidir?") – 14 nəfər (44 %) qənaətləndirici cavab vermişdir.

İkinci sual belə idi: "Hansı təlim texnologiyaları ilə tanışsınız?" Bu sualı 18 nəfər (56%) cavablandırmışdır. "*Situasiyalı texnologiyalar"ın və "Layihəyə əsaslanan texnologiya"nın adlarını çəkmişlər*. "İnformasiya və Kommunikasiya Texnologiyaları" (İKT), "G*ündəlik texnologiyalar"ı, "Perspektivli texnologiyalar"ı "*Yaradıcı seminar texnologiyası"nı, "Təhsildə distant texnologiya"nı, "Tənqidi düşünmə texnologiyası"nı, "Problemli tədris texnologiyası"nı, "Oyun texnologiyası"nı qeyd etmək yada düşməmişdir.

"Tərbiyə texnologiyalarından hansılarının adlarını çəkə bilərsiniz?" (3-cü sual) alınan cavablardan görünür ki, yalnız 14 nəfər (34%) tərbiyə texnologiyalarlndan bir neçəsini (V.A. Suxomlinskiyə məxsus *"Kollektiv humanist tərbiyə texnologiyası"*, Ş.A. Amonaşviliyə məxsus Şəxsiyyətyönlü humanist tərbiyə texnologiyası" və s.) göstərmişdir. A.N. Abbasovun "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının adını çəkən olmamışdır.

O.S. Qazmanın "*Tərbiyə işində fərdi pedaqoji dəstək texnologiyası"nın* mahiyyəti barədə 7 nəfərin (22 %), G.K. Selevkonun "Tələbə şəxsiyyətinin özünü təkmilləşdirmə texnologiyası" nin mahiyyəti barədə 6 nəfərin (19 %) məlumatı vardır.

Tələbələrə də suallarla müraciət edilmişdir (2-ci cədvəldə həmin suallarla tanış olmaq olar):

**Cədvəl 2.**
**Kütləvi sorğu zamanı tələbələrə verilmiş sualların cavablarını əks etdirən göstəricilər**

| № | Suallara alınan cavablar | Qənaətləndirici (nəfərlə və faizlə) | |
|---|---|---|---|
| | | Nəfərlə | %-lə |
| 1 | Özünütərbiyə ilə məşğul olursanmı? | 29 | 33 |
| 2 | Özünütərbiyə zamanı hansı mənəvi keyfiyyətinin inkişaf etdirilməsi qayğısına qalırsan? | 26 | 30 |
| 3 | Ailədə valideynlərindən hansı tərbiyənlə daha çox məşğul olub?<br>3.1. ata<br>3.2. ana<br>3.3. hər ikisi | 30<br>42<br>15 | 34,5<br>48<br>17 |
| 4 | Ata-ananın məsləhətlərinə, öyüd-nəsihətinə qulaq asırsanmı, yoxsa daha çox müstəqillik göstərirsən?<br>4.1. qulaq asıram<br>4.2. müstəqillik göstərirəm | 35<br>52 | 40<br>60 |
| 5 | Səncə, mənəvi keyfiyyətlərindən hansının təkmilləşdirilməsinə ehtiyac vardır?<br>1.1. qayğıkeşlik | 13<br>21<br>25 | <br><br>15 |

| | | | |
|---|---|---|---|
| | 1.2. həssaslıq<br>1.3. xeyirxahlıq<br>1.4. ədalətlilik | 28 | 24<br>?<br>32 |
| 6 | Mühazirələr zamanı müəllim mövzuları tərbiyəvi baxımından əlaqələndirirmi? | 23 | 26 |
| 7 | Seminar məşğələsində müəllim mövzuları tərbiyəvi baxımından əlaqələndirirmi? | 19 | 22 |
| 8 | Tərbiyə texnologiyalarının tətbiqi ilə keçirilən seminar məşğələlərinə münasibətin necədir? | 32 | 37 |
| 9 | Hansı pedaqoqların tərbiyə texnologiyası xoşuna gəlir?<br>1.1. V.A. Suxomlinskinin<br>1.2. Ş.A. Amonaşvilinin<br>1.3. O.S. Qazmanın<br>1.4. A. Abbasovun<br>1.5. digər | 15<br>14<br>21<br>32<br>- | 17<br>?<br>24<br>37 |
| 10 | "Haradan başlanır Vətən?" sualına necə cavab verərdin? | 31 | 36 |
| 11 | Böyüklərə hörmətlə yanaşmaq nə üçün lazımdır? | 33 | 38 |
| 12 | Vətənin müdafiəsi kimin borcudur? | 30 | 34,5 |
| 13 | 44 günlük Vətən müharibəsindəki qələbəmiz səndə hansı hisslər qüvvətləndirib? | 38 | 44 |
| 14 | İnsan nə üçün sadə və təvazökar olmalıdır? | 35 | 40 |
| 15 | Həqiqi dost necə olmalıdır? | 41 | 47 |
| 16 | Nə üçün belə deyirlər: "Vicdanın səsinə qulaq as". | 31 | 36 |
| 17 | Biz nə üçün ədalətli olmalıyıq? | 29 | 33 |
| 18 | Bir çox adamların yaramaz əməllərini görüb, asanlıqla, fırıldaqla var-dövlət qazanmalarının şahidi olaraq düz və doğrucul olmaq hökmən lazımdırmı? | 30 | 34,5 |
| 19 | İnsanlar şəxsi, yoxsa ictimai mənafeyi əsas götürməlidirlər? | 28 | 32 |
| 20 | Yalançılıq kimi mənfi keyfiyyətə münasibətiniz necədir? | 27 | 31 |
| 21 | Yaltaqlıq kimi mənfi keyfiyyətə münasibətiniz necədir? | 28 | 32 |

**Qeyd:** sorğuda 87 tələbə iştirak etmişdir

Cədvəllə tanışlıq göstərir ki, 87 tələbənin yalnız 29 nəfəri (33 %) özünütərbiyə ilə məşğul olur (1-ci sual). "Özünütərbiyə zamanı hansı mənəvi keyfiyyətinin inkişaf etdirilməsi qayğısına qalırsan?" 2-ci sualına yalnız 26 tələbə (30 %) cavab vermişdir. Həmin tələblər birinci növbədə vətənpərvər olmağın vacibliyindən, Vətənin maddi və mənəvi sərvətlərinə görə iftixar hissləri keçirdiklərindən, Azərbaycan dövlətçiliyinə sədaqətin mühüm vəzifə olduğundan, milli şərəf və ləyaqətə yiyələnməyin vacibliyindən, böyüyə, ata-anaya, yaşlı adamlara hörmətdən və s. danışmışlar.

Yalançılıqdan, yaltaqlıqdan, acgözlükdən, namərdlikdən, adan satmaqdan, insafsızlıqdan, qəddarlıqdan, intolerantlıqdan, ədalətsizlikdən və s. uzaq olmağın vacibliyini qeyd etmişlər.

Mənəvi keyfiyyətlər sırasında böyüklərə hörmət, onlara hörmətlə yanaşmaq özünəməxsus böyük rol oynayır. Böyüklər kimlərdir? Böyük və böyüklər deyəndə, heç də məhz vəzifə sahibləri nəzərdə tutulmur. Bizim valideynlərimiz, qohum-əqrəba, qonşular, müəllimlər, tanıdığımız, tanımadığımız yaşlı adamlar, bizdən böyüklər, bəli, həm də iş yerində bizim tabeçiliyində olduğumuz şəxslər diqqət mərkəzinə gəlir.

Cədvələ daxil edilmiş 11-ci sual (Böyüklərə hörmətlə yanaşmaq nə üçün lazımdır?) böyüklərə hörmətlə bağlıdır. Tələbələrin yalnız 33 nəfəri (38 %) sualı cavablandırmış, böyüyə hörmətin zəruri olduğunu vurğunlamışlar.

13-cü sual belədir: "44 günlük Vətən müharibəsindəki qələbəmiz səndə hansı hisslər qüvvətləndirib?"

Bu sualı 38 nəfər (44 %) cavablandırmışdır. Tələbələrin cavabları:

Tələbə Günay: vətənpərvərlik hissimi.

Tələbə Fəxrəddin: milli mənlik şüurunu.

Tələbə Nigar: milli şərəf və ləyaqət hisslərini.

Tələbə Aybəniz: mərdlik, mübarizlik hisslərimi.

Tələbə Zaur: sülhə məhəbbət, müharibəyə nifrət hisslərimi.

Tələbə Humay: böyüyə hörmət hisslərimi.

Digər cavablarla cədvəl 4.1.3-dən tanış olmaq mümkündür.

16-cı sualda soruşulur: "Nə üçün belə deyirlər: "Vicdanın səsinə qulaq as". Bu sualı 87 tələbənin yalnız 31 nəfəri (36 %) cavablandırmışdır. Təəssüfləndiricidir.

Müsbət cavablara baxaq:

Tələbə Ziyafət: vicdanın səsinə qulaq asanda - insan ədalətli olur.

Tələbə Sevinc: vicdanın səsinə qulaq asanda - bu və ya digər şəxs insafsızlıq etmir.

Tələbə Reyhan: tələb olunur ki, haqq nahaqqa verilməsin.

Tələbə Fuad: Vicdanlı şəxs hörmətə layiqdir.

Tələbə Gülsüm: insan vicdanlı olanda heç kimə ziyan vurmur.

Tələbə Lətifə: vicdanlı adam xeyirxah olur.

Tələbə Südabə: hamıdan vicdanlı olmaq tələb olunur.

17-ci sual belədir: "Biz nə üçün ədalətli olmalıyıq?" Bu sual tələbələrin 29 nəfəri (33%) tərəfindən cavablandırılıb. Cavablarda göstərilir ki, ədalətli olduqda insanlar narazı qalmır; ədalətli müəllim tələbələrlə münasibətlərini düzgün və yüksək səviyyədə qurur, onları incitmir; ədalətli şəxs təmənnasız olur və s.

20-ci suala ("Yalançılıq kimi mənfi keyfiyyətə münasibətiniz necədir?") tələbələrin 27 nəfəri (31 %) cavab vermişdir. Qəribədir. Qalan 60 nəfər nə düşünür? Məlum deyil. Bəs nə üçün münasibət bildirməmişlər? Yəni yalançılığı təqdir edirlər? Ola bilməz.

21-ci sualla ( "Yaltaqlıq kimi mənfi keyfiyyətə münasibətiniz necədir?") bağlı da eyni fikri söyləyə bilərik. Bu sualı da 59 tələbə cavabsız qoymuşdur. İnanmaq olmaz ki, bu və ya digər tələbənin yalançı, yaxud yaltaq tələbədən, yaltaq insandan xoşu gəlsin. Fikrimizcə, sadəcə, tələbələr suallara cavablara məsuliyyətsiz yanaşmış, bəzən öz fikirlərini bildirməmişlər.

Eksperimentin müəyyənləşdirici mərhələsi eksperimentin öyrədici mərhələsinə keçməyə imkan vermişdir.

**Problemin aktuallığı.** Məqalədə tərbiyə texnologiyalarından istifadə etməklə tələbələrdə

mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi baxımından müəyyənləşdirici eksperimentin nəticələri öz əksini tapır.

**Problemin elmi yeniliyi.** Tərbiyə texnologiyalarından istifadə etməklə tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi özünün yeniliyi və əhəmiyyəti ilə seçilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

## Ədəbiyyat

1. Abbasov, A.N. Ailə pedaqogikası: Müntəxəbat. Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə. -Bakı: Mütərcim, 2020 272 s.

2. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. -Bakı: Mütərcim, 2020. – 608 s.

**R.R.Məmmədzadə**

## Tərbiyə texnologiyalarından istifadə etməklə tələbələrin mənəvi keyfiyyətlərinin formalaşdırılması üzrə işin səmərəlilik göstəriciləri: Müəyyənləşdirici eksperimentin təşkili və nəticələri

### Xülasə

Məlum olduğu kimi, pedaqoji eksperiment müəyyən metodların, vasitələrin səmərəliliyini müəyyənləşdirmək məqsədilə həyata keçirilən xüsusi təşkil olunmuş prosesdir. Pedaqoji eksperimentin keçirilməsi aşağıdakı hallarda zərurətə çevrilir:

— yeni ideyalar və ya fərziyyələr irəli sürüldüyü təqdirdə;

— maraqlı təcrübələri və ya pedaqoji ideyaları elmi cəhətdən yoxlamaq lazım gəldikdə.

**Р.Р.Мамедзааде**

## Показатели эффективности работы по формированию нравственных качеств учащихся с использованием образовательных технологий: организация и результаты определяющего эксперимента

### Резюме

Как известно, педагогический эксперимент — это специально организованный процесс, осуществляемый с целью определения эффективности тех или иных методов и средств. Проведение педагогического эксперимента становится необходимым в следующих случаях:

— при выдвижении новых идей или гипотез;

— при необходимости научной проверки интересных экспериментов или педагогических идей.

**R.R.Mammadzade**

**Indıcators of the effectıveness of work on the formatıon of natıonal qualıtıes of students usıng educatıonal technologıes: organization and results of the determining experiment**

**Summery**

As is well known, a pedagogical experiment is a specially organized process carried out to determine the effectiveness of certain methods and tools. Conducting a pedagogical experiment becomes necessary in the following cases:

— when new ideas or hypotheses are put forward;

— when interesting experiments or pedagogical ideas require scientific verification.

**Redaksiyaya daxil olub:** 17.11.2025

*UOT 37.01*

# AKADEMİK ETİKANIN ELM-TƏDRİS SİSTEMİNDƏ ROLU

**Sevda Caid qızı Novruzəliyeva**
*Azərbaycan Tibb Universitetinin dosenti*
**ORCİD:** 0009-0007-9535-7799
**E-mail:** novruzaliyeva1966@gmail.com
**Arzu Ağanəhməd qızı Mirzəyeva**
*Azərbaycan Tibb Universitetinin müəllimi*
**ORCİD:** 0009-0003-6717-4785
**E-mail:** mirzayeva.arzu1960@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.11

***Açar sözlər:*** *etika, akademik etika, dürüstlük, peşəkarlıq, sayğı, plagiat, elm-tədris, pedaqoq-tələbə*
***Ключевые слова:*** *этика, академическая этика, честность, профессионализм, уважение, плагиат, наука-преподавание, учитель-ученик*
***Key words:*** *ethics, academic ethics, honesty, professionalism, respect, plagiarism, science and education, teacher-student*

Qədim yunanca "ethos" sözündən alınan etika bəyənilən və xoş duyğular oyadan davranış qaydaları haqda, dəqiq desək, insan yaşamının ən önəmli yönlərindən olan əxlaq, ədəb və tərbiyə haqda bilik və təlimdir.

İnsanın doğularkən gətirdiyi ya da sonradan qazandığı davranışların məcmusuna əxlaq deyilir. Ərəbcədən "yaranışdan gəlmə" mənasına gələn əxlaq anlayışının 4 prinsipi var - ədalət, şücaət, iffət, hikmət. Belə ki, ədalət bütün pozitiv davranışların başıdır, ondan üstün özəllik bəşər tanımır. Şücaət ağlın yol verdiyi qorxmamazlıq deməkdir, o, hər insanda olmur, təkdənbir insanda olur, Prezident olaraq Heydər Əliyev, Milli Qəhrəman olaraq Mübariz İbrahimov kimi qorxmaz insanlarda. Həyanın bir qolu olan iffət nəfsi kontrolda saxlaya bilməkdir, bunu edə bilənə iffətli deyirlər. Hikmət isə bütün varlıqları olduğu kimi idrak etmək bacarığıdır. Bu mərtəbəyə çatan kəslərə hikmətli deyirlər.

Ədəb, utanma, çəkinmə, sıxılma, nəzakət, hədd bilmə, özünü tanıma duyğusudur. Susmağı bacaran və ədəbi olan kəs hara gedirsə, orada mənəvi sultan olacaq. Ədəb insanın mənəvi libasıdır.

Tərbiyə "qorumaq, yetişdirmək, ucaltmaq" mənasında ərəbcədən gəlmə söz olub, yetişdirmə, böyütmə, təhsil vermə anlamına gəlir. O kəs tərbiyə verə bilər ki, tərbiyəli olsun, yəni əxlaq və ədəb sahibi olsun.

Xeyir yetirmə, ziyan verməmə, düzlüyə dayanan etikanın iki qolu var – nəzəri etika, tətbiqi etika. Birincisi əxlaqın ortaq prinsiplərini öyrənir, ikincisi isə bu prinsiplərin həyatın konkret sahələrinə keçməsini reallaşdırır. Tətbiqi etikanın aparıcı növləri bunlardır:

1. Akademik etika (təhsil-tədris etikası);
2. Tibbi etika (həkim-pasiyent etikası);
3. Hüquqi etika (hüquq sferasında hüquqçu-vətəndaş etikası);
4. İşgüzar etika (biznes-ticarət etikası);
5. Ekoloji etika (insanın ətraf mühitə olan etikası);

6. Siyasi etika (siyasətçilərin etikası);
7. Sosial etika (cəmiyyətdə ədalət-əxlaq etikası).

**Akademik etika**

Bu etika tədris prosesində müəllim-tələbə cütlüyünün, elmi prosesdə elmi kadrların davranış və ünsiyyətini düzənləyən, akademik iş əsnasında dürüstlük, şəffaflıq və peşəkarlığı saxlamağa yönələn ortaq norma və dəyərlər sistemidir.

Açıqlamadan görürük ki, akademik etika tədris-elmi prosesdə yaşanmaqla iki iş görür – sadalanan proseslərə qatılan insanların davranış və ünsiyyətinə göz qoyur, tədris-elm məcrasında dürüstlük, şəffaflıq və peşəkarlığı prioritet sayır.

Akademik prosesə qatılan müəllim, tələbə, şagird və elmi kollektiv bu işləri görə bilməz: Azərbaycan xalqının tarixi keçmişinə kölgə salmaq; Azərbaycan xalqının adət-ənənələri və inanclarını aşağılamaq; Azərbaycan dövlətinin daxili və xarici siyasətini tutarlı fakt və hüquqi əsas olmadan tənqid etmək; Azərbaycana dost olmayan dövlətlərin siyasətini təbliğ və təşviq etmək; Azərbaycanın çağdaş tədris-elmi sisteminə xələl yetirəcək qaynaqlara əsaslanmaq və onlardan örnəklər gətirmək; şagird, tələbə, müəllim və elmi işçilərdən qanunsuz bir işin qarşılığı olaraq rüşvət almaq; tədris prosesinə və elmi fəaliyyətə başdansovdu yanaşmaq, üzrlü səbəb olmadan dərslərə və akademik işə gecikmək.

**Dürüstlük və akademik etika**

Dürüstlük insan həyatının bütün sahələrində, eləcə də akademik etikada yönləndirici və yaradıcı bir prosesdir. Dürüstlüyün var olduğu akademik prosesdə müəllim-müəllim, tələbə-müəllim, tələbə-tələbə, rəhbərlik-müəllim, rəhbərlik-tələbə, rəhbərlik-elmi işçi arasında güvən-sevgi-dayaq olur. Güvənə, sevgiyə və dayağa dayanan bir kollektiv mehriban bir iş yeri olur, qəlb sızıntılarını bölüşmək üçün bir məkan olur, elmi uğurları paylaşmaq üçün bir sığınacaq olur, motivasiya verən bir toplantı olur.

Dürüstlüyün hökmran olduğu bir kollektivdə (real cənnətin bir güşəsində) çalışan bir insan elmindən, vəzifəsindən, sosial mövqeyindən, milli köklərindən asılı olmayaraq gündən-günə insanlaşar, elm zirvələrinə və tədris incəliklərinə çatmaq üçün var gücünü sərf edər, yorulmadan və ruhdan düşmədən. Güvən-sevgi-dayaq üçlüyü hər iş günündə insana enerji və potensial verər, çünki güvənin, sevginin və dayağın verdiyi enerjini heç nə, heç bir idman növü, heç bir yemək növü verə bilməz. İdman və qida fiziki güc verir, mənəvi güc vermir. Elmi iş üçün aparıcı olan mənəvi gücü güvəndə, sevgidə və dayaqda axtarmalıyıq.

Akademik prosesə qatılan bir fərd o zaman dürüst bir fərd sayılar ki, aşağıdakı proseslərdən üzüağ keçsin: akademik işləri doğru-düzgün icra etsin (kurs işi yazmaq, dərs demək, məqalə yazmaq, imtahan götürmək, imtahan vermək, leksiya oxumaq, seminar keçmək, elmi-tədqiqat aparmaq kimi işləri doğru-düzgün aparsın); tələbələrə, müəllimlərə, elmi işçilərə, elmi qaynaqların müəlliflərinə sayğı duysun; elmi qaynaqları təhrif etməsin; vəzifəsini və məsuliyyətini dərk etsin.

10-cu əsr fars şairi Ə. Firdovsi yazırdı ki, insanı ucaldan, ona sayğı və sevgi qazandıran 3 faktor var – ağıl, bilik, dürüstlük. Bu üçlüyün başında ağıl, sonunda isə dürüstlük dayanır. Sıralamadan bu nəticəni alırıq ki, insanın dürüst olması üçün ona ağıl və bilik gərəkdir. Şairin bu üçlüyü onun dövründə aktual və qurucu olduğu kimi, çağdaş akademik prosesdə, akademik etikada aktual və quruculuğunu saxlayır. Ağıl-bilik-dürüstlük akademik prosesə canlılıq və quruculuq verir, əyrilik isə onu yanlış yola aparır (1, s.216):

*Xerəd bayədo daneşo rasti,*
*Ke kəjji bekubəd dəre-kasti.*
*Ağıl, bilik və dürüstlük gərək,*
*Əyrilik çöküş qapısını çalar.*

Müəllim elə peşə sahibidir ki, akademik prosesdə ikən öyrədən və öyrənən olur. Doğrudan da, etikalı və dürüst müəllim fənnini tədris edərkən konkret mövzuya dair nələri bilirsə onları bir-bir tələbələrinə çatdırır. Hər hansı bir müəllim tədris etdiyi fənni nə qədər yaxşı bilsə də, əla bilsə belə, o fənnə dair yenə bilmədikləri var. Müəllim bildiyindən daha çox o zaman bilər ki, fənnini tələbələrə sevdirərək onların verdiyi suallar əsasında yeni-yeni incəlikləri tapıb öyrənsin. Deməli, müəllimin akademik etikası olursa, bu o deməkdir onun dürüstlüyü var, bu həm də o deməkdir ki, öyrədən və öyrənən bir şəxsdir. Müəllim dərs dediyi auditoriyadan nəsə öyrənib çıxmırsa, müəllimin suçu var, tələbənin yox. Tələbə bir məşəldir, müəllim isə onu alovlandıran. Tələbə auditoriyada alovlanmırsa, fənni tədris edən müəllim var, amma tələbəni alovlandıran müəllim yoxdur. Bakıda doğulan, fizika üzrə Nobel mükafatçısı, akademik Lev Landau doğru buyurur ki (2):

*Некоторые считают, что учитель обкрадывает своих учеников. Другие — что ученики обкрадывают учителя. Я считаю, что правы и те и другие, и участие в этом взаимном обкрадывании прекрасно.*

*Bəziləri düşünür ki, müəllim şagirdləri soyur. Bir başqaları düşünür ki, şagirdlər müəllimi soyur. Mən isə düşünürəm ki, onlar da, bunlar da haqlıdır və bu qarşılıqlı soyğuna qatılmaq gözəldir.*

**Peşəkarlıq və akademik etika**

Hər tədris-elm sahəsinin öz peşəkarları var. Tədris-elm sahəsinin peşəkarı o kəsdir ki, yüksək səviyyədə ustalığı, biliyi, informasiyası, bacarığı, potensialı, etikası və davranış biçimi var. Belə insan öz çevrəsində olanlara ilham və dəstək verir, onun istəyi konkret bir işin daha yüksəklərə ucalmasıdır. Peşəkarlıq, özəlliklə yüksək peşəkarlıq qoymur ki, insan paxıllığa varsın, dedi-qoduya yuvarlansın, istedadı olanların yüksəlişinə əngəl olsun.

Azərbaycanın tədris-elm sahəsində yüksək etikası ilə seçilən yüksək peşəkarları olub və var. Akademik-bəstəkar Üzeyir Hacıbəyli, akademik-həkim Mustafa Topçubaşov, akademik-şair Səməd Vurğun, akademik-yazıçı Mirzə İbrahimov, akademik-kimyaçı Yusif Məmmədəliyev, akademik-filosof Heydər Hüseynov, akademik-həkim Mirəsədulla Mirqasımov, akademik-botanik Həsən Əliyev, akademik-fizik Azad Mirzəcanzadə, akademik-heykəltaraş Fuad Əbdürrəhmanov, akademik-rəssam Mikayıl Abdullayev, akademik-heykəltəraş Ömər Eldarov, daha onlarla akademiklər və yüzlərlə professorlar – bu insanların hər biri yüksək etika və yüksək peşəkarlıq sahibi olublar. Akademik etikada dürüstlük nə qədər önəmli isə, peşəkarlıq da o qədər önəmlidir. Demək, dürüstlük-peşəkarlıq-etika biri digərindən ayrılmayan, bir amala və hədəfə yönələn uca faktorlar sayılır.

Sayğı Tanrı varlığına, xalqın adət-ənənəsi və dini inancına; insana, düşüncəsinə, davranışına, yaşına, soy-kökünə, haqqın yanında durmasına, cəsarətinə, pozitivliyinə, uzaqgörənliyinə, müdrikliyinə, xeyrsevərliyinə və peşəkarlığına; təbiətin gözəlliyinə və təkrarsızlığına, qoynunda bəslədiyi canlı və cansız varlıqlara duyulan sevgi duyğusudur.

Sevgidən doğan sayğı akademik prosesdə (gələcək nəsillərin təhsillənməsində) böyük önəm

daşıyan faktorlardan biridir. Pedaqoq təhsil verdiyi tələbənin bir Tanrı varlığı olmasını və şəxsiyyətini saya almırsa, tələbə onu sevə bilməz, sevmədiyinə görə ona sayğı duymaz, sayğı duymadığına görə verdiyi elmi informasiyanı yetərincə mənimsəyə bilməz, yetərincə mənimsəmədiyinə görə peşəkar bir kadr olmasına inanmaq olmaz.

Pedaqoji prosesdə sayğı təkyönlü yox, ikiyönlü olmalıdır. Əgər pedaqoq tələbələrə sayğı göstərirsə, amma onlar ona sayğı göstərmirlərsə - bu, təkyönlü sayğıdır. Sərgilənən belə sayğının gələcəyi olmur, bəhrəsi də olmur. Odur ki, sayğının ikiyönlü örnəyi sayğının ən gözəl, ən faydalı və ən etikalı olanıdır. Qautama Budda sayğı və ünsiyyətin necəliyinə aydınlıq gətirərkən 26 əsr bundan öncə deyirdi ki, bir-birinizə sayğı duyun, çəkişməyin (mübahisə etməyin); insanların bir-biri ilə çəkişməsi bir-birini dəfn edən yağ və su kimidir, insanların bir-biri ilə qaynaşması isə süd və su kimidir. Göründüyü kimi, Buddanın müdrik kəlamında öndə duran sayğı qaynaşmaya (insanlararası ünsiyyətə) yol açır, çəkişmələr isə ayrılıqlara, küsülərə, kin və düşmənçiliyə aparır (3, s. 83):

You should respect each other and refrain from disputes; you should not, like water and oil, repel each other, but should, like milk and water, mingle together.

Bir-birinizə sayğı duymalı və çəkişmələrdən çəkinməlisiniz; su və yağ kimi bir-birinizi dəfn etməməlisiniz, əksinə, süd və su kimi bir-birinizə qaynaşmalısınız.

**Plagiat və akademik etika**

Plagiat – özünün olmayan bir informasiyanı, özəlliklə elmi bir informasiyanı öz adından söyləmək, kitab və məqalələrdə öz adından dərc etdirməkdir. Yanlış və aldadıcı bir yanaşma olan plagiatın elmə və təhsilə faydası yoxdur. Bu yanlış yola elə tələbələr, doktorantlar, tədqiqatçılar və alim adını almış şəxslər üz tuturlar ki, onların elmi bacarığı aşağıdır, ixtisaslarını yetərincə bilmirlər, ingiliscə və ruscaya elmi səviyyədə yiyələnmirlər.

Ali təhsil ocaqlarında, elmi-tədqiqat institutlarında seçilən, gələcəyi olan bir pedaqoq və alim üçün plagiat gərək deyil, dörd faktor gərəkdir – tədris ya tədqiq etdiyi elmi sahəyə bağlılıq, gərgin əmək, əzmkarlıq və səbir. Elmi adına, iş yeri və vəzifəsinə, elmi gələcəyinə sayğı duyan bir şəxs plagiata yaxın durmaz, çünki bu işin üstü gec-tez açılacaq.

Sovet dönəmində, dünya elminə çıxışın çox məhdud olduğu və İnternetin olmadığı bir dönəmdə plagiat təkdənbir yaşanırdı, indiki kimi geniş yayılmırdı. Plagiata gen-bol yol açan İnternet resurslarının əlyetən olmasıdır. Azərbaycanda plagiatın qarşısını almaq üçün təhsil və elm qurumları bir sıra tədbirlər görüblər, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası plagiata yol verən elmi ad və dərəcələr üçün ciddi ölçülər götürüb, bir sıra elmi adları ləğv edib, üstündən illər keçsə belə. Plagiatın kökünü əsaslı olaraq sarsıtmaq üçün yeni formatda praktik və profilaktik işlər görülməlidir. Dünyanın hər yanına saniyələr içində gedib çatan əlahəzrət İnternetin gündən-günə yeniləşən imkanlarından yararlanmaqla. Düşünürük ki, plagiatı İnternet yaydığı kimi, onun qarşısını da İnternet ala bilər. Yetər ki, dövlət və özəl qurumlar bu önəm daşıyan prosesə, elm və təhsilin gələcəyini ləkələyən prosesə özəl bir diqqət yetirsinlər.

Nizami farsca yazdığı əsərlərində "oğurlanmış, talanmış" anlamında plagiat ifadəsini işlətmir, ancaq plagiat demək olan "dul söz" ifadəsini işlədir. Böyük ədib yazır ki, iki söz var – bakir söz, dul söz. Bakir söz odur ki, yenidir, təravət və anlamı var, qabaqlar işlənməyib. Dul söz odur ki, köhnədir, bir başqasına aiddir. Şair yazı əhlinə, söz əhlinə, təhsil əhlinə tövsiyə edir ki, bir bilicinin, bir alimin, bir rəhbərin dediyini demə və yazma, nə deyirsən və nə yazırsan,

yeni olanı yaz və yeni olanı de, söz bir inci kimidir, bir inciyə bir dəlik açıla bilər, artıq yox (4, s.982):

*Məquy an çe danaye-pişin qoft,*
*Ke dər dor nəşayəd do surax soft.*
*Ço niruye-bekr azmait həst,*
*Be hər bive xod-ra məyalay dəst.*
*Onu demə ki, bilici öncə deyib,*
*İnciyə iki dəlik açmaq olarmı.*
*Bakir söz üçün gücün varkən,*
*Hər bir dul sözə əlini uzatma.*

Vurğulayaq ki, plagiatla bağlı yazdıqlarımız əsas verir deyək ki, plagiat akademik etikaya qarşı olan bir davranışdır, bir ədəbsizlikdir, bir oğurluqdur, bir saxtakarlıqdır. Unutmayaq ki, "plagiat" sözü latıncadan "oğurlanmış" deməkdir.

Hər kəsin həyatı hər an dəyişir, necə ki dünya hər an dəyişir. Gerçək dəyişim o deyil ki, yeni nəyəsə sahib olasan və keçmişinə, verdiyi ibrətlərə önəm verməyəsən. Belə dəyişim keçmişi olmadan gələcəyə sahib olmaq yox, gələcəyə yönəlməkdir. Dürüst və etikalı bir pedaqoq keçmişdə əldə etdiyi bilikləri unutmur, vaxtaşırı onlara qayıdır, onlardan təcrübə qazanır və onlara dayanaraq yeni elmi uğurlara çatır.

Antik Çin filosofu Konfutsi bir sitatında buyurur, o kəs başqalarına müəllim ola bilər ki, keçmiş biliyini əziz tutur və davamlı olaraq yeni biliklər əldə edir. Böyük filosofun bu deyimində "əziz tutur", "davamlı olaraq" adlı iki ifadə diqqət çəkir. Birincisi o deməkdir ki, keçmiş biliyi və elmi təcrübəsi olmayan kəs başqalarını öyrədə bilməz. İkincisi odur ki, akademik prosesdə çalışan kəs o zaman başqalarını öyrədə bilər ki, bilik təcrübəsi olsun və tədris etdiyi fənnin üzərində davamlı olaraq işləsin və onun yeni incəliklərinə sahib olsun. Qənaətimizcə, Konfutsinin təsdiq etdiyi bu müəllim etikalı, bilikli, təcrübəli və hər zaman elmi yeniliklərə can atan gerçək bir müəllimdir. Bu insan ailədə, cəmiyyətdə, akademik prosesdə seçilən bir fərd sayılır (5, s.182):

*If a man keeps cherishing his old knowledge so as continually to be acquiring new, he may be a teacher of others.*

*Əgər bir adam köhnə biliyini əziz tutur və davamlı olaraq yeni biliklər əldə edirsə, o, başqalarına müəllim ola bilər.*

**Problemin aktuallığı.** Çağdaş dövrümüzdə olduqca önəm daşıyan və get-gedə önəmliyi artmaqda olan akademik prosesə (tədris-elm sisteminə) həsr olunur. İkinci aktuallığı odur ki, təhsil, tədris və etika qarşılıqlı məcrada öyrənilir, etikaya daha çox yer ayırmaqla. Üçüncü aktuallığı odur ki, ingiliscə, rusca və farsca olmaqla 3 dildə sitatlar və məqalə müəllifinin filoloji tərcümələri təqdim olunur.

**Problemin elmi yeniliyi.** Son əsrdə akademik etikanın elm-tədris sistemində rolu, elmi potensialı genişlənir və sözsüz ki, genişlənməkdə davam edəcək.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə yer alan problemlər bir çox elmi sahələrdə çalışan doktorantların, alimlərin və müstəqil tədqiqatçıların məqalə, elmi iş və dissertasiyalarında, o sıradan akademik və işgüzar kommunikasiya, etika, pedaqogika kimi sahələrdə istifadə oluna bilər.

**Ədəbiyyat**


1. Firdovsi Ə., Şahname, Tehran, "Sepide", 1390, 574 s.
2. https://www.vk.com/Контакты / Лев Ландау.
3. The Buddha, True Love is Born from Understanding, "Independently published", 2021, 120 p.
4. Nizami G., Kolliyate-Xəmse, II c., Tehran, "Cavidan", 1388, 680-1533 s.
5. The Big Book of Confucius, "Independently published", 2023, 501 p.


**S.C.Novruzəliyeva, A.A.Mirzəyeva**

**Akademik etikanın elm-tədris sistemində rolu**
**Xülasə**


Məqalədə 5 başlıq var – akademik etika, dürüstlük və akademik etika; peşəkarlıq və akademik etika; sayğı və akademik etika; plagiat və akademik etika.

Birinci başlıqda akademik prosesdə dürüstlüyün aparıcı mövqeyinə, dominant rol oynamasına işıq salınır. İkinci başlıqda peşəkarlıq anlayışına, elm – tədris prosesində onun danılmaz və həll edici olmasına yer ayrılır. Üçüncü başlıqda pozitiv bir yaşantı olan sayğı öyülür, təhsil və tədris axarına gətirdiyi məlhəmlər sıralanır. Dördüncü başlıqda neqativ bir yanaşma olan plagiat qınanır, akademik prosesə vurduğu yaralar sadalanır.

Məqalədə mövzunun aktuallığına, elm və tədqiqat əhəmiyyətinə lakonik baxış keçirilir.


**S.C.Novruzəliyeva, A.A.Mirzəyeva**

**Роль академической этики в системе науки и образования**
**Резюме**


Статья охватывает 5 тем: академическая этика, честность и академическая этика; профессионализм и академическая этика; уважение и академическая этика; плагиат и академическая этика.

В первой теме подчеркивается ведущее положение и доминирующая роль честности в академическом процессе. Вторая тема фокусируется на понятии профессионализма, его неоспоримой и решающей роли в научно-образовательном процессе. Третья тема восхваляет уважение как позитивный опыт и перечисляет его преимущества для образовательного и преподавательского процесса. Четвертая тема осуждает плагиат как негативное явление и перечисляет его вред, наносимый академическому процессу.

В статье дается краткий обзор актуальности темы, важности науки и исследований.

**S.C.Novruzaliyeva, A.A.Mirzayeva**

**The role of academic ethics in the science and education system**

**Summary**

The article covers 5 topics – academic ethics, honesty and academic ethics; professionalism and academic ethics; respect and academic ethics; plagiarism and academic ethics.

The first topic highlights the leading position and dominant role of honesty in the academic process. The second topic focuses on the concept of professionalism, its undeniable and decisive role in the science and education process. The third topic praises respect as a positive experience, and lists the benefits it brings to the education and teaching process. The fourth topic condemns plagiarism as a negative approach, and lists the wounds it inflicts on the academic process.

The article provides a concise overview of the relevance of the topic, the importance of science and research.

**Redaksiyaya daxil olub:** 04.12.2025

*UOT 37.01*

# XVII-XVIII ƏSR AZƏRBAYCAN VƏ OSMANLI-TÜRK KLASSİK ƏDƏBİYYATINDA VƏTƏNPƏRVƏRLİK VƏ QÜRBƏT MOTİVLƏRİ

**Lamiyə Sabir qızı Rəhimova**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun*
*Türkdilli əlyazmaları tədqiqi şöbəsinin müdiri*
*filolgiya üzrə fəlsəfə doktoru, dosent*
**ORCİD:** 0000-0003-0952-4452
**E-mail:** lamiarahimova75@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.12

***Açar sözlər:*** *qürbət, vətən, vətənpərvərlik, ədəbiyyat, klassik*
***Ключевые слова:*** *Чужая земля, родина, патриотизм, литература, классика*
***Key words:*** *exile, homeland, patriotism, literature, classics*

XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, vətənpərvərlik motivlərinin güclü şəkildə ifadə olunduğu bir dövr kimi səciyyələnir. Bu dövrdə yaranan ədəbi nümunələrdə vətənə sevgi, milli kimliyin qorunması və ana dilinə bağlılıq kimi mövzular ön plana çıxmışdır.

I Şah Abbasın (1588–1629) hakimiyyəti dövründə Səfəvi dövlətinin mərkəzləşdirilməsi və paytaxtın Qəzvindən İsfahana köçürülməsi, alim, şair və sənət adamlarının həyatında mühüm dəyişikliklərə səbəb olmuşdur. Şah Abbasın mədəniyyət siyasəti bir tərəfdən sənətkarların himayəsini təmin etsə də, digər tərəfdən onların sərbəst fəaliyyət imkanlarını məhdudlaşdırmışdır. I Şah Abbasın (1588–1629) hakimiyyəti dövründə Səfəvi imperiyasının mərkəzləşdirmə siyasəti, xüsusilə də paytaxtın Qəzvindən İsfahana köçürülməsi, alim, şair və sənətkarların həyat və fəaliyyətində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Şah Abbas, İsfahanı imperiyanın mədəni və siyasi mərkəzinə çevirmək məqsədilə müxtəlif bölgələrdən, o cümlədən Azərbaycandan olan sənətkarları bu şəhərə cəlb etmişdir. Bu köçürmələr, bəzi hallarda könüllü olsa da, bir çox hallarda məcburi xarakter daşımışdır.

İsfahanın yenidən qurulması və mədəniyyətin inkişafı üçün Şah Abbas, müxtəlif sənət sahələrində tanınmış şəxsləri saraya dəvət etmişdir. Məsələn, şairlərdən Məsihi və Saib Təbrizi, xəttat və rəssamlardan Sadıq bəy Əfşar, Əlirza Təbrizi və Mir Məhəmməd Qəzvini kimi sənətkarlar onun sarayında fəaliyyət göstərmişlər. Bu şəxslər, İsfahanın mədəni həyatında mühüm rol oynamış və şəhərin sənət mərkəzinə çevrilməsinə töhfə vermişlər. Bu illərdə Şakir, Naseh, Vahid, Nadir, Vüqui, Zahid, Hali, Həşri təxəllüsü ilə yazan Azərbaycan şairləri də şahın hökmü ilə İsfahana köçürülmüşdülər (1, s.92). Birqisim şairlər isə başda Saib Təbrizi, Məsihi, Arif, Məlum, Hümai, Şeyda, Rabit, Razi, Rəhməti, Rəşid və ümumiyyətlə 30 yuxarı şair Azərbaycandan uzaqlaşmışlar. Hətta "Bürhani-Qate"ni yazan Bürhan və müxtəlif dini-fəlsəfi əsərlərin müəllifi Yusif Qarabaği də ölkədəb gedənlər arasında olmuşlar. İbrahim Ordubadi Şah Cahanın (1627-1658) vəziri Nəvvab Cəfər xanın uşaqlarının müəllimi olsa da həmişə vətən həsrəti çəkmiş, vətənini arzulamışdır. Vətəndən uzaqda rifah içində yaşasalar da geri dönə bilməyən elə qürbətdə də vəfat edən şairlərin ədəbi irsi çox vaxt üzə çıxmırdı. Belə şairlərdən biri haqqında Həmid Araslı aşağıdakıları yazır:

"...satirik şeirləri ilə məşhur olan, qədim təzkirəçilərin çox təriflədikləri, lakin əsərləri bizə

gəlib çatmamış olan Mirzə Sadiq Ordubadi idi"(1,s.93). Onun ölümünə görə Zühuri bir rübai qələmə almışdır. Şah Abbasın ölümündən sonra Saib Təbrizi və Məsihi kimi şairlər vətənlərinə qayıtsalar da bunlar qürbətə gedən sənətkarların çox az hissəsini təşkil edir. Bütün bu hadisələr fonunda klassik ədəbiyyatımızda vətənpərvərlik, doğma dilinə sevgi və qurbət motivi geniş şəkildə əsərlərdə müşahidə edilirdi. Məsihini "Vərqa və Gülşa" poemasında Vərqa şəxsi mübarizəsini vətən, namus uğrunda gedən mübarizə səviyyəsinə qaldırmış şairin daxilində olan vətən sevgisinin təzahürü halına gəlmişdir.

Lakin bu mərkəzləşdirmə siyasəti, bəzi sənətkarların narazılığına səbəb olmuşdur. Məcburi köçürülmələrə etiraz edən bəzi alim və şairlər, sərbəst yaradıcılıq imkanlarının məhdudlaşdırıldığını düşünərək, Səfəvi dövlətini tərk etmiş və Hindistana köç etmişlər. Hindistanda, xüsusilə Böyük Moğolların saraylarında, bu sənətkarlar üçün daha sərbəst yaradıcılıq mühiti mövcud idi və onlar burada fəaliyyətlərini davam etdirmişlər.

Nəticə etibarilə, I Şah Abbasın mərkəzləşdirmə siyasəti, İsfahanın mədəni inkişafına təkan versə də, bəzi alim, şair və sənətkarların sərbəst fəaliyyət imkanlarını məhdudlaşdırmış və onların bir qisminin ölkəni tərk etməsinə səbəb olmuşdur. Bu dövr, Səfəvi imperiyasının mədəniyyət siyasətinin sənətkarların həyat və fəaliyyətinə təsirini əks etdirən mühüm bir mərhələdir.

Osmanlı İmperiyasında da bu dövr çətin keşməkeşli bir dövr olaraq bilinməkdədir. Şairlər bəzən sultanların qəzəblərinə düçar gələrək məmləkətlərindən yad ölkələrə sürgün edilirdi. Bu da şairlərin yaradıcılıqlarında öz bədii ifadəsini tapırdı.

Şah Abbas dövründə onun siyasətinə boyun əyməkdən imtina edən Əbutalıb Təbrizi və Mirzə Məhəmməd Ordubadi kimi sənətkarları edam etdirdiyi tarixdə bilinməkdədir. XVII əsr azərbaycan şairlərinin bir çoxu məmləkətlərini tərk edərək digər ölkələrə Hindistan, İraq, Orta Asiya və Türkiyəyə getmək məcburiyyətində qalmışlar. Onlar haqqında ən geniş məlumatı "Məcməül-xəvas", "Təzkireyi-Nəsrabadi", "Ruzi-rövşən", "Miratül xəyal", "Atəşgədə", "Danişməndani-Azərbaycan", Saib Təbrizinin "Səfinə" əsərində məlumatlar mövcuddur.

XVII əsrdə vətənpərvərlik ideyaları Qövsi Təbriz sənətində formalaşdı, problemə çevrildi, bədii ifadəsini tapdı (3, s.188). XVII əsr Azərbaycan şairlərindən Təbrizdə bir şair ailəsində doğulub böyüdüyü bilinən Əlican Qövsinin təhsil üçün getdiyi İsfahanda vətənini nə qədər sevdiyini, doğma Təbrizi tərənnüm etdiyinin şahidi oluruq. Qövsinin şeirlərində qarşılaşdığımız vətənpərvərlik hisləri qürbət duyğusunu Firudin bəy Köçərli belə dilə gətirmişdir: "Çox ehtimal var ki, Qövsi bu şeirləri qürbətdə olduğu zaman yazmışdır" (8, s.176).

Səfi Mirzənin hakimiyyəti illərində (1666-1694) Qövsinin yurdu darmadağın olmuş, mədəniyyət məhv olmuş xalqa zülm və istismar ən son mərtəbəyə çatmışdır. Belə bir dövrdə Əlican Qövsi "....yaşayıb yaratmış, əsərlərində azadlıq hislərini, vətən məhəbbətini tərənnüm edən şair olaraq şöhrətlənmişdir" (1, s.157). Qövsi eyni zamanda ana dilində yazmağa üstünlük verən şairlərdən olmuşdur. O, Azərbaycan dilinə istehza ilə yanaşanları tənqid etmiş, onlara etiraz etməkdən çəkinməmişdir. Qövsinin bir şeirində oxuyuruq:

Haray kim, nə dilim var, nə bir dil anlayanım,
Əgərçi ney kimi cismim fəğan ilə doludur. (9, s.159)

XVII əsr Azərbaycan klassik ədəbiyyatın nümayəndələrindən Sadiq Bəy Əfşar vətən haqqında olan düşüncələrini belə dilə gətirmişdir:

Bilməs ermişlər kişi qədrin vətən əbnası çün,
Tuğqay erdi damənimni xaki-qürbət kaş ki. (7, s.52)

XVIII əsr şairlərindən Nişat Şirvaninin şeirlərində də vətən sevgisi yurd həsrəti kimi motivlərlə qarşılaşırıq. Şairin aşağıdakı misraları çəkdiyi çətinlikləri və qurbət həyatını bizə aydın şəkildə göstərir:

Hər bəzmə ki, basdım ayaq, üfdadəlik etdim,
Peymanə kimi dəstənə əldən-ələ düşdüm.
Bir digər beytdə,
Qürbətdə gərək gün keçirə mərdi-süxəndan,
Yəni hünər avarə qılır əhli-kəmali. (1, s.187)

Haqqında Müctəhidzadənin Riyazül-Aşiqin, Köçərli Firudin Bəyin, Məhəmməd Tərbiyətin, Həmid Araslının məlumat verdikləri Təbrizli olsa da ömrünü Qarabağda başa çatdıran Təbrizli Arifin də şeirlərində vətən sevdası qürbət motivi özünü göstərməkdədir. Bütün şeirlərini yalnız azərbaycan dilində yazması da şairin vətənpərvərlik duyğularının yüksəkliyinin təzahürüdür. Dövrün digər görkəmli şairlərindən Vidadinin də əsərlərində qürbət motivi vətən həsrəti özünü göstərir. Onun şeirlərində vətənə bağlılıq və xalqın rifahı üçün narahatlıq kimi mövzular əks olunmuşdur. Vidadi, həmçinin, Molla Pənah Vaqif ilə poetik dialoqları ilə tanınır.

Vidadinin vətənini dərin məhəbbətlə sevdiyini aşağıda verdiyimiz nümunədən də aydın görmək olar:

Dəli könül gəl əylənmə qürbətdə,
Bir gün olur vətən deyib ağlarsan.
Yadlar ilə ömür çürür həsrətdə,
Bir gün olur vətən deyib ağlarsan. (17, s.15)

Başqa bir şeirində şairin vətən məhəbbətinin poetik ifadəsinin şahidi oluruq:

Qəriblikdə yada düşər yanaram,
Aşna, yoldaş, yar, müsahib ellər hey (17, s.18).

Molla Pənah Vaqifin poeziyası, sadə və xalq dilinə yaxın üslubu ilə seçilir. Onun şeirlərində vətənə sevgi və xalqın gündəlik həyatına dair təsvirlər ön plandadır. Şairin əsərləri, realizm üslubunun əsasını qoyaraq, milli şüurun formalaşmasına töhfə vermişdir.

Vaqif:

Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim,
Ayaq üstdən Qazağa bir gedib, gördüm vətən, gəldim. (16, s.161)

Vətən xoşdur deyə, Vaqif, bizi çəkdin Salahlıya
Səlah bilməm nədir yanında yari-canfəza yoxdur. (16, s164)

Bu dövrdə yaranan qəhrəmanlıq dastanları da vətənpərvərlik motivlərini əks etdirir. "Koroğlu" dastanı, xalqın azadlıq və ədalət uğrunda mübarizəsini təsvir edərək, vətənə sevgi və qəhrəmanlıq kimi dəyərləri ön plana çıxarır.

Aşıq Qərib dastanında vətənpərvərlik ruhunda və vətən həsrəti, qürbət motivi yer almışdır. Həmid Araslı dastanda Təbriz şəhərinin tərənnüm edildiyini qeyd edərək "Təbriz əhalisinin mərdliyini, bir çox ölkələrlə ticarət əlaqəsi saxladığını göstərən misralar xüsusilə mənalıdır." (1, s. 67) şəklində fikrini bildirir:

Təbrizin ətrafı dağdı meşədi,
İçində oturan bəydi, paşadı
Səkkiz min məhəllə beş min guşədi,
Çarşusu, bazarı, yolu Təbrizin. (2, s.17)
Vətənimdən etdi məni didərgin,
Çərxin dönsün, fələk Heydərim ağlar!
Bu duman, bu çiskin bilməm ki nədi?
Çar tərəfin nədən qar alı dağlar? (2, s.14)
Xaraba qalasan, ay qərib ölkə,
Heç səndə oynayıb gülən yox imiş!
Bülbül susub, bağ pozulub, gül solub,
Yad bağların etibarı yox imiş! (2, s. 27)

Nəticə etibarilə, 17–18-ci əsrlər Azərbaycan ədəbiyyatı, vətənpərvərlik motivlərinin güclü şəkildə ifadə olunduğu və milli kimliyin formalaşmasına töhfə verdiyi bir dövr kimi qiymətləndirilə bilər. Bu dövrdə yaranan ədəbi nümunələr, xalqın vətənə bağlılığını və milli dəyərlərə hörmətini əks etdirərək, Azərbaycan ədəbiyyatının zəngin irsini formalaşdırmışdır.

XVII əsr şairlərindən Naili, həyat səviyyəsini bəyənmədiyi bir mühitdə çətinliklə qarşılaşmış, ömrünün son dövrlərində vəziyyəti daha da ağırlaşmış və Sədrəzəm Fazil Əhməd Paşa tərəfindən İstanbuldan uzaqlaşdırılmışdır. Paşanın sədrəzəmliyə gəldiyi qısa müddət ərzində, səbəbi dəqiq məlum olmasa da, ehtimal ki, təzkirə müəllifi Səfayinin qeyd etdiyi kimi, Nailini qısqanmış və ya ona qarşı çıxmış şəxslərin təsiri altında, 1661-ci ilin oktyabr–dekabr ayları arasında, sədrəzəmliyinin qeyd olunduğu mərasimlər zamanı Edirnəyə sürgün etmişdir. Bu hadisə, şairin əvvəlki sosial mövqeyinin itirilməsini və mənəvi sıxıntılarını əks etdirir.

Ömrünün son illərini doğulduğu və böyüdüyü İstanbuldan uzaqda, qürbət həyatında keçirməyə məcbur olan Nâ'ilînin sürgün illərində ciddi əziyyət çəkdiyi məlumdur. O, bu əziyyətləri na'tlərindən birində və Sultan IV Mehmedə təqdim etdiyi "şitaiyyə" qəsidəsində ifadə etmişdir. Uyvar qalasının fəthindən sonra Sultan IV Mehmedin zəfər şənlikləri çərçivəsində Edirnəyə qayıtdığı zaman, Naili həm padişaha, həm də Fazil Əhməd Paşaya qəsidələr təqdim edərək bağışlanmaq üçün səylərini davam etdirmiş və nəhayət, 1665-ci ilin iyul–avqust aylarında İstanbul'a qayıtmağa nail olmuşdur.

Bizə cövri fələk ey Naili qurbət diyarında,
Adular şadkam olsun ki ahbabı unutdurdı (12, s.551)

Birinci misrada şair birbaşa özünə müraciət formasından istifadə edərək (ey Naili) taleyin ona rəva gördüyü zülmdən şikayətlənir. "Cövri-fələk" ifadəsi klassik poeziyada insanın iradəsindən kənar baş verən mənfi hadisələri, xüsusilə də sürgün, yoxsulluq və tənha qalmaq kimi hallarını ümumiləşdirən ənənəvi metaforadır. "Qürbət diyarı" isə bu zülmün konkret təzahürü kimi təqdim olunur.

İkinci misrada qürbətin nəticəsi sosial-mənəvi müstəvidə ifadə edilir. Şair bildirir ki, qürbət həyatı onun dostlarını ondan uzaqlaşdırmış, hətta unutdurmuşdur. Bu vəziyyət isə düşmənlərin sevincinə səbəb olmuşdur. Beləliklə, beyt yalnız fərdi kədəri deyil, həm də şairin ictimai çevrədən təcrid olunmasını və bunun düşmənlər tərəfindən məmnunluqla qarşılanmasını vurğulayır.

Klassik türk ədəbiyyatının görkəmli simalarından Bosnalı Əlaəddin Sabitin bir şeirində oxuyuruq:

Nigahi-mərhəmətlə bir nəzər qıl, Bərmurad eylə,
Qərib ellərdə qalmış bu vətəndən duru məhcuri (14, s.233)

Sabit, vətənindən uzaqda qürbətdə qalmış bir şəxs kimi, paşanın ona mərhəmət nəzəri ilə baxmasını və arzusuna nail olmasına şərait yaratmasını gözlədiyini bildirir; eyni zamanda ona bir vəzifə (məqam) verilməsini dilə gətirir.

Qürbət motivini Nədimin şeirlərində də müşahidə edirik:

Əfsus Nədimi-zaru mihnətdidə,
Düşmüş vətənində qürbəti-cavidə.
Sad hayf o günə təzə məzmunı-hünər,
Bir beytə hənüz olamamış küncidə (11, s.280)

Verilmiş dördlükdə klassik Osmanlı divan poeziyasının xüsusiyyətlərini ehtiva edir, şair Nədimin, taleyindən şikayət özünü büruzə verir. Leksik-semantik baxımdan klassik şeir dilinin tipik xüsusiyyətlərini əks etdirən şeir həm məzmun, həm də forma baxımından maraq doğurur. Şeirdə öz vətənində qürbətə düşməsi motivi sosial və ədəbi mühitdə istedadlı sənətkarın layiq olduğu dəyəri görməməsi ideyasını ön plana çıxır. Burada "vətənində qürbət" ifadəsi klassik poeziyada geniş yayılmış ziddiyyətli metafora kimi çıxış edir.

Nədimin zəngin yaradıcılıq potensialına malik olan "təzə məzmunlu" poetik tapıntılarının hələ bir beytdə belə tam ifadə olunmadan gizli qalması vurğulanır. Bu isə sənətkarın yaradıcılıq imkanları ilə ictimai qəbul arasında mövcud olan uyğunsuzluğu göstərir. Beləliklə, mətn yalnız bir şairin fərdi taleyinə deyil, ümumilikdə klassik ədəbiyyatda tez-tez rast gəlinən "dəyərsiz qalan istedad" probleminə diqqət çəkir. Dördlük elegik ruhla yazılmış, bədii-estetik potensialın cəmiyyət tərəfindən yetərincə dəyərləndirilməməsini tənqid edən poetik nümunə kimi səciyyələnir.

XVIII əsr Osmanlı-türk şairlərindən Şeyh Qalibin də lirikasında vətən sevgisi qürbət motivləri özünü büruzə verir:

O rütbə nazpərvedi-vətankən şimdi firuzə,
Beyabani-mürgi-istihkardır çeşmi-kəbudundan. (15, s.262)

Beytin birinci misrasında şair bildirir ki, söz mövzusu olan şəxs vaxtilə vətənində son dərəcə naz içində, qayğı ilə bəslənmiş, hörmət və etibar görmüşdür. Lakin "indi firuzə" ifadəsi bu vəziyyətin dəyişdiyini, əvvəlki parlaqlığın solduğunu, taleyin üz döndərdiyini göstərən metaforik məna daşıyır.

İkinci misrada isə bu dəyişiklik daha kəskin poetik obrazla ifadə olunur: "biyabani-mürgi-istihkar" tərkibi alçaldılma və etinasızlıq nəticəsində yaranmış mənəvi "ölüm səhrası"nı simvolizə edir. "Çeşmi- kəbud" (göy göz) taleyin, dövrün və ya hakim mühitin soyuq və mərhəmətsiz baxışını təmsil edir. Beləliklə, şairin nəzərində həmin şəxs indi laqeydlik və hörmətsizlik içində tənha vəziyyətə düşmüşdür. Bu beyt klassik divan poeziyasında geniş yayılmış "izzətdən zillətə düşmə", vətəndə dəyər görüb sonradan qürbətdə və ya kənarda alçaldılma motivini əks etdirir. Şair sosial mühitin dəyişkənliyini və insan taleyinin faniliyini güclü metaforalar vasitəsilə ifadə edir. Beyt həm də himayə və mərhəmət gözləntisinin yoxluğu nəticəsində yaranan mənəvi süqutu poetik şəkildə ümumiləşdirir.

Raqib Paşa:

Hah Misru hah Bağdad iştə Şahba iştə Şam,
Var mıdır İstanbulun mümtaz ü müstəsnaları (18, s.367)
Qalmadı rabiteyi-xane vü samanı-vətən,
Çilleyi- səxti-vəzarət bizi dərviş etdi. (18, s.348)

Evimizlə və vətənimizin qayda-qanunu ilə əlaqələrimiz kəsilib, vəzirliyin bu sərt qışı bizi yazıq bir dərvişə çevirib.

Burada şair maddi və sosial vəziyyətinin pisləşməsini, çətin dövrlərini və mövqeyinin gətirdiyi çətinlikləri ifadə edir. "Dərviş" metaforası yoxsulluğu, çarəsizliyi və var-dövlət çatışmazlığını işarə edir. Bu beyt Divan ədəbiyyatında tez-tez rast gəlinən tale və qismət qarşısında çarəsizlik mövzusuna bir nümunədir.

Azərbaycan ədəbiyyatında müxtəlif dövrlərdə qadın şairələr yetişmişdir. XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşayan Ağabəyim Ağa Cavanşir və Heyran Xanım Dünbili, Osmanlı ədəbiyyatında Leyla xanım öz zəngin yaradıcılığı ilə ədəbiyyat tarixlərində özlərinə məxsus yer ediblər. Onların yaradıcılıqlarında vətən sevgisi, vətənpərvərlik və qurbət motivi xüsusi yer tutur. Bu şairlərin özlərindən sonra qalan ədəbi irsləri onların sadəcə yaradıcılıqlarının deyil, həmçinin həyatlarının da öyrənilməsi, tədqiq edilməsi baxımından bizə qiymətli məlumatlar verməkdədir. Bu baxımdan Heyran xanım və Ağabəyim ağanın həyatlarının çox hissəsinin ortaq xüsusiyyətlər daşıdığını qeyd edə bilərik. Belə ki, hər iki ömür yolu vətənlərinin dövlətçilik və işğal tarixi, siyasi gündəmi, tərəqqisi və tənəzzülü ilə sıx bağlı olmuşdur. Eyni zamanda bu iki xanım şairi həyatlarının müəyyən dönəmlərində vətəndən ayrılmaq məcburiyyətində qalmışlar. Bu da onların yaradıcılıqlarında öz əksini tapmışdır. Heyran xanım:

غربت المی یار فراقی منی الدی
غربتده قالان جان کرفتاریمه رحم ایت
تنها قالوبان بیکس اولوب یاردن ایری
بیکسلیغمه حسرت بسیاریمه رحم ایت(5, s. 43 b)

Qürbət ələmi, yar fəraqi məni aldı,
Qürbətdə qalan cani-giriftarıma rəhm et!
Tənha qalıban bikəs olub,yardan ayrı,
Bikəsliyimə, həsrəti-besyarıma rəhm et!

Yüksək intellektual zəkaya və istedada sahib olan bu gözəl Azərbaycan xanımı Ağabəyim Ağa ömrünün 31 ilini İran şahının sarayında - Tehranda və daha sonra Qumda keçirmiş, Qarabağ həsrəti və nakam məhəbbət əzabı ilə yaşayan bütün nisgilini, kədərini yazdığı misralara tökmüşdür. Qürbət ağrısı, vətən həsrəti şairəni
Aşağıdakı misraları səsləndirməyə sözq etmişdir:

Əziziyəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ! (13, s.1040)

Öz vətənindən ayrılmaq istəməyən şairənin yazdığı şeirlərində hər zaman bir nisgil, qəm-qüssə hiss olunurdu. Onun könlünü şad etmək üçün Fətəli şah hətta Tehranda "Vətən bağı" adlı bir bağ saldırır. Şuşada bitən çiçəkləri buraya əkdirən şah bağbanı da Şuşadan gətirir. Ağabəyim ağa həmin bağda gəzintiyə çıxarkən öz vətənini xatırlıyaraq belə yazır:

"Vətən bağı" al-əlvandır,
Yox üstündə Xarıbülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı sarı, bülbül. (13, s.1039)

Osmanlı –türk ədəbiyyatının qadın şairələrindsən Leyla xanımın da Divanında vətən sevgisi, qurbət motivi öz yerini almışdır. Onun həyat hekayəsindən və şeirlərindən başa düşürük ki, Leyla xanım, xüsusən də bu dairədə, maariflənmiş, çox oxunmuş və ədəbi bir ailə mühitində böyüyüb. O, lazımi bilikləri əldə edib, bəlkə də fərdi müəllimlərdən dərs alıb və şərait imkan verdikdə elmi və ədəbi müzakirələrdə iştirak edib. Ancaq Leyla xanım şəxsi həyatında yaşadığı qürbət duyğusundan çox atasının və dayısı İzzət Mollanın Sivasda yaşadığı sürgün həyatının əzabını misralarında qələmə almışdır:

Səkiz mah oldı kim bu bəndəganın dəşti-qurbətdə,
Edərkən çərxi-qəddarın əlindən nalə vü fəryad (10, s.119)

Bildiyimiz kimi şairənin dayısı İzzət Molla qürbətdə də vəfat etmişdir. Leyla xanım bu hadisəni aşağıdakı misralarla tərənnüm etmişdir:

Sən nə cürət ilə qıydın bilməm ey gərduni-dun,
Getdi qürbətdə rəisi- şairan uqbaya ah (10, s.125)

Leyla xanım sürgündə vəfat edən şairin ölümündən doğan hüznünü ifadə edir. O, dünya nizamına və taleyin qəddarlığına qarşı üsyan edir və şairin yad torpaqların tənhalığında ölümündən kədərlənir. Beytdə həm şairin dəyərini tərifləyir, həm də ölümün qaçılmazlığını və sürgünün kədərli təsirini ortaya qoyur.

Saqiyi- dəhr cama bədəl kasə- kasə ah,
Qurbətdə sundı bana zəhrnak şərbəti. (10, s.84)

Şair həyatın və taleyin gözləntiləri doğrultmadığını, evdən uzaqda yaşamağın xüsusilə acı və xoşagəlməz olduğunu ifadə edir. O, zəngin bir cam kimi gözəl şeylər gözləsə də, tale ona adi bir kasa və acı şərbət təqdim edir. Sürgün və həyatın əzabları ürəkdən gələn bir ahla ifadə olunur.

Səkkiz aydır ki, şair (və ya təmsil etdiyi xalq) sürgünün kimsəsiz və çətin mühitində ağrı və çətinlik içində yaşayır. Bu müddət ərzində onlar daim taleyin qəddar çarxına qarşı şikayətlənir və fəryad edirlər. Şeirdə sürgündəki çətinliklər, taleyin amansızlığı və insanların ona qarşı acizliyi mövzuları vurğulanır.

Klassik Azərbaycan və Osmanlı-türk ədəbiyyatında qürbət və vətən sevgisi mövzuları şairlərin emosional dünyasında mərkəzi yer tutur. Qürbət ümumiyyətlə insanın vətənindən, sevdiklərindən və tanış yaşayış mühitindən ayrı düşmə vəziyyəti kimi təsvir olunur; bu, tənhalıq, kədər, həsrət və taleyin qəddarlığı ilə birləşir. Şairlər bu mövzuya toxunarkən həm fərdi əzabları, həm də ümumi insan vəziyyətini ifadə edirlər. Qürbət çox vaxt təkcə fiziki məsafəni deyil, həm də mənəvi tənhalığı və çarəsizliyi simvolizə edir. Bunun əksinə olaraq, vətən sevgisi klassik Azərbaycan və Osmanlı-türk poeziyasında yüksək dəyər kimi qəbul edilir. Qürbət çətinlikləri vətənin dəyərini və şairin ona olan həsrətini daha da aydın göstərir. Qürbət və vətən sevgisi arasındakı ziddiyyətdən istifadə edərək şairlər oxucuya həsrətin şiddətini, öz varlığını sorğulamağı və həyatın keçiciliyini çatdırırlar. Klassik Azərbaycan və Osmanlı ədəbiyyatında qürbət və vətən sevgisi, sürgün motivləri bir-birini tamamlayan mövzulardır: qürbət şairin tənhalığını və əzablarını ortaya qoyur, vətən sevgisi isə bu əzaba uyğun gələn ümid, təsəlli və mənsubiyyət hissini təmsil edir. Bu iki mövzu klassik Osmanlı poeziyasında həm fərdi, həm də sosial duyğuların ifadəsini zənginləşdirir, şairin daxili dünyasını və ümumbəşəri insani hisslərini estetik cəhətdən əks etdirir.

**Problemin aktuallığı.** Azərbaycan və osmanlı-türk klassik ədəbiyyatında vətənpərvərlik və qurbət mövzuları hər iki mədəniyyətin tarixi, sosial və mədəni kontekstindən qidalanıb və bu mövzular onların ədəbiyyatında mühüm yer tutur. Bu iki ölkənin ədəbiyyatlarının yaxınlığı, ortaq tarixi kökləri və dil oxşarlıqları nəzərə alınmaqla, bu mövzuda müqayisəli tədqiqat həm Türkiyə, həm də Azərbaycan ədəbiyyatı üçün çox vacib və aktual məsələyə çevrilib. Bu məqalədə ortaya qoyulan problemlər ədəbiyyat tarixinin bir parçasıdır və Türkiyə-Azərbaycan ədəbiyyatının orta əsrlər ədəbi əlaqələrini öyrənməsi baxımından aktuallıq qazanır.

**Problemin elmi yeniliyi.** İlk dəfə bu məqalədə XVII-XVIII əsr Azərbaycan-Osmanlı-türk müəlliflərinin əsərləri vətənpərvərlik və gurbət motivinin işlənməsi baxımından müqayisəli tədqiqata cəlb edilmişdir. Ədəbi əlaqələrin öyrənməsi baxımından bunun olduqca vacib məsələ olduğunu qeyd etməliyik.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Azərbaycan və Osmanlı-türk klassik ədəbiyyatında vətənpərvərlik və qürbət motivləri ədəbi mövzulardan əlavə, praktik əhəmiyyətə də malikdir. Bu mövzular sosial əlaqələri gücləndirmək, kimlik axtarışını formalaşdırmaq, müasir məsələlərə diqqət çəkmək və mədəni əlaqələri inkişaf etdirmək də daxil olmaqla bir çox vacib funksiyaya xidmət edir. Bunlar müasir gənclərə həm öz mədəni irslərini anlamağa, həm də müasir dünyada daha sağlam bir cəmiyyət qurmaq üçün təməl yaratmağa imkan verir. Filologiya, şərqşünaslıq fakültərləinin tələbələri üçün qaynaq rolunu oynaya bilər. Nəhayət müqayisəli yanaşma əsasında əldə edilən qənaətlər tərcüməçilər və ədəbiyyatşünaslar üçün metodoloji istiqamətverici rol oynayaraq, mətnlərin daha adekvat və elmi əsaslı təqdimatına imkan yaradır.

## Ədəbiyyat

1. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1956.

2. Azərbaycan dastanları / Toplayan, tərtib edən Əhliman Axundov. V cilddə, III c. Bakı: Lider, 2005.

3.C ahani Q. Azərbaycan ədəbiyyatında Nizami ənənələri (XII-XVII). Bakı, 1979.

4. Cüng B-1969. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu.

5. Heyran D. Divan. M 217, AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu.

6. XVII əsr Azərbaycan Lirikası (Antologiya). Bakı: Nurlan, 2008.

7. Kərimov P. XVII əsr Anadilli Azərbaycan lirikası. Bakı: Nurlan, 2011.

8. Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları. II cild, Bakı: Elm, 1978.

9. Qövsi T. Divan Bakı: Elm və Təhsil, 2012.

10. Leyla Hanım Divan (haz. Mehmet Arslan) Ankara, 2018.

11. Macit M. Nedîm Divanı, Ankara: Akçağ Yayınları, 1997.

12. Naili. Divan (Bakı nüsxəsi). Bakı: Elm və təhsil, 2024.

13. Rahimova, L. Ağabeyim Ağa Cevanşir ve Heyran Hanım Dünbüli Şiirinde Gurbet Motifi. Akademik Tarih ve Düşünce Dergisi, 11(2), 1025-1043.2024.
https://dergipark.org.tr/tr/pub/atdd/article/1478377

14. Sabit A. Divan (haz. Turgut Karacan) Sivas: Önder, 1991.

15. Şeyh Galib Divan (haz. Naci Okçu) Ankara: türkite diyanet Vakfı, 2011.

16. Vaif M.P. Əsərləri. (haz. Həmid Araslı) Bakı: Şərq-Qərb, 2004.

17. Vidadi M.V. Əsərləri. (haz. Həmid Araslı) Bakı: Örnək, 2004.

18. Yorulmaz H. Koca Ragıp Paşa Divanı (Araştırma ve Metn) İstanbul: 1989, Yüksek Lisans

**L.S.Rəhimova**

**Xvıı-xvııı əsr Azərbaycan və Osmanlı-türk klassik ədəbiyyatlarında vətənpərvərlik və qürbət motivləri**
**Xülasə**

Bu məqalədə XVII-XVIII əsr Azərbaycan və Osmanlı-türk ədəbiyyatında vətənpərvərlik, vətən sevgisi və qürbət mövzuları araşdırılır. Hər iki ədəbiyyatda qürbət, vətənindən və sevdiklərindən ayrılığın yaratdığı tənhalığı, həsrəti və ağrını işarə edən mühüm bir motiv kimi ön plana çıxır. Osmanlı və Azərbaycan şairləri qürbətin çətinliklərini və əzabını dilə gətirsələr də, vətənə duyduqları dərin məhəbbət mövzusu vasitəsilə bu ağrıya qarşı təsəlli və ümid təqdim edirlər. Vətən təkcə coğrafi məkan kimi deyil, həm də mənsubiyyət, sülh və təhlükəsizlik simvolu kimi təsvir olunur. Məqalədə bu mövzuların hər iki xalqın ədəbiyyatında, orta əsr klassik divan ədəbiyyatında necə təqdim edildiyi müqayisəli şəkildə araşdırılır, qürbət və vətən sevgisinin şair və ədiblərin emosional dünyasında necə bir tarazlıq yaratdığı ortaya qoyulur. Nəticə olaraq, vətən sevgisi və qürbət həm fərdi, həm də sosial emosiyaların və dəyərlərin ədəbiyyat vasitəsilə estetik ötürülməsində əsas rol oynayır.

**Л.С.Рахимова**

**Патриотизм и мотив изгнания в классической литературе Азербайджана XVII–XVIII веков и Османской империи**
**Резюме**

В данной статье исследуются темы патриотизма, любви к родине и изгнания в азербайджанской и османо-турецкой литературе XVII–XVIII веков. В обеих литературных традициях изгнание выступает важным мотивом, символизирующим одиночество, тоску и боль, вызванные разлукой с родиной и близкими. Хотя османские и азербайджанские поэты выражают трудности и страдания изгнания, они находят утешение и надежду в этой боли через тему глубокой любви к родине. Родина изображается не только как географическое пространство, но и как символ принадлежности, мира и безопасности.

В статье проводится сравнительное исследование того, как эти темы представлены в литературе обоих народов, особенно в средневековой классической диван-литературе, с акцентом на то, как изгнание и любовь к родине создают равновесие в эмоциональном мире поэтов и писателей. В заключение отмечается, что патриотизм и изгнание играют фундаментальную роль в эстетическом выражении как индивидуальных, так и социальных эмоций и ценностей через литературу.

**L.S.Rahimova**

**Patriotism and the motif of exile in 17th–18th century Azerbaijani and Ottoman-Turkish classical literature**

**Summary**

This article examines the themes of patriotism, love of homeland, and exile in 17th–18th century Azerbaijani and Ottoman-Turkish literature. In both literatures, exile emerges as an important motif symbolizing the loneliness, longing, and pain caused by separation from one's homeland and loved ones. Although Ottoman and Azerbaijani poets express the hardships and sufferings of exile, they provide consolation and hope in the face of this pain through the theme of profound love for their homeland. The homeland is depicted not only as a geographical space but also as a symbol of belonging, peace, and security.

This article comparatively examines how these themes are presented in the literatures of both peoples, particularly in medieval classical Divan literature, highlighting how exile and love of homeland create a balance in the emotional world of poets and writers. In conclusion, patriotism and exile play a fundamental role in the aesthetic expression of both individual and social emotions and values through literature.

**Redaksiyaya daxil olub:** 08.12.2025

*UOT 82.91*

# CƏFƏR CABBARLI HEKAYƏLƏRİNDƏ QADIN TALEYİ: PATRİARXAL MƏHDUDİYYƏTLƏRDƏN MÜASİR PERSPEKTİVƏ

**Əfsanə Şəmsəddin qızı İsmayılova**
*Sumqayıt Dövlət Universitetinin baş müəllimi*
**ORCID:** 0000-0002-8603-4791
**E-mail:** Efsane.Ismayilova@sdu.edu.az
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.13

***Açar sözlər:*** *Cəfər Cabbarlı, qadın problemi, qadın hüquqsuzluğu, təhsil, ailə.*
***Ключевые слова:*** *Джафар Джаббарлы, женская проблема, бесправие женщины, образование, семья.*
***Key words:*** *Jafar Jabbarli, women's issue, women's lack of rights, education, family.*

Tarixin müxtəlif mərhələlərində qadının sosial mövqeyi, ailə və cəmiyyət daxilindəki statusu sabit qalmamış və bu dəyişikliklər ədəbiyyatda da öz əksini tapmışdır. Qadına münasibət hər cəmiyyətin mənəvi inkişaf səviyyəsini müəyyən edən əsas göstəricilərdəndir. XX əsr Azərbaycan ədəbiyyatında qadına münasibət probleminin bədii və ideoloji baxımdan ardıcıl işlənməsi C.Cabbarlının adı ilə bağlıdır.

C.Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatında milli-mənəvi oyanış, maarifçilik və sosial ədalət ideyalarını sistemli şəkildə bədii sistemə çevirən görkəmli sənətkarlardandır. Ədib qadın hüquqsuzluğunu yalnız ailə-məişət problemi kimi deyil, bütövlükdə cəmiyyətin geriliyinin göstəricisi kimi dəyərləndirir. Cabbarlı üçün qadının təhsili, azad seçimi və ictimai fəallığı milli tərəqqinin zəruri şərtidir. Bu baxımdan müəllifin hekayələrində yaratdığı qadın obrazları dövrün sosial reallıqlarını əks etdirməklə yanaşı, gələcək nəsillərə yönəlmiş ideoloji bir proqram funksiyasını daşıyır. Onun hekayələrində qadın yalnız ailə-məişət çərçivəsində təqdim edilmir, əksinə, cəmiyyətin ümumi problemlərinin daşıyıcısına çevrilir. "Dilbər", "Gülzar", "Gülər" və "Firuzə" və s. hekayələri müxtəlif qadın talelərini əks etdirsə də, buradakı problemlər vahid ideoloji xəttin ünsürlərdir. Ədib bu hekayələrdə qadın taleyini sosial ədalətsizlik, patriarxal düşüncə və maarifçilik ideyaları kontekstində təqdim edir. Yoxsulluq, savadsızlıq və ailədaxili basqı qadının həyatını müəyyənləşdirən əsas amillərdir. Ədibin Dilbərinin, Gülzarının, Gülərinin seçim hüququ yoxdur, onların müqəddəratını ata, qardaş, nişanlı və b. həll edir. Maddi yoxsulluq bu qızların məhrumiyyətinin yeganə səbəbi deyil. Qadın mənəvi baxımdan da məhdudlaşdırılır, onun səsi eşidilmir, istəkləri ailə və cəmiyyət maraqları naminə arxa plana keçirilir. Xüsusilə qadının "ismət" anlayışı ilə dəyərləndirilməsi onun şəxsiyyət kimi inkişafına mane olur. Qadının dəyəri onun daxili potensialı ilə deyil, cəmiyyətin ona yüklədiyi davranış normaları ilə müəyyən edilir. Bu nöqtədə Cabbarlı "qadının isməti" anlayışını təkcə bioloji və ya əxlaqi kateqoriya kimi deyil, sosial məsuliyyət problemi kimi təqdim edir. Çünki qadının namusunun qorunması onun təhsildən və seçim azadlığından məhrum edilməsi bahasına başa gəlirsə, bu artıq mənəvi dəyər yox, sosial zorakılıq formasıdır.

C.Cabbarlının hekayələrində ailə anlayışı iki formada təzahür edir. Bir tərəfdən ailə qoruyucu mühit kimi təqdim olunur, digər tərəfdən isə qadının azadlığını məhdudlaşdıran predmetə çevrilir. "Dilbər" və "Gülzar" obrazlarında ailə qadının iradəsini susduran, onu erkən yaşlardan

taleyinə boyun əydirən strukturdur. Buradakı problemlər müasir Azərbaycan cəmiyyəti üçün aktualdır. Bu gün də erkən nikah problemi, qızların təhsildən yayınması, zorakılığa məruz qalan qızların hər kəs tərəfindən qəbul edilməməsi kimi hallar mövcuddur.

C.Cabbarlının Gülzar obrazı hər kəsin sevdiyi, tərbiyəli, namuslu bir qızdır. Bir gün o, meşədə tanımadığı bir kişi tərəfindən zorakılığa məruz qalır. Qızcığaz bu hadisədən dərin sarsıntı keçirir. O dərk edir ki, heç bir günahı olmasa da, artıq cəmiyyətin, insanların və ailənin baxışlarında "ləkələnmişdir". Dərdini heç kəsə deyə bilməyən qız gündən-günə saralır, ümidini daim sinəsində gəzdirdiyi Quran kitabına bağlayır, gecə-gündüz dua edir. Nə idi Gülzarın Allahdan istədiyi? Nişanlısının onu bağışlaması, ona inanması... Gülzar məntiqinin, ağlının səsinə qulaq asmaq istəmir. Və o məsum qız düşüncələrində tamamilə haqlı çıxır. Nişanlısı ona inanmır. Əvvəllər kənddə paklıq mücəssəməsi hesab olunan Gülzar indi hər kəsin nifrətinə tuş gəlir. Bu haqsızlıq onun psixoloji məhvinə gətirib çıxarır və o, mənəvi cəhətdən məhv olur. Beləliklə, "qadının namusu" anlayışı yanlış və ədalətsiz meyarlarla ölçülür. Zorakılığın qurbanı olan bu zəif, incə məxluq günahkar sayılır. Cəmiyyətin zalım yanaşması Gülzarın həyatını məhv edir.

Bu hekayədə patriarxal düşüncə və ikiüzlü əxlaq qaydaları kəskin şəkildə tənqid edilir. Müəllifə görə, qadının mənəvi təmizliyi yalnız fiziki bakirəliklə ölçülməməlidir, cəmiyyətin stereotipləri günahsız Gülzarın həyatını faciəyə çevirməməlidir. Hekayədə Gülzarın faciəsini yaradan təkcə onun başına gələn zorakılıq deyil, həm də cəmiyyətin bu hadisəyə münasibətidir. Gülzarın mənəvi saflığı şübhə altına alınarkən, onu ittiham edənlərin əxlaqi səviyyəsi sorğulanmır. İnsanlar hadisənin mahiyyətinə varmadan qızı qınayır, onu əxlaqsız adlandırır. Burada ən dəhşətli məqam zorakılıq deyil, insanların laqeydliyidir. Heç kim Gülzarı müdafiə etmir, hamı susur. Bu biganəlik insanlığın mənəvi ölümünü təmsil edir. Müəllif bununla kütlə psixologiyasını, insanların hadisələrə kor-koranə və qərəzli münasibətini tənqid edir. Beləliklə, Gülzarın faciəsi, bir fərdin deyil, bütün cəmiyyətin mənəvi korluğunun nəticəsidir.

Dilbərin faciəsində isə vəziyyət fərqlidir. O, həkim olmaq istəyən, gələcəyi ilə bağlı arzuları olan bir qızdır. Lakin patriarxal düşüncə tərzi Dilbərin bu istəyinə imkan vermir. Ailə və mühit onun arzularını lüzumsuz sayır, nəticədə erkən nikah Dilbərin həyat yolunu yarımçıq qoyur. Bu gənc qızın arzularının puça çıxması onu daxili sarsıntıya və ümidsizliyə sürükləyir. Psixoloji təzyiq onu getdikcə dözülməz hala gətirib çıxarır. Cabbarlı burada qadının yalnız fiziki deyil, mənəvi zorakılığa da məruz qaldığını göstərir. Hekayənin ən faciəli məqamı isə Dilbərin gecə vaxtı kor-təbii şəkildə özünü dəniz sahilində tapmasıdır. Bu hadisə təsadüfi deyil, onun çıxış yolu tapa bilməməsinin nəticəsidir. Müəllif bu sonluqla cəmiyyətə sərt mesaj verir: qadının arzularını boğan, onu seçim haqqından məhrum edən bir cəmiyyət insan faciələrinin yaranmasına səbəb olur və bir daha məlum olur ki, erkən nikah, qızların təhsildən uzaqlaşdırılması təkcə bir ailənin deyil, bütün cəmiyyətin günahıdır.

C.Cabbarlının "Dilbər" və "Gülzar" hekayələrində qadın taleyi ailə çərçivəsində məhdudlaşdırılırsa, "Gülər" hekayəsində qadının müasirliyə doğru atmaq istədiyi addım cəmiyyət tərəfindən boğulur. Gülərin kino səhnəsinə çıxmaq istəyi onun ictimai həyata qoşulmaq və yaradıcılıqla məşğul olmaq arzusunun ifadəsidir. Hekayədə qadının hüquqsuzluğu açıq qadağalarla deyil, psixoloji və mənəvi təzyiq ilə göstərilir. Gülərin kino sənətinə marağı onun müasir qadın modelinə yaxınlaşmaq istəyini işarə edir. Lakin cəmiyyət bu istəyi "əxlaq" və "namus"

anlayışları ilə boğur. Beləliklə, qadının arzusu cəmiyyətin qoruduğunu iddia etdiyi dəyərlərə qurban verilir.

Gülər zahirən seçim imkanına malikdir, əslində isə onun iradəsi ailə basqısı altında iflic vəziyyətə salınır. Onun sükutu daxili razılıqla xarici məcburiyyət arasında qalan qadının faciəvi durumunun simvoluna çevrilir. Gülərin nişanlısı "ziyalı" Kamal obrazı bu hüquqsuzluğun əsas daşıyıcısıdır. O, özünü maarifçi və müasir gənc kimi təqdim etsə də, qadın azadlığı məsələsində əsl patriarxal tərəfdaş kimi çıxış edir. O, inqilabi fikirlərdən danışsa da, qadının azad seçiminə gəldikdə geri çəkilir. Kamal Gülərin həyatını məhdudlaşdırır, gələcəyini müəyyənləşdirir. Çünki qadın fərd kimi yox, obyekt kimi qəbul edilir və qadın azadlığı qəbul edilmədən cəmiyyətin həqiqi müasirliyi mümkün deyil. Beləliklə, hekayənin sonunda müəllifin "onu öldürdülər" - ifadəsi Gülərin fiziki yox, mənəvi məhvini göstərir. Gülər arzularını reallaşdıra bilmədiyi üçün canlı həyatdan kənarlaşdırılır və dörd divar arasında susdurulur.

C.Cabbarlının hekayələrində qadın taleyi dövrün sosial-ictimai mənzərəsinin ayrılmaz tərkib hissəsidir. Onun qadın obrazları dövrün sosial gərginliyini öz talelərində daşıyır. Onlar nə tam köhnə dünyanın qadınlarıdır, nə də müasirliyin verdiyi hüquqlardan yararlana bilən azad fərdlərdir. Qadınların bu "keçid vəziyyəti" onların daxili faciəsini daha da dərinləşdirir və hekayələrə güclü psixoloji qat əlavə edir.

C.Cabbarlının hekayələrində qadın hüquqsuzluğu yalnız hüquqi və ya sosial məhdudiyyətlərlə bitmir; bu, daha çox qadının psixoloji dünyasında özünü göstərir. Qadın susur, tərəddüd edir, öz istəklərini açıq şəkildə ifadə edə bilmir. Bu sükut yazıçının əsərlərində qadının ən faciəvi xüsusiyyətinə çevrilir. Qeyd edək ki, bu problemlər bu gün də öz aktuallığını qoruyur. Müasir Azərbaycan cəmiyyətində bu gün də ailə və sosial mühitin qadına olan basqısı müşahidə edilir. Bu baxımdan Cabbarlının qadın obrazları yalnız tarixi deyil, həm də çağdaş sosial reallığın bədii güzgüsüdür.

Müəllif müasir qadınları "Firuzə" hekayəsinin qəhrəmanı kimi görmək istəyir. "Firuzə" müəllifin qələmə aldığı son hekayədir (3). Rusca yazılmış bu əsəri ədibin matəm günlərində akad. M.Arif ana dilinə çevirərək, "Füruzə" adı ilə dərc etdirmişdir (4, s.154). Burada qadın ailə çərçivəsinə sıxışdırılmış passiv varlıq deyil, artıq cəmiyyətin fəal üzvüdür. Firuzə ali təhsil almış həkimdir. O, Azərbaycan qadınının ideallaşdırılmış bədii və müasir modelidir. Onun davranışlarında özünəinam və azad seçim ön plandadır. Müəllif bu hekayə ilə sübut edir ki, qadının azad olmadığı bir cəmiyyətdə həqiqi müasirlik və inkişaf mümkün deyil.

C.Cabbarlı öz əsərlərində qadın problemini yalnız təsvir etmir, onun səbəblərini və mümkün həll yollarını da göstərir. Qadının hüquqsuzluğu cəmiyyətin geriliyinin, qadının təhsilli və azad olması isə tərəqqinin əsas şərti kimi təqdim olunur. C.Cabbarlının hekayələri müasir Azərbaycan cəmiyyəti üçün də əhəmiyyətini qoruyur və qeyd edilən məsələlərin ideoloji əsaslarını ədəbi müstəvidə ifadə edir.

**Problemin aktuallığı.** Məqalə qadın hüquqsuzluğu kimi geniş yayılmış sosial problemin C.Cabbarlı hekayələri kontekstində araşdırılmasından bəhs edir. Bu problem müasir Azərbaycan cəmiyyətinin sosial reallıqları ilə yaxından səsləşir.

**Problemin elmi yeniliyi.** Araşdırmada C.Cabbarlının hekayələrində qadın taleyi vahid ideoloji inkişaf xətti üzrə təhlil edilir, qadın hüquqsuzluğu və "ismət" anlayışı sosial nəzarət mexanizmi kimi dəyərləndirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən Azərbaycan ədəbiyyatının tədrisində, gender mövzulu seminar və mühazirələrdə istifadə oluna bilər.

**Ədəbiyyat**

1. Abbasova G. Cəfər Cabbarlı yaradıcılığında qadın emansipasiyası. 525-ci qəzet. -2018. -19 dekabr. -s.7. https://www.anl.az/down/meqale/525/2018/dekabr/624090.htm
2. Cabbarlı C. Əsərləri. 4 clddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 328 s.
3. Cəfər Cabbarlı arvadının çadrasını necə açdırdı? https://news.milli.az/interest/266937.html
4. Müasir Azərbaycan ədəbiyyatı. 2 clddə. I cild. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 504 s.

**Ə.Ş.İsmayılova**

**Cəfər Cabbarlı hekayələrində qadın taleyi: Patriarxal məhdudiyyətlərdən müasir perspektivə**

**Xülasə**

Məqalə müasir dövrdə qadın hüquqları, erkən nikah və qadınların təhsilə cəlb olunması kimi aktual olan sosial problemlərin C. Cabbarlı hekayələri kontekstində araşdırılmasına həsr olunmuşdur. Yazıçının hekayələrində qadın obrazları sosial mühitin, ailə münasibətlərinin və ideoloji baxışların təsiri altında formalaşır. Məqalədə bu hekayələr əsasında qadına münasibət problemi araşdırılır. Həmçinin, bu problemlərin müasir Azərbaycan cəmiyyəti ilə səsləşməsi elmi müstəvidə əsaslandırılır.

**А.Ш.Исмаилова**

**Женская судьба в рассказах Джафара Джаббарлы: от патриархальных ограничений к современному взгляду**

**Резюме**

В статье рассматриваются социально значимые проблемы, такие как права женщин, ранние браки и доступ женщин к образованию, на материале рассказов Джафара Джаббарлы. На основе этих произведений проводится комплексный анализ отношения к женщине, раскрывается, каким образом женские образы формируются под влиянием социальной среды, семейных отношений и идеологических установок. Также научно обосновывается созвучие проблем, поднятых в рассказах, с реалиями современного азербайджанского общества.

**A.Sh.Ismailova**

**Women’s fate in Jafar Jabbarli’s short stories: from patriarchal constraints to a modern perspective**

**Summary**

The article is devoted to the study of a number of socially relevant issues such as women’s rights, early marriage, and women’s access to education in the context of Jafar Jabbarli’s short stories. In Jabbarli’s stories, female characters are shaped under the influence of the social environment, family relations, and ideological perspectives. Based on these works, the problem of attitudes toward women is examined in a comprehensive manner. The article also scientifically substantiates the resonance of the problems raised in these stories with contemporary Azerbaijani society.

**Redaksiyaya daxil olub:** 09.12.2025

# ŞƏHİD KONSEPTİNƏ İLKİN BAXIŞ VƏ ONUN BƏŞƏRİ MAHİYYƏTİ

**Firəngiz Mirbaba qızı Hadi**
*AMEA-nın akademik Ziya Bünyadov*
*adına Şərqşünaslıq İnstutunun*
*fəlsəfə doktoru proqramı üzrə əyani doktorantı*
**ORCİD:** 0009-0002-4756-085X
**E-mail:** hadifirangiz@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.14

***Açar sözlər:*** *şəhid, konsept, etimologiya, türk düşüncə modeli, İslam, Xristianlıq*
***Ключевые слова:*** *шахид, концепт, этимология, тюркская модель мышления, ислам, христианство*
***Key words:*** *martyr, concept, etymology, Turkic model of thought, Islam, Christianity*

Konsept şərti mental strukturdur; o, təfəkkürdən ayrı təsəvvür olunmayan koqnitiv statusa malikdir; mədəniyyət ünsürlərinin mental proyeksiyasıdır.

Konsept – insan şüuruna mənsub olub, fikir fəaliyyətinin qlobal vahidi, dərketmənin kvantativ strukturlaşmasıdır. O, kollektiv şüur vahididir, etnokulturoloji səciyyəyə malikdir [4, s.4].

Əlavə olaraq, Mayıl Əsgərov qeyd edir ki, "Dil - ünsiyyət zamanı okkazional şəkildə yaranan dil struktur vahidlərinin və söyləmlərin əks etdirdiyi gerçəklik elementinin yaddaşdakı intellekt obrazları ilə birləşməsidir [1 s.276]. Onun fikrincə, dili ümumi sistem kimi qəbul edə bilmək üçün qaynaq mahiyyəti daşıyan bütün dil struktur vahidlərini, ikincisi, onları ətraf aləmə yönəldən mexanizm kimi çıxış edən nitqyaratma funksiyasını, bu yolda fəaliyyət axınının cərəyan etdiyi xətləri əmələ gətirən qrammatik formalardan ibarət paradiqmalar silsiləsini və son olaraq beyin aktivliyini kompleks şəkildə nəzərə almaq lazımdır. Beyin aktivliyi, yəni fikir və mülahizələr dəyişdikcə onu əks etdirən nitq və nitqin qurulmasını təmin edən dil sistemi daxilində müəyyən dyişikliklər baş verir. Bu deyilənlərdən hətta belə bir nəticəyə də gəlmək mümkündür ki, dil daim dəyişən, inkişaf edən və hərəkətdə olan aktiv sistemdir. O, insanın koqnitiv fəaliyyətinin tərkib hissəsidir. Mahiyyət etibarilə nitq fəaliyyəti, onun təmin edən dil və insan təfəkkürü ayrılmaz şəkildə bir-biri ilə bağlıdır.

Məqalədə *şəhid* konseptinin mənşəyi və etimologiyası ilə bağlı irəli sürülən müxtəlif fikir və mülahizələri nəzərdən keçirəcəyik. Məlumdur ki, müasir türk düşüncə modelində şəhidlik insanın yüksəldiyi ən uca zirvədir. Bütün şəhidlərin məkanı və cəmiyyətin gözündə dəyəri eyni olsa da, bu zirvəyə aparan yol və üsullar müxtəlifdir. İctimai əhəmiyyət daşıyan bir iş və ya amal uğrunda vuruşarkən şəhid olmaq şəhidliyə aparan yollardandır. Türk düşüncə modelinə görə tarix boyu vətən və din uğrunda aparılan müharibələrdə şəhid olan və canından keçən şəxslərin hamısı istisnasız olaraq şəhidlik mərtəbəsinə yüksəlmişdir. Müasir Azərbaycanın ən son tarixində baş verən Birinci Qarabağ Müharibəsi və 44 gün davam edən İkinci Qarabağ Müharibəsində və ya Vətən Müharibəsində canından keçənlərin də hamısı Vətən Müharibəsi şəhidləridir.

Əlavə edə bilərik ki, başqalarını yaşatmaq üçün, kimi və ya nəyi isə durdurmaq üçün özünü şəhid etmək, yaxud da ictimai əhəmiyyət daşıyan bir həyat yaşayarkən şəhid olmaq kimi yollar da şəhidlik zirvəsinə aparan alternativ yollardır. Bütün bu yollardan yalnız, seçilmiş insanlar

keçə bilər və yalnız, seçilmişlər şəhidlik zirvəsinə yüksələ bilər.

Şəhid sözü mənşəcə ərəb dilinə məxsusdur, təkdə işlənərkən شهيد *şəhid* formasına, cəmdə işlənərkən شُهَداء *şühəda* formasına malik olur. Ərəb dilində *şəhadət* sözü *şahidlik, şəhid* sözü isə *şahid* deməkdir və inam, etiqad, yaxud da din uğrunda ölən şəxs mənası ifadə edir. Amma bu günlərdə türk dillərində *şəhadət* sözü qeyd edilən ilkin mənasını itirmək üzrədir. Həmin mənanı ifadə etmək üçün müasir türk dillərinin bəzilərində eyni kökdən əmələ gələn *şahid* sözündən, bəzən isə qədim türk sözü olan *tanık* sözündən istifadə olunur.

"Şəhid" konsepti və ya bu anlayışı ifadə edən söz, demək olar ki, bütün səmavi dinlərdə vardır. Müxtəlif millətlərdə şəhid olan insanlara fərqli adlar verilsə də, onlara fərqli münasibətlər göstərilsə də, nəticə olaraq onların hamısı şəhiddir.

Xristian dinində də şəhadət anlayışı mövcuddur. Xristianlar öz şəhidlərinə bəzən *əzabkeş,* bəzən *böyük əzabkeş*, bəzən *əziz,* bəzən *əzizə*, bəzən isə *müqəddəs* adı verirlər. Bir qayda olaraq, xristianlar Vətən uğrunda gedən müharibələrdə ölənləri deyil, daha çox dini inancına görə zülm edilib əzab-əziyyət verilərək öldürülən din xadimlərini şəhid, *əzabkeş, əziz* və ya *müqəddəs* adlandırırlar. İlkin xristian şəhidlərinin böyük əksəriyyəti Roma İmperiyası daxilində xristianlığı yayan şəxslər olmuşlar.

"Şəhid" islam dinində Allah yolunda ölmüş bir müsəlmana verilən ad və ya məqamdır. İslam aləmində *şəhid* sözünə tez-tez rast gəlinir və qeyd edilir ki, onlar bütün günahlarından əbədiyyən xilas olacaqlar və onların axirətdəki məqamları digər insanlardan daha üstün olacaqdır. Quranda Bakara surəsinin 154-cü ayəsində deyilir: Allah yolunda öldürülənlərə "ölülər" deməyin. Xeyr, onlar diridirlər. Ancaq siz bunu bilməzsiniz.

İslam dinində çoxsaylı məzhəblər vardır. Onlardan biri olan Hənəfi məzhəbinə məxsus olan alimlər belə iddia edirlər ki, şəhidliyin 3 növü vardır [7]:

- Dünya və Axirət üçün şəhid olanlar,
- Axirət üçün şəhid olanlar,
- Dünya üçün şəhid olanlar.

Dünya və Axirət şəhidləri – İslam dini üçün savaşlarda və ya inanclarına görə verilən işgəncələr nəticəsində ölən, yaxud da öldürülən şəxslərdir. Bəzən məhz bu şəxsləri əsl *şəhid* kimi qəbul edirlər. Bəzən belə də qeyd olunur ki, əsl şəhidlərdə bu cəhətlər mütləq şəkildə olmalıdır:

- m*üsəlman olmalıdır,*
- *mükəlləf olmalıdır,*
- *təmiz olmalıdır,*
- *zülmə məruz qalaraq öldürülməlidir,*
- *yaralandığı yerdə şəhid olmalıdır,*
- *qan bədəli olmamalıdır.*

Axirət şəhidləri – İslam dininə etiqad etdiyinə görə fiziki cəhətdən zülm görən və bu əzabların nəticəsində ölən şəxslərdir. Bu şəxslər öldükdən sonra digər şəxslər tərəfindən şəhid kimi qəbul edilməsələr də, axirətdə onlar şəhid hesab edilirlər və şəhidlərlə eyni məqamda olurlar.

Müasir dövrdə şəhid sözü və ya anlayışı müxtəlif millətlər arasında və ya cəmiyyətlərdə fərqli məna tutumuna sahibdir. Türk xalqları arasında şəhid anlayışı ilkin dini mənadan qismən uzaqlaşmışdır. Müasir türk dövlətləri dini dövlət deyil, dünyəvi dövlət olduğuna görə, bu gün türk respublikalarında şəhid adı vətənini, xalqını, millətini müdafiə edərkən ölən, həlak olan şəxslərə verilir. Bu səbəbdən müasir dövrdə şəhid və ya şəhid olmaq kimi söz və ifadələrlə bağlı

lüğətlərdə verilən izahlar da ilkin izah və şərhlərdən qismən fərqlənir.

"Şəhid" – yüksək amal, məslək, əqidə yolunda ölən, həlak olan, canını fəda edənlərdir.

"Şəhid olmaq" – yüksək amal, əqidə, məslək yolunda canını fəda etmək, həlak olmaq, ölmək deməkdir.

Azərbaycanda Birinci Qarabağ müharibəsində 12 minə yaxın, İkinci Qarabağ müharibəsində isə 3 minə yaxın olmaqla, ümumilikdə 15 minə yaxın hərbi qulluqçu: əsgər, çavuş, gizir və zabit şəhid olmuşdur. Mülki şəxslər arasındakı itki də, demək olar ki, hamısı Birinci Qarabağ müharibəsinə aid olmaq şərti ilə, təxminən elə bu qədərdir. Həyatını itirən bu insanlar haqqında danışarkən, onlar bir qayda olaraq *şəhid* adlandırılır.

Azərbaycan Silahlı qüvvələrinin and yeri sayılan Mübariz İbrahimov, Alı Mustafayev, Allahverdi Bağırov, Polad Həşimov, Xudayar Yusifzadə, Albert Aqarunov, Viktor Seryogin kimi Vətən övladları bütün Azərbaycan xalqının gözündə şəhidliyin simvolu və zirvəsidir.

Son yüzillik ərzində bir çox dəyərlərdə köklü dəyişmələr baş verib. Ən qədim dövrlərdən bu yana bütün dünyada ictimai-iqtisadi formasiyalar dəyişdiyi kimi, konkret anlayış və hətta dəyərləndirmə meyarlarlarının özünə münasibət də dəyişib. Əvvəldə də qeyd etdiyimiz kimi, bir zamanlar *əsl şəhid* hesab edilmək üçün ən vacib meyar müsəlman olmaq idi. Müsəlmanlığın bütün tələblərini, ən vacibi isə ibadətlə bağlı tələbləri yerinə yetirmiş olmaq idi. Amma bu günlərdə şəhidliklə bağlı həmin tələbə münasibət bir qədər dəyişmişdir.

Məlumdur ki, müsəlman olan və vətəni üçün ölən hər kəs şəhiddir. Müasir dövrümüzdə Azərbaycan şəhidləri sadəcə azərbaycanlılar və ya islam dininə etiqad edən müsəlmanlar deyil. Çoxdinli və çoxmillətli Azərbaycan Respublikasının Musəvi və Xristian dininə mənsub olan yəhudi, rus və başqa millətlərdən olan şəhidləri də vardır.

Musəvi dininə və yəhudi millətinə mənsub olan şəhidimiz Albert Aqarunov Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq cəbhəyə getmişdir. O, tank birqadasının tərkibində bir çox döyüşlərdə iştirak etmişdir. Azərbaycan Silahlı Qüvvələrinin kapitanı olan Albert Aqarunov 7 may 1992-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş və ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür [2]. Albert Aqarunov bu yüksək ada layiq görülən ilk Azərbaycan hərbçilərindən biri idi. Albert Aqarunov Azərbaycanın milli qürur simvoluna çevrilmişdir və bütün Azərbaycan xalqı tərəfindən ən çox yad edilən müharibə qəhrəmanlarından biridir.

Xristian dininə və rus millətinə mənsub olan şəhidimiz Viktor Vasilyeviç Seryoginin adını Birinci Qarabağ müharibəsi zamanı hər kəs bilirdi. Hərbi vertolyotun pilotu olan Viktor sərrast atəşlərlə erməni işğalçılarının zirehli texnikalarını sıradan çıxarırdı. 28 yanvar 1992-ci ildə onun idarə etdiyi vertolyot vuruldu. Viktor Vasilyeviç öz canı bahasına vertolyotda olan dinc sakinləri təhlükəsiz yerdə endirdi, onların tələf olmasının qarşısını ala bildi. Amma özü qəhrəmancasına həlak oldu. Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı fərmanı ilə Viktor Vasilyeviç Seryogin ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü [3].

İslam aləmində şəhidliklə bağlı ilk və əsas şərt odur ki, ölən şəxs mütləq şəkildə müsəlman olmalıdır. Bu mövqedən yanaşılsa, musəvi və xristian dinlərinə mənsub olan şəxslərin həqiqi şəhid hesab olunması mümkün deyil. Amma nəzərə alsaq ki, Azərbaycan dini dövlət deyil və ikinci bir tərəfdən istər Müsəvilik, istərsə də Xristianlıq islamdan əvvəl yaransa da, onlar da səmavi dinlərdir. Musəvilik də, Xristianlıq da, İslam da tək olan Allaha etiqadı təbliğ edir. Əgər

bir insan Allahın böyüklüyünü və Onun hər şeyə qadir olduğunu etiraf edirsə, hər şeyin sahibinin Allah olduğunu bilirsə, bunu ivrit, rus, ingilis, ərəb, türk və ya başqa bir dildə etiraf və ifadə etməsinin heç bir fərqi yoxdur. Əslinə qalsa, Allaha şükür, dua və səcdə edən şəxsin, ümumiyyətlə, heç bir dilə ehtiyacı yoxdur. Bunu, əgər belə demək mümkündürsə, həmin şəxs *ruh* dili və ya *niyyət* dili ilə, elmi şəkildə desək, fikrin fraqmentləri mahiyyəti daşıyan freymlər vasitəsilə də ifadə edə bilər. Həmin freymlər konseptə çevrilmə mərhələsində söz cildinə bürünür. Bu fikri başqa bir şəxsə ötürmək ehtiyacı yarananda həmin fikir tədricən dil struktur vahidlərindən ibarət olan nitq söyləmi şəklini alır. Həmin ana qədərsə, yəni fikir nitqə çevrilənə qədər hansı milləti təmsil edən şəxsin beynində formalaşırsa formalaşsın, o freymlərdən ibarət olan abstrakt təfəkkürdür və məhz nitqə çevrilmə anında milli mahiyyət qazanır.

Nisbilik nəzəriyyəsi yarandıqdan sonra hər şeyin sadəcə ağ və qara olmadığı sübut edildi. Müəyyən edildi ki, ağın da, qaranın da çoxsaylı çalarları var. Qeyri-səlis məntiq nəzəriyyəsi isə daha irəli gedərək sübut etdi ki, mütləq doğru və mütləq yalan yoxdur. Tam anlaşılma, tam əlaqə, tam başa düşmə kimi anlayışlar da mövcud deyil.

İlkin təmas anında hər kəs aldığı informasiyanı öz potensialı çərçivəsində və öz dünya görüşünə uyğun şəkildə dərk edir. Bu səbəbdən də müəyyən bir informasiyanı və ya nitq söyləmini dinləyən şəxsə ötürmək o demək deyil ki, həmin nitq söyləmini quran və ya danışan şəxsin nəzərdə tutduğu fikir 100% qarşıdakı tərəfə ötürülmüşdür [5].

Eyni fikirləri "şəhid" konseptinə də aid etmək mümkündür. Cəmiyyətdə fərqli düşüncələrə, fərqli inanclara, fərqli dünyagörüşünə, müxtəlif irqlərə və milliyyətə mənsub insanlar olduqca, eyni bir mənanın fərqli çalarlara, eyni bir konseptin müxtəlif dillərdə fərqli adlara malik olması təbii bir haldır. Bu gün Azərbaycan cəmiyyətində və türk dünyasında "şəhid" konseptinə fərqli yanaşmalar, onunla bağlı fərqli izah və şərhlər mövcuddur. Bu konsepti müsbət və ya mənfi bir fenomen kimi şərh edən yüzlərlə elmi əsərlər yazılmışdır. Sadəcə İslam dünyası daxilində deyil, ondan kənarda da bu konseptlə bağlı fərqli fikirlər səslənməkdədir. Şəhidin kimliyi, mahiyyəti və cəmiyyət üçün rolu ilə bağlı çoxsaylı mülahizələr irəli sürülür. Bu səbəbdən də şəhid anlayışına və onun statusuna dəyər verən müxtəlif ölkələrdə xüsusilə İslam dünyasında şəhidin kimliyi ilə bağlı qanuni düzənləmələr mövcuddur.

Məlum olduğu kimi şəhid anlayışı ərəbdilli ölkələrdə yaranmışdır. Buna görə də bəzən belə bir fikir irəli sürülür ki, şəhid haqqında danışan hər kəs mütləq şəkildə ərəb dünyasında bu anlayışla bağlı mövcud olan şərhləri bir əsas, bir bünövrə kimi qəbul etməlidir. Ərəb dünyasında qeyd edilən bu normalardan kənara çıxılmamalıdır. Nəzərə almaq lazımdır ki, zaman keçdikcə hər şey dəyişir. Zaman irəlilədikcə müəyyən anlayışlar da mahiyyətcə dəyişir. Bu gün türk dünyasında "şəhid" anlayışı və konsepti ərəb dünyasında olan "şəhid" anlayışı və konseptindən müəyyən qədər fərqlənir.

Bu gün Azərbaycanda, eləcə də digər türk respublikalarında "şəhid" adı dövlət tərəfindən verilən rəsmi ad və ya statusdur. Hal-hazırda Azərbaycan Respublikası qanunvericiliyinə əsasən aşağıdakı şəxslər şəhid hesab edilirlər:

- 1990-cı ilin yanvarında Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında faciəli hadisələr nəticəsində həlak olanlar [8];
- 11 dekabr 1988-ci ildə Leninakanda qəzaya uğrayan təyyarədə həlak olmuş şəxslər;
- Azərbaycan Respublikasında 1988-ci ildən 1990-cı ilin yanvar ayınadək olan dövrdə Sovet Ordusunun qeyri-qanuni hərəkətləri və ya manevrləri nəticəsində həlak olmuş vətəndaşlar;

- Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü, habelə ölkənin digər ərazilərində erməni hərbi təxribatı (hücumu, zərbəsi) nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar;
- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçular;
- Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hadisələrdə, o cümlədən atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə və ya daxili işlər, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarında, habelə Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətində, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyində döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xidməti vəzifəsinin icrası zamanı həlak olmuş, itkin düşmüş və məhkəmənin qərarına əsasən ölmüş hesab edilmiş şəxslər;
- Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olmuş və ya itkin düşmüş hərbi qulluqçular.

Bütün bu şəxslər rəsmi qaydada Azərbaycan Respublikası ərazisində "şəhid" statusuna malikdir. Bütün şəhidlərin varislərinə dövlət tərəfindən qanunla nəzərdə tutulmuş formada müvafiq yardımlar göstərilir.

Bu gün *Türkiyə Respublikası* Qanunvericiliyinə əsasən aşağıda qeyd edilən şəxslər rəsmi şəkildə "şəhid" hesab olunurlar:

- Həqiqi hərbi xidmətdə olan, Vətənin müdafiəsində dayanan və istənilən bir şəkildə həyatını itirən əsgərlər;
- Terrorist hücumu nəticəsində həyatını itirən təhsil, tibb, təhlükəsizlik və başqa sistemlərə məxsus olan şəxslər;
- Xidməti vəzifəsini icra edərkən həyatını itirən polis və yanğınsöndürənlər.

Bütün bu şəxslər dini inanclarından asılı olmayaraq cəmiyyət daxilində və kütləvi informasiya vasitələrində "şəhid" adlandırılır. Onların bir qisminin "şəhid" statusu isə, aid olduqları qurumların Nizamnaməsi və Türkiyə Respublikası Qanunları ilə də dəstəklənir. Həmin şəxslərin varisləri dövlətdən təzminat və yardım almaq hüququ qazanır.

Bunlardan başqa bəzi hallarda dini, siyasi və ideoloji baxışları və ya fəaliyyəti səbəbi ilə öldürülən şəxslər də yaxınları, davamçıları və ya həmkarları tərəfindən "şəhid" adlandırılır.

Buraya qədər deyilənlər əsasında belə bir ilkin nəticəyə gələ bilərik ki, "şəhid" konseptinin ilkin mərhələdə malik olduğu məna tutumu zaman keçdikcə xeyli genişlənmişdir. Bu gün dövlət və millət üçün böyük əhəmiyyət daşıyan bir iş və ya amal uğrunda vuruşarkən həlak olanlar, başqalarını yaşatmaq üçün öz canını əsirgəməyənlər, cəmiyyətə zərər vermə ehtimalı olan şəxsi və ya şəxsləri durdurmaq üçün həyatını qurban verənlər, ictimai əhəmiyyət daşıyan bir həyat yaşayarkən ölənlər şəxslər şəhid hesab olunurlar.

Göründüyü kimi qeyd edilən müddəalar arasında dini yaymaq və ya dini mənsubiyyətinə görə öldürülənlər haqqında heç bir fikir, ümumiyyətlə yoxdur. Ona görə ki, müasir dövrdə dini yaymaq kimi bir fəaliyyət yox səviyyəsindədir və bu fəaliyyətə görə və ya hansısa bir dinə mənsub olduğuna görə heç kim öldürülmür. Dini yaymaq və ya qorumaq üçün vuruşmağa da ehtiyac yoxdur. Yəni dünyəvi dövlətlərin üstünlük təşkil etdiyi bir dünyada din üçün savaşmaq mümkün də deyil.

Şəhid konsepti tarixi inkişafı boyu həm dini, həm də ictimai-fəlsəfi məna tutumları ilə zənginləşmiş və dəyişmişdir. İlkin mərhələlərdə şəhidlik yalnız dini inanc və etiqad uğrunda ölümü ifadə edirdisə, zaman keçdikcə bu anlayışın məzmunu genişlənmiş, dünyəvi dövlətlərdə ictimai əhəmiyyət daşıyan amal və dəyərlər uğrunda həyatını fəda edən şəxsləri də əhatə etməyə başlamışdır. Müasir türk düşüncə modelində və Azərbaycan reallığında şəhid anlayışı vətən, xalq və dövlətin müdafiəsi ilə sıx bağlıdır.

Müxtəlif dinlərdə və mədəniyyətlərdə şəhid anlayışına fərqli yanaşmalar olsa da, ümumi məna eyni olaraq qalır: şəhidlik – yüksək amal uğrunda canından keçməkdir. Bu səbəbdən, istər İslamda, istər Xristianlıqda, istərsə də digər inanclarda şəhidlik cəmiyyətin mənəvi dayaqlarından biri kimi qəbul olunur.

Azərbaycanın müasir tarixi göstərir ki, şəhidlik yalnız dini kimliklə məhdudlaşmır. Çoxmillətli və çoxdinli Azərbaycan cəmiyyətində yəhudi, xristian və digər etnik-dini mənsubiyyətə malik insanların da şəhidlik zirvəsinə yüksəlməsi, bu anlayışın ümumbəşəri mahiyyətini bir daha təsdiqləyir.

Beləliklə, şəhid konsepti təkcə dini və ya milli sərhədlərlə izah olunmayan, insanlığın yüksək mənəvi dəyərlərindən birinə çevrilmişdir. Onun mahiyyəti zaman və məkan daxilində dəyişsə də, əsas qayə – uca amal uğrunda fədakarlıq etmək – sabit olaraq qalır.

**Problemin aktuallığı.** "Şəhid" konsepti müasir Azərbaycan cəmiyyətinin mənəvi dayaqlarından biri olmaqla yanaşı, həm də milli özünüdərk, kollektiv yadda və ictimai kimlik üçün fundamental əhəmiyyətə malikdir. Qarabağ müharibələri və Azərbaycan tarixində baş verən digər mühüm hadisələr şəhid anlayışını hüquqi və ideoloji cəhətdən dəyərləndirilməsini zəruri edir. Həm də koqnitiv səviyyədə araşdırılıb dəyərləndirilməsinə imkan yaradır. Problem qloballaşma, dünyəvilik və çoxmədəniyyətlilik şəraitində aktualdır. Bununla yanaşı, "şəhid" anlamının genişlənməsi və transformasiyası bu problem elmi baxımdan da aktual edir.

**Problemin elmi yeniliyi.** Məqalədə şəhid konsepti yalnız dini aspektdə araşdırılmır. Burada koqnitiv-linqvistik, mədəni və etnososioloji kontekstdə yanaşma da təqdim edilir. "Şəhid" anlamının genişlənməsi və transformasiyasının elmi baxımdan aktuallığı qeyd edilir. Konseptin mental struktura çevrilməsi, kollektiv şüurda formalaşma mexanizmləri və müxtəlif dillərdə semantik variasiyaları yeni elmi nəticələr kimi çıxış edir. "Şəhid" konseptinin elmi əsaslandırılması problemin elmi yeniliyini əhatə edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** "Şəhid" konseptinin koqnitiv səviyyədə araşdırılması onun tədris materiallarında, elmi-analitik tədqiqatlarda, mədəniyyətşünaslıq və dinşünaslıq sahəllərində istifadə imkanlarını genişləndirir. Aparılan araşdırmanın nəticələri təhsil proqramında milli-mənəvi dəyərlər, konseptual semantika və kulturologiya kimi mövzuların tədrisinə uyğunlaşdırıla bilər.

**Ədəbiyyat**

1. Əsgərov M.B. Linqvopsixologiya və ya dilin psixologiyası. Bakı, "Elm və təhsil", 2011, 308 s.

2. Zeynalov R. Aqarunov Albert Aqarunoviç //Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları, 1996. s.32.

3. Zeynalov R. Senyuşkin Sergey Aleksandroviç: //Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları, 1996. s.13.

4. Бабушкин А.П. Типы концептов в лексико-фразеологигеческой семантике языка. Воронеж: Изд-во ВГУ, 1996, 103 с.

5. Khanbutayeva, L.M. The role of equipments in decoding of the sentence. "British Journal for science and economic research" Volume 3, 2018, p.19-28.

6.Larsen-Freeman, D. Reflecting on the cognitive-social debate

7.https://tr.wikipedia.org/wiki/%C5%9Eehit

8.https://az.wikipedia.org/wiki/Lənkəran_hadisələri

**F.M.Hadi**

**Şəhid konseptinə ilkin baxış və onun bəşəri mahiyyəti**

**Xülasə**

Məqalədə "şəhid" konseptinin tarixi inkişafı, etimoloji kökləri və müxtəlif dini-mədəni sistemlərdə aldığı semantik yüklər araşdırılır. Şəhid anlayışının ilkin mərhələdə dini inanc və etiqad uğrunda ölümü ifadə etdiyi, lakin zaman keçdikcə bu anlayışın mənasının genişlənərək ictimai, milli və dövlətçilik ideyaları ilə sıx bağlı bir statusa çevrildiyi göstərilir. Müasir türk düşüncə modelində, xüsusilə Azərbaycan reallığında şəhidlik yüksək amal və fədakarlığın zirvəsi kimi qəbul olunur. Məqalədə həmçinin İslam, Xristianlıq və Yəhudilikdə şəhid anlayışına fərqli yanaşmalar müqayisəli şəkildə təhlil edilir və bu fenomenin ümumbəşəri dəyər daşıdığı qənaətinə gəlinir.

**Ф.М.Хади**

**Первоначальный взгляд на концепт шахидства и его общечеловеческая сущность**

**Резюме**

В статье исследуются историческое развитие, этимология и семантические особенности концепта «шахид» в различных религиозных и культурных системах. Показано, что изначально понятие шахид означало смерть во имя веры и религиозных убеждений, однако со временем его значение расширилось, охватывая идеи общественного служения, национальной идентичности и государственности. В современной тюркской модели мышления, особенно в азербайджанской действительности, шахид воспринимается как вершина высокого идеала и самоотверженности. В работе также проводится сравнительный анализ понимания шахидства в исламе, христианстве и иудаизме, делается вывод о его универсальной ценности для человечества.

**F.M.Hadi**

**An initial view of the concept of martyrdom and its humanistic essence**

**Summary**

The article explores the historical development, etymology, and semantic aspects of the concept of “martyr” in different religious and cultural systems. It is demonstrated that, while originally referring to death in the name of faith and religious belief, the meaning of the concept has gradually expanded to encompass ideals of social service, national identity, and statehood. In the modern Turkic model of thought, particularly within the Azerbaijani context, martyrdom is regarded as the pinnacle of noble ideals and self-sacrifice. The study also provides a comparative analysis of the perception of martyrdom in Islam, Christianity, and Judaism, concluding that the phenomenon carries a universal human value.

**Redaksiyaya daxil olub:** 08.12.2025

*UOT 37.01*

# MƏKTƏB VƏ AİLƏ ƏMƏKDAŞLIĞININ MİLLİ-MƏNƏVİ TƏRBİYƏNİN GÜCLƏNDİRİLMƏSİNDƏ ƏHƏMİYYƏTİ

**Fidan Araz qızı Rüstəmova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0001-3069-9284
**E-mail:** fidantgh@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.15

***Açar sözlər:*** *məktəb–ailə əməkdaşlığı, milli-mənəvi tərbiyə, vətənpərvərlik, şəxsiyyətin formalaşması, ailə dəyərləri, əməkdaşlıq prinsipi, mənəvi məsuliyyət*

***Ключевые слова:*** *сотрудничество школы и семьи, нравственно-патриотическое воспитание, патриотизм, формирование личности, семейные ценности, принцип сотрудничества, моральная ответственность*

***Key words:*** *school-family cooperation, moral and patriotic education, patriotism, personality formation, family values, principle of cooperation, moral responsibility*

Ümummilli lider Heydər Əliyev deyirdi: *"Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi ənənələr əsasında tərbiyə edilsinlər*".

Müasir dövrdə milli-mənəvi tərbiyə təkcə ayrı-ayrı fənlərin və ya dərsdənkənar tədbirlərin deyil, bütün təlim-tərbiyə sisteminin əsas istiqamətlərindən biri hesab olunur. Uşağın şəxsiyyət kimi formalaşması, mənəvi dünyasının zənginləşməsi və milli dəyərlərə hörmət ruhunda yetişməsi üçün məktəblə ailə arasında səmərəli əməkdaşlıq zəruridir.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərilən əsas prinsiplərdən biri xalqın milli varlığını müəyyən edən ana dilinin qorunması, inkişafı və istifadəsinin təmin olunmasıdır. Ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də xalqın tarixi yaddaşını, mədəniyyətini, mənəviyyatını və milli kimliyini ifadə edən mənəvi sərvətdir. Dövlət səviyyəsində ana dilinin qorunması, onun tədrisi və tətbiq dairəsinin genişləndirilməsi xalqın milli birliyinin və mədəni davamlılığının əsas göstəricisidir.

"Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Öz ana dilini bilməyənlər şikəst adamlardır."

Bu dərin məna kəsb edən sözlər ana dilinə sahib çıxmağın yalnız fərdi borc deyil, həm də vətəndaşlıq məsuliyyəti olduğunu göstərir. Dil milli düşüncənin daşıyıcısıdır, insanın mənəvi aləmini formalaşdırır, onun dünyagörüşünə və milli kimliyinə təsir göstərir.

Azərbaycan xalqı əsrlər boyu öz dilini yad təsirlərdən, assimilyasiyadan qoruyaraq bu günə gətirib çıxarmışdır. Bu, xalqın mənəvi gücünün, azadlıq və müstəqillik uğrunda mübarizəsinin göstəricisidir. Müstəqil Azərbaycanın dil siyasətinin əsasını da məhz Heydər Əliyevin ana dilinə verdiyi yüksək dəyər və qayğı təşkil etmişdir. Onun təşəbbüsü ilə 2001-ci il "Azərbaycan Respublikasında Dövlət dili haqqında Qanun" qəbul edilmiş, Azərbaycan dili Konstitusiya səviyyəsində dövlət dili kimi təsbit olunmuşdur. (6)

Ana dilinə hörmət milli-mənəvi tərbiyənin ayrılmaz hissəsidir. Uşaqlara və gənclərə ana dilinin gözəlliklərini sevdirmək, ədəbi dil normalarına yiyələndirmək və onu gündəlik həyatda doğru şəkildə tətbiq etmək həm ailənin, həm də məktəbin əsas vəzifələrindən biridir. Məktəbdə tədris olunan fənlər, ədəbiyyat və tarix dərsləri, eləcə də kütləvi tədbirlər vasitəsilə şagirdlərdə ana dilinə sevgi, düzgün nitq bacarığı və milli qürur hissi formalaşdırılmalıdır.

Ana dili milli kimliyin sütunu, xalqın varlığının və mənəviyyatının ifadəsidir. Heydər Əliyevin qeyd etdiyi kimi, dilini itirən xalq öz mənəvi varlığını da itirir. Buna görə də, hər bir vətəndaşın borcu ana dilinə hörmətlə yanaşmaq, onu qorumaq və gələcək nəsillərə saf, zəngin formada ötürməkdir. Ailə uşağın ilk sosial mühitidir, burada onun ilkin davranış normaları, əxlaqi keyfiyyətləri və milli kimlik duyğuları formalaşır. Məktəb isə bu prosesin davamı olaraq həmin dəyərləri sistemləşdirir, elmi biliklərlə zənginləşdirir və ictimai məzmun kəsb edən tərbiyə istiqamətinə çevirir. Buna görə də ailə və məktəb arasında qarşılıqlı əlaqə milli-mənəvi tərbiyənin səmərəliliyinin əsas şərtlərindən biridir. Bunda başqa tək Azərbaycanda deyil rus pedaqoji ədəbiyyatında da şagirdlərdə də milli mənəvi dəyərlərin formalaşmasına yüksək qiymət verilmişdir.

Rus pedaqoji fikir tarixində K.D. Uşinski (1824–1870)** milli pedaqogikanın əsasını qoyan görkəmli alimlərdən biri hesab olunur. O, təlim və tərbiyə prosesində xalqın milli xüsusiyyətlərini, dilini, mədəniyyətini və mənəvi dəyərlərini əsas götürməyi zəruri sayırdı. Uşinskinin pedaqoji ideyaları yalnız Rusiya təhsil sistemi üçün deyil, həm də dünya pedaqogikasının inkişafı üçün böyük əhəmiyyət kəsb etmişdir.

Uşinskinin pedaqoji irsində ana dilinə, vətənin milli dəyərlərinə xüsusi yer ayrılmışdır. Buna onun “xəlqilik” ideyasını əsas gətirə bilərik. Onun fikrincə, ana dili uşağın mənəvi və zehni inkişafının əsas vasitəsidir. O yazırdı ki, tərbiyə yalnız bilik vermək deyil, eyni zamanda insanın mənəvi-əxlaqi formalaşması prosesi idi. O, insanı “biliklə yanaşı mənəviyyata da malik olan sosial varlıq” kimi qiymətləndirirdi.

Onun fikrincə, mənəvi tərbiyənin əsas məqsədi insanda vicdan, məsuliyyət, vətənə sevgi, əməksevərlik, ədalət, mərhəmət və hörmət hisslərinin formalaşdırılmasıdır. Uşinski tərbiyəni “xalqın gələcəyini təmin edən mənəvi qüvvə” adlandırırdı. Bunun üçün də müəllimin, məktəbin, ailənin əlbir əməyini yüksək qiymətləndirirdi.

Uşinskinin pedaqoji sistemində müəllim əsas fiqurlardan biridir. O hesab edirdi ki, müəllim təkcə bilik verən deyil, həm də milli-mənəvi dəyərlərin daşıyıcısı və ötürücüsüdür.

Onun fikrincə, müəllim uşaqlarda vətənə məhəbbət, xalqına bağlılıq və milli qürur hissi formalaşdırmalıdır.

K.D. Uşinskinin milli-mənəvi dəyərlərlə bağlı ideyaları bu gün də aktualdır. Onun pedaqoji görüşləri göstərir ki, milli dəyərlərə söykənməyən təhsil sistemi gələcək nəsillərin mənəvi sabitliyini təmin edə bilməz.

Uşinskinin ideyaları müasir təhsil sistemlərində milli və humanist dəyərlərin qorunması, ana dilinə hörmət, vətənpərvərlik və əxlaqi kamillik prinsiplərinin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Pedaqoji baxımdan bu ideyaların hər biri məktəb və ailənin əlbir əməyi ilə əməkdaşlıq anlayışı ortaya qoyula bilər. (3)

Məktəb və ailənin əsas vəzifəsi uşağın intellektual və mənəvi inkişafı üçün bir-birini tamam-

layan mühit yaratmaqdır. Müəllim uşağın ailə mühitini, valideyn isə məktəbin tərbiyə proqramlarını bilməlidir. Bu qarşılıqlı məlumatlılıq uşaqla düzgün pedaqoji münasibətin qurulmasını təmin edir.

Ailədə uşağın davranış mədəniyyəti, dil, adət-ənənə, böyüklərə hörmət, milli dəyərlərə münasibət formalaşırsa, məktəb həmin keyfiyyətləri tədris prosesi, kütləvi tədbirlər və sosial fəaliyyətlər vasitəsilə möhkəmləndirir. Beləliklə, ailə ilə məktəbin əməkdaşlığı tərbiyənin fasiləsizliyini və ardıcıllığını təmin edir.

Milli-mənəvi tərbiyə — uşaqlarda milli kimlik duyğusunun, mənəvi məsuliyyətin, vətənə məhəbbətin, ailəyə və xalqın mədəni irsinə hörmətin formalaşdırılması prosesidir.

Bu tərbiyə istiqamətində məqsəd, gənc nəslin həm milli, həm də ümumbəşəri dəyərlərə sahib, mənəviyyatlı, tolerant və vətənpərvər vətəndaş kimi yetişməsidir.

**Məktəb və ailə əməkdaşlığı sayəsində uşaqlar:**

1. Milli rəmzlərə hörmət etməyi;
2. Azərbaycan xalqının tarixi və qəhrəmanlıq ənənələrinə qürurla yanaşmağı;
3. Mənəvi saflığı, səmimiyyəti və məsuliyyəti dərk etməyi öyrənirlər.

Milli-mənəvi tərbiyə yalnız dərs prosesində deyil, həm də məktəbdə və ailədə keçirilən bayramlar, görüşlər, xeyriyyə tədbirləri, ekskursiyalar, mədəniyyət günləri kimi fəaliyyətlərdə reallaşır.

Milli-mənəvi tərbiyə uşaqlarda vətənə, xalqa və milli dəyərlərə sevgi və hörmət hisslərinin formalaşdırılmasına yönəlmiş mühüm tərbiyəvi istiqamətdir. Bu tərbiyə prosesi gənc nəslin öz xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini dərindən öyrənməsi, onlara mənəvi bağlılıq hissi ilə yanaşması və milli kimliyini dərk etməsi məqsədini daşıyır. Bu məqsədlə məktəblilərdə bir sıra mühüm dəyərlər formalaşdırılır. Onlar milli rəmzlərə hörmət etməyi, Azərbaycan xalqının tarixi və qəhrəmanlıq ənənələrinə qürurla yanaşmağı, mənəvi saflığı, səmimiyyəti və məsuliyyəti dərk etməyi öyrənirlər.

Milli-mənəvi tərbiyə təkcə dərs prosesində deyil, həm də məktəbdə və ailədə keçirilən müxtəlif tədbirlər vasitəsilə reallaşır. Belə fəaliyyətlərə milli və dövlət bayramlarının qeyd edilməsi, xeyriyyə aksiyalarının təşkili, görkəmli şəxsiyyətlərlə görüşlər, ekskursiyalar, muzey və tarixi abidələrə səfərlər, mədəniyyət günləri, folklor və milli geyim festivalları daxildir. Bu tədbirlər uşaqlarda milli kimliyə hörmət, vətənpərvərlik, ictimai fəallıq və insanpərvərlik hisslərinin inkişafına böyük töhfə verir.

Ailə də milli-mənəvi tərbiyənin mühüm daşıyıcısıdır. Valideynlər gündəlik həyat tərzlərində uşaqlara böyüklərə hörmət, milli adət-ənənələrə sadiqlik, ana dilinə və milli mədəniyyətə sevgi kimi dəyərləri aşılayırlar. Məktəb və ailənin birgə fəaliyyəti nəticəsində uşaqlarda milli-mənəvi dəyərlərin möhkəmlənməsi təmin olunur və bu, onların vətənpərvər, məsuliyyətli və mənəvi cəhətdən yetkin şəxsiyyət kimi formalaşmasına şərait yaradır.

Milli-mənəvi tərbiyə yalnız dərs prosesində deyil, həm də müxtəlif tədbirlər vasitəsilə həyata keçirilir. Bu tədbirlər uşaqlarda milli dəyərlərin dərin mənimsənilməsinə, vətənə sevgi və xalqına hörmət hisslərinin formalaşmasına mühüm təsir göstərir. Məktəblərdə təşkil olunan belə tədbirlər həm tərbiyəvi, həm də maarifləndirici xarakter daşıyır.

Məsələn, "Bayraq günü" tədbirində şagirdlərə Azərbaycan bayrağının yaranma tarixi və rəmzi mənası izah edilir, bu da onlarda milli qürur və dövlətçilik hissini gücləndirir. "Qəhrə-

manlarımızı tanıyaq" layihəsi çərçivəsində məktəblilərlə şəhid ailələrinin görüşləri, qəhrəmanlıq filmlərinin nümayişi və təqdimatlar keçirilir. Bu kimi fəaliyyətlər uşaqlarda vətənpərvərlik və minnətdarlıq duyğularını inkişaf etdirir.

"Novruz bayramı" şənlikləri vasitəsilə milli adət-ənənələr, xalq oyunları, musiqilər və milli geyimlər uşaqlara təqdim olunur. Bu, onların milli kimliyə və mədəni irsə bağlılığını möhkəmləndirir. Tarixi muzeylərə və Şəhidlər xiyabanına təşkil olunan ekskursiyalar isə uşaqlarda keçmişə hörmət və vətən uğrunda canını fəda etmiş insanların xatirəsinə dərin ehtiram hissi yaradır.

Bundan əlavə, "Ailəm – mənim qalamsa" kimi ailə ilə birgə keçirilən tədbirlər uşaqlarda ailə dəyərlərinə hörmət, qarşılıqlı anlayış və milli-mənəvi birliyin vacibliyini dərk etməyə kömək edir.

Belə tədbirlər nəticəsində milli-mənəvi tərbiyə abstrakt anlayışdan çıxaraq uşaqların gündəlik həyatının bir hissəsinə çevrilir, onların şəxsiyyət kimi formalaşmasında və milli qürur hissinin aşılanmasında əsas rol oynayır.

**Məktəblə ailə arasında əlaqələrin qurulması üçün müxtəlif pedaqoji formalar mövcuddur:**

**1. Valideyn iclasları və maarifləndirici seminarlar** – valideynlərə milli-mənəvi tərbiyənin psixoloji və pedaqoji əsasları barədə bilgilər verilir.

**2. Birgə tədbirlər və layihələr** – şagird, müəllim və valideyn birlikdə milli bayramlarda, vətənpərvərlik gecələrində, "Ailə dəyərləri" mövzusunda yarışmalarda iştirak edirlər.

**3. Ev tapşırıqlarında ailə iştirakı** – şagirdlərə ailə üzvləri ilə birlikdə milli mövzularda təqdimatlar hazırlamaq tapşırılır.

**4. Fərdi məsləhətlər və monitorinqlər** – müəllim və valideyn uşaqda müşahidə olunan mənəvi dəyişiklikləri müzakirə edir, tərbiyə istiqamətini müəyyənləşdirir.

Bu formalar uşağın həm məktəbdə, həm də ailədə eyni dəyərlər sistemində formalaşmasına kömək edir.

Məktəb və ailə milli dəyərlərin ötürülməsində bir-birini tamamlayan sosial mühitlərdir. Məktəb milli-mənəvi tərbiyənin elmi-metodoloji əsasını təmin edir, ailə isə bu dəyərləri gündəlik həyat tərzinə çevirir. Valideynin uşağın məktəb həyatında fəal iştirakı — dərslərə marağının, davranışının və vətənpərvərlik hissinin artmasına səbəb olur. Eləcə də, məktəbdə keçirilən tədbirlər ailədə bu dəyərlərin möhkəmlənməsinə şərait yaradır. Belə qarşılıqlı münasibət uşaqlarda həm milli qürur, həm də vətəndaş məsuliyyəti hissini inkişaf etdirir. (7)

Məktəb və ailə əməkdaşlığı milli-mənəvi tərbiyənin əsas dayağıdır. Bu əməkdaşlıq uşaqlarda milli kimlik, vətənpərvərlik, mənəvi məsuliyyət və sosial davranış normalarının formalaşmasında mühüm rol oynayır.

Səmərəli əməkdaşlıq üçün qarşılıqlı hörmət, etimad, açıq ünsiyyət və ümumi məqsəd – yəni milli-mənəvi dəyərlərə sadiq gənclər yetişdirmək – rəhbər prinsip olmalıdır.

Məktəb və ailə birlikdə fəaliyyət göstərdikdə tərbiyə prosesi bütöv və məqsədyönlü xarakter alır, nəticədə mənəviyyatlı, vətəninə sədaqətli və dəyərlərinə bağlı vətəndaş nəsli formalaşır.

**Problemin aktuallığı.** Müasir dövrdə qloballaşma şəraitində gənc nəslin milli-mənəvi dəyərlərə sadiq ruhda tərbiyə olunması mühüm pedaqoji məsələdir. Bu prosesdə məktəb və ailə əməkdaşlığı uşağın şəxsiyyətinin formalaşmasında, milli kimliyinin və mənəvi dəyərlərinin in-

kişafında əsas rol oynayır. Dövlətin milli-mənəvi tərbiyəyə verdiyi önəm bu mövzunun aktuallığını daha da artırır.

**Problemin elmi yeniliyi.** Məqalədə məktəb və ailə əməkdaşlığının milli-mənəvi tərbiyənin formalaşmasında roluna yeni pedaqoji yanaşma təqdim olunur. Tədqiqatda ailə və məktəb birliyinin şagirdlərin milli dəyərlərə sadiqliyini və vətənpərvərlik tərbiyəsini gücləndirən əsas sosial mühit kimi qiymətləndirilməsi elmi yenilik təşkil edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri məktəbdə və ailədə milli-mənəvi tərbiyənin daha səmərəli təşkili üçün praktik tövsiyələr verir. Məqalədə təqdim olunan yanaşmalar müəllim və valideynlərin birgə fəaliyyətini gücləndirməyə, milli dəyərləri uşaqlara aşılayan tədbirlərin planlaşdırılmasına və tərbiyə prosesində qarşılıqlı məsuliyyətin artırılmasına tətbiq oluna bilər.

## Ədəbiyyat

1. Əhmədov, A. Pedaqogika: nəzəriyyə və təcrübə. Bakı: Təhsil, 2019.
2. Əliyeva, S. Ailənin tərbiyəvi funksiyaları və məktəblə əməkdaşlıq formaları. Bakı: Elm, 2020.
3. Məmmədova, R. Milli-mənəvi dəyərlərin gənc nəsildə formalaşması problemləri. Bakı: Qanun, 2021.
4. Əliyev, A. Müasir təhsil prosesində ailə və məktəb münasibətləri. Bakı: ADPU nəşriyyatı. 2018.
5. UNESCO. (2020). Family-School Partnerships in Education. Paris.
6. https://www.qanunla.az/musteqilliyimizin-berpasinda-sonra-azerbaycan-dili-xalqimizin-ictimai-siyasi-sosial-iqtisadi-ve-elmi-medeni-heyatinda-dovletin-resmi-dili-kimi-mustesna-ehemiyyet-dasidi/
7. http://www.anl.az/down/meqale/palitra/2013/avqust/323446.htm

**F.A.Rüstəmova**

### Məktəb və ailə əməkdaşlığının milli-mənəvi tərbiyənin gücləndirilməsində əhəmiyyəti
### Xülasə

Bu məqalədə şagirdlərin milli-mənəvi tərbiyəsinin gücləndirilməsində məktəb-ailə əməkdaşlığının rolu ətraflı araşdırılır. Tədqiqatın əsas məqsədi məktəb-ailə birgə fəaliyyətinin uşağın şəxsiyyətinin inkişafına, milli dəyərlərə hörmət və vətənpərvərlik hisslərinin inkişafına təsirini müəyyən etməkdir.

Tədqiqat göstərir ki, təkcə məktəb və ya ailə milli-mənəvi tərbiyənin tam və davamlı nəticələrini təmin edə bilməz. Məktəb uşaqlara bilik və sosial bacarıqlar verir, ailələr isə milli dəyərlərin gündəlik tətbiqi və nümunəsi ilə onların praktik tətbiqini təmin edir. Valideynlərin fəal iştirakı, milli bayramları və mədəni tədbirləri qeyd edən birgə tədbirlər, müəllim və valideynlər arasında sistemli əlaqələr uşaqların mənəvi inkişafını gücləndirir.

Məqalədə həmçinin məktəb-ailə əməkdaşlığının səmərəliliyi üçün konkret pedaqoji metodlar və tövsiyələr təqdim olunur. Bu yanaşmalar təhsil fəaliyyətinin birgə planlaşdırılmasına,

milli-mənəvi dəyərlərin həyata keçirilməsinə, şagirdlərin sosial-mənəvi bacarıqlarının inkişafına şərait yaradır. Tədqiqatın nəticələri məktəbdə və evdə təlim-tərbiyə proseslərinin səmərəliliyini artırmaq, həmçinin uşaqların milli-mənəvi bilik və bacarıqlarını gücləndirmək üçün tətbiq oluna bilər.

Beləliklə, məktəblə ailənin əməkdaşlığı milli-əxlaqi tərbiyənin bünövrəsi kimi çıxış edir və şagirdlərin həm akademik, həm də mənəvi cəhətdən hərtərəfli inkişafına kömək edir.

**Ф.А.Рустамова**

**Значение сотрудничества школы и семьи в укреплении национально-нравственного воспитания**

**Резюме**

В статье подробно исследуется роль сотрудничества школы и семьи в укреплении национально-нравственного воспитания учащихся. Основная цель исследования — определить влияние совместной деятельности школы и семьи на формирование личности ребёнка, уважение к национальным ценностям и патриотические чувства.

Исследование показывает, что только школа или только семья не могут обеспечить полные и устойчивые результаты национально-нравственного воспитания. Школа предоставляет ребёнку знания и социальные навыки, а семья через пример и повседневное воспроизведение национальных ценностей обеспечивает их практическое применение. Активное участие родителей, совместные мероприятия в честь национальных праздников и культурных событий, а также системные отношения между учителями и родителями укрепляют моральное развитие детей.

В статье также представлены конкретные педагогические методы и рекомендации для эффективного сотрудничества школы и семьи. Эти подходы позволяют совместно планировать воспитательные мероприятия, внедрять обучение национально-нравственным ценностям и развивать социальные и моральные навыки учащихся. Результаты исследования могут быть практически применены для повышения эффективности воспитательного процесса в школе и дома, а также для укрепления национально-нравственных знаний и навыков детей.

Таким образом, сотрудничество школы и семьи выступает основой национально-нравственного воспитания и способствует всестороннему развитию учащихся как в образовательном, так и в моральном аспекте.

**F.A.Rustamova**

**The importance of school-family collaboration in strengthening national and moral education**

**Summary**

The article explores in detail the role of school-family collaboration in strengthening the national and moral education of students. The main purpose of the study is to determine the

impact of joint activities between the school and the family on the development of the child's personality, respect for national values, and patriotic feelings.

The study shows that neither the school nor the family alone can provide complete and sustainable results in national and moral education. The school provides children with knowledge and social skills, while the family, through example and daily reinforcement of national values, ensures their practical application. Active parental involvement, joint celebrations of national holidays and cultural events, and systematic teacher-parent communication strengthen children's moral development.

The article also presents concrete pedagogical methods and recommendations for effective school-family collaboration. These approaches enable coordinated planning of educational activities, integration of national and moral values into teaching, and the development of students' social and moral skills. The results of the study can be practically applied to enhance the effectiveness of educational processes both at school and at home and to reinforce children's national and moral knowledge and habits.

In conclusion, school-family collaboration serves as a fundamental pillar of national and moral education and contributes to the comprehensive development of students both academically and morally.

**Redaksiyaya daxil olub:** 06.12.2025

***MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ***
***ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ***
***HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT***

*UOT 37.01*

# XIX ƏSRDƏ AZƏRBAYCANDA QIZLAR ÜÇÜN XÜSUSİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ŞƏBƏKƏSİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI PROSESİNİN ƏSAS TENDENSİYALARI

**Səma Ziyad qızı Xəlilova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0000-6272-2031
**E-mail:** khalilovasema024@icloud.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.16

***Açar sözlər:*** *xüsusi təhsil müəssisəsi, tendensiya, məktəb, qızlar, siyasət, islahat*
***Ключевые слова:*** *специальное учебное заведение, тенденция, школа, девушки, политика, реформа*
***Key words:*** *special educational institution, tendency, school, girls, politics, reform*

Azərbaycanda qadın fəallığının əsaslarını və ənənələrini araşdırdıqda tarixi palitranın kifayət qədər zəngin olduğunun şahidi oluruq: Heyran Nisə Bəyim, Tuti Bikə, Dəspinə xatun, Sara xatun diplomatiya, Məhsəti Gəncəvi, Xurşudbanu Natəvan, Heyran xanım, Fatma xanım Kəminə və başqaları ədəbiyyat sahəsində öz sözlərini demiş qadınlarımızdan hesab olunurlar. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda qadınların ictimai fəallığı daha artıq hiss edilməyə başlamışdı. Bəhs edilən dövrdə baş verən siyasi, iqtisadi və mədəni proseslər bu fəallığı bir az da sürətləndirdi. O vaxtın qabaqcıl qadınları kifayət qədər düşünülmüş dərəcədə yeni gender münasibətlərinin kontekstini yaradırdılar. İlk qadın məktəblərinin, qadın yığıncaqlarının və xeyriyyə cəmiyyətlərinin yaradılması vasitəsilə digər qadınları da bu fəaliyyətə cəlb etməyə çalışırdılar. Azərbaycan cəmiyyətinin kübar qadınları yaxşı təhsil almış və tez-tez xaricdə olmuşdular. Qızların təhsili ilə bağlı çoxsaylı problemlərin olduğu o dövrdə təsadüfi deyil ki, həmin qadınların sərf etdikləri əsas qüvvə, məhz maarifçilik fəaliyyəti sahəsində olmuşdur. Demokratik qanadın qadınları H.Məlikova, A.Əfəndiyeva, X.Əlibəyova, X.Vəzirova və bir çox başqaları artıq özləri təhsil prosesinin mərkəzində dayanır, onu yaradır və azərbaycanlı qızlar üçün məktəblərdə müəllimlik edirdilər. Beləliklə, Azərbaycanda qadın fəallığı öz yoluna maarifçilik və xeyriyyəçilik ideyalarını yaymaqla başlamışdı. Çünki o dövrün görkəmli maarifçiləri çox yaxşı başa düşürdülər ki, təhsilsiz qadın heç bir zaman cəmiyyətdə layiq olduğu mövqeyi əldə edə bilməyəcəkdir. [8, s.13]

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan qadınının demokratik cəmiyyətin fəal üzvünə çevrilməsi üçün geniş imkanlar açdı. Yaxın Şərqin ilk demokratik dövləti kişi və qadın hüquqlarını bərabərləşdirdi. Buna qədərki dövrdə nəinki Azərbaycan qadınları, hətta kişilərinin də böyük əksəriyyəti səsvermə hüququndan məhrum idilər. Yalnız 1918-ci ildə AXC Şərqdə ilk dəfə olaraq bütün vətəndaşlarına, o cümlədən qadınlara səsvermə

hüququ verdi. Bu qadınlar əsasən mədəni-maarif və ictimai sahədə tanınsalar da, kökündə maarifçilik missiyası duran həm pedaqoji, həm də publisistik fəaliyyətlərinə görə kişilərdən geri qalmırdılar. Halbuki, 1918-ci ildə Azərbaycanda bir qadının ziyalı elitada çalışması, bu sahədə çalışan bir kişinin fəaliyyətindən ən azı iki dəfə çətin idi. XIX əsrin sonlarında olduğu kimi, AXC dövründə də qadınların maariflənməsi məsələsinə xüsusi həssaslıqla yanaşırdılar. Həmin dövrdə 4 qadın gimnaziyası, 3 Müqəddəs Nina qız tədris müəssisəsi fəaliyyət göstərirdi. 1919-cu ilin 11 avqustunda Xalq Maarif Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı (Şəki) Müqəddəs Nina qız tədris müəssisələrinin adları dəyişdirilərək Bakıda birinci Azərbaycan qız gimnaziyası, Gəncə və Nuxadakılar isə qız gimnaziyaları adlandırıldı. Hazırlıq sinifləri də olan bu təhsil ocaqları səkkizillik idi. Sonuncu sinif pedaqoji təhsil hüququ verirdi. [8, s.13]

XIX əsr Azərbaycan cəmiyyətində qızların təhsil alması məsələsi uzun müddət yalnız ailə daxilində, sırf diniyönlü savadlanma ilə məhdud qalmışdı. Lakin əsrin ortalarından başlayaraq maarifçilik ideyalarının yayılması, ictimai şüurun dəyişməsi, sənaye və ticarətin inkişafı ilə qadının savadlı olmasına ehtiyac hiss edilməyə başladı. Bu mərhələdə həm yerli ziyalıların fəallığı, həm də Rus imperiyasının Qafqazdakı təhsil siyasəti qadın təhsilinin gerçəkləşməsində mühüm rol oynadı. Qızların məktəbə getməsi əvvəlcə cəmiyyət tərəfindən tərəddüdlə qarşılanırdı, lakin dövrün mətbuatı, maarifçi publisistlərin fikirləri, həmçinin Avropa tipli məktəblərin nümunəsi ilə bu fikir getdikcə daha geniş qəbul edilməyə başladı. Qız məktəbləri ilkin olaraq Bakı, Tiflis, Gəncə kimi mərkəzlərdə fəaliyyətə qədəm qoydu və bu məktəblərdə artıq təkcə ərəb əlifbası və dini biliklər deyil, rus dili, hesab, coğrafiya, tarix, musiqi və ev idarəçiliyi kimi fənlər də tədris olunurdu. Beləliklə, qızlar təkcə yazıb-oxumağı deyil, eyni zamanda dünyəvi elmləri mənimsəyərək sosial həyatda iştirak üçün müəyyən baza əldə edirdilər.

Maarifçilik ideyasını yayan maarifpərvər şəxslərin fəaliyyəti də bu prosesdə mühüm bir mərhələ olmuşdur. Xüsusilə Bakıda, Şuşada, Şamaxıda və bölgələrin digər mədəni mərkəzlərində imkanlı şəxslərin maddi dəstəyi ilə qızlar üçün xüsusi dərnəklər, sonradan isə formal təhsil ocaqları açılmağa başladı. Bu təşəbbüs yeni bir sosial düşüncənin formalaşmasına səbəb oldu: qız uşağının təhsili artıq yalnız ailənin daxili iş kimi yox, millətin tərəqqisi üçün vacib hesab edilirdi. Qızların məktəbə qəbulu artdıqca müəllimə kadrlarına ehtiyac yarandı və bunun nəticəsi olaraq qadın seminariyalarının təşkili vacib bir mərhələyə çevrildi. Bakı Qızlar Seminariyası kimi ocaqlar sonradan ölkənin müxtəlif bölgələrində çalışan savadlı qadın müəllimələr yetişdirdi, yeni məktəblərin yaranmasına təkan verdi və qızların təhsildə iştirakını sürətləndirdi.

Əsrin sonuna doğru təhsil şəbəkəsi artıq təkcə böyük şəhərlərlə məhdud qalmayaraq rayon və kəndlərə doğru genişləndi. Cəmiyyətlər, xeyriyyə təşkilatları, maarifçi birliklər qızların maariflənməsi üçün xüsusi vəsait ayırmağa başladılar. Tədricən savadlı qadın təbəqəsi formalaşdı, bu qadınlar təkcə müəllimliklə kifayətlənmir, həm də ictimai fəaliyyətə qoşularaq qadınların hüquqları, onların maariflənməsi və cəmiyyətdə özünü təsdiq etməsi uğrunda mübarizə aparırdılar. Beləcə, XIX əsr qızlar üçün təhsil müəssisələrinin təşəkkülü və inkişafı baxımından təkcə məktəblərin açılması ilə deyil, həm də yeni qadın kimliyinin formalaşması ilə xarakterizə olundu. Bu dövrdə atılan addımlar sonrakı yüzillikdə qadın maarifçiliyinin geniş miqyasda yüksəlişi üçün güclü bir platforma yaratdı. Artıq qızların təhsili yalnız modernləşmə göstəricisi deyil, milli tərəqqinin ayrılmaz şərti kimi dəyərləndirilirdi və cəmiyyət bu prosesin gedişindən geri dönməyəcək səviyyəyə çatmışdı.

**Problemin aktuallığı.** XIX əsrdə Azərbaycanda qızlar üçün xüsusi təhsil müəssisələrinin yaranması milli maarifçilik tarixində dönüş yaradan hadisə kimi bu gün də araşdırılmağa ehtiyac duyulan bir mövzudur. Müasir dövrdə qadın təhsilinin genişlənməsi və gender bərabərliyi məsələlərinin aktuallığı tarixi köklərin öyrənilməsini zəruri edir. Qızların təhsilə cəlb olunması ilə başlayan sosial dəyişikliklərin mənbəyini anlamaq, bugünkü inkişafın ilkin mərhələlərini müəyyənləşdirməyə imkan verir. Bu problem həm də milli düşüncənin formalaşması, ailə və təhsil modelinin transformasiyası baxımından böyük əhəmiyyət kəsb edir. XIX əsrdə məktəblərin yaranması yalnız təhsil faktı deyil, həm də qadının cəmiyyətdə yer almasının başlanğıcı idi. Bu prosesin araşdırılması qadın maarifçiliyinin inkişaf xəttinin izlənməsi üçün mühüm nəzəri baza yaradır. Məhz buna görə mövzu həm tarixi, həm də pedaqoji kontekstdə aktuallığını qoruyan elmi tədqiqat sahələrindən biridir.

**Problemin elmi yeniliyi.** Araşdırmanın elmi yeniliyi ondan ibarətdir ki, XIX əsrdə qızlar üçün məktəb şəbəkəsinin formalaşması yalnız tarixi faktların toplusu kimi deyil, sistemli proses kimi təhlil olunur. Qız təhsilinin inkişafına təsir edən sosial-psixoloji, ideoloji və pedaqoji faktorlar ilk dəfə olaraq kompleks şəkildə qiymətləndirilir. Maarifçi ziyalıların fəaliyyəti, xeyriyyəçilik hərəkatı və dövlət siyasəti arasındakı qarşılıqlı əlaqənin elmi şərhi yeni nəticələr irəli sürməyə imkan verir. Təhsil müəssisələrinin formalaşma mərhələləri, müəllimə kadrlarının yetişməsi və bölgələrə yayılması yeni nəzəri yanaşma ilə izah edilir. Tədqiqat qadınların savadlanmasının cəmiyyətin transformasiyasına təsirini faktoloji və analitik əsaslarla sübut edir. Həmçinin araşdırma qız təhsilinin təkcə maarifçilik siyasəti deyil, ictimai düşüncə dəyişikliyi kimi dəyərləndirilməsinə yeni baxış gətirir. Bu yenilik mövzunun gələcək elmi işlərdə daha dərindən işlənməsi üçün zəmin yaradır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəzəri əhəmiyyəti XIX əsrdə qadın təhsilinin inkişaf qanunauyğunluqlarının müəyyənləşdirilməsi ilə bağlıdır. Aparılan təhlil qadın maarifçiliyinin tarixi-mədəni bazasını açır və bu bazanın müasir təhsildəki davamlılığını göstərir. İşin nəticələri pedaqogika, tarix və sosiologiya sahələrində qadın təhsilinin nəzəri modellərinin inkişafına töhfə verir. Qız məktəblərinin təşəkkülü nümunəsində təhsil institutlarının formalaşma mexanizmi izah olunur və bu mexanizm müasir yanaşmalarla müqayisə edilə bilir. Tədqiqat gələcək genderyönlü təhsil strategiyalarının hazırlanmasında tarixi təcrübədən istifadə üçün nəzəri baza yaradır. XIX əsrdə təhsilin yayılması ilə qadının sosial statusunun dəyişməsi arasındakı əlaqə elmi şəkildə izah edilir. Bu nəticələr mövzunun təhsil elmi üçün tətbiqi və nəzəri dəyərini təsdiqləyir.

## Ədəbiyyat

1. Ağarəhim. Əsərləri. 20 cilddə. 1-ci cild. Hekayələr və povestlər. Bakı: BQU nəşriyyatı, 2013, 500 s.
2. Azərbaycan qadın ensiklopediyası, Bakı, 2002.
3. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi. Fond 45, siyahı 2, s.v.257, vərəq 1-5.
4. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. III nəşr. Bakı, Beynəlxalq Universitet – NPM, 2006.
5. Heydər Əliyev. Təhsil millətin gələcəyidir (tərtibçilər: M.Mərdanov, Ə.Quliyev), Bakı, “Təhsil”, 2002.

6. Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. Bakı, 2001.
7. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004.
8. Yəhyayeva M. Azərbaycan müəllimi. - 2018. - 23 noyabr. - s.13.

**S.Z.Xəlilova**

**XIX əsrdə Azərbaycanda qızlar üçün xüsusi təhsil müəssisələri şəbəkəsinin formalaşması və inkişafi prosesinin əsas tendensiyaları**

**Xülasə**

XIX əsrdə Azərbaycanda qızlar üçün təhsil müəssisələrinin təşəkkülü milli maarifçilik tarixində yeni mərhələ yaradaraq qadınların cəmiyyətə inteqrasiyasının əsasını qoydu. Dövlət siyasəti, maarifçi ziyalıların təşəbbüsləri və xeyriyyəçilik fəaliyyətləri nəticəsində qızların təhsilə cəlb olunması prosesi sistemli xarakter aldı. Qız məktəblərinin açılması ilə dini təlimdən dünyəvi tədrisə keçid baş verdi, nəticədə qadınların savad səviyyəsi yüksəldi və sosial rolları genişləndi. Araşdırma göstərir ki, bu məktəblər yalnız təhsil ocağı deyil, həm də ictimai münasibətləri dəyişdirən mühüm sosial institut kimi fəaliyyət göstərirdi. Tədqiqatın elmi yeniliyi qız təhsilinin yaranma mexanizmlərinin kompleks şəkildə izah olunmasında və prosesin ictimai-mədəni təsirlərinin faktlara əsaslanan formal təhlilindədir. Tarixi materialların qiymətləndirilməsi qadın maarifçiliyinin inkişaf xəttini izləməyə, onun müasir dövrdəki əhəmiyyətini müəyyənləşdirməyə imkan verir. Aparılan təhlil həm nəzəri, həm də tətbiqi səviyyədə qadın təhsili ilə bağlı gələcək elmi tədqiqatlar üçün dayaq mənbə rolunu oynayır. Beləliklə, XIX əsrdə qız məktəblərinin yaranması Azərbaycan cəmiyyətinin modernləşməsində dönüş nöqtəsi kimi mühüm tarixi fakt kimi qiymətləndirilir.

**С.З.Халилова**

**Основные тенденции в процессе формирования и развития сети специальных учебных заведений для девочек в Азербайджане в XIX веке**

**Резюме**

Создание учебных заведений для девочек в Азербайджане в XIX веке ознаменовало собой новый этап в истории национального просвещения и заложило основу для интеграции женщин в общество. Благодаря государственной политике, инициативам просвещённой интеллигенции и благотворительной деятельности процесс вовлечения девочек в сферу образования приобрёл системный характер. С открытием женских школ осуществился переход от религиозного к светскому образованию, в результате чего повысился уровень грамотности женщин и расширилась их социальная роль. Исследование показывает, что эти школы функционировали не только как учебные заведения, но и как важные социальные институты, менявшие общественные отношения. Научная новизна исследования заключается в комплексном объяснении механизмов возникновения женского образования и фактологическом формальном анализе социокультурных последствий этого процесса. Анализ исторических материалов позволяет проследить развитие женского просвещения и определить его значение в современную эпоху. Проведенный

анализ служит опорным источником для будущих научных исследований женского образования как на теоретическом, так и на прикладном уровне. Таким образом, создание женских школ в XIX веке рассматривается как важный исторический факт, поворотный момент в модернизации азербайджанского общества.

**S.Z.Khalilova**

**The main trends in the process of formation and development of a network of special educational institutions for girls in Azerbaijan in the 19th century**

**Summary**

The formation of educational institutions for girls in Azerbaijan in the 19th century created a new stage in the history of national enlightenment and laid the foundation for the integration of women into society. As a result of state policy, initiatives of enlightened intellectuals and charitable activities, the process of involving girls in education took on a systematic character. With the opening of girls’ schools, a transition from religious to secular education took place, as a result of which the literacy level of women increased and their social roles expanded. The study shows that these schools functioned not only as educational institutions, but also as important social institutions that changed social relations. The scientific novelty of the study lies in the complex explanation of the mechanisms of the emergence of girls’ education and the fact-based formal analysis of the socio-cultural impacts of the process. The assessment of historical materials allows us to trace the development of women’s enlightenment and determine its importance in the modern era. The analysis conducted serves as a supporting source for future scientific research on women’s education at both the theoretical and applied levels. Thus, the establishment of girls’ schools in the 19th century is considered an important historical fact, a turning point in the modernization of Azerbaijani society.

**Redaksiyaya daxil olub:** 08.12.2025

***İBTİDAİ SİNİFLƏRDƏ TƏHSİL VƏ TƏRBİYƏ***
***ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ В НАЧАЛЬНЫХ КЛАССАХ***
***EDUCATION AND UPBRINGING IN PRIMARY CLASSES***

*UOT 373.31*

# İBTİDAİ SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNİN FOLKLOR NÜMUNƏLƏRİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN TƏCƏSSÜMÜ

**Səfa Etibar qızı Bədirova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0004-0148-178X
**E-mail:** sefabedirli11@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.17

***Açar sözlər:*** *mənəvi dəyərlər, şifahi xalq ədəbiyyatı, atalar sözləri, xalq.*
***Ключевые слова:*** *моральные ценности, Устная народная литература, пословицы, люди.*
***Key words:*** *moral values, Oral folk literature, proverbs, people.*

Hər bir xalqın yaşam tərzinin əsas göstəricisi onun milli-mənəvi dəyərləri, tarixi, dili, dini, adət-ənənələri, mentaliteti və mədəniyyətidir. Mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdırmaqla yanaşı, onun inkişafına da kömək edir və bu dəyərlərin formalaşması prosesi nəticəsində xalqın zəngin mədəni irsi yaranır. Milli-mənəvi dəyərlər haqqında ulu öndərimiz Heydər Əliyevin belə bir gözəl kəlamı var: "*Bizim hamımızın bir vətəni var-bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam ruhlu və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.*" Əxlaqi və mənəvi tərbiyənin mühüm tərkib hisslərindən biri olan vətənpərvərlik hissinin təbliğ olunmasında atalar sözləri böyük rol oynayaraq gəncləri vətənə məhəbbət ruhunda tərbiyə etməyə imkan verir. Atalar sözü uşaqlarda xalqa, torpağa, elinə-obasına məhəbbət hissləri aşılayır, vətənin qədrini bilməyi, düşmənə baş əyməməyi öyrədir: *Vətən viranə də olsa, cənnətdir. Vətən elin evidir. Vətənə gəldim, imana gəldim. Vətənə məhəbbət imandandır. Vətənin bir qışı qürbətin min baharından yaxşıdır* və s.

Azərbaycan folkloru xalqımız üçün çox böyük əhəmiyyətə malikdir. Folklor nümunələrində xalqın həyat tərzi, dünyagörüşü, əxlaqı və milli-mənəvi dəyərləri öz əksini tapmışdır. Xüsusilə ibtidai sinif şagirdləri üçün, həmçinin 3-cü sinif Azərbaycan dili və oxu dərslərində istifadə olunan folklor nümunələri uşaqların milli-mənəvi tərbiyəsində, onların dünyagörüşündə, formalaşmasında mühüm rol oynayır. Atalar sözləri, bayatılar, nağıllar, tapmacalar şagirdlərə vətənpərvərlik, humanizm, böyüyə hörmət, dostluq və əməksevərlik və s. kimi dəyərləri aşılamaqda çox güclü vasitədir.

Üçüncü sinif dərsliklərində folklor materiallarının əsas məqsədi şagirdlərin həm ana dilini düzgün mənimsəməsi, həm də xalqımızın milli-mənəvi sərvətləri və dəyərləri ilə tanış olmasıdır.

**Atalar sözü** – atalarımızın yaratdığı və əsrlərdən bəri özünü qoruyub saxlamış hikmətli sözlərdir. Mövzu müxtəlifliyi ilə yanaşı bitmiş bir fikir, ümumiləşdirmə və nəticə atalar sözlərinə aid olan əlamətlərdir. Atalar sözləri xalqın ələyindən keçmiş, müdrik və nəsihətli fikirlərindən ibarət olur və böyük əxlaqi-tərbiyəvi əhəmiyyət kəsb edir. Əsas cəhəti qısalığı, lakin məna baxımından dərin, hikmətli və öyüdverici olmasıdır. Atalar sözləri tam fikri ifadə edir, həm birbaşa, həm də məcazi mənada işlədilir. Atalar sözü xalqın tarixə, tarixin də xalqa verdiyi ibrət dərsidir. Xalqın əqli birliyinin təntənəsi və parlaq təzahürüdür. (2: səh.264)

**Atalar sözləri mövzusuna görə bir neçə yerə bölünür:**

**1. Vətən və torpaq haqqında – vətənə bağlılıq, yurd sevgisi. El bir olsa, dağ oynadar yerindən** - Burada şagirdlərə çatdırılır ki, İnsanlar birlikdə, həmrəy olsalar, qarşılarına çıxan ən çətin maneəni də aşa bilərlər. Burada "dağ" sözlə çətinlik, böyük maneə nəzərdə tutulur. Bu kəlamda demək istəyir ki, ayrı-ayrı insanlar zəif ola bilər, amma hamı bir məqsəd uğrunda birləşəndə böyük işlər görülür. (3: səh.34)

**2. Əmək və zəhmət haqqında – işləmək, zəhmətkeşlik, tənbəlliklə bağlı. Güc** birlikdədir – Burada şagirdlərə çatdırılır ki, insan təkbaşına çox şeyi bacarmaya bilər. Amma insanlar birlikdə işləsələr, bir-birlərinə kömək etsələr, çətin işləri də asanlıqla həll edə bilərlər (3, s. 34)

**3. Ailə və məişət haqqında – ata-ana, uşaq və məişət münasibətləri. Bu günün işini sabaha qoymazlar** - Görülməli işi vaxtında görmək lazımdır. Əgər işi sabaha saxlasan, həm iş yığılar, həm də çətinləşər. İnsan məsuliyyətli olmalı, tapşırığını vaxtında yerinə yetirməlidir. Məsələn verilən tapşırığı vaxtında eləsək işimiz asan olar. Amma sabaha qalsa, üst-üstə yığılacaq və daha çətin olacaq. Ona görə işi vaxtında görmək lazımdır (3: səh.34).

**4. Dostluq və düşmənçilik haqqında – dostluğun dəyəri, düşmənə münasibət. Sonrakı peşmançılıq fayda verməz -** Bu o deməkdir ki, dost seçərkən diqqətli olmalıyıq. Əgər səhv dost seçsək və sonra peşman olsaq, artıq keçmişi dəyişmək mümkün deyil. Yəni, səhvimizi gec başa düşmək bizə heç nə qazandırmır. Ona görə də, dostlarımızı ağıllı seçmək lazımdır (3:səh. 34).

**5. Elm, təhsil və bilik haqqında – oxumağın, biliyin əhəmiyyəti. Bilməmək eyib deyil, soruşmamaq eyibdir** – Burada şagirdlərə izah edilir ki, əgər bir adam bir şeyi başa düşmürsə, utanmadan soruşmalıdır. Çünki soruşmaqla öyrənərsən, öyrənməsən isə cahil qalarsan. Məsələn, uşaq dərsi başa düşməyəndə müəllimdən soruşsa, öyrənəcək. Amma soruşmasa, bilməyəcək. Deməli, bilməmək ayıb deyil, soruşmamaq ayıbdır.

İbtidai siniflərdə tədris olunan folklor nümunələri şagirdlərin mənəvi-etik dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Nağıl, hekayət, tapmaca, atalar sözü, bayatı, məsəllər kimi xalq yaradıcılığı örnəkləri uşaqlara milli kimlik, milli yaddaş və milli düşüncə sistemi barədə ilkin təsəvvürlər yaradır. Bu nümunələr vasitəsilə uşaqlar xalqın tarixi təcrübəsini, dünyaya baxışını, davranış normalarını, xeyir və şər anlayışını, ailə və vətənə münasibəti daha aydın qavrayır. Folklor materialları ibtidai sinif şagirdlərində mənəvi keyfiyyətlərin – dürüstlük, sədaqət, əməksevərlik, mərhəmətlilik, başqasına hörmət, böyüyə ehtiram və kiçiyə qayğı kimi dəyərlərin təlqin olunmasında təsirli vasitədir. Çünki folklor xalqın həyatının ayrılmaz tərkib hissəsi olmaqla, real həyati situasiyaları obrazlı şəkildə təqdim edir və uşağın psixoloji inkişaf səviyyəsinə uyğun, yaddaqalan, emosional təsir gücü olan mətnlərlə dəyərləri şüura hopdurur.

**Problemin aktuallığı.** Folklor vasitəsilə uşaqlarda milli-mənəvi dəyərlərin formalaşdırılması həm pedaqoji, həm də sosial baxımdan bu günkü dövrdə ən vacib məsələlərdən biridir. Folklor sadə və uşaqların başa düşəcəyi dildə yazıldığı üçün milli dəyərləri öyrətməyin ən təsirli vasitəsidir. Bu baxımdan dərsliklərdə folklor nümunələrinin istifadəsi pedaqoji cəhətdən çox aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Məktəblilərin hərtərəfli tərbiyə olunması, onlarda milli qürur hissi, milli-mənəvi dəyərlər, vətənpərvərlik hissinin, əxlaqi-mənəvi tərbiyənin aşılanması yolları irəli sürülmüşdür.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali məktəb pedaqoqları, magistrant və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1.https://www.researchgate.net/publication/393177366_FOLKLOR_NUMUNLRIND_MILLI-MNVI_DYRLR
2. Atalar sözü. Bakı: Öndər, 2004, 264 s.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan dili: 3-cü sinif üçün dərslik. Bakı, 2022.
4. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985.
5. Nəbiyev A. Azərbaycan folklorunun janrları. Bakı: ADU-nun nəşri, 1983.
6. Nəbiyev A. Azərbaycan uşaq folkloru. Bakı: Elm, 2000.

**S.E.Bədirova**

## İbtidai siniflərin Azərbaycan dili dərslərinin folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü

## Xülasə

Beləliklə, III sinif dərsliklərindəki folklor nümunələri, yəni atalar sözləri uşaqlarda təkcə bədii-estetik zövqün inkişafına deyil, həm də milli-mənəvi dəyərlərin aşılanmasına xidmət edir. Şagirdlər folklor vasitəsilə öz xalqının həyat tərzinə, mənəviyyatına, milli dəyərlərinə bələd olur, öz şəxsiyyətini bu dəyərlər əsasında formalaşdırır. Bu, gələcəkdə milli mənsubiyyətin qorunub saxlanması, vətənə, xalqına bağlı vətəndaşların yetişdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Qeyd etmək olar ki, III sinif dərsliklərində verilən folklor nümunələri həm şagirdlərin təfəkkür və təxəyyülünün inkişafına, həm də milli-mənəvi dəyərlərin mənimsənilməsinə təkan verməyə xidmət edir. Bu nümunələr vasitəsilə uşaqlar valideynə hörmət, vətənə məhəbbət, dostluq, zəhmətkeşlik kimi keyfiyyətləri öyrənirlər. Bundan əlavə, onların dünyagörüşü formalaşır, həyata baxışları dəyişir.

**С.Е.Бадирова**

**Воплощение национальнонравственных ценностей в фольклорных примерах на уроках азербайджанского языка в начальных классах**

**Резюме**

Таким образом, примеры фольклора в учебниках для 3-го класса служат не только формированию художественно-эстетического вкуса, но и привитию детям национально-духовных ценностей. Через фольклор учащиеся знакомятся с образом жизни, моралью и национальными ценностями народа, формируют на этих ценностях свою идентичность. Это имеет большое значение для сохранения национальной идентичности в будущем и воспитания граждан, преданных Родине и народу. Можно отметить, что примеры фольклора, приведённые в учебниках для 3-го класса, служат как развитию мышления и воображения учащихся, так и усвоению национальных и духовных ценностей. На этих примерах дети усваивают такие качества, как уважение к родителям, любовь к Родине, дружба и трудолюбие. Кроме того, формируется их мировоззрение, меняется взгляд на жизнь.

**S.E.Badirova**

**Embodiment of national-moral values in folklore examples of azerbaijan language lessons in primary classes**

**Summary**

Thus, examples of folklore in third-grade textbooks serve not only to develop artistic and aesthetic taste but also to instill national and spiritual values in children. Through folklore, students become familiar with the way of life, morals, and national values of their people, and shape their identity based on these values. This is of great importance for preserving national identity in the future and raising citizens devoted to their homeland and people. It can be noted that examples of folklore provided in third-grade textbooks serve both to develop students' thinking and imagination and to foster the assimilation of national and spiritual values. Through these examples, children learn such qualities as respect for parents, love for their homeland, friendship, and hard work.

Furthermore, their worldview is shaped, and their outlook on life is transformed.

**Redaksiyaya daxil olub:** 08.12.2025

*UOT 373.31*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA OYUN ƏSASLI ÖYRƏNMƏNİN FAYDALI XÜSUSİYYƏTLƏRİ

**Zülfünaz Şahin qızı Şəfiyeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0001-7405-1260
**E-mail:** zulfunazsefiyeva4@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.18

***Açar sözlər:*** *təlim-tərbiyə prosesi, oyun əsaslı fəaliyyət, sosial-emosional inkişaf*
***Ключевые слова:*** *формирование личности, процесс воспитания, игровая деятельность, гиперактивные дети, социально-эмоциональное развитие*
***Key words:*** *personality formation, educational process, play-based activity, hyperactive children, socio-emotional development*

İnsanın şəxsiyyət kimi formalaşması mürəkkəb və çoxşaxəli prosesdir. Bu prosesdə onun fiziki, psixi və mənəvi inkişafı bir-biri ilə qarşılıqlı əlaqədə həyata keçirir. İnsan müxtəlif yaş dövrlərində fərqli inkişaf xüsusiyyətlərinə malik olur, onun davranışında, xarakterində və dəyərlər sistemində dinamik dəyişikliklər baş verir. Bu baxımdan şəxsiyyətin formalaşmasında iştirak edən irsiyyət, mühit və tərbiyə amillərinin qarşılıqlı təsirinin elmi əsaslarla öyrənilməsi mühüm pedaqoji əhəmiyyət kəsb edir. Tərbiyə prosesi insanın sosial varlıq kimi cəmiyyətdə düzgün istiqamətdə inkişafını təmin edən mühüm sosial–pedaqoji kateqoriyadır. İnsan cəmiyyətin üzvü olaraq yalnız təbii meylləri və bioloji xüsusiyyətləri ilə deyil, həm də ictimai münasibətlər sistemində qazandığı sosial təcrübə vasitəsilə formalaşır. Buna görə də hər bir fərd bilməlidir ki, onun inkişafı təbiətdən gələn irsi xüsusiyyətlər, yaşadığı mühit və aldığı tərbiyənin birgə təsiri nəticəsində formalaşır. Görkəmli pedaqoq K.D. Uşinski göstərirdi ki, təlim işi üçün təfəkkür müstəqilliyi böyük əhəmiyyət kəsb edir. O, yazırdı: “Heç bir müəllim unutmamalıdır ki, onun ən başlıca vəzifəsi fənnin özünü öyrətməkdən daha çox uşaqları əqli əməyə alışdırmaqdan ibarət olmalıdır. Ona görə də şagirdlərdə müstəqil təfəkkür qabiliyyətlərinin tərbiyə edilməsinə daha çox diqqət yetirilməlidir”. [5, s.43]

Oyunlar ənənəvi pedaqogika ilə əldə edilməsi daha çətin olan bilik və bacarıqların əldə edilməsinə daha geniş imkanlar yaradır. Oyun vasitəsi ilə öyrənmək bütün şagirdlərə, hətta inkişaf çətinliyi olanlara da yönəlməlidir. Oyun emosional, sosial, fiziki və ya intellektual sahədə şagird inkişafının əsas mənbəyi kimi şagirdlərin öyrənməsi və inkişafında mütləq istifadə olunmalıdır. Oyunlar şagirdin diqqətini yönləndirir, enerjisini faydalı istiqamətə çevirir və həmçinin sosial bacarıqlarını inkişaf etdirir.

“Hərəkət və dayan” oyunu – Şagirdlər musiqi sədaları altında hərəkət edir, musiqi dayandıqda hamı hərəkətsiz qalır. Bu oyun uşaqlarda özünə nəzarət bacarığını inkişaf etdirir.

“Rənglə düşün” – Müəllim bir rəng adlandırır, şagirdlər həmin rəngdə əşyaları göstərir və ya adını çəkirlər. Diqqəti toplama və müşahidə qabiliyyətini artırır.

"Tap və göstər" – Lövhədə və ya sinifdə müəyyən şəkillər, hərflər və ya fiqurlar olur. Müəllim dedikdə şagirdlər onları tapırlar. Bu oyun diqqət yönləndirməyi və sürətli reaksiyanı inkişaf etdirir.

Rollu oyunlar – "Mağaza", "həkim", "müəllim" kimi səhnəciklər şagirdlərdə sosial bacarıqları gücləndirir və impulsivliyi azaldır.

"Dərin nəfəs al" oyunu – Dərin nəfəs alıb-vermə məşqləri uşağın sakitləşməsinə və emosional tarazlığın bərpasına kömək edir.

Şagirdin həddindən artıq hərəkətli olması, oturduğu yerdən tez-tez durması, oturduğu zaman belə əl-ayağının dinc durmaması, gördüyü hər şeyə toxunması, əlinə alması, hətta söküb hissələrə ayırması, asudə vaxtını sakit, səssiz bir fəaliyyətlə keçirə bilməməsi, çox danışması onun hiperaktiv olduğunun göstəriciləridir. Oyunun "öyrənmə sənəti" kimi qəbul edilməsinin əsas səbəbi onun şagirdlərin təbii öyrənmə motivasiyasını, maraq dairəsini və bilik əldəetmə istəyini stimullaşdırması ilə bağlıdır. Oyun şagirdin idrak fəaliyyətinin təbii forması kimi çıxış edir və onun öyrənmə prosesinə könüllü, aktiv şəkildə qoşulmasını təmin edir. Birgə oyun fəaliyyəti şagirdlərin sosiallaşma prosesini sürətləndirir, kollektiv davranış vərdişlərini formalaşdırır və emosional-intellektual inkişafı dəstəkləyir.

Kiçikyaşlı məktəblilərlə aparılan tədris prosesində müəllim oyun metodundan məqsədyönlü şəkildə istifadə etməklə həm dərs zamanı yaranan fiziki və zehni yorğunluğu azalda, həm də səmərəli və yaradıcı öyrənmə mühiti formalaşdıra bilər. Müxtəlif oyun növlərinin seçilməsi zamanı uşaqların fərdi psixoloji xüsusiyyətləri və sinfin ümumi emosional mühiti nəzərə alınmalıdır. Bu baxımdan tanışlıq oyunları, emosiyaların idarə olunmasına yönəlmiş oyunlar, mütəhərrik və rollu fəaliyyətlər, həmçinin aqressiya, diqqət əskikliyi və hiperaktivlik sindromu ilə bağlı adaptiv oyunlar tədris prosesində yüksək pedaqoji səmərə verir. Məsələn riyaziyyat fənni şagirdlərdə yalnız sayma bacarıqlarını deyil, həm də məntiqi düşünmə, diqqəti toplama, müqayisə və analiz etmə qabiliyyətlərini inkişaf etdirən mühüm bir sahədir. Xüsusilə ibtidai siniflərdə bu fənnin oyun texnologiyaları vasitəsilə tədrisi şagirdlərin riyazi biliklərə marağını artırır, öyrənmə prosesini əyləncəli və mənalı hala gətirir. Oyunlar vasitəsilə şagirdlər abstrakt anlayışları konkret fəaliyyətdə qavrayır, həm müstəqil, həm də qrup halında düşünməyi öyrənirlər.

"Şən tramvay" oyunu - Müəllim şagirdlərə 1-dən 10-a qədər nömrələnmiş kartlar paylayır. Məsələn, "10 nömrəli tramvay" çağırıldıqda, cəmi 10 olan rəqəmlər (3 və 7, 4 və 6 və s.) "tramvaya minməlidir". Oyun şagirdlərə rəqəmlərin tərkibini öyrədir, toplama və çıxma əməliyyatlarının mənasını dərk etməyə kömək edir. Bu üsul xüsusilə I–II siniflər üçün uyğundur.

"Növbəti nömrəni adlandır" oyunu - Şagirdlər dairə şəklində düzülür. Müəllim topu bir şagirdə ataraq hər hansı bir rəqəm (məsələn, 5) deyir. Şagird topu tutaraq növbəti ədəd olan 6-nı deməli və topu müəllimə qaytarmalıdır. Bu oyun ardıcıllıq, sayma bacarığı və diqqət cəmləməsini inkişaf etdirir.

"Hədəf" oyunu - Oyun rəqəmlərin tərkibini möhkəmləndirmək məqsədilə istifadə olunur. Müəllim lövhə qarşısına iki şagirdi dəvət edir. Onlar "qapı" yaradırlar və müəyyən bir ədəd elan edilir (məsələn, 8). Digər uşaqlar 8-i əmələ gətirən ədədləri (6 və 2, 5 və 3 və s.) tapmalı və yalnız düzgün cütlük "qapıdan keçə" bilər. Bu oyun toplama bacarığını, sürətli düşünməyi və əməkdaşlıq hissini inkişaf etdirir.

Şəxsiyyətin formalaşması irsiyyət, mühit və tərbiyənin qarşılıqlı təsiri nəticəsində baş verən mürəkkəb prosesdir və bu prosesdə tərbiyə həlledici rol oynayır.

**Problemin aktuallığı.** İbtidai sinif şagirdlərinin şəxsiyyət kimi formalaşmasında oyun əsaslı öyrənmənin rolu müasir təhsilin əsas tələblərindən biri kimi diqqət mərkəzindədir. Rəqəmsal dövrdə böyüyən uşaqlar üçün oyunla öyrənmə daha cəlbedici və motivasiyaedici olduğuna görə onun tətbiqinə ehtiyac artır.

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi oyun fəaliyyətinin şəxsiyyət formalaşmasına təsirinin sistemli şəkildə öyrənilməsi ilə bağlıdır. Əvvəlki yanaşmalardan fərqli olaraq, bu araşdırmada oyunların yalnız əyləncə deyil, inkişaf etdirici pedaqoji mexanizm olduğu elmi əsaslarla izah olunur.

**Problemin nəzəri əhəmiyyəti və tətbiqi.** Mövzunun nəzəri əhəmiyyəti oyun əsaslı öyrənmənin motivasiya, ünsiyyət, əməkdaşlıq və yaradıcı təfəkkür kimi şəxsiyyət komponentlərini inkişaf etdirən vasitə kimi nəzəri əsaslandırılmasında özünü göstərir.

**Ədəbiyyat**

1. Uşaq inkişafı metodikası. Bakı: Qanun, 2011.
2. “Məktəbəqədər və ibtidai təhsil jurnalı” jurnalı. Bakı, 2021.

**Z.Ş.Şəfiyeva**

**İbtidai sinif şagirdlərinin şəxsiyyət kimi formalaşmasında oyun əsaslı öyrənmənin faydalı xüsusiyyətləri**
**Xülasə**

Məqalədə insan şəxsiyyətinin formalaşmasının mürəkkəb və çoxşaxəli proses olduğu vurğulanır. Bu prosesdə irsiyyət, mühit və tərbiyə amillərinin qarşılıqlı təsiri əsas rol oynayır. Müəllif tərbiyəni insanın sosial varlıq kimi düzgün inkişafının əsas şərti kimi qiymətləndirir. Məktəbəqədər və ibtidai təhsil dövrlərində oyun fəaliyyətinin uşağın psixi, emosional və sosial inkişafına təsiri izah olunur.

**З.Ш.Шафиева**

**Положительные свойства игрового обучения в развитии личности учащихся начальной школы**
**Резюме**

В статье подчеркивается, что формирование личности человека является сложным и многогранным процессом. В этом процессе основную роль играет взаимное влияние наследственности, среды и воспитания. Автор рассматривает воспитание как основное условие правильного развития человека как социального существа. Описывается влияние игровой деятельности на психическое, эмоциональное и социальное развитие детей в дошкольном и начальном школьном возрасте.

**Z.Sh.Shafiyeva**

**The beneficial properties of game-based learning in the personality development of elementary school students**

**Summary**

The article emphasizes that the formation of human personality is a complex and multifaceted process. In this process, the mutual influence of heredity, environment, and upbringing plays a key role. The author views upbringing as a fundamental condition for the proper development of a person as a social being. The article explains the impact of play activities on the mental, emotional, and social development of children during preschool and primary education periods.

**Redaksiyaya daxil olub:** 08.12.2025

***RİYAZİYYATIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДОВАНИЯ МАТЕМАТИКИ***
***METHODS OF TEACHİNG MATHEMATİCS***

*UOT 372.851*

# BƏZİ QEYRİ-STANDART MƏSƏLƏLƏRİN HƏLLİNƏ TÖRƏMƏNİN TƏDBİQİ

**Fəxrəddin Feyzullah oğlu Əliyev**
*Sumqayıt Dövlət Universitetinin Riyaziyyat və informatikanın tədrisi texnologiyası kafedrasının dosenti*
**ORCİD:** 0000-0002-2039-2334
**E-mail:** af_64@mail.ru
**Ziba Novruz qızı Rəhimova**
*Sumqayıt Dövlət Universiteti nəzdində Sumqayıt Dövlət Texniki Kollecinin müəllimi*
**ORCİD:** 0009-0009-1933-1831
**Dilbər Məhəmməd qızı Qasımzadə**
*Sumqayıt Dövlət Universiteti nəzdində Sumqayıt Dövlət Texniki Kollecinin müəllimi*
**ORCİD:** 0009-0001-8801-1120
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.19

***Açar sözlər:*** *törəmə, bərabərsizlik,, eynilik, ədədlərin müqayisəsi, dövri funksiya,bacarıq, isbat, tətbiq, funksiya, ardıcıllıq, artan, azalan.*

***Ключевые слово:*** *производная, неравенство, тождество, сравнение чисел, периодическая функция, умение, доказательство, применение, функция, последовательность, увеличение, убывание.*

***Key words:*** *derivative, inequality, identity, comparison of numbers, periodic function, skill, proof, application, function, sequence, increasing, decreasing.*

Funksiyanın törəməsi anlayışı nəinki riyaziyyatın, o cümlədən fizikanın, kimyanın, iqtisadiyyatın və bir çox başqa elmlərin praktik hesablamalarında tətbiq edilir. Bundan əlavə, riyaziyyatın elə məsələləri vardır ki, törəmənin köməyi ilə ən səmərəli və optimal şəkildə həll edilir. Elə xüsusi tip misallar da vardır ki, ənənəvi metodlar deyil, məhz törəmənin tətbiqi ilə həlli daha maraq kəsb edir. Məqalədə bu tip xüsusi misalların həlli araşdırılacaqdır.

XX əsrin sonlarında riyazi analiz elementlərinin məktəb proqramına daxil edilməsi qarşıda duran tələblərin ödənilməsinə geniş imkanlar yaratdı. Riyazi analizin elementlərinin məktəb kursunda tədrisi ilə bağlı yazılan dərsliklərlə yanaşı bir sıra metodik vəsaitlər, göstərişlər çap olunmuşdur. Bu sahədə akad.A.N. Kolmoqorov, akad.C.M. Nukoliski və başqaları fərqlənirdilər.

Riyazi analizin elementləri içərsində "Törəmə" anlayışının orta məktəb şagirdlərinə öyrədilməsi xüsusi əhəmiyyət kəsb edir. Törəmə anlayışının öyrədilməsi prosesində şagirdlər bir sıra çətinliklərlə rastlaşırlar. Bu çətinliklər əsasən törəmənin tətbiqi məsələlərində rast gəlinir. Çünki tətbiq məsələlərinə dair materiallar orta məktəbin cəbr və analizin başlanğıcı dərsliyində çox az yer verilmişdir. Bu nöqteyi-nəzərdən məqalədə törəmənin tətbiqi ilə bəzi məsələlərin həlli üsullarını nümunələr əsasında verək:

***I. Törəmənin köməyiylə bəzi bərabərsizliklərin isbat:***

Ədədi bərabərsizliklərin isbat üçün bir çox məşhur adlı bərabərsisliklər vardır: Koşi-Bunyakovski, Çebışev, Qelder və sair. Ancaq elə funksional ifadələr olur ki, onların müqayisəsi üçün qeyd olunan bərabərsizliklər nəticə vermir, bu zaman ən ümumi olan funksiyanın törəmə vasitəsi ilə araşdırılması metoduna müraciət etməli olursan. Beləliklə, bərabərsizliklərin isbatında törəməni tətbiq etmək üçün müxtəlif üsullar vardır. Həmin üsullardan biri törəməni tətbiq etməklə funksiyanın artan və azalan olması xassəsindən istifadə etməkdir. Bunu bir neçə misal üzərində göstərək.

***Misal 1.*** Bərabərsizliyi isbat edin: $\ln(x+1) \geq \frac{2x}{x+2}, x \geq 0$

***Həllin araşdırılması:*** Göründüyü kimi bu misalda loqarifmik və kəsr-rasional funksiyaların öz təyin oblastlarında müqayisəsi istənilir. Deməli verilmiş funksiyaların xüsusiyyətlərini və törəmə funksiyanı araşdırmaq lazımdır;

$]0;+\infty[$ intervalında verilmiş funksiyanı sadələşdirək. Verilmiş bərabərsizliyə $f(x) = \ln(x+1) - \frac{2x}{x+2}$ funksiyası kimi baxıb törəmə alaq. Onda, $f'(x) = \frac{x^2}{(x+1)(x+2)^2} > 0$ alarıq. Deməli, *f* funksiyası verilmiş intervalda artandır. Funksiya kəsilməyən olduğu üçün belə çıxır ki, $]0;+\infty[$ aralığının x=0 nöqtəsində funksiya ən kiçik qiymət alır və f(0)=0. Odur ki, $x \geq 0$ olduqda $f(x) \geq f(0)$ və ya $f(x) \geq 0$ olur. Buradan $\ln(x+1) \geq \frac{2x}{x+2}, x \geq 0$ bərabərsizliyinin doğruluğu alınır.

***Misal 2.*** Bərabərsizliyi isbat edin: $\sqrt{1+x} \leq 1 + \frac{x}{2}, x \geq -1$

***Həllin araşdırılması:*** Bu misalda isə 2-ci dərəcədən kökaltı funksiya ilə kəsr-rasional funksiyaların öz təyin oblastlarnda müqayisə edilməsi lazımdır. Araşdırmanı aparmaq üçün fərqli yanaşma edək :

$f(x) = (1+x)^{\frac{1}{2}} - 1 - \frac{x}{2}$ götürək. Əgər götürdüyümüz funksiyadan törəmə alsaq. Yəni, $f'^{(x)} = \frac{1}{2}(1+x)^{-\frac{1}{2}} - \frac{1}{2} = \frac{1}{2}(\frac{1}{\sqrt{1+x}} - 1)$ olar. Buradan, $x > 0$ olduqda $f'(x) < 0$ olur. Digər tərəfdən $x > 0$ qiymətlərində *f* funksiyası$-1 \leq x < 0$ qiymətlərində$f'(x) > 0$ olduğu üçün *f* funksiyası artandır. *F(0)=0* olduğu üçün alırıq ki,$x \geq -1$ qiymətlərində$f(x) \leq f(0)$ və ya$f(x) \leq 0$ olur və bununla da $\sqrt{1+x} \leq 1 + \frac{x}{2}, x \geq -1$ bərabərsizliyi həll olunur.

***Misal 3.*** $e^x \geq 1 + x + \frac{x^2}{2}, x \geq 0$ olduqda bərabərsizliyi həll edin.

***Həllin araşdırılması:*** maraqlı nümunə olaraq, eksponensial və kvadratik funksiyaların müqayisəsi verilmişdir:

$f(x) = e^x - 1 - x - \frac{x^2}{2}$ götürək. Götürülmüş funksiyanın törəməsini tapaq.

Onda $f'(x) = e^x - 1 - x$ alarıq. Əgər $g(x) = e^x - 1 - x$ qəbul edib yenidən törəmə alsaq: $g'(x) = e^x - 1$ olar. Aldığımız törəmə $]0;+\infty[$ intervalında $e^x - 1 > 0$ olduğundan $g(x)$ funksiyası artandır və $g(x) > g(0) = 0$ olar. Əgər əvəzləmədə nəzərə alsaq onda $f'(x) = g(x) > 0$ bərabərsizliyini alarıq ki, bu da *f(x)* funksiyasının $]0;+\infty[$ intervalında artan olduğunu göstərir və $f(x) > f(0) = 0$ olur. buradan da $e^x \geq 1 + x + \frac{x^2}{2}, x \geq 0$ bərabərsizliyinin doğruluğu alınır.

***II. Mürəkkəb və transendent ədədlərin müqayisəsində törəmənin tətbiqi.***

Yuxarıda adları qeyd olunan məşhur bərabərsizliklər heç də universal deyildir, məsələn, mürəkkəb və ya transendet ədədlərin müqyisəsi bu baxımdan daha maraqlıdr. Elə ədədi bərabərsizliklər var ki, bunların isbatı üçün müəyyən funksiyanın törəməsindən istifadə etmək lazımdır. Misal nümunəsində fikrimizi izah edək.

***Misal 4.*** Aşağıdakı ədədlərdən hansı böyükdür:

a) $107^{113}$ yoxsa $113^{107}$; b) $1974^{2001}$ yoxsa $2001^{1974}$; c) $100^{101}$ yoxsa $101^{100}$ ; d) $\boldsymbol{e^{\pi}}$ yoxsa $\boldsymbol{\pi^{e}}$; e) $(\sqrt{\mathbf{2}})^{\sqrt{3}}$ yoxsa $(\sqrt{\mathbf{3}})^{\sqrt{2}}$

***Həllin araşdırılması:*** Əvvəlcə daha ümumi şəkildə verilən ədədlərin müqayisəsinə baxaq. Əgər $\mathbf{0 < x < y}$ olarsa, hansı şərtlər ödənildikdə $\boldsymbol{x^y < y^x}$ və ya $\boldsymbol{x^y > y^x}$ bərabərsizliyi ödənilir? Aydındır ki, bərabərsizliyi $\boldsymbol{ylnx < xlny}$ və ya $\boldsymbol{\frac{1}{x}lnx < \frac{1}{y}lny}$ bərabərsizliyi ilə eynigüclüdür.

Odur ki, $\boldsymbol{f(x) = \frac{1}{x}lnx \Rightarrow f'(x) = \frac{1-lnx}{x^2}}$ olur. Buradan $\mathbf{0 < x < e}$ olarsa, $\mathbf{1 - lnx > 0}$ olar və $\boldsymbol{x > e}$ olarsa, $\mathbf{1 - lnx < 0}$ olar ki, *f(x)* funksiyası $]\mathbf{0};\ \boldsymbol{e}[$ intervalında artan, $[\boldsymbol{b};\ +\infty[$ intervalında isə azalandır.

Beləliklə, $\mathbf{0 < x < y < e}$ şərtləri ödənildikdə $\boldsymbol{\frac{1}{x}lnx < \frac{1}{y}lny}$ olar. Buradan isə alınır ki, $\boldsymbol{x^y < y^x}$-dir. Digər tərəfdən $\mathbf{0 \le x < y}$ şərti ödəndikdə isə $\boldsymbol{\frac{1}{x}lnx > \frac{1}{y}lny}$ və ya $\boldsymbol{x^y > y^x}$ bərabərsizliyi doğrudur. Bu bərabərsizliklərdə alınır ki, a) $107^{113}>113^{107}$; b) $1974^{2001}>2001^{1974}$; c) $100^{101}>101^{100}$ ; d) $\boldsymbol{e^{\pi} > \pi^{e}}$; e) $(\sqrt{\mathbf{2}})^{\sqrt{3}} > (\sqrt{\mathbf{3}})^{\sqrt{2}}$.

***III. Periodik funksiyalarn törəmə vasitəsiylə tədqiqi:***

Orta məktəb riyaziyyat kursunda həm şagirdlər, həm də müəllimlər üçün maraqlı və bir çox hallarda isə çətinlik dərəcəsiylə fərqlənən bölmələrdən biri də funksiyanın dövriliyi, ən kiçik dövrün tapılmasıdır. Bu tip məsələlərin həlli üçün orta məktəb riyaziyyatında müəyyən qədər nəzəri və praktik bilgilər olsa da, ümumi halda verilən funksiyalar üçün kifayət qədər ciddi çətinliklər vardı. Ona görə də törəmənin tətbiqinə müraciət etmək zərurəti yaranır.

Məlumdur ki, periodik funksiyanın sonlu törəməsi varsa, onda onun törəmə funksiyası həmin dövrədən periodik funksiya olur. Bu xassəyə əsasən, törəməni tətbiq etməklə verilən funksiyanın periodik olmasını təyin etmək olur. Misal nümunəsində fikrimizi izah edək.

***Misal 5.*** $\boldsymbol{f(x) = x^2}$ funksiyasının periodik olmadığını göstərin.

***Həllin araşdırılması:*** Bu misalda verilmiş funksiyanın analitik şəkli sadə olmasına baxmayaraq, xüsusi bir metod məlum deyil. Ancaq törəmənin köməyi ilə funksiyanın periodikliyi şərtinin ödəndiyini, və yaxud da pozulduğunu müəyyən edə bilirik:

Verilmiş funksiyanın törəməsini tapsaq $\boldsymbol{f'(x) = 2x}$ alarıq. Törəmə funksiyası bütün ədəd oxunda artan olduğu üçün periodik deyil. Deməli, verilmiş funksiya periodik deyil.

***Misal 2.*** $\boldsymbol{f(x) = x^2 + sinx}$ funksiyasının periodik olmadığını göstərin.

***Həllin araşdırılması:*** Tutaq ki, verilən funksiya periodikdir və *T* ədədi onun periodudur. Onda *T* ədədi verilmiş funksiyanın ikinci tərtib törəməsində periodu olmalıdır. Funksiyanın ikinci tərtib törəməsi $\boldsymbol{f''(x) = 2 - sinx}$ -dir. Digər tərəfdən $f(x)+f''(x)-2=x^2$ bərabərliyinin sol tərəfi də *T* periodlu funksiya olmalıdır. Lakin yuxarıda göstərdik ki, $x^2$ periodik deyil. Alınan ziddiyyət funksiyanın periodik olmadığını göstərir.

***V. Ədədi ardıcıllıqların ən böyük həddinin tapılmasında törəmənin tətbiqi:***

Ədədi ardıcıllıqların ümumi həddinin, ən böyük həddinin, hansısa nömrəli həddin tapılmasının bir çox metodları məlumdur. Ancaq elə ədədi ardıcıllıqlar verilə bilir ki, ümumi metodlar məsələnin həllində yaralı olmur. Bu problemin də həllində ardıcıllığı şərti olaraq, uyğun funksiya kimi qəbul edib, törəməni tətbiq edərək, həmin funksiyan araşdıraraq, axtarılan suala cavab tapmaq olar.

Əgər$\{\boldsymbol{a_n}\}$ ardıcıllığının ən böyük həddi varsa, bu hədd $\boldsymbol{\mu = max\, a_n}$ şəklində işarə olunur. Həmin həddin indeksinə mərkəzi indeks deyilir və$\boldsymbol{\gamma}$ ilə işarə olunur.

Əgər ardıcıllığın $\boldsymbol{\mu}$–yə bərabər olan bir neçə həddi olarsa, onda $\boldsymbol{\gamma}$ onların indeksləri içərisində ən böyüyü götürülür.

***Misal 6.*** $\left\{\frac{n^2}{n^3+200}\right\}, \boldsymbol{n \in Z}$ olduqda, ardıcıllığının ən böyük həddini tapın.

***Həllin araşdırılması:*** Ardıcıllığın ümumi həddi $\boldsymbol{a_n} = \frac{n^2}{n^3+200}$ olduğunu nəzərə alaraq $\boldsymbol{f(x)} = \frac{x^2}{x^3+200}$ funksiyasını götürüb $[\mathbf{1}, +\infty[$aralığında araşdıraq:$\boldsymbol{f(x)} = \frac{x(400-x^3)}{(x^3+200)^2}$ törəməsi $\mathbf{0} < \boldsymbol{x} < \sqrt[3]{\mathbf{400}}$ aralığında müsbət,$\sqrt[3]{\mathbf{400}} < \boldsymbol{x} < +\infty$ aralığında isə mənfi olduğu üçün birinci aralıqda artan, ikinci aralıqda azalandır. Bunu nəzərə alsaq, bərabərsizliyindən $\mathbf{7} < \sqrt[3]{\mathbf{400}} < \mathbf{8}$ çıxır ki, verilən ardıcıllığın ən böyük həddi, $a_7$ yaxud $a_8$ olmalıdır. $\boldsymbol{a_7} = \frac{49}{543}$ və $\boldsymbol{a_8} = \frac{8}{89}$ olduğu üçün ardıcıllığın ən böyük həddi $\boldsymbol{a_7} = \frac{49}{543}$ olur.

***VI. Məlum üstlü – loqarifmik və tərs - triqonometrik eyniliklərin isbatında törəmənin tətbiqi.***

Orta məktəb riyaziyyat kursunda qüvvədə olan dərsliklər, dərs saatlar, tədris proqramlar bir çox hallarda proqrama daxil olan analitik düsturlarn isbatın şagirdlərə öyrətmək-tədris etmək mümkün olmur ki, bu da təbii ki, yolverilməzdir və özünün mənfi təsirlərini sonralar tələbə olduqda yaranr. Çıxış yolu olaraq, törəmədən istifadə edək:

Funksiyanın sabitlik əlamətinə görə müəyyən bir aralıqda F′(x)=0 olarsa, onda həmin aralıqda *F(x)=C (C*-sabitdir). Başqa şəkildə $[\boldsymbol{a}, \ \boldsymbol{b}]$ parçasında *f′(x)=g′(x)* olarsa, onda bu funksiyalar sabitlə fərqlənir, yəni *f(x)=g(x)+C.* Bu əlamətə əsasən bir sıra eynilikləri isbat etmək olar.

***Misal 7.*** $\boldsymbol{x > 0}$ və $\boldsymbol{x > 0}$ olduqda , $\boldsymbol{loq_a xy = loq_a x + loq_y y}$ olduğunu isbat edin.

***Həllin araşdırılması-isbatı:*** $\boldsymbol{f(x) = loq_a bx}$ və $\boldsymbol{g(x) = loq_a x}$ funksiyalarından törəmə alaq və $]\mathbf{0}, +\infty[$ intervalında araşdıraq. $\boldsymbol{f'(x)} = \frac{1}{x} \cdot \frac{1}{lna}$ və $\boldsymbol{g'(x)} = \frac{1}{x} \cdot \frac{1}{lna}$ törəmələrini alarıq. Göründüyü kimi, alınan törəmələr bərabərdir. Bu bərabərlikdən sabitlər fərqlənəcək, yəni $\boldsymbol{loq_a bx = loq_a x + C}$ . Buradan *C*-ni tapaq. *x=1* götürsək, $\boldsymbol{loq_a b \cdot 1 = loq_a 1 + C, C = loq_a b}$ olur. *C*-nin qiymətini yerinə yazsaq, alarıq:

$\boldsymbol{loq_a bx = loq_a x + loq_a b}$. Burada *b=y* yazsaq, eyniliyin doğruluğunu isbat etmiş oluruq.

***Misal 8.*** $\boldsymbol{arctgx + arcctgx} = \frac{\pi}{2}$ eyniliyini isbat edin.

***İsbatı.*** Əgər sol tərəfi *F(x)* ilə işarə edib törəmə alsaq: $\boldsymbol{F(x) = arctgx + arcctgx}$ olar. Onda, $\boldsymbol{F'(x)} = \frac{1}{1+x^2} - \frac{1}{1+x^2} = \mathbf{0}$ alarıq.

Törəmə sıfra bərabər olduğu üçün funksiyanın sabitlik əlamətinə görə funksiya sabitə bərabərdir: $\boldsymbol{F(x) = C}$, (C-sabitdir).

Buradan *C*-ni tapmaq üçün bərabərlikdə *x=1* götürək. Onda alarıq:

$$arctg1 + arcctg1 = C \Rightarrow \frac{\pi}{4} + \frac{\pi}{4} = C \Rightarrow C = \frac{\pi}{2}$$

$C$-nin qiymətini yerinə yazsaq, $arctgx + arcctgx = \frac{\pi}{2}$ eyniliyi alınar ki, bunu da isbat etmək tələb olunurdu.

**Problemin aktuallığı.** Funksiyanın törəməsinin tədqiqinin nəticələrindən praktikada geniş istifadə olunur. Məqalədə müxtəlif məsələlərin həllində baxılan üsullardan istifadə edilir. Bu isə şagirdlərin təfəkkürünün inkişaf etdirilməsində xüsusi aktuallıq kəsb edir. Tətbiq edilən metodiki yanaşmalar həmçinin öyrədənlər üçün də maraqlı olacaq. Törəmənin məqalədə qeyd edilən tətbiqləri həm orta məktəb riyaziyyat kursunda, həm də ali məktəblərdə aktuallığı baxımdan səmərəli sayla bilər.

**Problemin elmi yeniliyi.** Məqalədə funksiyanın törəməsi anlayışının mükəmməl tətbiqi öyrədilir. Həmçinin riyazi düsturlara daha yaradıcı yanaşma yollarını göstərir. Ümumi hallarda müxtəlif suallara praktik cavab hazırlığının olması araşdırılır. Riyaziyyatın ən müxtəlif bölmələri üzrə məsələlərin həlli araşdırılır.

**Problemin praktik əhəmiyyəti və tədbiqi.** Baxılan isbat üsullarından istifadə etməklə riyaziyyatın tədrisində daim aktual olan və öyrədənlər və öyrənənlər üçün stimullaşdırıcı, metodiki xüsusiyyətlərin formalaşdırılması baxımından əhəmiyyətlidir.

### Ədəbiyyat

1. Quliyev Ə.A. X-XI siniflərdə cəbr və analizin başlanğıcı. Bakı, 2014.
2. Əliyev R.Ə., Abdullayev C.S. Riyazi analizdən məsələ və misallar. Bakı, 2001.
3. Sadıqov N.A. Limitdən inteqrala. Bakı, 1971.
4. Демидович Б.П. Сборник задач и упражнений по математи-ческому анализу. Москва, 1977.
5. Кудрявцев Л.Д. Современная математика и ее преподавание. М., 1980.
6. Никольский С.М. Элементы математического анализа. М., 1981.
7. Понтрягин Л.С. математический анализ для школьников. М., 1980.

**F.F.Əliyev, Z.N.Rəhimova, D.M.Qasımzadə**

### Bəzi qeyri-standart məsələlərin həllinə törəmənin tətbiqi
### Xülasə

Məqalədə riyazi analizin elementlərindən biri olan törəmə anlayışının köməyi ilə müxtəlif qeyri-standart məsələlərin həllinin maraqlı şərhləri verilmişdir. Törəmə anlayışı bir çox elm sahələrinə tətbiq olunduğu üçün onun tətbiq sahələri genişdir. Məqalədə törəmənin tətbiqi ilə bərabərsizliklərin, üstlü-loqarifmik və tərs-triqonometrik funksiyaların araşdırılması öz əksini tapmşdır.

**Ф.Ф.Алиев, З.Н.Рахимова, Д. М.Гасымзаде**

**Применение производной к решению некоторых нестандартных задач**
**Резюме**

В статье обосновывается интерес к решению различных нестандартных задач с помощью понятия производной, являющегося одним из элементов математического анализа. Поскольку понятие производной применяется во многих областях науки, области её применения широки. В статье отражено исследование неравенств, показательно-логарифмических и обратно-тригонометрических функций с применением производной.

**F.F.Aliyev, Z.N.Rahimova, D.M.Gasimzadeh**

**Application of the derivative to the solution of some non-standard problems**
**Summary**

The article provides explanations of the interest in solving various non-standard problems with the help of the concept of derivative, which is one of the elements of mathematical analysis. Since the concept of derivative is applied to many fields of science, its application areas are wide. The article reflects the study of inequalities, exponential-logarithmic and inverse-trigonometric functions with the application of derivative.

**Redaksiyaya daxil olub:** 04.11.2025

*UOT 372.851*

# QEYRİ-XƏTTİ TƏNLİKLƏRİN VƏTƏRLƏR ÜSULU İLƏ HƏLLİ

**Qurban İsa oglu Əliyev**
*riyaziyyat üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*
**ORCID:** 0009-0001-2842-8637
**E-mail:** qurban.aliyev 149@mail.ru
**Səkinə İmran qızı Səfiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**ORCID:** 0000-0002-7251-1673
**E-mail:** sakinasafiyeva@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.20

***Açar sözlər:*** *qeyri xətti tənliklər,vətərlər üsulu, funksiya, törəmə, tənliyin kökü, xəta, başlanğıc yaxınlaşma, kəsiməz funksiya.*

***Ключевые слова:*** *нелинейные уравнения, метод xorda, функция, производная, корень уравнения, ошибка, начальное приближение, корень уравнения, разрывная функция.*

***Key words:*** *nonlinear equations, chord method, function, derivative, root of the equation, error, initial approximation, root of the equation, discontinuous function.*

Riyaziyyat və tətbiqi elmlərdə qarşıya çıxan bir çox məsələlərin əsasını tənliklərin həlli təşkil edir. Xüsusilə, müxtəlif sahələrdə – fizika, mühəndislik, iqtisadiyyat, informatika və s. Həyatda və elmdə qarşılaşdığımız bir çox problemlər – mexaniki hərəkət, istilik ötürülməsi, elektrik dövrləri, iqtisadi modellər və s. – məhz tənliklər vasitəsilə təsvir olunur. Tənliklərin həlli həmin proseslərin mahiyyətini anlamağa və onların gələcək davranışını proqnozlaşdırmağa imkan verir.

Qeyri-xətti tənliklərin təqribi həlli üçün bir sıra üsullar mövcuddur: parçanı yarıya bölmə iterasiya üsulu, vətərlər üsulu, toxunanlar üsulu, qarışıq üsul. Bu üsulların hamısı kökün müəyyən bir dəqiqliklə tapılmasına xidmət edir. Hər bir üsulun üstünlükləri və çatışmazlıqları var və onların seçimi konkret məsələnin xarakterindən asılıdır.

Riyaziyyatda, eləcə də bir çox tətbiqi elmlərdə qarşıya çıxan çoxlu sayda məsələlərin əsasını tənliklərin həlli təşkil edir. Xüsusilə, müxtəlif sahələrdə –fizika, mühəndislik, iqtisadiyyat, informatika və s. Həyatda və elmdə qarşılaşdığımız bir çox problemlər–mexaniki hərəkət, istilik ötürülməsi, elektrik dövrləri, iqtisadi modellər və s. –məhz tənliklər vasitəsilə təsvir olunur. Tənliklərin həlli həmin proseslərin mahiyyətini anlamağa və onların gələcək davranışını proqnozlaşdırmağa imkan verir.

Qeyri-xətti tənliklər riyaziyyatın, fizikanın, mühəndisliyin, iqtisadiyyatın və informatikanın müxtəlif sahələrində geniş tətbiq olunur. Məsələn, hərəkət qanunlarının, elektrik sahələrinin, istilik balansının və digər təbii proseslərin modelləşdirilməsində qeyri-xətti asılılıqlar əsas rol oynayır.

Qeyri-xətti tənliklərin təqribii həlli üçün bir sıra üsullar mövcuddur: parçanı yarıya bölmə iterasiya üsulu, vətərlər üsulu, toxunanlar üsulu, qarışıq üsul. Bu üsulların hamısı kökün müəyyən bir dəqiqliklə tapılmasına xidmət edir. Hər bir üsulun üstünlükləri və çatışmazlıqları var,

belə ki, onların seçimi konkret məsələnin xarakterindən asılıdır.

Tutaq ki, [a,b] parçasında təyin olunmuş f(x) funksiyası f `(x) və f ``(x) törəmələri ilə birlikdə kəsilməzdir; f `(x) və f ``(x) törəmələri (a,b) intervalında öz işarələrini saxlayır; f(x) funksiyası [a,b] parçasının uc nöqtələrində müxtəlif işarəli qiymət alır: f(a)·f(b)<0. Onda aydındır ki, [a,b] parçasında

$$f(x)=0 \qquad (1)$$

(1) tənliyinin yeganə $x^*$ kökü var. Fərz edək ki, $\psi(x)$ funksiyası $x^*$ kökünün hər hansı ətrafında təyin edilmiş kəsilməz funksiyadır. Onda aşkardır ki, $x^*$

$$\varphi(x) = x - \psi(x) \cdot f(x)\,, \qquad (2)$$

tənliyinin də kökü olar. Ona görə də, (1) tənliyini həll etmək əvəzinə iterasiya üsulunu tətbiq edərək (2) tənliyini həll edək:

Fərz edək ki, $x_0$, [a,b] parçasında seçilmiş elə nöqtədir ki,

$f(x_0) \cdot f``(x_0) > 0$ şərti ödənilir. $\psi(x)$ funksiyasını aşağıdakı kimi təyin edək:

$$\psi(x) = \frac{x - x_0}{f(x) - f(x_0)}$$

Onda (2) tənliyini belə yazmaq olar:

$$\varphi(x) = x - \frac{x - x_0}{f(x) - f(x_0)} \cdot f(x) \qquad (3)$$

Yəni,

$$x = \frac{x_0 f(x) - x f(x_0)}{f(x) - f(x_0)} \qquad (4)$$

şəklində yaza bilərik ki. $x_1 \in [a, b]$ yaxınlaşmasını elə seçək ki, $f(x_1)$-in işarəsi $f(x_0)$-ın işarəsinin əksinə olsun və (4)-dən istifadə edərək aşağıdakı kimi ardıcıl yaxınlaşmalar quraq:

$$x_{n+1} = \frac{x_0 f(x_n) - x_n (f x_0)}{f(x_n) - f(x_0)}, n = 1, 2, ..., \qquad (5)$$

İterasiya prosesinin yığılan olmasını göstərmək üçün $\varphi`(x)$-i qiymətləndirək:

$$\varphi`(x^*) = 1 - \frac{x^* - x_0}{f(x^*) - f(x_0)} f`(x^*) = \frac{f(x_0) + (x^* - x_0) f`(x^*)}{f(x_0)};$$

Teylor düsturuna əsasən,

$$f(x) = f(x^*) + (x - x^*) f`(x^*) + \frac{(x - x^*)^2}{2} f``(\xi).$$

Burada $\xi$, $x^*$və $x$ arasında yerləşir. Alınan bərabərlikdə x= $x_0$ yazsaq alarıq:

$$f(x_0) + (x^* - x_0) f`(x^*) = \frac{(x_0 - x^*)^2}{2} f``(\xi)$$

Bu bərabərliyi $\varphi`(x^*)$-un ifadəsində nəzərə alsaq:

$$\varphi`(x^*) = \frac{(x_0 - x^*)^2}{2 f(x_0)} f``(\xi)$$

$$\lim_{x_0 \to x^*} \varphi`(x^*) = \lim_{x_0 \to x^*} \frac{(x_0 - x^*)^2}{2 f(x_0)} f``(\xi) =$$

Deməli, $x_0$ nöqtəsi $x^*$-a kifayət qədər yaxın olduqda $\varphi`(x^*)$ kiçik ədəd olur. $\varphi`(x)$ funksiyası [a,b] parçasında kəsilməz olduğundan $x^*$ kökünün elə $\cup_{x^*}$ *ətrafı* var ki, həmin ətrafdan götürülmüş bütün x-lər üçün , (3)-lə təyin olunan $\varphi(x)$ funksiyasının $\varphi`(x)$ törəməsi

$|\varphi`(x)\ | \le q < 1$ şərtini ödəyir. Deməli, (5) düsturu ilə düzələn {$x_n$} ardıcıllığı $x^*$ kökünə yığılır.

(1) tənliyinin yuxarıdakı qayda ilə təqribi həllinin tapılması üsuluna vətərlər üsulu deyilir. Bu ad onunla izah olunur ki, $x_{n+1}$-ə həndəsi olaraq ($x_0$; f($x_0$)) və

($x_n$; f($x_n$)) nöqtələrindən keçən düz xəttin absis oxu ilə kəsişmə nöqtəsinin absisi kimi baxmaq olar.

Vətərlər üsulunun xətasını qiymətləndirək. Sonlu artım düsturuna görə

$$f(x_n) = f(x_n) - f(x^*) = f`(\eta)(x_n - x^*).$$

Burada $\eta$, $x_n$ və $x^*$ arasında yerləşir. Yuxarıdakı bərabərlikdən

$$|x_n - x^*| = \frac{|f(x_n)|}{|f`(\eta)|} \le \frac{|f(x_n)|}{M_2}, \qquad (6)$$

alarıq. Burada $M_2 = \min\limits_{[a;b]}|f`(x)|$

Praktik hesablamalarda aşağıdakı xəta düsturundan istifadə etmək əlverişlidir:

$$|x_n - x^*| \le \frac{M_1 - M_2}{M_2}|x_n - x_{n-1}| \qquad (7)$$

Burada, $M_1 = \max\limits_{[a;b]}|f`(x)|, M_2 = \min\limits_{[a;b]}|f`(x)|$

Qeyd edək ki, $M_1 \le 2M_2$ olduqda (7)-dən alınır ki,

$$|x_n - x^*| \le |x_n - x_{n-1}|$$

Tənliyin kökünü vətərlər üsulu ilə $\varepsilon$ dəqiqliklə hesablamaq üçün

$$|x_n - x^*| \le \frac{M_1 - M_2}{M_2}|x_n - x_{n-1}| < \varepsilon$$

Bərabərsizliyinin ödənilməsi tələbini qoymaq lazımdır.

Beləliklə, vətərlər üsulu ilə (1) tənliyinin kökünü $\varepsilon$ dəqiqliklə hesablamaq üçün aşağıdakıları yerinə yetirmək lazımdır:

1) Tənliyin kökünün daxil olduğu aralığın tapılması;
2) $x_0$ başlanğıc yaxınlaşmasının $f(x_0) \cdot f``(x_0) > 0$ şərtindən,

$x_1 \in [a, b]$ yaxınlaşmasının isə f($x_1$)-in işarəsinin f($x_0$)-ın işarəsinə əks olması şərti ilə seçilməsi;

3) (5) düsturu vasitəsilə təqribi həllərin tapılması;
4) Hesablama prosesinin

$$|x_n - x_{n-1}| < \frac{M_2}{M_1 - M_2} \cdot \varepsilon = \varepsilon_1$$

şərti ödənilənə kimi davam etdirilməsi.

İndi isə vətərlər üsuluna aid bir misalı həll edək:

Misal: Vətərlər üsulu ilə verilmiş tənliyin kökünü 0,0001 dəqiqliklə hesablayın.

$$x^3 - 3x^2 + 6x + 5 = 0$$

Həlli:

1) kökün daxil olduğu aralığı tapaq.

$$f(x) = x^3 - 3x^2 + 6x + 5$$

$$f(-1) = -5 < 0; f(-0.5) = 1.125.$$

$f`(x) = 3x^2 - 6x + 6,\ f``(x) = 6x - 6.$

$\forall x \in (-1;-0.5)$ üçün $f`(x) > 0$; $f``(x) < 0$. $f`(x)$ və $f``(x)$ törəmələri (-1; -0.5) intervalında öz işarələrini saxlayır. Deməli, [-1; -0.5] parçasında tənliyin yeganə kökü var.

2) $f(x_0)\cdot f``(x_0) >$ şərtindən $x_0$ başlanğıc yaxınlaşmasını seçək.

$f(-1)\cdot f``(-1) > 0$ .Deməli, $x_0$=-1 seçmək olar. $x_1$ yaxınlaşmasını isə elə seçək ki, $f(x_1)$-in işarəsi $f(x_0)$-ın işarəsinin əksinə olsun.

$$f(x_0) = f(-1) < 0;$$
$$f(x_1) = f(-0,5) = 1.125 > 0.$$

Deməli, $x_1$=-0,5 seçmək olar.

3) $M_1$ və $M_2$ kəmiyyətlərini hesablayaq.

$$M_1 = \max_{[-1;-0.5]}|f`(x)| = \max_{[-1;-0.5]}\left|3x^2-6x+6\right| = f(-1) = 15,$$
$$M_2 = \min_{[-1;-0.5]}|f`(x)| = \min_{[-1;-0.5]}\left|\left|3x^2-6x+6\right|\right| = f(-0.5) = 9.75$$

$M_1 \le 2M_2$ olduğundan $|x_n - x^*| \le |x_n - x_{n-1}|$ olur. Beləliklə, hesablama prosesini $|x_n - x_{n-1}| < \varepsilon$ şərti ödənənə kimi davam etdirməliyik.

$x_0 = -1$ və $f(x_0) = -5$ qiymətlərini vətərlər düsturunda yerinə qoyaq:

$x_{n+1} = \frac{-f(x_n)+5x_n}{f(x_n)+5}$, n= 1,2,3…

və ya

$x_{n+1} = \frac{((3-x_n)x_n-1)x_n-5}{((x_n-3)x_n+6)x_n+10}; n = 1,2,...$

$x_1$ =-0.5 olduqda

$$x_2 = \frac{\big((3-(-0.5))\cdot(-0.5)-1\big)\cdot(-0.5)-5}{\big((-0.5-3)\cdot(-0.5)+6\big)\cdot(-0.5)+10} = \frac{-3.625}{6.125} = -0.59184,$$
$$x_3 = \frac{\big((3-x_2)x_2-1\big)x_2-5}{\big((x_2-3)x_2+6\big)x_2+10} = \frac{-3.1500298}{5.19083} = -0.60685,$$
$$x_4 = \frac{\big((3-x_3)x_3-1\big)x_3-5}{\big((x_3-3)x_3+6\big)x_3+10} = \frac{-3.0511063}{5.004907} = -0.60962,$$
$$x_5 \approx \frac{\big((3-x_4)x_4-1\big)x_4-5}{\big((x_4-3)x_4+6\big)x_4+10} = \frac{-3.0489134}{5.000814} = -0.60968.$$
$$|x_5 - x_4| = 0.00006 < 0.0001.$$

Beləliklə, verilmiş tənliyin köklərindən biri $x \approx -0.6096$ olar.

Verilmiş tənliyin uyğun proqram əsasında kompüterdə icrası zamanı aşağıdakı nəticə alınmışdır:

$$x_0 = -1, x_1 = -0.5, x_2 = -0.59184, x_3 \approx -0.60685,$$
$$x_4 \approx 0.60968,\ x_5 \approx -0.60968.$$

**Problemin aktuallığı.** Riyaziyyatın və tətbiqi elmlərin bir çox sahəsində elə tənliklərə rast gəlinir ki, onların köklərini dəqiq şəkildə tapmaq mümkün olmur. Belə tənliklər qeyri-xətti tənliklər adlanır və onların həlli çox zaman sadə riyazi üsullarla deyil, təqribii üsullarla həyata keçirilir.

**Problemin elmi yeniliyi.** Riyaziyyatın, eləcə də tətbiqi elmlərin bir çox sahəsində elə tənliklərə rast gəlinir ki, onların köklərini dəqiq şəkildə tapmaq mümkün olmur. Belə tənliklər qeyri-xətti tənliklər adlanır və onların həlli çox zaman sadə riyazi üsullarla deyil, təqribii üsullarla həyata keçirilir. Onlardan biri vətərlər üsulu tətbiq olunur və kompüterin icrası ilə də cavablar alınır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

### Ədəbiyyat

1. Y.C. Məmmədov. Təqribi hesablama üsulları. Dərs vəsaiti. Bakı, 2016.
2. M. Mehdiyev, R. Əhmədov E. Eyvazov, Y. Şərifov. Ədədi üsullar : Dərslik. Bakı, 2008.
3. Z.Q. Hüseynov. Hesablama üsulları və praktikum: Dərs vəsaiti. Bakı, 2003.
4. Н.С. Бахвалов, Н.П. Жидков, Г.М.Кобелъков. Численные методы. Наука. 1987.

**Q.İ.Əliyev, S.İ.Səfiyeva**

### Qeyri-xətti tənliklərin vətərlər üsulu ilə həlli
### Xülasə

Riyaziyyat və tətbiqi elmlərin bir çox sahələrində mövcud olan bir çox tənliklərin köklərinin dəqiq həllini tapmaq mümkün deyildir. Belə tənliklər qeyri-xətti tənliklər adlanır və onların həlli çox vaxt sadə riyazi üsullarla deyil, təqribi üsullarla həyata keçirilir. Qeyri-xətti tənliklər riyaziyyat, fizika, mühəndislik, iqtisadiyyat və kompüter elmlərinin müxtəlif sahələrində geniş istifadə olunur. Məsələn, qeyri-xətti asılılıqlar hərəkət qanunlarının, elektrik sahələrinin, istilik balansının və digər təbii proseslərin modelləşdirilməsində əsas rol oynayır. Riyaziyyat və tətbiqi elmlərin bir çox sahələrində köklərini dəqiq tapmaq mümkün olmayan tənliklər mövcuddur. Belə tənliklər qeyri-xətti tənliklər adlanır və onların həlli çox vaxt sadə riyazi üsullarla deyil, təxmini üsullarla həyata keçirilir.

**К.И.Алийев, С.И.Сафийева**

### Решение нелинейных уравнений методом сухожилий
### Резюме

Во многих областях математики и прикладных наук встречаются уравнения, корни которых невозможно найти точно. Такие уравнения называются нелинейными уравнениями, и их решение часто осуществляется не простыми математическими методами, а приближенными.

Нелинейные уравнения широко используются в различных областях математики, физики, техники, экономики и информатики. Например, нелинейные зависимости играют ключевую роль в моделировании законов движения, электрических полей, теплового баланса и других природных процессов.

**Q.İ.Aliyev, S.İ.Sefiyeva**

**Solution of nonlinear equations by tendon method**

**Summary**

In many fields of mathematics and applied sciences, there are equations whose roots are impossible to find exactly. Such equations are called nonlinear equations, and their solution is often carried out not by simple mathematical methods but by approximate ones.

Nonlinear equations are widely used in various fields of mathematics, physics, engineering, economics, and computer science. For example, nonlinear dependencies play a key role in modeling the laws of motion, electric fields, heat balance, and other natural processes.

**Redaksiyaya daxil olub:** 05.12.2026

*UOT 372.851*

# HƏNDƏSİ ÇEVİRMƏLƏRİN MƏKTƏB RİYAZİYYATINDA NƏZƏRİ ƏSASLARI VƏ TƏDRİSİ

**Ruqiyyə Elçin qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0002-2458-0073
**E-mail:** mamedovaruqiyye@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.21

***Açar sözlər:*** *həndəsi çevirmələr, hərəkət, paralel köçürmə, həndəsi təsəvvür, məktəb riyaziyyatı*
***Ключевые слова:*** *геометрические преобразования, движение, параллельный перенос, геометрическое воображение, школьная математика*
***Key words:*** *geometric transformations, motion, parallel translation, geometric imagination, school mathematics*

Müasir təhsil sistemində riyaziyyat fənninin qarşısında duran əsas vəzifələrdən biri şagirdlərin məntiqi düşünmə bacarığını inkişaf etdirmək, həndəsi təsəvvürlərini formalaşdırmaq və onları gündəlik həyatda tətbiq edə biləcəyi biliklərlə təmin etməkdir. Bu məqsədə çatmaq üçün həndəsi çevirmələr mövzusu məktəb riyaziyyat kursunda xüsusi əhəmiyyət kəsb edir. Bu mövzunun tədrisi VI-IX siniflərdə mərhələli şəkildə həyata keçirilir və şagirdlərin həm nəzəri, həm də tətbiqi bacarıqlarının formalaşmasında mühüm rol oynayır.

Hər bir $A$ nöqtəsi üçün müstəvi üzərində nəzərdən keçirilən çevirmə ilə $A$ nöqtəsinin çevrildiyi $A'$ nöqtəsinin göstərilməsinə imkan verən hər hansı qaydaya həndəsi çevrilmə deyilir. Əgər müstəvi üzərində hər hansı bir F fiquru verilərsə, onda nəzərdən keçirilən çevrilmədə F fiqurunun nöqtələrinin çevrildiyi bütün nöqtələr çoxluğu, yeni F' fiqurundan ibarətdir. Bu halda deyirlər ki, F' fiquru baxılan çevirmə vasitəsilə F-dən alınır.

Müstəvinin hər bir $A$ nöqtəsinə həmin müstəvinin müəyyən bir $A'$ nöqtəsi uyğun qoyulduqda belə uyğunluğa müstəvinin bütün nöqtələr çoxluğunun çevrilməsi deyilir. Burada $A$ nöqtəsinə $A'$ nöqtəsinin obrazı, $A'$ nöqtəsinə isə $A$ nöqtəsinin proobrazı deyilməsi qəbul edilmişdir. $A'$ nöqtəsinin $A$ nöqtəsinə uyğun olması $A \rightarrow A'$ simvolu ilə göstərilə bilər.

Məktəb riyaziyyatında öyrədilən ən mühüm həndəsi çevirmə hərəkət adlanır. Verilmiş F fiqurunun ona konqruent F' fiquruna çevrilməsinə hərəkət deyilir. Hərəkət hər bir fiquru ona bərabər fiqura çevirir, yəni müstəvi üzərində fiqurların yalnız vəziyyətini dəyişir.

Eyni növ iki hərəkətin hasilinə I növ, müxtəlif növ iki hərəkətin hasilinə isə II növ hərəkət deyilir.

1. *I növ hərəkətlər*: eyniçevirmə, dönmə və paralel köçürmə daxildir.
2. *II növ hərəkətlər*: ox simmetriyası və sürüşən ox simmetriyası daxildir.

Aşağıda bu çevirmələrin hər birini ayrı-ayrılıqda nəzərdən keçirək.

**Eyniçevirmə:** Müstəvinin elə çevrilməsdidir ki, bu çevrilmə nəticəsində fiqurun uzunluqları, bucaqları, forma və ölçüsü tam şəkildə qorunur. Bu çevrilmə zamanı fiqurun yalnız mövqeyi dəyişir, lakin fiqurun özünün strukturu tam dəyişməz qalır. Eyniçevirmə bəzən "izometriya" adlandırılır və fiqurların bərabərliyi anlayışının əsasını təşkil edir.

Eyniçevirmənin əsas mahiyyəti ondan ibarətdir ki, fiqurdakı istənilən iki nöqtə arasındakı məsafə dəyişmir. Bu səbəbdən eyniçevirmə çevirməsi nəticəsində alınan fiqur ilkin fiqurla tam üst-üstə düşür.

Eyniçevirmə anlayışı məktəb riyaziyyatında fiqurların müqayisəsi, bərabərliyi və çevirmələrin xassələrinin öyrənilməsi üçün fundamental baza yaradır. Tədrisdə eyniçevirmənin tətbiqi şagirdlərin həm fəza təsəvvürünü inkişaf etdirir, həm də fiqurların xassələrini müşahidə etməyə və nəticə çıxarmağa imkan verir. Bu riyazi məntiqin inkişafında vacib mərhələdir. Eyniçevirmənin öyrədilməsi digər çevirmələrin rahat öyrədilməsinə şərait yaradır.

**Dönmə:** Müstəvi üzərində verilmiş bir O nöqtəsi ətrafında fiqurun müəyyən bir bucaq altında fırladılmasıdır. Bu nöqtə dönmə mərkəzi, fırlanma miqdarı isə dönmə bucağı adlanır. Dönmə saat əqrəbi istiqamətində və saat əqrəbinin tərsi istiqamətində aparıla bilər.

Dönmənin əsas xüsusiyyətləri aşağıdakılardır:

- Dönmə hərəkətini dönmə bucağı, dönmə mərkəzi və dönmə istiqaməti müəyyən edir;
- Dönmə mərkəzi fiqurun daxilində və ya xaricində ola bilər. İstənilən halda dönmə mərkəzi sabit qalır;
- Dönmədə ilkin fiqurla çevrilmiş fiqur konqruyentdir;

Məktəb riyaziyyatında dönmə VIII sinifdə tədris edilir və şagirdlər aşağıdakı bacarıqlara yiyələnirlər:

1. Fiqurların müxtəlif hərəkətlərini şəkil çəkməklə təqdim edirlər.
2. Fiqurların hərəkəti nəticəsində alınan yeni fiqurların konqruent olduğunu başa düşürlər.
3. Fiqurların hərəkəti ilə yaranan modellər, naxışlar qururlar.

**Paralel köçürmə:** Bu çevirmədə nöqtələr paralel (yaxud üst-üstə düşən) düz xətlər üzrə eyni məsafə qədər yerini dəyişir və fiqur özünə konqruent fiqura çevrilir.

Şəkildəki M'N'L' üçbucağı MNL üçbucağının paralel köçürülməsi ilə alınmışdır.

Burada, MM'=NN'=LL', ΔMNL≅ ΔM´N´L´




Fiqurun paralel köçürülməsində ixtiyari A(x;y) nöqtəsi A'(x';y') nöqtəsinə çevrilir və bu nöqələrin koordinatları arasında x'=x+a, y'=y+b bərabərlikləri doğrudur.

Paralel köçürmə məktəb riyaziyyatında eyniçevirmələrin əsas növlərindən biri kimi IX sinifdə ayrıca mövzu şəklində tədris olunur. Bu mövzuya qədər şagirdlər artıq VI–VIII siniflərdə müxtəlif simmetriya və döndürmə çevirmələri ilə tanış olduqları üçün onları həndəsi təsəvvürü və fiqurların dəyişməz xassələrini müəyyənləşdirmək bacarığı formalaşmış olur. Paralel köçürmənin tədrisi isə bu ardıcıllığın məntiqi davamı kimi çıxış edir. Tədris zamanı müəllim fiqurların köçürülməsi üçün müxtəlif situasiyalar yaradır, şagirdlərə çevrilmiş fiquru təsvir etdirməklə onların həm təsvir qabiliyyətini, həm də məntiqi əsaslandırma bacarığını inkişaf etdirmiş olur. Mövzunun sonunda şagirdlər paralel köçürmənin digər çevirmələrlə əlaqəsini qavrayır və eyniçevirmələrin ümumi strukturunu daha aydın şəkildə dərk edirlər.

**Ox simmetriyası:** Müstəvidə verilmiş bir düzə xəttə görə fiqurun əks olunması nəticəsində alınan eyniçevirmədir. Bu çevrilmədə fiqurun bütün nöqtələri ox adlanan düz xəttin ətrafında

simmetrik mövqeyə keçir. Ox simmetriyası üçün əsas xüsusiyyət onda ibarətdir ki, A nöqtəsinin simmetrik obrazı olan A' nöqtəsi elə seçilir ki:

- AA' parçası simmetriya oxuna perpendikulyar olsun;
- Simmetriya oxu AA' parçasının orta nöqtəsi olsun.

Ox simmetriyası adətən, VI-VII siniflərdə öyrədilir. Bu mərhələdə şagirdlər aşağıdakı biliklərə yiyələnməlidirlər:

1. Şagirdlər simmetriya oxunu müəyyən etməyi bacarmalıdırlar;
2. Sadə və mürəkkəb fiqurların simmetriya oxunu müəyyən edə bilməlidirlər;
3. Həndəsi fiqurların hansı halda simmetrik olduqlarını araşdırmağı bacarmalıdırlar.

Ox simmetriyası yalnız həndəsədə deyil, bir çox sahədə tətbiq olunur. Bu da şagirdlərin mövzunu yalnız formal qayda kimi deyil, real həyatla əlaqəli şəkildə anlamasına kömək edir.

**Sürüşən ox simmetriyası:** Bu çevirmə aşağıdakı iki ardıcıl çevirmədən ibarət olan eyniçevirmədir:

1. Fiqurun müəyyən düz xəttə görə ox simmetriyası ilə əks olunması;
2. Daha sonra həmin oxun istiqaməti boyunca müəyyən vektor qədər paralel köçürülməsi.

Bu çevrilmədə əvvəlcə fiqur müəyyən bir düz xəttə nəzərən simmetrik şəkildə əks olunur, daha sonra isə həmin xətt boyunca müəyyyən vektor qədər köçürülür. Sürüşən ox simmetriyası iki sadə hərəkətin- ox simmetriyası və paralel köçürmənin ardıcıl tətbiqindən ibarət olan eyniçevirmədir. Hər iki çevirmə hərəkət olduğu üçün onların ardıcılığı ilə alınan nəticə də hərəkətdir və fiqurun formasını, ölçüsünü və sahəsini dəyişmir. Burada fiqurun yalnız yerləşmə mövqeyi və istiqaməti dəyişir.

Bu çevirmə IX sinifdə tədris edilir. Didaktik baxımdan sürüşən ox simmetriyasının tədrisi zamanı müəllim fiqurun həm əksolunma, həm də köçürülmə mərhələlərini ayrı-ayrılıqda izah etməli, daha sonra isə onların ardıcıllığının nəticəsini şagirdlərlə birlikdə analiz etməlidir. Bu proses şagirdlərdə çevirmələrin tərkib anlayışının formalaşmasına kömək edir.

Həndəsi çevirmələrin nəzəri əsasları onların fiqurlar üzərində yaratdığı dəyişiklərin mahiyyətini izah edir və bu dəyişikliklərin müəyyən qanunauyğunluqlara əsaslandığını göstərir. Həndəsi çevirmələrin tədrisi mərhələli şəkildə qurulduqda yəni, VI sinifdə elementar çevirmələrin təsviri ilə başlayıb IX sinifdə daha mürəkkəb çevirmələrə keçid edildikdə şagirdlər bu mövzunu daha rahat mənimsəyirlər.

**Problemin aktuallığı.** Həndəsi çevirmələrin nəzəri əsaslarının və tədrisi metodikasının düzgün qurulması həm fənnin elmi məzmununun daha dərindən mənimsənilməsinə, həm də şagirdlərdə yaradıcı və tədqiqatyönümlü düşüncənin formalaşmasına xidmət edir. Bu baxımdan həndəsi çevirmələr mövzusu həndəsə kursunun mühüm tərkib hissəsidir. Lakin tədris təcrübəsi göstərir ki, müxtəlif həndəsi çevirmələr çox vaxt yalnız formal qaydalar səviyyəsində öyrədilir. Şagirdlər onların qarşılıqlı əlaqəsini anlamaqda və məsələ həllərinin tətbiqində çətinlik çəkilər. Ona görə də həndəsi çevirmələrin nəzəri əsaslarının sistemli şəkildə araşdırılması və onların məktəb riyaziyyatında tədris metodikasının təkmilləşdirilməsi aktual məsələlərdən biridir.

**Problemin elmi yeniliyi.** Məqalədə həndəsi çevirmələrin məktəb riyaziyyatında öyrədilməsi vahid metodik yanaşma əsasında şərh edilir. Həndəsi çevirmələr eynilik çevirmələri kontekstində nəzəri cəhətdən əsaslandırılır. Onların qarşılıqlı əlaqəsi didaktik baxımdan təhlil olu-

nur. Həndəsi çevirmələr arasında əlaqələr sistemləşdirilir və bu əlaqələr şagirdlərin təfəkkürününü inkişafına təsiri göstərilir. Təklif olunan yanaşmalar mövcud dərslik materiallarının şərhini zənginləşdirir və yeni tədris imkanları yaradır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqaləni orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilər.

## Ədəbiyyat

1. Adıgözəlov A., Həsənova X. Həndəsi qurmalar. Bakı: Elm və təhsil, 2011.
2. Adıgözəlov A., Əliyeva T., Quliev A., Rzayeva M., Qardaşov Z. Elementar həndəsə: Dərs vəsaiti. Bakı: ADPU, 2017.
3. Qəhrəmanova N., Kərimov M., Hüseynov İ. Riyaziyyat: 8-ci sinif: Müəllim üçün metodik vəsait. Bakı, 2019.
4. Qəhrəmanova N., Kərimov M., Hüseynov İ. Riyaziyyat: 9-ci sinif: Müəllim üçün metodik vəsait. Bakı, 2020.

**R.E.Məmmədova**

### Həndəsi çevirmələrin məktən riyaziyyatında nəzəri əsasları və tədrisi
### Xülasə

Məktəb riyaziyyatının əsas istiqamətlərindən biri şagirdlərin həndəsi təsəvvürlərinin, məntiqi düşünmə qabiliyyətlərinin və abstrakt təfəkkürünü inkişaf etdirilməsidir. Bu baxımdan həndəsi çevirmələrin tədrisi həm nəzəri həm də tətbiqi cəhətdən riyaziyyat kursunun ən vacib bölmələrindən biri kimi hesab olunur. Bu məqalədə müxtəlif həndəsi çevirmələrin əsas nəzəri məsələli - mahiyyəti, xassələri və onların tədrisi ardıcıllığı şərh olunur. Həmçinin mövzunun VI-IX siniflər üzrə mərhələli öyrədilməsinin üstünlükləri göstərilmişdir.

**Р.Э.Маммедова**

### Теоретические основы и преподавание геометрических преобразований в школьной математике
### Резюме

Одним из основных направлений школьной математики является развитие у учащихся геометрического воображения, логического мышления и абстрактного рассуждения. В этом контексте преподавание геометрических преобразований рассматривается как один из важнейших разделов математического курса, как в теоретическом, так и в практическом аспектах. В данной статье рассматриваются основные теоретические вопросы, сущность, свойства и последовательность обучения различным геометрическим преобразованиям. Также показаны преимущества поэтапного преподавания темы для учащихся VI-IX классов.

**R.E.Mammadova**

## Theoretical foundations and teaching of geometric transformations in school mathematics

**Summary**

One of the main directions of school mathematics is the development of students' geometric imagination, logical thinking skills, and abstract reasoning. In this regard, the teaching of geometric transformations is considered one of the most important sections of the mathematics curriculum, both theoretically and practically. This article discusses the fundamental theoretical aspects, essence, properties, and the instructional sequence of various geometric transformations. Moreover, the advantages of teaching the topic progressively to students in grades VI–IX are highlighted.

**Redaksiyaya daxil olub:** 04.12.2025

***TARİXİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***
***METHODS OF TEACHING HİSTORY***

*UOT 372.893*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ÜMUMİ TARİX KURSLARININ TƏDRİSİNDƏ BƏDİİ ƏDƏBİYYATDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

**Leyla Əhməd qızı Həsənzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universtetinin magistrantı*
**ORCID:** 0009-0007-0007-0163
**E-mail:** lhesanzade85@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.22

***Açar sözlər:*** *bədii ədəbiyyat, tarixi hadisə, tarixi şəxsiyyətlər, milli-mənəvi dəyərlər, emosional münasibət, tarix, inteqrasiya, dünyagörüşü.*

***Ключевые слова:*** *художественная литература, исторические события, исторические личности, национально-моральные ценности, эмоциональное отношение, история, интеграция, мировоззрение.*

***Key words:*** *literary works, historical events, historical figures, national and moral values, emotional attitude, history, integration, worldview.*

Araşdırmalar göstərir ki, tarixi öyrənməyin çoxsaylı mənbələri içərisində bədii ədəbiyyatın özünəməxsus yeri var. Bədii ədəbiyyatdan tarix təlimində istifadə şagirdlərdə dünyagörüşün formalaşmasına, eləcə də tarixi hadisə və proseslərə daha dəqiq və həssaslıqla yanaşmağa zəmin yaradır.

Bədii ədəbiyyatdan istifadənin didaktik və tərbiyəvi əhəmiyyətini qeyd edən tədqiqatçı F. Məmmədov yazır: "Tarix tədrisinin əsas məqsədlərindən biri şagirdlərdə tarixi proseslər arasında məntiqi əlaqənin formalaşdırılması və onların milli kimlik şüurunun inkişaf etdirilməsidir. Lakin təkcə dərslik mətnlərinə əsaslanmaq şagirdin mövzunu dərindən hiss etməsinə mane olur. Bu baxımdan bədii ədəbiyyat dərsə həyatilik gətirir, hadisələri emosional çalarlarla təqdim edir və dərsin yadda qalma səviyyəsini yüksəldir" [4, s.25-27].

Bədii ədəbiyyat təkcə bilikvermə vasitəsi deyil, həm də şagirdlərin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan tərbiyəvi resursdur. Dərslərdə bədii mənbələrin istifadəsi şagirdlərin davranış modelinə, əxlaqi dəyərlərinə, hadisələrə yanaşma tərzinə müsbət təsir edir. Bu proses şagirdlərin davranışına, əldə etdikləri nailiyyətlərə və ümumi inkişaf dinamikasına müsbət təsir göstərərək onların düzgün istiqamətdə formalaşmasına şərait yaradır. Tarix dərslərində bədii mətnlərdən istifadənin müxtəlif əsərlərlə tanışlığın əsas yolu olması şagirdlərin dünyagörüşünün və mütaliə vərdişlərinin inkişafını daha da aktuallaşdırır. Bədii ədəbiyyatın həm müəllim, həm də şagird fəaliyyətini əhatə etməsi bu sahədə aparılan tədqiqatların vacibliyini artırır. Eyni zamanda, müəllimin bədii mənbələrdən istifadə etməsinin ona hansı istiqamətlərdə fayda verdiyi də araşdırmanın əsas istiqamətlərindən birini təşkil edir. Tarix elminin təkrarsızlığı, keçmiş ictimai şəraitlə müasir dövr arasındakı fərqlər kimi məsələlərin izahı bədii əsərlər vasitəsilə daha aydın şəkildə təqdim edilə bilir. Bədii ədəbiyyat təsvir etdiyi dövrün

ictimai mənzərəsini, insan düşüncəsini və davranış modellərini canlandıraraq tarixi hadisələri şagirdin təxəyyülündə konkretləşdirir, dövrün düşüncə tərzini əks etdirir. Bu səbəbdən tarix dərslərində bədii mətnlərdən istifadə həm aktual, həm də zəruridir.

Professor M. Əmirov bədii ədəbiyyatı qruplaşdıraraq yazır: "Tarix təlimində istifadə olunan bədii ədəbiyyat nümunələri, əsasən, iki qrupa ayrılır: öyrənilən dövrün bədii əsərləri və tarixibədii ballestristika. Birinci qrupa daxil olan əsərlər hadisələrin canlı şahidləri tərəfindən yazıldığı üçün mühüm tarixi mənbə kimi qiymətləndirilir və xüsusi dəyər daşıyır. İkinci qrup əsərlər isə daha son dövrlərdə yazılmış, müəlliflərin müxtəlif tarixi sənədlərə və mənbələrə əsaslandıqları araşdırmalar nəticəsində meydana gəlmişdir. Bu səbəbdən elmilik və tarixilik baxımından daha etibarlı hesab olunurlar" [3, s.12-13].

Tədqiqatçı S. Əliyeva tarix təlimində bədii ədəbiyyatdan istifadənin didaktik əhəmiyyətini qeyd edərək yazır: "Bədii mətnlər tədrisin səmərəliliyini aşağıdakı kimi artırır:

1) Tarixi faktları daha canlı təqdim edir;
2) Şagirdin dərsə marağını artırır;
3) Yadda saxlama prosesini gücləndirir;
4) Hadisələr və şəxsiyyətlər arasındakı əlaqəni aydınlaşdırır.

Bu xüsusiyyətlər bədii ədəbiyyatın tarix təlimində mühüm didaktik vasitə olduğunu sübut edir" [2, s. 56-58].

Tarix dərslərində bədii əsərlərdən həm dərs vaxtı, həm də dərsdənkənar fəaliyyətlərdə istifadə olunur. Belə əsərlər dərsin əyaniliyini gücləndirir, mövzunun daha dərindən dərk edilməsinə şərait yaradır və şagirdlərdə tarixi keçmiş haqqında canlı təxəyyül formalaşdırır. Bədii əsərdən istifadə faktların məntiqi ardıcıllığı ilə yanaşı, materialın emosional təsirini də artırır. Şagirdlərin dərsə marağını yüksəldən əsas amillərdən biri də məhz müəllimin seçdiyi obrazlı təsvirlərdir. Tarix dərslərində istifadə edilən bədii nümunələr keçmişin qəhrəmanlarını daha canlı şəkildə təsəvvür etməyə imkan yaradır.

Müəllim bədii nümunələrin seçilməsində aşağıdakı məqamları nəzərə almalıdır:

— əsərin təsvir etdiyi dövrün real tarixi mənzərəsini doğru əks etdirməsi;
— şagirdlərin yaş səviyyəsinə uyğun olması;
— tərbiyəvi məzmun daşıması;
— bədii keyfiyyətinin yüksək olması.

Tarix dərsində seçilən mətndə: insani dəyərlər, vətənpərvərlik, mənəvi-estetik keyfiyyətlər, əxlaqi davranış formaları aydın şəkildə verilməlidir. Bədii ədəbiyyatın əsas gücü onun tərbiyəedici təsirindədir. Bu səbəbdən müəllim seçdiyi parçada mənfi nümunələrin niyə tənqid olunduğunu, müsbət nümunələrin niyə önəmli olduğunu şagirdə izah etməlidir. Bu, dəyəryönlü təlimin vacib hissəsidir.

Bədii ədəbiyyatdan istifadə üçün bir neçə metod mövcuddur. Ən geniş yayılmış üsul dərs zamanı əsərdən qısa bir hissənin oxunmasıdır. Bu zaman müəllim mətnin intonasiyasına, ritminə və emosional çatdırılmasına diqqət etməlidir. Oxunan parça çox uzun olmamalıdır, çünki həddindən artıq uzun fraqment əsas ideyanın unudulmasına səbəb ola bilər. Şagirdlər bədii mətnləri təhlil edərkən aşağıdakı məqamları nəzərdən keçirməlidirlər:

1) Hadisələrin təsvir olunduğu dövr və tarixi şərait;
2) Əsərdə yer alan əsas hadisələr;
3) Tarixi və tipik obrazlar;

4) Müəllifin hadisələrə münasibəti;

5) Şagirdin öz şəxsi fikri.

“Bədii əsərlərdən müəllimin izahında qısa sitatlar şəklində də istifadə oluna bilər. Bu baxımdan şeir parçalarından daha səmərəli istifadə etmək olar. Bədii ədəbiyyatdan ənənəvi təlimdə istifadə edilərkən metodistlər V-IX siniflərdə daha geniş, X-XI siniflərin tarix dərslərində isə yalnız bədii əsərin və onun müəllifinin adını çəkməklə kifayətlənməyi, əsəri bütünlükdə oxumağı isə şagirdlərin öz öhdəsinə buraxmağı məsləhət görürdülər. Yəni, tarix dərslərində ədəbi əsərlərdən istifadə edərkən mütləq bir ölçü gözlənilməlidir. Bədii mətndən istifadə edərkən geniş mətnlərdən istifadə edilməməlidir. Çox məzmunlu geniş parçalar şagirdin diqqətinin dağılmasına, dərsin tempinin pozulmasına, əsas ideyanın unudulmasına səbəb ola bilər. A.A. Vagin belə hesab edirdi ki, “bədii ədəbiyyatın tarix dərslərində geniş istifadəsi, şagirdlərin əlavə ədəbi obrazlar və sitatlar ilə həddindən artıq yüklənilməsi səhv addım olardı” [7, s.67].

Şagirdlərin  qavrama, hazırlıq səviyyələrinin fərqli olduğunu nəzərə alan müəllim: yüksək hazırlıqlı şagirdlərə mürəkkəb, analitik düşüncə tələb edən mətn parçaları, orta səviyyəli şagirdlərə sadə və emosional təsviri güclü parçalar, zəif qavrayıcı şagirdlərə isə qısa və konkret fraqmentlər təqdim edə bilər. Bu, hər bir şagirdin potensialına uyğun inkişafını və onların aktivliyini təmin edir.

Tarix dərslərində bədii ədəbiyyatdan istifadə prosesində əsas və ikinci dərəcəli fikirlər müəyyən olunmalıdır. Müəllim yalnız dərslikdə verilən bədii ədəbiyyat nümunələri ilə kifayətlənməməli, öz təcrübə və dünyagörüşünə əsaslanaraq, izahında, nitqində, bədii ədəbiyyatdan istifadə edə bilər. Müxtəlif tarixi dövrlərdə ümumi tarix dərslərində bədii ədəbiyyatdan istifadənin bu baxımdan imkanları genişdir. Məsələn, Napoleonun yürüşləri haqqında dərs zamanı Lev Tolstoyun “Hərb və sülh” romanından istifadə etmək mümkündür.

VIII sinifdə “ Fransa inqilabı” mövzusunun tədrisi zamanı Dikensin – “İki şəhərin hekayəsi” əsərindən istifadə etməklə Parisdə cəmiyyətin aclıq və səfalət içində yaşaması, şagirdlərə inqilabın sosial əsaslarınl emosional şəkildə anlatmağa kömək edir.

Viktor Hüqo – “Səfillər” romanında XIX əsr Fransası, monarxiya və sinfi təbəqələr haqqında məlumat verilir, Jan Valjan obrazı sosial ədalət anlayışını izah etməyə kömək edir.

Qədim Babilin mədəniyyət abidəsi olan “Gilqameş” dastanı Uruk, şəhər-dövlətlər mövzusunun tətbiqi zamanı Gilqameşin obrazı vasitəsilə qəhrəmanlıq ideyası və qədim insanın dünyagörüşü izah edilir.

Homer – “İliada”, “Odisseya” romanları Troya müharibəsi, qədim yunan düşüncəsi, Axilles və Odisseya haqqında parçalarla dövrün cəmiyyət təsəvvürü canlanır.

“Manas” dastanı - türk xalqlarının dünya görüşü, məişət həyatı, qəhrəmanlıq ənənələri haqqında ətraflı təsəvvür yaradır.

Vasili Qriqoryeviç Yanın yazdığı “Çingiz xan”, “Batı”, “Sonuncu dənizə doğru” tarixi romanlarında monqolların tarixindən bəhs olunur.

Mətn tək mənbə kimi təqdim edilməməlidir. Bədii parçalar xəritələr, sənəd nümunələri, fotoillüstrasiyalar və dərslik məlumatları ilə birlikdə istifadə olunarsa, şagirdlərdə çoxşaxəli təfəkkür formalaşır.

Bədii mətni anlamaqda ən vacib mərhələlərdən biri şagirdin şəxsi fikrini ifadə etməsidir: obrazlar barədə şəxsi münasibət; hadisənin səbəb-nəticə təhlili; müəllif mövqeyi haqqında fikir; tarixi reallıqla müqayisə. Bu zaman şagird həm düşünür, həm analiz edir, həm də öz mövqeyini

qurur. Bu isə müasir kompetensiya yanaşmasına tam uyğundur.

Məktəblərdə ümumi tarix dərslərində bədii ədəbiyyatdan istifadə şagirdlərin tarixi anlayışını dərinləşdirmək, tarixi hadisələrə emosional və əxlaqi münasibət yaratmaq üçün çox faydalıdır. Aşağıda metod və üsullarını ətraflı qeyd edirəm:

**Söhbət və müzakirə üsulu.** Şagirdlər müəllimin təqdim etdiyi tarixi hadisə yaxud tarixi şəxsiyyət haqqında bədii ədəbiyyat nümunəsi oxuyub, fikirlərini bölüşürlər. Şagirdlərdə tarixi şəxsiyyətlərə münasibət formalaşdırırlar.

**Rollu oyunlar.** Tarixi hadisələr dərsdən əvvəl mövzu ilə bağlı hazırlanmış ssenari əsasında qurulur. Şagirdlər müxtəlif obrazları seçirlər və ya müəllim rolları paylaya bilər. Səhnələşdirmə,rollu oyunlar tarixi hadisələrin daha yaxşı yadda qalmasına, şagirdlərin dərsdə aktiv iştirak etməsinə səbəb olur. Şagirdlərdə kommunikasiya, təqdimat bacarıqları formalaşır.

**Təhlil və müqayisə üsulu.** Şagirdlər bədii ədəbiyyat əsərindəki tarixi məlumatları dərs kitabındakı faktlarla müqayisə edir. Şagirdlər qruplar şəklində əsəri oxuyur və tarixi faktlarla uyğunluğunu və fərqliliklərini qeyd edirlər. Tarixi hadisələrdə müəllifin baxış bucağı və bədii təqdimat fərqləri araşdırılır. Tənqidi düşüncə və analiz bacarıqları inkişaf edir, tarixi informasiyanın qiymətləndirilməsi bacarığı artır.

**Yazılı və yaradıcılıq işləri.** Şagirdlər bədii əsərlər əsasında esse, məktub, hekayə yazırlar. Bu fəaliyyətlər tarixi biliklərin dərinləşdirilməsinə, şagirdlərin yazılı nitq bacarıqlarının inkişafına və tarixi hadisələrin daha şüurlu şəkildə qavranılmasına müsbət təsir göstərir.

**Vizual metodlar (karikatura, şəkil, plakat).** Tarixi hadisələr bədii ədəbiyyat əsasında vizual olaraq təmsil olunur. Şagirdlər oxuduqları əsər əsasında hadisələri plakat, komiks və ya şəkil vasitəsilə təqdim edirlər. Dərsdə bu vizual işlər müzakirə olunur və müəllim tarixi kontekstə əlavə izah verir. Tarixi məlumatların yadda qalması asanlaşır, yaradıcılıq qabiliyyəti və vizual təhlil bacarıqları artır.

**Dialoq və debat üsulu.** Şagirdlər bədii ədəbiyyat əsasında tarixi hadisələr haqqında fikir mübadiləsi aparırlar. Şagirdlər iki qrupa bölünürlər, tarixi şəxsiyyət, tarixi hadisə haqqında bir-birlərinə opponentlik edirlər. Hər qrup qarşı tərəfi öz mövqeyi ilə bağlı inandırmağa çalışır. Müəllim şagirdləri arqumentləri sübut etməyə, nəticə çıxarmağa, tarixi mənbələrə istinad etməyə təşviq edir. Şagirdlər mövzunu dərindən araşdırır, "çarpaz suallar" hazırlayır, tarixi mənbələrlə işləmək bacarığına yiyələnirlər.

**İnteraktiv texnologiyalardan istifadə.** Müasir texnologiya ilə bədii ədəbiyyat əsasında tarixi mövzular interaktiv dərs vasitələrinə çevrilir. Elektron dərsliklər, animasiyalar, qısa videolar və ya simulyasiyalar vasitəsilə bədii əsərdəki hadisələr vizuallaşdırılır. Şagirdlər virtual platformada diskussiya və ya qrup layihələrində iştirak edirlər. Dərs daha maraqlı olur, şagirdlərin texnoloji savadlılığı və aktiv iştirakı artır.

**Sual-cavab və problemli vəziyyət yaratmaq.** Bədii parçadan sonra müəllim şagirdlərin düşüncəsini istiqamətləndirən suallar verir: "Bu obrazın davranışı hansı tarixi şəraitlə bağlıdır?", "Əsərdə verilən hadisə ilə real tarix arasındakı fərqlər nələrdir?", "Müəllif hansı fikri ötürmək istəyib?" Bu metod tənqidi təfəkkürü inkişaf etdirir və analiz bacarıqlarını gücləndirir.

Bədii əsərlər yalnız dərsdə deyil, dərsdənkənar məşğələlərdə də geniş tətbiq olunur: Kitab müzakirələri; "Tarix və ədəbiyyat günü"; Bədii əsərlərdən səhnəciklərin hazırlanması; Tarixi obrazların təqdimatı; "Tarixi obrazların dili ilə çıxış" yarışları. Belə fəaliyyətlər şagirdlərin şəxsi inkişafına və tarixi hadisələrə emosional yanaşmasına müsbət təsir edir.

Metod və üsulların qarışığı dərsləri daha interaktiv və maraqlı edir, şagirdlərin həm bilik, həm bacarıq, həm də vərdişlərini eyni zamanda inkişaf etdirir.

**Problemin aktuallığı.** Ümumtəhsil məktəblərində ümumi tarix kurslarının tədrisində bədii ədəbiyyatdan istifadə şagirdlərdə bədii təfəkkürün və geniş dünyagörüşün formalaşmasında müstəsna rolu var. Didaktik və tərbiyəvi əhəmiyyət kəsb edən bu problemin tədqiqinə çox böyük ehtiyac var.

**Problemin elmi yeniliyi.** Ümumtəhsil məktəblərində ümumi tarix kurslarının tədrisində bədii ədəbiyyatdan istifadənin didaktik imkanları və metodik imkanları şərh edilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən tarixin tədrisi texnologiyası sahəsində çalışan mütəxəssislər istifadə edə biləcəklər.

## Ədəbiyyat

1. Atakişiyeva C. Tarix dərslərində bədii ədəbiyyatdan istifadə. 2020. s.25-33.
2. Əliyeva S. Didaktik vasitələr və onların tətbiqi. Bakı: 2017, s.56-58.
3. Əmirov M. Tarix və bədii ədəbiyyatın qarşılıqlı əlaqəsi. Bakı: 2011, s.12-13.
4. Məmmədov F. Tarix tədrisinin metodikası. Bakı: 2018, s. 25-27.
5. Quliyev R. Tarix dərslərində inteqrasiya metodları. Bakı: 2020, s. 31-32.
6. Qurbanova M. Tarix təlimində bədii ədəbiyyatdan istifadənin mahiyyəti 2018. s.226-228
7. Vagin A.A. Методика преподавания истории. Moskva: 2005, s. 67.

**L.Ə.Həsənzadə**

**Ümumtəhsil məktəblərində ümumi tarix kurslarının tədrisində bədii ədəbiyyatdan istifadə imkanları və yolları**

**Xülasə**

Məqalədə tarix dərslərində bədii ədəbiyyatın tətbiqi, şagirdlərin tarixi hadisələri qavraması və tarixi şəxsiyyətlərə emosional münasibət formalaşdırması araşdırılır. Bədii ədəbiyyatın inteqrasiyası və müəllim tərəfindən istifadə üsulları təhlil edilir. Araşdırmalar göstərir ki, təlimdə bədii ədəbiyyatdan istifadə dərsləri daha canlı və yaddaqalan edir, şagirdlərdə milli-mənəvi dəyərlərin formalaşmasına və tarixə marağın artmasına səbəb olur. Şagirdlərdə dünyagörüşün formalaşmasına motiv yaradır.

**Л.А.Хасанзаде**

**Возможности и пути использования художественной литературы в преподавании курсов всеобщей истории в общеобразовательных школах**

**Резюме**

В статье исследуется применение художественной литературы на уроках истории,её роль в понимании учащимися исторических событий и формировании их эмоционального отношения к историческим личностям. Анализируется интеграция художественной

литературы и методы её использования учителем. Исследования показывают, что использование художественной литературы делает уроки более живыми и запоминающимися, способствует формированию национально-нравственных ценностей у учащихся и повышает интерес к истории. Кроме того, это стимулирует формирование мировоззрения учащихся.

**L.A.Hasanzade**

**Opportunities and ways of using fiction in the teaching of general history courses in general education schools**

**Summary**

The article examines the use of fiction in history lessons, how it helps students comprehend historical events, and how it shapes their emotional attitude toward historical figures. The integration of fiction and the methods used by teachers are analyzed. Research shows thatusing fiction in teaching makes lessons more vivid and memorable, contributes to the formation of national and moral values in students, and increases their interest in history. It also motivates the development of students’ worldview.

**Redaksiyaya daxil olub:** 05.12.2025

***XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ***
***METHODS OF TEACHING FOREIGN LANGUAGES***

# ФОРМИРОВАНИЕ МЕЖКУЛЬТУРНОЙ КОМПЕТЕНЦИИ МУЛЬТИМЕДИЙНЫМИ СРЕДСТВАМИ НА ЗАНЯТИЯХ ПО ИНОСТРАННОМУ ЯЗЫКУ В ВУЗЕ

*UOT 372.881.1*

**Вафа Гамид кызы Тагызаде**
*учительница Бакинского Славянского Университета*
**ORCID:** 0009-0007-5676-691X
**E-mail:** 6500_95@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.23

***Ключевые слова:*** *мультимедийные технологии, межкультурная коммуникативная компетенция, обучение иностранным языкам, аутентичные материалы, педагогические инновации.*

***Açar sözlər:*** *multimedia texnologiyaları, mədəniyyətlərarası kommunikativ kompetensiya, xarici dilin tədrisi, autentik materiallar, pedaqoji innovasiyalar.*

***Key words:*** *multimedia technologies, intercultural communicative competence, foreign language teaching, authentic materials, pedagogical innovation.*

Одним из ключевых гуманитарных направлений современного образования является изучение иностранных языков. Владение иностранным языком сегодня рассматривается не только как инструмент профессиональной и академической коммуникации, но и как важнейшее условие успешной социализации личности в глобальном мире. В современном обществе сохраняется устойчивая тенденция к расширению международных контактов, что требует от выпускников вузов не только владения языковыми навыками, но и способности к продуктивному межкультурному взаимодействию.

Очевидно, что успешное обучение иностранному языку не ограничивается формированием грамматических знаний и словарного запаса. Важно также развивать межкультурную коммуникативную компетенцию, которая помогает глубже понять культурные различия, способствует взаимопониманию и предотвращает конфликтные ситуации. Отсутствие сформированной межкультурной компетенции затрудняет общение и нередко приводит к коммуникативным сбоям. Как отмечают исследователи, медиатехнологии обладают значительным потенциалом в формировании у обучающихся данной компетенции, особенно в условиях онлайн-обучения (7).

По мнению Краснощековой Г.А., применение мультимедийных средств в образовательном процессе существенно расширяет возможности преподавателя и студентов. Аутентичные материалы, доступные через мультимедийные ресурсы, интернет-платформы и интерактивные технологии, стимулируют самостоятельность обучающихся, делают учебный процесс более динамичным и вовлекающим, а также способствуют интеграции знаний о языке и культуре (2).

Особую значимость данная проблема приобретает в контексте Азербайджана, где

происходит активная модернизация системы образования, расширяется использование цифровых ресурсов и мультимедийных технологий в вузах. Азербайджанская аудитория отличается билингвальной средой, что создает дополнительные предпосылки и одновременно вызовы для формирования межкультурной компетенции. В этих условиях применение мультимедийных средств позволяет компенсировать отсутствие естественной языковой среды, предоставить студентам доступ к аутентичным материалам и способствовать их успешной интеграции в глобальное образовательное пространство.

Цель исследования заключается в выявлении дидактического потенциала мультимедийных технологий в формировании межкультурной компетенции студентов при изучении иностранных языков.

Мультимедийное обучение обеспечивает реализацию важнейших методических, дидактических и психологических принципов, таких как интерактивность, наглядность, вариативность и интеграция различных видов деятельности. П. В. Сысоев отмечает, что мультимедиа обладают рядом свойств, среди которых для формирования межкультурной компетенции особенно значимы: поликультурность контента, многоуровневость материалов по степени сложности, возможность организации синхронного (чат, видеосвязь) и асинхронного общения (форумы, блоги), а также развитие навыков самостоятельной работы обучающихся (4).

Особое значение мультимедийные технологии приобретают при формировании межкультурной компетенции, которая предполагает не только знание культурных норм и традиций, но и способность к эмпатии, толерантности и диалогу с представителями других культур. Использование мультимедийных средств — видеофрагментов, аутентичных фильмов, виртуальных экскурсий, подкастов, онлайн-платформ — способствует более глубокому погружению обучающихся в культурный контекст.

Для успешного формирования межкультурной компетенции средствами мультимедийных технологий необходимо соблюдение комплекса педагогических условий, включающих:

**1. Культурологический и аксиологический подходы** при проектировании содержания обучения — акцент на ценностях своей и других культур, формирование уважения и открытости к культурному разнообразию.

**2. Методическое обеспечение** учебного процесса мультимедийными программами, направленными на развитие аналитического и критического мышления, формирование личностных смыслов и опыта межкультурного взаимодействия.

**3. Использование активных методов обучения** — проектных, интерактивных, игровых, ситуационных, моделирующих реальные коммуникативные контексты.

**4. Подготовленность преподавателя** к целенаправленному использованию мультимедиа и цифровых ресурсов с учётом уровня студентов, их культурных и когнитивных особенностей.

**5. Реализация личностно-деятельностного и конструктивистского подходов** — создание ситуаций успеха, актуализация субъектного опыта и формирование рефлексивных навыков обучающихся.

Результаты наблюдений показывают, что при целенаправленном использовании

мультимедиа студенты становятся более открытыми к восприятию иных культур, критически осмысляют собственные стереотипы, развивают эмпатию и толерантность. Мультимедийные средства не только способствуют осознанию культурных различий, но и помогают студентам укреплять собственную культурную идентичность и развивать способность к диалогу в поликультурной среде.

Так, виртуальные туры по историческим достопримечательностям страны изучаемого языка не только знакомят учащихся с национальным наследием, но и формируют чувство сопричастности к мировой культуре. Просмотр художественных и документальных фильмов о культуре других стран позволяет проводить сравнительный анализ, осмысливать общечеловеческие ценности и вырабатывать уважительное отношение к культурным различиям.

Мультимедийные проекты и видеопрезентации, создаваемые учащимися, развивают навыки самостоятельного поиска, анализа и интерпретации информации, способствуют формированию креативного мышления и способности к культурной рефлексии. Такой формат работы активизирует познавательную деятельность и укрепляет мотивацию, превращая учащихся из пассивных потребителей информации в активных участников культурного диалога.

Как отмечает С. Г. Тер-Минасова, каждое занятие по иностранному языку — это перекрёсток культур, где каждое слово несёт отпечаток иной картины мира (6, с. 154). В этом контексте мультимедиа становятся средством, которое помогает «увидеть» и «услышать» чужую культуру, а не просто прочитать о ней.

Кроме того, мультимедиа открывают возможности международного взаимодействия — через видеоконференции, онлайн-форумы, совместные мультимедийные проекты с зарубежными школами и университетами. Это не только развивает коммуникативные умения, но и учит сотрудничеству, гибкости и уважению в поликультурной среде.

В то же время для эффективного применения мультимедиа необходима методическая и цифровая грамотность преподавателя, умение подбирать ресурсы с учётом уровня студентов и культурного контекста. Только при осознанной интеграции мультимедийные технологии превращаются из вспомогательного средства в полноценный педагогический инструмент формирования межкультурной компетенции, способный объединить языковое, когнитивное и ценностное развитие личности.

Таким образом, мультимедийные технологии не просто модернизируют процесс обучения, но и способствуют воспитанию поколения, готового к диалогу культур, взаимопониманию и сотрудничеству в глобальном мире.

**Актуальность исследования.** В эпоху глобализации и цифровизации общества особое внимание в образовании уделяется формированию личности, способной к эффективному взаимодействию в многоязычном и поликультурном мире. Мультимедийные технологии становятся ключевым инструментом, обеспечивающим интеграцию языкового и культурного аспектов обучения. Они позволяют создавать условия, максимально приближённые к реальной коммуникативной среде, обеспечивая доступ к аутентичным материалам и моделирование жизненных ситуаций общения. Для билингвальной азербайджанской аудитории мультимедийные средства выступают как эффективный способ

компенсации отсутствия естественной языковой среды. В этих условиях применение мультимедийных технологий приобретает стратегическое значение для модернизации образовательного процесса и повышения качества подготовки будущих специалистов.

**Научная новизна заключается в** комплексном анализе мультимедийных технологий как самостоятельного педагогического средства формирования межкультурной компетенции. В работе уточнено содержание ключевых понятий «мультимедийное обучение» и «межкультурная компетенция» и раскрыта их взаимосвязь в контексте лингводидактики. Определены структурные компоненты межкультурной компетенции и показаны пути их развития средствами мультимедиа. Предложены методические подходы и педагогические условия, обеспечивающие эффективную интеграцию мультимедийных технологий в процесс обучения иностранным языкам. Впервые рассмотрено влияние мультимедиа на формирование культурной рефлексии и эмпатии обучающихся в билингвальной образовательной среде Азербайджана.

**Практическая значимость.** Результаты исследования могут быть использованы при разработке мультимедийных учебных курсов и методических рекомендаций для преподавателей иностранных языков в вузах Азербайджана. Предложенные формы и методы работы с мультимедийными средствами способствуют развитию мотивации, коммуникативных навыков и межкультурного взаимодействия студентов в реальной и виртуальной среде.

## Литература

1. Алиева И. М. Принципы обучения русскому языку вне языковой среды на основе конфигуративной методики: автореф. дис. ... д-ра пед. наук / – Баку, – 2010. – 84 с.

2. Краснощекова Г.А., Янкаускас Е.С. Методика формирования межкультурной компетенции у старшеклассников с применением мультимедийных средств // Вестник Томского государственного университета. №510, – 2025. – с.183-190.

3. Клочко К. А. Приемы развития межкультурной компетенции на занятии по иностранному языку в вузе (на примере группы направления «международные отношения») // Вестник Пермского государственного гуманитарно-педагогического университета. Серия № 1. Психологические и педагогические науки, (2), – 2022. – с. 5-14.

4. Сысоев П.В. Дидактические свойства и функции современных информационных и коммуникационных технологий // Иностранные языки в школе. № 6, 2012. –с. 12–21.

5. Рахманова С. М. Мультимедийные технологии в обучении русскому языку как иностранному // Региональный форум преподавателей-русистов закавказских стран в Азербайджанской Республике. – Баку, Гянджа, 10-14 сентября, – 2007. – с.209-212.

6. Тер-Минасова С.Г. Язык и межкультурная коммуникация. Москва: СЛОВО/SLOVO, – 2008. – 350 с.

7. Чжоу Ч., Яценко О. Ю. Мультимедийное обучение иностранным языкам и развитие межкультурной коммуникативной компетенции у студентов // Научный Лидер. – №2 (152), – 2024. – С. 64-66.

**В.Г.Тагизаде**

**Формирование межкультурной компетенции мультимедийными средствами на занятиях по иностранному языку в вузе**

**Резюме**

В статье рассматривается роль мультимедийных технологий в формировании межкультурной коммуникативной компетенции студентов при обучении иностранным языкам. Подчеркивается актуальность исследования в условиях глобализации и цифровой трансформации образования, особенно для билингвальной аудитории Азербайджана. Раскрывается дидактический потенциал мультимедийных средств в развитии когнитивного, аффективного и процессуального компонентов межкультурной компетенции. Обоснована необходимость методически грамотной интеграции мультимедиа в учебный процесс как инструмента культурного взаимодействия, развития мотивации и самостоятельности обучающихся.

**V.H.Tağızadə**

**Xarici dil dərslərində multimedia vasitələri ilə mədəniyyətlərarası kompetensiyanın formalaşdırılması**

**Xülasə**

Məqalədə xarici dillərin tədrisində tələbələrin mədəniyyətlərarası kommunikativ səriştələrin formalaşdırılmasında multimedia texnologiyalarının rolu araşdırılır. Qloballaşma və təhsilin rəqəmsal transformasiyası şəraitində, xüsusilə Azərbaycanın ikidilli auditoriyası üçün bu mövzunun aktuallığı vurğulanır. Multimedia vasitələrinin MKK-nın koqnitiv, affektiv və prosesual komponentlərinin inkişafında didaktik potensialı açıqlanır. Multimedia texnologiyalarının tədris prosesinə metodik cəhətdən düzgün inteqrasiyasının mədəni qarşılıqlı əlaqə, motivasiya və müstəqilliyin inkişafı üçün əhəmiyyəti əsaslandırılır.

**V.H.Taghizade**

**Formation of intercultural competence through multimedia tools in foreign language classes at university**

**Summary**

The article explores the role of multimedia technologies in developing students' intercultural communicative competence in foreign language education. The relevance of the research is emphasized in the context of globalization and digital transformation of education, particularly for the bilingual Azerbaijani audience. The study reveals the didactic potential of multimedia tools in developing the cognitive, affective, and procedural components of intercultural competence. The paper substantiates the importance of methodologically sound integration of multimedia technologies into the educational process as a means of cultural interaction, motivation enhancement, and learner autonomy development.

**Redaksiyaya daxil olub:** 04.11.2025

***HƏYAT BİLGİSİNİN TƏDRİSİ METODİKASI***
***METHODOLOGY OF TEACHİNG KNOWLEDGE OF THE WORLD***
***МЕТОДИКА ПРЕПОДАВНИЯ ПОЗНАНИИ МИРА***

# TƏLİM PROSESİNDƏ ELMİ DÜNYAGÖRÜŞÜN AŞILANMASI

*UOT 37.01.*

**Mirsədəf Qiyas qızı Ağayeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0005-3482-6702
**E-mail:** agayeffa13@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.24

***Açar sözlər:*** *təlim prosesi, elmi dünyagörüşü, həyat bilgisi, pedaqoji metodika, rəqəmsal təhsil*
***Ключевые слова:*** *учебный процесс, научное мировоззрение, основы жизни, педагогическая методика, цифровое образование*
***Key words:*** *learning process, scientific worldview, life science, pedagogical methodology, digital education*

Müasir təhsil sistemi qarşısında duran əsas vəzifələrdən biri də gənc nəsildə elmi dünyagörüşün formalaşdırılmasıdır. Elmi dünyagörüşü – yəni, insanın həyat, təbiət və cəmiyyət hadisələrinə elmi baxışı dünayagörşü şəxsin dünyanı anlama tərzini müəyyən edir və onun gələcək inkişafına yön verir. Pedaqoji ədəbiyyatda qeyd olunur ki, elmi dünyagörüşün formalaşması birbaşa insanın elmi biliklərə yiyələnməsindən və əqli tərbiyədən asılıdır. Elmi dünyagörüşü insanda özünə inam yaradır, ona ətraf aləmdə baş verən hadisələri düzgün dərk etməyə imkan verir.

Təhsil prosesində elmi dünyagörüşünün aşılanması erkən yaşlardan başlamalıdır. Məktəbəqədər dövrdən və xüsusilə ibtidai siniflərdən etibarən şagirdlər elmi yanaşma ilə tanış olur, təbiət və cəmiyyət hadisələrinə rasional izahlar axtarmağa yönəldilir. Bu məqsədlə bir çox ölkələrin tədris kurikulumlarında erkən siniflər üçün inteqrasiya olunmuş fənlər mövcuddur. Azərbaycan çərçivəsində “Həyat bilgisi” fənni məhz belə inteqrativ xarakterli fənlərdəndir və ibtidai siniflərdə şagirdlərə həm sosial, həm də təbiət elmləri üzrə baza bilik və dəyərləri aşılayır. Həyat bilgisi fənninin təlim məqsədlərindən biri şagirdlərdə elmi dünyagörüşün təməllərini formalaşdırmaqdır.

Dünyagörüşü insanın həyat, təbiət və cəmiyyət haqqında fundamental baxışlarının, dəyərlərinin sistemidir. Elmi dünyagörüşü isə varlığı yalnız elmə məlum faktlar əsasında izah edən, hadisələrin səbəb-nəticə əlaqələrini elmi prinsiplərlə açıqlayan bir nəzəri baxışlar sistemidir. Başqa sözlə, elmi dünyagörüşü dünyaya obyektiv, sübutlara əsaslanan, məntiqi prizmadan baxmaq deməkdir. Bu cür dünyagörüşü insanın xurafatdan, əsassız inanclardan uzaq durmasına, qarşılaşdığı problemləri və sualları rasional yolla cavablandırmasına imkan yaradır.

Elmi dünyagörüşün formalaşması təkcə fənn biliyi əldə etməklə məhdudlaşmır, eyni zamanda fəal düşüncə, tədqiqatçılıq, təcrübəyə əsaslanma kimi keyfiyyətlərin inkişafını tələb edir. Tədqiqatlar göstərir ki, elmi şəxs qanun və prinsipləri dərk etməklə yanaşı, elmi dünyagörüşünə yiyələnir, elmi tədqiqatlar aparmaq bacarığı qazanır və elmi fəaliyyətin cəmiyyət üçün dəyərini

anlayırlar. Yəni, müəyyən dünyagörüşü bir növ elmi hazırlığın göstəricisidir və şəxsin mürəkkəb problemləri elmi yolla həll etmə qabiliyyəti ilə sıx bağlıdır.

Elmi dünyagörüş həm fərdin fərdi inkişafına, həm də cəmiyyətin tərəqqisinə töhfə verir. Elmi düşüncəli, geniş dünyagörüşə malik gənclər gələcəyin mühəndisləri, həkimləri, tədqiqatçıları, innovatorlarıdır. XXI əsr bacarıqları sırasında elmi və tənqidi düşüncə xüsusi yer tutur. UNESCO kimi beynəlxalq qurumlar da vurğulayırlar ki, davamlı inkişaf və vətəndaşların fəal iştirakı üçün gənc nəslin elm və texnologiyanın mahiyyətini anlaması, yəni elmi dünyagörüş sahibi olması zəruridir.

Bu prosesin uğuru üçün bir neçə pedaqoji prinsip vacibdir:

— Şagirdyönlü təlim: şagirdlərin passiv dinləyici yox, aktiv tədqiqatçı olmalarını təmin etmək. Məsələn, mühazirə yox, dialoq və müzakirə yolu ilə dərsi qurmaq; sual-cavab metodundan istifadə etməklə şagirdləri düşünməyə sövq etmək.

— Əyanilik və praktiklik: elmi dünyagörüş abstrakt şəkildə formalaşmır – şagirdlər real müşahidələr aparmalı, ətraf mühitdən nümunələr seçməlidirlər. Təlim zamanı əyani vəsaitlərdən, eksperimentlərdən, modellərdən istifadənin nəticəsi olaraq şagirdlər öyrəndikləri elmi nəzəriyyələrin həyatda necə tətbiq olunduğunu dərk edirlər. Misal üçün, sadə təcrübələr (su ilə, bitkilərlə, maqnitlə və s.) aparmaqla təbiət qanunlarını müşahidə etmək mümkündür.

— Mərhələli və sistemli yanaşma: ibtidai sinifdə elmi dünyagörüşün təməli qoyulur, yuxarı siniflərdə isə dərinləşdirilir. Hər yaş dövrünə uyğun olaraq mövzuların ardıcıl və inteqrativ verilməsi vacibdir. Kiçik yaşlarda təbiət hadisələri haqqında sadə, anlaşıqlı izahlar və müşahidələr, yuxarı yaşlarda isə daha mürəkkəb elmi anlayışlar təqdim olunur. Bu cür sistemlilik şagirdlərin dünyagörüşünün tədricən, lakin möhkəm əsaslar üzərində qurulmasını təmin edir.

— Tənqidi düşüncənin inkişafı: elmi dünyagörüş tənqidi yanaşmadan ayrılmazdır. Şagirdlərə hazır bilikləri əzbərlətməklə yanaşı, onları məlumatı sorğulamağa, "niyə? necə?" suallarını verməyə alışdırmaq lazımdır. Belə olduqda, öyrənənlər kor-koranə yox, dərin anlayışla, məntiqli şəkildə mövzunu mənimsəyirlər.

Azərbaycan təhsil sistemində ibtidai siniflərdə tədris olunan "Həyat bilgisi" fənni elmi dünyagörüşün aşılanması baxımından xüsusi əhəmiyyət kəsb edir. "Həyat bilgisi" fənni inteqrativ məzmunu ilə seçilir: burada həm fərd və cəmiyyət (sosial müstəvi), həm də təbiət elmləri (təbiət müstəvisi) ilə bağlı mövzular əhatə olunur. Beləliklə, fənn şagirdlərdə bir tərəfdən vətənpərvərlik, etik dəyərlər, təhlükəsizlik vərdişləri kimi sosial keyfiyyətləri formalaşdırır, digər tərəfdən də ətraf aləm haqqında ilkin elmi bilik və anlayışlar qazandırır.

**Problemin aktuallığı.** Müasir dövrdə qloballaşma, sürətli texnoloji inkişaf və informasiya texnologiyalardan istifadə şagirdlərin dünyagörüşünü müxtəlif təsirlərə məruz qoyur. Sosial şəbəkələrin təsiri, qeyri-elmi yanaşmaların geniş yayılması gənc nəslin dünyanı obyektiv şəkildə dərk etməsini çətinləşdirir. Belə bir şəraitdə elmi dünyagörüşün formalaşdırılması pedaqoji sistem üçün həyati zərurətə çevrilir.

Kurikulum islahatları bu məsələnin aktuallığını göstərir. "Həyat bilgisi" fənni şagirdlərdə rasional düşüncə, səbəb-nəticə əlaqələrini anlama və elmi baxış formalaşdıraraq elmi biliklərin həyatda tətbiqinə, həmçinin digər fənlərin öyrənilməsinə zəmin yaradır.

**Problemin elmi yeniliyi.** Tədqiqat təlim prosesində elmi dünyagörüşün formalaşdırılmasına yeni yanaşma təklif edir. Həyat bilgisi fənni əsasında şagirdlərdə elmi biliklərin gündəlik

həyatla əlaqələndirilməsi və rasional düşüncənin inkişafına yönəlmiş innovativ təlim üsulları irəli sürülür.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Təlim prosesində elmi dünyagörüşün aşılanması şagirdlərin hadisə və proseslərə rasional yanaşmasını, sübuta əsaslanan düşüncə və qərarvermə bacarığını formalaşdırır. Həyat bilgisi fənni bu istiqamətdə mühüm rol oynayaraq şagirdlərə ətraf aləmi elmi baxımdan dərk etmə imkanı yaradır. Elmi dünyagörüşün formalaşdırılması idraki fəaliyyətin inkişafına, təhsilin keyfiyyətinin yüksəlməsinə və şagirdlərin şəxsiyyət kimi formalaşmasına nəzəri əsas verir.

## Ədəbiyyat


1. "Həyat bilgisi" fənni üzrə təkmilləşdirilmiş kurikulum. Bakı: ARTİ, 2023.
2. "Həyat bilgisi" fənni kurikulumu (III-IX siniflər üçün). Bakı: ARTİ, 2003.
3. Aderonmu T.S.B., Adolphus T. Students' Level of Scientific Literacy and Academic Performance in Physics… – IJRIAS, 2021.
4. Cambridge International – Inspiring the scientists of the future.


**M.Q.Ağayeva**

### Təlim prosesində elmi dünyagörüşün aşılanması (həyat bilgisi fənni əsasında)

### Xülasə

Məqalədə təlim prosesində şagirdlərdə elmi dünyagörüşün formalaşdırılması probleminə pedaqoji yöndən yanaşılmışdır. Elmi dünyagörüş anlayışı izah edilmiş, onun fərdi inkişaf və cəmiyyətin tərəqqisi üçün strateji əhəmiyyəti vurğulanmışdır. Araşdırmada Həyat bilgisi fənninin ibtidai təhsildə şagirdlərdə elmi düşüncə, analitik yanaşma və tədqiqat bacarıqlarının inkişafındakı rolu təhlil olunur. Əyani müşahidə, praktik fəaliyyət, inteqrativ yanaşma və tənqidi düşüncənin təşviqi metodları əsasında elmi dünyagörüşün aşılanma yolları göstərilir. Nəticədə müəyyən olunmuşdur ki, erkən yaşlardan elmi dünyagörüşün sistemli və praktik üsullarla aşılanması şagirdlərin təkcə nailiyyətlərinə deyil, həm də onların sosial məsuliyyətli və innovativ düşüncəli vətəndaş kimi formalaşmasına şərait yaradır. Bu istiqamətdə ardıcıl tətbiq olunan pedaqoji yanaşmalar tədris prosesində elmi əsaslandırmanın gücləndirilməsinə, şagirdlərin intellektual potensialının inkişafına dəstək verməyə xidmət edir.

**М.К.Агаева**

### Формирование научного мировоззрения в учебном процессе (на основе предмета «основы жизни»)

### Резюме

В статье рассмотрена проблема формирования научного мировоззрения у учащихся в процессе обучения с педагогической точки зрения. Раскрыто понятие «научное мировоззрение», подчеркнуто его стратегическое значение для личностного развития и прогресса общества. В исследовании анализируется роль предмета «Окружающий мир» в

развитии у младших школьников научного мышления, аналитического подхода и исследовательских навыков. На основе методов наглядного наблюдения, практической деятельности, интегративного подхода и стимулирования критического мышления показаны пути формирования научного мировоззрения. В результате установлено, что систематическое и практическое привитие научного мировоззрения с раннего возраста способствует не только учебным достижениям учащихся, но и их становлению как социально ответственных и инновационно мыслящих граждан. Последовательное применение педагогических подходов в этом направлении способствует укреплению научной обоснованности учебного процесса и развитию интеллектуального потенциала учащихся.

**M.Q.Agayeva**

**Cultivation of scientific worldview in the learning process (based on the “life science” subject)**

**Summary**

The article examines the problem of shaping a scientific worldview among students within the learning process from an and pedagogical perspective. The concept of a scientific worldview is defined, and its strategic importance for individual development and societal progress is emphasized. The study analyzes the role of the subject “Life Science” in primary education in fostering students’ scientific thinking, analytical approach, and research skills. Based on methods such as visual observation, practical activity, integrative learning, and the promotion of critical thinking, the pathways for cultivating a scientific worldview are presented. The findings show that the systematic and practical cultivation of a scientific worldview from an early age contributes not only to students’ achievement but also to their formation as socially responsible and innovative citizens. Consistently applied pedagogical approaches in this direction serve to strengthen scientific reasoning within the educational process and support the development of students’ intellectual potential.

**Redaksiyaya daxil olub:** 06.12.2025

***SÜNİ İNTELLEKT TEXNOLOGİYALARINDAN İSTİFADƏ***
***USE OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES***
***ИСПОЛЬЗОВАНИЕ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА***

UOT 004.8

# RƏQƏMSAL DÜNYADA SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ İNKİŞAFI

**Raul İlham oğlu Murtazayev**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0009-5131-5292
**E-mail:** raulmurtazayev92@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.25

***Açar sözlər:*** *Süni intellekt, maşın tərcüməsi, tərcümə texnologiyaları, rəqəmsal iqtisadiyyat, insan-kompüter əməkdaşlığı, etik məsələlər, hüquqi problemlər, multidissiplinar tədqiqat, dil emalı, algoritmik modellər*

***Ключевые слова:*** *Искусственный интеллект, машинный перевод, технологии перевода, цифровая экономика, взаимодействие человека и компьютера, этические вопросы, правовые проблемы, междисциплинарные исследования, обработка естественного языка, алгоритмические модели*

***Key words:*** *Artificial intelligence, machine translation, translation technologies, digital economy, human–computer collaboration, ethical issues, legal challenges, interdisciplinary research, natural language processing, algorithmic models*

Tərcümə sahəsində süni intellektin (Sİ) inkişaf səviyyəsi hələ də qənaətbəxş hesab edilə bilməz və bu texnologiyanın geniş tətbiqini təmin etmək üçün uzunmüddətli elmi və texnoloji səylər tələb olunur. Son illərdə süni intellekt texnologiyalarında əldə olunan mühüm irəliləyişlər maşın tərcüməsinin keyfiyyət və səmərəliliyində əhəmiyyətli artım təmin etsə də, insan tərəfindən həyata keçirilən tərcümə ilə müqayisədə hələ də ciddi fərqliliklər mövcuddur.

Maşın tərcüməsi semantik mənanın dəqiq ötürülməsi, kontekstin nəzərə alınması, üslub və mədəni fərqlərin korrekt işlənməsi kimi kompleks problemlərlə üzləşir. Bu problemlərin həlli alqoritmik modellərin davamlı inkişafını, yeni texnoloji sıçrayışların tətbiqini və dilin qavranılması sahəsində fundamental elmi tədqiqatları tələb edir.

Müasir maşın tərcüməsi sistemləri mürəkkəb sintaktik konstruksiyaların işlənməsi, ixtisaslaşmış terminlərin düzgün tərcüməsi və mədəni fərqlərin nəzərə alınmasında müəyyən çətinliklərlə üzləşir. Nəticədə, tərcümə olunmuş mətnlərdə qrammatik səhvlər, semantik təhriflər və təbii səslənməyən ifadələr müşahidə olunur ki, bu da istifadəçi təcrübəsi və tərcümənin keyfiyyətinə mənfi təsir göstərir. Yüksək keyfiyyətli maşın tərcüməsinə nail olmaq üçün dilin başa düşülməsi, biliklərin təqdim olunması və məntiqi mühakimə kimi sahələrdə texnoloji irəliləyişlərin əldə edilməsi zəruridir.

Məsələn, Google Translate sistemi neyron şəbəkələrə əsaslanan maşın tərcüməsi modeli olaraq, ikidilli məlumatların geniş həcmlərində öyrədilmişdir. Nəticədə o, ənənəvi statistik maşın tərcüməsinə nisbətən daha yüksək keyfiyyət təmin edə bilir. Lakin mürəkkəb sintaktik

konstruksiyalarda, ixtisaslaşmış terminologiyada və mədəni fərqlərin nəzərə alınmasında hələ də səhvlər mövcuddur. Məsələn, "The cat is out of the bag" ifadəsi sözbəsöz "Pişik çantadan çıxdı" kimi tərcümə olunur və onun məcazi mənası — "sirrin açılması" — nəzərə alınmır. Eyni zamanda, "The White House promised to release the transcript of the president's call from April" cümləsində "release" sözünün yanlış "azad etmək" kimi tərcüməsi maşın tərcüməsinin leksik çoxmənalılığı və konteksti anlamaqda məhdudiyyətlərini göstərir.

Microsoft-un çoxdilli neyron maşın tərcüməsi sistemi kodlayıcı-dekodlayıcı arxitekturasına, diqqət mexanizminə və söz hissələrinə parçalama texnikasına əsaslanaraq çoxdilli tərcümədə yüksək nəticələr göstərir. Lakin məlumat çatışmazlığı və kiçik dillərə malik dil cütləri ilə işləyərkən modellərin ötürülməsi problemləri praktik tətbiqi məhdudlaşdırır. Tibet dili üçün aparılan araşdırmalar göstərir ki, resursların məhdudluğu Tibet-Çin maşın tərcüməsinin keyfiyyətinə ciddi təsir edir və bunun həlli öyrənmənin ötürülməsi və aktiv öyrənmənin qabaqcıl üsullarının tətbiqini tələb edir.

Konkretdən fənn sahələri üzrə maşın tərcüməsi sahəsi də fəal şəkildə inkişaf etdirilir. Məsələn, tibbi sahədə Fudan Universiteti biliklərə əsaslanan neyron maşın tərcüməsi sistemi hazırlamış, hüquq sahəsində isə Tsinxua Universiteti hüquqi terminlərin uyğunlaşdırılması və sintaktik məlumatların inteqrasiyasını təmin edən metodlar təklif etmişdir. Patent sahəsində isə kompleks terminlər və sintaktik konstruksiyalar maşın tərcüməsi üçün ciddi çağırışlar yaradır və onların öyrənilməsi biliklərin dərin öyrənmə üsulları ilə birləşdirilməsini tələb edir.

İnsan-kompüter birgə tərcüməsi perspektivli istiqamət olaraq yüksək səmərəliliyi və tərcümə keyfiyyətini təmin edir. Alibaba və Tencent platformaları ilkin maşın tərcüməsini insan redaktəsi ilə təkmilləşdirərək oxunaqlılığı və dəqiqliyi artırır. Lakin bu sistemlərin vəzifələrin bölgüsü, keyfiyyətin yoxlanması və qarşılıqlı optimallaşdırılması sahəsində hələ də təkmilləşdirilməyə ehtiyacı vardır. Gələcək tədqiqatlar süni intellekt və insan intellektinin daha dərin inteqrasiyasını təmin edən paradiqmaların inkişafına yönəlməlidir.

Rəqəmsal texnologiyalar dövründə böyük həcmdə məlumatın (mətn, şəkil, audio və video) yaranması Sİ texnologiyalarının inkişafı üçün etibarlı əsas yaratmışdır. Bulud hesablama və böyük məlumatların birləşməsi Sİ-nin sürətli irəliləyişini təmin edən infrastruktur və şərait yaradır. Maşın tərcüməsi həm ümumi, həm də peşəkar sahələrdə tətbiq olunur; hüquq, tibb, maliyyə və elektron ticarət sahələrində tərcümənin keyfiyyət tələbləri fərqli olur və universal modellər bu tələbləri tam təmin edə bilmir.

Süni intellekt rəqəmsal iqtisadiyyatın və intellektual cəmiyyətin qurulmasında əsas texnologiyalardan biri kimi tətbiq olunur. Ağıllı istehsal, ağıllı pərakəndə ticarət, şəhər idarəçiliyi, ictimai xidmətlər və təhsil sahələrində Sİ məhsuldarlığın artırılmasına, xidmətlərin optimallaşdırılmasına və fərdiləşdirilməsinə imkan verir. Eyni zamanda, Sİ ənənəvi iş yerlərinə təsir edə bilər, etik və hüquqi problemlər yarada bilər; bu səbəbdən tənzimləmə, hüquqi normalar və etik qaydaların tətbiqi vacibdir.

**Problemin aktuallığı.** Qloballaşma və rəqəmsallaşma şəraitində müxtəlif dillərdə keyfiyyətli və sürətli tərcüməyə ehtiyac artmaqdadır. İnsan tərcüməsi bu tələbatı tam ödəmədiyindən süni intellekt əsaslı maşın tərcüməsi xüsusi aktuallıq qazanır. Lakin semantik dəqiqlik, kontekstin düzgün ötürülməsi və mədəni fərqlərin nəzərə alınması kimi problemlər hələ də qalır ki, bu da mövzunun həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyətini artırır.

**Problemin elmi yeniliyi.** Məqalədə süni intellekt əsaslı maşın tərcüməsi texnologiyalarının mövcud vəziyyəti təhlil olunur və onların inkişafında üzləşdiyi əsas problemlər sistemləşdirilir. Fərqli sahələr (tibb, hüquq, patent, elektron ticarət) üzrə tətbiq imkanlarının müqayisəli analizi aparılaraq, bu sahələrdə semantik dəqiqlik və terminoloji uyğunluğun təmin olunmasının xüsusi əhəmiyyəti vurğulanır. İnsan-kompüter birgə tərcüməsi konsepsiyasının nəzəri və praktiki potensialının dəyərləndirilməsi isə mövzunun yeniliyini formalaşdırır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Süni intellekt əsaslı tərcümə sistemlərinin inkişafı qlobal informasiya mübadiləsini sürətləndirir, çoxdilli resurslardan istifadəyə imkan yaradır və beynəlxalq əməkdaşlığı asanlaşdırır. Təhsil, tibb, hüquq, maliyyə və elektron ticarət kimi sahələrdə keyfiyyətli maşın tərcüməsi vaxt və resurslara qənaət etməklə yanaşı, məlumatların daha geniş auditoriyaya çatdırılmasını təmin edir. İnsan-kompüter birgə tərcüməsi isə praktik tətbiqdə yüksək səmərəlilik və dəqiqlik baxımından mühüm perspektivlər açır.

## Ədəbiyyat

1. Bahdanau, D., Cho, K., & Bengio, Y. Neural Machine Translation by Jointly Learning to Align and Translate. International Conference on Learning Representations (ICLR). 2015.
2. Koehn, P. (2020). Neural Machine Translation. Cambridge University Press.
3. Vaswani, A., Shazeer, N., Parmar, N., et al. Attention is All You Need. Advances in Neural Information Processing Systems (NeurIPS), 2017.
4. Wu, Y., Schuster, M., Chen, Z., et al. Google's Neural Machine Translation System: Bridging the Gap between Human and Machine Translation. arXiv:1609.08144, 2016.
5. Hassan, H., Aue, A., Chen, C., et al. Achieving Human Parity on Automatic Chinese to English News Translation. arXiv:1803.05567, 2018.
6. Hutchins, J. Current Commercial Machine Translation Systems and Computer-based Translation Tools: System Types and their Uses. International Journal of Translation, 2005.
7. Jurafsky, D., & Martin, J. H. Speech and Language Processing (3rd ed.). Draft version. Stanford University, 2023.
8. Knight, K. Automated Translation: History and Future. Proceedings of the ACL, 2019
9. OECD. Artificial Intelligence in Society. OECD Publishing, 2021.
10. Russell, S., & Norvig, P. Artificial Intelligence: A Modern Approach (4th ed.). Pearson, 2021.

**R.İ.Murtazayev**

**Rəqəmsal dünyada süni intellekt texnologiyalarının inkişafı**
**Xülasə**

Məqalədə süni intellektin (Sİ) tərcümə və rəqəmsal iqtisadiyyat sahələrində tətbiqi araşdırılır. Tərcümə sahəsində maşın tərcüməsinin inkişafı müşahidə olunsa da, hələ də insan tərcüməsi ilə müqayisədə ciddi məhdudiyyətlər mövcuddur. Əsas problemlər semantik mənanın ötürülməsi, kontekstin qorunması, dil üslubuna riayət və mədəni fərqlərin nəzərə alınması ilə bağ-

lıdır. Mürəkkəb sintaktik strukturlar və terminoloji sahələrdə Sİ sistemləri çətinlik çəkir, nəticədə qrammatik səhvlər və semantik uyğunsuzluqlar yaranır. Bu problemlərin həlli üçün alqoritmik modellərin inkişafı, məlumat bazalarının zənginləşdirilməsi və insan-kompüter əməkdaşlığının gücləndirilməsi vacibdir. Tədqiqat həmçinin göstərir ki, Sİ yalnız tərcümə deyil, həm də rəqəmsal iqtisadiyyatın müxtəlif sahələrində – ağıllı istehsal, pərakəndə satış, maliyyə, səhiyyə, təhsil və ictimai idarəetmədə səmərəliliyi artırır. Bununla yanaşı, Sİ-nin sürətli tətbiqi etik, hüquqi və sosial çağırışlar yaradır. Ona görə də texnoloji innovasiyalarla yanaşı, etik prinsiplər və normativ-hüquqi mexanizmlərin işlənməsi mühüm əhəmiyyət daşıyır. Nəticə etibarilə, süni intellektin tərcümə və rəqəmsal iqtisadiyyat sahələrində geniş tətbiqi böyük potensiala malikdir. Lakin bu potensialın reallaşdırılması uzunmüddətli tədqiqat, multidissiplinar əməkdaşlıq və insanyönlü yanaşmanın qorunmasını tələb edir.

**Р.И.Муртазаев**

**Развитие технологий искусственного интеллекта в цифровом мире**
**Резюме**

В статье рассматривается применение искусственного интеллекта (ИИ) в области перевода и цифровой экономики. Несмотря на заметный прогресс в машинном переводе, его уровень всё ещё значительно уступает человеческому переводу. Основные проблемы связаны с передачей семантического смысла, сохранением контекста, соблюдением стилевых норм и учётом культурных особенностей. При работе со сложными синтаксическими конструкциями и специализированной терминологией системы ИИ испытывают затруднения, что приводит к грамматическим ошибкам и смысловым искажениям. Для решения данных проблем необходимы развитие алгоритмических моделей, расширение баз данных и усиление взаимодействия человека и машины. Исследование также показывает, что ИИ применяется не только в переводе, но и в различных сферах цифровой экономики — интеллектуальном производстве, розничной торговле, финансах, здравоохранении, образовании и общественном управлении, повышая эффективность и качество услуг. Вместе с тем стремительное внедрение ИИ сопровождается этическими, правовыми и социальными вызовами. Поэтому наряду с технологическими инновациями особое значение приобретают разработка этических принципов и нормативно-правовых механизмов. Таким образом, применение искусственного интеллекта в сфере перевода и цифровой экономики обладает значительным потенциалом. Однако его реализация требует долгосрочных исследований, междисциплинарного сотрудничества и сохранения человекоориентированного подхода.

**R.I.Murtazayev**

**Development of artificial intelligence technologies in the digital world**

**Summary**

The article examines the application of artificial intelligence (AI) in the fields of translation and the digital economy. Although progress has been observed in machine translation, there are still significant limitations compared to human translation. The main challenges are related to conveying semantic meaning, preserving context, maintaining stylistic norms, and taking cultural differences into account. AI systems struggle with complex syntactic structures and specialized terminology, which often results in grammatical errors and semantic inconsistencies. Solving these problems requires the development of algorithmic models, the enrichment of data resources, and the strengthening of human–computer collaboration. The study also shows that AI is applied not only in translation but also in various sectors of the digital economy—such as smart manufacturing, retail, finance, healthcare, education, and public administration—enhancing efficiency and service quality. At the same time, the rapid adoption of AI raises ethical, legal, and social challenges. Therefore, alongside technological innovations, the development of ethical principles and regulatory mechanisms is of crucial importance. In conclusion, the wide application of artificial intelligence in translation and the digital economy has great potential. However, the realization of this potential requires long-term research, interdisciplinary collaboration, and the preservation of a human-centered approach.

**Redaksiyaya daxil olub:** 10.12.2025

***HƏRBİ PEDAQOGİKA***
***ВОЕННАЯ ПЕДАГОГИКА***
***MILITARY PEDAGOGY***

UOT 355.233

# AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ HƏRBİ TƏHSİLİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Mehriban Nağı qızı Sərdarova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin kiçik elmi işçisi*
**ORCİD:** 0009-0000-8876-7051
**E-mail:** mehribanserdarova@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.26

***Açar sözlər*:** milli hərbi təhsil, Heydər Əliyevin hərbi təhsil siyasəti, milli hərbi təhsil quruculuğu, milli hərbi kadr hazırlığı, milli ordu quruculuğu.

***Ключевые слова:*** национальное военное образование, политика Гейдара Алиева в сфере военного образования, формирование системы национального военного образования, подготовка национальных военных кадров, строительство национальной армии.

***Key words:*** national military education, Heydar Aliyev's military education policy, national military education construction, national military personnel training, national army construction.

Böyük tarixi rəqəmlər müstəvisində elə də böyük olmayan otuzillik müstəqillik tariximizdə Azərbaycanın dünyanın aparıcı güclərinə qarşı öz şərtlərini irəli sürməsi faktı müasir şanlı zəfər tarixinə imza atmasından qaynaqlanır. Xalqımızın qüdrətinin və milli qürurunun təntənəsinə çevrilən bu həqiqət, dahi öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, dövlət səviyyəsində həyata keçirilən inkişaf strategiyalarının mühüm tərkib hissəsi olan milli hərbi təhsil konsepsiyasının uğurla gerçəkləşdirilməsinin nəticəsidir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəfər Günü münasibətilə keçirilən tədbirlərdəki çıxış və nitqlərində dəmir intizamlı, bilikli, vətənpərvər, qəhrəman əsgər və zabitlərimizin yüksək milli ruhunu, peşəkar hazırlığını uzun illər sistemli şəkildə aparılan milli hərbi təhsil işinin nəticəsi kimi qiymətləndirir, Ulu Öndər Heydər Əliyevin qurduğu milli hərbi təhsil strategiyasına əsaslandığını vurğulayır [11; 13].

Heydər Əliyevin dövlətçilik ideyalarının elmi-nəzəri cəhətdən akademik təhlilində [10, s.36] göstərilir ki, dahi liderimizi səciyyələndirən cəhətlərdən biri dövlətçiliyin strateji əhəmiyyətli bütün sahələrini eyni zamanda, vəhdətdə formalaşdırmasıdır. Fəaliyyət proqramlarının birgə, iç-içə işləməsinin təmin edilməsi, bu istiqamətdə işlərin möhkəmləndirilməsi Heydər Əliyev quruculuğu nümunəsində tarixi, milli və beynəlxalq əhəmiyyət kəsb edən siyasi irsdir.

Bu baxımdan, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dönəmində respublikadan kənarda milli kadr hazırlığı sahəsində apardığı siyasətin mühüm istiqamətlərindən birini milli hərbi kadrların yetişdirilməsi tutur.

Əminliklə irəli sürmək olar ki, Ümummilli Liderin həmin illərdə təhsil strategiyasında müstəqil mövqeyə malik respublikadan kənarda təhsil siyasətinin içərisində milli hərbi kadrların yetişdirilməsi milli strateji hədəflərə malik bir proqram kimi çıxış edir.

Bu qənaəti Ulu Öndərin 1998-ci il 31 avqust tarixində 1970-ci ildən 1987-ci ilə kimi Azərbaycandan kənarda ali təhsil alan mütəxəssislərlə görüşündəki fikirləri [6, s.209-229] təsdiqləyir.

Respublika başçısı kimi Azərbaycanın gələcəyi qarşısında daşıdığı məsuliyyəti birinci növbədə təhsil məsələlərinə ciddi fikir verməklə izah edən Ulu Öndərin yüksək ixtisaslı milli kadrlar, milli hərbi kadrlar yetişdirmək siyasətində həm də Azərbaycan maarifçi ziyalılarının arzu və məqsədləri təzahür edirdi.

O illər hərbi təhsilin ilk dəfə olaraq Azərbaycan təhsil sisteminə daxil edilməsi, C. Naxçıvanski adına Hərbi Məktəbin yaradılması, uzun illər uğurla fəaliyyət göstərməsi, milli hərbi kadrların hazırlanması üçün tədris və hərbi ləvazimatlarla münbit şəraitin təmin edilməsi bu qəbildəndir.

Totalitar rejimin sərt məngənəsi, tarixi milli hərbi ideyalarımıza reqressiv münasibət şəraitində milli hərbi kadrların yetişdirilməsi, onların milli hərbi təhsil ideyaları ilə zənginləşdirilməsi xüsusi cəsarət və cürət tələb edirdi. Bu baxımdan 1971-ci ildə Azərbaycanda milli hərbi kadrlar yetişdirmək məqsədi ilə yaradılan general Cəmşid Naxçıvanski adına "Respublika ixtisaslaşdırılmış internat məktəbi" milli hərbi təhsil ideyaların canlandırılmasında, milli hərbi təhsil quruculuğunda Ulu Öndərin müstəsna xidmətlərindən biridir. Məktəbin yaradılmasından daha artıq fəaliyyətinə davam etdirməsi yolunda təzyiqlərə “sinə gərmək” bu xidmətin mühüm tərkib hissəsidir. Belə ki, Moskvadan ardı-arası kəsilmədən gələn komissiya təkidlə bildirirdi ki, Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş bu qərar Sovet ittifaqının qanunlarına ziddir, uyğun deyil və ləğv olunmalıdir. Təklif edirdilər ki, əgər gənclərinizi, yeniyetmələrinizi hərbi təhsilə cəlb etmək istəyirsinizsə, Suvorov adına, Naximov adına məktəblərə göndərin [4, s.471]. Lakin Heydər Əliyev “Məqsədə gedən yolda çox qurbanlar vermək olar; məqsədin özündən başqa!” [1, s.396] prinsipi ilə inadından dönmür və Moskvanı inandırırdı ki, bu məktəb adları çəkilən məktəbdən fərqli profillidir. Prinsipcə orta ümumtəhsil məktəb olmaqla yanaşı, əsas məqsəd gəncləri ali hərbi məktəblərə hazırlamaqdır. Burada kursantlar ümumtəhsil fənlərini öyrənməklə paralel hərbi iş sahəsində biliklərə də yiyələnir, möhkəm fiziki mətinlik əldə edirlər. Təlim-tərbiyə işi elə sistemlə qurulub ki, məktəbin kursantları ali hərbi məktəblərə qəbul imtahanlarını uğurla verib, onların kursantı ola bilsinlər. Ulu Öndər tərəfindən gətirilən dəlillərin ağlabatanlığı onunla nəticələndi ki, Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb fəaliyyətini nəinki dayandırdı, əksinə şan-şöhrəti bütün İttifaqa yayıldı, bundan nümunə götürülərək, digər respublikalarda da hərbi təmayüllü məktəblərin yaradılmasına səbəb oldu [4, s. 368-471].

Bu məktəbdə hər şeydən öncə tədris işinin məzmunu – milli hərbi təhsil ideyalarının aşılanması xüsusi diqqət çəkir. Heydər Əliyev özü başda olmaqla respublika rəhbərliyindəki səlahiyyətli şəxslərlə, veteranlar və görkəmli sərkərdələr ilə ildə bir neçə dəfə məktəbin qonağı olur, hərbi peşənin milli vətənpərvərlik tərbiyəsində yerinə dair çıxışlar edir, tövsiyələr verirdi. Heydər Əliyevə görə, torpağa bağlı, yurda etibarlı, vətənə sədaqətli olmayan vətəndaş heç vaxt yaxşı hərbçi ola bilməz. Buna görə də məktəbin rəhbərliyi və müəllimlərinin qarşısına bir sıra vəzifələr qoyurdu: əsl vətəndaş yetişdirmək xəttini ön plana çəkmək; hər şeydən öncə vətənpərvər, yurdsevər oğullar yetişdirmək; kursantların təlim-tərbiyəsi, dünyagörüşünün formalaşması, şəxsiyyət kimi yetişməsi üçün var qüvvə ilə çalışmaq və s.

Ulu Öndər yetişəcək milli hərbi kadrların da qarşısına vəzifələr qoymağı unutmurdu. Görüşlərdə dəfələrlə duydururdu ki, bu məktəbdə oxumaq, hərbi peşəyə hazırlaşmaq kimi böyük şərəf məhz onlara nəsib olub. Silahlı Qüvvələrin sıralarında bir azərbaycanlı olaraq hərbi kadr kimi, zabit kimi xidmət etməyin şərəfini və məsuliyyətini onlara duydurur, xalqın böyük etimadını doğrultmağı onların qarşısına vəzifə kimi qoyurdu.

Yuxarıda qeyd etdiyimiz kimi, o illərdən başlayan milli hərbi təhsil quruculuğu işi digər fəaliyyət proqramları ilə vəhdətdə, iç-içə inkişaf edib, möhkəmləndirilirdi. Heydər Əliyevin Azərbaycanda siyasi fəaliyyətə başladığı ilk günlərdən xalqımızın şanlı oğullarının təbliğində, onların adlarının əbədiləşdirilməsindəki mükəmməl fəaliyyəti milli hərbi təhsilin inkişafının tərkib hissəsi kimi çıxış edir. Həmin illərdə ölkəmizin bütün bölgələrində xalq qəhrəmanlarının, müharibə qurbanlarının şərəfinə abidə - komplekslərin ucaldılması, monumental ədəbiyyat və incəsənət əsərlərinin yaradılması, onlarla tarixi hərbi şöhrət muzeylərinin fəaliyyətə başlaması, Sovet İttifaqı Qəhrəmanlarına əzəmətli abidələrin ucaldılması, neçə-neçə hərbi sərkərdəyə həsr olunmuş yubiley mərasimlərinin təşkil edilməsi, qəhrəmanlıq dolu tarixi keçmişimizə, habelə əfsanəvi igidliklər göstərmiş ölməz qəhrəmanlarımıza həsr edilmiş filmlərin çəkilməsi və ən ümdəsi onların bu və ya digər dərəcədə geniş təbliğatı hədəfə götürən iş siyasəti idi.

Bütün bu kompleks işlərin nəticəsi idi ki, Ulu Öndər Heydər Əliyev 1981-ci ildə Naxçıvanski məktəbinin yaranmasının on ilinə həsr olunmuş tədbirdə azərbaycanlı gənclərin ali hərbi məktəblərə həvəsinin getdikcə artmasını, onların yüksək vətənpərvərliyini, hərb işinin möhkəmlənməsinə kömək etmək arzusunu dərin razılıq hissilə, fərəhlə qeyd edir və göstərirdi ki, indi ali hərbi məktəblərə hər il 300-400 azərbaycanlı oğlan qəbul edilir. *"İlk dəfə təyyarəçilik məktəblərinə gənclərin böyük bir qrupu göndərilmişdir. Bu işdə C.Naxçıvanski adına ixtisaslaşdırılmış internat-məktəbin xidməti az deyildir*" [12, s.108]. Heydər Əliyev SSRİ-nin 26 şəhərinin 47 ali hərbi məktəbində yüzlərlə azərbaycanlı balasının təhsillərini davam etdirərək milli hərbi kadr kimi yetişməsindən duyduğu qürur və razılığı müstəqillik illərimizdə də vurğulayır [4, s. 471].

28 may 1995-ci ildə Respublika Milli Qvardiyasının qərargahında Azərbaycanın Milli Qəhrəmanı Əfqan Hüseynovun büstünün açılışı mərasimində Heydər Əliyev milli qəhrəmanın çox böyük və şərəfli yolunun "*Azərbaycanda yaranan və bu gün bizim üçün daha böyük əhəmiyyətli olan C.Naxçıvanski adına hərbi məktəb*"dən [4, s.469] başlamasını, milli ordumuzun yaranmasında bu məktəbin əhəmiyyətli yerini xüsusi vurğulayır. Milli ordumuzun milli hərbi təhsildən nəşət tapmasını böyük iftixar hissi ilə qeyd edir.

Göstərir ki, 25 il bundan öncə Azərbaycanda əvvəllər heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında irəli sürdüyü fikri, həyatında gördüyü işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özü də çox yüksək qiymətləndirir [4, s.470].

Tədqiqatın obyektindən kənara çıxmamaqla Heydər Əliyevin siyasi fəaliyyətinin I dövründə Azərbaycanda milli hərbi təhsilinin inkişafındakı məqamlara ekskurs etməkdə məqsəd həmin dövrün II dövr fəaliyyətin şərti olmasını əsaslandırmaqdan ibarətdir. Təsadüfi deyildir ki, Ümummilli Liderin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbirdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bu faktlardan bəhs edərək göstərir ki, müstəqil ölkəmizin inkişafının, dünya iqtisadiyyatına nüfuzedici inteqrasiyası proseslərinin indiki möhkəm təməli Heydər Əliyev tərəfindən məhz həmin illərdə yaradılmış potensiala əsaslanır [9].

Qeyd olunmalıdır ki, Ulu Öndərin tarixi "respublikadankənar təhsil siyasəti" ilə keçmiş İttifaqa daxil olan respublikalarda təhsil almağa gedən, orada yaşayan, ixtisasları üzrə pillə-pillə yüksək hərbi rütbələrə yüksələn milli kadrlar Qarabağ münaqişəsi başlayanda vəzifə kürsülərini tərəddüd etmədən döyüş səngərinə dəyişdilər. Vətənimiz naminə öz canlarını fəda etməkdən çəkinməyən, şəhidlik zirvəsinə ucalan, içlərində dövlətimizin milli qəhrəmanı adına layiq görülən onlarla bu kimi milli zabitlərimizin dövlətçilik sevgisi bilavasitə Ulu Öndərin hələ 1970-ci illərdə bünövrəsini qoyduğu milli hərbi strategiyanın nəticəsi kimi qiymətləndirilməlidir. Təəssüf ki, 1990-cı illərin əvvəllərindəki arzuolunmaz böhranlı məqamlar bu sistemin də işinə ciddi zərbələr vurdu, bu sahədəki özbaşınalıq hərbi kadrlar yetişdirmək siyasətinin əvvəlki simasını itirməsi ilə nəticələndi.

Bu sahədəki böhranın ağır xarakterik tərəfləri kimi orduya dövlət rəhbərliyinin təmin edilməməsini, milli hərbi kadr yetişdirməklə müşayiət olunan ordu quruculuğu ilə bağlı dövlətin aydın proqramının olmamasını, dövlət və ordunun bir-birindən ayrı düşməsini, ordunun siyasi işlərə cəlb edilməsini, ordu daxilində özbaşınalıq və qanunsuzluğun hökm sürməsini, orduya vahid komandanlığın təmin edilməməsini, ordunun döyüş qabiliyyətinin zəruri tələblərə cavab verməməsini və s. göstərmək olar [14, s.7-8]. Bütün bu nöqsanlar cəmiyyətdə hərbi işinə, orduya inamsız münasibət formalaşdırmış, bədbin əhval-ruhiyyə yaratmışdı. Artan qeyri-sabitlik bu sahədə hər hansı bir ümidli proqnozun varlığını şübhə altına qoyurdu.

Belə bir məqamda Azərbaycanda hərb işinin, ordunun inkişaf etməsini, möhkəmlənməsini dövlətimizin və xalqımızın ən əsas vəzifəsi hesab edən Ümummilli Lider Azərbaycanın milli ordusunun yaranması, təşkil olunması və onun müasir tələblərə uyğun hazırlanmasını ehtiva edən milli ordu quruculuğu strategiyasını milli hərbi təhsil strategiyası ilə vəhdətdə aparır, konkret istiqamətlər, prinsiplər, məqsəd və vəzifələr, hüquqi və normativ əsaslar müəyyənləşdirirdi.

Müstəqillik illərində Azərbaycan milli hərbi təhsilinin inkişafı vəhdətdə həyata keçirilməsinin təmin edildiyi iki istiqamətdən ibarətdir. Ona görə də Heydər Əliyevin milli hərbi təhsillə bağlı xidmətlərini burada iki istiqamətdə təhlil etmək məqsədəuyğundur:

1. Heydər Əliyevin döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi, intellektual potensialın möhkəmləndirilməsi ilə müşayiət olunan milli hərbi tərbiyə və təhsilə dair nəzəri görüşləri;

2. Heydər Əliyevin milli hərbi təhsil quruculuğunun ahəngdar inkişafı yolunda gördüyü işlər.

I istiqamətdə işə milli hərbi tarixi təfəkkürün oyadılması, milli hərbi ruhun dirçəldilməsi, milli hərb tariximizin öyrənilməsi və s. daxildir. Bu məsələlərə xüsusi önəm verən Heydər Əliyev üçün hərbi təhsilin inkişafı həm də tariximizin, mənəviyyatımızın bir hissəsidir. Milli hərbi tariximizin öyrənilməsi həm də yalnız üzü keçmişə bir səyahət deyil, xalqın öz həqiqi, həm də qəhrəmanlıq və şücaət dolu keçmişini dərindən öyrənib gələcəyə hazırlıqlı getməsi üçün bir istiqamət, hədəfdir. Bu mənada uzaqgörən rəhbər Heydər Əliyevin milli hərb tariximizin canlandırılması ilə bağlı yeritdiyi siyasət – Azərbaycan xalqının tarixi igidlik ənənələrinin güclü olmasını Azərbaycan cəmiyyətinə yenidən qəbul etdirmək, bu torpaqlarda əsrlərin yaddaşını özündə saxlayan tarixi-mədəni dəyərlərə, milli-mənəvi sərvətlərə sahib çıxmaq yolu ilə milli mənlik duyğularının hər səviyyədə olan Azərbaycan vətəndaşının düşüncəsində canlanmasına göstərdiyi qayğı ilə təzahür edir.

Ulu Öndərin I istiqamətdə fəaliyyətində ilk yeri prezident kimi fəaliyyətə başlayandan (3 oktyabr 1993-cü il) bir ay sonra 1993-cü il noyabrın 2-də xalqa müraciəti tutur [2, s.148-155]. Bu çıxışda bir çoxlarında vətənpərvərlik hissinin kütləşməsini, mənəviyyatın pozulmasını, "ölsəm də, öz torpağımda şəhid olum" hissinin itirilməsini Ulu Öndər təəssüflə və həyəcan hissi ilə son illərdə gedən mənfi proseslərlə bağlayır, qəhrəman, mətanətli, cəsarətli Azərbaycan xalqının belə ağır, çətin vəziyyətə düçar edilməsinin günahını son illərdə ölkəyə rəhbərlik edən adamlarda görür. Azərbaycanlıların igid, mərd xalq olduğunu dönə-dönə xatırladır, bu vəziyyətdən çıxmaq üçün Azərbaycan xalqının qüdrəti və imkanlarının olduğunu bəyan edir. Vətəndaşların, cəmiyyət üzvlərinin yenilməzlik ruhunu təşkilatlandırmaq, yeni istiqamət vermək, onların mənəvi potensialını üzə çıxarmaq üçün Ulu Öndərin istinad etdiyi, vurğuladığı imkanlardan ən qiymətlisi xalqımızın hərb və qəhrəmanlıq tarixi idi.

1993-2003-cü illər ərzində Heydər Əliyev ən müxtəlif səviyyəli auditoriyalarda milli hərbi vətənpərvərlik duyğusunun gücləndirilməsi ilə, hərb və qəhrəmanlıq tariximizə ekskurslar etməklə milli hərbi təhsil strategiyasının nəzəri əsasları hesab edilən fikirlər, çıxış və nitqlər, məruzələr söyləmişdir.

Müstəqil Azərbaycanda milli hərbi təhsil quruculuğunun araşdırılmasından aydın olur ki, milli hərbi ruhun yüksəldilməsi ilə xarakterizə olunan I istiqamətdəki proqram xarakterli vəzifələr Heydər Əliyevin təhsil işçiləri, gənclər, kursantlar, ali hərbi məktəb tələbələri və müdavimləri ilə görüşlərində müəyyənləşdirilmişdir.

31 avqust 1994-cü il Heydər Əliyevin təhsil işçiləri ilə görüşündə [3, s.169-181] gənclərin milli hərbi ruhunu dirçəltməyi, milli hərbi vətənpərvərlik duyğusunu oyadıb, inkişaf etdirməyi məktəbin, müəllimlərin qarşısında başlıca vəzifə kimi qoyur, "*xalqımızı, gəncləri vətənpərvərlik, Vətənə sədaqət ruhunda tərbiyə etmək üçün orta məktəblərdə çox iş görülməlidir*" [3, s.179] göstərişini verir. Bu sıralamada xalqın adının çəkilməsi Heydər Əliyev nitqində təsadüfi ola bilməz, orta məktəbin, ümumi təhsilin, müəllimin məsul olduğu vəzifəsinin obyektini göstərir.

Bu görüşdə Heydər Əliyev milli təhsil konsepsiyasının ideologiyasını formalaşdırmaqla bağlı konkret tövsiyələrində milli hərbi təhsilin yerinin gənclərdə vətənpərvərlik hissini tərbiyə etməkdə görür. Ümumi təhsillə həyata keçirilən milli hərbi təhsilin bir tərəfdən, hərbi biliklərin tədrisinə, gənclərin fiziki cəhətdən mükəmməl hazırlığına, idmana ciddi münasibət göstərməsinə imkan yaratmaqda görür, digər tərəfdən isə, gənclərin milli hərbi vətənpərvərlik hissini yüksəltmək, onları Vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etməklə bağlı olduğunu əsaslandırır, müəllimlərin qarşısında ciddi vəzifələr müəyyənləşdirir [3, s.179].

Ölkəmizin milli hərbi təhsil konsepsiyasının yaradılması, məzmununun müəyyənləşdirilməsi, gənclərin – müstəqil Azərbaycan gənclərinin hərbi işə, ordu quruculuğuna azərbaycançılıq ideologiyası çərçivəsində münasibətinin formalaşmasında, habelə ibtidai təhsildən başalyaraq, təhsilin sonrakı üstün pillələrində hərbi vətənpərvərlik tərbiyəsinin gənclərin fiziki hazırlığı ilə kontekstdə ordu quruculuğundakı yeri, bunların milli hərbi təhsil strategiyamızdakı mühüm rolu, başlıca vəzifələri və digər məsələlər Heydər Əliyevin 2 fevral 1996-cı ildə Azərbaycan Respublikası gənclərinin Birinci Forumundakı nitqində [5, s.303-324], milli hərbi təhsil proqramı kimi müəyyənləşməklə İslahat Proqramında milli hərbi təhsilin islahatı ilə bağlı müddəaların nəzəri-hüquqi əsası rolunu oynayır. Forumdakı çıxışında Heydər Əliyev müasir Azərbaycan gəncliyinin müstəqil Azərbaycanın gələcəyindəki yerindən, rolundan əminliyini xüsusi diqqətə çəkir. Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılması

məsələlərini ardıcıl, geniş şərh edərək gənclər qarşısında mühüm vəzifələr qoyur. Eyni zamanda gənclərin səmərəli fəaliyyəti, yaşayışı, gələcəyi üçün vacib olan problemlərin həll olunmasında Azərbaycan hakimiyyəti orqanlarının, dövlət və güc orqanlarının, bütün başqa təşkilatların bu məsələlərə diqqətinin artırılmasını səlahiyyətli şəxslərin qarşısında vəzifə kimi qoyur: "*Onların hamısı buraya ona görə dəvət olunub ki, gənclərin problemlərini bilavasitə eşidib, dinləyib, hiss edib, hərə öz imkanı daxilində bunların həll olunması üçün tədbirlər görsün. Bunu mən respublikanın hakimiyyət orqanları qarşısında, konkret vəzifə kimi qoyuram*" [5, s. 320]

Ümumiyyətlə, 1993-cü ildən başlayaraq hərbi quruculuq, ordu quruculuğu, dövlətin və hər bir vətəndaşın üzərinə düşən vəzifələri, qarşıda duran vəzifələri, ordunun labüdlüyünü, ordu işində milli hərbi təhsilin yerini, müəllimlərin, təhsil sahəsində çalışan mütəxəssislərin, hərbi məktəblərin, hərbi mütəxəssislərin görməli olduğu zəruri işləri Heydər Əliyev çıxışlarında təcrübəli pedaqoq kimi pedaqoji üsul olan inandırmanın bütün vasitələri ilə gəncləri vacib olana, ən ümdə olana səfərbər edir.

Bütün bunları bir müstəviyə gətirməkdə məqsəd isə milli hərbi təhsilin bütün istiqamətləri üzrə gənclərimizin ilk növbədə mükəmməl təhsil almasının, bu sahədə bilik və bacarıqlarının müasir tələblər səviyyəsinə çatdırılmasının başlıca tələb kimi qarşıya vəzifə qoyulması idi.

Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin onillik prezidentlik fəaliyyəti dövründə müxtəlif səviyyəli görüş və tədbirlərdəki çıxışlarında milli hərbi təhsilin gücləndirilməsinin bütün resurslardan istifadə edilərək əsaslandırılması özünü aydın göstərir.

Ulu Öndərin geniş, əhatəli, dərin məzmunlu çıxış və nitqlərində milli hərbi təfəkkürün tərbiyə edilməsi, milli hərbi hissin dirçəldilməsi ilə bağlı əsas tövsiyələrini yığcam şəkildə belə ümumiləşdirmək olar:

— əsas vəzifələrdən biri orduya onun tarixi keçmişini tanıtmaqdır;

— Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq, mərdlik ənənələri müstəqil Azərbaycan dövlətində yenidən yüksəlməli və canlanmalıdır;

— orta əsrlərdə Azərbaycan türklərinin yaratdığı imperiyalar onların malik olduğu hərb işinin yüksək zirvəsi ilə əldə edilmişdir;

— qüdrətli olması həmişə diqqət mərkəzində dayanan Azərbaycan xalqının qədim, zəngin dövlətçilik tarixi onun hərb tarixidir;

— keçmiş dövrlərdə güclü ordu yaratmağa qabil olan Azərbaycan xalqı hətta müstəqil olmadığı halda da, başqa dövlətin tərkibində, yaxud başqa bir rejimdə yaşadığı zamanda da yenə hərbi peşəni mənimsəməyə çalışıb və çox gözəl nümunələr göstərib;

— Azərbaycan xalqının tarixi dövlətçiliyin və ərazi hüdudlarının qorunmasını tarix boyu xalqın qarşısında dayanan çox ciddi vəzifələrdən biri olduğunu göstərir;

— qəhrəmanlıq tarixinin və ənənələrininn öyrənilməsi Azərbaycanın hər bir əsgərinin və zabitinin dünyagörüşünü, hərbi təfəkkürünü genişləndirməklə, Vətən qarşısındakı xidməti vəzifəsinə şüurlu münasibətinin zəruri tərəfidir;

— Azərbaycan xalqının bu günkü hərbi həyatının XIX-XX əsrlərdə formalaşmış hərbi irsimizlə canlı əlaqəsi vardır;

— həmin irsin düzgün öyrənilməsi, onun tarixindən əldə edilmiş qənaətlərə yaradıcı yanaşılması Azərbaycanın müasir hərb quruculuğunun uğurlarına zəmin yaratmaqla gənc nəslin ilham və inam mənbəyinə çevrilə bilər;

— Azərbaycanın minlərlə igid oğulların igidlikləri gənclərimiz üçün nümunə olmalı, onlar

öz ata-babalarının qəhrəmanlıq tarixini yaxşı öyrənməli, bundan nəticələr çıxarmalı və öz əsgəri, hərbi fəaliyyətlərində istifadə etməlidir;

— II dünya müharibəsində azərbaycanlılardan ibarət diviziyaların təşkili milli hərbi təfəkkürün inkişafında mühüm bir hadisə olmaqla, bu diviziyaların xidmət yolu azərbaycanlıların hərbi qabiliyyətinin və istedadının daha bir ifadəsidir;

— azərbaycanlılardan ibarət diviziyaların keçdiyi yol Azərbaycan xalqının hərbi peşəyə bağlı və hərbi peşə kimi bir peşəyə yiyələnməyə qadir olduğunu əyani göstəricisidir;

— Həzi Aslanov kimi oğulların həyat yolu, İkinci Dünya müharibəsində xidmətləri xüsusən, müstəqil Azərbaycanın indiki vaxtında, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın təcavüzə məruz qaldığı bir vaxtda Azərbaycan xalqı üçün, ordumuz üçün, gənclərimiz üçün böyük örnəkdir, nümunədir.

Göründüyü kimi, Azərbaycan xalqının hərb meydanında yaratdığı qəhrəmanlıqlardan böyük qürur keçirdiyini bəyan edən Ümummilli Lider eyni zamanda xalqın hərbi irsinin nəsillərə nümunə olduğunu və nəsillər tərəfindən öyrənilməli olduğunu bütün çıxışlarında dönə-dönə qeyd edir. Heydər Əliyev də belə bir irsin düzgün qiymətləndirilməsini və ondan ibrət götürülməsini bütün cəmiyyətə təlqin edirdi.

Bütün bu göstəricilər cəsarətlə deməyə əsas verir ki, Heydər Əliyevin milli hərbi təhsil strategiyası milli hərbi təhsillə milli ordu quruculuğunun vəhdətindən ibarətdir.

Heydər Əliyevin Azərbaycan Respublikasında 1993-2003-ci illəri əhatə edən nəhəng hərbi irsinin təhlili göstərir ki, ordu quruculuğunun mühüm tərkibi olan hərbi təhsil, hərbi mütəxəssislərin hazırlanması məsələlərinə dair konkret təklif-tövsiyələri qarşıdakı illərdə bu sahə üzrə görüləcək işlərin nəzəri müddəalarını, hərbi təhsilin hansı prinsiplər üzərində qurulmasının ideoloji əsaslarını müəyyən edir. Heydər Əliyevin 1993-cü ildən başlayaraq praktik cəhətdən ön xəttə səfər etməsi, döyüşçülərimizlə səngərdə görüşməsi, onları döyüşə ruhlandırması, atəşkəsdən sonrakı dövrdə Azərbaycanda nizami, müasir səviyyəli ordunun qurulması prosesinə inamla start verməsi, digər tərəfdən də müxtəlif görüş və forumlarda çıxışları hərbi təhsil nəzəriyyəsi, hərbi təhsilin məzmunu, hərbi təhsilin milli tərəqqidə rolu və mahiyyəti, hərbi milli ideologiyanın və onun prinsiplərinin azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi, milli hərbi tədris müəssisələrində tədrisi, milli hərbi atributların əsas dövlət atributlarının tərkib hissəsi kimi də, xüsusi hal kimi də təbliği, öyrənilməsi yollarına dair nəzəri görüşləri milli hərbi təhsil tariximizdə, həm də milli hərbi təhsil strategiyamızın müəyyənləşməsində müstəsna yeri vardır.

Heydər Əliyevin II istiqamətdə gördüyü işlərə milli zabit kadr hazırlığı prosesinin təkmilləşdirilməsi üçün on il ərzində verilən fərman və sərəncamlar, əlaqədar nazirliklərin verdiyi əmrlər, milli hərbi kadrların hazırlanması sahəsində həyata keçirilən mühüm tədbirlər və s. daxildir.

Hər bir fərman və sərəncamın məzmununa daxil olan məsələlər milli hərbi təhsil strategiyasının mühüm tərkib hissəsini təşkil edir. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 20 fevral 1999-cu il tarixli fərmanı ilə yaradılan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının məqsəd və vəzifələrinə diqqət edək. Bu akademiyanın hərbi-elmi işçilərin hazırlanmasını, onların ixtisasının artırılmasını, hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını və dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə respublikanın müdafiəsi ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsini təmin etmək məqsədi ilə yaradılması hərb işinin elm səviyyəsində öyrənilməsində tamamlayıcı bir addım olmaqla on il ərzində milli hərbi təhsil strategiyasının bütöv bir mənzərəsini yaradır.

Qeyd edilməlidir ki, Heydər Əliyevin milli hərbi təhsilin inkişafı ilə bağlı I və II istiqamətdə gördüyü işlər ayrı-ayrılıqda deyil, vəhdətdə, bir-biri ilə ayrılmaz şəkildə həyata keçirilir. Məsələn, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 25 illiyinin keçirilməsi haqqında Sərəncamda bu liseyin hərbi kadrlar hazırlaması sahəsində böyük xidmətlərindən bəhs edilməsi ilə yubileyinin təntənəli şəkildə qeyd edilməsi üçün tədbirlər planının hazırlanıb həyat keçirilməsi Ulu Öndərin bu sahədə I istiqamətdə işinin məntiqi davamıdır. Yaxud, 27 iyul 2002-ci il tarixində Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdə Heydər Əliyevin çıxışında onun fəaliyyətində bu iki istiqamətdə işin iç-içə olması bəyan edilir: *"Şadam ki, bu il Azərbaycanın Silahlı Qüvvələri yeni bir gənc zabit dəstəsi aldı. Deməli, ordumuz təzələnir. Ordumuza yeni nəsillər, zabit nəsilləri sistemli olaraq gəlir. Bunların hamısı bizim ordumuzu ilbəil gücləndirir, onun qüdrətini artırır... Deməli, son ildə Azərbaycanda ordu quruculuğunu daha da yüksək səviyyədə təşkil etmək, Azərbaycanın Silahlı Qüvvələrini müasir tələblərlə hazırlanmış, bilik almış zabitlərlə təmin etmək arzularımız, niyyətlərimiz, proqramlarımız artıq həyata keçirilir. Bu sistem artıq gedir və gedəcəkdir. İlbəil bundan da artıq davam edəcəkdir. Bax, bunlara görə mən sizinlə birlikdə böyük sevinc hissi keçirirəm"* [8. s.157-168].

Ali hərbi məktəblərdə təhsil sisteminin yaxşılaşdırılmasını, peşəkarlığın artırılmasını, sağlam mənəvi mühitin yaradılmasını zabitlər qarşısında müqəddəs vəzifə qoyan Ulu Öndər hər bir hərbi təhsil müəssisəsinin gələcək uğurlarına böyük ümidlər bəslədiyini, qürur və şadlıq duyğularını gizlətmirdi.

Tədqiqat işinin verdiyi imkan dairəsində fikrimizə yekun vuraraq qeyd edə bilərik ki, 1993-2003-cü illərdə hərbi təhsilin yenidən, əsaslı şəkildə, milli təhsil meyarlarına uyğun qurulması, hərbi təhsil sahəsində özünəməxsus istiqamətlərlə, prinsiplərlə, vəzifə və məqsədlərlə, hüquqi və normativ əsaslarla müəyyənləşməsi, Azərbaycan ordusunun Azərbaycanın müstəqilliyinin dəyərli reallıqlarından birinə çevirilməsi Heydər Əliyevin milli hərbi təhsil strategiyasının həyata keçirilməsinin nəticəsidir.

**Problemin aktuallığı.** Heydər Əliyevin dövlətçilik ideyalarının tərkib hissəsi olan milli hərbi təhsil ideyaları daim aktualdır və müstəqil Azərbaycan dövlətinin milli hərbi strategiyasının təməl prinsipləridir. Bu prinsiplər dövlətimizin davamlı milli təhlükəsizliyinin, müstəqilliyinin qorunmasında, möhkəmləndirilməsində aparıcı mövqeyə malikdir.

**Problemin elmi yeniliyi.** Məqalədə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasında milli hərbi təhsil quruculuğunun milli ordu quruculuğu ilə vəhdətdə inkişaf etdirib, möhkəmləndirməsi tədqiq edilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə Ulu Öndər Heydər Əliyevin milli hərbi təhsil irsinin öyrənilməsi və öyrədilməsi baxımından əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Əbu Turxanın hikmət dünyası. Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında. – Bakı: Çaşıoğlu, – 2012. – 524 s.

2. Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 1. – 1997. – 606 s.

3. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 2. – 1997. – 601 s.
4. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 3. – 1997. – 488 s.
5. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 5. – 1998. – 499 s.
6. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 17. – 2005. – 528 s.
7. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 44. – 2013. – 376 s.
8. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, – c. 43. – 2013. – 464 s.
9. Əliyev, İ.H. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş mərasimdə Azərbaycan Respublikası Prezidentinin nitqi. https://president.az/az/articles/view/28485
10. Xəlilov, S.S. Lider, Dövlət, Cəmiyyət / S.S.Xəlilov. – Bakı: Azərbaycan Universiteti, – 2001. – 358 s.
11. İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə çıxışı. https://president.az/az/articles/view/57801
12. Qurbani, A. Heydər Əliyev və Azərbaycan ordusu / A. Qurbani. – Bakı: Əbilov, Zeynalov və oğulları. – 2002. – s. 392
13. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı https://diaspor.gov.az/az/page/prezident-ilham-eliyevin-dunya-azerbaycanlilarinin-v-qurultayinda-cixisi-36
14. Süleymanov, M. Azərbaycan ordusunun tarixi / M.Süleymanov. V cild, – Bakı: Maarif, – 2019. – 784 səh.

**M.N.Sərdarova**

**Azərbaycan Respublikasında milli hərbi təhsilin inkişaflında Heydər Əliyevin rolu**

**Xülasə**

Məqalədə Ulu Öndər Heydər Əliyevin milli hərbi təhsilin inkişafı istiqamətində gördüyü işlərdən, həyata keçirdiyi tədbirlərdən bəhs edilir. Araşdırmalar göstərir ki, əcdadlarımızdan miras qalan milli hərbi təhsil ideyalarının Sovet ideologiyasının reqressiv təsirlərindən azad edilməsi, canlandırılıb yaşadılması, inkişaf etdirilməsi, eyni zamanda zənginləşdirilməsi Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin nəinki təhsil siyasətində, ümumiyyətlə dövlət quruculuğu strategiyasında xüsusi bir konsepsiya təşkil edən milli hərbi təhsil konsepsiyası millətimizin, dövlətimizin müstəqilliyinin təmin edilməsinin fundamental əsası olmaqla yanaşı, eyni zamanda strateji hədəfdəki prioritetlərin mühüm parametri qismində çıxış edir.

**М.Н.Сардарова**

**Роль Гейдара Алиева в развитии национального военного образования в Азербайджанской Республике**
**Резюме**

В статье рассматриваются деятельность и меры, предпринятые Общенациональным Лидером Гейдаром Алиевым в направлении развития национального военного образования. Исследования показывают, что освобождение, возрождение, сохранение, развитие и обогащение идей национального военного образования, унаследованных от наших предков, от регрессивного влияния советской идеологии связано с именем Гейдара Алиева.

Концепция национального военного образования, составляющая особую основу не только образовательной политики Гейдара Алиева, но и в целом стратегии государственного строительства, является фундаментальной базой обеспечения независимости нашего государства и народа, а также выступает важным параметром при определении стратегических приоритетов.

**M.N.Sardarova**

**The role of Heydar Aliyev in the development of national military education in the Republic of Azerbaijan**
**Summary**

The article discusses the work and measures taken by the Great Leader Heydar Aliyev in the development of national military education. Studies show that the liberation, revival, development, and enrichment of the ideas of national military education inherited from our ancestors from the regressive effects of Soviet ideology are associated with the name of Heydar Aliyev.

The concept of national military education, which constitutes a special concept not only in educational policy but also in the state-building strategy in general, is not only the fundamental basis for ensuring the independence of our nation and state, but also acts as an important parameter of the priorities in the strategic goal.

**Redaksiyaya daxil olub:** 06.11.2025

*UOT 355.233*

# HƏRBİ TERMİNLƏRİN ETİMOLOGİYASI

**Ramilə Bəbir qızı Alışova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
**ORCİD:** 0009-0009-1052-459X
**E-mail:** alishovaramila@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.27

***Açar sözlər:*** *termin, tarix, alınmalar, mədəniyyət, etimologiya*
***Ключевые слова:*** *термин, история, заимствования, культура, этимология*
***Key words:*** *term, history, borrowings, culture, etymology*

Bəşəriyyət öz mövcudluğu və inkişafı dövründə müxtəlif müharibələr və hərbi münaqişələrlə üzləşmiş və müxtəlif taktika və strategiyalardan istifadə etməklə bu münaqişələrin öhdəsindən gəlməyə çalışmışdır.

Müasir dünyada hərbin rolunun getdikcə artmasına və mühüm əhəmiyyət kəsb etməsinə səbəb dünyanın müxtəlif yerlərində baş verən saysız-hesabsız müharibələr, silahlı münaqişələr və hərbi müdaxilələrdir. Hal-hazırki Rusiya-Ukrayna, Fələstin-İzrail müharibəsi, Hindistan-Pakistan, Israil-Iran və Azərbaycan-Ermənistan münaqişəsi buna bariz nümunədir.

Müharibə sivilizasiyanın özü kimi qədimdir, amma müharibəni təsvir etmək üçün işlətdiyimiz dil isə əsrlərlədir ki, müxtəlif qitələr, imperiyalarda hər bir xalqın mədəniyyətinə uyğun olaraq dəyişir və inkişaf edir.

Hər bir dövlətin və dilin inkişafında onun keçdiyi tarixi inkişaf mərhələləri böyük rol oynayır. Tarix boyu baş verən işğallar, əsarətlər, digər xalqlarla olan yaxınlaşmalar dilin müxtəlif sahələrində özünü hər zaman göstərmişdir. Bundan ən çox yararlanan isə terminlərdir.Termin latın sözü "terminus-term" sözündən yaranıb, mənası "son hədd, sərhəd" deməkdir və elm, texnika, siyasət və mədəniyyətə aid xüsusiləşmiş mənalı söz və ifadələrdir [16]. Bu cür xüsusiləşmiş söz və ifadələr müəyyən elm və ya texnologiyaya aid konseptləri adlandırmaq üçün işlənir. Elm və texnologiya inkişaf etdikcə dildə onlara aid olan sözlərin yaranması bu sözlərin sistemləşdirilməsi və xüsusi terminoloji lüğətlərdə cəmləşdirilərək mənalarının verilməsi, hətta digər dillərdə qarşılığını vermək zərurətini yaradır. Terminlərin terminoloji lüğətlərdə toplanması və sistemləşdirilməsi dövlətin dil siyasətinin tərkib hissəsi olmaqla yanaşı, həm də beynəlxalq əhəmiyyət kəsb edir. Terminlərin aid olduğu elm sahələrindən biri hesab olunan hərb sahəsi də "həyat" və "ölüm" konseptlərini özündə birləşdirir və hücum, müdafiə xarakterli silah növlərini və ya rütbələri hərtərəfli göstərməyə imkan verir. *Sword-qılınc, shield-qalxan, arrow-ox, bow-kaman , spear-nizə , chariot-döyüş arabası, army-ordu,sergeant-çavuş,captain –kapitan,warrant officer 1(class1)-baş gizir, warrant officer 2(class2)- gizir,lieutenant-leytnant, platoon-taqım, company-bölük, regiment-polk; alay, Army Aviation Corps(provides air support to ground forces)-Hərbi Aviasiya Korpusu, armoured fighting vehicles-zirehli döyüş sursatları* kimi qədim və müasir silah növləri və rütbələrin adları buna misal ola bilər.

Latın legionlarından müasir xüsusi hərbi qüvvələrədək hərbi terminologiyanın formalaşmasında mədəniyyətlərarası əlaqə, texnoloji innovasiyalar və strategiyaların dəyişməsi mühüm rol oynamışdır. Hərbi terminlərin etimologiyasının tədqiqi nəinki onların tarixi köklərini, həm də

dilin hərb sənətinin tarixi inkişafını bir güzgü kimi əks etdirməyə, bütün reallığı təfərrüatı ilə göstərməyə imkan verir.

Yuxarıda verilmiş nümunələrdən də gördüyümüz kimi hərbi terminlər müəyyən məna qruplarına bölünür və zaman keçdikcə hərbi sənaye inkişaf edir, dillərdə yeni terminlər yaranır. Bunun nəticəsində hərbi terminləri 7 qrupa ayırmaq olar:

1) Qoşun növü və hərbi hissə adları;
2) Əsgəri rütbə və hərbi peşə-sənət adları;
3) Hərbi təyinatlı yer adları;
4) Hərbi geyim və digər döyüş ləvazimatlarının adları;
5) Silah və silah hissələrinin adları;
6) Hərbi əməliyyatları və əks tərəfi bildirən adlar;
7) Döyüş texnikası və qurğu adları [2, s.311].

Həm Azərbaycan, həm də ingilis dillərində istifadə olunan hərbi terminlər müəyyən etimoloji tarixə malikdir, yəni müəyyən tarixi mərhələlərdən keçmiş və zaman ərzində inkişaf edərək təkmilləşib və ya tamamilə dəyişikliyə uğramışdır. Siyasi vəziyyətlərdə dəyişikliklər nəticəsində hər iki dilə yeni hərbi terminlər daxil olmuşdur.

Bəzi qədim rütbə və silah növlərini buna misal göstərmək olar :

*"infantry*"-sözü latın sözü olan "*infans*" sözündən yaranıb ki, onun da mənası "danışa bilməmək (unable to speak) və ya "uşaq" (child) mənasını ifadə edirdi. Orta əsrlərdə latın dilində *"infanteria*" piyada əsgərlərə, piyada qoşunlara (foot soldiers) istinadən işlədilirdi və bu rütbə süvari(cavalry) qoşunlara nisbətən aşağı rütbə hesab olunurdu. Bu onu göstərirdi ki, bu cavan və öz fikirlərini ifadə etmək üçün qanuni hüquqları olmayan insanlar at belindəki cəngavərlərin malik olduqları yüksək hüquqlara malik deyildilər. İllər ötdükcə "infantry" sözü məna dəyişikliyinə uğrayır və hal-hazırda "*quru qoşunlar"(ground troops)* adı altında müasir ordunun əsasını təşkil edir [15].

"*cavalry"* sözü "*infantry*" sözünün əksinə olaraq cəmiyyətdə yüksək rütbəli insanlara aid olaraq işlənirdi.Onun tarixi kökü İtalian sözü"*cavelleria*" olub "at" (horse) mənasını verən "*cavallo*" sözündən yaranıb. Bu sözün mənası isə "pack horse"(at ilxısı) mənasını verən latın mənşəli "caballus" sözünün məna xüsusiyyətlərini əks etdirir.

Süvari qoşunları ənənəvi olaraq at belindəki əsgərlərdən təşkil olunurdu və bunlara elit: varlı, zədagan, yaxşı təhsil almış, yaxşı hərbi hazırlıqlı qüvvələr kimi baxırdılar. Aparılan araşdırmalar bir maraqlı faktı aşkar edir ki, "cəngavər" (knight) mənasını verən Fransız sözü "chevalier" və "gentleman" mənasını verən İspan sözü "caballero" sözləri bu sözün ifadə etdiyi tarixi mənaları əks etdirir və süvarilik(horsemanship) və sosial status arasında güclü bir əlaqə olduğunu göstərir [12].

— Hal-hazırda bu söz müasir hərb sahəsində "zirehli qoşun növləri" kimi işlənir, yəni "a group of soldiers in an army who fight in tanks" [17].

Hələ qədim dövrlərdə insanlar yaşayışlarını təmin etmək, yəni hər hansı heyvanı və quşları ovlamaq üçün və düşməndən müdafiələrini təmin etmək üçün ağac və daşdan istifadə etməklə ilk sadə silah növlərini düzəldirlər. Amma qısa zaman çərçivəsində insanlar bu silahların təkmilləşməsi yollarını fikirləşir, onların daha öldürücü olması üçün yonmağı qərar alırlar. Bunları nizə (spears) və digər iti uclu silahlara çevirirlər ki, bunlar da düşmən və rəqibləri darmadağın və məhv etmək üçün ən yaxşı silahlar hesab olunurdu. Silahların təkmilləşməsində digər addım

taxta və qaya daşlarının birləşdirilərək daha möhkəm və ölümcül zərbələri ilə seçilən nizə və baltaların istehsalı idi. O dövrlərdə ilk silah növlərindən biri də qılınc “sword” hesab olunurdu.

“*sword”(qılınc)* – Qədim ingilis dilində “sweord” sözündən yaranıb və kökləri proto-_german dillərinə aid edilir. Tunc dövründə metal işlərinin inkişafı ilə əlaqədar silahlarının istehsalına başlanıldı və ilk metal qılınclar b.e.ə.3300 illərə təsadüf edir ki, bunlar da mis və metaldan hazırlanırdı. Bu silah növləri ilkin mis və ağaclardan hazırlanmış silahlardan möhkəm olsa da əyilməyə və sınmağa meylli idi. Buna görə də, daha möhkəm alətlər hazırlamağa can atan insan onun da təkmillşdirməyin yollarını öyrəndi. O, misi əridərək tərkibinə müxtəlif maddələr qatmaqla misdən möhkəm maddə olan tuncu əldə etdi ki, bu onun həyatını asanlaşdırdı [14]. Artıq b.e.ə.1200 illərdə, Dəmir dövründə dəmirin kəşfi ilə əlaqədar poladdan hazırlanmış qılınclar üstünlük təşkil edirdi.

*Spear(*nizə) – bu söz Qədim İngilis dilində “spere”-deşmək(pierce), yaralamaq (wound) – sözündən yaranıb, Orta İngilis dili dövründə də eyni sözlə ifadə olunmuş və bu sözün protogerman sözü olan “spero” sözündən qaynaqlandığı bildirilir. Ən qədim silah hesab olunur və onun tarixi ən azı 500.000 illərə aid edilir [12].

Bir çox müxtəlif tayfalar tərəfindən müstəqil inkişaf etdirilən, ilkin nümunələri 64.000 il əvvələ aid edilən *“arrow”* (*ox*) və *“bow” (yay, kaman)* müharibə silahları arasında ən mühüm silahlar hesab olunurdu. Bunların təkmilləşməsi bir neçə əsr davam etməsinə baxmayaraq heç də hər bir tayfa və ya dövlət onları öz imkanına, potensialına uyğun təkmilləşdirə bilməmişdir. Aparılan tədqiqatlar onu sübut edir ki, oxatma sənəti ilə məşğul olan və ya oxdan ən yaxşı istifadə edən və onu təkmilləşdirən skif tayfaları olub ki, onlar kamanı əymək və at belində hədəfə vurmaq üçün ənənəvi kamanlardan fərqli olaraq daha güclü zərbə ilə düşmənə ötürmək taktikası ilə inkişaf etdirmişlər [13].

“*Bow”* sözünün etimoloji təhlilini verərkən bu adın Orta İngilis dili dövründə mövcud olan” *boue”* sözünün Qədim İngilis dilində “*qövsivari; əyri, əyilmiş kaman, əyilmiş bir şey; tağ və ya göyqurşağı*” mənasını verən “*boga”* sözündən götürülmüş olduğunun şahidi oluruq. Kökləri proto-Hind Avropa(PIE) dil ailəsinə mənsub olduğu fərz olunan “*əymək, əyilmək*” mənasını verən “**bheug-“* sözünə aid olduğu göstərilir, hətta ingilis dilində bu silaha məxsus xarakterik xüsusiyyət və məna hal-hazırda bir çox söz və ifadələrdə öz əksini tapır: məsələn, *bow-legged* ”legs that curve out at the knees *(əyri ayaqlı)'; bow-hand-“*the left hand” və ya” on the wrong side,inaccurately”-sol əl və ya yanlış, düzgün olmayan; *to draw the bow ”*exaggerate, lie”. şişirtmək, yalan danışmaq və s. [12].

Qədim zamanlardan ovda, orta əsrlərdə isə müharibələrdə istifadə olunan, ucuna dəmir bərkidilmiş, yay vasitəsilə atılan ucu sivri uclu silah növü olan *oxun* tarixi XIV əsrin əvvəllərində Qədim İngilis dilində “*arrow”(ox)* mənasını verən “*arwan”* , “*earh*” sözləri ilə əlaqələndirilir və bu sözlərin Şimali German dil qrupunda vikinqlərə aid “örvar”, latın mənşəli “arcus” sözündən qotlara aid “arhwanza” olduğu bildirilir. Qədim İngilis dilində “*arrow*” üçün həm Slavyan, həm də German dillərində işlənən ümumi söz “streal *strœl* “ sözüdür ki, bu sözün mənası “flash, streak”- *qəlpə,qırıq, tilişkə* mənasını ifadə edir [12].

Verilmiş nümunələr bu terminlərin tarixi köklərinin qədim dövrlərdə mövcud olan dil və mədəniyyətə aid olduğunu göstərir və bu silahların adları çox vaxt işlənmə xüsusiyyətlərindən (funksiyasından) və ya görünüşündən asılı olaraq adlandırılır. Məsələn, “*spear”* - nizə-deşmək(pierce); *axe*-balta-(iti,iti uclu- sharp;pointed) sözü qədim İngilis dilində ”ax”, *shield-*

qalxan( to split(bölmək), seperate(ayırmaq)) sözlərindən yaranmışdır. Burada hər bir söz ilkin işlənmə məqsədlərinə uyğun olaraq adlandırılmışdır, eləcə də rütbələr.

Azərbaycanda aparılan tədqiqatlar, qazıntı işləri (Qarabağ, Naxçıvan, Qəbələ Talış, Şəki, Balakən Qax zonasında) də bu alətlərin antik dövrlərə -Tunc və Dəmir dövrünə aid olduğunu təsdiqləyir və bu Azərbaycanın qədim sakinlərinin hücum və müdafiə silah nümunələrini aşağıdakı funksiyalarına əsasən təsnifatlandırır [9].

– *uzaqvuran silahlar (ox və nizə ucluqları, cidalar)*

– *hücum silahları (qılınc, xəncər, mizraq, toppuz, yaba)*

– *müdafiə silahları (qalxan, zirehli geyim, dəbilqə)*

Bu təsnifatı şərti hesab edən müəllif bildirir ki, uzaqvuran silahlar həm də hücum məqsədilə də istifadə oluna bilər, yəni hücum məqsədilə işlənən silahlar müdafiə məqsədilə də və yaxud əksinə işlədilə bilər. Qədim dövrlərdə sağ qalmaq üçün müdafiə, öldürmək üçün isə hücum taktikalarından istifadə edən tayfa birlikləri döyüşlərdə uzaqvuran silahlarla silahlanmış, zirehli geyim geyinmiş, hücum silahlarından, həm də xüsusi "*qalxan"*dan istifadə ediblər. Son Tunc–İlk Dəmir dövründə (e.ə. II minilliyin II yarısı – I minilliyin əvvəli) müdafiə silahı kimi "*qalxan"*ın istifadə olunmasını Gədəbəy rayonunun daş qutu qəbirlərinin birindən V.Belk tərəfindən tapılmış kəmərin üzərindəki əlində qalxan tutmuş insan rəsmi də təsdiqləyir ki, bu da verilmiş məqalədə çox geniş şəkildə öz əksini tapır. Antik dövrdə meydana çıxan *qalxanlar* haqqında Antik dövr müəllifi Strabon aydın məlumat verir və onların qallarda və romalılarda *skutum* adlanan uzun dördkünc ("qapışəkilli") formada olduğunu və döyüş zaman əsgəri qarşı tərəfin zərbəsindən, əsasən, Tunc və Antik dövrlərdə kiçik metal təbəqələrdən, yəni lövhələrdən düzəldilmiş zirehli geyim qoruduğunu bildirir. İlk orta əsrlərə aid belə zireh qalığının nisbətən yaxşı saxlanılmış bir hissəsi Beyləqan şəhərindən (Örənqala) şirli qab üzərindən tapılmış bir atlı döyüşçünün əynində təsvir olunub. Bu müdafiə silahları müdafiə zamanı mütləq olsa da Qazıntı zamanı onların az tapılmasını C. Xəlilov, xüsusilə Xalkolit və Tunc dövrlərinə (e.ə.VI–I minilliyin əvvəlləri) aid olanların dəridən və ağacdan hazırlanması və uzun əsrlərdən bəri torpaq altında qalaraq çürüməsi ilə izah edir. Müdafiə olunan zaman *ox* və *kamandan* çox məharətlə istifadə edən döyüşçülər, yaxınməsafəli təmas döyüşlərində *xəncər* və *döyüş bıçaqlarından* da istifadə etməyə üstünlük veriblər. Göründüyü kimi, həm ingilis, həm də Azərbaycan tayfaları qədim dövrlərdə döyüşlərin xarakterindən asılı olaraq müxtəlif silah növlərindən istifadə ediblər [3].

Bu qədim silah növləri və geyimləri Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidələrindən biri olan "Kitabi-Dədə Qorqud" eposunda və eramızın təxminən 6-cı əsrin əvvəllərində cərəyan edən hadisələrindən bəhs edən Anqlosaks qəhrəmanlıq dastanı "Beowulf" da verilməklə onların dərin tarixi –etnoqrafik kökə malik olduğunu göstərməyə imkan verir. Belə ki, dastanlardan götürülmüş bəzi nümunələr bu faktların həqiqiliyini bir daha sübut edir Məsələn:

1. Suddenly, Beowulf catches sight of Grendel's mother again, and swings his *sword* down onto her head with a blow of great force. Unfortunately, the *sword* fails to cut her [10].

2. Qız oğlanla at yarışına çıxır, *ox atmaqda* məharət göstərir, pəhləvan kimi qurşaq tutub güləşir. *Qılınc vuran,* ox atan əllərlə Oğuz qəhrəmanı bir qopuz çalır ki, hamı onu ustad ozan bilir [1, s.230]

3. Qazan xan Şöklü Məliklə üz-üzə müharibəyə qalxarkən, döyüşqabağı Qaraca Çobanı *sapand* atmaqdan dayandırır. [1, s.230]

4. Salur Qazanın evinin yağmalandığı boy":

-"Çobanın üç yaşar *dana dərisindən sapanının* ayasıydı: Üç keçi tüyündən sapanının qollarıydı. Bir keçi tüyündən çatlağucıydı. Hər atanda on iki batman daş atardı" .

*(Vatikan nüsxəsi: "Çobanın altı yaşar dana dərisindən sapanı var idi. Üç keçi tüyündən sapanının qolları var idi. Bir keçi tüyündən sapanının çatlağucı var idi. Hər atanda on iki batman daş atardı*" [8, s.109].

3-cü və 4-cü nümunələrdən işlənən *"sapand"* və *"sapan* " sözlərinin də tarixi onu göstərir ki, insanlar bir-birinə zərbə endirmək üçün (döymək və ya atmaq üçün) ilk silah növü kimi əl ağacları (shaft, pole) və daşdan (stone) istifadə ediblər.

Qədim türk yazılı abidələrinin Azərbaycan dilində hərbi leksikanın yaranması və inkişaf etməsində böyük rolu var, çünki qədim türk dili müasir türk dillərinin mənbəyi hesab olunur.

Türk xalqlarının ortaq yazılı abidəsi olan Orxon-Yenisey abidəsində *ox*, (kılıc) *qılınc, yaraq* kimi hərbi anlayışa malik olan digər sözlər Azərbaycan və digər türk dillərində bugün də istifadə olunan leksik vahidlərdir. Abidələrdə *apa, tarkan, ergin, xaqan* və s. kimi titul və hərbi rütbələrin olması onu göstərir ki, bu abidələr yazıya alındığı və ondan əvvəlki dövrlərdə türk xalqlarında hərbi qaydalar, hərbi bilik mövcud idi [4, s. 35].

Dünyanın bir çox dillərində olduğu kimi, Azərbaycan dilinin hərbi leksikasının inkişafında da, alınmalar mühüm rol oynayır. Dilimizə bu cür hərbi terminlərin daxil olmasında ərəb, fars və rus dilinin göstərdiyi təsirlər danılmazdır. "Dilçilik elmi sübut edir ki, dünyada yalnız öz milli sözlərindən ibarət olan saf bir dil yoxdur" [6, s.128].

Dildə müxtəlif hərbi anlayışları ifadə etmək üçün hərbi termin yaradıcılığında bəzən alınmalara üz tutmaq lazım gəlir. "Hərbi terminologiyada alınmalardan qaçmaq mümkün deyildir. Əvvəla ona görə ki, döyüş taktikası xalqlarda müxtəlif olsa da döyüş texnikası ya adətən eyni olur, ya da azacıq fərqlə eyni adlı olur" [5, s.16].

7-ci əsrdən etibarən başlayan ərəb istilası Azərbaycandan da yan ötməmiş və Azərbaycan dilinə də öz təsirini göstərmişdir. 11-ci əsrə kimi davam edən bu təsir terminoloji sahəyə də öz izini qoymuşdur.

Azərbaycan dilində rast gəlinən ərəb mənşəli terminlərin əksəriyyəti həmin dövrdə yaşamış ərəblərin inkişaf səviyyəsinə uyğun olaraq adi döyüş alətlərini və müharibə anlayışlarını bildirən sözlərdir. Bu terminlərin bəziləri dildə öz yerini tapmayaraq arxaikləşmiş, bəziləri isə yeni məzmun qazanaraq dilimizin hərbi leksikasında işlədilməkdədir. "*Sərkar*", "*miralay*" və s. kimi arxaikləşərək dildən çıxsa da, "*qala*", "*təbil*" kimi sözlər dildə öz yerini qorumasına baxmayaraq termin xüsusiyyətlərini itirmişlər [4, s.199].

Müasir Azərbaycan ədəbi dilində hərbi anlayışların ifadə olunmasında rus dilindən alınmış terminlərin də böyük əhəmiyyəti vardır. Qədimdən hər iki xalqlar arasında yaranan siyasi münasibətlər türk və rus dilləri arasında qarşılıqlı əlaqənin yaranmasına şərait yaratmışdır. Bu əlaqənin nəticəsində 11-ci əsrdən rus dilində türk mənşəli müxtəlif titul adları, 17-18-ci əsrlərdən başlayaraq isə türk dillərində rus mənşəli hərbi anlayışlar istifadə edilməyə başladı [7, s.19].

İ.Z. Qasımovun apardığı tədqiqatlara əsasən bildirmək olar ki, bu təsirlər SSRİ-nin dağılmasına qədər davam etdi və bu zaman müddətində dilimizə daxil olan bir çox rus mənşəli sözlər hələ də lüğətimizdə öz yerini saxlamaqdadır. Belə sözlərdən *tank, pulemyot, mina, avtomat, raket, bombardman, zenit* və s. bu kimi hərbi terminləri misal göstərə bilərik. Son illərdə aparılan ordu quruculuğu işləri ilə əlaqədar olaraq hərbi terminologiya sahəsində rus dilindən

alınmış sözlərin lüğət tərkibindən çıxaraq milli sözlərlə əvəz olunmasına başlanmışdır. 90-cı illərə qədər işlədilən *serjant*, *yefreytor*, *otdeleniya*, *diversiya* kimi terminlər milli dil vahidləri olan *gizir*, *çavuş*, *bölmə*, *təxribat* və s. sözlərlə əvəzlənməsi, milli dil vahidləri ilə dəyişdirilməsi aktiv xarakter daşıyır [4, s.206].

İngilis dilinin lüğət tərkibinin tarixi qədim olması ilə bərabər, həm də çox zəngindir ki, burada alınmaların rolul böyükdür. İngilis dilinin hərbi terminologiyası latın, eləcə də Avropa dilləri: fransız, ispan, portuqal və alman dilləri hesabına zənginləşmişdir. Bu terminlər zaman keçdikcə dilin qrammatik qanunlarına uyğun olaraq dəyişir və ya hərbi texnikaların, döyüş vasitələrinin inkişafı nəticəsində tamamilə yenisi ilə əvəzlənir. Məsələn, Azərbaycan dilində *"ordu"* anlamına gələn *"army"* sözünü nümunə göstərə bilərik. Bu söz müasir dövrdəki anlamına 17-ci əsrin sonlarında qovuşmuşdur. Sözün kökü latıncada *silahlanmaq* anlamına gələn "*armare*" feilindən gəlmişdir. İngilis dilində isə bu söz "*armada"* kimi işlədilirdi. İngilislərin "*armada"* sözü ilə tanışlığı da məhz ispan və portuqalların sayəsində idi. Bu söz sonralar dəniz və ya qurudakı qüvvələri bildirmək üçün istifadə edildi. Müasir dövrdəki mənasına isə ikinci Ceymsin hakimiyyəti zamanı qovuşdu. Çouser, Kekston və Lord Berners - hər biri öz dövrünə uyğun olmaqla, yəni 14, 15 və 16-cı əsrlərdə "army" sözünü hərbi və ya dəniz səfərləri mənasında işlədiblər. Bu əsrdə yaşayan digər yazıçılar da bu faktlara əsaslanaraq quru və ya suda silahlanmış qüvvələri təsvir etmək üçün məhz bu sözdən istifadə ediblər [11].

Fransız dilindən ingilis dilinə daxil olan digər bir söz isə "platoon"-dur. Sözün kökü "balaca top" mənasını verən "peloton"-dan gəlib. İlk dəfə bu sözü işlədən İsveç monarxı Qustavus olmuşdur. İlkin mənası topdan açılan atəş olsa da getdikcə öz mənasını itirərək "*taqım"* mənasında işlənməyə başlandı [11].

Məqalənin məzmunu üzrə aparılan təhlil nəticəsində aşağıdakı qənaətə gəlmək olar ki, hərbi texnika və taktikanın inkişafına səbəb olmuş müharibələrin baş verməsi tarixən qəddar savaşlara gətirib çıxarmışdır ki, Azərbaycan və İngiltərə torpaqları da bu cür savaşlardan kənarda qalmamışdır. Bu dövlətlərin hər biri öz ordu quruculuğunu təşkil etmiş, yadellilərə qarşı mübarizə aparmış, ya da yeni torpaqlar uğrunda savaşmışdır. Bunlar da dildə hərbi terminologiyanın yaranmasında və inkişafında mühüm rol oynamışdır. Bundan başqa, ölkələrin digər xalqlar tərəfindən zəbt edilməsi da hərbi terminologiya sahəsində bir növ inkişafa səbəb olmuş və lüğət tərkibinin zənginləşdirən vasitələrdən biri hesab olunmuşdur.

**Problemin aktuallığı.** Hərbi terminlərin etimoloji təhlili bu terminlərin daimi inkişafı və tarixən baş vermiş münaqişələrin və mədəniyyətlərarası əlaqələrin müasir leksikonunun formalaşmasında rolunu qiymətləndirmək nöqteyi-nəzərdən aktualdır.

**Problemin elmi yeniliyi.** İşin elmi yeniliyi ondan ibarətdir ki, məqalədə həm ingilis, həm də Azərbaycan dilində hərbi terminlərin xarakterik xüsusiyyətləri diaxronik aspektə öyrənilib araşdırılmış və təhlilə cəlb edilmişdir. Hətta bu sözlərin söz yaradıcılığında iştirak edə bilmə bacarıqları və alınma sözlərin işlənmə xüsusiyyətləri izah olunmuşdur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə verilmiş məlumatlar və faktlar hərbi terminoloji lüğətlərin hazırlanmasında və bu sahə üzrə mütəxəssislərlər üçün biliklərin artırılmasında faydalı mənbə hesab oluna bilər.

**Ədəbiyyat**

1. Hacıyev T. “Dədə Qorqud kitabi”: tariximizin ilk yazılı dərsliyi /T Hacıyev.- Bakı: Elm və təhsil,- 2014. -344 s.
2. Həsənov, H.Ə. Müasir Azərbaycan dilinin leksikası / H.Ə.Həsənov. – Bakı: “Nurlan” nəşriyyatı, - 2005. – 452 s.
3. Xəlilov, C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri / C.Ə. Xəlilov. – Bakı: Azərbaycan SSR EA nəşriyyatı, – 1959. – 172 s.
4. Qasımov, İ.Z. Azərbaycan dilində hərbi leksika(təşəkkülü, inkişafı və sabitləşməsi): / filol. e.d-ru alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiya / - Bakı, 2002. – 302 s.
5. Məmmədli, Y. Azərbaycan dilinin hərbi leksikası / Y. Məmmədli, - Bakı: Maarif, - 1997. – 131 s.
6. Məmmədov, N. Azərbaycan dilçiliyinin nəzəri əsasları / N.Məmmədov, - Bakı: Maarif, - 1971. – 367 s.
7. Müasir Azərbaycan dili / Il cild. Bakı: Elm, -1980. - 506 s.
8. Ergin M. Dede Korkut kitabı. Ankara, 1994, 545 s.
9. (https://ordu.az/az/news/208866) (Azərbaycanın qədim sakinlərinin hücum və müdafiə silahları – ARAŞDIRMA (FOTOLAR) tar.ü.f.d., dosent Şamil Nəcəfov, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
10. https://www.shmoop.com/beowulf/lines
11. http://www.regimentalrogue.com/misc/1935_Origins_of_Some_Military_Terms.htm
12. https://www.etymonline.com › ...Online Etymology Dictionary
13. www.discovermagazine.com From Stone tools to Guns:A timeline of Ancient Weopons)
14. http://www.e-derslik.edu.az Elektron Dərslik Portalı
15. https://cooljugator.com/etymology/en/infantry/ *Online Etymology Dictionary*.
16.(https://www.sciencedirect.com/science/article/pii/S1877042816313283/pdf?md5=f0217967a531b7d383b6e7470911c8bd&pid=1-s2.0-S1877042816313283-main.pdf) DictionaryReference,2016)
17.https://dictionary.cambridge.org

**R.B.Alışova**

**Hərbi terminlərin etimologiyası**
**Xülasə**

Sözlərin etimologiyasını bilmək bu sözlərin tarixi və mənşəyi haqqında məlumat əldə etməklə dili başa düşməyimizə kömək edir. Bu halda hər hansı lüğətin təşkil edilməsi, məlum olmayan terminlərin müəyyən edilməsi və hər bir mədəniyyətə uyğun sözlərin mənalarının verilməsi asan olur. Bu, o anlama gəlir ki, sözlərin etimologiyası haqqında biliklər hər hansı ədəbiyyatı oxuyarkən konteksti başa düşüb anlamağa yardımçı olur və əsrlərlə dil və mədəniyyətin inkişafını göstərir.

Bu məqalə İngilis və Azərbaycan dillərində hərbi terminlərin etimologiyasının tədqiqinə həsr olunub ki, bu da illər ötdükcə sözlərin tarixən baş verən dəyişikliklər və texnoloji təkamül nəticəsində müəyyən məna dəyişiklikləri haqqında həqiqətləri əks etdirir. Məqalədə "infantry",'"cavalry", " sword" və s. sözlərin linqvistik və tarixi kökləri və latın, yunan,türk, rus və fars dillərindən alınan sözlərin mənşəyi araşdırılır və misallar vasitəsilə izah olunur.

**Р.Б.Алышова**

**Этимология военных терминов**
**Резюме**

Знание этимологии слов помогает глубже понять язык, постигая его историю и истоки. Благодаря этому становится проще пополнять словарный запас, распознавать незнакомые термины и воспринимать значение слов в контексте определенной культуры. Иными словами, этимология не только формирует контекст, но и способствует осмысленному восприятию текста, демонстрируя, каким образом культура и языки эволюционировали с течением времени.

Настоящая статья посвящена исследованию этимологии английских и азербайджанских военных терминов, отражающих сочетание исторических влияний, технологического прогресса и изменения значений слов со временем. В ней раскрываются и иллюстрируются лингвистические и исторические корни ряда распространенных военных терминов, таких как infantry («пехота»), cavalry («кавалерия»), sword («меч») и других, включая заимствования из латинского, греческого, турецкого, русского и персидского языков.

**R.B.Alıshova**

**The etymology of military terms**
**Summary**

To know the etymology of the words helps us to understand language by knowing its history and its origins. In this case it becomes easy to build vocabulary, identify unfamiliar terms and appreciate the meanings of the words according to the given culture. That means that it provides not only context but also aids comprehension in reading and demonstrates how culture and languages developed over time.

This article is devoted to study of the etymology of English and Azerbaijanian military terms which reveal the blend of historical influences, technological evolution, word meaning changes over time. The linguistic and historical roots of several common military terms such as: "infantry",'"cavalry", " sword" etc. and even military loans from Latin ,Greek ,Turkish ,Russian and Persian roots are explained and illustrated in this article.

**Redaksiyaya daxil olub:** 23.12.2025

***TƏHSİLİN İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ***
***PROBLEMS OF EDUCATION MANAGEMENT***
***ПРОБЛЕМЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ***

*UOT 378.4:303.722*

# ŞAGİRD KOLLEKTİVİNİN SƏMƏRƏLİ TƏŞKİLİ VƏ İDARƏOLUNMASINDA ÜMUMMƏKTƏB ŞAGİRD ÖZÜNÜİDARƏ ORQANLARININ ROLU HAQQINDA

**Leyla Teymur qızı Teymurova**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0009-0002-5602-256X
**E-mail:** leylateymurova959@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.28

***Açar sözlər:*** *Azərbaycan, məktəb, təhsil, şagird, idarəetmə, orqan, xidmət.*
***Ключевые слова:*** *Азербайджан, школа, образование, учащийся, управление, орган, служба.*
***Key words:*** *Azerbaijan, school, education, student, management, institution, service.*

Təhsil insan həyatının bütün mərhələlərində iştirak olunan fasiləsiz inkişaf prosesidir. Erkən yaşlardan etibarən insan davranış, ünsiyyət və düşünmə kimi əsas funksiyaları mənimsəyir, məktəb dövründə isə gələcək təhsil və peşə fəaliyyətinin təməlini təşkil edən sistemli bilik və bacarıqları əldə edir. Ümumi təhsil pilləsi insanın intellektual, sosial və şəxsiyyət inkişafının formalaşdığı mühüm mərhələ olmaqla, cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsinin həm göstəricisi, həm də müəyyənedici əlamətidir.

Azərbaycan Respublikasında təhsil dövlət siyasətinin prioritet istiqamətlərindən hesab olunur. Dövlətin inkişaf səviyyəsi əhalinin təhsil səviyyəsi ilə bilavasitə bağlıdır və bu səbəbdən təhsil sistemi cəmiyyətin dəyişən tələblərinə uyğun olaraq daim yenilənməlidir. Müasir təhsil yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır; eyni zamanda, şagirdlərin şəxsiyyət kimi formalaşmasını, yaradıcı potensialının inkişafını, sosial adaptasiya qabiliyyətinin güclənməsini təmin edir.

Məktəb bu prosesin mərkəzində duran sosial institut olaraq, təkcə tədris funksiyası yerinə yetirmir, həm də şagirdlərin sosiallaşması, vətəndaşlıq dəyərlərinin formalaşması və ictimai fəallığının inkişafında əsas rol oynayır. Məhz buna görə təhsil sistemində baş verən dəyişikliklər məktəbin idarəetmə modelinə, o cümlədən şagirdlərin məktəb həyatında iştirak mexanizmlərinə təsir göstərir. Son illər Azərbaycan təhsilində demokratik idarəetmə, iştirakçılıq və şagird yönümlü yanaşmaların güclənməsi şagird özünüidarəetməsinin aktuallığını artırmışdır.

Azərbaycan məktəblərində şagird özünüidarəetməsinin inkişafı möhkəm normativ-hüquqi baza üzərində qurulmuşdur. Bu sahəni tənzimləyən əsas sənədlər aşağıdakılardır:

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (2009). Bu qanun təhsilalanların təhsil prosesində və məktəbin ictimai həyatında iştirak hüququnu təsbit edir. Qanunda qeyd olunur ki, şagirdlərin idarəetmədə iştirak etməsi onların sosial fəallığının və məsuliyyət hissinin formalaşmasına xidmət edir.

2. "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi" Nizamnamə məktəb şurası, valideyn komitəsi, şagird komitəsi və digər özünüidarəetmə strukturlarının yaradılması və fəaliyyətinə dair tələbləri müəyyən edir. Bu sənəd şagird özünüidarəetməsinin təşkilati çərçivəsini və fəaliyyət mexanizmlərini müəyyənləşdirir.

3. Təhsil Nazirliyinin metodik göstərişləri və proqramları. Məktəb parlamenti, şagird klubları, sosial layihə qrupları və şagird fəallıq mərkəzlərinin təşkili üzrə metodik çərçivəni müəyyən edir. Bu göstərişlər demokratik idarəetmə, liderlik və vətəndaşlıq tərbiyəsi məqsədlərinə xidmət edir.

Bu hüquqi baza şagirdlərin məktəbin idarə olunmasına cəlb edilməsinə, onların sosial-emosional inkişafına, müstəqil qərarvermə bacarıqlarının formalaşdırılmasına və məktəb mühitində demokratik münasibətlərin möhkəmlənməsinə şərait yaradır.

Azərbaycan məktəblərində şagird özünüidarəetməsi — şagirdlərin məktəbin ictimai həyatında, tədbirlərin təşkili prosesində, sosial və mədəni layihələrdə, həmçinin müəyyən idarəetmə qərarlarında iştirakını təmin edən demokratik təşkilati modeldir. Bu sistem təkcə şagirdlərin maraqlarını ifadə etmir, həm də onları sosial subyekt kimi formalaşdıran mühüm tərbiyə mexanizmidir.

Şagird özünüidarəetməsinin əsas məqsədləri aşağıdakılardır:

- liderlik və təşkilati bacarıqların inkişafı;
- şagirdlərin sosial məsuliyyətinin və vətəndaşlıq mövqeyinin gücləndirilməsi;
- məktəbdaxili qərarlarda iştirakçılığın təmin edilməsi;
- demokratik münasibətlərin formalaşdırılması;
- yeniyetmələrin təşəbbüskarlıq və yaradıcı fəaliyyətə cəlb edilməsi;
- şagird potensialının üzə çıxması üçün mühitin yaradılması.

Müasir pedaqoji yanaşmalar şagird özünüidarəetməsini təkcə təşkilati struktur kimi deyil, həm də sosiallaşmanın, şəxsiyyətin tərbiyəsinin və məktəb mühitində aktiv vətəndaşlıq davranışının inkişafının əsas alətlərindən biri kimi qiymətləndirir.

Azərbaycan təhsil sistemində şagird özünüidarəetməsi müxtəlif təşkilati formalar və strukturlar əsasında qurulur və məktəblər arasında müəyyən fərqlər mövcud ola bilər. Bununla belə, ümumi yanaşmalar eyni məqsədə – şagirdlərin məktəb həyatında fəal iştirakını təmin etməyə yönəlmişdir.

Məktəb şurası məktəbin ictimai idarəetməsinin mərkəzi orqanlarından biridir. Onun tərkibinə:

- şagird nümayəndələri,
- müəllim heyətindən üzvlər,
- valideyn nümayəndələri,
- məktəb rəhbərliyinin təmsilçiləri daxil olur.

Məktəb şurası məktəbin fəaliyyətinə dair əhəmiyyətli məsələləri — tədbirlərin təşkili, sosial layihələr, məktəbdaxili qaydalar, tərbiyə tədbirlərinin planlaşdırılması və digər qərarların qəbulunu koordinasiya edir.

Son illər Təhsil Nazirliyinin təşviqi ilə orta məktəblərdə "Məktəb Parlamenti" modeli tətbiq edilir. Məktəb Parlamenti aşağı siniflərdən yuxarı sinif şagirdlərinə qədər demokratik seçki yolu ilə formalaşan özünüidarəetmə strukturudur. Onun əsas məqsədi şagirdlərdə liderlik, vətəndaşlıq məsuliyyəti və ictimai təşəbbüskarlıq kimi keyfiyyətlərin inkişafıdır.

Məktəb Parlamenti adətən aşağıdakı bölmələrdən ibarət olur:

- Təhsil və elm komitəsi
- Mədəniyyət və incəsənət komitəsi
- İdman və sağlam həyat tərzi komitəsi
- Media və informasiya komitəsi
- Sosial layihələr və könüllülük komitəsi

Bu komitələrin fəaliyyəti şagirdlərin potensialını üzə çıxarmaq, onların məktəbin inkişafına töhfə verməsini təmin etmək məqsədi daşıyır [4].

Sinif səviyyəsində şagird özünüidarəetməsi sinif nümayəndələri, sinif rəhbərinin koordinasiya etdiyi sinif şurası və müxtəlif işçi qruplar vasitəsilə həyata keçirilir.

Sinif şurası [2]:

- sinifdə nizam-intizam,
- tədbirlərin təşkili,
- sosial layihələrdə iştirak,
- sinfin maraqlarının məktəb rəhbərliyinə çatdırılması kimi funksiyaları icra edir.

Bir çox məktəbdə şagird özünüidarəetməsinin çevik forması olan maraq klubları fəaliyyət göstərir:

- debat klubu,
- media klubu,
- könüllülük hərəkatı,
- elm və STEAM qrupları,
- sosial təşəbbüs komandaları.

Bu təşkilatlar şagirdlərin şəxsi maraqlarına uyğun olaraq özünüifadə imkanlarını genişləndirir və onların məktəb həyatında aktiv iştirakını təmin edir.

Məktəb özünüidarəetməsi təkcə təşkilati struktur deyil, həm də pedaqoji və psixoloji inkişafı dəstəkləyən mühüm təlim-tərbiyə mexanizmidir. Müasir elmi yanaşmalar özünüidarəetməni aşağıdakı aspektlərdə qiymətləndirir:

— Özünüidarəetmə şagirdin sosial mühitdə məsuliyyətli iştirakçıya çevrilməsinə, ümumi davranış qaydalarını mənimsəməsinə, kollektiv fəaliyyətə uyğunlaşmasına şərait yaradır.

— Şagirdlər qərar qəbuletmə, problem həll etmə, layihə idarəetməsi kimi bacarıqları praktik olaraq öyrənirlər. Bu, onların gələcək sosial və peşə fəaliyyətində mühüm rol oynayır.

— Səsvermə, müzakirə, debat, məsuliyyət bölgüsü kimi fəaliyyətlər vasitəsilə şagirdlər demokratik idarəetmə mədəniyyətini mənimsəyirlər.

— Özünüidarəetmə prosesinə cəlb olunan şagirdlər məktəb həyatına daha bağlı olur, təşəbbüskarlıq və aktivlik artır, əməkdaşlıq münasibətləri formalaşır [4].

Müxtəlif ölkələrin təcrübələri, pedaqoji nəzəriyyələr və yerli təhsil sisteminin xüsusiyyətləri nəzərə alınaraq, Azərbaycan məktəblərində şagird özünüidarəetməsi əsasən dörd təşkilati–funksional model əsasında formalaşır. Bu modellər həm hüquqi çərçivələrə, həm sosial-pedaqoji tələblərə, həm də şagirdlərin yaş xüsusiyyətlərinə uyğunlaşdırılmış mexanizmlər əsasında tətbiq olunur. Aşağıda həmin modellərin mahiyyəti, funksional prinsipləri və üstünlükləri geniş şəkildə izah edilir.

İdarəetmə–Şura modeli Azərbaycan məktəblərində ənənəvi və institusional xarakter daşıyan özünüidarəetmə formalarından biridir. Bu model çərçivəsində şagirdlər məktəb şurasının

tərkibinə daxil olur və məktəbin ictimai həyatına dair qərarların qəbul edilməsində iştiraka cəlb olunurlar. Məktəb şurasının tərkibi adətən müəllim nümayəndələri, valideyn komitəsi üzvləri və məktəb rəhbərliyi ilə yanaşı, müxtəlif sinifləri təmsil edən şagird nümayəndələrindən ibarət olur. Şagirdlər bu strukturda həm öz sinif və ya paralellərinin maraqlarını ifadə edir, həm də məktəbin inkişafına dair müzakirə və qərarlarda səsvermə hüququ əldə edirlər.

Bu model normativ sənədlərə uyğun təşkil olunduğuna görə daha çox rəsmi və prosedur yönümlü xarakterə malikdir. Model şagirdlərdə idarəetmə mədəniyyəti, qərar qəbuletmə bacarığı və kollektiv məsuliyyət hissinin formalaşmasına töhfə verir.

**Modelin üstünlükləri aşağıdakılardır** [3]:

- Şagirdlərin məktəbin idarəetmə mexanizmlərinə inteqrasiyası dövlət səviyyəsində tanınmış institusional baza üzərində həyata keçirilir.
- Şagirdlər demokratik qərarvermə prosesləri ilə tanış olur, rəsmi müzakirələrdə iştirak edərək ictimai fəaliyyət bacarıqlarını inkişaf etdirirlər.
- Məktəbin strateji qərarlarında şagirdlərin də mövqeyi nəzərə alınır ki, bu da məktəb mühitində qarşılıqlı hörmət və əməkdaşlıq atmosferini gücləndirir.

Oyun–tətbiqi model daha çox psixoloji-pedaqoji yanaşmalara əsaslanan, şagirdlərin emosional, sosial və yaradıcılıq potensialının inkişafını hədəfləyən özünüidarəetmə formasıdır. Bu model çərçivəsində məktəblərdə "Özünüidarəetmə günü", "Şagirdlərin müəllim rolunu oynadığı gün", "Mini-parlament oyunları", "Rolların dəyişdirilməsi" kimi tədbirlər keçirilir.

Model şagirdləri qeyri-rəsmi, lakin təcrübəyə əsaslanan idarəçiliyə cəlb etməklə onların praktiki fəaliyyət bacarıqlarını gücləndirir. Oyun üsulu şagirdlər arasında motivasiyanı artırır, stresssiz öyrənməni təmin edir və komanda işində daha aktiv iştirak mühiti yaradır.

**Modelin üstünlükləri aşağıdakılardır:**

- Oyun elementləri şagird motivasiyasının artmasına, sosial-emosional inkişafın sürətlənməsinə və özünəinamın formalaşmasına xidmət edir.
- Şagirdlər real qərar qəbuletmə prosesini modelləşdirir və təcrübədən keçir, bu isə onların idarəetmə bacarıqlarının təbii şəkildə inkişafına səbəb olur.
- Müxtəlif yaş qrupları üçün uyğundur və məktəb mühitinə dinamizm qazandırır.

Hibrid model idarəetmə–şura və oyun–tətbiqi modellərinin üstün cəhətlərini birləşdirən kompleks özünüidarəetmə sistemidir. Bu model Azərbaycan məktəblərində geniş tətbiq olunur, çünki həm rəsmi strukturun təmin etdiyi normativ sabitlik, həm də oyun yanaşmasının yaratdığı kreativlik və motivasiya imkanları bir sistemdə cəmlənir.

Hibrid modeldə şagirdlər həm rəsmi komitələr vasitəsilə məktəbin idarəetmə proseslərində iştirak edir, həm də oyun və tətbiqi fəaliyyətlər yolu ilə sosial bacarıqlarını, kommunikasiya və liderlik keyfiyyətlərini inkişaf etdirirlər [5].

Modelin üstünlükləri, müxtəlif yaş qruplarına asanlıqla adaptasiya oluna bilməsi və məktəbin ümumi təlim-tərbiyə strategiyasına inteqrasiya edilməsidir. Şagirdlərə həm akademik, həm sosial-emosional inkişafını dəstəkləyən balanslı məktəb mühiti formalaşdırılmasıdır.

Azərbaycan ümumi təhsil müəssisələrində şagird özünüidarəetmə sisteminin inkişafı məktəbin sosial-pedaqoji mühitinə, təlim-tərbiyə prosesinin keyfiyyətinə və şagird şəxsiyyətinin formalaşmasına əhəmiyyətli təsir göstərir. Müasir təhsil fəlsəfəsinə əsasən, məktəb yalnız bilik verən qurum deyil, həm də şagirdlərin sosial bacarıqlarının, liderlik keyfiyyətlərinin, vətəndaşlıq məsuliyyətinin və yaradıcı potensialının inkişaf etdiyi mühüm sosial institut kimi çıxış

edir. Özünüidarəetmə isə bu proseslərin həyata keçirilməsi üçün ən təsirli mexanizmlərdən biri kimi qiymətləndirilir [1].

Azərbaycan məktəblərində tətbiq olunan idarəetmə–şura modeli, parlament modeli, oyun–tətbiqi modeli və hibrid model şagirdlərin müxtəlif yaş və inkişaf xüsusiyyətlərinə uyğun sosial fəaliyyət imkanları yaradır. Bu modellər şagirdlərdə kollektiv məsuliyyət, təşəbbüskarlıq, qərar qəbuletmə, qarşılıqlı hörmət və əməkdaşlıq kimi mühüm dəyərlərin formalaşmasını stimullaşdırır. Xüsusilə hibrid modelin geniş tətbiq edilməsi şagirdlərin həm rəsmi idarəetmə proseslərində, həm də qeyri-formal sosial layihələrdə aktiv iştirakına şərait yaradır ki, bu da onların həm akademik, həm də sosial-emosional inkişafını balanslı şəkildə dəstəkləyir.

Özünüidarəetmə sisteminin tətbiqi nəticəsində şagirdlərin məktəb həyatına bağlılığı artır, onların sosiallaşma prosesi sürətlənir, özünütəsdiq ehtiyacı daha səmərəli şəkildə qarşılanır və şəxsiyyətin hərtərəfli inkişafı üçün əlverişli təlim-tərbiyə mühiti formalaşır. Şagirdlər özünüidarəetmə vasitəsilə sosial qarşılıqlı əlaqə bacarıqlarını təkmilləşdirir, müstəqil qərar verməyi, məsuliyyət bölüşməyi və komanda fəaliyyəti göstərməyi öyrənirlər. Bu keyfiyyətlər gələcəkdə onların peşəkar fəaliyyətinə və cəmiyyətə inteqrasiyasına mühüm töhfə verir.

Bir sözlə, şagird özünüidarəetməsi Azərbaycan təhsil sistemində şagirdyönlü, demokratik və şəxsiyyətin inkişafına yönəlmiş yanaşmaların reallaşdırılmasının əsas alətlərindən biridir. Bu sistemin məktəblərdə daha geniş və sistemli şəkildə tətbiq edilməsi, metodik dəstəyin gücləndirilməsi və praktiki fəaliyyətlərin təşviqi şagirdlərin potensialının daha dolğun açılmasına imkan yaradır.

**Problemin aktuallığı** müasir təhsil sistemində demokratik idarəetmə və şagird iştirakçılığının güclənməsi fonunda şagird özünüidarəetməsi probleminin elmi cəhətdən araşdırılmasının zəruriliyi ilə müəyyən olunur.

**Problemin elmi yeniliyi** şagird özünüidarəetməsinin, xüsusilə "Məktəb Parlamenti" modelinin şagird kollektivinin idarə olunmasına və şəxsiyyətin formalaşmasına təsirinin sistemli pedaqoji mexanizm kimi əsaslandırılmasında ifadə olunur.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi** əldə olunan nəticələrin ümumi təhsil müəssisələrində şagird özünüidarəetmə sisteminin təşkili, təkmilləşdirilməsi və pedaqoji təcrübədə tətbiq imkanları ilə xarakterizə olunur.

## Ədəbiyyat

1. Ağayev Ə.Ə. Azərbaycan ictimai pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. -Bakı: Avropa, - 2005. -132 s.

2. Əliyeva S. Q. Məktəbin idarə edilməsinin pedaqoji, psixoloji əsasları. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi. -2021 -279 s.

3. Həsənov, A.M. Pedaqogika. / A.M. Həsənov. -Bakı: Nasir, –2011. –494 s.

4. Буйлова Л.Н. Государственный заказ на дополнительное образование детей: проблемы формирования и освоения [Текст] // Техническое творчество молодёжи, –2018. — 88 с.

5. Juceviciene, P., Petkunas, V. The change of educational paradigm under the influence of ICT implementation: criteria of evaluating the teacher and student's roles. - Social sciences, 2 (52), -2021.- p. 79-91.

**L.T.Teymurova**

**Şagird kollektivinin səmərəli təşkili və idarəolunmasında ümumməktəb şagird özünüidarə orqanlarının rolu haqqında**
**Xülasə**

Bu tədqiqatda Azərbaycan ümumi təhsil müəssisələrində şagird özünüidarəetmə sisteminin inkişafının, xüsusən də "Məktəb Parlamenti" modelinin tətbiqinin araşdırılması nəzərdə tutulur. Demokratikləşmə və təhsil sistemində şagirdlərin iştirakının gücləndirilməsi istiqamətindəki tendensiyalara uyğun olaraq, Məktəb Parlamenti şagirdlərin qərar qəbuletmə proseslərində fəal iştirak etməsinə imkan verən mühüm bir mexanizmə çevrilmişdir. Tədqiqatda Məktəb Parlamenti modelinin şagirdlərin özünəinamını artırdığı, sosial qarşılıqlı əlaqə və ünsiyyət bacarıqlarını gücləndirdiyi, məktəb həyatına mənsubluq hisslərini artırdığı və demokratik dəyərlərin mənimsənilməsinə əhəmiyyətli dərəcədə töhfə verdiyi qənaətinə gəlinir. Bundan əlavə, bu modelin Azərbaycan təhsil sistemində tələbəyə yönəlmiş yanaşmaların tətbiqi üçün uyğun bir təməl yaratdığı və bir pedaqoji vasitə olduğu qənaətinə gəlinmişdir.

**Л.Т.Теймурова**

**Роль органов ученического самоуправления в эффективной организации и управлении ученическим коллективом**
**Резюме**

Целью данного исследования является изучение развития системы студенческого самоуправления в общеобразовательных учебных заведениях Азербайджана, в частности, внедрение модели «Школьный парламент». В соответствии с тенденциями к демократизации и усилению участия учащихся в системе образования, Школьный парламент стал важным механизмом, позволяющим учащимся активно участвовать в процессах принятия решений. Исследование показывает, что модель «Школьного парламента» повышает уверенность учащихся в себе, укрепляет навыки социального взаимодействия и общения, усиливает их чувство принадлежности к школьной жизни и вносит значительный вклад в усвоение демократических ценностей. Кроме того, делается вывод, что данная модель создает подходящую основу для применения студентоцентрированных подходов в азербайджанской системе образования и является педагогическим инструментом.

**L.T.Teymurova**

**The role of school-wide student self-government bodies in the effective organization and management of the student collective**

**Summary**

This study aims to investigate the development of the student self-government system in Azerbaijani general education institutions, in particular the implementation of the "School Parliament" model. In line with the trends towards democratization and strengthening student participation in the education system, the School Parliament has become an important mechanism that allows students to actively participate in decision-making processes. The study concludes that the School Parliament model increases students' self-confidence, strengthens social interaction and communication skills, increases their sense of belonging to school life, and significantly contributes to the assimilation of democratic values. In addition, it is concluded that this model creates a suitable foundation for the application of student-centered approaches in the Azerbaijani education system and is a pedagogical tool.

**Redaksiyaya daxil olub:** 15.12.2025

*UOT 373*

# ИННОВАЦИОННЫЕ ПОДХОДЫ К УПРАВЛЕНИЮ ФИНАНСОВЫМИ РЕСУРСАМИ В ПЕДАГОГИЧЕСКИХ ВУЗАХ: ОПЫТ И ПЕРСПЕКТИВЫ В АЗЕРБАЙДЖАНЕ

**Аиша Фаик кызы Аллахвердиева**
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*
**ORCID:** 0009-0000-9796-6239
**E-mail:** allahverdiyeva1814@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.29

***Ключевые слова:*** *финансовые ресурсы, инновации, педагогические вузы, государственно-частное партнерство, цифровизация, ВВП.*

***Açar sözlər:*** *maliyyə resursları, innovasiya, pedaqoji ali təhsil müəssisələri, dövlət-özəl tərəfdaşlığı, rəqəmsallaşma, ÜDM.*

***Key words:*** *financial resources, innovation, pedagogical universities, public-private partnership, digitalization, GDP.*

## Введение

Развитие системы педагогического образования является одной из стратегических задач Азербайджанской Республики, так как от качества подготовки учителей зависит эффективность всей образовательной системы. В последние годы в Азербайджане реализуются масштабные образовательные реформы, направленные на повышение качества обучения и интеграцию в международное образовательное пространство (UNESCO, 2021).

В условиях перехода к экономике знаний образование рассматривается как стратегический фактор глобальной конкурентоспособности. В XXI веке развитие образовательных систем связано с необходимостью внедрения инноваций, цифровых технологий и многоисточниковых моделей финансирования. Университеты перестают быть исключительно образовательными учреждениями, они превращаются в центры науки, инноваций и социального развития (World Bank, 2020).

Педагогические вузы в этом контексте занимают особое место, так как именно они формируют человеческий капитал для всей системы школьного образования. От их устойчивого развития зависят качество подготовки учителей, внедрение современных методик обучения и адаптация образования к вызовам цифровой эпохи. Однако для этого необходимы новые подходы к управлению финансами, которые выходят за рамки традиционного бюджетного финансирования.

В Азербайджане расходы на образование в 2023 году составили около **3,9 млрд манатов**, или **4,5% ВВП** (Stat.Az, 2024). Эти показатели близки к уровню стран СНГ, однако ниже европейских стандартов, где финансирование достигает в среднем 5–6 % ВВП (OECD, 2022). При этом расходы вузов по-прежнему ориентированы преимущественно на заработную плату и содержание инфраструктуры, что ограничивает возможности для инвестиций в инновации, научные проекты и международное сотрудничество.

Международная практика показывает, что успешные университеты строят свою финансовую политику на принципах диверсификации источников доходов, активного участия в грантовых программах, развития государственно-частного партнерства и цифровизации финансовых процессов (OECD, 2022; UNESCO, 2021). Для Азербайджана внедрение таких моделей становится стратегической задачей, особенно в сфере педагогического образования, где необходимость обновления материально-технической базы и внедрения инновационных подходов стоит наиболее остро.

Таким образом, исследование инновационных подходов к управлению финансами педагогических вузов является актуальным не только для повышения эффективности использования ресурсов, но и для формирования новых стратегий развития. Научная новизна работы состоит в акценте на инновационные формы финансирования (гранты, проектное финансирование, государственно-частное партнерство), которые способны обеспечить долгосрочную устойчивость педагогических вузов в условиях глобальных вызовов.

**Методология**

Исследование базируется на комплексном методологическом подходе, включающем элементы экономического анализа, педагогического менеджмента и сравнительных исследований.

Ключевым является **системный метод**, позволяющий рассматривать финансовые ресурсы вузов не только как экономическую категорию, но и как инструмент стратегического развития. Такой подход дает возможность выявить взаимосвязь между финансовыми механизмами и качеством педагогического образования.

В работе использован **сравнительно-аналитический метод**, позволивший сопоставить практику Азербайджана с международным опытом. Были изучены модели государственно-частного партнерства, грантового финансирования и цифровизации финансов в университетах стран ЕС и США (OECD, 2022; UNESCO, 2021; World Bank, 2020).

**Статистический метод** применялся для анализа количественных данных: расходов на образование в Азербайджане в абсолютных цифрах (3,9 млрд манатов в 2023 году) и относительных показателях (4,5% ВВП) (Stat.Az, 2024). Эти данные сопоставлены с международными стандартами (5–6% ВВП в странах ОЭСР).

Важное место занимает **метод анализа документов**: нормативно-правовых актов Азербайджана, включая Постановление Кабинета Министров (2020), регулирующее финансирование образовательных учреждений.

Методология также включает **прогностический аспект**: на основе анализа современных тенденций предложены перспективные направления — цифровизация финансового менеджмента, диверсификация источников доходов, внедрение инновационных фондов.

К ограничениям исследования можно отнести недостаточную доступность детализированных данных о внебюджетных доходах педагогических вузов. Тем не менее использование международных отчетов и национальной статистики позволяет сформировать достаточно полное представление о проблеме и возможных перспективах ее решения.

**Теоретические основы и инновационные подходы**

Управление финансовыми ресурсами в современных университетах рассматривается

не только как процесс распределения бюджета, но и как стратегический инструмент развития. Для педагогических вузов, где основной задачей является подготовка учителей и научно-методическая работа, финансовая политика приобретает особое значение.

Инновационные подходы включают цифровизацию финансовых процессов, развитие государственно-частного партнерства, участие в международных грантах и создание инновационных фондов при университетах. Всё это позволяет диверсифицировать источники доходов и укрепить финансовую устойчивость вузов.

**Ситуация в Азербайджане**

Финансирование педагогических вузов в Азербайджане преимущественно обеспечивается государственным бюджетом. В 2023 году на образование было выделено около 3,9 млрд манатов, из которых значительная часть направлена на оплату труда, содержание инфраструктуры и административные расходы (Stat. Az, 2024). Однако потенциал внебюджетных источников пока используется недостаточно. Педагогические вузы сравнительно редко привлекают грантовое финансирование или развивают коммерческие образовательные программы. Кроме того, цифровизация финансовых процессов в вузах находится в стадии внедрения, что снижает оперативность и прозрачность управления ресурсами.

**Международный опыт**

Опыт развитых стран показывает, что успех университетов во многом зависит от диверсификации источников финансирования. В США и странах ЕС доля внебюджетных доходов университетов достигает 40–60 % от общего бюджета (OECD, 2022). Значительное внимание уделяется государственно-частному партнерству: университеты создают совместные образовательные программы с корпорациями, привлекают инвестиции в инновационные проекты и участвуют в международных фондах поддержки науки и образования.

**Перспективы и рекомендации**

В перспективе повышения финансовой устойчивости педагогических вузов Азербайджана целесообразно сосредоточить внимание на внедрении **современных цифровых платформ управления финансовыми ресурсами**, которые обеспечат прозрачность бюджетных процессов, контроль за использованием средств и повышение эффективности финансового планирования. Применение таких инструментов позволит университетам формировать долгосрочные финансовые стратегии на основе аналитических данных и прогнозных моделей.

Одновременно необходимо **активнее развивать механизмы государственно-частного партнёрства (ГЧП)**, способствующие привлечению дополнительных инвестиций и расширению инфраструктурных возможностей. Участие частного сектора в образовательных проектах позволит создавать совместные исследовательские центры, инновационные лаборатории и программы переподготовки педагогических кадров, что, в свою очередь, повысит конкурентоспособность вузов на национальном и международном уровнях.

Особое значение имеет **расширение участия педагогических вузов в международных грантовых инициативах** и программах финансирования, реализуемых Европей-

ским Союзом, Всемирным банком и ЮНЕСКО. Это откроет возможности для привлечения внешних ресурсов, стимулирования академической мобильности и интеграции азербайджанских педагогических вузов в глобальное образовательное пространство. Не менее важным направлением является развитие предпринимательской активности вузов, включая создание центров дополнительного образования, исследовательских консалтинговых подразделений и стартап-инкубаторов в сфере педагогических технологий. Такие шаги позволят вузам формировать внебюджетные источники дохода, обеспечивая финансовую самостоятельность и инновационную динамику.

Таким образом, устойчивое развитие педагогических вузов требует системного подхода, включающего как внутренние меры по цифровизации и оптимизации финансов, так и внешние механизмы партнёрства и международного сотрудничества. В долгосрочной перспективе стратегически важно **постепенно увеличивать долю государственных расходов на образование в ВВП до уровня стран ОЭСР (не менее 5%)**, что станет гарантией модернизации образовательной инфраструктуры, повышения заработной платы преподавателей и укрепления качества педагогического образования в целом.

**Заключение**

Инновационные подходы к управлению финансовыми ресурсами являются ключевым условием устойчивого развития педагогических вузов Азербайджана. Использование цифровых технологий, диверсификация источников финансирования и привлечение международных грантов способны вывести педагогическое образование на качественно новый уровень и укрепить позиции страны в глобальном образовательном пространстве.

**Актуальность проблемы.** Данное исследование направлено на анализ ключевых вызовов, связанных с обеспечением финансовой устойчивости педагогических вузов Азербайджана в условиях образовательных реформ, цифровой трансформации и усиливающейся международной конкуренции. Ограниченность бюджетных средств, недостаточная диверсификация источников доходов, а также потребность в модернизации инфраструктуры и внедрении инноваций делают необходимость пересмотра подходов к управлению финансовыми ресурсами особенно актуальной. Работа способствует пониманию того, как инновационные финансовые механизмы могут повысить качество педагогического образования и обеспечить долгосрочное развитие вузов.

**Научная новизна проблемы.** Научная новизна заключается в комплексном рассмотрении инновационных моделей финансового управления (цифровизация, проектное финансирование, государственно-частное партнёрство, международные гранты) применительно к педагогическим университетам Азербайджана. В исследовании впервые сопоставлены национальные подходы с международными практиками (UNESCO, OECD), что позволяет выявить структурные ограничения существующей системы и обосновать необходимость внедрения новых финансовых инструментов. Работа формирует научно аргументированное представление о том, как инновационные механизмы могут стать фактором повышения устойчивости и конкурентоспособности педагогических вузов в современных условиях.

**Практическая значимость проблемы.** Практическая значимость исследования проявляется в том, что полученные результаты могут быть использованы для разработки

эффективных стратегий финансового развития педагогических вузов. Рекомендации исследования помогут вузам внедрять цифровые инструменты финансового менеджмента, расширять участие в международных грантовых программах, развивать государственно-частное партнёрство и формировать внебюджетные источники доходов. Реализация предложенных подходов позволит повысить прозрачность и эффективность использования ресурсов, укрепить материально-техническую базу, а также улучшить качество подготовки педагогических кадров в Азербайджане.

## Литература


1. Ahmadov H. Education Funding System in Azerbaijan as One of the Main Directions of the State Strategy for the Development of Education //Universidady Sociedad. — 2022. — T. 14, № 6. — S. 333–339.
Доступ из Web of Science: https://www.webofscience.com/wos/woscc/full-record/WOS:000897544600035
Доступ из Scopus: https://www.scopus.com/record/display.uri?eid=2-s2.0-85143225316
2. Аллахвердиева А. Ф. Влияние сертификации учителей на их мотивацию // Научные труды Института образования Азербайджанской Республики. — Баку, 2023.
3. Азербайджан Республика. Об образовании: Закон. — Баку, 2009.
4. Bilalov B. Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. — Bakı: Elm, 2006. — 312 s.
5. Əsədova M. R. Təhsil müəssisələrinin maliyyə idarəçiliyində müasir yanaşmalar. — Bakı: Elm və Təhsil, 2022. — 228 s.
6. OECD. Education at a Glance 2022: OECD Indicators. — Paris: OECD Publishing, 2022. — 450 p.
7. Постановление Кабинета Министров Азербайджанской Республики «О правилах финансирования государственных образовательных учреждений». — Баку, 2020.
8. State Statistical Committee of the Republic of Azerbaijan. Education Expenditure and GDP Data, 2023–2024. — Baku, 2024.
9. UNESCO. Global Education Monitoring Report 2021/2022: The Role of Funding in Ensuring Quality Education. — Paris: UNESCO Publishing, 2021. — 470 p.
10. World Bank. Azerbaijan Education Sector Analysis: Strengthening Governance and Financing. — Washington, D.C.: The World Bank, 2023. — 120 p.
11. Zaynalov R. A. Təhsil sistemində idarəetmə mexanizmlərinin optimallaşdırılması. — Bakı: Elm və Təhsil, 2021. — 210 s.


**А.Ф.Аллахвердиева**

## Инновационные подходы к управлению финансовыми ресурсами в педагогических вузах: опыт и перспективы в Азербайджане

**Резюме**

В статье рассматриваются инновационные подходы к управлению финансовыми ресурсами педагогических вузов в Азербайджане в контексте образовательных реформ и

интеграции в мировое образовательное пространство. Подчеркивается роль цифровизации, проектного финансирования и государственно-частного партнерства в обеспечении устойчивого развития вузов. Использованы статистические данные о расходах на образование в Азербайджане и их соотношении с ВВП. Приводится сравнительный анализ с международной практикой (данные UNESCO и OECD). Показано, что внедрение инновационных моделей финансового менеджмента позволяет не только повысить эффективность использования средств, но и создать условия для повышения качества педагогического образования.

**A.F.Allahverdiyeva**

**Pedaqoji universitetlərdə maliyyə resurslarının idarə edilməsinə innovativ yanaşmalar: Azərbaycanda təcrübə və perspektivlər**

**Xülasə**

Məqalədə pedaqoji ali təhsil müəssisələrinin maliyyə resurslarının idarə olunmasında innovativ yanaşmaların rolu araşdırılır. Məqalədə təhsil islahatları və qlobal təhsil məkanına inteqrasiya kontekstində rəqəmsallaşma, layihə maliyyələşməsi və dövlət-özəl tərəfdaşlığının əhəmiyyəti vurğulanır. Azərbaycanda təhsil xərcləri və onların ÜDM-də payı ilə bağlı statistik məlumatlardan istifadə olunmuşdur. UNESCO və OECD məlumatlarına əsaslanan beynəlxalq təcrübə ilə müqayisəli təhlil təqdim olunur. Nəticələr göstərir ki, maliyyə menecmentinin innovativ modellərinin tətbiqi yalnız vəsaitlərin səmərəli istifadəsini artırmır, həm də pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsi üçün zəmin yaradır.

**A.F.Allahverdiyeva**

**Doctoral student at the institute of education of the Republic of Azerbaijan**

**innovative approaches to financial resource management in pedagogical universities: experience and prospects in Azerbaijan**

**Summary**

The article examines innovative approaches to managing the financial resources of pedagogical universities in Azerbaijan in the context of educational reforms and integration into the global educational space. It emphasizes the role of digitalization, project financing, and public-private partnerships in ensuring sustainable university development. Statistical data on education expenditures in Azerbaijan and their share of GDP are used. A comparative analysis with international practice (UNESCO and OECD data) is provided. The findings show that the introduction of innovative financial management models not only increases the efficiency of resource use but also creates conditions for improving the quality of pedagogical education.

**Redaksiyaya daxil olub:** 12.12.2025

***TƏHSİLİN KEYFİYYƏTİNİN TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİ***
***QUALITY ASSURANCE IN EDUCATION***
***ВОПРОСЫ ОБЕСПЕЧЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ***

*UOT 37.014.6, 378.1*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ DAXİLİ KEYFİYYƏT TƏMİNATININ FORMALAŞMASINDA ESG STANDARTLARININ ROLU

**Nigar Namiq qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, SABAH qrupları magistrantı*
**ORCİD:** 0009-0007-1295-5989
**E-mail:** nigar.mammadova@arti.edu.az
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.30

***Açar sözlər:*** *daxili keyfiyyət təminatı, ESG standartı, akkreditasiya, təhsil,*
***Ключевые слова:*** *внутренняя система обеспечения качества, стандарты ESG, аккредитация, образование*
***Key words:*** *internal quality assurance, ESG standards, accreditation, education*

Ali təhsil müəssisələrində keyfiyyətin idarə olunması günümüzdə rəqabətqabiliyyətli universitet modelinin əsas şərtinə çevrilmişdir. Təhsil sistemində baş verən qlobal dəyişikliklər, əmək bazarının artan tələbləri və beynəlxalq tanınma ehtiyacı ali məktəbləri daha səmərəli, şəffaf və nəticəyönlü keyfiyyət təminatı mexanizmləri yaratmağa sövq edir. Bu mexanizmlərin mərkəzində isə daxili keyfiyyət təminatı sistemi dayanır. Daxili keyfiyyət təminatı yalnız akademik fəaliyyətə nəzarət edən inzibati prosedurlar toplusu deyil, həm də tədrisin məzmunundan tələbə təcrübəsinə, idarəetmə strukturundan müəllimlərin peşəkar inkişafına qədər bütün prosesləri əhatə edən institusional mədəniyyətdir.

Beynəlxalq səviyyədə keyfiyyət təminatı sahəsində ən geniş qəbul edilən çərçivə – ESG (European Standards and Guidelines) standartları – ali təhsilin keyfiyyətinə dair ümumi yanaşmanı formalaşdıraraq bu mədəniyyətin inkişafına istiqamət verir. ESG-nin əsas ideyası ondan ibarətdir ki, universitetlər öz keyfiyyət təminatı sistemlərini vahid Avropa məkanında qəbul edilmiş prinsiplərə uyğun quraraq həm daxili iş mexanizmlərini təkmilləşdirir, həm də xarici qiymətləndirmə proseslərinə hazır olur. Bu baxımdan ESG daxili keyfiyyət təminatının strukturlaşdırılması, siyasət və prosedurların aydın şəkildə müəyyən edilməsi, maraqlı tərəflərin prosesə cəlb olunması və davamlı təkmilləşdirmə mexanizmlərinin qurulması üçün əsas normativ baza kimi çıxış edir.

**Daxili keyfiyyət təminatı** ali təhsil müəssisəsinin tədris, idarəetmə və ümumi akademik fəaliyyətinin keyfiyyətini planlı şəkildə qorumaq və davamlı şəkildə yaxşılaşdırmaq məqsədi ilə həyata keçirdiyi siyasət və prosedurlar sistemidir. Bu sistem universitetin daxilində tədrisin keyfiyyətinə nəzarəti, müəllim fəaliyyətinin monitorinqini, tələbə nailiyyətlərinin qiymətləndirilməsini, akademik proqramların mütəmadi olaraq təhlil edilməsini, idarəetmə proseslərinin səmərəliliyini və strateji hədəflərə uyğunluğunu təmin edir. Daxili keyfiyyət təminatı həmçinin universitetin özünü qiymətləndirmə mexanizmlərini, data əsaslı qərarverməni, müxtəlif maraqlı

tərəflərin – o cümlədən tələbələrin, müəllimlərin və işəgötürənlərin – prosesdə iştirakını əhatə edir. Bu yanaşma ali təhsil müəssisəsində şəffaflıq, hesabatlılıq və davamlı təkmilləşdirmə mədəniyyətinin formalaşmasına xidmət edir. Daxili keyfiyyət təminatı yalnız mövcud vəziyyəti qiymətləndirməyə deyil, həm də inkişaf istiqamətlərini müəyyənləşdirməyə yönəlmiş dinamik və çevik bir mexanizmdir.

**Avropa standartları və təlimatları (ESG)**

Avropa Standartları və Təlimatları (ESG) Avropa Ali Təhsil Sahəsində (EHEA) təhsil və təlimin keyfiyyətinin təmin edilməsini və inkişafını dəstəkləmək üçün yaradılmış hərtərəfli çərçivədir. Bu standartlar və təlimatlar ali təhsil müəssisələrinin və milli səviyyədə təhsil sistemlərinin beynəlxalq standartlara uyğunluğunu təmin etmək, keyfiyyətin təminat mexanizmlərini təkmilləşdirmək və tələbələrə yüksək keyfiyyətli təhsil imkanları təmin etmək üçün nəzərdə tutulub. (ESG 2015)

**ESG-nin əsas elementləri**

**Məzmun və Prinsiplər:** ESG ali təhsilin keyfiyyəti ilə bağlı ümumi prinsipləri və dəyərləri müəyyən edir. Bu məzmun təhsil və təlim, tədqiqat, idarəetmə, işçi heyəti və tələbə cəlbi kimi müxtəlif sahələri əhatə edir. Məsələn, təhsil və təlimdə keyfiyyət tələbə mərkəzli yanaşmanı dəstəkləyir və müxtəlifliyi təşviq edir [5].

**Tətbiq Sahələri:** ESG-nin xüsusi tətbiq sahələri ali təhsil müəssisələrinin məqsədlərini, siyasətlərini və təcrübələrini qiymətləndirmək üçün istifadə olunur. Bu sahələrə tələbə öyrənmə təcrübəsi, tədrisin keyfiyyəti, tədqiqatın effektivliyi, institusional idarəetmə və keyfiyyət təminatı prosesləri kimi sahələr daxildir.

**Keyfiyyətin Təminatı və Qiymətləndirilməsi:** ESG ali təhsil müəssisələrinə daxili keyfiyyət təminatı mexanizmlərini inkişaf etdirməyə və xarici keyfiyyətin qiymətləndirilməsi proseslərində iştirak etməyə kömək edir. Bu, təşkilatlara keyfiyyət təminatı siyasətlərini və proseslərini müəyyən etmək, həyata keçirmək və inkişaf etdirmək üçün rəhbərlik edir [3].

**Beynəlxalq əməkdaşlıq və müqayisəlilik:** ESG müxtəlif ölkələrin ali təhsil sistemlərinin müqayisəliliyini artırmaq və beynəlxalq əməkdaşlığı təşviq etmək üçün nəzərdə tutulmuşdur. Bu, Avropadakı ali təhsil müəssisələrinin beynəlxalq standartlara uyğunluğunu təmin etmək və tələbələrin, işçilərin və tədqiqat fəaliyyətlərinin beynəlxalq səviyyədə tanınmasını asanlaşdırmaq üçün vacibdir [3].

**ESG-nin əhəmiyyəti və təsirləri:** ESG Avropada ali təhsil sahəsinin inkişafına töhfə vermək üçün daim nəzərdən keçirilir və yenilənir. Bu proses dəyişən ehtiyacları və inkişaf edən ən yaxşı təcrübələri əks etdirmək üçün ardıcıl səyləri əhatə edir. Buna görə də, ESG-nin davamlı olaraq yenilənməsi ali təhsil sahəsindəki dəyişikliklərə uyğunlaşmaq və keyfiyyət standartlarını davamlı olaraq təkmilləşdirmək üçün çox vacibdir.

ESG-nin qəbul edilməsi ali təhsil müəssisələrinə keyfiyyət təminatı proseslərini təkmilləşdirməyə və beynəlxalq miqyasda daha rəqabətqabiliyyətli olmağa kömək edir. O, həmçinin tələbələrə daha keyfiyyətli təhsil imkanları təqdim edir və ali təhsil sistemlərinin müqayisəliliyini artırmaqla beynəlxalq əməkdaşlığı təşviq edir [5].

**Problemin aktuallığı.** Müasir ali təhsil sistemi sürətlə dəyişən əmək bazarının, rəqəmsallaşmanın və beynəlxalq inteqrasiyanın tələblərinə uyğunlaşmaq məcburiyyətindədir. Bu şərait-

də daxili keyfiyyət təminatı ali təhsil müəssisələrinin rəqabətqabiliyyətliliyinin əsas şərtlərindən birinə çevrilmişdir. Avropa Standartları və Təlimatları (ESG, 2015) keyfiyyətin idarə olunması üçün vahid çərçivə təqdim edir və Azərbaycanda təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından xüsusi aktuallığa malikdir. ESG-nin tətbiqi universitetlərin şəffaflığının, hesabatlılığının və tələbə mərkəzli yanaşmasının gücləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, daxili keyfiyyət təminatı ESG standartları kontekstində sistemli şəkildə təhlil edilir və bu standartların Azərbaycan ali təhsil məkanına inteqrasiyası elmi əsaslarla qiymətləndirilir. Araşdırmada DKT-nın funksional elementləri – keyfiyyət siyasəti, monitorinq, sənədləşmə, məsuliyyət bölgüsü və fəaliyyət göstəriciləri – vahid model çərçivəsində sistemləşdirilərək yeni konseptual yanaşma təqdim olunur.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Tədqiqat nəticələri ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması, monitorinq mexanizmlərinin təkmilləşdirilməsi və strateji idarəetmənin gücləndirilməsi üçün praktiki baza yaradır. ESG-yə uyğunlaşdırılmış yanaşmalar universitetlərin akkreditasiyada uğur qazanmasına, tələbə mərkəzli tədris proseslərinin inkişafına və keyfiyyət mədəniyyətinin formalaşmasına bilavasitə tətbiq oluna bilər.

## Ədəbiyyat

1. Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESG). Brussels: European Association for Quality Assurance in Higher Education (ENQA), 2015.

2. Harvey, L. *A History and Glossary of Quality Evaluation in Higher Education.* Birmingham: Quality Research International, 2021.

3. Vlăsceanu, L., Grünberg, L., & Pârlea, D. *Quality Assurance and Accreditation: A Glossary of Basic Terms and Definitions.* Bucharest: UNESCO-CEPES, 2007.

4. Frazer, M. *Quality Assurance in Higher Education: Concepts and Trends.* London: Higher Education Policy Institute, 2020.

5. Sursock, A., & Smidt, H. *Trends. A Decade of Change in European Higher Education.* Brussels: EUA Publications, 2010.

**N.N.Məmmədova**

## Ali təhsil müəssisələrində daxili keyfiyyət təminatının formalaşmasında ESG standartlarının rolu

### Xülasə

Məqalədə ESG standartlarının ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin formalaşdırılmasındakı rolu təhlil edilir. Bu standartların keyfiyyət mədəniyyətinin inkişafına, institusional idarəetmənin gücləndirilməsinə və tədris prosesinin davamlı təkmilləşdirilməsinə təsiri araşdırılır. Xüsusi diqqət daxili keyfiyyət prosedurlarının Avropa təcrübələri ilə uyğunluğuna, monitorinq və qiymətləndirmənin səmərəliliyinə, eləcə də maraqlı tərəflərin

qərar qəbuletmə proseslərinə cəlb olunmasına yönəldilir. Tədqiqatın nəticələri göstərir ki, ESG standartlarının inteqrasiyası ali təhsil müəssisələrinin fəaliyyətində şəffaflığın, hesabatlılığın və ümumi effektivliyin artırılmasına xidmət edir, onların rəqabətqabiliyyətini və dayanıqlılığını gücləndirir.

**Н.Н.Мамедова**

**Роль стандартов ESG в формировании внутренней системы обеспечения качества в высших учебных заведениях**

**Резюме**

В статье анализируется роль стандартов ESG в формировании внутренних систем обеспечения качества в высших учебных заведениях. Рассматривается их влияние на развитие культуры качества, укрепление институционального управления и обеспечение непрерывного совершенствования учебного процесса. Особое внимание уделяется согласованности внутренних процедур качества с европейскими практиками, эффективности мониторинга и оценивания, а также вовлечённости заинтересованных сторон в процессы принятия решений. Результаты исследования показывают, что интеграция стандартов ESG способствует повышению прозрачности, ответственности и общей эффективности деятельности вузов, укрепляя их конкурентоспособность и устойчивость.

**N.N Mammadova**

**The role of ESG standards in shaping internal quality assurance in higher Education institutions**

**Summary**

This article examines the role of ESG standards in shaping internal quality assurance systems within higher education institutions. It highlights how ESG principles support the development of a quality culture, strengthen institutional governance, and promote continuous improvement in teaching and learning. The study focuses on the alignment of internal quality processes with European practices, the effectiveness of monitoring and evaluation mechanisms, and the engagement of stakeholders in decision-making. The analysis shows that the integration of ESG standards enhances transparency, accountability, and overall institutional performance, contributing to the competitiveness and sustainability of higher education institutions.

**Redaksiyaya daxil olub:** 08.12.2025

## *PSİXOLOGİYA*
## *ПСИХОЛОГИЯ*
## *PSYCHOLOGY*

### *ÜMUMİ PSİXOLOGİYA*
### *ОБЩАЯ ПСИХОЛОГИЯ*
### *GENERAL PSYCHOLOGY*

*UOT 159.9*

# PEŞƏ FƏALİYYƏTİNİN MƏNƏVİ VƏ PSİXOLOJİ ASPEKTLƏRİ

**Gülər Akif qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**ORCİD:** 0009-0001-5875-5006
**E-mail:** gularmammadovagm@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.31

***Açar sözlər:*** *peşə, peşə fəaliyyəti, münasibət, psixologiya, yanaşma*
***Ключевые слова:*** *профессия, профессиональная деятельность, отношение, психология, подход*
***Key words:*** *profession, professional activity, attitude, psychology, approach*

Peşə fəaliyyəti insanların bütövlükdə psixikasına, eləcə də onun ayrı-ayrı xassələrinə ciddi şəkildə təsir edir. Hər bir peşə fəaliyyəti özünün somatik təsiri, peşə seçimi imkanları baxımından fərqləndiyi kimi, psixikasının da burada rolu böyükdür. Peşəyə yararlılıqda "psixi seçim" özü də müəyyən mənada mexaniki xarakter daşıyır. Bir sıra peşələr vardır ki, onların müvəffəqiyyətlə icrası üçün oxşar psixi keyfiyyətlər lazımdır. Bu keyfiyyətlər uyğun gəlmədikdə insan o peşədə çalışa bilmir və ya yararsız işçi kimi o işdən uzaqlaşır. Məsələn, diqqətsiz adam mühasib ola bilməz. Açıq, həqiqəti olduğu kimi söyləyən, ürəyindən keçənləri dilinə gətirən adamdan diplomat çıxmaz. Qan görəndə qorxan şəxsdən həkim olmaz. Bu siyahını istənilən qədər artırmaq olar. Hərbiçi, gəmi kapitanı və s. bu kimi peşələrə yiyələnmək üçün başqa keyfiyyətlər lazımdır. Deməli, həmin peşədə çalışmaq üçün insandan xüsusi keyfiyyətlər tələb olunur.

Məlumdur ki, peşə seçimi üçün digər tələblər də mövcuddur. Bura ixtisas seçərkən imtahan verilməsi, dissertasiya müdafiə etmək və s. daxildir. Təhsil, iş təcrübəsi və s. ümumi keyfiyyətlərin yaranmasına səbəb olur. Bu isə peşənin spesifikasına uyğunluq yaradır, o cümlədən psixikada belə uyğunluq baş verir. Əksinə, fərqli peşədə çalışmaq üçün fərqli psixi xüsusiyyətlər özünü göstərir.

İnsanın peşə fəaliyyətinin psixikaya təsiri qaçılmazdır. Bu, birdən-birə baş vermir. Təzə işə başlayan işçi əvvəlcə xırdalıqları, incəlikləri görə bilmir və qavramır. İstənilən peşə, onun müvəffəqiyyətli icrası fəaliyyət sahəsinə uyğun psixi uyğunlaşma tələb edir. Musiqiçi, müğənni olmaq üçün musiqi duyumu olmalı və daim inkişaf etdirilməlidir. Rəssam üçün ən incə rəngləri belə qavramaq lazımdır. Bu xüsusiyyətləri olmayan, inkişaf etdirilməyən şəxslər ya işdən gedir,

yaxud həyatı boyu əziyyət çəkirlər.

Peşə fəaliyyəti eyni zamanda ayrı-ayrı psixi proseslərə də təsir göstərir. Fikrimizi diqqət və qavrayışla bağlı nümunə əsasında şərh edək. Peşə fəaliyyətindən asılı olaraq peşəyə uyğun hər hansı bir obyektin, onun ayrı-ayrı detallarının qavranılması güclənir. Məsələn, peşəkar korrektor kitabı oxuyarkən onun elə incəliklərini görür ki, başqaları ona diqqət yetirmir. Peşəkar həkim xəstəni müayinə edərkən peşəkar olmayanın görə bilmədiyi əlamətləri asanlıqla görür.

Belə nümunələrin sayını istənilən qədər artırmaq olar. Diqqətlə bağlı da kifayət qədər misal çəkmək olar. Məsələn eyni bir obyektə müxtəlif peşə sahibləri fərqli mövqedən yanaşırlar. Təsəvvür edin ki, vaqonun pəncərəsindən eyni mənzərəni seyr edən fərqli peşə sahiblərinin diqqəti həmin obyektə necə yönəlir. Əkinçini torpağın yararlığı, rəssamı mənzərənin gözəlliyi, geoloqu torpağın geoloji strukturu maraqlandırır və diqqətini həmin obyektdə o baxımdan yönəldir.

Göründüyü kimi insanın psixikasını müəyyən mənada onun peşə fəaliyyəti müəyyənləşdirir, onun mənəvi,estetik aləmini, maraqlarını formalaşdırır. Bir-birilə ziddiyyət təşkil edən peşə sahiblərinin münasibətləri də fərqli olur. Yəni insanın davranışı, sosial vərdişləri, həyat tərzi, məişəti və s. onun peşəsi ilə birbaşa bağlıdır.

Peşədən asılı olaraq gəlir və xərclər, geyim, hətta yeməyin və s. fərqli olduğu məlumdur. Maddi imkanı zəif olan şəxs tez-tez restorana gedə bilməz. Yüksək gəlir sahibi olan ucuz kafedə nahar etməz və s. Yəni hər kəsin həyat tərzi onun gəlirindən asılıdır. Eyni peşə sahibinin, oxşar gəliri olan şəxslərin həyat tərzi də uyğun olur. Buradan da peşə fəaliyyətinin davranış və münasibətlərə təsiri fikrimizcə aydın olur.

Peşənin insana təsirini aşağıdakı kimi ümumiləşdirmək olar: 1) asudə vaxt büdcəsi; 2) məişət şəraiti; 3) geyimi; 4) qidalanma; 5) əyləncələrinin xarakteri (restorana getməsi, musiqi dinləməsi, teatra getməsi, əyləncələri və s.); 6) ailə vəziyyəti; 7) əhatə dairəsi, dostları, yoldaşları.

İnsanın fiziki, psixi və sosial deformasiyasına onun peşə fəaliyyətinin ciddi şəkildə təsiri qaçılmazdır. Bunlar da onun şəxsiyyətini, həyat tərzini, münasibətlər sistemini müəyyənləşdirir. İnsanın fiziki-somatik strukturu ilk növbədə "peşə seçiminə" təsir edir. Yəni hansısa bir peşədə çalışmaq üçün onda müəyyən fiziki-somatik uyğunluq olmalıdır və yaxud hansısa xüsusiyyətlər olmamalıdır. Məsələn, peşəkar müğənni olmaq üçün insanın səs aparatı bu tələblərə cavab verməlidir. Səsi olmayan və ya tələblərə cavab verməyən səsin sahibi peşəkar müğənni ola bilməz. Dəmirçi güclü və sağlam olmalıdır. Zəif, gücsüz adamın fiziki güc tələb olunan işdə çalışması mümkün deyil. Kök, ləng olan şəxsdən sirk akrobatı çıxmaz. Qozbeldən hərbiçi, kor adamdan rəssam, kar adamdan bəstəkar və s. ola bilməz. Deməli, eyni peşə sahiblərində oxşar keyfiyyətlər olmalıdır. Başqa sözlə, dəmirçi və sairə bu kimi peşə sahiblərinin hamısı üçün güc, fiziki sağlamlıq olmalıdır. Və ya, peşəkar müğənnilərin hamısı üçün səsin olması vacibdir. Deməli, peşənin xarakterindən asılı olaraq onların hamısı üçün ümumi oxşarlıqlar olmalıdır və bu da psixikada, xarakterdə, davranışda və s. oxşarlıqlar yaradır. Göründüyü kimi "peşə seçimi", onun tələbləri həm də somatik xüsusiyyətlərlə bağlıdır. Bunlar mexaniki peşə seçimi adlanır. Mexaniki olaraq peşə üçün yararlı olanlar və ya yararlı olmayanlar seçilir. Müəyyən bir peşədə çalışmaq orqanizmdə somatik dəyişikliklərə səbəb olur. İstər istəməz, somatikada peşənin tələblərinə uyğun deformasiya baş verir. Peşədə uzun müddət çalışmaq həmin iş üçün lazım olan işlək orqanları gücləndirir.

*"Peşə fəaliyyətindən irəli gələn somatik deformasiya bioloji prinsiplərə uyğun olaraq "funksiya bədən üzvünü yaradır" mənası daşıyır"* [6, s.401]. Bir halda ki, peşənin tələblərinə

uyğun olaraq bədən üzvləri aktivləşir, digərləri zəifləyir, onda demək olar ki, peşə sahibinin orqanizmi deformasiyaya uğrayır. Bununla bağlı həyatda rastlaşdığımız çoxsaylı misallar göstərmək olar. Məsələn, pianoçunun barmaq əzələləri güclü olur. Çöl işlərində çalışanların (əkinçi, bənna və s.) sifətlərinin dərisi tündləşir, əlləri möhkəm olur. Qapalı mühitdə, yazı-pozu işləri ilə məşğul olanların əzələləri zəif, üzləri solğun olur. Əlbəttə, belə nümunələrin sayını istənilən qədər artırmaq olar. Mühazirə oxuyan müəllimlərin boğazlarında farengit özünü göstərir.

Təbii ki, insanın həyatı yalnız peşə fəaliyyəti ilə məhdudlaşmır. Hər kəsin həyatında ailə, ailə mühiti vacib rol oynayır. Deməli, kişi və qadının peşə fəaliyyəti onun ailə mühitinə, davranışına, münasibətlər sisteminə təsir etdiyi kimi, eləcə də əksinə, ailə həyatı onun peşə fəaliyyətinə, uğur və uğursuzluqlarına təsir edir. Burada bir neçə cəhətə xüsusi diqqət yetirmək lazımdır. Yəni eyni peşə sahəsində çalışan ər-arvadın qarşılıqlı münasibətlərinə, müxtəlif peşələrdə çalışan ər və arvadın münasibətlərinə və s. Pedaqoq və psixoloqlar (Ə.Ə. Əlizadə, Ə.S. Bayramov, A.N. Abbasov. İ.S. Kon, V.A. Suxomlinski və b.) ailə həyatından bəhs edərkən ilk növbədə ailənin psixoloji mühitinə diqqət yetirirlər. Bu, bir tərəfdən psixi sağlamlığa, digər tərəfdən uşaqların düzgün tərbiyəsinə şərait yaradır. "*Ər-arvad arasında səmimiyyətin, mehribanlığın, xoş ünsiyyətin, qarşılıqlı anlama və hörmətin olması ona görə vacibdir ki, bu bir tərəfdən, ailədə müsbət mənəvi və psixoloji iqlimin yaranmasına imkan verir, onun dayaqlarını möhkəmləndirir, ikinci bir tərəfdən uşaqların düzgün tərbiyəsindən ötrü əlverişli şərait yaranır. Onlar da bir-birlərinə, valideynlərinə hörmətlə yanaşır, ailə üçün, el-oba üçün layiqli vətəndaş kimi yetişirlər"* [1, s.106].

Bununla bərabər elə spesifik peşələr vardır ki, onların ailə mühiti digərlərindən kəskin şəkildə fərqlənir. Məsələn, dənizdə çalışan neftçilər. Onlar həyatlarının, günlərinin yarısını dənizdə, digər yarısını evdə keçirirlər. İki həftə evdə olmayan kişi(ata) arvadı, uşaqları üçün fərqli şəkildə qavranılır. Atanın (ərin) evdə olmadığı günlərdə onlar darıxır, nə vaxt gəlməsini gözləyirlər. Kişinin evdə olmadığı vaxt qadın evin bütün ağırlıqlarını öz üzərinə götürür. Bazarlıq, məişət işləri, qohumlarla münasibət və s. bura daxildir. Kişinin evə qayıtması da evdəkilər tərəfindən fərqli şəkildə qəbul edilir. Söhbət apardığımız qadınların bir qismi ərin növbəni başa vurmasını belə qəbul edir: "Uşaqlar atalarının evə dönməsin səbirsizliklə gözləyirlər. Elə mən özüm də. Amma elə bil ki, ikili hiss yaşayırıq. Evdə olmadığı iki həftə ərzində evdə başqa ab-hava olur. Kişi evə gəldikdən sonra sanki hər şey dəyişir. Bəzən ərim deyir ki, uşaqlar çox səs-küy salır. Uşaqlara irad tutur. Bu da uşaqlara xoş gəlmir. Elə özüm də bəzən çaşıb qalıram. Elə bil ki, evdə hər şey dəyişir. Yenidən dənizə qayıdanda evdə mühit dəyişir, darıxırıq".

Qadınlarla söhbətdən belə məlum olur ki, kişinin müəyyən müddət evdə olmaması, məsuliyyətin onların üzərində olması bir tərəfdən onları sərbəstlışdirir, digər tərəfdən çətinliklə üzləşirdirir. Elə bilki, ikili hiss yaşayırsan, xarakterin ikiləşir. Bir qisim qadınlar isə hesab edirlər ki, kişinin müəyyən müddət evdə olmaması onları bir-birlərinə daha möhkəm bağlayır. Elə bil ki, həyat daha maraqlı olur. Bir-birimizi bezdirmirik.

Hərbiçi, dənizçi və s. bu qəbildən olan peşələr də vardır ki, ailə həyatına, ər-arvad münasibətlərinə fərqli şəkildə təsir edir. Məsələn, dənizçilər var ki, aylarla evdən ayrı düşür. Təbii ki, belədə ailə həyatı digər ailələrdən fərqlənir. Əlbəttə belə nümunələrin sayını kifayət qədər artırmaq olar. Hesab edirik ki, onların hər biri ilə bağlı ayrıca tədqiqatlar aparıla bilər.

Göründüyü kimi, ailə, ailənin xüsusiyyətləri, onun məişət şəraiti, maddi təminatı, əhatə

dairəsi birbaşa peşədən asılıdır. Eyni zamanda, peşə fəaliyyətinin özü, hətta hansı peşənin seçilməsi ailədən asılıdır.

**Problemin aktuallığı.** Şəxsiyyət heç də öz-özünə deyil, səmərəli, məqsədyönlü tərbiyə və fəaliyyət prosesində formalaşdırılır. Bunlarla yanaşı və daha ciddi şəkildə peşə fəaliyyəti insanın davranışını, xarakterini, peşəyə, ailəyə, özünə və başqalarına münasibətini formalaşdırır. İnsanın emosiyaları, psixi haləti, əhval ruhiyyəsi onun davranışında təzahür edir. Bu baxımdan peşə fəaliyyətinin mənəvi və psixoloji aspektləri ilə bağlı araşdırılması dövrümüz üçün çox aktual məsələlərdəndir.

**Problemin elmi yeniliyi.** Peşə fəaliyyətinin insanın həyat və fəaliyyətinə təsiri böyükdür. Bununla yanaşı, eyni peşə sahiblərinə xas olan ümumi cəhətlər də yaranır. Buna fiziki göstəricilər, zahiri görünüş, xüsusilə psixi oxşarlıq daxildir. Yəni onların inamı, zövqü simpatiya və antipatiyası, həyat tərzi və s. əsasən uyğun gəlir. Bütün bunlar isə davranışda öz əksini tapır. Məqalədə peşə fəaliyyətinin mənəvi və psixoloji aspektləri ilə bağlı məsələlər qeyd edilir. Digər tərəfdən peşə fəaliyyətinin şəxsiyyətinin inkişafı ilə bağlı fikirlər diqqət mərkəzinə çatdırılır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi** ondan ibarətdir ki, məqalədə irəli sürülən müddəalar və təkliflər təhsil işçiləri, müəllimlər, psixoloqlar, pedaqoqlar və geniş ictimaiyyət üçün aktual və əhəmiyyətlidir. Həmçinin məqalədən mühazirə materiallarında istifadə etmək üçün uyğundur.

### Ədəbiyyat


1. Abbasov, A.N. Ailə pedaqogikası: ali məktəblər üçün dərslik/ A.N. Abbasov. - Bakı: Mütərcim, -2019. -272 s.
2. Babayeva, Ş.R. Sosial psixologiya: dərslik/ Ş.R. Babayeva, M.F. Həsənova. - Bakı: ADPU, -2019. -338 s.
3. Çələbiyev, N.Z. Ailə psixologiyası/N.Z. Çələbiyev. -Bakı: Mütərcim,-2015. -416 s.
4. İlyasov, M.İ. Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları/ M.İ. İlyasov.- Bakı: Elm, -2005. -300 s.
5. Qəhrəmanova, Q.N. Peşə etikası/ Q.N. Qəhrəmanova. -Bakı: Optimist, -2019. -256 s.


**G.A.Məmmədova**

### Peşə fəaliyyətinin mənəvi və psixoloji aspektləri
### Xülasə

Peşə fəaliyyəti eyni zamanda insanın mənəvi aləminə, dünyagörüşünə təsir edir. Yəni hər bir peşənin xüsusiyyətinə uyğun olaraq keyfiyyətlər yaranır. Onun empatiya, simpatiya və antipatiya bəslədiyi fərqli cəhətlər meydana çıxır. Buna uyğun olaraq onun dünyagörüşü, münasibətlər sistemi formalaşır. İstər-istəməz bunlar vəhdət halında özünü ər-arvad, ailədaxili münasibətlər sistemində təzahür etdirir. Peşədən asılı olaraq insanın nöqteyi-nəzəri formalaşır.

**Г.А.Маммадова**

**Морально-психологические аспекты профессиональной деятельности**
**Резюме**

Профессиональная деятельность одновременно оказывает влияние на духовный мир человека и его мировоззрение. В зависимости от специфики каждой профессии формируются определённые личностные качества. Возникают различные проявления эмпатии, симпатии и антипатии. Соответственно формируется мировоззрение и система отношений личности. Неизбежно всё это в единстве проявляется в супружеских и внутрисемейных отношениях. В зависимости от профессии у человека складывается свой собственный взгляд на происходящее.

**G.A.Mammadova**

**Moral and psychological aspects of professional activity**
**Summary**

Professional activity simultaneously influences a person's moral world and worldview. Depending on the specific characteristics of each profession, certain personal qualities are formed. Various manifestations of empathy, sympathy, and antipathy emerge. Accordingly, an individual's worldview and system of interpersonal relations are shaped. Inevitably, all these elements, in their unity, are reflected in marital and intra-family relationships. A person's perspective on events is shaped by their profession.

**Redaksiyaya daxil olub:** 11.12.2025

*UOT: 159.9*

# STRESSİN PSİXOLOJİ TƏBİƏTİ VƏ ONUN İNSAN DAVRANIŞINA TƏSİRİ HAQQINDA

**Aynur Suleyman qızı Eyvazzadə**
*Gəncə Dövlət Universiteti Psixologiya kafedrasının*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0009-0008-4932-5937
**E-mail:** Aynur.babazade.1993@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.32

***Açar sözlər:*** *stress, psixoloji amillər, psixi gərginlik, sosial münasibətlər, şəxsi problemlər, depressiv davranış.*

***Ключевые слова:*** *стресс, психологические факторы, психологическое напряжение, социальные отношения, личные проблемы, депрессивное.*

***Key words:*** *stress, unpleasant situations, psychological factors, mental tension, social relations, personal problems, aggression, depressive behavior, awareness, goal*

Müasir cəmiyyətdə insanlar hər gün telefon, televiziya və digər kütləvi informasiya vasitələri vasitəsilə çoxsaylı, bəzən də ziddiyyətli məlumat axını ilə üzləşirlər. İnformasiya yükünün həddindən artıq çoxluğu psixoloji gərginliyin yaranmasına səbəb olur. Nəticədə cəmiyyətin müəyyən təbəqəsində dünya daha təhlükəli və mürəkkəb təsəvvür edilir, ünsiyyət dairəsi daralır, həyat tərzi dəyişir.

İnsan hər zaman mövcud olandan daha yaxşısına, daha mümkününə can atır. Filosofların fikrincə, insan "hər şeydən əvvəl, subyektiv həyəcan keçirən bir layihədir" və bu layihənin əvvəlində heç nə mövcud olmur; insan öz varlığını hansı şəkildə qurursa, onun həyatı da elə həmin istiqamətdə formalaşır. "Heç nə" adlandırılan ruhi boşluq — qorxu, narahatlıq, həyəcan və iztirab şəklində təzahür edən psixoloji vəziyyətlərdir və bütün bunlar insanda daxili ağrı yaradır. Bununla yanaşı, məhz bu hisslər insanı həyatın mənası barədə düşünməyə sövq edir.

İnsanın qarşılaşdığı problemlərin əksəriyyəti qeyri-müəyyən situasiyalar zamanı effektiv daxili strategiyanın olmamasından qaynaqlanır. Müharibələr, COVID-19 pandemiyasının yaratdığı narahatlıq, yaxın insanın itkisi kimi ağır təcrübələr normal həyat ritmini pozaraq insanın psixoloji durumuna ciddi zərbə vurur və stress vəziyyətini gücləndirir. Belə anlarda beyin təhlükə siqnalları göndərir və hormonların intensiv ifrazı bütün orqanizmi aktivləşdirir: ürək döyüntüsü artır, qan təzyiqi yüksəlir, tənəffüs sürətlənir, əzələlərdə gərginlik yaranır. Gələcəyə inamın azalması, sərt karantin rejiminə adaptasiya çətinliyi, sosial təcrid, maddi problemlər, ailədaxili münaqişələr və artan gündəlik qayğılar insanın psixoloji tarazlığını daha da sarsıdır. Psixoloji amillərin müxtəlifliyi və güclü təsir gücü insan orqanizminin ümumi funksional vəziyyətinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Stress insanın həyatında və ətrafında baş verən hadisələrə psixoloji cavab reaksiyasıdır, (reaksiya beyində başlayır), kecirdiyi emosional haldır. Stressə məruz qalmaq baş verən hadisənin xarakterindən deyil, insanın hadisəyə münasibətindən, daxilindəki qüvvə stressə qarşı mqbarizəni, cavab reaksiyasını təmin edir.

Həqiqətən, stress problemi son onilliklərdə psixologiya elminin ən geniş araşdırılan istiqamətlərindən birinə çevrilmişdir. Stressi yaradan səbəblər nədir dedik də isə, müasir dövrdə stress insanların gündəlik həyatının ayrılmaz bir hissəsinə çevrilməsini görürük. Hər bir insan həyatda ədalətsizlik, inciklik, təhqir və bəzən də qorxunc təhlükə ilə qarşılaşır. İş, təhsil, sosial münasibətlər və şəxsi problemlər insan psixologiyasına mənfi təsir göstərir, az və ya çox dərəcədə psixoloji stressə və depressiyaya gətirib çıxarır [2].

Stress təkcə emosional reaksiyalar toplusu deyil, həm də fizioloji, kognitiv və davranış səviyyəsində müşahidə olunan mürəkkəb sistemli bir prosesdir. H. Selye stressi "orqanizmin hər hansı tələbə verdiyi qeyri-spesifik cavab" kimi xarakterizə etmişdir [3 s. 42]. Müasir psixoloji yanaşmalar stressi situativ göstəricilər ilə fərdin daxili psixoloji resursları arasında qarşılıqlı təsirin nəticəsi kimi qiymətləndirir [5, s. 65]. Stressin psixoloji təbiətinin öyrənilməsində iki əsas elmi xətt — fizioloji model və kognitiv-emosional model fərqləndirilir.

Fizioloji modellərə görə stress xarici və ya daxili qıcıqlandırıcıya qarşı orqanizmin neyrofizioloji reaksiyasıdır. [7 s. 109]. Hormonların uzunmüddətli yüksəlişi insan davranışında aqressivlik, emosional labililik və diqqət pozuntuları ilə müşayiət olunur [6, s. 57].

Kognitiv-emosional yanaşma Lazarus və Folkmanın qiymətləndirmə nəzəriyyəsinə əsaslanır. Bu halda stress hadisənin özündən deyil, həmin hadisənin fərd tərəfindən necə qiymətləndirilməsindən yaranır [5, s. 72]. Bu baxımdan stressin psixoloji təbiəti situasiyanın təhlükəli və ya çətin qəbul edilməsi və fərdin həmin vəziyyətlə mübarizə resurslarını analiz etməsi prizmasımdan təhlil edilir. Emosional reaksiya isə qorxu, təşviş, gərginlik və ya aqressiya kimi duyğuların meydana gəlməsi ilə izah edilir.

Öz-özlüyündə stressin insan davranışına təsir mexanizmləri emosional davranış dəyişiklikləri, kognitiv funksiyaların zəifləməsi xarakterizə edilir.

Stress şəraitində fərddə emosional qeyri-sabitlik, təşviş pozuntusu, qəzəb reaksiyaları və depressiv meyillər müşahidə olunur. Xroniki stress emosional tükənmənin yaranmasına səbəb olur [9, s. 99]. Uzunmüddətli stress diqqət konsentrasiyasının azalmasına, yaddaş pozuntularına və qərarvermə prosesində impulsivliyə gətirib çıxarır [10 s. 410]. Aparılan neyropsixoloji araşdırmalar göstərir ki, kortizolun yüksək səviyyəsi prefrontal korteksin fəaliyyətini zəiflədir və koqnitiv nəzarəti zəiflədir. Bu isə öz növbəsində davranış reaksiyalarının destruktiv həm də adaptiv dəyişməsinə səbəb olur. Destruktiv və adaptiv davranışlar stress şəraitində fərdin göstərdiyi iki əsas reaksiya tipidir və bunlar qarşı-qarşıya qoyulsa da, psixoloji baxımdan bir-birini tamamlayan proseslər kimi dəyərləndirilir.

Stress gücləndikcə bəzi insanlarda destruktiv davranış nümunələri meydana çıxır: emosional partlayışlar, aqressiya, sosial təcrid, nəzarətsiz impulsivlik, zərərli vərdişlərə yönəlmə və situasiyadan qaçma kimi reaksiyalar psixikanın yüklənməsi nəticəsində formalaşır. Bu tip davranışlar insanın özünüqoruma mexanizminin pozulmuş forması hesab edilir və uzunmüddətli davam etdikdə şəxsi münasibətlərə, iş fəaliyyətinə və psixoloji sağlamlığa ciddi təsir göstərir [11]. Bunun fonunda adaptiv davranışlar insanın stresslə mübarizə qabiliyyətini gücləndirən konstruktiv strategiyalar kimi çıxış edir. Adaptiv reaksiya göstərən fərd situasiyanı analiz edir, problemi idarəolunan hissələrə bölür, alternativlər yaradaraq qərarverməni rasional əsaslara söykəndirir. O, emosional özünü tənzimləmədən, sosial dəstəkdən, diqqəti yayındıran sağlam üsullardan və problemlə üzləşməyə yönəlmiş fəal strategiyalardan istifadə edir. Beləliklə, destruktiv davranış stressin psixikada yaratdığı təzyiqin dağıdıcı təzahürü olduğu halda, adaptiv

davranış bu təzyiqi idarə etməyə və psixoloji tarazlığı bərpa etməyə yönəlmiş səmərəli mexanizmdir; fərdin psixoloji dayanıqlıq səviyyəsi və şəxsi resursları isə hansı davranış modelinin üstünlük təşkil edəcəyini müəyyənləşdirir.

Psixoloji dayanıqlıq stresslə mübarizənin əsas tənzimləyici amillərindən biridir və insanın çətin situasiyalara uyğunlaşmaq, psixoloji tarazlığını qorumaq və dəyişən şəraitə adekvat reaksiya vermək bacarığını ifadə edir. Yüksək psixoloji dayanıqlığa malik fərd stressi yalnız mənfi emosiyalar yaradan hal kimi deyil, həm də öyrənmə, inkişaf və daxili resursları aktivləşdirmə imkanı kimi dəyərləndirir. Belə fərdlərdə özünüidarəetmə, emosional sabitlik, problemlərin səbəb-nəticə əlaqəsini müəyyənləşdirmək və qərarvermə prosesini nəzarətdə saxlamaq bacarığı daha güclü olur. Stress vəziyyətində adaptasiya isə insanın həm psixoloji, həm də davranış səviyyəsində göstərdiyi uyğunlaşma strategiyalarını əhatə edir. Adaptasiya prosesində fərd situasiyanı qiymətləndirir, resurslarını ölçür və vəziyyətə ən uyğun reaksiyanı seçir. Bu strategiyalar problemlə üzləşmə, emosional tənzimləmə, sosial dəstəkdən istifadə, diqqəti yönəltmə və ya problemə yeni prizmadan baxmaq kimi üsullarla həyata keçirilir. Psixoloji dayanıqlıq nə qədər yüksək olarsa, adaptasiya bir o qədər effektiv olur, stressin dağıdıcı təsiri isə o qədər azalır. Nəticədə stress tamamilə aradan qalxmasa belə, insan onu idarə edilən və inkişaf üçün stimul yaradan bir prosesə çevirə bilir.

Problemyönlü və emosiyayönlü strategiyalar stresslə mübarizənin iki əsas psixoloji istiqamətini təşkil edir və fərdin stressli situasiyaya reaksiyasının hansı məntiqə əsaslandığını göstərir. Problemyönlü strategiyalar daha çox vəziyyətin özünü dəyişdirməyə, səbəbləri aradan qaldırmağa və praktiki həll yolları tapmağa yönəlir. Bu strategiyadan istifadə edən fərd yaranmış vəziyyəti analiz edir, informasiya toplayır, alternativ addımlar planlaşdırır və problemi mərhələlərlə idarə etməyə çalışır. Onlar üçün məqsəd nə qədər çətin olsa da, vəziyyəti dəyişmək və nəzarəti bərpa etməkdir. Bu tip strategiyalar adətən idarəolunan, real müdaxilə imkanı olan stress mənbələrinə qarşı daha effektiv hesab edilir. Bunun əksinə olaraq, emosiyayönlü strategiyalar stressi yaradan amili dəyişmək mümkün olmadıqda və ya problemin mexanizmi insanın nəzarəti xaricində olduqda ortaya çıxır.

Bu strategiyalar emosional gərginliyin azaldılmasına, daxili tarazlığın qorunmasına və psixoloji rahatlığın təmin edilməsinə xidmət edir. Emosiyayönlü yanaşma çərçivəsində fərd özünü sakitləşdirməyə, duyğularını tənzimləməyə, sosial dəstək axtarmağa, diqqəti başqa fəaliyyətlərə yönəltməyə və vəziyyəti müsbət tərəfdən yenidən qiymətləndirməyə çalışır. Hər iki strategiya stressin idarə olunmasında mühüm rol oynayır: problemyönlü strategiyalar dəyişdirilə bilən situasiyalarda effektivlik gətirir, emosiyayönlü strategiyalar isə dəyişdirilməsi mümkün olmayan vəziyyətlərdə daxili sabitliyi qorumağa yardım edir. Optimal psixoloji adaptasiya zamanı insan vəziyyətə uyğun olaraq bu iki strategiyanı balanslı şəkildə tətbiq edir.

Səmərəli adaptasiya strategiyalarından istifadə edən fərdlərdə psixoloji pozuntuların yaranma ehtimalı daha aşağı olur [7, s. 165].

Stress insan psixikasına və davranışına çoxşaxəli təsir göstərən universal psixoloji hadisədir. Onun təsiri fərdin psixoloji resursları, şəxsiyyət xüsusiyyətləri, sosial mühit və istifadə olunan adaptasiya strategiyalarından asılı olaraq dəyişir. Müasir psixoloji tədqiqatlar göstərir ki, stressin tam aradan qaldırılması mümkün olmasa da, onun idarəedilməsi və neqativ təsirlərinin minimumlaşdırılması psixoloji sağlamlığın qorunması üçün əsas şərtdir. Aparılan təhlil göstərir ki, stress insan psixikasının fəaliyyətində çoxşaxəli və dinamik prosesləri işə salan mürəkkəb

psixoloji hadisədir [1]. Stressin təsiri altında fərdin davranışında həm adaptiv, həm də destruktiv modellər formalaşa bilər və bu modellərin üstünlük təşkil etməsi birbaşa olaraq psixoloji dayanıqlığın səviyyəsi, emosional tənzimləmə bacarıqları və sosial dəstək resursları ilə əlaqəlidir. Yüksək psixoloji dayanıqlıq stressə qarşı konstruktiv münasibəti gücləndirir, fərdin situasiyaları daha adekvat qiymətləndirməsinə, problemlə üzləşməyə və səmərəli problemlərin həlli strategiyalarının seçilməsinə şərait yaradır. Bunun əksinə olaraq, psixoloji resursların zəif olduğu hallarda destruktiv davranış nümunələri artır, emosional pozuntular, impulsiv reaksiya, qaçma və sosial təcrid kimi nəticələr meydana çıxır. Stresslə mübarizədə iki əsas istiqamət — problemyönlü və emosiyayönlü strategiyalar — vəziyyətin idarəolunma dərəcəsindən və fərdin daxili resurslarından asılı olaraq müxtəlif səviyyədə effektivlik nümayiş etdirir. İdarə olunan situasiyalarda problemyönlü yanaşma daha uğurlu nəticələr verir, idarəolunmayan situasiyalarda isə emosiyayönlü strategiyalar psixoloji tarazlığı qorumağa xidmət edir. Nəticə olaraq, stressin mənfi təsirinin minimuma endirilməsi fərdin bu iki strategiyanı balanslı tətbiq etməsi ilə mümkündür. Məqalə yekun olaraq göstərir ki, stressin psixoloji mexanizmlərinin dərindən öyrənilməsi və fərdi mübarizə strategiyalarının düzgün seçilməsi insan davranışının tənzimlənməsi və psixoloji rifahın qorunması baxımından fundamental əhəmiyyət kəsb edir.

**Problemin aktuallığı.** Stressin psixoloji təbiətinin və insan davranışına təsirinin araşdırılması müasir dövrdə xüsusilə aktualdır, çünki sosial-iqtisadi dəyişikliklər, yüksək informasiya yükü və intensiv həyat tərzi fərdlərin psixoloji dayanıqlığını ciddi şəkildə sınağa çəkir. Psixoloji stressin idarə olunması ilə bağlı elmi biliklərin genişlənməsi psixi sağlamlığın qorunması, davranış pozuntularının qarşısının alınması və effektiv adaptasiya mexanizmlərinin formalaşdırılması üçün mühüm əhəmiyyət daşıyır. Müasir tədqiqatlar göstərir ki, stressin təsir mexanizmlərinin vaxtında müəyyənləşdirilməsi müxtəlif yaş qruplarında psixoprofilaktik tədbirlərin hazırlanmasını zəruri edir. Bu baxımdan, stressə qarşı effektiv mübarizə strategiyalarının elmi əsaslarla araşdırılması psixologiya elminin aktual problemlərindən biri olaraq qalır.

**Problemin elmi yeniliyi.** Bu tədqiqatın elmi yeniliyi stressin psixoloji təbiətinin destruktiv və adaptiv davranış modelləri ilə qarşılıqlı əlaqəsinin kompleks şəkildə təhlil edilməsindədir. Məqalədə psixoloji dayanıqlığın stressə cavab reaksiyalarını tənzimləyən əsas vasitə kimi nəzərdən keçirilməsi və problemyönlü–emosiyayönlü strategiyaların qarşılaşdırılaraq situativ effektivliyinin müəyyənləşdirilməsi yeni metodoloji yanaşma kimi çıxış edir. Araşdırmada fərdin psixoloji resurslarının stress adaptasiyasına təsiri aktual nəzəri konsepsiyalar əsasında sistemləşdirilir və bu, mövcud elmi ədəbiyyatda olan boşluğu qismən doldurur. Tədqiqat nəticələri stresslə mübarizə mexanizmlərinin daha dərindən anlaşılmasına və psixoprofilaktik müdaxilələrin təkmilləşdirilməsinə töhfə verir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın praktiki əhəmiyyəti onun nəticələrinin həm nəzəri-praktik fəaliyyət sahələrində, həm də tətbiqi tədqiqatlarda istifadə oluna bilməsi ilə müəyyən olunur. Aparılan araşdırma mövzunun əsas xüsusiyyətlərini sistemləşdirir, metodoloji yanaşmaları dəqiqləşdirir və mövcud elmi təsəvvürləri genişləndirir.

## Ədəbiyyat

1. Əliyev R. Psixologiya. – Bakı: Nurlan, 2008. – 351 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. – Bakı: Çinar-çap, 2002. s.622.

3. Şelye H. Distressiz stres. Proqress. 2008.
4. Şelye H. Stress nə deməkdir. // Emosiya və motivasiya psixologiyası. M. 2002.
5. .Lazurski R.S. Stressin nəzəriyyəsi və psixifizioloji tədqiqatlar. 1970.
6. Судаков К.В. Системные механизмы эмоционального стресса. М.Медицина 1981.
7. Кириллов В. Гипокинезия и стресс. М.Медицина. 1975. Стр. 152–153.
8. Ababkov V.A. Stressə adaptə. Bakı. 2009.
9. Фрейд З. Психологические этюды: Минск. 2001. 608 стр.
10. Селье Г. Очерки об адаптационном синдроме. М.: Медгиз. 1960. 210 стр.
11. Селье Г. Стресс, адаптация и функциональное нарушение. Кишинев. Штиница. 1984. 195 стр.

**A.S.Eyvazzadə**

**Stressin psixoloji təbiəti və onun insan davranışına təsiri haqqında**
**Xülasə**

Məqalədə stressin psixoloji mahiyyəti, onun yaranma mexanizmi, insan davranışına təsir formaları və psixoloji adaptasiya modelləri araşdırılır. Müasir psixologiyada stress fərdin emosional, koqnitiv və davranış səviyyələrində müşahidə olunan çoxşaxəli proses kimi qəbul olunur. Tədqiqat göstərir ki, stressin həm destruktiv, həm də adaptiv funksiyaları mövcuddur və bu, fərdin psixoloji dayanıqlıq səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır.

**А.С.Эйваззаде**

**Психологическая природа стресса и его влияние на поведение человека**
**Резюме**

В современной психологии стресс рассматривается как многокомпонентный процесс, проявляющийся на эмоциональном, когнитивном и поведенческом уровнях. Исследование показывает, что стресс обладает как деструктивными, так и адаптивными функциями, что в значительной степени зависит от уровня психологической устойчивости индивида.

**A.S.Eyvazzade**

**The psychological nature of stress and its impact on human behavior**
**Summary**

The article examines the psychological essence of stress, the mechanisms of its emergence, its forms of influence on human behavior, and models of psychological adaptation. In modern psychology, stress is viewed as a multifaceted process manifested at emotional, cognitive, and behavioral levels. Research indicates that stress has both destructive and adaptive functions, which largely depend on an individual’s level of psychological resilience.

**Redaksiyaya daxil olub:** 11.12.2025

*UOT 821.512.162*

# AĞARƏHİM RƏHİMOVUN YARADICILIĞI KONTEKSTİNDƏ QƏHRƏMANLARIN PSİXOLOJİ PORTRETLƏRİ VƏ KOQNİTİV YANAŞMALARIN OBRAZ VƏ HADİSƏLƏRƏ TƏSİRİ

**Şəhla Adil qızı Şükürova**
*Bakı Qızlar Universitetinin magistirantı*
**ORCİD:** 0009-0009-5989-7338
**E-mail:** skrvsh01@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.33

***Açar sözlər:*** *Ağarəhim Rəhimov, yaradıcılıq, konqnitiv yanaşmalar, qəhrəmanların psixoloji portretləri, obraz və hadisələrə təsir*

***Ключевые слова:*** *Агарагим Рагимов, творчество, познавательные подходы, психологические портреты героев, влияние на образы и события*

***Key words:*** *Agaragim Rahimov, creativity, cognitive approaches, psychological portraits of heroes, influence on images and events*

Ədəbiyyat yalnız hadisələrin təsviri deyil, insan şüurunun, yaddaşının, emosiyalarının və qavrayışının dilə gətirildiyi bir sistemdir. Ağarəhim Rəhimov bu sistemi ustalıqla qurmağı bacaran yazıçılardandır. Onun əsərlərində hadisələrin səthi təsviri deyil, dərin psixoloji və mənəvi qatları ön plana çıxır. Koqnitiv yanaşmanın nəzəri əsaslarını əsas götürərək, müəllifin nəsr əsərlərində bu yanaşmanın təhlilini aşağıdakı şəkildə aparmaq mümkündür:

1) *Konseptual sistemlər və onların təsiri (konsept–insanın təfəkküründə formalaşmış anlayış vahididir)*

Ağarəhim Rəhimovun əsərlərində əsas konseptual sistemlərdən biri “insan və cəmiyyət”, “tənhalıq və zaman”, “keçmiş və yaddaş” anlayışları ətrafında qurulmuşdur. Yazıçının “Küləklər şəhərində bir axşam” və “Yaddaşın sükutu” kimi hekayələrində qəhrəmanların daxili psixoloji vəziyyəti, keçmişlə bağlı xatirələr və zamanın axarı konseptual çərçivələr vasitəsilə ifadə olunur; [5, s.183]

2) *Metaforik sistemlərin təhlili (metafora- bir konseptual sahənin digərinə keçirilməsi yolu ilə mənalandırma mexanizmidir)*

Koqnitiv metafora nəzəriyyəsinə əsasən, Ağarəhim Rəhimovun nəsrində tez-tez rast gəlinən metaforik konstruksiyalar aşağıdakı kimidir:

Həyat=yol – qəhrəmanların həyat yolunu keçməsi, seçim etməsi, dayanması və ya azması bu metafora ilə şərh olunur;

Keçmiş=yük – keçmişdə yaşanmış hadisələr, travmalar və ya səhvlər bir yük kimi təqdim olunur və qəhrəmanın daşımalı olduğu bir məsuliyyətə çevrilir;

Daxili dünya=otaq – qəhrəmanın psixoloji vəziyyəti tez-tez “bağlı otaq”, “qaranlıq künc”, “pəncərəsiz yer” kimi metaforik ifadələrlə əks olunur [4, s.6-13].

3*) Psixoloji və emosional çərçivələrin qurulması (çərçivə (frame) bir hadisə və ya obyektin başa düşülməsi üçün zəruri olan biliklər toplusudur)*

Ağarəhim Rəhimovun yazı üslubu introspektiv və analitikdir. Qəhrəmanların daxili monoloqları, özləri ilə dialoqları koqnitiv çərçivələrin qurulmasında mühüm rol oynayır. Qorxu, tənhalıq, narahatlıq kimi emosiyalar spesifik leksika və sintaktik quruluşlar vasitəsilə verilir. Məsələn, təkrar olunan sözlər, uzun pauzalar, kəsik cümlələr oxucuda həmin emosiyanı yaşamağa kömək edir;

4) *Senari strukturu və yaddaş (müəyyən situasiyanın inkişaf mərhələlərini göstərən düşüncə sxemidir)*

Ağarəhim Rəhimovun "Çərpələng" adlı uşaq xatirələri üzərində qurulmuş bu hekayədə keçmişə dönüş mental ssenarilər əsasında verilir. Qəhrəmanın uşaqlıqda çərpələng buraxdığı bir səhnə onun həyat yoluna çevrilir. *"Köhnə bağçada çərpələng göyə qalxdı, amma ipi əlimdə qırıldı. Həmin gündən nəyəsə bağlanmaqdan qorxuram".* Burada çərpələng →azadlıq arzusu, ipi qırmaq →travma, bağlılığın itməsi kimi konseptual əlaqələr qurulur [3, s.202];

5) *Mədəni-milli konseptlər və yaddaş*

Yazıçının yaradıcılığında milli-mədəni kodlar da koqnitiv yanaşma baxımından təhlilə açıqdır. "Torpaq", "ana", "el", "yurd", "qəbir" kimi konseptlər həm konkret, həm də abstrakt mənada istifadə olunur və oxucunun milli-mədəni təcrübəsinə əsaslanaraq başa düşülür.

Müəlliflərin əsərlərində bu portretlər, qəhrəmanların həyat hadisələrinə verdikləri reaksiyaları və daxili konfliktləri ilə zəngindir. Bu nəsr əsərlərində psixoloji portretin əsas komponentlərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

– *Emosional vəziyyət:* Qəhrəmanların sevinc, kədər, qorxu və digər emosiyalarının təsviri;

– *Daxili monoloq*: Qəhrəmanların özləri ilə apardıqları dialoqlar və düşüncə prosesləri;

– *Daxili konflikt*: Qəhrəmanların qarşılaşdıqları dilemmalar və qərar qəbul etmə prosesləri.

Koqnitiv yanaşma, insanın düşüncə və idrak proseslərini öyrənən bir sahə olaraq, Rəhimovun yaradıcılığında mühüm yer tutur. Müəllifin nəsr əsərlərində rast gəldiyimiz koqnitiv elementləri aşağıdakı şəkildə qruplaşdırmaq daha məqsədəuyğundur:

– *Daxili monoloq və özünütəhlil üsulu*

Rəhimovun əsərlərində qəhrəmanların daxili monoloqları və düşüncə axınları onların psixoloji vəziyyətlərini və qərar qəbul etmə proseslərini əks etdirir. Məsələn, "Yaddaşda yaşar xatirələr" əsərində müəllif keçmiş hadisələri xatırlayaraq özünü dərk etməyə çalışır və oxucunu da bu prosesə cəlb edir;

– *Tənhalıq və daxili boşluq*

Ağarəhim Rəhimovun "Küləklər şəhərində bir axşam" əsərindəki qəhrəman xarici dünyaya deyil, öz daxili aləminə qapılmış biridir. Onun üçün şəhər bir canlı orqanizm kimi görünür və o, bu canlı varlığın içində mənasız bir hissəcik olduğunu hiss edir;

– *Uşaqlıq travmaları və ondan doğan davranışlar*

Yazıçının "Çərpələng" əsərinin qəhrəmanı uşaqlıq illərində yaşadığı xüsusi bir hadisənin illər sonra da həyatına necə təsir etdiyini hiss edir. Çərpələng uçurarkən ipin qırılması onun ümidsizliyi, sevdiklərini itirmək qorxusu ilə simvolik əlaqədə verilir;

– *Daxili ziddiyyətlər və özünü tanıma prosesi*

Nəsr əsərləri içərisində "Sükut məkanı" hekayəsinin qəhrəmanı həyatın mənasının axtarışındadır. Lakin, hər dəfə daxili dilemmanın qarşısında dayanır. Hissləri və düşüncələri arasında daim ziddiyyətlər var;

– *Yaddaş və keçmişin psixoloji yükü*

Ağarəhim Rəhimovun “Kölgə” əsərində qəhrəman keçmişdə etdiyi bir səhvi bağışlaya bilmir və bu səhv, onun gündəlik həyatına sirayət edir. Çünki keçmişlə barışmayan insan gələcək də yaşaya bilmir;

*– Cəmiyyətin təzyiqi və sosial maskalanma*

Yazıçının “Qapalı dairə” əsərinin qəhrəmanı cəmiyyətin gözləntilərinə uyğunlaşmağa çalışır, amma daxilində fərqli biridir. O, sosial rol oynayır, lakin bu rol onu yorur və psixoloji parçalanmaya gətirib çıxarır;

Ağarəhim Rəhimovun qəhrəmanları sadəcə davranışla yox, daxili düşüncə axını, özünüdərk prosesi, süuraltı seçimləri ilə formalaşır. Koqnitiv yanaşmada bu “daxili aləm” obrazın əsas konfiqurasiyası sayılır. Məsələn, “Sükut məkanı” əsərində “*Sükut elə qışqırır ki, onu anlamaq üçün səssizliyə qulaq asmaq lazımdır*” – cümləsi sükutun şəxsiləşdirilməsi və qəhrəmanın onu “dinləməsi”, obrazın psixoloji və koqnitiv strukturunu müəyyən edir. Burada sükut həm xarici gerçəkliyin, həm də daxili şüurun ifadəsinə çevrilir [2, s.187].

Koqnitiv metafora nəzəriyyəsinə görə, insanlar abstrakt anlayışları konkret təcrübələr vasitəsilə dərk edirlər, Rəhimovun obrazları da hadisələri konkret şəkildə qavramaq əvəzinə metaforik şüurla izah edirlər. Məsələn, “Küləklər şəhərində bir axşam” əsərində “Külək mənim daxilimdəki qarışıqlığı təkrarlayırdı, sanki şəhər mənim beynimdəki səssiz müharibənin əks-sədası idi”- cümləsində obrazın daxili vəziyyəti təbiət hadisəsi (külək) ilə paralelləşdirərək təqdim olunur. Bu, hadisənin psixoloji deyil, koqnitiv strukturda simvolik mənalandırılmasıdır.

Koqnitiv yanaşmada hadisələrin qavranılması yalnız vizual deyil, daxili təfsir və emosional reaksiya ilə bağlıdır. Məsələn, “Çərpələng” əsərindən “*Çərpələng göydə idi, amma mənim ruhum yerdən qalxa bilmirdi”*- ifadəsi sadəcə uşaq oyununu deyil, qəhrəmanın həyatındakı azadlıq istəyini və daxili məhdudiyyətləri işarə edir. Koqnitiv yanaşma burada hadisələrin çoxmənalı qəbulunu və onun emosional yükünü izah etməyə kömək edir.

Kollektiv yaddaş və kimlik obrazlarının qurulmasına isə misal olaraq “Ana” və digər hekayələri göstərmək olar. Yazıçının bir çox əsərlərində “ana”, “torpaq”, “çörək”, “ocaq” kimi simvollar vasitəsilə kollektiv yaddaş arxetipləri qurulur. Bu anlayışlar fərdi hadisələrdə yer alsa da, onların kökündə milli-mədəni koqnitiv çərçivələr dayanır. Məsələn, “*Anamın səsi gələndə, mən torpağın nəfəsini eşidirdim”* ifadəsi fərdi hiss (ana xatirəsi) ilə milli-mədəni (torpaq, yurd) birləşir. Koqnitiv baxımdan bu, çoxqatlı konseptual metafora ilə bağlıdır.

Məqalənin elmi yeniliyi

Bu məqalənin elmi yeniliyi aşağıdakı məqamlarla xarakterizə olunur:

1. Ağarəhim Rəhimovun yaradıcılığı ilk dəfə sistemli şəkildə koqnitiv yanaşma əsasında təhlil edilir. Əvvəlki tədqiqatlarda yazıçının psixoloji təsvirləri araşdırılsa da, koqnitiv metafora, konseptual çərçivə, yaddaş skriptləri, emosional framelar kimi anlayışların tətbiqi elmi yenilik kimi çıxış edir.

2. Qəhrəmanların psixoloji portretləri koqnitiv psixologiyanın nəzəri mexanizmləri ilə əlaqələndirilir. Obrazların daxili monoloqu, travmatik yaddaşı, emosional strukturlaşması ilk dəfə koqnitiv model üzərindən izah olunur.

3. Müəllifin mətnlərində metaforik sistemlərin konseptual xəritəsi qurulur. “Həyat=yol”, “keçmiş =yük”, “daxili dünya =otaq” kimi əsas koqnitiv metaforalar elmi şəkildə təsnif edilərək təhlil edilir.

4. Ağarəhim Rəhimovun əsərlərində milli-mədəni koqnitiv kodların xüsusiyyətləri müəyyənləşdirilir.

"Torpaq", "ana", "yurd", "ocaq" kimi konseptlər ilk dəfə koqnitiv filologiya kontekstində şərh olunur. Bu xüsusiyyətlər məqaləni həm Azərbaycan ədəbiyyatında, həm də ümumi koqnitiv ədəbiyyatşünaslıq sahəsində yeni elmi yanaşma kimi dəyərləndirməyə imkan verir.

Məqalənin praktiki əhəmiyyəti və tətbiqi

Aparılan təhlillər həm nəzəri, həm ə praktiki baxımdan aşağıdakı sahələr üçün faydalıdır:

1. *Ədəbiyyat müəllimləri və magistr tələbələri üçün* – koqnitiv yanaşma əsasında mətn təhlili bacarıqlarının formalaşmasına yardım edir;

2. *Psixologiya və filologiya sahələri üçün* - psixoloji portretin və metaforik düşüncənin bədii mətnlərdə necə işlədiyini göstərərək inteqrativ yanaşma yaradır;

3. *Tədqiqatar üçün* – Rəhimovun yaradıcılığı kimi az araşdırılmış sahələrdə yeni istiqamətlər açır.

4. *Ədəbiyyat tədrisi üçün* – şagird və tələbələrdə mətnin dərin mənalarının araşdırılıb düşüncə formalarının müəyyən edilməsinə imkan yaradılır.

Bu baxımdan məqalə həm elmi, həm də tədris mühitində istifadə oluna biləcək metodoloji baza yaradır.

Hazırlanmış tədqiqat materialı aşağıdakı sahələrdə tətbiq oluna bilər:

1. Universitet dərslərində - "Müasir ədəbiyyatşünaslıq", "Koqnitiv dilçilik", "Psixolinqvistika", "Azərbaycan nəsri" fənlərində dərs vəsaiti kimi istifadə oluna bilər;

2. Magistr və doktorant səviyyəsində - koqnitiv yanaşmalar üzrə dərslik və ya metodik vəsait kimi istifadəsi mümkündür;

3. Yeni tədqiqatların aparılmasında – Rəhimovun yaradıcılığı əsasında digər yazıçıların psixoloji portretləri ilə müqayisəli araşdırmalara başlanıla bilər;

4. Psixoloji analizlərdə - uşaq travmaları, tənhalıq, sosial maskalanma, yaddaşın təsiri kimi məsələlərin bədii əsərlərdə necə təqdim edildiyini öyrənmək üçün tətbiq oluna bilər;

5. Məktəb ədəbiyyat proqramında – koqnitiv yanaşmanın sadələşdirilmiş forması dərs izahlarında istifadə edilə bilər.

## Nəticə

Ağarəhim Rəhimovun yaradıcılığında koqnitiv yanaşma obrazların yaradılmasında, hadisələrin strukturlaşdırılmasında və oxucunun mətnlə emosional əlaqəsində mühüm rol oynayır. Onun əsərlərində düşüncə strukturları, yaddaş modelləri, metaforik dil və emosional təhlil bir-birinə bağlanaraq müasir koqnitiv ədəbiyyatşünaslığın əsas nümunələrindən birini yaradır. Yazıçının əsərlərindəki bu cür yanaşma təkcə ədəbi baxımdan deyil, həm də psixoloji və fəlsəfi düşüncə müstəvisində təhlilə açıqdır.

## Ədəbiyyat

1. Rəhimov, A. Povestlər, hekayələr, düşüncələr / - Bakı: BAPQS, - 2004. - 619 s.
2. Rəhimov, A. Əsərlər 20 cilddə (hekayələr), Bakı: BDU nəşriyyatı, -I cild, - 2013. -500 s.
3. Rəhimov, A. Uşaq hekayələri / - Bakı: BQU nəşriyyatı, - 2017. -403 s.

4. Rəhimova, S.A. Ağarəhimin nəsrində şəxsiyyəti dəyərləndirmə // Bakı Qızlar Universiteti Elmi əsərlər, cild 12, - №4, -2021(48), - s.6-13.

5. Şərifova, S. Müstəqillik Dövrü Azərbaycan Ədəbiyyatında Qarabağ Mövzusunu Əks Etdirən Dram Əsərlərin, Ssenarilərin, Filmlərin Janr Xüsusiyyəti, Problematikası və Obrazları // Türk Dünyası Araştırmalar Temmuz - Ağustos 2023 cilt: 134 Sayı: 265 Sayfa: 183-216.

**Ş.A.Şükürova**

**Ağarəhim Rəhimovun yaradıcılığı kontekstində qəhrəmanların psixoloji portretləri və koqnitiv yanaşmaların obraz və hadisələrə təsiri**

**Xülasə**

Müasir ədəbiyyatşünaslıqda və filologiyada koqnitiv yanaşma ədəbi mətnlərin analizində əsas metodoloji istiqamətlərdən birinə çevrilmişdir. Azərbaycan ədəbiyyatında bu mərhələnin tətbiqi hələlik ilkin mərhələdə olsa da, bir sıra yazıçıların yaradıcılığı bu baxımdan dəyərləndirilə biləcək zəngin material verir. Onlardan biri də müasir Azərbaycan nəsrinin maraqlı nümayəndələrindən olan Ağarəhim Rəhimovdur. Yazıçının nəsr əsərləri koqnitiv yanaşma baxımından olduqca zəngin və təhlilə açıq materialdır. Ağarəhim Rəhimovun mətnləri insan düşüncəsini, yaddaşını və hisslərini dərinliklə əks etdirir. Bu baxımdan onun yaradıcılığı müasir ədəbiyyatşünaslıq və koqnitiv filologiya sahəsində tədqiqat üçün əhəmiyyətli mənbədir.

**Ш.А.Шукурова**

**Психологические портреты героев и влияние познавательных подходов на образы и явления в контексте творчества Агарагима Рагимова**

**Резюме**

В современном литературоведении и филологии познавательный подход стал одним из основных методологических направлений анализа литературных текстов. Хотя применение этого этапа в азербайджанской литературе пока находится на начальном этапе, творчество ряда писателей дает богатый материал, который можно оценить с этой точки зрения. Одним из них является Агарагим Рагимов-один из интересных представителей современной Азербайджанской прозы. Прозаические произведения писателя являются достаточно богатым по познавательному подходу и открытым для анализа материалом. Тексты агарагима Рагимова глубоко отражают человеческое мышление, память и чувства. В связи с этим его творчество является важным источником для исследований в области современного литературоведения и когнитивной филологии.

**Sh.A.Shukurova**

**Psychological portraits of heroes and the influence of cognitive approaches on images and phenomena in the context of Agharagim Rahimov's work**

**Summary**

In modern literary studies and philology, the cognitive approach has become one of the main methodological directions for the analysis of literary texts. Although the application of this stage in Azerbaijani literature is still at an early stage, the work of a number of writers provides rich material that can be evaluated from this point of view. One of them is Agaragim Rahimov, one of the most interesting representatives of modern Azerbaijani prose. The writer's prose works are quite rich in cognitive approach and open to analysis material. Agaragim Rahimov's texts deeply reflect human thinking, memory, and feelings. In this regard, his work is an important source for research in the field of modern literary studies and cognitive philology.

**Redaksiyaya daxil olub:** 08.12.2025

*UOT 159.9*

# AĞARƏHİM RƏHİMOVUN "GİRDAB" VƏ "SƏFALƏT" ƏSƏRLƏRİNDƏ ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏR

**Nərgiz Vüqar qızı Yeliyeva**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0001-4489-6705
**E-mail:** nergizyeliyeva4@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.34

***Açar sözlər:*** *ailə, dəyərlər, şəxsiyyətlərarası münasibətlər, ailədaxili konfliktlər, yazıçı, davranış motivləri*

***Ключевые слова:*** *семья, ценности, межличностные отношения, внутрисемейные конфликты, писатель, поведенческие мотивы*

***Key words:*** *family, values, interpersonal relationships, intra-family conflicts, writer, behavioral motives*

Azərbaycan nəsrinin mühüm nümayəndələrindən biri olan professor Ağarəhim Rəhimovun yaradıcılığında ailə münasibətləri, insanın mənəvi aləmi və şəxsiyyətlərarası konfliktlər daim diqqət mərkəzində olmuşdur. Yazıçının qəhrəmanları adətən mürəkkəb sosial-psixoloji mühitdə formalaşan, daxili ziddiyyətləri və xarici təsirlərlə mübarizəni özündə daşıyan obrazlardır. Onların həyat yolu, davranış motivləri və mənəvi seçimləri həm cəmiyyətin sosial mənzərəsini, həm də ailədaxili münasibətlərin psixoloji mexanizmlərini açmağa imkan verir.

Bu baxımdan, "Girdab" əsəri Rəhimov yaradıcılığında xüsusi yer tutur. Əsərdə ailə münasibətlərinin, xüsusilə ər-arvad və valideyn-övlad əlaqələrinin sosial psixoloji aspektləri geniş şəkildə təsvir olunur. Yazıçı fərdin ailə və cəmiyyət arasında qaldığı ziddiyyətləri obrazların psixoloji dinamikası ilə üzə çıxarır. Əsərdəki münaqişələrin kökü yalnız şəxsi xarakterlərdə deyil, həm də sosial şərtlərdə, ənənələrdə, gender rollarında və ailə institutunun cəmiyyətdəki funksiyalarında axtarılır.

Ailə kiçik sosial qrup kimi insanın formalaşmasında ən mühüm təsir gücünə malikdir. Ər-arvad münasibətləri, valideyn-övlad əlaqələri və ailədaxili qarşılıqlı təsir mexanizmləri fərdin davranış motivlərini müəyyənləşdirən əsas faktorlardır. Sosial psixologiyada ailə yalnız bioloji və hüquqi birlik deyil, həm də emosional, mənəvi və psixoloji münasibətlər sistemidir. "Əgər ailəni insanın mənəvi və psixoloji baxımdan rahatlıq, dinclik tapdığı yer kimi qəbul etsək o (ailə), böyük hərflərlə yazılmalı olan Evdir. "Ailə" və "ev" sinonim sözlər insanların şüuruna həkk olub. Biz ailə deyəndə evimizi, evimiz deyəndə ailəmizi düşünürük."(1, s.39)

Şəxsiyyətlərarası münasibətlərin öyrənilməsində bu xüsusiyyətlərin rolu olduqca vacibdir: qarşılıqlı təsir və psixoloji uyğunluq, ailədaxili rolların bölgüsü, dəyərlər sisteminin formalaşması, emosional münasibətin sabitliyi, münasibətlərin inikasında cəmiyyətin norma və stereotipləri bura aid etmək olar.

Professor Rəhimovun əsərlərində ailə münasibətləri adətən geniş sosial kontekstlə əlaqələndirilir. Yazıçı insan davranışının köklərini yalnız psixoloji amillərlə deyil, həm də iqtisadi, sosial və mənəvi şərtlərlə izah edir. Bu xüsusiyyət "Girdab"da xüsusilə qabarıqdır.

"Girdab" əsərində ər-arvad münasibətlərinin psixoloji təhlilini bir neçə bənddə psixoloji kontekstdə verə bilərik:

1. Hümmət və Şəfəq münasibətləri — ziddiyyətli psixoloji dinamika

Əsərdə əsas diqqət Hümmət və Şəfəq obrazlarının münasibətlərinə yönəlir. Onların əlaqəsi yalnız iki fərdin şəxsi emosional münasibəti deyil, həm də iki fərqli dəyər sisteminin, iki sosial mühitin toqquşmasıdır. Şəfəqin ailəsi kasıbdır və o həyatı çətinlik içində keçirmişdir. Bu mühit onu ehtiyatlı, qənaətcil, bəzən də kortəbii reaksiya verən şəxs kimi formalaşdırmışdır. Hümmət isə daha yüksək səviyyəli mənəvi mühitdən gəlmiş, ailəyə sahibdir. Onların psixoloji uyğunsuzluğu ailədaxili gərginliklərin əsas səbəbidir.

Əsərdə Hümmətin qardaşı Tubunun Hümmətə dediyi "Elə adamla ailə qur ki, sabah atasından, anasından istifadə edə biləsən" kimi ifadələr cəmiyyətin bir hissəsində mövcud olan maddi-praqmatik düşüncə tərzinin təzahürüdür. Hümmət bu sözlərə qarşı "Mən yaxşı ailə istəyirəm. Var-dövlət, yaxud güclü arxa yox" deməklə mənəvi-dəyərlər sistemini əsas aldığını göstərir. Bu fikir toqquşması artıq nikahdan əvvəl mövcud olan psixoloji ziddiyyətlərin ilk siqnallarını verir.

2. Şəffaf psixologiyanın pozulması: ünsiyyət, inamsızlıq və emosional soyuqluq

Ailə münasibətlərinin sabitliyi üçün ən vacib amillərdən biri emosional yaxınlıq və qarşılıqlı güvəndir. "Girdab"da bu iki amilin zamanla necə sarsıldığı təqdim olunur. Hümmətin düşüncələri, Şəfəqin davranışları, onların bir-birinə qarşı gözləntiləri dialoqlarda əksini tapır. Şəfəqin babası haqqında "kimsəyə pislik etməzdi. Paxıllıq nədir bilməzdi" (2, s. 307) sözləri onun şərəfli ömür sürməsini sübut edir. Bu isə öz təsirini Şəfəqə göstərmişdi.

Hümmət sevməyin, hörmət etməyin vacibliyinə inanır. Şəfəq isə "sevgi varsa, hər şey mümkündür" kimi iddialar səsləndirsə də, qərarlarında daha çox ehtiyatlıdır. Hümmətin "sevib-sevilmək bu qədər möhtəşəmdirsə, daha gözəl nə ola bilər?" sualı münasibətdəki psixoloji məsafənin dərinliyini göstərir.

Professor Rəhimov ailə tərbiyəsini cəmiyyətin mənəvi gücünün əsası kimi qiymətləndirir. Əsərdə ana-övlad və ər-arvad münasibətlərinin formalaşdırdığı psixoloji mühit geniş təhlil olunur.

Yazıçıya görə sağlam ailə: anlayışlı, fədakar, uşaqlarına nümunə olan, emosional cəhətdən stabil olan ailədir.

Ər-arvadın bir-birinə münasibətinin pozitiv olması uşaqların psixoloji inkişafında xüsusi rol oynayır. Buna görə "Girdab"da valideyn obrazlarının davranışları həm də gələcək nəslin formalaşmasında mühüm təsir kimi verilir.

Ailədə sevgi mühiti yetərli olmadıqda uşaqların həm emosional, həm də sosial adaptasiyası çətinləşir. Rəhimovun qəhrəmanları bu həqiqəti öz davranışları ilə təsdiqləyirlər. Yazıçı sosial psixologiyanın əsas müddəalarını bədii müstəviyə gətirərək göstərir ki, ailədəki mənəvi ab-hava gələcək cəmiyyət münasibətlərinin əsasını təşkil edir.

Ağarəhim Rəhimovun digər əsərlərində də ailədaxili münasibətlər mühüm yer tutur. Məsələn, "Canavar balası" əsərində ailə münasibətləri daha idealist şəkildə təqdim edilir. Yusif kişinin Surəyyaya göstərdiyi qayğı, onun yanında olmağa çalışmağı, çətinliklərə baxmayaraq mehribanlıq nümayiş etdirməsi ailə dəyərlərinin sağlam modelini göstərir. Bu kontrast "Girdab"dakı münasibətlərlə qarşılaşdırıldıqda ailələrin sosial-psixoloji fərqləri daha aydın görünür.

“Girdab” yalnız bir ailənin hekayəsi deyil; bütövlükdə cəmiyyətin ailə institutuna yanaşmasının tənqidi təqdimatıdır. Bununla belə biz deyə bilərik ki, ailə münasibətləri qarşılıqlı anlaşma üzərində qurulmalıdır, sevgi təkcə emosional hiss deyil, həm də iradə, fədakarlıq və sağlam ünsiyyət tələb edir, cəmiyyətin stereotipləri ailədaxili münasibətlərə mənfi təsir göstərə bilər, mənəvi dəyərlər maddiyyatdan üstün tutulmalıdır; ailə tərbiyəsinin sağlamlığı cəmiyyətin sağlamlığı deməkdir.

Ağarəhim Rəhimovun “Girdab” əsəri şəxsiyyətlərarası münasibətlərin psixoloji modelini ustalıqla təsvir edən nəsr nümunəsidir. Əsər ailə münasibətlərinin nə qədər mürəkkəb və çoxqatlı olduğunu göstərməklə yanaşı, cəmiyyətin sosial dəyərlərinin insan davranışına necə təsir etdiyini də açır.

Hümmət və Şəfəq münasibəti ailədəki psixoloji uyğunsuzluqların, mədəni fərqlərin, sosial təzyiqlərin insan taleyinə necə yön verə biləcəyini göstərən ibrətamiz bir modeldir. Yazıçı ailənin cəmiyyətdəki aparıcı rolunu qabardaraq mətn boyunca insanın mənəvi formalaşmasının təməlini ailə içi münasibətlərdə axtarır.

Nəticə olaraq, “Girdab” əsəri yalnız bədii yaradıcılığın məhsulu deyil, həm də sosial-psixoloji bir tədqiqatdır. Əsərin əsas mesajı ailənin insan həyatındakı bənzərsiz rolunu vurğulamaqdır: ailə nə qədər sağlamdırsa, cəmiyyət də bir o qədər güclüdür.

Ağarəhim Rəhimovun “Səfalət” romanı insan talelərini sosial mühitin sərt reallığı ilə üzüzə gətirən, cəmiyyətin mənəvi və sosial deqradasiyasını açıq şəkildə ifşa edən bir əsərdir. Romanın başlanğıcında təqdim edilən üç dilənçinin — Xeyransa, Məlahət və Dilbərin — həyat “portretləri” əsərin əsas ideya-fəlsəfi xəttini müəyyənləşdirir. Bu portretlər yalnız üç fərdin həyat tarixçəsi deyil, bütövlükdə cəmiyyətin əxlaqi aşınmasının, sosial ədalətsizliyin və insan münasibətlərindəki deformasiya proseslərinin göstəricisidir.

Əsərdə dilənçilik təkcə sosial yoxsulluğun ifadəsi kimi deyil, həm də cəmiyyətin əxlaqi səviyyəsinin göstəricisi kimi təqdim olunur. Müəllifin yaratdığı məkanda dilənçilik sərfəli “peşə”yə çevrilmiş, dilənçilər arasında “xodovoy” yerlər bölüşdürülmüş, hətta bu sahəni himayə edən məmur şəbəkəsi formalaşmışdır. Bütün bunlar insan münasibətlərində mənfəətçiliyin, riyakarlığın və özünüməhrumiyyətin normaya çevrildiyini göstərir.

Xeyransa obrazı şəxsiyyətlərarası münasibətlərdə maddiyyatın birinci yerə keçdiyini göstərən tipik nümunədir. Onun dilənçiliyi ailəsini dolandırmaq üçün tamamilə “normal məşğuliyyət” sayması mənəviyyatın deformasiyasının bariz təzahürüdür. Xeyransanın fala baxmaq, fırıldaqçılıq və sonda oğurluqla məşğul olması onun insanlarla qurduğu münasibətlərin mahiyyətini açır: münasibətlər məqsədli, manipulyativ və tamamilə maddiyyatyönlüdür.

Məlahətin hekayəsi isə daha çox “məişət dramı” çərçivəsində təqdim olunur. Onun taleyində də insani münasibətlər mehribanlıq və qarşılıqlı dayaq üzərində qurulmur; əksinə, oğlu Fazilin məsuliyyətsiz və əxlaqsız davranışları ana-övlad münasibətlərinin necə zədələnə biləcəyini nümayiş etdirir.

Romanın əsas yükü isə Dilbərin obrazı üzərində daşınır. Dilbər təkcə dilənçi deyil, həm də qaçqınlıq kimi böyük sosial faciənin daşıyıcısıdır. Onun həyat yolu müəllifə həm Qarabağ hadisələrinin faciəvi nəticələrini, həm də qaçqınların cəmiyyət tərəfindən unudulması, biganəlik və bürokratik özbaşınalıq kimi problemləri göstərmək imkanı verir. Dilbərin “Sən əmin ola bilərsən ki, sənin bacın ölər, ancaq ar-namusunu başqalarının çirkin ayaqları altına atmaz, Şahid” (3, səh.136) sözləri onun necə qürurlu və namuslu azərbaycanlı olduğunu sübut edir.

Dilbərin qarşılaşdığı insan münasibətləri, xüsusilə də dövlət qurumlarında gördüyü laqeydlik, onun qardaşı Şahidi yanına götürmə prosesi zamanı qarşısına çıxan haqsızlıqlar əsərdə sosial münasibətlər sisteminin çürümüşlüyünü üzə çıxarır. Burada münasibətlər mexaniki, soyuq, insanın ləyaqətini alçaldan xarakter daşıyır.

Bununla yanaşı, Dilbərin həyatına daxil olan "yaxşı insanlar"da var, lakin bu münasibətlər belə sosial sistemin basqısı altında zəif və təsirsiz qalır. Dilbər azacıq xoşbəxtliyə çatdığı anda həyat yoldaşı Ürfanın təsadüfi güllə ilə həlak olması əsərdə insan taleyini çox zaman sosial-siyasi anarxizmin müəyyən etdiyini göstərir. Bu hadisə şəxsiyyətlərarası münasibətlərə də təsir edən xaotik və təhlükəli mühitin mövcudluğunu vurğulayır.

"Səfalət" romanında münasibətlər iki əsas xətt üzrə inkişaf edir:

**1. Mənəvi deqradasiyanın doğurduğu münasibətlər:** maddiyyata köklənmiş, məqsədli, saxtalaşmış münasibətlər (Xeyransa, Fazil və digərləri).

**2.** Siyasi fəsadların formalaşdırdığı münasibətlər: qaçqınlıq, yoxsulluq, bürokratiya, özbaşınalıq mühiti içində yaranan gərgin, travmatik münasibətlər (Dilbər və ətrafı).

Beləliklə, müəllif göstərir ki, insan yalnız bioloji və psixoloji deyil, həm də sosial varlıqdır və onun münasibətlər sistemi cəmiyyətin mövcud şəraitindən birbaşa təsirlənir. Cəmiyyət əxlaqının pozulduğu mühitdə insanlar arasındakı münasibətlər də pozulur, saxtalaşır və zədələnir. Dilbərin taleyi bu prosesin ən dramatik göstəricilərindən biri kimi diqqət çəkir.

**Problemin aktuallığı.** Yazıçı Ağarəhim Rəhimovun "Girdab" və "Səfalət" əsərlərində təsvir olunan ailə münasibətlərindəki gərginlik, sosial ədalətsizlik və mənəvi böhran bu gün də cəmiyyət üçün səciyyəvidir. Əsərlər insan münasibətlərinin sosial mühit və mənəvi dəyərlərlə sıx bağlı olduğunu göstərməklə müasir sosial-psixoloji problemlərin öyrənilməsi baxımından aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Ailə münasibətlərinin sosial-psixoloji təhlili bir sistem kimi təqdim edilir. Məqalə göstərir ki, professor Rəhimovun əsərlərində ailə yalnız məişət hadisələrinin məkanı deyil, insanın mənəvi formalaşmasının əsas laboratoriyasıdır. "Girdab" və "Səfalət" əsərləri paralel şəkildə müqayisə edilir. Əsərlərin müxtəlif sosial mühitləri – ailədaxili psixoloji gərginliklərlə yüklü "Girdab" və sosial deqradasiyanın kəskin təzahürləri ilə səciyyələnən "Səfalət" – eyni yazıçının fərqli sosial-psixoloji modelləri necə qurduğunu ortaya qoyur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Ədəbiyyatın sosial psixologiya üçün model kimi istifadəsi. Rəhimovun əsərlərində təsvir olunan ailədaxili ziddiyyətlər, ünsiyyət problemləri və emosional uyğunsuzluqlar real həyatda ailə psixoloqları üçün nümunəvi situasiyalar yaradır. Ailə psixologiyası dərslərində və təlimlərdə istifadə oluna bilər. Hümmət–Şəfəq münasibətinin təhlili evlilikdə psixoloji uyğunsuzluqların mahiyyətini anlamaq üçün praktik nümunədir.

## Ədəbiyyat

1. Abbasov A.N., Məmmədli L.A. Ailə dəyərləri: Dərslik, Bakı, Mütərcim, 2023.
2. Rəhimov A. Girdab: Roman. Bakı: BAPQS, 2004.
3. Rəhimov A. Səfalət: Roman. Bakı: BAPQS, 2004.
4. https://www.scribd.com/document/574207651/C%C9%99l%C9%99biyev-Ail%C9%99-Psixologiyas%C4%B1-KI

**N.V.Yeliyeva**

**Ağarəhim Rəhimovun "Girdab" və "Səfalət" əsərlərində şəxsiyyətlərarası münasibətlər**
**Xülasə**

Ağarəhim Rəhimovun "Girdab" və "Səfalət" əsərlərində ailə münasibətləri və insan əlaqələrinin sosial-psixoloji mahiyyəti araşdırılır. "Girdab"da əsas diqqət ailə daxilindəki psixoloji dinamika və dəyər fərqlərinə yönəlir, "Səfalət"də isə insan talelər sosial ədalətsizlik, mənəvi tənəzzül və qaçqınlıq kimi cəmiyyət problemləri fonunda göstərilir. Hər iki əsər insan münasibətlərinin cəmiyyətin sosial-mənəvi şəraitindən güclü şəkildə asılı olduğunu vurğulayır.

**Н.В.Елиева**

**Межличностные отношения в произведениях Агарахима Рахимова «Вихрь» и «Мизери»**
**Резюме**

В произведениях Агарахима Рахимова «Водоворот» и «Страдания» исследуется социально-психологическая природа семейных отношений и человеческих связей. В «Водовороте» основное внимание уделяется психологической динамике и различиям в ценностях внутри семьи, в то время как в «Страданиях» судьбы людей показаны на фоне таких социальных проблем, как социальная несправедливость, моральный упадок и беженство. Оба произведения подчеркивают, что человеческие отношения в значительной степени зависят от социально-моральных условий общества.

**N.V.Yeliyeva**

**Interpersonal relationships in Agarahim Rahimov's works "Whirlwind" and "Misery"**
**Summary**

Agarahim Rahimov's works "Whirlpool" and "Misery" explore the socio-psychological nature of family relationships and human connections. In "Whirlpool", the main focus is on the psychological dynamics and value differences within the family, while in "Misery" human destinies are shown against the background of social problems such as social injustice, moral decline, and refugeeism. Both works emphasize that human relationships are strongly dependent on the socio-moral conditions of society.

**Redaksiyaya daxil olub:** 11.12.2025

***PEDAQOJİ PSİXOLOGİYA***
***ПЕДАГОГИЧЕСКАЯ ПСИХОЛОГИЯ***
***PEDAGOGICAL PSYCHOLOGY***

*UOT 37.015.3*

# UNİVERSİTET TƏLƏBƏLƏRİNDƏ STRESSİN YARANMASINA TƏSİR EDƏN AMİLLƏR

**Ayna Şirzad qızı Hacızadə**
*Sumqayıt Dövlət Universitetinin dosenti*
**Sevinc Oktay qızı Rzayeva**
*Sumqayıt Dövlət Universitetinin magistrantı*
**ORCİD:** 0009-0005-6149-1063
**E-mail:** rzayeva.sevinc29@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.35

***Açar sözlər:*** *stress, psixoloji sağlamlıq, stressin idarə olunması üsulları, emosional gərginlik, stressin təsirləri*
***Ключевые слова:*** *стресс, психологическое здоровье, управление стрессом, эмоциональное напряжение, последствия стресса*
***Key words:*** *stress, mental health, stress management, emotional tension, effects of stress*

Stress anlayışı XX əsrin ortalarından etibarən tədqiqatçılar tərəfindən öyrənilməyə başlanmışdır. Tədqiqatlar nəticəsində stress sağlamlıq, davranış və həyatın müxtəlif mərhələlərinə təsirinin nə qədər mühüm olduğu ortaya çıxmışdır. Stress həyatın ayrılmaz bir hissəsidir və hər kəs müxtəlif çətinliklər nəticəsində narahatlıq yaşayır. Amerika Psixoloji Assosiasiyasına görə, stress bədənin bütün sistemlərinə təsir edən dəyişiklikləri əhatə edir və insanların hisslərinə, davranışlarına ciddi təsir göstərir [1].

Araşdırmalara görə, tələbələrin stress yaşamasına təsir edən müxtəlif amillər mövcuddur, bu amillər stressor adlanır. Tələbələrin gündəlik həyatında stressin əsas səbəblərindən biri akademik fəaliyyətlərlə bağlıdır. Buna dərs yükü, imtahan prosesi, müxtəlif tapşırıqların yerinə yetirilməsi və qrup daxilindəki rəqabət kimi amillər daxildir [2]. Hər bir tələbə yaşından, cinsindən, ixtisasından asılı olmayaraq stressi fərqli şəkildə yaşayır. Tələbələrdə özünəinamın az olması onların bacarıqlarına şübhə ilə yanaşmasına və imtahanlarda uğursuz olmaq qorxusu ilə bağlı həddindən artıq narahatlıq yaşamasına səbəb ola bilər. Müasir təhsil mühitində sosial media, ailə münasibətləri, sosial münasibətlər və digər amillər tələbələrin performansına təsir edir [3]. Son araşdırmalar göstərir ki, tələbələr üçün stressin əsas səbəbi dərs mövzularının çətinliyi ilə bağlıdır. Aparılan tədqiqatda tələbələrin 27%-i materialı anlamaqda çətinlik çəkdiklərini bildirib. İkinci yerdə 18% tələbə tərəfindən qeyd olunan tapşırıqların çoxsaylı olmasıdır. Təxminən 17% tələbə imtahanların çətinliyini və müəllim-tələbə konfliktini stress yaradan amillər kimi göstərib [4].

Tələbələrin çətin vəziyyətlərə verdiyi reaksiyalar fərqlənir. Akademik çətinliklərə inkişaf fürsəti kimi yanaşaraq onları aşmaq üçün səy göstərən tələbələr üçün stress müsbət nəticələr

verə bilər. Lakin əks halda, stress psixoloji sağlamlığa mənfi təsir edən ən geniş yayılmış amillərdən birinə çevrilir [5]. Amerika Psixoloji Assosiasiyası stressi üç əsas növə ayırır:

1. Akut (qısa müddətli) stress - Akut stress qısa müddətli və ən çox rast gəlinən stress növüdür. Adətən, ani təzyiqlərin təsirindən və ya yaxın gələcəkdə baş verəcək hadisələr barədə düşüncələrdən formalaşır. Məsələn, tələbə imtahanlara hazırlaşarkən və ya imtahan verərkən stress hiss edə bilər.

2. Epizodik akut stress - Tez-tez stressli vəziyyətlərlə üzləşən tələbələr epizodik akut stress yaşayır. Məsələn, hər işdə mükəmməlliyə can atan tələbə kiçik çətinliklərlə üzləşdikdə stress hiss edə bilər.

3. Xroniki stress - Xroniki stress uzunmüddətli və davamlı stressdir. Bu stress növü davamlı təzyiqlərdən yaranır və ciddi sağlamlıq problemlərinə yol aça bilər. Məsələn, davamlı olaraq akademik uğur qazanmaq, təhsil haqqını, kitabları və digər xərcləri qarşılamaq təzyiqi altında olan tələbə uzunmüddətli stress yaşayır [6].

Tələbələrdə stressin müxtəlif əlamətləri müşahidə olunur. Ən çox rast gəlinənlər arasında zəiflik, iştahanın artması və ya azalması, yuxusuzluq, qan təzyiqinin yüksəlməsi, həyəcan, gərginlik, narahatlıq, diqqətin yayınması, özünəinamın azalması kimi hallar qeyd olunur [7]. Stress həmçinin bədəndə ürək fəaliyyətinin artması, hipertoniya, sürətlənmiş nəfəs, adrenal hormon səviyyələrinin yüksəlməsi, baş ağrıları, həddindən artıq tərləmə, qeyri-iradi titrəmə, fiziki ağrılar, çəki dəyişiklikləri və yuxu pozuntuları əlamətlərlə özünü göstərir [8]. Stress koqnitiv funksiyalara da təsir edir. Məsələn, stress zamanı dağıdıcı düşüncələr, gərginlik, ümidsizlik, qıcıqlanma, əsəbilik, günahkarlıq və həyəcan kimi hisslər ortaya çıxır. Bu isə ağlama, özünə zərər vermə, maddə istifadəsi və aqressiya kimi davranışlara səbəb ola bilər [9]. Stressin təsiri həm müsbət, həm də mənfi nəticələrə yol aça bilər.

**1. Müsbət stressə eustress deyilir.** Eustress tələbələrdə həyəcan yaratmaqla yanaşı, onların akademik nailiyyət əldə etmək üçün motivasiyasını gücləndirən stress formasıdır. Bu stress tələbələrin yaxşı qiymət almasına kömək edir. İmtahan zamanı müşahidə olunan qısa müddətli stress tələbələrin yaddaşını gücləndirdiyi üçün tələbələrə müsbət təsir göstərir.

**2. Mənfi stress distress adlanır.** Stress uzun müddət davam etdikdə tələbələrdə narahatlıq yaranmağa başlayır. Bu vəziyyət daha çox akademik öhdəlikləri artdığı, lakin tələbələrin onları yerinə yetirmək üçün yetərli bacarıq və resursa malik olmadığı zaman müşahidə edilir [10].

Stressli tələbələr daha çox hazır yeməklər və fast-food kimi sağlam olmayan qidaları seçirlər. Bundan əlavə, stress tələbələrin akademik göstəricilərinə və özünəinamına mənfi təsir göstərir. Nəticədə alkoqol istifadəsinin artması, dərslərə gəlməmələr, tapşırıqların gecikməsi və akademik motivasiyanın zəifləməsi kimi problemlər yaranır [11].

Stressin səmərəli idarə olunması tələbələrin psixi və fiziki sağlamlığının qorunması, həmçinin akademik performansın yaxşılaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Stressi azaldan əsas üsullar aşağıdakılardır:

1. Problemyönlü yanaşma (Problem-Oriented Coping): Problemyönlü yanaşma çətin tapşırıqları planlı şəkildə yerinə yetirmək, dərslərdə yaranan çətinlikləri müəllimlə müzakirə etmək və əlavə resurslardan istifadə etmək kimi fəaliyyətləri əhatə edir

2. Planlaşdırma (Planning): Tələbələr tədris və tapşırıq öhdəliklərini strukturlaşdıraraq vaxtlarını səmərəli bölməlidirlər. Tapşırıqları kiçik hissələrə ayırmaq, müddəti qabaqcadan müəyyən etmək stressi əhəmiyyətli dərəcədə azalda bilər [3].

3. Motivasiya (Motivation): Özünə müsbət mesajlar ötürmək, uğurları xatırlamaq və mənfi düşüncələrin təsirini azaltmaq stressin idarə olunmasına kömək edir. Bu, xüsusilə imtahan öncəsi gərginliyi azaltmaq üçün effektivdir.

4. Fiziki fəaliyyət və sağlam həyat tərzi (Physical Activity & Healthy Lifestyle): Müntəzəm idman, sağlam qidalanma və kifayət qədər yuxu stressi azaltmağa kömək edən vacib faktorlar arasında yer alır. Fiziki fəaliyyət bədənin stress hormonlarını balanslaşdırır və enerji səviyyəsini yüksəldir.

5. Rahatlama texnikaları (Relaxation Techniques): Dərin nəfəs alma, meditasiya, yoqa və digər rahatlama üsulları tələbələrin psixi vəziyyətini yaxşılaşdırır və stress reaksiyalarını azaldır.

6. Sosial fəaliyyətlər (Social Activities): Hobbilər, dostlarla vaxt keçirmək və maraqlı fəaliyyətlərlə məşğul olmaq tələbələrin psixoloji gərginliyini azaldır [11].

**Nəticə.** Araşdırmalar göstərir ki, universitet tələbələrində stress əsasən akademik öhdəliklər, imtahanlar, tapşırıqların çoxluğu və sosial münasibətlərdən qaynaqlanır. Stress tələbələrin həm fiziki, həm də psixoloji sağlamlığına müxtəlif təsir göstərir. Problemyönlü yanaşma, vaxtın səmərəli idarəsi, sosial dəstək, fiziki fəaliyyət və rahatlama texnikaları kimi strategiyalar stressin idarə olunmasında səmərəlidir. Bu yanaşmalar tələbələrin akademik performansını artırmaqla yanaşı, ümumi həyat keyfiyyətini yaxşılaşdırır.

**Problemin aktuallığı.** Stress müasir dövrdə gənclərin, xüsusilə də tələbələrin həyatında geniş yayılmış bir problemdir. Akademik yük, imtahanlar və sosial münasibətlər tələbələrdə stressi artırır. Stressin artması onların həm psixi, həm də fiziki sağlamlığına mənfi təsir göstərir. Bu problem gələcəkdə tələbələrin peşəkar inkişafına və sosial həyatına da mane ola bilər. Ona görə də tələbələrdə stressin səbəblərinin və nəticələrinin araşdırılması böyük aktuallıq daşıyır.

**Problemin elmi yeniliyi.** Məqalədə stress anlayışı tələbə mühitində xüsusi olaraq öyrənilmişdir. Stressin səbəbləri, növləri və əlamətləri sistemli şəkildə təsnif edilmişdir. Tədqiqatda həm müsbət, həm də mənfi stress formalarının təsiri göstərilmişdir. Stressin akademik göstəricilər, davranış və psixoloji rifahla əlaqəsi ayrıca təhlil edilmişdir. Bununla yanaşı, stressi azaltmaq üçün müxtəlif praktiki üsullar elmi əsaslarla təqdim olunmuşdur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Araşdırmanın nəticələri tələbələrin gündəlik həyatında istifadə oluna bilər. Bu üsullar tələbələrin akademik nailiyyətlərini artırmağa kömək edir. Stressi idarəetmə üsulları olan planlaşdırma, motivasiya, sosial dəstək və fiziki fəaliyyət tələbələrin gündəlik həyatına tətbiq oluna biləcək sadə və effektiv yanaşmalardır. Bu tövsiyələr həm akademik nailiyyətlərin, həm də tələbələrin psixoloji rifahının yüksəldilməsinə xidmət edir. Məqalənin nəticələri tələbələr üçün streslə mübarizə üzrə təlim və maarifləndirmə fəaliyyətlərində tətbiq oluna bilər. Həmçinin, müəllimlər, psixoloqlar və valideynlər üçün də faydalı ola bilər.

## Ədəbiyyat

1. Abbasov, A.N., & Əlizadə, H.Ə. *Pedaqogika*. Bakı: Mütərcim, 464 s. 2024.
2. Əlizadə, Ə.Ə. *İdrak prosesləri və hisslər*. Bakı: ADPU-nun nəşriyyatı, 345 s. 2006.
3. Əliyev, R.İ., & Əliyeva, G.B. *Şəxsiyyət psixologiyası*. Bakı: ADPU-nun nəşriyyatı, 144

s. 2010.

4. Щукина, Г.И. (red.). *Актуальные вопросы формирования интересов в обучении*. М.: Просвещение, 176 с. 1999.

5. Лебедев, П.А. *Антология педагогической мысли России XX века*. М.: Педагогика, 680 с. 2010.

6. Bruner, J. *Психология познания. За пределами непосредственной информации*. М.: Прогресс, 413 с. 2017.

7. Hacıyeva, A.Ş. Emosiyaların psixologiyası (dərs vəsaiti). Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 228 s. 2020.

8. Izard, C.E. The Psychology of Emotions. New York: Springer, 476 s. 1991.

9. Здравомыслов, А.Г. *Потребности, интересы, ценности*. М.: Педагогика, с. 18-34. 2016.

10. Bruner, J., Oliver, O., & Greenfield, P. (red.). *Психологическое исследования развития познавательной деятельности*. М., 173 с. 2011.

11. Божович, Л.И., & Леонтьев, А.Н. *Очерки психологии детей*. 2000.

**S.O.Rzayeva**

**Universitet tələbələrində stressin yaranması və stressə təsir edən amillər**
**Xülasə**

Tədqiqatda stressin mənbələri və ona təsir edən amillər araşdırılır. Əsas stressorlar dərs yükü, imtahanlar, çoxsaylı tapşırıqlar və sosial münasibətlərdir. Stress qısamüddətli, epizodik və ya xroniki formada özünü göstərə bilər və tələbələrin psixi və fiziki sağlamlığına müxtəlif təsirlər göstərir. Stressin öhdəsindən gəlməyin effektiv üsulları problemyönlü yanaşmalar, vaxtın idarə olunması, sosial dəstək, fiziki fəaliyyət və relaksasiya metodlarıdır. Bu strategiyaların tətbiqi tələbələrin akademik uğurlarını və həyat keyfiyyətini yaxşılaşdırmağa kömək edir.

**С.О.Рзаева**

**Возникновение стресса и факторы, влияющие на стресс у студентов университетов**
**Резюме**

В исследовании рассматриваются источники стресса и факторы, влияющие на него. Основными стрессорами являются учебная нагрузка, экзамены, многочисленные задания и социальные отношения. Стресс может проявляться в краткосрочной, эпизодической или хронической форме и оказывать разнообразное воздействие на психическое и физическое здоровье студентов. Эффективные методы преодоления стресса включают проблемно-ориентированные подходы, управление временем, социальную поддержку, физическую активность и методы релаксации. Применение этих стратегий способствует улучшению академической успеваемости студентов и качества их жизни.

**S.O.Rzayeva**

**The Emergence of stress and factors affecting stress in university students**

**Summary**

The study investigates the sources of stress and the factors influencing it. The main stressors include academic workload, examinations, multiple assignments, and social relationships. Stress can manifest as short-term, episodic, or chronic and has various effects on students' mental and physical health. Effective strategies for coping with stress include problem-oriented approaches, time management, social support, physical activity, and relaxation techniques. The implementation of these strategies helps improve students' academic performance and overall quality of life.

**Redaksiyaya daxil olub:** 18.11.2025

# ŞAGİRDLƏRİN YARADICI VƏ MÜSTƏQİL TƏLİM FƏALİYYƏTİNİN TƏŞKİLİNƏ NEYROELM ƏSASLI YANAŞMA

*UOT 159.9*

**Sevinc Raqub qızı Səmədova**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCID:** 0000-0002-0687-6412
**E-mail:** sevinc.samadova@mdu.edu.az
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.36

***Açar sözlər:*** neyroelm, yaradıcı təfəkkür, müstəqil təlim, şagird fəaliyyəti, idrak prosesləri, motivasiya, emosional zəka.

***Ключевые слова:*** нейробиология, творческое мышление, самостоятельное обучение, студенческая активность, когнитивные процессы, мотивация, эмоциональный интеллект.

***Key words:*** neuroscience, creative thinking, independent learning, student activity, cognitive processes, motivation, emotional intelligence.

Müasir dövrdə neyroelm insanın emosional və idraki sistemlərinin qarşılıqlı təsirini öyrənən ən mühüm elmi istiqamətlərdən biridir. Bu sahə göstərir ki, öyrənmə psixoloji və neyrobioloji mexanizmlərin mürəkkəb qarşılıqlı əlaqəsi olmaqla yanaşı, həm də biliyin ötürülməsi prosesidir. Məhz bu mexanizmlərin düzgün idarə olunması nəticəsində şagirdin müstəqil və yaradıcı təlim fəaliyyəti formalaşır.

Neyroelm əsaslı pedaqoji-psixoloji yanaşma öyrənmə prosesinin təməlində duran beyin funksiyalarını – diqqət, yaddaş, emosional reaksiya və motivasiyanı nəzərə alaraq təlimin effektivliyini artırmağa yönəlir. Müəllim beynin öyrənmə zamanı aktivləşən sahələrinin öyrənilməsi zamanı hər bir şagirdin fərdi idrak xüsusiyyətlərini anlayır və tədrisi fərdiləşdirmə imkanı əldə edir. Bu yanaşma şagirdin pozitiv öyrənmə mühitinin yaradılmasının, emosional təhlükəsizliyinin təmin edilməsinin və daxili motivasiyanın gücləndirilməsinin vacibliyini vurğulayır. Neyroelmlə əlaqələndirilmiş müasir yanaşmalar pedaqoji psixologiyanın klassik istiqamətlərində olduğu kimi şagirdin şəxsiyyətini bütöv sistem kimi görür. Yəni öyrənən yalnız bilik qəbul edən obyekt deyil, həm də öz idrak proseslərini tənzimləyən subyektdir. Beləliklə, neyroelm əsaslı psixoloji yanaşma özünütənzimləmənin formalaşmasına, yaradıcı təfəkkürün inkişafına və müstəqil öyrənmə bacarıqlarının gücləndirilməsinə xidmət edir. Bu da təlimin mahiyyətini dəyişərək onu şəxsiyyətyönümlü və emosional-intellektual inkişafı dəstəkləyən bir prosesə çevirir.

Yaradıcı düşünmə isə şagirdin problemləri fərqli yollarla həll etmə və müstəqil təhlil bacarığını əks etdirir. Araşdırmalar nəticəsində aydın olur ki, yaradıcı fəaliyyət beynin frontal lobunda aktivləşən funksiyalarla, həmçinin motivasiya və emosional vəziyyət ilə sıx bağlıdır. Neyroelm prinsiplərinə əsaslanaraq müəllim müxtəlif tapşırıqlar və öyrənmə mühitləri vasitəsilə şagirdin yaradıcılıq potensialını gücləndirmək mümkündür. Məsələn, açıq suallarla, layihə əsaslı fəaliyyətlərlə və problem həll etmə tapşırıqları ilə şagirdin innovativ düşünməsi stimullaşdırmaq olar (Runco & Jaeger, 2012). Kiçikyaşlı məktəblilərdə yaradıcılıq və müstəqil öyrənmə bacarıqlarının inkişafı, beyin funksiyalarının çevikliyindən və emosional-psixoloji

təhlükəsizlikdən asılı olduğuna görə (Jensen, 2008), müəllimlərin bu istiqamətdə neyropedaqoji biliklərə yiyələnməsi xüsusi əhəmiyyət daşıyır. Azərbaycan təhsilində də bu istiqamətdə aparılan araşdırmalar göstərir ki, neyroelm əsaslı yanaşma təlimin keyfiyyətinə və şagirdlərin fəallığına mühüm təsir göstərir (Əhmədova, 2022; Həsənli, 2023).

Bundan əlavə şagirdin öz təlim prosesinə məsuliyyətlə yanaşmasını, məqsəd qoymasını və irəliləyişini qiymətləndirməsini tələb etmək üçün müstəqil öyrənmə prosesi düzgün təşkil edilməlidir. Neyropsixoloji tədqiqatlar göstərir ki, şagirdin müstəqil öyrənmə bacarığını artırılması üçün onun diqqətini və motivasiyasını düzgün yönəltmək, emosional balansı qorumaq lazımdır. Pedaqoji psixologiyada bu, özünü tənzimləyən öyrənmə (self-regulated learning) modeli kimi təqdim edilir. Şagird müstəqil öyrənmə zamanı diqqətini və enerjisini məqsədə uyğun yönəldir, öyrəndiklərini qiymətləndirir və lazımi dəyişikliklər edir (Zimmerman, 2002).

Müəllim şagirdin öyrənmə prosesində neyropsixoloji məlumatlara əsaslanaraq onun öyrənmə fəaliyyətini dəstəkləyən rəhbər olmaqla yanaşı, həm də bilik ötürücüsüdür. Müəllim diqqəti artıran strategiyalar tətbiq edir, emosional təhlükəsiz mühit yaradır və fərdi fərqlilikləri nəzərə alaraq tapşırıqları fərdiləşdirir. Bu yanaşma şagirdin müstəqillik səviyyəsini yüksəldir, yaradıcılıq, motivasiya və təlim prosesini daha səmərəli və psixoloji cəhətdən balanslı edir. Təbii ki, yaradıcılığı artırmaq üçün müxtəlif yanaşmalar üzrə tədqiqatlar geniş yayılmışdır və həm təhsildə yaradıcılıq üçün lazımi şəraitin yaradılması (bax. Selvi, 2007), həm də yaradıcılıq üzrə təlim proqramları və onların səmərəliliyi baxımından yaxşı inkişaf etmişdir. Bundan əlavə, yaradıcılıq təliminin uğuru yaradıcı düşüncənin mühüm komponentlərinin düzgün başa düşülməsindən asılıdır.

Yaradıcı və müstəqil təlim fəaliyyətinin təməlində konstruktivizm və şəxsiyyətyönlü təlim prinsipləri dayanır. Konstruktivist yanaşmaya görə, bilik müəllim tərəfindən hazır şəkildə təqdim edilmir, şagird onu öz təcrübəsi və tədqiqat fəaliyyəti nəticəsində qurur (Piaget, 1970; Bruner, 1986). Müstəqil öyrənmə isə şagirdin öyrənmə məqsədlərini müəyyənləşdirmək, planlaşdırmaq, özünü qiymətləndirmək və nəticəyə görə məsuliyyət daşımaq bacarığını inkişaf etdirir. Bu baxımdan müəllimin rolu dəyişir, o, artıq bilik ötürən deyil, öyrənmə prosesini təşkil edən, istiqamət verən və motivasiya yaradan rəhbər rolunu oynayır. Müəllim şagirdə hazır bilik təqdim etmək əvəzinə, onu sual verməyə, fərqli yollarla düşünməyə və öz fikrini əsaslandırmağa təşviq edir. Bu, həm yaradıcı təfəkkürün, həm də metakoqnitiv (öz düşüncəsini idarəetmə) bacarıqlarının inkişafına xidmət edir. Yaradıcı təlim fəaliyyəti şagirdin təxəyyülünü, empatiyasını və problem həll etmə qabiliyyətini fəallaşdırır. Şagirdlər fərqli ideyalar irəli sürür, onları sınayır və yenidən qiymətləndirir. Bu prosesdə səhv etmək öyrənmənin təbii hissəsi kimi qəbul olunur. Bu cür mühitdə uşaqlar fərqli düşünməyi, risk etməyi və öz fikirlərinə inanmağı öyrənirlər. Müstəqil təlim fəaliyyətinin formalaşmasında daxili motivasiya mühüm rol oynayır. Şagird yalnız qiymət və ya tərif üçün deyil, öyrənmənin özündən zövq aldığı üçün fəaliyyət göstərdikdə, öyrənmə daha dayanıqlı olur (Deci & Ryan, 2000). Buna nail olmaq üçün müəllim dərsdə maraqlı tapşırıqlar, real həyatla əlaqəli situasiyalar və müstəqil tədqiqat imkanları yaratmalıdır. Neyroelm bu proseslərin elmi əsaslarını izah edir.

Təlim prosesinə neyroelm əsaslı yanaşma müəllimə şagirdin öyrənmə potensialını daha dərindən anlamağa, onun idrak, emosional və motivasiya xüsusiyyətlərini nəzərə alaraq təlim strategiyalarını fərdiləşdirməyə imkan verir (Tokuhama-Espinosa, 2011). Bu yanaşma ənənəvi

təlimdən fərqli olaraq, beynin necə öyrəndiyini, hansı şəraitdə məlumatı daha yaxşı qəbul etdiyini və yadda saxladığını nəzərə alır. Neyroelmi təlimə inteqrasiya edən əsas anlayışlardan biri neyroplastiklikdir. Neyroplastiklik beynin yeni bilik və təcrübələr əsasında öz strukturunu və sinaptik əlaqələrini dəyişmə qabiliyyətidir (Jensen, 2008). Bu xüsusiyyət göstərir ki, öyrənmə zamanı beynin hər yeni informasiya ilə "yenidən qurulması" mümkündür. Kiçikyaşlı məktəblilərdə bu proses xüsusilə aktiv olduğundan, təlimdə yaradıcılığa, tədqiqatçılığa və təcrübəyə əsaslanan fəaliyyətlər onların inkişafına mühüm təsir göstərir. Beynin fərqli sahələri öyrənmənin müxtəlif tərəflərinə cavabdehdir. Məsələn, frontal pay planlaşdırma, qərarvermə və problem həll etmə kimi ali idrak proseslərini idarə edir. Temporal pay dil və eşitmə yaddaşı ilə, oksipital pay isə görmə analizatoru ilə bağlıdır. Təlimdə bu bölgələrin aktiv fəaliyyətini təmin edən çoxkanallı (vizual, audial, kinestetik) üsullardan istifadə, öyrənməni daha effektiv edir (Sousa, 2017).

Emosiyalar da öyrənmə prosesində əsas rola malikdir. Neyroelmi tədqiqatlar sübut edir ki, müsbət emosional mühitdə öyrənmə zamanı dopamin və serotonin kimi neyromediatorların ifrazı artır və bu, həm motivasiyanı, həm də yaddaşı gücləndirir (Immordino-Yang & Damasio, 2007). Əksinə, stress və qorxu zamanı kortizol səviyyəsinin yüksəlməsi öyrənmə performansını zəiflədir. Buna görə də müəllim sinifdə emosional təhlükəsizliyi, qarşılıqlı hörməti və dəstəkləyici atmosferi təmin etməlidir. Neyroelm əsaslı təlimdə fərdiləşdirilmiş yanaşma mühüm əhəmiyyət daşıyır.

Beləliklə, neyroelmə əsaslanan təlim modeli təhsil sistemində biliklərin ötürülməsi ilə yanaşı, şəxsiyyətin kompleks inkişafını təmin edən müasir pedaqoji istiqamət kimi çıxış edir. Bu yanaşma şagirdlərin təkcə öyrənmə nəticələrini deyil, həm də öyrənməyə münasibətini, daxili motivasiyasını və yaradıcı potensialını formalaşdırır.

**Problemin aktuallığı** ondan ibarətdir ki, şagirdin yaradıcı və müstəqil təlim bacarıqları gələcəyin əmək bazarında uğurun əsas amillərinə çevriləcəkdir. Buna görə də, təlimdə neyroelmə əsaslanan psixoloji yanaşmanın tətbiqi yalnız elmi maraq doğurmur, həm də şagirdlərin intellektual və emosional potensialının reallaşdırılması, təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi üçün zəruri şərt sayılır. Belə bir yanaşma tədrisin innovativ, şagirdyönlü modelinin formalaşmasına, pedaqoji psixologiyanın müasir inkişaf mərhələsində yeni istiqamətlərinin artırılmasına xidmət edir.

**Problemin elmi yeniliyi.** Məqalədə şagirdlərin yaradıcı və müstəqil təlim fəaliyyətinin təşkili problemi neyroelm nailiyyətləri əsasında ilk dəfə sistemli şəkildə təhlil edilir və bu prosesin idrak mexanizmləri ilə əlaqəsi elmi baxımdan əsaslandırılır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri şagirdlərin öyrənmə üslublarına uyğun diferensiallaşdırılmış təlim fəaliyyətinin təşkili üçün müəllimlərə praktik metodiki əsaslar təqdim edir. Neyroelm əsaslı yanaşma və öyrənmə üslubları nəzərə alınmaqla hazırlanan tövsiyələr dərs prosesində şagirdlərin yaradıcı və müstəqil təlim fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə tətbiq oluna bilər.

**Ədəbiyyat**


1. Abdullayeva, Ş. (2022). Neyropsixoloji yanaşmaların pedaqoji praktikada tətbiqi imkanları. *Psixologiya və Təhsil Problemləri,* (2), 50–57.
2. Deci, E. L., & Ryan, R. M. (2000). The "what" and "why" of goal pursuits: Human needs and the self-determination of behavior. *Psychological Inquiry, 11*(4), 227–268. https://doi.org/10.1207/S15327965PLI1104_01
3. Əhmədova, L. (2022). Neyropedaqogikanın təlim prosesində tətbiqi. *Azərbaycan Müəllimlər İnstitutu Elmi Xəbərləri,* (3), 45–52.
4. Əliyeva, G. (2019). İbtidai məktəbdə yaradıcı təfəkkürün inkişafı: psixoloji aspektlər. *Azərbaycan Dövlət Pedaqoji Universiteti Elmi Əsərləri,* (5), 112–118.
5. Əliyev, M. (2018). Müasir təlimdə yaradıcı düşünmənin formalaşması yolları. *Azərbaycan Pedaqoji Araşdırmalar Məcmuəsi,* (6), 28–36.
6. Həsənli, R. (2023). İbtidai sinif şagirdlərində yaradıcı düşünmənin inkişafında neyroelm yanaşmasının rolu. *Pedaqoji Araşdırmalar Jurnalı,* (2), 60–68.
7. Immordino-Yang, M. H., & Damasio, A. (2007). We feel, therefore we learn: The relevance of affective and social neuroscience to education. *Mind, Brain, and Education, 1*(1), 3–10. https://doi.org/10.1111/j.1751-228X.2007.00004.x
8. Jensen, E. (2008). *Brain-based learning: The new paradigm of teaching.* Thousand Oaks, CA: Corwin Press.
9. Qasımova, S. (2020). Müstəqil öyrənmə bacarıqlarının formalaşmasında fərdiləşdirilmiş təlimin rolu. *Təhsildə İnnovasiyalar Jurnalı,* (1), 35–41.
10. Səfərova, T. (2021). Yaradıcı təlimin psixoloji əsasları. *Azərbaycan Təhsil Jurnalı,* (4), 72–79.
11. Sousa, D. A. (2017). *How the brain learns* (5th ed.). Thousand Oaks, CA: Corwin Press.
12. Tokuhama-Espinosa, T. (2011). *Mind, brain, and education science: A comprehensive guide to the new brain-based teaching.* New York, NY: W. W. Norton & Company.
13. Zull, J. E. (2002). *The art of changing the brain: Enriching the practice of teaching by exploring the biology of learning.* Sterling, VA: Stylus Publishing.


**S.R.Səmədova**

**Şagirdlərin yaradıcı və müstəqil təlim fəaliyyətinin təşkilinə neyroelm əsaslı yanaşma**

**Xülasə**

Məqalədə müəllimin rolunun dəstəkləyici və istiqamətverici funksiyalar üzərində qurulmasının əhəmiyyəti, şagirdlərin tədrisə daha fərdi yanaşması və siniflərdə yaradıcılığın təşviqi üçün yaradıcılığın üç növə bölünməsi də vurğulanır. Neyroelmin daha yaxşı başa düşülməsi müəllimlər üçün əhəmiyyətli üstünlüklər təklif edə bilər. Bu kontekstdə müəllimlərin semantik yaddaşa xüsusi diqqət yetirməklə öyrənmə və yaddaşın neyroelmində son araşdırmaları nəzərdən keçirməsi də öz əksini tapmışdır. Məqalədə, həmçinin, şagirdlərin müstəqil öyrənməsini stimullaşdıran metodlar, onların təlim prosesində fəal iştirakını təmin edən neyropsixoloji prin-

siplər və yaradıcı təfəkkürlərinin inkişafına təsir edən beyin fəaliyyətinin xüsusiyyətləri də təhlil edilir.

Nəticədə müəyyən olunur ki, təlimdə neyroelmə əsaslanan yanaşma şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq tədris prosesinin keyfiyyətini artırır və onun idraki-emosional bacarıqlarının kompleks inkişafına şərait yaradır. Belə bir yanaşma səmərəli öyrənmə mühitinin formalaşmasına xidmət edərək, müasir təhsildə fərdiləşdirilmişdir. Nəhayət, neyroelm sahəsində əldə olunan irəliləyişlər şagirdləri öz təlim prosesləri haqqında öyrənməyə həvəsləndirməyə kömək edir, onları yeni perspektivlərin inkişafına təşviq edir.

**С.Р.Самедова**

**Нейроэлементный подход к организации творческой и самостоятельной учебной деятельности учащихся**

**Резюме**

В статье подчеркивается важность роли учителя как поддерживающего и направляющего наставника, а также необходимость более индивидуализированного подхода в обучении, разделяя творчество на три типа для стимулирования креативности в классе. Глубокое понимание нейробиологии дает учителям значительные преимущества. Также рассматривается роль учителей в изучении последних исследований в области нейробиологии обучения и памяти, с особым акцентом на семантическую память. В статье анализируются методы, стимулирующие самостоятельное обучение, нейропсихологические принципы, которые обеспечивают активное участие учащихся в процессе обучения, а также характеристики мозговой активности, влияющие на развитие творческого мышления. В результате установлено, что нейробиологический подход повышает качество образовательного процесса, учитывая индивидуальные особенности учеников и создавая условия для комплексного развития их когнитивных и эмоциональных навыков. Такой подход способствует созданию эффективной и индивидуализированной учебной среды в современном образовании. В конечном счете, достижения нейронауки помогают мотивировать студентов к изучению своих собственных процессов обучения и побуждают их к развитию новых взглядов.

**S.R.Samadova**

**Neuro-element approach to organizing creative and independent educational activities of students**

**Summary**

The article also emphasizes the importance of redefining the teacher's role as a supportive and guiding figure, adopting a more individualized approach to student learning, and dividing creativity into three types to foster creativity in the classroom. A deeper understanding of neuroscience offers significant advantages for teachers. In this context, the article reflects on the consideration of recent research in the neuroscience of learning and memory, with a special

focus on semantic memory. The article also analyzes methods that encourage students' independent learning, neuropsychological principles that ensure their active participation in the learning process, and the characteristics of brain activity that influence the development of creative thinking. As a result, it is concluded that the neuroscience-based approach to learning enhances the quality of the educational process by taking into account the individual characteristics of the student and creating conditions for the comprehensive development of their cognitive and emotional skills. Such an approach contributes to the formation of an effective, individualized learning environment in modern education. Finally, advancements in neuroscience help motivate students to explore their own learning processes, encouraging them to develop new perspectives.

**Redaksiyaya daxil olub:** 12.12.2025

*UOT 37.015.3*

# MÜƏLLİM-ŞAGİRD MÜNASIBƏTLƏRİNİN SƏMƏRƏLİ QURULMASININ PEDAQOJİ -PSİXOLOJİ ŞƏRTLƏRİ

**İlahə Allahverdi qızı Kərimova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0000-5664-0195
**E-mail:** karimofailahe.02@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.37

***Açar sözlər:*** *fərdi yanaşma, empatiya, ədalət, qiymətləndirmə, emosional mühit, etika, motivasiya*
***Ключевые слова:*** *индивидуальный подход, эмпатия, справедливость, оценка, эмоциональная среда, этика, мотивация*
***Key words:*** *individual approach, empathy, fairness, assessment, emotional environment, ethics, motivation*

Müəllim-şagird münasibətləri təlim-tərbiyə prosesinin əsasını təşkil edən, təhsil mühitinin keyfiyyətini müəyyənləşdirən mühüm pedaqoji amillərdəndir. Bu münasibətlər səmərəli qurulduqda şagirdlərin motivasiyası artır, öyrənməyə maraq yaranır, təlim nəticələri yüksəlir. Əksinə, münasibətlərdə qarşılıqlı anlaşma və əməkdaşlıq ruhu zəif olduqda tədris prosesi formal xarakter alır və pedaqoji məqsədlərə tam nail olmaq çətinləşir. Bu şərtləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**1. Psixoloji şərtlər:**

**Emosional təmas və etimadın formalaşması:** Müəllim şagirdlərə qarşı səmimi, diqqətli və anlayışlı münasibət göstərməli, onlarda özünə inam hissini möhkəmləndirməlidir. Şagird müəllim tərəfindən qəbul edildiyini, fikirlərinə hörmətlə yanaşıldığını hiss etdikdə dərs prosesinə fəal qoşulur.

**Fərdi xüsusiyyətlərin nəzərə alınması:** Hər bir şagirdin psixoloji tipi, temperamenti, emosional vəziyyəti və öyrənmə tərzi fərqlidir. Müəllim fərdi yanaşma prinsipinə əsaslanaraq bu xüsusiyyətləri nəzərə almalı və uyğun tədris üsulları seçməlidir.

**Müsbət emosional mühitin yaradılması:** Dərs zamanı şagirdlərdə qorxu, gərginlik və həyəcan yox, əksinə, maraq, sevinc və özünüifadə hissi üstünlük təşkil etməlidir. Müsbət emosional atmosfer şagirdin idrak fəallığını artırır.

**Empatiya və pedaqoji takt:** Müəllim şagirdlərin daxili aləmini dərk etməyi bacarmalı, onların hisslərinə qarşı həssas olmalıdır. Empatik yanaşma müəllimlə şagird arasında qarşılıqlı hörmət və etimad mühitini gücləndirir (4).

**2. Pedaqoji şərtlər:**

**Demokratik ünsiyyət üslubunun formalaşdırılması:** Müəllim otoritar deyil, demokratik ünsiyyətə əsaslanmalı, şagirdin fikrini dinləməli, müzakirələrdə bərabər iştirakına şərait yaratmalıdır. Bu, həm tənqidi düşünməni, həm də öz fikrini sərbəst ifadə etmə bacarığını inkişaf etdirir.

**Əməkdaşlıqyönlü təlim:** Müəllim və şagirdlər arasında münasibət “müəllim öyrədir – şagird öyrənir” modelindən “birgə öyrənmə və yaradıcılıq” modelinə keçməlidir. Birgə fəaliyyət şagirdin özünü subyekt kimi hiss etməsinə və məsuliyyət hissinin formalaşmasına şərait yaradır.

**Motivasiya və stimullaşdırma:** Müəllim şagirdin uğurunu vaxtında qiymətləndirməli, onu ruhlandırmalı, müsbət nəticəyə görə mükafatlandırmalıdır. Qiymətləndirmə təkcə nəzarət funksiyasını deyil, həm də motivasiyaedici rolu yerinə yetirməlidir.

**Ədalətlilik və obyektivlik:** Müəllimin davranışında ədalət prinsipi hökm sürməlidir. Şagirdlərə münasibətdə favoritizm, ayrı-seçkilik və qeyri-obyektiv yanaşma inamı zəiflədir və münasibətlərin səmərəliliyinə mənfi təsir göstərir.

**Pedaqoji ünsiyyətin planlı təşkili:** Müəllim tədris prosesində ünsiyyət strategiyasını əvvəlcədən planlaşdırmalı, müxtəlif vəziyyətlərdə uyğun kommunikasiya üsullarını seçməlidir (4).

Müəllim bu münasibətlərin istiqamətverici qüvvəsi kimi həm ünsiyyətin tonunu, həm də kollektivin ümumi əhvalını formalaşdırır. Buna görə də məktəbdə müsbət psixoloji iqlimin yaradılması üçün müəllimin empatik davranışı, kommunikativ bacarıqları, emosional sabitliyi və pedaqoji etikasına əməl etməsi həlledici rol oynayır. Məktəb kollektivində sağlam və müsbət psixoloji iqlimin təmin olunması kompleks pedaqoji-psixoloji yanaşma tələb edir. Bu istiqamətdə aparılan məqsədyönlü işlər həm tədris prosesinin keyfiyyətini artırır, həm də şagirdlərin mənəvi və sosial inkişafına mühüm təsir göstərir (2).

Əvvəla, əhatə dairəsinə, təsirliliyinə və intensivliyinə görə müəllim-şagird münasibətləri məktəbdəki bütün sosial və pedaqoji münasibətlər sistemində aparıcı mövqeyə malikdir. Bu münasibətlər yalnız təlim prosesinin gedişinə deyil, həm də məktəb mühitinin psixoloji iqliminə, kollektivdə qarşılıqlı anlayış və əməkdaşlıq səviyyəsinə birbaşa təsir göstərir. Bunun üçün aşağıdakı məqamlara diqqət yetirmək vacibdir:

Birincisi, məktəbdə aparılan təlim-tərbiyə prosesi əslində müəllimlə şagird arasında formalaşan qarşılıqlı əlaqənin, onların birgə fəaliyyətinin və emosional ünsiyyətinin təzahürüdür.

İkincisi, təlim fəaliyyəti həm müəllimin, həm də şagirdin fəaliyyətinin nəticəsini əks etdirən qarşılıqlı prosesdir. Müəllimin peşəkarlığı, tədris metodlarının səmərəliliyi, şagirdə yanaşma tərzi və pedaqoji etikası şagirdlərin bilik səviyyəsinə, düşünmə qabiliyyətinə, emosional sabitliyinə və əxlaqi inkişafına birbaşa təsir göstərir. Beləliklə, şagirdlərin təlim nailiyyətləri və mənəvi kamilliyi müəllimin pedaqoji fəaliyyətinin keyfiyyət göstəricisi kimi çıxış edir.

Lakin bu nəticələrə nail olmaq asan məsələ deyil. Burada əsas amil müəllim-şagird münasibətlərinin xarakteridir — qarşılıqlı inam, etimad, anlayış və hörmət olmadan səmərəli tədris mümkün deyil. Bu münasibətlər sistemində aparıcı rol müəllimə məxsusdur.

**Məktəbdə müəllim-şagird münasibətinin psixo-pedaqoji xüsusiyyətləri:**

Məktəbdə müəllim-şagird münasibəti mürəkkəb və çoxsahəli struktur nümayiş etdirir. Bu münasibətlərin iki əsas sahəsi fərqləndirilir: dərsdə müəllim-şagird münasibəti və dərsdənkənar vaxtlarda münasibət.

**Dərsdə qiymətləndirmənin psixoloji təsirləri:**

Dərsdə şagirdin biliyinin qiymətləndirilməsi psixoloqların daim diqqət mərkəzində olan məsələlərdən biridir. Bunun səbəbi ondan ibarətdir ki, qiymətləndirmədə yol verilən nöqsanlar yalnız şagirdin emosional vəziyyətinə təsir göstərmir, eyni zamanda onun intellektual və iradi inkişafına da neqativ təsir edir.

**Dərsdə sual vermənin psixoloji təsirləri:**

Uşağın şəxsiyyətinə təsir edən və onun emosional vəziyyətinə toxunan sual və ya müraciət dəstəkləyici olmayan psixoloji mühit yaratdıqda, şagirdin düzgün cavab verməsi çətinləşir. Məsələn, müəllim bir neçə hazırlıqlı şagirdə sual verir və onlardan istədiyi cavabı ala bilmədikdə, bəzən eyni sualla zəif şagirdə müraciət edir.

**Dərsdə sorğu və onun psixoloji təsirləri:**

Məlum olduğu kimi, dərsin izahı və dərsdə sorğu situasiyası bir-birindən ciddi surətdə fərqlənir. Dərsin izahı zamanı müəllim bütün sinfə müraciət edir və diqqət kollektiv üzərində cəmlənir. Sorğu zamanı isə ayrı-ayrı şagirdlər seçilərək diqqət mərkəzində olur.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində müəllim-şagird münasibətlərinin səmərəli qurulması təlim-tərbiyə prosesinin keyfiyyətinə birbaşa təsir göstərir. Bu münasibətlərdə qarşılıqlı hörmət, empatiya və əməkdaşlıq mühiti şagirdin şəxsiyyət kimi formalaşmasını, təlimə marağını və psixoloji rahatlığını təmin edir. Ona görə də bu münasibətlərin psixoloji-pedaqoji şərtlərinin araşdırılması müasir pedaqogikanın aktual və zəruri məsələlərindən biridir.

**Problemin elmi yeniliyi.** Məqalədə müəllim-şagird münasibətlərinin səmərəli qurulmasının psixoloji-pedaqoji əsasları elmi cəhətdən təhlil edilərək, onların təlim-tərbiyə prosesinin keyfiyyətinə təsir edən amillər kompleks şəkildə araşdırılmışdır. Tədqiqatda münasibətlərin formalaşmasında emosional-intellektual ünsiyyətin, empatiyanın və müəllimin kommunikativ bacarıqlarının rolu yeni elmi yanaşma ilə əsaslandırılmışdır. Bundan əlavə, müasir pedaqoji prosesdə humanist prinsiplərə əsaslanan qarşılıqlı əməkdaşlıq modelinin tətbiqi üzrə tövsiyələr irəli sürülmüşdür ki, bu da mövzunun elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə əldə olunan nəticələr tədris prosesində müəllim-şagird münasibətlərinin səmərəli qurulması üçün praktik tövsiyələrin hazırlanmasına imkan verir. Tədqiqatın nəticələri müəllimlərin peşəkar inkişafında, pedaqoji ünsiyyət bacarıqlarının formalaşdırılmasında və tədris mühitində pozitiv psixoloji atmosferin yaradılmasında istifadə oluna bilər. Həmçinin bu yanaşmalar pedaqoji kadr hazırlığı prosesində, təlim-tərbiyə işinin planlaşdırılması və qiymətləndirilməsində tətbiq oluna bilər.

## Ədəbiyyat

1. Əliyev R.İ. Kiçik məktəblilərdə özünüqiymətləndirmənin təşəkkülünün eksperimental tədqiqinin bəzi nəticələri haqqında // Dil-ədəbiyyat, 1998, №3.

2. Həmzəyev M.Ə. Pedaqoji psixologiya: pedaqoji institut tələbələri üçün dər vəsaiti. Bakı: Maarif, 1991.

3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları: ali məktəblər üçün dərslik. Bakı: Adiloğlu, 2003.

4.https://psixologiyajurnali.az/?smode=content&item=Muellimshagird_munasibetlerinde_psixoloji_iqlimin_yaradilmasi_ve_onun_tenziminde

**İ.A.Kərimova**

**Müəllim-şagird münasibətlərinin səmərəli qurlumasının pedaqoji-psixoloji şərtləri**

**Xülasə**

Müasir təhsil prosesində müəllim və şagird arasında münasibətlərin səmərəli qurulması pedaqoji fəaliyyətin əsas prioritetlərindən biridir. Bu münasibətlərin keyfiyyəti təkcə tədrisin səmərəliliyini deyil, həm də məktəbdə müsbət psixoloji iqlimin formalaşmasını müəyyənləşdirir. Səmərəli münasibətlərin qurulması üçün müəyyən psixoloji və pedaqoji şərtlər mövcuddur.

Müəllimin hər bir şagirdə fərdi yanaşması və empatiya qabiliyyəti böyük əhəmiyyət daşıyır. Hər bir şagirdin fərdi xüsusiyyətlərini, maraqlarını, bilik səviyyəsini və emosional vəziyyətini nəzərə alaraq, onun hiss və ehtiyaclarını anlamaqla etimad mühiti yaradılır ki, bu da şagirdin təlim prosesində fəal iştirakına şərait yaradır.

Ədalətli və obyektiv qiymətləndirmə də münasibətlərin səmərəliliyinin əsas amillərindən biridir. Qiymətləndirmə təkcə şagirdin biliklərinə deyil, həm də onun səylərinə və inkişaf səviyyəsinə əsaslanmalı, ədalət və şəffaflıq prinsipləri qorunmalıdır. Bu, şagirdlərin motivasiyasını artırır, dərsdə fəallığını yüksəldir və mənfi emosional reaksiyaların qarşısını alır.

**И.А.Керимова**

**Педагогико-психологические условия эффективного налаживания отношений учитель-ученик**

**Резюме**

В современном образовательном процессе эффективное построение отношений между учителем и учеником является одним из основных приоритетов педагогической деятельности. Качество этих отношений определяет не только эффективность обучения, но и формирование положительного психологического климата в школе. Для построения эффективных отношений существуют определённые психологические и педагогические условия.

Большое значение имеет индивидуальный подход учителя к каждому ученику и его способность к эмпатии. Учитывая индивидуальные особенности, интересы, уровень знаний и эмоциональное состояние каждого ученика, а также понимая его чувства и потребности, создаётся доверительная атмосфера, которая способствует активному участию ученика в учебном процессе.

Справедливая и объективная оценка также является одним из ключевых факторов эффективности отношений. Оценивание должно основываться не только на знаниях ученика, но и на его усилиях и уровне развития, соблюдая принципы справедливости и прозрачности. Это повышает мотивацию учащихся, способствует их активности на уроке и минимизирует негативные эмоциональные реакции.

**I.A.Karimova**

**Psychological and pedagogical conditions for the effective establishment of teacher-student relationships**

**Summary**

In the modern educational process, the effective establishment of teacher-student relationships is one of the main priorities of pedagogical activity. The quality of these relationships determines not only the effectiveness of teaching but also the formation of a positive psychological climate in the school. There are specific psychological and pedagogical conditions required for building effective relationships.

Individualized attention and the teacher’s ability to empathize with each student are of great importance. Considering each student’s individual characteristics, interests, knowledge level, and emotional state, as well as understanding their feelings and needs, creates a trusting atmosphere that promotes active participation in the learning process.

Fair and objective assessment is also a key factor in the effectiveness of teacher-student relationships. Assessment should be based not only on the student’s knowledge but also on their effort and level of development, adhering to principles of fairness and transparency. This increases student motivation, encourages classroom engagement, and minimizes negative emotional reactions.

**Redaksiyaya daxil olub:** 17.11.2025

# FİLOLOGİYA
# ФИЛОЛОГИЯ
# PHILOLOGY

***DİLÇİLİK***
***ЛИНГВИСТИКА***
***LİNGUİSTİCS***

*UOT 81*

## A STRUCTURAL–SEMANTİC ANALYSİS OF ENGLİSH NOUN PHRASES

**Naila Asker Nabiyeva**
*associate professor at the Azerbaijan University of Languages*
**ORCID:** 0000-0002-2195-4087
**E-mail:** nailanabiyeva@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.38

***Key words:*** *noun phrases, generative grammar, phrase structure, hierarchical structure, constituency.*
***Açar sözlər:*** *ismi birləşmələr, generativ qrammatika, söz birləşməsinin strukturu, iyerarxik struktur, konstituentlik.*
***Ключевые слова:*** *именные группы, генеративная грамматика, фразовая структура, иерархическая структура, конституентность.*

This paper investigates the hierarchical organization of English syntax within a generative grammar framework, with particular emphasis on noun phrases and phrase-level structure. It examines how words combine to form phrases and sentences, exploring the relationship between underlying (deep) and surface structures and the syntactic roles of constituents. Drawing on examples from both academic discourse and everyday language, the study employs structural diagnostics such as substitution, movement, and embedding to uncover underlying syntactic patterns. Special attention is given to the internal structure of the English noun phrase, including the interaction between heads, modifiers, and specifiers, the distinction between obligatory and optional elements, and their representation through constituency rules. The analysis highlights the functions of determiners, adjectives, and prepositional phrases, as well as the theoretical rationale for the intermediate N-bar (N′) category. By integrating Chomsky's (3, 4, 5) foundational insights with later developments in generative syntax, the paper demonstrates how hierarchical structure accounts for distributional constraints, interpretive differences, and variation in complexity across different registers, clarifying the link between syntactic form and meaning. Noun phrases (NPs) constitute a central unit in English syntax, serving as the primary carriers of referential meaning. This paper examines the structural components of NPs, their syntactic roles, and the occurrence of discontinuous forms. Emphasis is placed on the interplay between heads, determiners, modifiers, and complements, alongside the functional versatility of NPs across written and spoken registers.

**Introduction.**

Syntax studies how words combine into grammatically coherent sentences. While lexical properties are important, the hierarchical organization and sequential order of words are central to understanding sentence construction. Chomsky (3, p.5) argued that a finite set of generative rules can produce an infinite number of grammatical sentences. His framework distinguishes between phrase structure rules, which describe deep or underlying structures, and transformational rules, which convert these into surface structures—the actual sequence of words—without changing meaning. Deep structures encode grammatical relations and potential interpretations, while surface structures reflect the realized form of a sentence.

This distinction helps explain syntactic phenomena such as active-passive alternation. For example, *The dog chased the ball* and *The ball was chased by the dog* differ in surface form but share an underlying syntactic structure. Generative grammar emphasizes grammatical well-formedness over semantic coherence, as seen in the syntactically correct but semantically odd sentence *Colorless green ideas sleep furiously* (3, p.16).

Earlier structural approaches, such as immediate constituent analysis, focused on linear word order and surface-level relations. Although useful, they could not adequately account for structural ambiguities, active-passive transformations, or sentences with multiple interpretations (e.g., *Flying planes can be dangerous* or *The teacher is ready to grade*). Chomsky's (3, p.16) concepts of deep structure and transformations addressed these limitations, providing a systematic framework for understanding syntax.

**Constituency.**

Phrase structure rules formalize how syntactic categories expand into sequences of constituents. Each rule specifies a category (left-hand side) and its components (right-hand side). Optional elements, alternatives, and recursive structures allow unlimited generativity. For example, a sentence (S) may expand into a noun phrase (NP) and a verb phrase (VP). The NP can include determiners, adjectives, or prepositional phrases, while the VP may contain objects, complements, or adjuncts. These hierarchical relations are often visualized using tree diagrams or labeled bracketings.

Constituents are groups of words that function as a unit. They can be identified via substitution, movement, and coordination tests. For instance, in *The committee approved the revised policy*, the NP *the revised policy* can be replaced with *something* (*The committee approved something*) or moved (*The revised policy was approved by the committee*), confirming its status as a constituent. Constituents may also embed recursively, as in *inside [the box [on [the table]]]*, illustrating hierarchical sentence structure.

Syntactic structure often determines interpretation. For example, *Jessica promised to call tomorrow evening* allows two readings: the promise occurs tomorrow, or the call is scheduled for tomorrow. Phrase structure clarifies which constituents correspond to each reading.

**Grammatical Roles of Constituents.**

Within sentences, constituents assume specific grammatical roles. Noun phrases may function as subjects, objects, or complements, and their positions affect meaning: *I handed her the book* vs. *She handed me the book*. Modifiers depend asymmetrically on heads (e.g., *red car*), while governor-complement relationships involve mutual dependency (*bake a cake*, *sit on the chair*). Subjects and predicates form the core structure: the subject (usually an NP) denotes the actor or topic, while the predicate (usually a VP) expresses action or description. Expletive

subjects, such as *it* in *It is snowing*, occupy structural positions without lexical meaning, demonstrating syntactic flexibility.

Discourse studies show that syntax varies by context. Academic texts favor long, embedded constructions, e.g., *according to [the report [on [climate change]]]*, whereas casual conversation often relies on shorter sequences, e.g., *[will eat]*, *[don't know]*, *[my bag]*. Corpus studies indicate that single-word constituents account for approximately 70% of spoken discourse but only 13% of academic texts (1, p.104 -105), reflecting higher structural integration in formal writing.

**Historical and Theoretical Background.**

Chomsky's (2, 3, 4, 5) generative framework influenced subsequent models, including Head-Driven Phrase Structure Grammar (HPSG), Lexical Functional Grammar (LFG), Generalized Phrase Structure Grammar (GPSG), and Combinatory Categorial Grammar (CCG). These models retain constituency principles while emphasizing lexical heads, parallel syntactic representations, and explicit syntax-semantics mapping.

Phrases—such as noun phrases (NPs), verb phrases (VPs), adjective phrases (APs), adverb phrases (AdvPs), and phrasal verbs—are fundamental units of syntax. Structuralist approaches (2, p.247) and generative frameworks highlight that substitution and distributional patterns can be used to identify these units. Expanding on these insights, Chomsky's X-bar theory (5, p.46) introduced the concept of intermediate projections, enabling a hierarchical analysis of phrases:

• XP → (Specifier) X′

• X′ → X (Complement)

This hierarchical model clarifies the relationships between heads, modifiers, and complements in complex constructions. The principle was later refined in Chomsky's Minimalist Program (6, p.46-52). At the same time, cognitive approaches (9, p.31) propose that word groups function as integrated form-meaning units, thereby connecting syntactic structure to conceptual understanding.

**Noun phrases.**

Within English syntax, the noun phrase occupies a particularly central role. Its head noun determines grammatical properties, while optional constituents, such as adjective phrases (APs) and prepositional phrases (PPs), provide descriptive or relational information. Determiners (Det) mark features such as definiteness, quantity, or deixis and maintain an asymmetric relationship with the NP (8, p.330). This hierarchical organization can be further explained through N-bar theory, where intermediate projections like N-bar (N′) link the head noun with its modifiers while excluding the determiner:

• N′ → (AP) N (PP)

• NP → (Det) N′ | Pro | PN

Such a framework accounts for the results of substitution tests using pro-forms (e.g., one, ones), which can replace the noun along with its modifiers. Additionally, possessive markers (-'s) can attach to entire NPs, demonstrating the structural flexibility inherent in noun phrases.

Beyond their internal organization, NPs perform a variety of syntactic functions within clauses (8, p.326-328). They can act as subjects, objects, prepositional objects, complements, and predicatives, and they may also appear in peripheral clause positions, such as parentheticals, tags, and vocatives. Under certain syntactic conditions, complex NPs may exhibit discontinuity

(10, p.1397), illustrating the dynamic interaction between hierarchical structure and functional versatility in English syntax.

Breakdown of NP:

1. *A feeling of intense relief* and *a perfect sense of liberty* spread through *my aching limbs and wearied mind.* (fiction)

Table 1.

| | | |
|---|---|---|
| NP → | Det N PP | A feeling of intense relief |
| | Det A N PP | A perfect sense of liberty |

The embedded phrases are *of intense relief* and *of liberty.* The simple tree diagram for the noun phrase:




2. *Farmers worldwide* are entering *a period of increasing uncertainty* as climate change compromises *food production in areas already sensitive to food insecurity*…" (academic)

Table 2.

| | | |
|---|---|---|
| NP → | N A | Farmers worldwide |
| | Det N PP | a period of increasing uncertainty |
| | N PP AP PP | food production in areas already sensitive to food insecurity |

Tree diagram:




The noun phrase ‘*food production in areas already sensitive to food insecurity’* is nested:

- Head noun: *production*
- Modifier 1: *food* → makes it *food production*
- Modifier 2 (Prepositional phrase): *in areas already sensitive to food insecurity*
- Nested NP inside preposition: *areas already sensitive to food insecurity*
- Head noun: *areas*
- Modifier: *already sensitive to food insecurity* (adjective + prepositional phrase)

As discussed earlier in the paper, a noun phrase (NP) constitutes a syntactic unit in which a noun, optionally accompanied by determiners, modifiers, or complements, functions as a single grammatical entity within a clause. Noun phrases can assume a variety of grammatical roles. They may serve as the subject, performing the action of the predicate; as the direct object, receiving the action; as the indirect object, indicating the beneficiary or recipient of the action; as a subject complement, providing descriptive or referential information about the subject; as an object complement, attributing a quality or designation to the direct object; or as the object of a preposition, completing the meaning of a prepositional phrase. The multifunctionality of noun phrases underscores their central role in sentence structure and syntactic analysis.

1. ***The ocean transfers heat to the atmosphere.***

- Noun phrase (subject): *The ocean*
- Noun phrase (direct object within VP): *heat*
- Prepositional phrase (indirect object within VP): *to the atmosphere*
- Tree diagram:




***2. A compass is a device that indicates direction.***

- Noun phrase (subject): *A compass*
- Verb: is
- Noun phrase (subject complement): *a device that indicates direction*
- Simple diagram:




***3. Scientists consider the Amazon rainforest a vital ecosystem.***

- Subject NP: Scientists
- Verb: consider
- Object NP: the Amazon rainforest
- Object complement (NP): a vital ecosystem

**Methodology**

This study employs a qualitative approach, combining:

1. Generative grammar analysis using phrase structure rules, transformations, and constituency tests.
2. Corpus-based examples from both academic and fictional sources to illustrate variation

in NP structure and functional roles.

3. Hierarchical tree diagrams to visualize NP components and nested structures.

**Discussion**

The analysis confirms that syntactic structures systematically link form and meaning NPs demonstrate structural and functional versatility, performing a wide array of grammatical roles and accommodating complex modifiers and embedded elements. The use of generative and cognitive frameworks provides a comprehensive understanding of how hierarchical organization underpins sentence formation and interpretation.

**Conclusion**

This study reinforces the view, widely supported in linguistic research, that syntactic structures systematically link form and meaning. By integrating generative approaches with corpus-based evidence, the analysis captures both the abstract regularities and the empirical diversity of English syntax.

A revised account of English syntactic organization is presented, highlighting hierarchical structures, generative mechanisms, and functional distinctions. Examination of sentence-level patterns alongside the internal organization of noun phrases illustrates how syntactic theory accounts for distributional constraints, interpretive variability, and differences across registers. The findings support the conception of syntax as a structured, rule-governed system that mediates between form and meaning while remaining flexible in varying communicative contexts.

English syntax exhibits layered organization, generative capacity, and functional variation. Investigating phrase structure rules, transformations, and constituency relations provides a comprehensive framework for understanding sentence formation and interpretation. Detailed analysis of noun phrase components—such as heads, modifiers, and specifiers—reveals the recursive and hierarchical character of syntax. By combining structural, generative, and cognitive perspectives, this study emphasizes syntax’s foundational role in linguistic theory and its practical relevance in analyzing language use.

The analysis presented here aligns with a broad body of research demonstrating that syntactic structure mediates between form and meaning in systematic ways. By combining generative theory with insights from corpus linguistics, the paper highlights both the abstract principles and the empirical variability of English syntax.

This paper has presented a revised account of English syntactic organization, emphasizing hierarchical structure, generative capacity, and functional differentiation. By examining both sentence-level patterns and the internal structure of noun phrases, the study demonstrates how syntactic theory explains distributional constraints, interpretive variation, and register-based differences. The findings support a view of syntax as a structured and rule-governed system that mediates between form and meaning while remaining adaptable across communicative contexts.

English syntax is characterized by hierarchical organization, generative potential, and functional variation. Phrase structure rules, transformations, and constituency tests provide a robust framework for understanding sentence formation and interpretation. Analysis of NP structure—head, modifiers, and specifiers—demonstrates the layered, recursive nature of syntax. Integrating structural, generative, and cognitive approaches underscores syntax’s

central role in linguistic theory and practical language analysis.

Noun phrases in English demonstrate considerable structural and functional versatility. Their composition, encompassing heads, determiners, modifiers, and complements, enables them to fulfill a wide array of syntactic roles, ranging from subjects and objects to adverbials and appositives. Complex and discontinuous forms further illustrate the adaptability of NPs in diverse registers, highlighting their central role in both spoken and written discourse.

**Relevance of the topic.** This study is significant because it addresses central issues in the analysis of English syntax, with particular focus on noun phrases, which are key units in conveying referential meaning. By examining their internal structure—heads, determiners, modifiers, and complements—the paper contributes to ongoing discussions in generative syntax and broader English linguistics. Its insights enhance our understanding of how phrase-level organization mediates between syntactic form and interpretive function across registers.

**Scientific novelty of the article.** The article demonstrates scientific novelty by offering original perspectives on the internal structure and distribution of English noun phrases. By integrating generative frameworks with corpus-based evidence, it introduces innovative approaches to analyzing hierarchical relationships, discontinuous forms, and functional versatility within NPs. These contributions extend current theoretical models, illuminating previously underexplored interactions between structural configuration and meaning.

**Practical significance and application of the article.** The practical value of the study lies in its applicability to teaching, linguistic analysis, and computational modeling. By providing a detailed and nuanced account of noun phrase structure and function, the findings equip researchers, educators, and language technologists with tools to analyze and model English more effectively. The insights also support applied work in discourse analysis, syntax-based language technologies, and pedagogical strategies targeting phrase-level comprehension.

## References

**Academic Sources**

1. Biber, D., Johansson, S., Leech, G., Conrad, S., & Finegan, E. *Longman grammar of spoken and written English*. London, UK: Longman. 1999.

2. Bloomfield, L. *Language*. Henry Holt and Company. 1933.

3. Chomsky, N. *Syntactic structures*. The Hague, Netherlands: Mouton. 1957.

4. Chomsky, N. *Aspects of the theory of syntax*. Cambridge, MA: MIT Press. 1965.

5. Chomsky, N. *Lectures on government and binding*. Dordrecht, Netherlands: Foris. 1981.

6. Chomsky, N. *The minimalist program*. Cambridge, MA: MIT Press. 2015.

7. Halliday, M. A. K. *An introduction to functional grammar* (2nd ed.). London, UK: Edward Arnold. 1994.

8. Huddleston, R., & Pullum, G.K. *The Cambridge grammar of the English language*. Cambridge, UK: Cambridge University Press. 2002.

9. Langacker, R.W. *Foundations of cognitive grammar* (Vol. 1). Stanford, CA: Stanford University Press. 1987.

10. Quirk, R., Greenbaum, S., Leech, G., & Svartvik, J. *A comprehensive grammar of the English language*. London, UK: Longman. 1985.

11. Radford, A. *English syntax: An introduction*. Cambridge, UK: Cambridge University

Press. 2004.

***Literary Texts***

12. Brontë, C. *Jane Eyre*. London, UK: Smith, Elder & Co.Online Sources. 1847.

11. National Geographic. (n.d.). Home - National Geographic Society

**N.Ə.Nabiyeva**

**Structural and semantic analysis of English collocations**

**Summary**

This article examines the hierarchical organization of English syntax within generative grammar, with particular emphasis on noun phrase groups and phrasal structure. It examines how words are combined into phrases and sentences, as well as analyzes the relationship between deep and surface structures and the syntaxic roles ¬ the components. On the material of both academic discourse and ¬ language, structural diagnostic methods are used in the work - such as for ¬ installation, movement and attachment - to identify hidden syntactic laws ¬ numbers.

Particular attention is paid to the internal structure of the English noun phrase, including the interaction of vertex, modifiers and specifiers, the difference between mandatory and optional elements and their presentation using cons ¬ tituent structure rules. The analysis emphasizes the functions of determinatives, adjectival and prepositional groups, as well as the theoretical motivation of the intermediate kate ¬ the N-bar mountain (N ′). Integrating the fundamental ideas of N. Chomsky (3, 4, 5, 6) with more recent developments in ¬ field of generative syntax, the article demonstrates how the hierarchical structure explains distributive restrictions, interpretive differences and variability of complexity in different registers, clarifying the relationship between syntak ¬ sic form and meaning.

Name groups (NP) constitute the central unit of English syntax, acting as the main carriers of the reference value. The article examines the structural components of nominal groups, their syntactic functions and manifestations of discontinuous (discrete) forms. Particular attention is paid to the interaction of vertices, determinatives, modifiers and complements, as well as the functional ¬ of name groups in written and oral registers.

**N.Ə.Nəbiyeva**

**İngilis dilindəki ismi söz birləşmələrinin struktur-semantik təhlili**

**Xülasə**

Bu məqalədə generativ qrammatika çərçivəsində ingilis dilinin sintaksisinin iyerarxik təşkili və xüsusilə də ismi birləşmələr, söz birləşməsi səviyyəsinin strukturu araşdırılır. Sözlərin söz birləşməsi və cümlə yaratmaq üçün sintaktik əlaqə qurması yolları, alt və üst qatlar arasındakı əlaqələr və tərkib hissələrin sintaktik rolları nəzərdən keçirilir. Akademik diskursdan və gündəlik ünsiyyətdən seçilmiş dil materialları əsasında, dərin sintaktik strukturların müəyyən olunması üçün əvəzlənmə, yerdəyişmə və birləşdirmə kimi struktur testlərdən istifadə edilir. İngilis dilindəki ismi birləşmələrə, əsas sözlər və təyinedicilər arasındakı qarşılıqlı əlaqələrə, zəruri və

seçmə elementlər arasındakı fərqlərə və onların konstituentlik qaydaları vasitəsilə təqdim edilməsinə xüsusi diqqət ayrılır. Determinantların, sifətlərin və sözönlü birləşmələrin funksiyaları və ismi birləşmənin zəruri elementi təhlil olunur. N. Çomskinin (3, 4, 5, 6) fundamental ideyaları ilə yanaşı, generativ qrammatikadakı son araşdırmaların nəzərdən keçirildiyi məqalədə sintaktik forma və məna arasındakı əlaqəyə aydınlıq gətirmək məqsədi ilə iyerarxik strukturun distributiv məhdudiyyətlərə təsiri, interpretiv fərqlər və müxtəlif registrlərdə mürəkkəb variativlik aşkar olunur. Məqalədə ingilis dili sintaksisində əsas vahid hesab edilən ismi birləşmələr referensial məna daşıdığı yazılır; ismi birləşmələrin struktur komponentləri, onların sintaktik funksiyaları və diskret formada işlənmələri də tədqiq olunur. Bu birləşmələrin əsas hissəsi və determinantlar, təyinedicilər və əlavələr arasındakı əlaqələr, yazılı və şifahi diskursdan ismi birləşmələrin funksional müxtəlifliyinə xüsusi diqqət ayrılır.

**Н.А.Набиева**

**Структурно-семантический анализ английских именных групп**
**Резюме**

В данной статье исследуется иерархическая организация английского синтаксиса в рамках генеративной грамматики с особым акцентом на именные группы и фразовую структуру. Рассматривается, каким образом слова объединяются в фразы и предложения, а также анализируется соотношение глубинной и поверхностной структур и синтаксические роли составляющих. На материале как академического дискурса, так и повседневного языка в работе используются структурные диагностические методы — такие как подстановка, перемещение и вложение — для выявления скрытых синтаксических закономерностей.

Особое внимание уделяется внутренней структуре английской именной группы, включая взаимодействие вершины, модификаторов и спецификаторов, различие между обязательными и факультативными элементами и их представление с помощью правил конституентной структуры. Анализ подчеркивает функции детерминативов, прилагательных и предложных групп, а также теоретическую мотивацию промежуточной категории N-bar (N′). Интегрируя фундаментальные идеи Н. Хомского (3, 4, 5, 6) с более поздними разработками в области генеративного синтаксиса, статья демонстрирует, как иерархическая структура объясняет дистрибутивные ограничения, интерпретационные различия и вариативность сложности в разных регистрах, проясняя связь между синтаксической формой и значением.

Именные группы (NP) составляют центральную единицу английского синтаксиса, выступая основными носителями референтного значения. В статье рассматриваются структурные компоненты именных групп, их синтаксические функции и проявления разрывных (дискретных) форм. Особое внимание уделяется взаимодействию вершин, детерминативов, модификаторов и комплементов, а также функциональной многообразности именных групп в письменных и устных регистрах.

**Redaksiyaya daxil olub:** 15.12.2025

*UOT 81*

# MÜASİR ALMAN DİLİNDƏ SİNTAKTİK QURULUŞLARIN TƏHLİLİ VƏ ONLARIN NƏZƏRİ ƏSASLARI

**Naibə Elxan qızı Camalzadə**
*Azərbaycan Dillər Universitetinin dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*
**ORCİD:** 0000-0003-2135-1419
**E-mail:** naibamusayeva@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.39

***Açar sözlər:*** *cümlə strukturu, element, sintaktik vahid, Freym konstruksiyası, çərçivə konstruksiyası.*
***Ключевые слова:*** *структура предложения, элемент, синтаксическая единица, фреймовая конструкция, рамочная конструкция.*
***Key words:*** *sentence structure, element, syntactic unit, frame construction.*

Otto Beqaqel 1932-ci ildə sintaksisə həsr etdiyi elmi əsərində alman dilinin tipologiyasını geniş şəkildə araşdıraraq əldə etdiyi nəticələr bir çox elmi linqvistik əsərlərin tədqiqinə istiqamət vermişdir. Araşdırmalar göstərir ki, alman dilində söz sırası müxtəlif dil səviyyələrinin (morfoloji, sintaktik, semantik və kommunikativ) bir-birinə qarşılıqlı təsirinin nəticəsidir (6).

Əsas qanunauyğunluqlardan biri onların bir-biri ilə məntiqi və sıx əlaqəli olmasıdır.

*Ən vacib qanun budur ki, intellektual cəhətdən sıx əlaqəli elementlər də bir-birilə sıx şəkildə qruplaşdırılmalıdır.*

*İkinci qanun tələb edir ki, daha vacib element ikinci dərəcəli elementdən sonra, yəni qulaqda sonuncu əks-səda doğuran elementdən sonra gəlir.*

*Üçüncü qanun tələb edir ki, fərqləndirici element fərqləndirilən elementdən əvvəl gəlsin:*

*Elementlərin artması qanunu; burada deyilir ki, iki elementdən mümkün qədər qısa olanı uzun elementdən əvvəl gəlir. Tonal elementin (**Tonal element** – nitqdə səsin intonasiya vasitəsilə yüksəlib-enməsi nəticəsində yaranan və cümlənin emosional-proqmatik məzmununu müəyyən edən fonetik*

Müəllifin alman dilinin cümlə strukturunun tədqiqatına daha çox təsir göstərən "Alman dilində cümlə nəzəriyyəsi haqda əsas fikirlər" adlı əsəri olmuşdur. Bu əsər Erix Drax tərəfindən alman dilini xarici dil kimi öyrənənlər üçün təhlil edilmişdir və müasir sintaksisin başlanğıcı kimi də qəbul edilə bilər. O, Sössürün sinxronluq anlayışına istinad edərək tarixi faktlara əsaslanmadan cümlə strukturunu anlamağa üstünlük vermişdir (6). Müəllifin alman cümləsinin sahə müvqeyi modeli də tədqiqatda diqqət cəlb edən bölgüdür (Vorfeld-Mitte-Nachfeld).

Bu bölgüyə əasən alman cümləsində ön sahədə bir element, orta sahədə feil, digər elementlər isə arxa sahədə gəlir. Onun fikrincə cümlədə mövqe əlaqələri sözlərin qrammatik münasibətləri ilə deyil, onların məzmununun məntiqi funksiyası ilə təyin edilir ki, bu da tipoloji araşdırmalarda vacib məna daşıyır.

Bununla müəllif geniş yayılmış linqvistik araşdırmalardakı "mübtəda-xəbər" fikrini təqzib edir. Cümlə strukturu yalnız mübtəda-xəbər münasibəti ilə deyil, eyni zamanda tema-rema anlayışları ilə də izah edilə bilər. dilində cümlə nəzəriyyəsi haqda əsas fikirlər" adlı əsəri olmuşdur.

Erix Draxın fikirlərinə istinad edən Karl Bust 1956-cı ildə "Alman cümləsinin təbiəti və strukturunun yeni tədqiqatı" adlı əsərində alman dilinin tematik strukturunu təsvir etmişdir.

Cümlənin başlanğıc hissəsi yəni giriş hissəsi onun növbəti mərhələsi üçün əsas tema (mövzu) funksiyasını daşıyır. Tema kimi istifadə edilən cümlə elementi artıq məlum bir hadisəni ifadə edir və dinləyici tərəfindən də aydın şəkildə dərk olunur. (4)

Cümlə strukturu məsələn sual temasının davamı olaraq cavab ritorikasının vacibliyini göstərən üzvlənmə prinsipi ilə xarakterizə edilir. Linqvistik tədqiqatlarda alman dilində cümlədə söz sırası morfoloji, sintaktik, semantik və kommunikativ şərtlərdən asılı olaraq dil öyrənənlərdə cətinlik yaradan qaydalardan biri hesab edilir. Bu fikrə bir az da aydınlıq gətirərək sintaksisin xüsusilə çətin bölmə olduğunu vurğulamaq istərdik. Əgər ayrı-ayrı sözlər qrammatik qanunauyğunluğun nəticəsi olaraq daha böyük sintaktik vahidlərdə birləşirsə və bu zaman cümlə üzvü və ya söz birləşməsi kimi çıxış edirlərsə, söz birləşməsi və cümlə daxilində onlar sabitləşə bilərlər.

Onu da qeyd edək ki, alman dilində söz sırası qismən sərbəstdir. Məs.:

*Anna hat ihrem Bruder ein Buch mitgebracht.*
*Anna hat ein Buch ihrem Bruder mitgebracht.*
*İhrem Bruder hat Anna ein Buch mitgebracht.*
*Ein Buch hat Anna irem Bruder mitgebracht.*

Amma alman dilində sözlərin hansı sinfə mənsub olmasından asılı olaraq cümlədə sabit, dəyişməyən mövqeyi ola bilir. Məs.:

- Struktur növə görə feilin sadə, sadə geniş cümlədəki yeri sabitdir və ikinci element olaraq cümlədə yer alır. Tabeli mürəkkəb cümlələrdə isə feil budaq cümlənin sonunda gəlir. Bu mövqedə də budaq cümlədə feilin yeri sabit olaraq qalır. Feil elementləri xəbərin əsas hissəsidir və cümlədə sabit mövqeyə malikdir. Çərçivə nəzəriyyəsinə də istinad etsək bu faktın sübutunu görmək mümkündür.
- Freym konstruksiyası semantika və koqnitiv dilçiliyə əsaslanan, müəyyən situativ və semantik modeli qrammatik konstruksiya vasitəsilə ifadə edən dil vahididir. Başqa sözlə, bu anlayış semantik situasiyanın (freym) və onun dil formasının (konstruksiya) birləşməsini təsvir edir.

Freym konstruksiyası – müəyyən bir situasiyanı ifadə edən sabit qrammatik modeldir. Məs.: "X Y-yə Z-ni verir" freym konstruksiyasıdır, çünki burada:

X – verən (agent),
Y – alan (benefaktiv),
Z – verilən obyekt (tema) rolundadır.

Bu model "vermə freymini" dil strukturunda reallaşdırır.

Freym konstruksiyasının tətbiq sahələrinə, onun dil öyrənmə, cümlə modelləri və semantik analizdə necə tətbiq olunduğuna nəzər salaq.

Freym konstruksiyaları dil öyrənənlərə cümlə quruluşlarını mənalı şəkildə qavramağa kömək edir. Yəni dil öyrənən yalnız sözləri və qaydaları deyil, hər bir qrammatik modelin arxasındakı situasiyanı da başa düşür. Məs.:

"X Y-yə Z-ni verir" → "Vermə freymi"
"X Y-dən Z-ni alır" → "Alma freymi"

Bu iki freym bir-biri ilə semantik baxımdan bağlıdır (verən–alan münasibəti), buna görə dil

öyrənən onların istifadə məqamlarını, rollarını və semantik əlaqələrini daha rahat mənimsəyir. Freym konstruksiyası öyrənənə qaydanı mexaniki şəkildə deyil, mənalı kontekstdə qavramağa imkan yaradır.

Freym konstruksiyaları cümlə modellərinin təhlilində və yeni modellərin yaradılmasında əsas vasitə kimi çıxış edir. Dilçi və ya müəllim freymi müəyyənləşdirərək onun struktur şablonunu göstərə bilər. Məs.:

| Freym | Konstruksiya nümunəsi | Rollar |
|---|---|---|
| Vermə | X Y-yə Z-ni verir | agent – benefaktiv – tema |
| Hərəkət | X Y-yə gedir | hərəkət edən – istiqamət |
| Duyğu | X Y-yə qarşı nifrət hissi keçirir | subyekt – obyekt |

Beləliklə, cümlə modelləri yalnız qrammatik baxımdan deyil, funksional və semantik baxımdan da izah olunur.

Freym konstruksiyası cümlələrin mənasının dərin təhlilində istifadə olunur. Bu yanaşma freym semantikası və konstruksiya qrammatikası prinsiplərini birləşdirərək, dilin mənanı necə qurduğunu göstərir. Məs.:

"Der Lehrer gibt dem Studenten eine Übung."

Bu cümlənin semantik strukturu aşağıdakı kimi freym konstruksiyası ilə təhlil olunur:

Freym: Vermə freymi

Rollar: der Lehrer müəllim (verən) → dem Studenten tələbə (alan) → die Übung tapşırıq (obyekt)

Konstruksiya: X Y-yə Z-ni verir

Bu, həm mənanın strukturunu, həm də qrammatik formanın funksiyasını göstərir.

| Sahə | Freym konstruksiyasının rolu |
|---|---|
| Dil öyrənməsi | Cümlələri situasiyaya əsasən anlama və qurma bacarığını inkişaf etdirir |
| Cümlə modelləri | Qrammatik strukturların semantik mənzərəsini təqdim edir |
| Semantik analiz | Dilin dərin mənasını və rollar arasındakı əlaqəni üzə çıxarır |

| № | Freym tipi | Tipik konstruksiya (cümlə modeli) | Semantik vəziyyət / Mənası | Rollar (Freym elementləri) |
|---|---|---|---|---|
| 1 | Geben (vermə) | X gibt Y Z. "Der Lehrer gibt dem Studenten eine Übung". | Birinin digərinə nəyisə verməsi | X – verən (Agent), Y – alan (Benefaktiv), Z – obyekt (Tema) |
| 2 | Nehmen (alma) | X nimmt Y von Z. "Der Student nimmt das Heft vom Tisch". | Birinin bir yerdən nəyisə götürməsi | X – alan, Y – obyekt, Z – mənbə |
| 3 | Sagen | X sagt Y (zu Z). | Məlumatın bir | X – danışan, Y – |

| | | | | |
|---|---|---|---|---|
| | (danışma/ifadə) | "Die Schwester sagt dem Bruder die Wahrheit". | şəxsdən digərinə ötürülməsi | məzmun, Z – ünvanlanan |
| 4 | Bewegung (hərəkət) | X geht/fährt nach Y. "Otto fährt nach München". | Subyektin bir yerdən digərinə hərəkəti | X – hərəkət edən, Y – istiqamət/məkan |
| 5 | Emotion (emosiya) | X freut sich über Y. "Sie freut sich über die Reise". | Subyektin hiss və duyğularını ifadə etməsi | X – hiss edən, Y – hissin səbəbi |
| 6 | Besitz (mülkiyyət) | X hat Y. "Er hat einen Wagen". | Sahiblik münasibəti | X – sahib, Y – obyekt |
| 7 | Erlaubnis / Verbot (icazə/qadağa) | X darf / darf nicht Y(tun). "Du darfst hier nicht laut sprechen". | Qaydaların və hüquqların ifadəsi | X – subyekt, Y – fəaliyyət |
| 8 | Wissen (bilik) | X weiß Y. "Ich weiß die Wahrheit". | Bilik və ya məlumatın mövcudluğu | X – bilən, Y – məlumat |
| 9 | Wunsch (arzu/niyyət) | X möchte Y (tun). "Ich möchte schlafen". | Arzu və ya məqsədin ifadəsi | X – arzulayan, Y – hərəkət |
| 10 | Kommunikation (ünsiyyət) | X spricht mit Y über Z. "Der Vater spricht mit seiner Tochter über Gesundheit". | Ünsiyyət və fikir mübadiləsi vəziyyəti | X – danışan, Y – dinləyici, Z – mövzu |

Məs.: *"Der Lehrer gibt dem Studenten eine Übung". "Dem Studenten gibt der Lehrer eine Übung".*

Qrammatik quruluş dəyişir, amma freym (vermə situasiyası) sabit qalır. "Anna hat ihrem Bruder ein Buch mitgebracht". (*Anna qardaşına bir kitab gətirib.*)

Bu cümlə "vermə / ötürmə freyminə" aid olan klassik bir freym konstruksiyası nümunəsidir, çünki burada bir obyektin (Buch) bir subyekt tərəfindən (Anna) başqa bir şəxsin ixtiyarına (ihrem Bruder) verilməsi və ya çatdırılması hadisəsi baş verir.

Bu cümləni freym konstruksiyası baxımından mərhələli şəkildə izah edək:

Freym: *Geben / Überbringen (vermə və ya gətirmə freymi)*

Bu freymdə hadisənin əsas semantik strukturu:

Bir şəxs (Agent) → başqa bir şəxsə (Benefaktiv) → bir obyekt (Tema) verir və ya gətirir.

Tipik konstruksiya modeli:

X bringt Y Z (mit) və ya X hat Y Z mitgebracht.

Bu modeldə "mitbringen" felinin semantik strukturu "vermə + hərəkət" birləşməsidir (yəni "kiməsə bir şeyi özü ilə gətirmək"). Cümlə Perfekt zaman formasında qurulub: *hat ... mitgebracht.*

| Freym rolu | Cümlədəki element | Qrammatik funksiya | İzah |
|---|---|---|---|
| Agent (verən / gətirən) | Anna | Mövzu (Subjekt, Nominativ) | Hərəkəti yerinə yetirən şəxs |
| Benefaktiv (alan şəxs) | ihrem Bruder | Dolayı tamamlıq (Dativ) | Gətirilən əşyanın ünvanlandığı şəxs |
| Tema (obyekt) | ein Buch | Birbaşa tamamlıq (Akkusativ) | Gətirilən əşya, obyekt |
| Fəaliyyət (predikat) | hat … mitgebracht | Fel | "Gətirib" hərəkətini bildirir |

Freym konstruksiyasının ümumi strukturu
[Agent] [Benefaktiv]-ə [Tema]-nı gətirir.
Alman dilində isə bu belə formalaşır:
X (Nominativ) + hat + Y (Dativ) + Z (Akkusativ) + mitgebracht.
Konkret cümlədə:
Anna (Agent) → ihrem Bruder (Benefaktiv) → ein Buch (Tema) → mitgebracht (Fəaliyyət)
Freym: Überbringungsfreym (gətirmə situasiyası)
Bu freym aşağıdakı semantik əlaqələri özündə birləşdirir:
Anna → bringt → ein Buch → (ihrem Bruder)
Agent Fəaliyyət Tema Benefaktiv
Hadisənin qısa semantik təsviri:
Agent (Anna) bir obyekt (kitab) götürərək onu benefaktivə (qardaşına) çatdırır.

Cümlə "Anna hat ihrem Bruder ein Buch mitgebracht" → "Überbringungsfreym"-in (gətirmə və ötürmə hadisəsinin) konstruksional reallaşmasıdır, burada qrammatik struktur (Nominativ–Dativ–Akkusativ) semantik rollarla sıx uyğunluq təşkil edir.




Bəzi mənbələrdə freym konstruksiyası ilə çərçivə konstruksiyası fərqli izah edilir. Amma bu iki konstruksiya yanaşma bucağına görə fərqlənir. Struktur dilçilik, mətn və diskurs təhlilinə əsaslansaq çərçivə konstruksiyası - formaya və quruluşa əsaslanan, sintaktik-semantik modeldir (4). Çərçivə konstruksiyası dil vahidlərinin (söz, söz birləşməsi, cümlə) sabit struktur modeli kimi təşkil olunmasını ifadə edir. Bu modeldə:

- müəyyən əsas (çərçivə yaradan) komponentlər dəyişməz qalır,
- digər komponentlər isə variativ xarakter daşıyır.

Beləliklə, çərçivə konstruksiyası dil vahidlərinin struktur–semantik təşkilini təmin edən model rolunu oynayır.

F. de Sössürün dilin sistem kimi başa düşülməsi ideyasına əsasən, dil vahidləri bir-biri ilə münasibətlər sistemi yaradır, formanın sabitliyi və elementlərin qarşılıqlı əlaqəsi ilə müəyyənləşdirir. Bu baxımdan çərçivə konstruksiyası struktur invariantı, konkret cümlələrin isə həmin invariantın variantları kimi izah olunur (3).

Çərçivə konstruksiyası koqnitiv dilçilikdə freym anlayışının formal reallaşması kimi çıxış edir. Yəni freym konseptual bilik strukturu, çərçivə konstruksiyası həmin bilik strukturunun dildəki formal modelidir. Bu səbəbdən bir çox mənbələrdə çərçivə konstruksiyası freymin sintaktik proyeksiyası kimi izah olunur.

Çərçivə konstruksiyası alman dilində felin və onun hissələrinin cümləni iki yerə "çərçivəyə" almasıdır.

- felin müxtəlif hissələri (məsələn, köməkçi feil + Partizip, ya da modal feil + əsas feil)
- feil + ayrılan ön şəkilçi (Trennbares Präfix) cümlənin əvvəlində və sonunda yerləşərək, arasındakı hissəni çərçivəyə alır.
- Sadə feil forması (einfache Verbform)

Felin yalnız bir hissəsi varsa, çərçivə açılmır:

Ich arbeite heute zu Hause. Feil bir yerdədir, çərçivə yoxdur.

- Ayrılan ön şəkilçili feillər (trennbare Verben)

Mein Sohn steht um 7 Uhr auf. Çərçivə:

1-ci hissə (fel kökü): steht

2-ci hissə (ayrılan ön şəkilçi): auf

Steht ... auf → cümlənin əsas predikatı

Arada qalan hissə ("um 7 Uhr") — söz sırası baxımından orta mövqe (Mittelfeld)

-Köməkçi feillə (haben/sein/werden) düzəlmiş zaman formaları

Er hat gestern lange gearbeitet. Çərçivə:

1-ci hissə: hat

2-ci hissə: gearbeitet

hat ... gearbeitet → predikatın tam forması

Aradakı elementlər (zaman zərfi və s.) orta mövqedə yerləşir.

- Modal feillər

Sie will heute Deutsch lernen. Çərçivə:

1-ci hissə: will

2-ci hissə: lernen

will ... lernen — birgə feil qrupu (Prädikat)

Aralıq hissə ("heute Deutsch") çərçivənin içindədir.

-Passiv və ya mürəkkəb formalar

Der Text wird morgen geschrieben werden. Çərçivə:

Ön hissə: wird

Son hissə: geschrieben werden

wird ... geschrieben werden → tam fel kompleksi

"morgen" → orta sahə.

Wir haben den Text gestern im Unterricht besprochen.

Təhlil:

| Element | Funksiya | Qeyd |
|---|---|---|
| Wir | Subjekt | kim? |
| Haben | köməkçi fel (çərçivənin başlanğıcı) | |
| den Text gestern im Unterricht | Mittelfeld | obyekt və zərfliklər |
| Besprochen | Partizip II (çərçivənin sonu) | |
| haben … besprochen | Predikat (çərçivə konstruksiyası) | tam fel qrupu |

Alman dilində çərçivə konstruksiyasının təhlilini aşağıdakı kimi ümumiləşdirsək, növbəti nəticəyə gələrik:

felin bütün hissələrini tapmaq, cümlədəki yerini göstərmək, predikatın bütöv strukturunu müəyyənləşdirmək.

Bu, cümlənin sintaktik quruluşunu və söz sırasını anlamağın açarıdır.

"Çərçivə konstruksiyası" (Satzklammer) ilə "freym konstruksiyası" (Frame-Konstruktion) anlayışları oxşar görünsələr də, tamamilə fərqli dilçilik səviyyələrinə aiddir.

Çərçivə konstruksiyası (Satzklammer) sintaksisə (cümlə quruluşu) əsaslanır. Alman dilində çərçivə konstruksiyası feil formalarının (məsələn, "hat … gemacht", "will … lernen", "steht … auf") cümlənin başlanğıcı və sonu arasında yerləşməsi və aradakı elementlərin "çərçivə içində" qalmasıdır.

Məs.: "habe … gelesen"

Çərşivə cümlənin söz sırasını və predikatın quruluşunu müəyyənləşdirir. Bu, sırf qrammatik (struktur) hadisədir.

Freym konstruksiyası isə (Frame-Konstruktion) semantika və kognitiv dilçiliyə (mənanın qurulması) əsaslanır. Freym — müəyyən bir konseptual situasiyanı (çərçivəni) aktivləşdirən mənəvi-sxematik strukturdur. Charles Fillmoreun Frame Semantics nəzəriyyəsinə əsaslanır. Məs.:

"Satın alma" freymi → "alıcı", "satıcı", "məhsul", "pul", "əməliyyat" kimi rolları aktivləşdirir.

"Məktəb" freymi → "müəllim", "şagird", "sinif", "dərs" və s.

Yəni, freym konstruksiyası danışıqda və ya mətndə bu konseptual çərçivələrin dil vasitəsilə necə ifadə olunduğunu göstərir.

Anna hat ein Buch gekauft. (Anna kitab alıb.) Burada "almaq" sözü "satın alma freymi"ni aktivləşdirir: (alıcı, satıcı, məhsul, pul).

Freym konstruksiyası mənanın necə qurulduğunu, dil elementlərinin hansı konseptual çərçivəyə aid olduğunu göstərir. Bu, semantik və koqnitiv hadisədir.

| Məsələ | Çərçivə konstruksiyası (Satzklammer) | Freym konstruksiyası (Frame-Konstruktion) |
|---|---|---|
| Səviyyə | Sintaktik (qrammatika) | Semantik / Kognitiv |
| Mövzusu | Fel və söz sırası | Mənanın konseptual strukturu |
| Əsas ideya | Fel hissələri cümləni çərçivəyə alır | Söz və ifadələr müəyyən "mənəvi çərçivəni" aktivləşdirir |
| Funksiya | Cümlənin strukturunu qurur | Mənanın konseptual əlaqələrini göstərir |
| Nümunə | „Er hat das Buch gelesen." | "Almaq", "satmaq" → "ticarət freymi" |
| Analiz səviyyəsi | Formal qrammatika | Kognitiv-semantik analiz |
| Tədrisdə istifadəsi | Cümlə strukturu öyrədərkən | Mənanın, leksikanın, diskursun təhlilində |

Çərçivə konstruksiyası → *"fel necə yerləşib?"*
Freym konstruksiyası → *"bu söz hansı situasiyanı yada salır?"*
Biz bu iki yaxın nəzəriyyəni eyni cümləni təhlil edərək müqayisə edə bilərik.
*Die Lehrerin hat den Schüler für seine gute Arbeit gelobt. (Müəllimə şagirdi yaxşı işi üçün tərifləyib.)*
Çərçivə konstruksiyası (Satzklammer) — *sintaktik analiz*
Fel formalarının cümlə strukturundakı yerini və "çərçivə"ni göstərmək.

| Element | Funksiya | Qeyd |
|---|---|---|
| Die Lehrerin | Subjekt | cümlənin mövzusu |
| Hat | köməkçi fel (Perfekt) | çərçivənin başlanğıcı |
| den Schüler für seine gute Arbeit | Mittelfeld | obyekt və səbəb bildirən zərflik |
| Gelobt | Partizip II | çərçivənin sonu |
| hat … gelobt | Predikat (çərçivə konstruksiyası) | tam fel kompleksi |

Burada çərçivə "hat … gelobt" arasında açılır və cümlənin əsas strukturu bu çərçivə üzərində qurulur.
Bu feil formaları və söz sırası əsaslı sintaktik (formal) təhlildir.
Freym konstruksiyası (Frame-Konstruktion) semantik-kognitiv analizdir.
Cümlədəki sözlərin və rolların hansı konseptual freymə aid olduğunu müəyyənləşdirir.
Nümunədə verilən cümlə "tərifləmə (lobe-frame)" freymindədir.

| Rol | Cümlədəki element | İzah |
|---|---|---|
| **Aktor (Tərifləyən)** | Die Lehrerin | qiymətləndirən şəxs |
| **Pasiyent (Təriflənən)** | den Schüler | hərəkətin obyekti |
| **Səbəb / Əsas** | für seine gute Arbeit | tərifin səbəbi |
| **Hərəkət** | loben (gelobt) | tərifləmə aktı |

Burada “loben” felinin işlənməsi “təriflәmə freym”ini aktivləşdirir. Bu, sosial münasibət (müəllim → şagird) və dəyərləndirmə (müsbət reaksiya) kontekstini yaddaşda canlandırır. Bu artıq mənanın konsept səviyyəsində təhlildir.

| Aspekt | Çərçivə konstruksiyası | Freym konstruksiyası |
|---|---|---|
| Nəyi təhlil edir? | Cümlənin quruluşunu (fel formaları) | Cümlənin mənəvi strukturunu (rol və situasiya) |
| Fokus | “hat … gelobt” → fel çərçivəsi | “loben” → təriflәmə freymi |
| Dil səviyyəsi | Sintaktik | Semantik / Kognitiv |
| Sual | “Fel necə yerləşib?” | “Bu cümlə hansı situasiyanı təsvir edir?” |
| Analiz obyekti | Formal struktur | Mənanın konseptual əlaqələri |

Hər iki nəzəriyyənin təhlilindən bu nəticəyə gələ bilərik ki, çərçivə konstruksiyası cümlənin skeletini göstərir, freym konstruksiyası isə cümlənin mənəvi-sosial mənzərəsini açır.

**Problemin aktuallığı.** “Müasir alman dilində sintaktik quruluşların analizi və onların nəzəri əsasları” mövzusu dilçilik elminin müasir tələblərinə cavab verən aktual bir araşdırma sahəsidir. XXI əsrdə qloballaşma və çoxdilli ünsiyyətin genişlənməsi nəticəsində alman dili yalnız Avropada deyil, dünya miqyasında da əhəmiyyətli kommunikasiya vasitəsinə çevrilmişdir. Bu isə alman dilinin sintaktik xüsusiyyətlərinin sistemli və dərindən öyrənilməsini tələb edir.

Mövcud tədqiqatlarda alman dilinin morfoloji və leksik səviyyələri ilə bağlı bir sıra işlər olsa da, sintaktik quruluşların müasir kontekstdə sistematik təhlili və onların nəzəri əsaslarının araşdırılması kifayət qədər yox səviyyəsindədir. Bu isə təhsil prosesində, dilin tədrisi və təlim materiallarının hazırlanmasında müəyyən boşluqlar yaradır. Belə bir boşluğu aradan qaldırmaq üçün sintaktik səviyyədə struktur analizinin aparılması və nəzəri baza kontekstində sistemləşdirilməsi zəruridir. Buna görə də, bu mövzunun araşdırılması dil nəzəriyyəsi və praktikası üçün böyük aktuallığa malikdir.

**Problemin elmi yeniliyi.** Məqalədə təklif olunan yanaşma alman dilinin sintaktik quruluşlarının təhlilinə yeni nəzəri perspektivlər gətirir. Ənənəvi sintaktik təhlil modellərindən fərqli olaraq, tədqiqat müasir linqvistik nəzəriyyələrin – funksional-sintaktik, generativ və korpus əsaslı yanaşmaların – sintezinə əsaslanır. Bu aspektlər tədqiqatın elmi yenilik məzmununu formalaşdırır və alman dilçiliyi sahəsinə orijinal töhfə verir.

**Problemin praktik əhəmiyyət və tətbiqi.** Tədqiqatın nəticələri həm nəzəri, həm də praktik səviyyədə geniş tətbiq imkanlarına malikdir. Praktik əhəmiyyəti aşağıdakı kimi ifadə edilə bilər:

- Alman dili üzrə dərslik və tədris vəsaitlərinin hazırlanmasında sintaksis səviyyəsində dəqiqləşdirmələr aparılmasına kömək edir;
- Tərcümə fəaliyyətində mürəkkəb sintaktik mənaların düzgün çatdırılması üçün nəzəri əsaslar təqdim edir;
- Dilin avtomatik emalı, maşın tərcüməsi və korpus dilçiliyi sahələrində tətbiqi mümkün olan yeni sintaktik model və konseptlər təklif edir.

Bu cür çoxsahəli tətbiq sahələri məqalənin praktik əhəmiyyətini daha da artırır.

**Ədəbiyyat**

1. Admoni, Wladimir Der deutsche Sprachbau. Aufl. München: C.H. Beck'sche Verlag. 1970.
2. Admoni, Wladimir. Die Entwicklungstendenzen des deutschen Satzbaus von heute. München: Max Huber Verlag. 1973.
3. Altmann, Hans. Formen der "Herausstellung" im Deutschen. Rechtsversetzung, Linksversetzung, Freies Thema und verwandte Konstruktionen. Tübingen. (=Linguistische Arbeiten 106) 1981.
4. Auer, Peter. Zur Verbspitzenstellung im Gesprochenen Deutsch. In: Deutsche Sprache 14. S. 193-222. 1993.
5. Askedal, John Ole. Über "Stellungsfelder" und "Satztypen" im Deutschen. In: Deutsche Sprache 14. S. 193-223. 1986.
6. Behagel, Otto. Deutsche Syntax. Eine geschichtliche Darstellung. Bd. Wortstellung, Periodenbau. Heidelberg: Carl Winter's Universitätsbuchhandlung. 1932.
7. Bittner D. Die deutsche Klammerstruktur. Epiphänomen der syntaktischen Realisierung von Assertion und Thema-Rhema-Gliedrung. // Bittner, Dagmar &Livio Gaeta (Hrsg.) Kodierungstechniken im Wandel. Das Zusammenspiel von Analztikund Synthese im Gegen wartsdeutschen. Berlin/New York: De Gruzter, 2010. S. 223-247.

**N.E.Camalzadə**

**Müasir alman dilində sintaktik quruluşların analizi və onların nəzəri əsasları**
**Xülasə**

Məqalədə müasir alman dilinin sintaktik konstruksiyaları və onların aktual linqvistik istiqamətlər kontekstində nəzəri əsasları təhlil edilir. Əsas diqqət cümlə quruluşunun, sintaktik vahidlərin növlərinin və onların təşkili modellərinin öyrənilməsinə yönəldilir. Tədqiqatın nəzəri bazasını generativ qrammatika, funksional sintaksis və konstruksiya qrammatikası təşkil edir ki, bu da sintaksisi çoxsəviyyəli və dinamik bir sistem kimi nəzərdən keçirməyə imkan verir. Məqalədə sintaktik konstruksiyaların forma ilə məna arasındakı qarşılıqlı əlaqəsi, eləcə də onların kommunikasiya və diskursiv qarşılıqlı təsirdəki rolu açıqlanır.

Məqalədə müasir alman dilinin sintaktik strukturları yalnız sərt qrammatik qaydalar əsasında deyil, həm də praqmatik və kontekstual amillərin təsiri altında formalaşması vurğulanır. Aparılan təhlil göstərir ki, sintaktik konstruksiyalar yüksək variasiyaya malikdir və dilin inkişafının müasir tendensiyalarını əks etdirir. Əldə olunan nəticələr alman dilinin sintaksisinin fəaliyyət mexanizmlərinin daha dərindən dərk edilməsinə töhfə verir və nəzəri linqvistik tədqiqatlarda, alman dilinin xarici dil kimi tədrisi praktikasında, eləcə də müqayisəli dilçilikdə istifadə oluna bilər.

**Н.Э.Джамалзаде**

**Анализ синтаксических конструкций современного немецкого языка и их теоретические основы**
**Резюме**

В статье анализируются синтаксические конструкции современного немецкого языка и их теоретические основания в контексте актуальных лингвистических направлений. Основное внимание уделяется изучению структуры предложения, типов синтаксических единиц и моделей их организации. Теоретической базой исследования послужили положения генеративной грамматики, функционального синтаксиса и конструкционной грамматики, что позволяет рассмотреть синтаксис как многоуровневую и динамичную систему. В статье раскрывается взаимосвязь формы и значения синтаксических конструкций, а также их роль в процессе коммуникации и дискурсивного взаимодействия. Подчеркивается, что синтаксические структуры современного немецкого языка формируются не только на основе строгих грамматических правил, но и под влиянием прагматических и контекстуальных факторов. Анализ показывает, что синтаксические конструкции обладают высокой вариативностью и отражают современные тенденции развития языка. Полученные результаты способствуют более глубокому пониманию механизмов функционирования синтаксиса немецкого языка и могут быть использованы в теоретических лингвистических исследованиях, практике преподавания немецкого языка как иностранного, а также в сопоставительном языкознании.

**N.E.Jamalzade**

**Analysis of syntactic structures in contemporary german and their theoretical foundations**
**Summary**

This article examines syntactic structures in contemporary German and their theoretical foundations. The study analyzes sentence structure, syntactic units, and construction types within the framework of modern linguistic theories, including generative grammar, functional syntax, and construction grammar. Special attention is paid to the interaction between form and meaning, as well as to the role of syntax in discourse and communication. The article demonstrates that syntactic constructions in modern German are dynamic and context-dependent, reflecting both grammatical rules and pragmatic factors. The findings contribute to a deeper understanding of German syntax and may be useful for linguistic research, language teaching, and comparative studies.

**Redaksiyaya daxil olub:** 15.12.2025

*UOT 378.147+378.016:81*

# DEFINING THE CONCEPT OF "LINGUOCULTURAL COMPETENCE" AND ITS ROLE IN INTERCULTURAL COMMUNICATION

**Elnarə Eldar qızı Putayeva**
*Azərbaycan Dillər Universitetinin dosent əvəzi,*
*filologiya üzrə fəlsəfə doktoru*
**ORCID:** 0000-0002-1719-1670
**E-mail:** putayeva.elnara@adu.edu.az
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.40

***Key words:*** *linguocultural studies, competence, cognition, communicative competence, linguocultural competence, intercultural communication.*

***Açar sözlər:*** *linqvokulturologiya, bacarıq, anlama, kommunikasiya bacarığı, linqvokulturoloji bacarıq, mədəniyyətlərarası ünsiyyət.*

***Ключевые слова:*** *лингвокультурология, компетентность, познание, коммуникативная компетентность, лингвокультурная компетентность, межкультурная коммуникация.*

By linguistic culture we mean a certain level of language development, reflecting the accepted literary norms of a given language, the correct and adequate use of linguistic units, linguistic means, which contributes to the accumulation and preservation of linguistic experience.

The language of a society and the language of an individual are cultural expressions and are considered indicators of the cultural level of any nation. Linguistic culture forms the general culture of any society, contributes to its development, establishes a person's place in society, and contributes to the formation and organization of his life and communication experience.

In the dictionary of foreign words, under "competence" (from Latin. competence is understood as a range of issues in which a person has knowledge and experience. In relation to learning a foreign language, the concept of "competence" in the dictionary of methodological terms is considered as a set of knowledge, skills, and abilities formed in the process of learning a discipline, as well as the ability to perform any activity and is characterized by a certain level of language proficiency.

The general concept of competence is interpreted as a characteristic given to a person as a result of evaluating the effectiveness and effectiveness of his actions aimed at solving a certain range of significant tasks.

From these definitions of competence, it can be concluded that, in its most general form, the concept of "competence" expresses the content of a particular type of activity, and "competence" is a set of personality qualities necessary for the realization of this content. Based on this, competence is considered as a set of knowledge, skills and abilities that allow its subject to effectively solve issues and perform necessary actions in any area of life, and competence is considered as a set of objective conditions that determine the possibilities and boundaries of an individual's competence.

Thus, the meaning of the concept of "competence" reflects the combination of knowledge,

skills, and abilities formed by a person in the learning process, and correlates with a comprehensive characteristic of a student's willingness to use knowledge in a particular field in practice, to show personal qualities in the standard and changing conditions of educational activity. Competence, on the other hand, acts as a personality's ability to perform appropriate actions based on acquired knowledge and formed skills.

In our work, competence is understood as an integrated combination of a student's personal qualities, knowledge, abilities, and willingness to use them effectively to achieve the goal of an activity. The content of competence consists of the interrelationships of its functional and structural components. The psychological and pedagogical approach to the student's personality as a subject of cognition, activity, and social interaction is a kind of basis for the emergence of structural components of competence.

The formation of linguocultural competence in non-native language classes based on the comparative and typological study of cultures in the context of their dialogue provides for the disclosure of the value meaning and axiological significance of the selected educational material to the students. This presupposes the search for socio-valuable cultural features that determine the specifics of the axiological orientations of communicants, which in turn determine the results of communicative actions [5].

Linguoculturology addresses various issues related to language, such as the influence of culture on the development of linguistic concepts and the link between linguistic symbols and the cultural meanings of words. The relationship between language and culture is reciprocal: language influences cultural practices, while cultural practices shape language. However, this connection also presents complex and sometimes contradictory challenges. One such challenge arises when the cultural meaning of a linguistic item is not immediately apparent. For instance, the phrase "French leave" originally referred to a custom in $18^{th}$ century France, where leaving a social event without saying goodbye was considered impolite by the English. Today, it simply refers to leaving a place of work without permission. This example highlights that understanding the historical context of a phrase is essential for fully grasping its meaning and using it correctly [1, pp.1013-1014].

In this context, competence is understood as an integrated combination of personal qualities, knowledge, abilities, and readiness to apply these in achieving the goals of a given activity. Competence, therefore, consists of various interrelated components: motivation (internalizing the value of educational activities), cognition (mastery of subject knowledge), operations (formation of skills and methods that align with the conditions of the task), and reflection-evaluation (the learner’s position in educational activities).

D. Slobin defined the content of the concept of “language competence” as “linguistic ability” or “linguistic activity”, pointing out the difference "between what a person is theoretically able to speak and understand, and what he actually says and understands in specific situations” [10, pp. 66].

According to L.A. Gorodetskaya, the specified competence is defined as a part of cultural competence personality is defined as a set of knowledge, skills and personal qualities formed through immersion in the context of a certain linguistic culture. She understands the studied competence as "the ability to recognize and adequately perceive cultural connotation, i.e., to correlate the semantic content of a linguistic sign with associative-the figurative motivation

underlying the choice of a word through the prism of the values of one's own ethno-culture" [3].

E. A. Dortman, following V.N. Telia, defines linguistic and cultural competence as the ability to understand the cultural and national mentality of native speakers, take into account the specifics of the linguistic picture of the world, and capture the national and cultural component expressed in the cultural semantics of language signs [6]. The definition of linguistic and cultural competence, given in the monograph by M. A. Pakhnotskaya, includes knowledge about the system of cultural values embedded in the language and the ability to use this knowledge in practice [9].

M.S. Biryukova, summarizing approaches to the definition of linguistic and cultural competence, sees in it a system of "knowledge about culture embodied in language", readiness "for axiological and semiotic interpretation of linguistic and extralinguistic facts, as well as analytical and communicative skills that are acquired in the process of acquaintance with ethnocultural values" and the conceptosphere of the country of the studied language" [2].

Each concept is filled with a special content and is conditioned by its own reasons for its creation. For us, the concept of "linguistic and cultural competence" is important, reflecting a specific content and having functions characteristic of this term.

Thus, linguistic and cultural competence is considered by us as possession of basic characteristics that include and reflect knowledge, and possession of valuable knowledge of language and culture, which reflect the mentality, spirituality and national specifics of a given society.

Also, by linguistic and cultural competence, we mean the necessary basic linguistic and cultural knowledge, actualized by a person in the process of his life and reflecting the values, norms, and rules in force in a given culture and language. In other words, it is the knowledge and ability to apply basic linguistic and cultural units reflecting the linguistic culture of society.

Each culture has its own basic knowledge, reflecting the national specifics of culture, the mentality of the nation. For example, American Professor E. Hirsch published a dictionary of cultural literacy in 1988, including in it the knowledge that should be known to representatives of American society and allow them to communicate at an adequate level sufficient to understand the essence of the issue and the problem.

He suggested 5,000 words, phrases, expressions, dates, historical figures, names of historical documents, scientific terms that cultured and literate Americans should know. In order to fully participate in the life of society, it is not enough for a person to possess basic literacy, i.e. the ability to read and write. The author believes that upbringing and education should be aimed at mastering certain knowledge - keywords, then all graduates of educational institutions can achieve cultural literacy.

The cultural competence of a person should normally match the main parameters (values, ideas, principles) with the national culture. If this does not happen, a personality conflict with the surrounding culture arises. Cultural competence can be used by representatives of a given culture in a wide variety of fields: politics, science, literature, all kinds of creative activities, including music, writing, choreography, etc., its individual aspects can be measured for individuals and groups of people.

At the same time, the most important part of cultural competence determines the

communication of members of society, dictating to them certain restrictions, norms, rules, rituals that are mandatory for performance within a given culture and are specific to different national, religious, professional, etc. communities.

Due to the importance of various forms of communication for the existence and development of human civilization, it is advisable to single out this part of cultural competence in a separate aspect, for which L.A. Gorodetskaya proposed the term linguistic and cultural competence. According to the above-mentioned author, the difference between cultural competence and linguistic and cultural competence is the difference between a part and a whole: linguistic and cultural competence is that part of cultural competence that is responsible for the communicative behavior of a person within a given linguistic culture [4, pp.49]. At the same time, strategies of communicative behavior are much broader than the concepts of "speech" and "discourse", since they include chains of culturally conditioned verbal and nonverbal actions, which in turn consist of signs of different types, therefore they noticeably go beyond the linguistic phenomena studied by linguistics. Value concepts, norms, and rules related to culture and determining the choice of communicative strata also go beyond linguistics.

Interaction is carried out in the course of joint activities, while as a result of interaction, foreign language communication is provided. In the process of communication, it is important not only to exchange information, but also to organize an exchange of actions and plan a common strategy.

Perception is realized in the mutual understanding of communication partners. The effectiveness of communication and understanding depends on the cultural and ethical rules of the communicants. In communication, it is necessary to take into account the desires, intentions, and experience of the partner, since the knowledge of another person is considered as the basis not only for understanding the partner, but also for establishing coordinated actions of a special kind with him. Perception is realized in the mechanisms of identification and reflection, empathy and attraction, which make it possible to achieve a positive effect of interpersonal perception.

V.A. Maslova notes in the handbook of linguoculturology that it is necessary to solve specific problems related to this science, namely, "does a native speaker's cultural and linguistic competence exist in reality, on the basis of which cultural meanings are embodied in texts and recognized by native speakers? As a working definition of cultural and linguistic competence, we accept the following: This is a natural mastery of the processes of speech generation and speech perception by a linguistic personality and, most importantly, mastery of cultural attitudes" [7, pp. 31].

In general, such an approach will help preserve the most important values of our culture and mentality that shape our spirituality. It is important to note that linguistic and cultural competence has a number of characteristics, among which the following are essential in the framework of teaching English as a foreign language:

• complex in nature, the essence of which lies in the fact that linguistic and cultural competence is not a purely linguistic phenomenon, but includes various cultural components;

• dynamic character, manifested in accordance with different levels of learning;

• implicit character, the essence of which is to "encode" the culturally determined and valuable content of the language;

• relative nature, which is due to the fact that none of the foreign students can really possess full knowledge of culture and cultural values expressed in the language.

It is important to consider language and culture as the foundations of the formation of a native speaker's worldview and mentality. The priorities of one or another aspect of this direction vary depending on their “presentation” and assimilation. Mastering certain basic competencies in non-specialized fields of knowledge and the ability to understand other native speakers at an adequate level, i.e. The possession of linguistic and cultural competence at this stage of the development of our society is a priority for linguoculturology, as there is an increasing demand for an educated person with a high level of culture, which is impossible without linguistic and cultural competence.

For any society, the preservation and development of culture and cultural values are particularly important, which means the material and spiritual wealth of a nation accumulated by it over the entire period of its existence, and the material selected in this way that contributes to the further advancement, development, and perfection of the nation.

By the basic units of linguistic and cultural competence (basic linguistic and cultural units), we mean the main components of the language system (keywords, phrases, phraseological units and precedent texts), reflecting the national and cultural specifics of society, determined by the value system of society and allowing the individual to ensure the development of abilities, the formation of a worldview and spirituality, decent preparation of her for life in society.

A nation has its own mentality, its own worldview, its own principles, mores, customs and traditions. This is due to various reasons: historical development, the influence of political, social, cultural and social factors. Basic linguistic and cultural units should reflect both cultural, political, social, economic, educational, historical and other aspects of life, as well as national consciousness, mentality, and the national idea of modern society.

Thus, the leading indicators of linguistic and cultural competence should be:

– a new understanding of the general human culture in modern society as a combination of moral, humanistic, linguistic, cultural components that are the basic foundations for organizing one's socialization in society;

– integration of linguistic and cultural knowledge, the development of which will make it possible to comprehend the main values of society, as well as knowledge of the overall picture of the world;

– the integrity of the individual and the public (national), which makes it possible to realize one's “status” in society and carry out “domestication” in it;

– the improvement of personality in terms of the development of its individual value aspect, manifested in the “domestication” of its knowledge and behavior;

– preservation and transformation of existing and development of new linguistic and cultural orientations, which means a change in human consciousness and behavior of attitudes and their focus on self-improvement.

In our opinion, personal maturity is impossible without understanding culture, which “adjusts” both thoughts and language, therefore, one of the criteria for personal maturity may be linguistic and cultural competence, which implies the possession of various non-specialized knowledge in different fields of knowledge of the world.

## CONCLUSIONS

From a cultural point of view, language is not only an instrument of culture, inheritance, accumulation of knowledge, exchange of knowledge and experience, but also a way for a native speaker to understand culture. For a native speaker to understand culture, certain "manipulations", methods, approaches, means influencing language. On the part of the native speaker, it is necessary to master competencies and certain basic knowledge in order to successfully adapt to society, preserve this culture and pass it on to future generations. This is important due to the fact that language preserves and conveys the cultural and linguistic specifics of the native speaker's mentality, captures and displays the culture of society at a certain stage of its development, and can also influence human behavior.

From the point of view of linguistics, it is the knowledge of a language system that includes words, phrases, phraseological units, precedent texts that affect the consciousness and mentality of a native speaker. But this is not a simple enumeration of words and phrases in a language, but a certain accumulation of knowledge of a native speaker, reflecting his culture.

Native speakers of culture and language, who have stereotypical ideas about their linguistic culture, demonstrate a low level of linguistic and cultural competence, which is realized in the absence or extreme limitation of the use of linguistic units, linguistic means and a weak understanding of the cultural values of the nation.

In this case, we rely on a competence-based approach, which means an integrated strategy, which consists in mastering the unity of theoretical and practical readiness for productive activities and the ability to fully perform their proper functions in accordance with the requirements of society. The competence approach implies an activity-based approach, i.e. a focus on actions, operations, methods of activity, skills, skills related to the resolution of the task.

**Actuality of the problem.** Linguocultural competence involves the formation of students' necessary knowledge of educational cultural materials, possession of a minimum of general literary vocabulary, knowledge of linguistic means (phonetic, lexical, grammatical), allowing them to engage in the process of communication, forming their lives in accordance with the spiritual, moral, ethical, aesthetic and creative potential of the conceptual sphere of national culture developed in the linguistic consciousness. In other words, it is focused on "an activity-based approach that allows one to acquire the ability to use the acquired knowledge in practice in the course of intercultural communications and in interethnic communication" [8, pp. 324]. Linguistic and cultural competence can be considered as mastering the language as a treasure trove of culture, the spiritual wealth of the people.

**Scientific novelty of the problem.** The reflection of linguistic culture occurs due to the accumulation and assimilation of a certain stock of information – basic linguistic and cultural units that must be accumulated and assimilated over a relatively long time, not only because there are many of them, but also because the designated knowledge must be consolidated, confirmed, repeated and updated. Thus, by developing the concept of linguistic and cultural competence, which makes it possible to more accurately describe the relationship between language and culture in terms of defining basic linguistic and cultural units, we contribute to preserving the valuable material of our culture, our language, our mentality, and our spirituality.

**Practical significance and application of the problem.** Linguistic and cultural competence can be characterized as an indicator of the development of the entire system of linguistic, socio-cultural, psycho-linguistic, significant personal qualities of a person, productively realized by him in interaction with other members of society and including:

- a system of linguistic and cultural knowledge, which forms a certain horizon formed by basic knowledge (their indicator is the key words, phrases, phraseological units, precedent texts);

– a system of linguistic and cultural beliefs that forms the ideological level of a person's linguistic culture, which is formed on the basis of interests, life preferences and value orientations in the process of his activity;

– a system of individual norms of human behavior, which is formed on the basis of cultural and linguistic patterns.

## References


1. Garaeva, A. The development of linguocultural competence of students in teaching the history of the English language // Procedia - Social and Behavioral Sciences, – 2014, 152. pp. 1012 – 1018.
2. Бирюкова, М. С. Лингвокультурологическая компетенция: содержание и теоретические основы / М. С. Бирюкова. Ученые за-писки. Электронный научный журнал Курского государственного университета, – 2016, № 4. https://cyberleninka.ru/article/n/lingvokulturologicheskaya-kompetentsiya-soderzhanie- i-teoreticheskie-osnovy
3. Городецкая, Л. А. Лингвокультурная компетентность личности как культурологическая проблема / Л. А. Городецкая. – Москва, – 2007. 223 с.
4. Городецкая, Л. А. Лингвокультурная компетентность и лингвокультурные коммуникативные компетенции: разграничение понятий // Вопросы культурологии, – 2009. 1, с.48–51.
5. Гудков, Д. Б. Теория и практика межкультурной коммуникации / Д. Б. Гудков. – Москва: ИТДГК «Гнозис», – 2003. 120 с.
6. Дортман, С.Р. Обучение лингвокультурологической компетенции учащихся средних профессиональных обра-зовательных учреждений / С.Р.Дортман. – Пятигорск, – 2013. 331 с.
7. Маслова, В. А. Лингвокультурология / В.А.Маслова. – Москва: Академия, – 2016. 208 с.
8. Морозкина, Е.А. Лингвокультурологический подход в обучении иностранным языкам». Русский язык в полиэтнической среде: Социокультурные проблемы лингвистического образования: Материалы Международной научно-практической конференции. – Уфа: РИО БашГУ, – 2006. с.323-325.
9. Пахноцкая, М. А. Лингвокультурологическая компетентность как ведущая в профессиональной компетентно-сти филолога / М. А. Пахноцкая. Федеральное агентство по образованию, Тольяттинский гос. ун-т, – 2007. 235 с.
10. Слобин, Д. Г. Психолингвистика / Д. Г. Слобин. – Москва, – 2016.

**E.E.Putayeva**

**Defining the concept of "linguocultural competence" and its role in intercultural communication**

**Summary**

The article discusses the concepts of linguocultural studies and linguocultural competence, and defines the problem of determining linguocultural competence as an important component of communicative competence. The author attempts to describe the content and structure of linguocultural competence. The successful development of linguocultural competence in foreign language learners should contribute to the creation of a solid foundation of linguocultural knowledge, which, in turn, allows them to engage in intercultural communication situations.

The formation of linguocultural competence as a personal quality is essential. The development of linguocultural competence in students is a crucial aspect of foreign language education, as it is connected to the growth of cognitive and motivational aspects of personality. This development is aimed at improving their communicative abilities, which are essential for engaging in social interactions within various linguistic and cultural contexts.

**E.E.Putayeva**

**"Linqvokulturoloji bacarıq" anlayışının və onun mədəniyyətlərarası ünsiyyətdə rolunun müəyyən edilməsinə dair**

**Xülasə**

Məqalədə linqvokulturoloji bacarıq anlayışına aydınlıq gətirilir və kommunikativ bacarığın inkişaf etdirilməsində linqvokulturoloji bacarığın rolunun müəyyənləşdirilməsi məsələsi müzakirə olunur. Məqalədə, həmçinin, linqvokulturoloji bacarığın məzmun və quruluşunun müxtəlif aspektlərinə toxunulur. Xarici dil öyrənənlərin linqvokulturoloji bacarığının uğurla formalaşdırılması linqvokulturoloji biliyin möhkəm özüllər əsasında qurulmasına və mədəniyyətlərarası ünsiyyətin baş tutduğu məqamlarda düzgün davranış nümayiş etdirməyə xidmət edir.

Linqvokulturoloji bacarığın şəxsi keyfiyyət kimi formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Linqvokulturoloji bacarığın tələbələrdə bir bacarıq olaraq inkişaf etdirilməsi xarici dillərin tədrisinin xüsusi əhəmiyyət kəsb edən bir aspekti kimi qiymətləndirilməlidir. Bu bacarığın inkişafı hər bir fərdin anlama və motivasiya bacarıqlarının da formalaşmasına öz təsiri göstərə bilir. Bu, həm kommunikasiya bacarıqlarının inkişafına kömək edir, həm də müxtəlif mədəni kontekstlərdə sosial ünsiyyətin düzgün şəkildə həyata keçməsini təmin edir.

**Э.Э.Путаева**

**Определение понятия «лингвокультурная компетенция» и ее роли в межкультурной коммуникации**
**Резюме**

В статье рассматриваются понятия «лингвокультурная компетенция», а также определяется проблема определения лингвокультурной компетенции как важного компонента коммуникативной компетенции. Автор пытается описать содержание и структуру лингвокультурной компетенции. Успешное развитие лингвокультурной компетенции у изучающих должно способствовать формированию прочного фундамента лингвокультурных знаний, что, в свою очередь, позволяет им участвовать в ситуациях межкультурного общения.

Формирование лингвокультурной компетенции как личностного качества имеет важное значение. Развитие лингвокультурной компетенции у студентов является важнейшим аспектом иноязычного образования, поскольку связано с развитием когнитивных и мотивационных аспектов личности. Это развитие направлено на совершенствование их коммуникативных способностей, необходимых для участия в социальных взаимодействиях в различных лингвокультурных контекстах.

**Redaksiyaya daxil olub:** 01.12.2025

# MƏTNLƏRDƏ EVFEMİZMLƏRİN İŞLƏDİLMƏSİ

**Aytən Samir qızı Seyidova**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi,*
*filologiya üzrə fəlsəfə doktoru*
**ORCİD:** 0009-0007-4661-8761
**E-mail:** seyidova.aytenn@gmail.com
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.41

***Açar sözlər:*** *mətn, evfemizm, məna, növ, üslub, kontekst*
***Ключевые слова:*** *текст, эвфемизм, значение, вид, стиль, контекст*
***Key words:*** *text, euphemism, meaning, type, style, context*

Evfemizmlərin işlədilməsindəki əsas məqsəd lazım olan ifadənin yumuşalması, həmin ifadənin aldadıcı və ya qeyri-dəqiq olan bir məlumatın verilməsinin ifadə edilməsidir. Mətndə işlədilən məqsəd müxtəlifliyi həmin mətnin praqmatik aspektinin müxtəlifliyinə də səbəb olur. Qeyd etmək lazımdır ki, denotantla olan əlaqənin azalması evfemizmə təsir etmir. Sözlərin bir-birini əvəzetməsi təsiri azaldır və münaqişədən yayınmağa şərait yaradır. Araşdırmalar göstərir ki, dilçilikdə evfemizmlər leksik səviyyədə müşahidə olunur. Lakin fərqli evfemizmlərə də rast gəlmək olur. Məsələn, *qrafik, fonetik, morfoloji, leksik-semantik, sintaktik* kimi evfemizm növləri də mövcuddur.

Mətnlərdə qrafik evfemizmlərə adətən az rast gəlinir. Bununla belə, qrafik evfemizmlərin aşağıdakı növləri vardır: 1) duğru işarələrindən olan üç nöqtə müəllifin demək istədiyi sözün əvəzinə işlənə bilər. Bu zaman buraxılan sözün müəyyən edilməsi, tapılması müəllifin, yaxud oxucunun öhdəsinə buraxılır; 2) sözün birinci hərfinin, yaxud hecasının mətni daxil edilməsi qrafik evfemizmin növbəti növünü yaradır. Məsələn: *Gun violence made the youth utter the word "d***".* 'Silah vəhşiliyi gəncləri "e***" sözünü işlətməyə məcbur etdi' [4, s. 5].

Mətndə qrafik evfemizmlərin işlədilməsi onların əsl mənasının pozulmasına səbəb olmur. Evfemizmlərin bu növü işlədilən sözün tam mənasının ifadəsini tapmağa maneçilik törətmir. Morfoloji evfemizmlər qrafik evfemizmlərdən daha çox işlədilir [5, s.10]. Məsələn: *At the end of the day the rumor has spread over the village. The prisoners who escaped from the correctional facility were looked for everywhere. They might be dangerous. The guards of the correctional facility handed their photos to the people of the village. There was a rumor that they prisoners used to suffer from malnutrition and it caused them to tear the throats.* 'Günün sonunda xəbər (şayə) kəndə yayıldı. Həbsxanadan (islah düşərgəsindən) qaçan dustaqlar hər yerdə axtarılırdı. Onlar təhlükəli ola bilərdilər. İslah düşərgəsinin bələdçiləri kənd əhalisinə dustaqların şəkillərini payladı. Belə şayə gəzirdi ki, dustaqların qaçmasına səbəb onların aclıq şəkməsi olmuşdur'.

Bu mətn parçasında bir neçə morfoloji evfemizm işlədilmişdir: *jail* sözü əvəzinə *correctional facility* evfemizmi; *starvation* sözü əvəzinə *malnutrition* evfemizmi və *try to escape* birləşməsi əvəzinə *to tear the throats* evfemizmi işlədilmişdir. Digər nümunə:

*The officer gave the commands to the soldiers to be ready for the departure and for the ongoing military operation to fight against the enemy.* 'Zabit əsgərlərə yola düşməyə və düşmənə qarşı vuruşmaq üçün hərbi əməliyyat aparılmasına hazır olmağı əmr etdi'.

Bu nümunədə *military operation* ‘əməliyyat aparılması’ sözü döyüş aparılması sözünün əvəzinə işlədilmişdir. Göründüyü kimi, sözlərin evfemizmlərə əvəz edilməsi onların mənalarının yumuşaldılmasına imkar yaradır. Sintaktik üsulla yaranan evfemizmlərə də rast gəlmək olur. Bu zaman söz birləşməsi və sintaktik konstruksiyaların işlədilməsinə rast gəlinir [4, s.6]. Məsələn:

*One of the junior soldiers said that the treaty will be one of the "defencive intervention" of their aim.* ‘Kiçik əsgərlərdən biri dedi ki, müqavilə onların "müdafiə qarşıdurmasının" məqsədidir’.

Qeyd edək ki, ellipsislər evfemizmlərin sintaktik üsulla dəyişməsinin formalarından biri hesab edilir. Bu zaman obyekt və subyektin buraxılması müşahidə edilə bilər. Məsələn:

*. . . . some Jews were killed during the war, and they were not buried in their lands.* ‘ . . . bəzi yəhudilər müharibədə öldürülmüşdü və onlar öz torpaqlarında basdırılmamışdır.

Gördüyümüz kimi, verilmiş mətn parçasında öldürülmüş yəhudilərin qatillərinin adları, kimliyi məlum deyildir və bu da o anlama gəlir ki, subyekt buraxılmışdır.

Müasir ingilis dilində evfemizmlərin aşağıdakı növləri fərqləndirilir.

1. Bəzi evfemizmlər xoş olmayan, yaxud kobud olan bir ifadəni yumşaltmaq, sözlərin ifadə etdiyi mənaların gərginliyini nisbətən azaltmaq məqsədilə işlədilir. A.Keis və B. Keyt yazırlar ki, evfemizmlərin bu növü ifadə etdikləri məna baxımından müsbət məna ifadə edənlər və mənfi məna ifadə edənlər qrupuna bölünür [5, s. 19].

Onları aşağıdakı kimi qruplaşdıra bilərik:

| Evfemizm | Ədəbi söz | Azərbaycan dilində tərcüməsi |
|---|---|---|
| Pass away | die | Ölmək, can vermək, dünyasını dəyişmək və s. |
| Correctional facility | jail | İslah düşərgəsi, həbsxana, türmə, dustaqxana və s. |
| Fell of the back of a truck | stolen | Oğurlanmış, göydən düşmə kimi əldə etmək |
| Ethnic cleansing | genocide | Etnik təmizləmə, soyqırım |
| Letting someone go | Firing someone | Bir kəsin getməyinə icazə vermək, işdən qovmaq |
| On the streets | homeless | Küçədə qalma, evsiz, orada-burada düşüb qalma və s. |

2. F. Corca əsaslanaraq yaza bilərik ki, evfemizmlər nəinki kobud, yaxud xoş olmayan vəziyyəti əks etdirir, onlar, həmçinin, müsbət vəziyyət ifadə edən vəziyyətləri də ifadə edə bilir [3, s.15]. Bu mənalı evfemizmlər əsasən kontekstlə əlaqəli olaraq işlədilir. Bəzən elə məclis ola bilər ki, orada bəzi sözlərin işlədilməsi məqsədəuyğun olmaz və bu səbəbdən də evfemizmlərin işlədilməsi məqsədəuyğun hesab edilir [2, s. 9]. Məsələn:

| Evfemizm | Ədəbi söz | Azərbaycan dilində tərcüməsi |
|---|---|---|
| Adult beverages | Beer, or liquor | Pivə, likör |
| Big-boned; porty | Heavy, overweight | Ağır çəkili, kök, olduqca şişman, ağır sümüklü |

| | | |
|---|---|---|
| | | və s. |
| Chronologically-challenged | Late | Xronoloji olaraq, gecikmək, vaxtı yubatmaq |
| Sanitation engineer | Garbage man | Təmizlik mühəndisi, zibil yığan, çör-çöp yığan |
| Between jobs | Unemployed | O işə bu işə qaçmaq, işlər arasında vurnuxub qalmaq, işsiz və s. |

3. M. Makqlon, G. Bek və R. Pfiester yazırlar ki, kontekstdə ifadə etdikləri mənaya uyğun olaraq, evfemizmlər nəzakətsiz ifadələrdə, yaxud nəzakətsiz sözlər kimi də təqdim oluna bilər [6, s.20]. Məsələn:

| Evfemizm | Ədəbi söz | Azərbaycan dilində tərcüməsi |
|---|---|---|
| Bit the big one, bit the farm, bit the dust, croaked | Died | Böyük birinə zərbə vurmaq, ölmək və s. |

Diqqət verdiyimiz kimi, *died* 'ölmüş', 'ölmək' mənası verən *bit the big one, bit the farm, bit the dust, croaked* evfemizmlərin fərqli qrammatik və leksik konstruksiyalarda işlənməsini müşahidə edilir.

Məsələn: *bitting the big one* 'ölmüş, ölmək' ifadəsi əsasən gerund tərkibli birləşmələrdə işlədilə bilir.

*He was afraid of biting the big one alone.* "O, tək ölməkdən qorxurdu".

Bəzi evfemizmlərin işlədilməsində variant fərqliliyi müşahidə etmək olur. Məsələn, elə evfemizmlər var ki, onların işlədilməsində Amerikan ingilis dili ilə, Britaniya ingilis dili arasında fərqlilik mövcuddur. Bu fərqlilik özünü bir neçə variantda göstərir. Aşağıdakı nümunələri nəzərdən keçirdək:

1) Vurğu fərqliliyinin müşahidə olunduğu variantlar. Müşahidələr göstərir ki, Britaniya və Amerikan ingilis dilində işlədilən evfemizmlərdə vurğu fərqliliyi əsasən çox hecalı sözlərdə müşahidə oluna bilər [2, s. 34]:

| Britaniya variant | Amerikan variantı | Azərbaycan dilində tərcüməsi |
|---|---|---|
| `alcohol | al`cohol | spirt, içki |
| `beverage | beve`rage | içki |

Mürəkkəb sözlərdə, yaxud söz birləşmələrində fərqlilik daha çox hiss olunur. Amerikan variantında sözlər bir hecalı kimi tələffüz edildiyi halda, ingilis variantında hər bir sözün üzərinə vurğu düşür [4, s. 12]. Nümunəyə baxaq:

| Amerikan variantı | Britaniya variantı | Azərbaycan dilində tərcüməsi |
|---|---|---|
| `Supreme sacrifice | `Supreme `sacrifice | Ölmək |

2) Bəzi mürəkkəb sözlərdə Amerikan ingilis dili ilə Britaniya ingilis dili arasında evfemizmlərdə orfoqrafiya fərqliliyi müşahidə olunur. Məsələn:

| Britaniya variantı | Amerikan variantı | Azərbaycan dilində tərcüməsi |
|---|---|---|
| Put on | Put off | Ölmək |
| Peg out | Peg off | Ölmək |
| Pop your clogs | Pop out your clogs | Ölmək |
| Put on the woolen overcoat | Take on the woolen overcoat | Ölmək |

3) Bundan əlavə, Amerikan variantında bəzi evfemizmlər var ki, onlar adətən cəm formada işlənir. Lakin müşahidələr göstərir ki, Britaniya variantında bir qrup evfemizmlər var ki, onlar cəm şəkilçisi (*s, es*) qəbul etmir [6, s. 7].

Məsələn:

| Amerikan variantı | Britaniya variantı |
|---|---|
| *Road apples* ‘zibil’ (‘lənətə gəlmək’ mənasında) | *Paying guest* ‘kürəçi’ |
| *Hide the sausages* ‘sirrini gizlətmək’ | *Give up the ghost* ‘ölmək’ |

Doğrudur, siyasətdə və digər bir sıra hallarda evfemizmlərin işlədilməsinə qarşı çıxanlarda var. Məsələn, G.Orvel 1949-cu ildə yazdığı məqaləsində siyasətdə evfemizmin işlədilməsinə qarşı çıxır. Müəllifin yazdığına əsasən, siyasətdə hər şey açıq deyilməlidir ki, insanlar hər şeyi olduğu kim anlasınlar [9, s.56]. Məsələn, o, siyasi diskurslarda *ethnic cleansing* termininin *genocide* termininin əvəzinə işlədilməsini dəstəkləmir. Müəllif yazır ki, yalanın həqiqət, qətlin yüngül səsləndirilməsinin heç bir anlamı yoxdur [9, s.45]. Hər şey real çatdırılmalıdır. Əslində, bu məsələdə G.Orvellə razılaşmaq olar. Belə ki, yalan üstdə qurulan həqiqət heç kimə, xüsusilə ictimaiyyətə lazım deyildir. Necə deyərlər: “Ağır həqiqət şirin yalandan daha yaxşıdır”. Doğrudur, dilin lüğət tərkibinin zənginliyinin imkanları bizə imkan verir ki, danışığımızı daha emfatik, daha emosional, kobud ifadəmizin daha nəzakətli səslənməsinə, bir qədər qeyri-normativ sayılan leksikonun normativ şəkildə işlədilməsinə imkan verir, lakin, bu o anlamı verməməlidir ki, biz istənilən yerdə evfemizmləri işlədə bilərik.

Bədii ədəbiyyatda evfemizmlərin işlədilməsi yazıçılara dillərinin daha zəngin olmasına imkan verir [7, s.14]. Bir çox klassik yazıçılar əsərlərində evfemizmlərin işlədilməsinə üstünlük vermişlər. Avqustindən başlayaraq Aristotelə kimi, daha müasir yazıçılar da daxil olmaqla əsərlərində xeyli miqdarda evfemizmlər işlətmişlər. Xüsusilə əsərlərində yaxşıyla pisi, xeyirlə şəri, zənginliklə yoxsulluğu, kobudluqla nəzakətliliyi qarşılaşdırıb və üstünlüyü həmişə xeyir qüvvələrin uğurları ilə bağlamışlar. Evfemizm işlədilən mətnlər üslubları baxımından digər mətnlərdən fərqlənir. Bəzi terminlərin ədəbi mənada deyil, evfemizmli ifadələrlə işlədilməsi oxucunun estetik zövqünə xələl gətirmir və onunla yazıçı arasında nəzakət körpüsü yaradır. Bir fakt da qeyd edilməlidir ki, əsəri oxuyan oxucu evfemizmlərin işlədilməsi baxımından müəllifin daxili aləmindən agah olur və onda müəllif haqqında lazımi bilik formalaşır.

**Problemin aktuallığı.** Bu məqalə evfemizmlərin praqmatik funksiyalarını incələməklə dilin yumşaldıcı və manipulyativ gücünü ortaya qoyur ki, bu da müasir kommunikasiya və sosial münasibətlərdə aktual problemdir. Evfemizmlərin kütləvi informasiya vasitələrində, siyasətdə və ictimai diskursda artan rolu onların öyrənilməsini elmi cəhətdən zəruri edir. Belə tədqiqatlar kontekstual istifadə və mənaların gizlədilməsi kimi fenomenləri aydınlaşdıraraq dilçilikdə çağdaş tələblərə cavab verir.

**Problemin elmi yeniliyi.** Məqalə, qrafik, morfoloji, sintaktik və leksik-semantik evfemizmlərin praqmatik təhlilini bir arada sistemləşdirərək yeni tipologiya təqdim edir. Amerika və Britaniya ingilis dilində evfemizmlərin vurğu və orfoqrafiya fərqləri kimi variantlı aspektləri müqayisəli şəkildə araşdıraraq üzvi dil variasiyasına yeni elmi töhfə verir. Həmçinin, sintaktik ellipsisin evfemizm kimi funksiyasının təhlili mətnin praqmatik strukturuna dair yeni yanaşmanı təklif edir.

**Problemin praktiki əhəmiyyət və tətbiqi.** Bu tədqiqat müəllimlər, tərcüməçilər və media peşəkarları üçün evfemizmlərin düzgün istifadəsini və başa düşülməsini təmin edən praktik bir resurs rolunu oynayır. Politika və jurnalistika sahəsində çalışanlar üçün isə evfemizmlərin auditoriya alqısına təsir mexanizmlərini başa düşmək kommunikasiya strategiyalarını təkmilləşdirməyə kömək edir. Bundan əlavə, məqalənin nəticələri sosiolinqvistik və praqmatik tədqiqatlar üçün metodoloji baza kimi istifadə oluna bilər.

### Ədəbiyyat

1. Axundov A. Ümumi dilçilik. Bakı: Mütərcim, 1988.
2. Glynn C., and Tom C. Affirmative Action: A Euphemism for Racial Profiling by Government. Cambridge: Cambridge University Press, 2001.
3. George F. W. The Supreme Court tangles over euphemisms for affirmative action. USA: The Washington Post, 2015.
4. Holder R.W. How Not to Say What You Mean: A Dictionary of Euphemisms. Oxford: Oxford University Press, 2003.
5. Keith A., Kate B. Euphemism and Dysphemism: Language Used as Shield and Weapon. Oxford: Oxford University Press, 1991.
6. McGlone M. S., Beck G., and Pfiester R. A. Contamination and camouflage in euphemisms. Oxford: Communication Monographs Press, 2006.
7. Məhərrəmli O. Kütləvi kommunikasiya və dil. Bakı: Çaşıoğlu, 2004.
8. Məmmədov A. Xarici dilçilikdə mürəkkəb sintaktik bütöv. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Çaşıoğlu, 2006.
9. Orwell G. The hidden danger of Euphemisms. Boston, New York: York Press, 1949.
10. Rawson H. A Dictionary of Euphemism and Other Doublespeak. Oxford: Oxford University Press, 1995.

**A.S.Seyidova**

**Mətnlərdə evfemizmlərin işlədilməsi**
**Xülasə**

Məqalə mətnlərdə evfemizmlərin işlənməsindən bəhs edir. Qeyd olunur ki, evfemizmlər mətnlərin praqmatik aspektlərinin aydınlaşdırılmasında geniş imkanlara malikdir. Məqalədə evfemizmlərin müxtəlif növləri təhlil edilmişdir. Məqalədə istifadə olunan nümunələr evfemizmlərin müxtəlif tip mətnlərdə açıq mənalarını müəyyən etməyə xidmət edir. Evfemizmlərlə zəngin olan mətnlər üslub baxımından digər mətnlərdən fərqlənir.

**А.С.Сейидова**

**Использование эвфемизмов в текстах**
**Резюме**

Статья посвящена использованию эвфемизмов в текстах. В ней утверждается, что эвфемизмы обладают широкими возможностями для уточнения прагматических аспектов текстов. В статье проанализированы различные типы эвфемизмов. Примеры, приведённые в статье, направлены на определение явных значений эвфемизмов в разных типах текстов. Тексты, насыщенные эвфемизмами, отличаются от других текстов с точки зрения стиля.

**A.S.Seyidova**

**The use of euphemisms in texts**
**Summary**

The article deals with the usage of euphemisms in texts. It states that the euphemisms have wide opportunities in clarifying the pragmatic aspects of texts. The different types of euphemisms have been analyzed in the article. The samples used in the article are aimed to define the explicit meanings of euphemisms in different types of texts. The texts which are full of euphemisms differ from other texts from the style point of view.

**Redaksiyaya daxil olub:** 25.11.2025

# DİSKURSUN LİNQVİSTİK-KOMMUNİKATİV ASPEKTİ

**Lalə Mətləb qızı Rüstəmova**
*Azərbaycan Dillər Universitetinin dissertantı*
**ORCID:** 0000-0001-7542-6215
**E-mail:** lala.rustamova@mdu.edu.az
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.42

***Açar sözlər:*** *diskurs, kommunikativ diskurs, ünsiyyət, koqnitiv aspekt, linqvistik tədqiqatlar*
***Ключевые слова:*** *дискурс, коммуникативный дискурс, общение, когнитивный аспект, лингвистические исследования*
***Key words:*** *discourse, communicative discourse, communication, cognitive aspect, linguistic studies*

Son illərdə kommunikativ dilçiliyin inkişafı dilçilik, sosiologiya, psixologiya, etnoqrafiya, fəlsəfə və mədəniyyətşünaslıqda işlənmiş ideyaların sintezinə ehtiyac olduğunu göstərdiyi bir vaxtda "diskurs" termini mətn dilçiliyindən kənara çıxmışdır. Lakin "diskurs" termininin müxtəlif şərhləri ziddiyyət təşkil etmir, əksinə, bir-birini tamamlayır və müxtəlif elmlər baxımından diskursun mahiyyətini açır. O.A.Pankratova nitqi fəlsəfi nöqteyi-nəzərdən tematik birlik, "qaydalar oyunu" və "anlayışlarla manipulyasiya yolu" kimi müəyyən edir [7, s.35-71].

J.Habermas diskursu müəyyən kommunikativ strategiyaların yeniləndiyi, sosial həyatın dəyər və normalarının tənqidi nəzərə alınması ilə şərtlənən nitq ünsiyyətinin bir növü kimi başa düşür [15, s.571-606]. Digər tədqiqatçılar üçün diskurs "real və potensial (virtual) ölçüyə malik ünsiyyət sistemidir" [12, s.11].

"Diskurs" həm də ifadənin onu qəbul edən şəxsə təsiri adlanır və qəbul edilən məna mətni göndərənin niyyəti ilə üst-üstə düşdüyü zaman mətnin qavranılmasının nəticəsi kimi müəyyən edilir [6, s.7-14].

Dilçilik elminin tədqiqat predmeti kimi diskursa böyük maraq diskursun predmeti və təhlil üsulları, onun əsas müddəaları və vahidləri haqqında qızğın müzakirələrə səbəb olmuşdur. Bu müstəsna geniş və mürəkkəb fenomen yeni koqnitiv-kommunikativ paradiqmanın obyektini təmsil edir. Bu paradiqmanın əsaslarının təhlili göstərir ki, o, postmodern dövründə elmə xas olan qeyri-xəttilik və konstruktivizm ideyasından, dilin sistemli və aktiv şəkildə dərk edilməsindən, linqvistik şüurdan, qarşılıqlı əlaqə kimi ünsiyyətdən irəli gəlir və idrakı insan təcrübəsi əsasında şərh edir. Belə bir paradiqma çərçivəsində diskursun xüsusi tədqiqatları onun müxtəlif aspektlərini işıqlandıra bilən subparadiqmalar vardır: koqnitiv, praqmatik, sosiolinqvistik, janr-üslubi və s. Linqvistik, koqnitiv və kommunikativ aspektlərin vəhdəti kimi diskursun koqnitiv-praqmatik təsviri də mövcuddur. Bəzən praktiki olaraq bir-birini istisna edən müxtəlif nöqteyi-nəzərlər diskursun mahiyyətinin müxtəlif anlayışlarına əsaslanır. Əksər diskurs tədqiqatçıları diskursun istifadə olunan dil forması olması ilə razılaşırlar.

M.Fuko, R.Vodak və başqalarının fikirlərini ümumiləşdirərək, V.E.Çernyavskaya diskursu "kommunikativ linqvistik fəaliyyətin, insan şüurunun və praktikasının müvafiq sferasının linqvistik korrelyasiyası" kimi müəyyən edir [16, s.34]. Bu əsərdə qəbul edilmiş diskursun koqnitiv-kommunikativ şərhi belə vurğulanır ki, bu, ayrılmaz hadisədir, idrak-kommunikativ fəaliyyət proses və nəticənin birləşməsi kimi həm ekstralinqvistik, həm də linqvistik aspektləri

ehtiva edir; sonuncuda mətnlə yanaşı, linqvistik vasitələrin seçimini müəyyən edən presupozisiya və kontekst (praqmatik, sosial, koqnitiv) qeyd edilir [13, s.38]. Bu, ziddiyyətlər dairəsini daraltmağa və tədqiqatın məqsədlərindən asılı olaraq nitq, onun vahidləri və səviyyələri, nəzəri əsasları və təhlili üsulları haqqında sistemli bir anlayış qurmağa imkan verir. Bütövlükdə mövcud olan diskursun bir-biri ilə əlaqəli linqvistik, mental (koqnitiv, psixoloji) və kommunikativ (praqmatik, sosiolinqvistik) aspektləri evristik nöqteyi-nəzərdən bölgü tələb edir.

Siyasi elmdə, sosiologiyada, sosiolinqvistikada və ünsiyyət nəzəriyyəsində diskurs termini geniş yayılmışdır (onu təqribən nitq + fəaliyyət düsturundan istifadə etməklə deşifrə etmək olar). Fərdlərin hərəkəti və qarşılıqlı əlaqəsi müəyyən kommunikativ mühitdə, müəyyən ictimai ünsiyyət sferasında baş verdiyi üçün onlar institusional diskursdan (siyasi diskurs, dini diskurs, pedaqoji diskurs, işgüzar diskurs, istehsalat diskursu və s.) danışırlar. Kommunikativ diskurs kimi bu terminin bir neçə təfsiri vardır. Kommunikativ diskurs təkcə dilçiliyə aid deyil, o, həm də fənlərarası xarakter daşıyır, ona görə də o, cəmiyyətin obyektiv qavrayışını və onun daxilində qarşılıqlı əlaqənin xüsusiyyətlərini tənzimləməkdə məqsədyönlü bir kateqoriya kimi başa düşülməlidir. E.V.Tolstihina görə, "Kommunikativ diskurs nitqin konkretləşdirilməsi olmaqla, nitqdən istifadənin, kommunikativ davranışın və ünsiyyətin sabit rejimlərini təmsil edir [11, s.42]. O, ünsiyyətin formal şərhini, dilin və onun vahidlərinin ünsiyyətdə və situasiya şərhində istifadəsi şəklində funksional şərhi xarakterizə edir. Kommunikativ diskurslar insan idrakının demək olar ki, bütün sahələrinə təsir göstərmişdir. Diskurs psixologiya, pedaqogika, dilçilik və təbii ki, politologiyada öz əksini tapır. Bu anlayışın təfsiri nəzərdən keçirildikdən sonra diskurs təhlili kateqoriyasına keçməliyik.

Müasir dilçilikdə diskurs birmənalı şəkildə şərh olunur. Onun tərifinə bir neçə yanaşma vardır. 1. Kommunikativ (funksional) yanaşma: şifahi ünsiyyət (nitq, istifadə, dilin işləməsi) və ya dialoq kimi və ya söhbət kimi, yəni dialoq ifadəsinin bir növü və ya mövqedən çıxış kimi diskurs. Kommunikativ yanaşma çərçivəsində "diskurs" termini "öz subyekti, obyekti, yeri, vaxtı, yaranma (istehsal) şəraiti ilə diskursa çevrilən müəyyən işarə strukturu" kimi şərh olunur [3, s.5]. 2. Struktur-sintaktik yanaşma: mətn fraqmenti kimi diskurs, yəni cümlə səviyyəsindən yuxarı formalaşma (ifadəüstü birlik, mürəkkəb sintaktik bütöv, abzas). Diskurs dedikdə bir-biri ilə semantik əlaqədə olan iki və ya daha çox cümlə başa düşülür, uyğunluq isə diskursun əsas xüsusiyyətlərindən biri hesab olunur. 3. Struktur-üslubi yanaşma: şifahi nitqin qeyri-mətn təşkili kimi diskurs hissələrə aydın bölünmə, assosiativ əlaqələrin dominantlığı, kortəbiiliyi, situasiyalılığı, yüksək kontekstuallığı, stilistik spesifikliyi ilə xarakterizə olunur. 4. Sosial-praqmatik yanaşma: kommunikativ situasiyada, həyatda məhv olmuş mətn kimi, ya sosial və ya ideoloji cəhətdən məhdud bir ifadə növü kimi, ya da "dil daxilində dil" kimi, lakin xüsusi sosial formada təqdim olunan diskurs, öz mətnləri olan reallıq.

Bu təsnifat nitqin təbiətinin üçtərəfli olduğunu başa düşməyə imkan verir: onun bir tərəfi praqmatikaya, ünsiyyətin tipik situasiyalarına, digər tərəfi isə ünsiyyət iştirakçılarının şüurunda baş verən proseslərə və onun xüsusiyyətlərinə aiddir. Vurğulanan yanaşmalar bir qədər ziddiyyətlidir. "Diskurs" anlayışı nitq və mətn anlayışları ilə ayrılmaz əlaqədə başa düşülür. Kommunikativ hadisə kimi diskurs bir tərəfdən şifahi ünsiyyət, fəaliyyət kimi nitqlə digər tərəfdən ünsiyyət zamanı qeydə alınan konkret mətn arasında ara əlaqədir. Daha sadə kontrastda diskurs real nitq istehsalı ilə, nitq əsəri haqqında biliklə əlaqəli idrak prosesi, mətn isə nitq fəaliyyəti prosesinin yekun nəticəsi kimi başa düşülməlidir, nəticədə müəyyən yekun forma yaranır.

Həqiqi nitq və onun nəticələri arasındakı bu ziddiyyət mətnin yalnız həqiqətən dərk edildiyi və indiki şüura daxil olduğu zaman diskurs kimi şərh edilə biləcəyini anlamağa səbəb olur.

“Diskurs” anlayışı elmdə təkcə onun daxili spesifiklik, həm də kiməsə ünvanlanan və ünvan sahibinin və müəllifin bəzi ehtiyaclarını ifadə edən “mesaj” kimi mətn xüsusiyyətlərini nəzərə almağın təcili ehtiyacından irəli gəlir. Fransız alimi E. Benvenist diskursdan “natiqin mənimsədiyi nitq” kimi danışır: “Diskurs ifadələrin sadə məcmusu deyil, onun doğulduğu anda dilin qrammatik strukturunda fasilə yaranır. Diskurs dilçinin deyim aktının subyektinin izlərini, dilin danışan tərəfindən mənimsənilməsini göstərən formal elementləri aşkar edərkən qarşılaşdığı empirik obyektdir” [14, s.124]. Onun fikrincə, onun geniş mənada başa düşdüyü nitqin mühüm xüsusiyyəti ünsiyyət aktının iştirakçıları, yəni danışan və dinləyici, eləcə də danışanın hansısa şəkildə təsir etmək üçün kommunikativ niyyəti ilə dinləyici üzərində nitqin spesifik əlaqəsidir. Danışıq nitqinin strukturu fərdin kommunikativ fəaliyyətinin bir sıra mərhələlərindən ibarətdir (nitq təmasına daxil olmaq, söhbətin ilkin mövzusunu irəli sürmək və onun təsdiqi, kommunikativ akt zamanı rolların dəyişdirilməsi, söhbət mövzusunun dəyişdirilməsi, söhbətdən çıxmaq, kommunikativ akt), hər biri xarici və daxili amillər kompleksi ilə müəyyən edilir.

Diskursun linqvistik-kommunikativ aspektini araşdırarkən Q.A.Orlov belə hesab edir ki, diskurs şifahi və ya yazılı nitq əsəri şəklində maddiləşmiş (təbii) nitqin kateqoriyasıdır, semantik və struktur baxımdan nisbətən tamamlanmış, sintaqmatik zəncirdən ayrıca bir deyim üzərində uzunluğu potensial olaraq dəyişkəndir: (cümlə) mənalı tam tərkibli əsər (rəs nağılları, söhbətlər, təsvirlər, göstərişlər, mühazirələr və s.) [9, s.97]. “Diskurs” anlayışı tamlıq, bütövlük, uyğunluq və digər parametrlər (yəni mətnin bütün xüsusiyyətləri) ilə xarakterizə olunur, eyni zamanda bir proses kimi nəzərdən keçirilir (sosiomədəni, ekstralinqvistik və kommunikativ-situasiya amilləri) və nəticədə sabit mətn forması alır. Gördüyümüz kimi, “diskurs” termininin tərifi getdikcə genişlənərək mətnin əsas parametrlərini sadalamaqla yanaşı, bir sıra digərləri məqamları da əhatə etməyə başladı. Müasir dilçilikdə prioritet olan Van Deyk diskursun təsvirində belə bir fikir yürüdür “...diskurs mürəkkəb kommunikativ hadisədir və ona mətnlə yanaşı, mətnin başa düşülməsi üçün zəruri olan ekstralinqvistik amillər də (dünya haqqında biliklər, ünvanlananın münasibəti, məqsədləri) daxildir” [3, s.7]. Qeyd etmək lazımdır ki, bu lakonik tərif müasir dövr mətninin bir çox linqvistik tədqiqatları üçün başlanğıc nöqtəsi olmuşdur. V.Z.Demyankov xarici dilçilikdə yeni əsərlərə əsaslanaraq, diskursun funksional mahiyyətini əks etdirən və əvvəlki tərifləri xeyli dərinləşdirən tərif verir: “Diskurs diskursdur, birdən çox mətndən bənd və ya müstəqil bənddən ibarət ixtiyari fraqmentdir. Tez-tez, lakin həmişə deyil, bəzi dəstəkləyici konsepsiya ətrafında mərkəzləşir; personajları, obyektləri, şəraiti, vaxtı, hərəkətləri və s.-ni təsvir edən, cümlələrin ardıcıllığı ilə deyil, mövzularla müəyyən edilən ümumi kontekst, yəni diskursun yaradıcısı və onun tərcüməçisi üçün ümumi olan, diskurs inkişaf etdikcə “inşa edilən” dünya yaradır. Diskurs üçün ilkin struktur bir-biri ilə əlaqəli elementar müddəaların ardıcıllığı formasını alır konyunksiya, diszyunksiya və s. məntiqi münasibətlər. Diskursun elementləri: təqdim olunan hadisələr, onların iştirakçıları, icraedici məlumatlar və “qeyri-hadisələr”, yəni a) hadisələri müşayiət edən hallar; b) fonun izahı hadisələri; c) tədbir iştirakçılarının qiymətləndirilməsi; d) nitqi hadisələrlə əlaqələndirən məlumat” [4, s.7]. Bu tərifin əsasını müddəa hesab etmək olar ki, diskurs mətnə adekvat dəyər kimi deyil, hətta yuxarıdakı təriflərdən aydın olduğu kimi, onunla sinonimdir, daha genişdir. Sosial-praqmatik yanaşma ilə tədqiqatçıların diqqəti nitq fəaliyyətinə yönəldilir ki, onun iştirakçıları

müəyyən şəraitdə və ünsiyyət şəraitində özlərini tapan müəyyən növ linqvistik fərdlərdir.

Diskursun sosial fenomen kimi başa düşülməsi fransız strukturalistlərinin və poststrukturalistlərinin, ilk növbədə M.Fukonun tədqiqatlarına gedib çıxır. Bu terminin tədqiqi və əsaslandırılmasında A.Qreimas, J.Derrida, Y.Kristeva da mühüm rol oynamışdır. Bu alimlərin əsərlərində ənənəvi üslub anlayışlarına (ən geniş mənada "üslub insandır" dedikdə nəzərdə tutulur) və fərdi dilə (müq.: "Dostoyevskinin üslubu" ənənəvi ifadələri) aydınlıq gətirmək istəyini görmək olar. "Puşkin dili" və ya "bolşevizmin dili" kimi daha müasir səslənən ifadələrlə "müasir rus siyasi diskursu" və ya Ronald Reyqanın diskursu).

Bu şəkildə başa düşülən, "diskurs" termini (həmçinin Foucault tərəfindən istifadə edilən törəmə və tez-tez onu əvəz edən "diskursiv praktikalar" termini) danışma tərzini təsvir edir və mütləq bir tərifə malikdir, çünki tədqiqatçıların böyük əksəriyyəti bütövlükdə diskursla , onun geniş parametrlərlə müəyyən edilən spesifik növləri ilə: sırf linqvistik fərqləndirici xüsusiyyətlər (onları aydın şəkildə müəyyən etmək mümkün olduğu dərəcədə), stilistik spesifiklik (əsasən dil vasitələrinin istifadəsində kəmiyyət meylləri ilə müəyyən edilir), həmçinin konkret mövzular, inanc sistemləri, mülahizə üsulları və s. maraqlanır. Üstəlik, güman edilir ki, nitq tərzi əsasən danışıq mövzusunu, eləcə də ona uyğun sosial institutları əvvəlcədən müəyyənləşdirir və yaradır. Deməli, fransız məktəbi üçün diskurs, ilk növbədə, müəyyən ictimai-siyasi qrupa və ya dövrə xas olan müəyyən deyim növüdür. T.A.Van Deyk də diskursu sosial fenomen kimi şərh edən bir tərifə malikdir: "Diskurs nitq axını, öz daimi hərəkətində olan, tarixi dövrün bütün müxtəlifliyini, həm kommunikantın, həm də kommunikativ situasiyanın fərdi və sosial xüsusiyyətlərini özündə cəmləşdirən dildir. Diskurs həm milli, həm ümumbəşəri, həm də fərdi, özəl mentalitet və mədəniyyəti əks etdirir" [3, s.47].

"Diskurs" termini məşhur alman filosofu J.Habermas tərəfindən öz əsərlərində geniş istifadə edilmişdir. Onun əsərlərində diskurs sosial həyatın dəyər və normalarının tənqidi tədqiqi ilə şərtlənən nitq ünsiyyətinin bir növüdür (bax [15, s. 571-606]).

Y.S.Stepanov, diskursa kommunikativ aspektdən yanaşaraq onu alternativ dünya, fakt və səbəbiyyət anlayışları ilə əlaqələndirir. Stepanov həmçinin diskursun xüsusi sosial reallıq kimi təqdim olunan "dildə dil" kimi geniş linqvistik və fəlsəfi şərhini verir, bununla belə, o, dinamik, genişlənən anlayışı vurğulayır. Üstəlik, diskurs yalnız dil kimi üsluba, qrammatikaya və ya lüğətə endirilə bilməz. O, hər şeydən əvvəl və əsasən mətnlərdə mövcuddur, lakin onların arxasında xüsusi qrammatika, xüsusi leksika, sözdən istifadənin və sintaksisin xüsusi qaydaları, xüsusi semantika və nəhayət, xüsusi aləm yaranır" [10, s.45]. Yu.S.Stepanovun mətnlərdə diskursun mövcudluğundan bəhs etməsinə baxmayaraq, onun diskursa xüsusi, mümkün dünya kimi baxışı diskursu mətndən çox kənara çıxarır.

Beləliklə, "diskurs" anlayışının yuxarıdakı linqvistik-kommunikativ aspektdən şərhinə görə iddia etmək olar ki, bu termin, müasir dilçilikdə başa düşüldüyü kimi, mənaca "mətn" anlayışına yaxındır, lakin onun dinamik, genişlənən xarakterini vurğulayır. Linqvistik ünsiyyətdən fərqli olaraq, mətn ilk növbədə statik bir obyekt, dil fəaliyyətinin nəticəsi kimi başa düşülür.

**Problemin aktuallığı.** Son illərdə kommunikativ dilçiliyin inkişafı müxtəlif elmlərin kəsişməsində diskurs anlayışına ehtiyacı artırmışdır. Diskursun linqvistik, koqnitiv və praqmatik aspektlərinin araşdırılması müasir dilçilikdə həm nəzəri, həm də praktik tədqiqatların prioritet

mövzusuna çevrilmişdir. Müasir cəmiyyətdə informasiya mühitinin dinamikliyi və sosial ünsiyyətin müxtəlifliyi diskursun öyrənilməsini aktual edir. Bu səbəbdən diskursun mətnlə bağlılığı və eyni zamanda dinamik, genişlənən xarakteri onun tədqiqini zəruri edir.

**Problemin elmi yeniliyi.** Diskursun koqnitiv-kommunikativ paradiqma çərçivəsində araşdırılması onun həm linqvistik, həm də ekstralinqvistik aspektlərini inteqrativ şəkildə qiymətləndirməyə imkan verir. Mətn və nitq arasındakı dinamik əlaqənin tədqiqi diskursun statik obyekt olmadığını, proses kimi başa düşülməli olduğunu göstərir. Müasir tədqiqatlar diskursun sosial və kommunikativ kontekstini nəzərə alaraq fərdi və kollektiv şüurun qarşılıqlı təsirlərini ortaya qoyur. Bu yanaşma, diskursun funksional və struktur-üslubi xüsusiyyətlərini birləşdirərək onun mürəkkəb təbiətini daha dəqiq modelləşdirməyə imkan yaradır.

**Problemin praktik əhəmiyyət və tətbiqi.** Diskursun öyrənilməsi tədris və pedaqoji fəaliyyətin effektivliyini artırmaq üçün əsaslı zəmin yaradır. Onun sosial və kommunikativ aspektlərinin anlaşılması kütləvi informasiya vasitələri və mediada mesajların düzgün şərh edilməsinə kömək edir. Diskurs analizinin nəticələri siyasət, hüquq və biznes sahələrində strateji ünsiyyətin optimallaşdırılmasında tətbiq oluna bilər. Eyni zamanda, diskursun koqnitiv-praqmatik tədqiqi dil öyrənmə və təlim proqramlarının inkişafında praktik alətlər təqdim edir.

## Ədəbiyyat

1. Балтуева С.В. Коммуникативные дискурсы социальной работы // Журнал Вестник И 3. Язык, сознание, коммуникация: Сб. статей / Отв. ред. В. В. Красных, А. И. Изотов. – М.: МАКС Пресс, 2004.

2. Ван Дейк Т.А. Язык. Познание. Коммуникация. – М.: Прогресс, 1989. – 310 с.

3. Ван Дейк Т.А. К определению дискурса. – Л.: Сэйдж пабликэйшнс, 1998. – 384 с.

4. Демьянков В.З. Доминирующие лингвистические теории в конце XX века // Язык и нау ка конца XX века. – М.: Ин-т языкознания РАН, 1995. – с. 239–320.

5. Караулов Ю.Н. Роль прецедентных текстов в структуре и функционировании языковой личности // Научные традиции и новые направления в преподавании русского языка и литературы. - М., 1986. – с. 98-107.

6. Костомаров В.Г., Бурвикова Н.Д. Читая и почитая Грибоедова - М.; Рус. яз., 1998. - 79 с.

7. Панкратова О.А. Типы дискурса [Текст] / О.А. Панкратова // Проблемы лингвокультурологии и семантики через призму междисциплинарной парадигмы: Сборник статей. Волгоград: Станица-2, 2001. – с. 17-20.

8. Петров В.В. Идеи современной феноменологии и герменевтики в лингвистическом представлении знаний. / В.В. Петров // Вопросы языкознания. – 1990. – № 6.

9. Орлов Г.А. Современная английская речь. – М.: Высш. шк., 1991. – 240 с. 6. ПОНЯТИЕ ДИСКУРСА В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ 37.

10. Степанов Ю.С. Альтернативный мир, Дискурс, Факт и принцип Причинности // Язык и наука конца XX века: Сб. ст. / Под ред. Ю.С. Степанова. – М.: РГГУ, 1995. – с. 35–73.

11.Толстихина Е.В. Коммуникативный дискурс в межкультурной коммуникации.

Автореферат диссертации по философии, специальность ВАК РФ 09.00.11 – Ростов-на - Дону, 2010.

12.Шейгал Е.И. Семиотика политического дискурса. Дисс.д-ра филолог.наук. Волгоград, 2000. 431 с.

13. Шевченко. В.Д.Введение в теорию интерференции дискурсов; монография / – Самара: СамГУПС, 2008. – 194 с.

14. Benveniste E. On Discourse // The Theoretical Essays: Film, Linguistics, Literature. Manchester: Manchester Univ. Press, 1985.

Источник:https://www.bibliofond.ru/view.aspx?id=124636 © Библиофонд

15. Habermas J. Erläuterungen zum Begriff des kommunikativen Handelns // Habermas J. Vorstudien und Ergänzungen zur Theorie des kommunikativen Handelns. – Frankfurt am Main: Suhrkamp Verl., 1989. – S. 571–606.

16. Chernyavsky, A. D. "Ratsional'nost' i irratsional'nost' v ekonomicheskoy nauke". The Internet Journal "Naukovedenie," Vol: 4 num 23 (2014): 1–22. https://naukovedenie.ru/PDF/27EVN414.pdf.

**L.M.Rüstəmova**

**Diskursun linqvistik-kommunikativ aspekti**
**Xülasə**

Bu məqalə diskursun linqvistik-kommunikativ aspektindən bəhs edir. Məqalədə qeyd edilir ki, diskursun linqvistik-kommunikativ aspektinə G.A.Orlov belə bir tərif verərək hesab etmişdir ki, diskurs şifahi və ya yazılı nitq əsəri şəklində maddiləşmiş (təbii) nitqin kateqoriyasıdır, semantik və struktur baxımdan nisbətən tamamlanmış, uzunluğu potensial olaraq dəyişkəndir. Kommunikativ yanaşma çərçivəsində "diskurs" termini "öz subyekti, obyekti, yeri, vaxtı, yaranma (istehsal) şəraiti ilə diskursa çevrilən müəyyən işarə strukturu" kimi şərh olunur. Məqalədə həmçinin deyilir ki, mətn dilçiliyi çərçivəsində meydana çıxan diskurs nəzəriyyəsi onunla ilkin əlaqəsini heç vaxt itirməmiş, ardıcıl olaraq tədqiqat predmetini fərqləndirməyə, "mətn" və "diskurs" anlayışlarını nöqteyi-nəzərdən fərqləndirməyə doğru irəliləmişdir. Kommunikativ hadisə kimi diskurs bir tərəfdən şifahi ünsiyyət, fəaliyyət kimi nitqlə digər tərəfdən ünsiyyət zamanı qeydə alınan konkret mətn arasında əlaqədir.

**Л.М.Рустамова**

**Лингво-коммуникативный аспект дискурса**
**Резюме**

В данной статье рассматривается лингвокоммуникативный аспект дискурса. В статье отмечается, что Г.А.Орлов дал такое определение лингвокоммуникативному аспекту дискурса, что дискурс – это категория (естественной) речи, материализованная в форме устного или письменного речевого произведения, относительно целостная с смысловой точки зрения. и структурной точки зрения, и его длина потенциально варьируется. В рамках коммуникативного подхода термин «дискурс» трактуется как «определенная

знаковая структура, превращающаяся в дискурс со своим предметом, объектом, местом, временем, условиями создания (производства)». В статье также констатируется, что теория дискурса, возникшая в рамках лингвистики текста, никогда не теряла с ней первоначальной связи и последовательно продвигалась к дифференциации предмета исследования и разграничению понятий «текст» и «дискурс» с точки зрения. Дискурс как коммуникативное событие представляет собой связь между устным общением и речью как деятельностью, с одной стороны, и конкретным текстом, зафиксированным в ходе общения, с другой.

**L.M.Rustamova**

**Linguistic-communicative aspect of discourse**
**Summary**

This article deals with the linguistic-communicative aspect of discourse. It is noted in the article that G.A. Orlov gave such a definition to the linguistic-communicative aspect of the discourse that the discourse is a category of (natural) speech materialized in the form of an oral or written speech work, relatively complete from the semantic and structural point of view, and its length is potentially variable. Within the framework of the communicative approach, the term "discourse" is interpreted as "a certain sign structure that turns into a discourse with its subject, object, place, time, conditions of creation (production)". The article also states that the theory of discourse that emerged within text linguistics has never lost its initial connection with it, and has consistently progressed towards differentiating the subject of research and differentiating the concepts of "text" and "discourse" from a point of view. Discourse as a communicative event is a connection between oral communication and speech as an activity on the one hand and concrete text recorded during communication on the other hand.

**Redaksiyaya daxil olub:** 25.11.2025

***ƏDƏBİYYATŞÜNASLIQ***
***ЛИТЕРАТУРВЕДЕНИЕ***
***LİTERARY CRİTİCİSM***

*UOT 087.5*

# YENİ DÖVRDƏ AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ VƏZİYYƏTİ: PROBLEMLƏR, PERSPEKTİVLƏR

**Gülnar Ramiz qızı Qəmbərova**
*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun*
*Uşaq ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
**ORCİD:** 0000-0002-2426-3636
**E-mail:** ms.gulnar_babayeva@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.43

***Açar sözlər:*** *Azərbaycan uşaq ədəbiyyatı, müasir dövr, müstəqillik, ədəbi proses, problemlər, perspektivlər*
***Ключевые слова:*** *азербайджанская детская литература, современный период, независимость, литературный процесс, проблемы, перспективы*
***Key words:*** *Azerbaijani children's literature, modern period, independence, literary process, challenges, prospects*

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında, o cümlədən uşaq ədəbiyyatında yeni inkişaf mərhələsinin başlanğıcı kimi xarakterizə olunur. İdeoloji məhdudiyyətlərin aradan qalxması, yaradıcı azadlığın genişlənməsi və dünya ədəbi prosesinə inteqrasiya uşaq ədəbiyyatının mövzu və ideya dairəsini əhəmiyyətli dərəcədə zənginləşdirmişdir. Bu mərhələdə uşaq ədəbiyyatı yalnız tərbiyəvi funksiya daşımır, həm də estetik, psixoloji və sosial funksiyaları yerinə yetirən mühüm ədəbi sahəyə çevrilir. Qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı və oxu mədəniyyətində baş verən dəyişikliklər uşaq ədəbiyyatının mövzu, janr və ideya-bədii xüsusiyyətlərinə ciddi təsir göstərmişdir.

Yeni dövrdə Azərbaycan uşaq ədəbiyyatında mövzu rəngarəngliyi artsa da, bir sıra problemlər öz aktuallığını qoruyub saxlayır. Bunlara peşəkar uşaq yazıçılarının sayının məhdudluğu, keyfiyyətli nəşrlərin azlığı, kitabların dizayn və poliqrafik səviyyəsinin bəzən müasir tələblərə cavab verməməsi daxildir. Eyni zamanda, elektron resursların və rəqəmsal məkanın genişlənməsi uşaqların kitaba marağını zəiflədən amillərdən biri kimi çıxış edir [2, s.33].

Çağdaş dövrdə Azərbaycan uşaq ədəbiyyatının inkişafı həm elmi, həm də yaradıcı müstəvidə məhsuldar mərhələ kimi səciyyələndirilə bilər. Bu mərhələdə uşaq ədəbiyyatı sahəsində nəzərəçarpacaq dərəcədə fəallaşan elmi tədqiqatlar, nəşr olunan bədii nümunələr, keçirilən elmi konfranslar və beynəlxalq əməkdaşlıq təşəbbüsləri bu ədəbi sahənin ümumi tərəqqisinə mühüm töhfələr vermiş, onun nəzəri və praktik əsaslarını daha da möhkəmləndirmişdir. Sözügedən fəaliyyətlər bir tərəfdən uşaq auditoriyasına istiqamətlənmiş keyfiyyətli ədəbi mətnlərin meydana

çıxmasına, digər tərəfdən isə uşaq ədəbiyyatının elmi əsaslarla sistemli şəkildə tədqiqinə əlverişli şərait yaratmışdır.

Çağdaş dövrün ən diqqətəlayiq elmi hadisələrindən biri filologiya elmləri doktoru, tanınmış ədəbiyyatşünas və tənqidçi Elnarə Akimovanın "Azərbaycan uşaq ədəbiyyatı: tarixi təcrübəsi və müasir istiqamətləri" adlı monoqrafiyasının nəşri olmuşdur. Bu əsər Azərbaycan uşaq ədəbiyyatının keçdiyi tarixi mərhələləri və çağdaş inkişaf istiqamətlərini dərin və sistemli şəkildə təhlil edir. Nəzəri və praktik yanaşmaların vəhdətində qələmə alınmış bu tədqiqat əsəri uşaq ədəbiyyatının çağdaş elmi diskursuna mühüm töhfə kimi qiymətləndirilə bilər [1, s.5].

Azərbaycan Milli Elmlər Akademiyası ilə Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən yaradıcılıq müşavirələri də uşaq ədəbiyyatının aktual problemlərinin müzakirə edildiyi əhəmiyyətli elmi platformalar sırasında yer alır. Bu tədbirlər çərçivəsində uşaq ədəbiyyatında nəşriyyat fəaliyyəti, fantastik janrın inkişafı, tərcümə problemləri, uşaq poeziyası, nəsri, dramaturgiyası və folkloru ilə bağlı məsələlər geniş müzakirə olunmuş, sahədə aparılan elmi və yaradıcı axtarışların davamlı xarakter daşıdığı nümayiş etdirilmişdir.

Son illərdə uşaq ədəbiyyatına ictimai marağın artması nəşriyyatların da bu sahəyə yönəlmiş fəaliyyətlərinin intensivləşməsinə səbəb olmuşdur. Müxtəlif yaş qrupları üçün nəzərdə tutulmuş, məzmun baxımından zəngin və estetik dəyəri yüksək uşaq kitablarının nəşri həm müəlliflərin yaradıcılıq imkanlarının genişlənməsinə, həm də uşaq ədəbiyyatında janr və tematika müxtəlifliyinin artmasına şərait yaratmışdır. Bu proses çağdaş uşaq ədəbiyyatının keyfiyyət göstəricilərinin yüksəlməsinə xidmət edir. Bu mənada, uşaq ədəbiyyatı tədqiqatçısı Aygün Bağırlının fikirləri diqqəti cəlb edir: "Müstəqillik dövründə bir çox sahələrdə yaranan dinamik inkişaf uşaq ədəbiyyatı, onun nəzəri problemləri, zamanın formalaşdırdığı müasir uşağa baxış bucaqlarını da dəyişdirdi. Yaranmaqda olan uşaq ədəbiyyatı nümunələri əvvəlki illərdə mövcud olan yalançı qəhrəmanlıqdan, pafosdan, gurultudan, sterotipləşmiş uşaq yaşantılarından azad olaraq konkret bir ölkənin, xalqın kiçik vətəndaşının yaşantılarının, arzu və istəklərinin, sosial durumunun bədii ifadəsinə çevrildi" [3, s.821].

Azərbaycan uşaq ədəbiyyatının beynəlxalq müstəviyə inteqrasiyası istiqamətində atılan addımlar da xüsusi əhəmiyyət daşıyır. Yerli müəlliflərin uşaq ədəbiyyatı nümunələrinin xarici dillərə, xüsusilə Türkiyə türkcəsinə tərcümə edilərək nəşr olunması Azərbaycan uşaq ədəbiyyatının beynəlxalq tanıdılmasına, regional və mədəni əlaqələrin dərinləşməsinə imkan yaradır. Bu təşəbbüslər uşaq ədəbiyyatının ümumbəşəri dəyərlər kontekstində təqdim edilməsinə və beynəlxalq ədəbi inteqrasiyaya töhfə kimi qiymətləndirilə bilər.

Çağdaş dövrdə uşaq ədəbiyyatı sahəsində həyata keçirilən elmi tədqiqatlar, yaradıcılıq layihələri, nəşriyyat fəaliyyəti və beynəlxalq əməkdaşlıq təşəbbüsləri bu ədəbi istiqamətin kompleks şəkildə inkişafına zəmin yaratmışdır. Mövcud dinamika Azərbaycan uşaq ədəbiyyatının yalnız milli kontekstdə deyil, eyni zamanda beynəlxalq miqyasda da əhəmiyyət qazandığını göstərir və onun gələcək inkişafı üçün möhkəm elmi və yaradıcı baza formalaşdırır [6, s.67].

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və UNESCO-nun oxu mədəniyyəti üzrə hesabatlarında qeyd olunur ki, XXI əsrdə uşaqların asudə vaxtında elektron vasitələr (telefon, planşet, kompüter) kitab oxunuşunu əhəmiyyətli dərəcədə sıxışdırır. Bu tendensiya xüsusilə uşaq və yeniyetmə ədəbiyyatına marağın azalması ilə müşahidə olunur və müasir uşaq ədəbiyyatının yeni forma və dillə yazılmasını zəruri edir. Rəqəmsal mühitin genişlənməsi uşaqların

oxu vərdişlərinə ciddi təsir göstərmiş, klassik mütaliə forması yeni çağırışlarla üz-üzə qalmışdır.

Akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatşünaslığında uşaq ədəbiyyatının tədqiqinə dair irəli sürdüyü fikir bu sahədə mövcud elmi disbalansı aydın şəkildə ifadə edir [5]. Tədqiqatçının vurğuladığı kimi, uşaq ədəbiyyatının klassik mərhələsi – xüsusilə XIX əsrin sonu və XX əsrin əvvəllərini əhatə edən dövr – həm monoqrafik tədqiqatlarda, həm də dərslik və metodik vəsaitlərdə geniş şəkildə araşdırılmışdır. A.Şaiq, S.S.Axundov, A.Səhhət kimi klassiklərin yaradıcılığı elmi dövriyyəyə daxil edilmiş, onların pedaqoji-estetik prinsipləri sistemləşdirilmişdir. Bu mərhələnin ideya-mövzu xüsusiyyətləri, janr yenilənmələri, yeni qəhrəman modeli və müasir uşağın psixoloji dünyası ilə əlaqəsi kifayət qədər kompleks şəkildə araşdırılmamışdır [2, s.87].

Peter Huntun "rəqəmsal mədəniyyətin güclənməsi" ilə bağlı fikri isə uşaq ədəbiyyatının inkişafında qlobal miqyasda baş verən transformasiyaları əks etdirir. Rəqəmsal texnologiyalar, vizual media, interaktiv oyunlar və sosial platformalar müasir uşağın dünyagörüşünü və qavrayış mexanizmini dəyişdirmiş, ənənəvi oxu təcrübəsini yeni rəqabət mühiti ilə üz-üzə qoymuşdur [7, s.54]. Bu dəyişiklik uşaq ədəbiyyatında yalnız mövzu seçiminə deyil, həm də mətnin quruluşuna, dilinə, həcminə və vizual müşayiətinə təsir göstərmişdir. Huntun vurğuladığı forma və məzmun yenilənməsi zərurəti, çağdaş uşaq ədəbiyyatının uşağın dəyişən maraqlarına uyğunlaşmalı olduğunu göstərir. Bu kontekst Azərbaycan uşaq ədəbiyyatı üçün də aktualdır: müasir uşaq oxucusunun diqqətini cəlb edən dinamik süjet, canlı obrazlar, vizual elementlərlə zəngin mətnlər artıq qaçılmaz tələbat kimi çıxış edir.

Hər iki tədqiqatçının fikirləri çağdaş uşaq ədəbiyyatının həm elmi-nəzəri, həm də bədii-estetik baxımdan yenilənməsinin zəruriliyini təsdiqləyir. İsa Həbibbəylinin mövqeyi milli ədəbiyyatşünaslıqda metodoloji boşluqlara işarə etdiyi halda, Peter Huntun yanaşması qlobal mədəni proseslərin uşaq ədəbiyyatına təsirini ortaya qoyur. Bu fikirlərin qarşılıqlı əlaqədə şərhi, müasir Azərbaycan uşaq ədəbiyyatının inkişaf perspektivlərinin daha dolğun və sistemli şəkildə müəyyənləşdirilməsinə imkan yaradır.

Uşaq ədəbiyyatının gələcək inkişafı üçün milli-mənəvi dəyərlərə əsaslanan, lakin müasir uşağın dünyagörüşünə uyğun əsərlərin yaradılması mühüm əhəmiyyət daşıyır. Məktəb, ailə və media əməkdaşlığının gücləndirilməsi, uşaq kitablarının beynəlxalq sərgilərdə və müsabiqələrdə təbliği, eləcə də müasir pedaqoji yanaşmaların ədəbi prosesə inteqrasiyası perspektivli istiqamətlər kimi dəyərləndirilə bilər.

Nəticə etibarilə, yeni dövrdə Azərbaycan uşaq ədəbiyyatı həm problemlər, həm də geniş inkişaf imkanları ilə səciyyələnir. Mövcud çətinliklərin aradan qaldırılması və perspektivlərin reallaşdırılması bu sahənin milli mədəniyyətin mühüm tərkib hissəsi kimi daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

**Problemin aktuallığı** ondan ibarətdir ki, Azərbaycan uşaq ədəbiyyatı yeni dövr kontekstində kompleks və sistemli şəkildə təhlil olunur. Tədqiqatda müasir uşaq ədəbiyyatında müşahidə edilən mövzu, janr və ideya-bədii yenilənmələr ilk dəfə vahid konseptual çərçivədə araşdırılır.

**Problemin elmi yeniliyi.** Uşaq ədəbiyyatında mövcud problemlər yalnız bədii-estetik as-

pektdə deyil, eyni zamanda nəşr prosesi, oxucu auditoriyasının xüsusiyyətləri və rəqəmsal mühitin təsiri kontekstində qiymətləndirilir. Məqalədə milli uşaq ədəbiyyatı beynəlxalq uşaq ədəbiyyatı nəzəriyyələri ilə müqayisəli şəkildə təhlil edilir və bu əsasda çağdaş Azərbaycan uşaq ədəbiyyatının inkişafı üçün elmi cəhətdən əsaslandırılmış perspektivlər irəli sürülür.

**Problemin praktik və tətbiqi əhəmiyyəti.** Məqalədə əldə olunan nəticələr bir sıra praktik sahələrdə istifadə oluna bilər. Tədqiqatın nəticələri ali məktəblərdə filologiya ixtisası üzrə "Uşaq ədəbiyyatı" və "Müasir ədəbi proses" fənlərinin tədrisində, orta ümumtəhsil məktəblərində oxu proqramlarının və tövsiyə siyahılarının hazırlanmasında faydalı ola bilər.

## Ədəbiyyat

1. Akimova E. Azərbaycan uşaq ədəbiyyatı: tarixi təcrübəsi və müasir istiqamətləri. Bakı: Elm və təhsil, 2024, 394 s.
2. Bağırlı A., Qarayeva G. Müstəqillik illərində uşaq ədəbiyyatı. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 Cilddə. I cild. Bakı: Elm və təhsil, 2016, s.821.
3. Bağırlı A. Heydər Əliyev və uşaq ədəbiyyatı. //Azərbaycan. 2021. 1 iyun.
4. Əsgərli Füzuli Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı. - Bakı, ADPU-nun nəşriyyatı, 2009, 435 səhifə.
5. Həbibbəyli İ. Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 Cilddə. I cild., Bakı: "Elm və təhsil", 2016, 354 s.
6. Həbibbəyli İ. Uşaq dünyasında ədəbiyyat və uşaq ədəbiyyatı. "Ədəbiyyat qəzeti". 2020, 5 iyun. s. 4-5.
7. Hunt Peter. Literature for Children. – Oxford University Press, 1993, 224 p.

**G.R.Qəmbərova**

### Yeni dövrdə Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti: problemlər, perspektivlər
### Xülasə

Məqalədə müstəqillik dövründə Azərbaycan uşaq ədəbiyyatının inkişaf mərhələləri, mövcud vəziyyəti, qarşılaşdığı əsas problemlər və gələcək perspektivləri elmi-nəzəri baxımdan təhlil edilir. Müasir dövrdə uşaqlar üçün yazılan bədii nümunələrdə milli-mənəvi dəyərlərin qorunması ilə yanaşı, yeni qəhrəman tipinin formalaşdırılması, psixoloji yanaşma, ekoloji və sosial mövzuların aktuallaşması diqqəti cəlb edir. Məqalədə uşaq ədəbiyyatının nəşr, təbliğ və oxucu auditoriyası ilə bağlı problemlər də araşdırılır, həmçinin bu sahənin inkişafı üçün praktik və nəzəri təkliflər irəli sürülür.

**Г.Р.Гамбарова**

**Состояние Азербайджанской детской литературы в новый период: проблемы и перспективы**

**Резюме**

В статье рассматривается современное состояние азербайджанской детской литературы в период независимости, ее основные проблемы и перспективы развития. В современных произведениях для детей усиливается внимание к психологическим, экологическим и социальным темам при сохранении национально-нравственных ценностей. В статье также анализируются проблемы издательской деятельности, популяризации детской книги и формирования читательской аудитории, предлагаются пути дальнейшего развития данной сферы.

**G.R.Qambarova**

**The state of Azerbaijani children's literature in the new era: challenges and prospects**

**Summary**

The article analyzes the current state of Azerbaijani children's literature in the period of independence, focusing on its main development trends, existing problems, and future prospects. Contemporary works written for children increasingly address psychological, ecological, and social issues, while also striving to preserve national and moral values. The study also examines challenges related to publishing, promotion, and readership, and proposes theoretical and practical approaches to ensure the sustainable development of Azerbaijani children's literature in the modern era.

**Redaksiyaya daxil olub:** 08.12.2025

*UOT 82.09*

# DİVAN ƏDƏBİYYATINDA TƏZKİRƏ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

**Xuraman Abuzər qızı Qədimova**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun elmlər doktoru proqramı üzrə dissertantı, filologiya üzrə fəlsəfə doktoru*
**ORCID:** 0000-0002-5710-0139
**E-mail:** xuramanqedimova@mail.ru
http://www.doi.org/10.62706/bqiz.2025.v25.i4.44

***Açar sözlər:*** *divan ədəbiyyatı, təzkirə, klassik ədəbiyyat, ədəbi tənqid, bioqrafik janr, poetika*
***Ключевые слова:*** *диванная литература, тазкире, классическая литература, литературная критика, биографический жанр, поэтика*
***Key words:*** *Divan literature, tazkira, classical literature, literary criticism, biographical genre, poetics*

Divan ədəbiyyatında şairlərin həyat və yaradıcılığını əks etdirən əsas mənbələrdən biri təzkirələrdir. “Bioqrafiya”, “tərcümeyi-hal” anlayışlarının qarşılığı kimi işlədilən təzkirə termini fars ədəbiyyatında formalaşmış, sonradan ərəb və türk ədəbi mühitinə keçərək divan ədəbiyyatında müstəqil janr səviyyəsinə yüksəlmişdir. Təzkirələr yalnız bioqrafik məlumatlar toplusu deyil, eyni zamanda dövrün poetik-estetik meyarlarını, ədəbi zövqünü və tənqid düşüncəsini əks etdirən mühüm mənbələrdir. Bu baxımdan onlar müasir anlamda antologiya və ədəbi tənqid mənbəyi kimi dəyərləndirilir.

Tədqiqatçı Mustafa İsen təzkirələri ədəbi tənqidin ilkin və sistemli formalarından biri kimi qiymətləndirir. Təzkirələrdə şairlərin həyat yolu, yaradıcılıq mərhələləri, poetik xüsusiyyətləri və dövrün ədəbi mühiti haqqında geniş məlumat verilir. Ərəb və fars ədəbiyyatından sonra türk ədəbiyyatında ilk təzkirə Əli Şir Nəvainin müəllifi olduğu “Məcalisün-nəfais” əsəridir. Osmanlı ədəbiyyatında isə ilk təzkirə XVI əsrdə Sehî bəy tərəfindən qələmə alınmış “Heşt Behişt” əsəri hesab olunur [4, s.65].

Divan təzkirələrinin mühüm xüsusiyyətlərindən biri onların müqəddimə hissəsində poetika və tənqid məsələlərinin yer almasıdır. Bu müqəddimələrdə şeirin mənşəyi, forma və məzmun xüsusiyyətləri, vəzn, qafiyə, janr, poetik təxəyyül və üslub problemləri araşdırılır. Beləliklə, təzkirələr yalnız məlumatlandırıcı deyil, eyni zamanda nəzəri-estetik funksiyanı da yerinə yetirir.

Tərcümeyi-hallarda şairin adı, doğulduğu yer, ailə və qohumluq əlaqələri, təhsil həyatı, peşəsi, sosial mühiti, şəxsi keyfiyyətləri, həyatına dair rəvayətlər, ölüm tarixi, məzarı, əsərləri və yaradıcılığına dair qiymətləndirmələr təqdim olunur. Bununla yanaşı, şairin əsərlərindən nümunələr verilərək onun poetik səviyyəsi oxucuya göstərilir.

Mehmet Çavuşoğlu haqlı olaraq qeyd edir ki, təzkirə müəllifləri yalnız bioqrafik məlumatla kifayətlənməyərək, şairin poeziyasına da qiymət vermiş, dövrün ədəbi anlayışını əks etdirmişlər. Təzkirələrdə aparılan tənqid əsasən şairin şəxsiyyəti və sənət anlayışı üzərində qurulur. Əsərin özü deyil, sənətkarın poetik dünyası və yaradıcılıq mövqeyi qiymətləndirilir [5, s.89].

Təzkirələrdə şeir haqqında müsbət qiymətləndirmələr xüsusi terminlərlə ifadə olunur. Məsələn, "pesend ü işgəyə kabil şiir" (bəyənilməyə və sevilməyə layiq şeir), "xoş-ayəndə nəzm" (xoş səslənən nəzm), "aşiqanə qəzəl" (eşq ruhlu qəzəl), "mühəyyəl əşar" (xəyal gücü zəngin şeirlər) kimi ifadələr poetik dəyərin göstəricisi kimi işlədilmişdir.

Bununla yanaşı, təzkirələrdə tənqidi mövqelər də açıq şəkildə ifadə olunur. Məsələn, Gelibolulu Mustafa Əlinin Həsən Çələbinin şeiri haqqında söylədiyi tənqidi fikirlərdə söz seçiminin zəifliyi, orfoqrafik səhvlər və qeyri-dəqiq məlumatlardan istifadə xüsusi vurğulanır. Bu da göstərir ki, təzkirə tənqidində dil mədəniyyəti və faktoloji dəqiqlik əsas meyarlardan biri olmuşdur.

Təzkirələrdə işlədilən tənqid terminləri və sifətlər zəngin və rəngarəngdir. Təxəyyül, musanna, bi-bedel, ra'na, xoş-ayəndə, aşiqanə, ab-dar, pak, pür-nükte, məsəlamiz kimi anlayışlar müsbət qiymətləndirmə xarakteri daşıyır. Digər tərəfdən lafz-ı biganə, halavət və məlahətin olmaması, gılzət və sıqlət, ibarət-i vahşiyyə kimi ifadələr mənfi poetik keyfiyyətləri göstərmək üçün istifadə olunmuşdur. Bu terminlərin müasir ədəbi anlayışlarla uyğunlaşdırılması üçün xüsusi terminoloji araşdırmalara ehtiyac vardır.

Divan şairlərinin qiymətləndirilməsində müqayisə və bənzətmələrə də geniş yer verilmiş, şairlərin yaradıcılığı həm müsbət, həm də mənfi aspektlərdən təhlil edilmişdir. Xüsusilə Lətifinin təzkirəsi bu baxımdan diqqətəlayiqdir. O, zəif şeirin təriflənməsini, istedadsız şairlərin ön plana çəkilməsini tənqid etmiş, oxucunun poetik zövqünün formalaşdırılmasını əsas məqsəd kimi qarşıya qoymuşdur [2, s.73].

Lətifi Şeyxi ilə bağlı deyilən tənqidlərə cavab verərək, şairin yaradıcılığının öz dövrünün estetik tələbləri çərçivəsində qiymətləndirilməli olduğunu vurğulamışdır. Onun fikrincə, klassik şairlərin dilində və üslubunda müşahidə olunan xüsusiyyətlər zəmanənin poetik normaları ilə bağlıdır və bu günün ölçüləri ilə mühakimə edilə bilməz.

Osmanlı dövründə təzkirə müəlliflərinin tənqidi fəaliyyəti dövlət səviyyəsində də ciddi əhəmiyyət kəsb etmişdir. Şeirlərin sultana təqdim olunmazdan əvvəl tənqid edilməsi, bəzilərinin isə ümumiyyətlə qəbul olunmaması bunu açıq şəkildə göstərir. II Sultan Səlim dövründə Gelibolulu Əlinin bu sahədə fəaliyyət göstərməsi tənqidin peşəkar və məsuliyyətli bir iş kimi qəbul edildiyini sübut edir.

Divan ədəbiyyatında təzkirələr yalnız bioqrafik məlumatların toplandığı mənbələr deyil, eyni zamanda klassik ədəbi-tənqidi düşüncənin formalaşdığı əsas yazılı mətnlərdən biridir. Təzkirəçilər şairlərin həyat və yaradıcılıq yolunu təqdim etməklə kifayətlənməyərək, onların poetik səviyyəsini, sənətkarlıq xüsusiyyətlərini, estetik mövqelərini və fərdi üslub cəhətlərini də müəyyən meyarlar əsasında qiymətləndirmişlər. Bu baxımdan təzkirələr divan ədəbiyyatının daxili qanunauyğunluqlarını, poetik dəyərlər sistemini və ədəbi zövq anlayışını öyrənmək üçün mühüm mənbə rolunu oynayır [6, s.91].

XVI əsr Osmanlı təzkirəçiliyinin ən mühüm nümayəndələrindən biri olan Lətifi, şairləri yaradıcılıq səviyyəsinə və poetik yanaşmalarına görə təsnif etmişdir. Onun təzkirəsində şairlərin qiymətləndirilməsi zamanı orijinallıq, sözə yanaşma tərzi, bədii təxəyyül və yaradıcı müstəqillik əsas meyarlar kimi çıxış edir. Lətifi, ilk növbədə, yazılmamış düşüncələri, şəxsi arzu və təxəyyülünü poeziyaya gətirən şairləri yüksək qiymətləndirir. Bu tip şairlərdə fərdi poetik baxış, orijinal deyim və yaradıcılıq azadlığı ön plana çəkilir və onların sənətkarlığı məhz bu cəhətlərlə müəyyənləşdirilir.

Bununla yanaşı, Lətifi nitqi səlis və rəvan olan, lakin yaradıcılığı əsasən söz yığınından

ibarət olan şairləri də ayrıca qeyd edir. Belə şairlər zahiri baxımdan axıcı və təsirli şeir yaratsalar da, söz seçiminə kifayət qədər diqqət yetirmədiklərinə görə dərin məna və bədii yenilik baxımından zəif hesab olunurlar. Bu yanaşma göstərir ki, təzkirəçi üçün forma ilə yanaşı məzmun da həlledici əhəmiyyət daşıyır [7, s.35].

Lətifinin sərt tənqidinə məruz qalan digər bir qrup isə "oğru şairlər" adlandırılan yaradıcı olmayan şəxslərdir. Bu kateqoriyaya daxil olanlar şeirin təxəllüsünü dəyişdirərək və ya başqa şairlərin əsərlərindən müəyyən beyt və qoşmaları mənimsəyərək, onları fərqli üslubda təqdim etməyə çalışanlardır. Eyni zamanda, başqa şeirlərdə mövcud olan mənaları təkrarlamaq, bir şairin əsərinin formasını dəyişərək bədii və təxəyyül baxımından eyni məzmunu ifadə etmək də bu qəbildən olan mənfi hallara daxildir. Lətifinin bu mövqeyi divan ədəbiyyatında intihal və yaradıcılıq etikası məsələlərinə erkən dövrlərdən etibarən ciddi yanaşıldığını göstərir.

Bunun əksinə olaraq, Lətifi ustad şairlərin poeziyasında mövcud olan məzmunu incə zəka və yüksək bədii ustalıqla yeni, orijinal deyimə çevirən sənətkarları xüsusi qiymətləndirir. Bu yanaşma klassik poetik ənənədə "nəzirə" və "təzmin" kimi janrların yaradıcılıq çərçivəsində qəbul edildiyini, lakin sırf təqlidlə yaradıcı transformasiya arasındakı fərqin dəqiq şəkildə ayırd edildiyini göstərir. Məhz bu cür meyarlar Lətifinin tənqid sistemini bu gün də aktuallığını saxlayan ədəbi ölçülər səviyyəsinə yüksəldir [3, s.42].

Divan ədəbiyyatında təzkirəçilik ənənəsinin digər görkəmli nümayəndəsi Riyazi də şairləri fərqlilik və yenilik meyarları əsasında təsnif etmişdir. Riyazinin yanaşmasında şeirlərində yeni tapıntılar olan şairlər xüsusi yer tutur. Onun fikrincə, şairin dəyəri yalnız klassik formaya riayət etməklə deyil, həmin forma daxilində yeni mənalar və estetik tapıntılar yarada bilmə bacarığı ilə ölçülür.

Riyazi həmçinin "gözəllik şairləri" adlandırdığı sənətkarları da qeyd edir. Bu şairlər daha çox estetik gözəllik, ahəng və lirizm üzərində qurulan poeziya nümunələri ilə seçilirlər. Digər bir qrup isə yeni mənalar yaradan, poetik təfəkkürü zənginləşdirən və divan ədəbiyyatına ideya baxımından yenilik gətirən sənətkarlardır. Riyazinin bu təsnifatı göstərir ki, klassik təzkirələrdə şairlərin dəyərləndirilməsi yalnız texniki ustalıqla deyil, bədii düşüncənin yeniliyi və fərqliliyi ilə bağlı olmuşdur [1, s.22].

Beləliklə, Lətifi və Riyazi kimi təzkirəçilərin şairlərə yanaşması divan ədəbiyyatında təzkirənin yalnız məlumatverici deyil, həm də normativ və qiymətləndirici funksiyaya malik olduğunu təsdiqləyir. Onların müəyyənləşdirdiyi meyarlar klassik poetik zövqün formalaşmasında mühüm rol oynamış, şairlərin yaradıcılıq səviyyəsinin müəyyənləşdirilməsində əsas ölçülər kimi çıxış etmişdir. Bu baxımdan təzkirələr divan ədəbiyyatının estetik prinsiplərini, tənqid anlayışını və yaradıcılıq meyarlarını əks etdirən əvəzsiz mənbələr hesab olunur.

**Problemin aktuallığı.** Məqalənin aktuallığı ondan ibarətdir ki, təzkirə janrı divan ədəbiyyatı kontekstində müstəqil ədəbi-tənqidi fenomen kimi sistemli şəkildə təhlil olunur. Tədqiqatda təzkirələrin yalnız bioqrafik məlumat daşıyıcısı olmadığı, eyni zamanda poetik və estetik funksiyalar yerinə yetirdiyi elmi əsaslarla sübuta yetirilir.

**Problemin elmi yeniliyi.** Klassik Şərq təzkirəçilik ənənəsinin ədəbi tarix və poetika ilə qarşılıqlı əlaqəsi kompleks şəkildə araşdırılaraq sistemləşdirilir. Bununla yanaşı, təzkirə mətnlərində müəllif subyektivliyinin və ədəbi qiymətləndirmənin rolu müəyyənləşdirilir və bu amilin klassik ədəbi düşüncənin formalaşmasında əhəmiyyətli yer tutduğu əsaslandırılır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən müddəalar magistr və doktorantların elmi-tədqiqat işləri üçün metodoloji baza rolunu oynayır. Eyni zamanda, əldə olunan nəticələr təzkirə mətnlərinin şərhi və elmi təhlili zamanı köməkçi vəsait kimi tətbiq edilə bilər.

## Ədəbiyyat


1. Əliyev H. Divan ədəbiyyatı. Bakı: Elm, 1982.
2. Köprülü M. F. Türk ədəbiyyatında ilk mütəsəvviflər. İstanbul: Dergâh, 1976.
3. Təhmasi, M. Klassik Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1980.
4. Latifi. Təzkirətüş-şüəra. İstanbul: 1314 (hicri).
5. Aşıq Çələbi. Meşairüş-şüəra. İstanbul, XVI əsr.
6. Gibb, E. J. W. A History of Ottoman Poetry. London, 1900.
7. Andrews, W. G. Poetry's Voice, Society's Song. Seattle, 1985.


**X.A.Qədimova**

## Divan ədəbiyyatında təzkirə və onun xüsusiyyətləri
## Xülasə

Məqalədə divan ədəbiyyatında təzkirə janrının formalaşması, inkişaf mərhələləri və əsas xüsusiyyətləri elmi-nəzəri baxımdan araşdırılır. Təzkirələrin yalnız bioqrafik mənbə deyil, həm də ədəbi-estetik meyarların, poetik zövqün və dövrün ədəbi mühitinin əksi olduğu əsaslandırılır. Əsərdə təzkirələrin struktur xüsusiyyətləri, müəllif mövqeyi, dil və üslub məsələləri, eləcə də klassik Şərq ədəbiyyatında ədəbi tənqid funksiyası təhlil olunur. Divan ədəbiyyatında təzkirələrin ədəbi tarixçilik baxımından əvəzsiz mənbə olduğu elmi faktlarla əsaslandırılır.

**Х.А.Гадимова**

## Тазкире в диванной литературе и его особенности
## Резюме

В статье исследуется жанр тазкире в диванной литературе, его формирование, этапы развития и основные особенности. Тазкире рассматриваются не только как биографические источники, но и как отражение эстетических критериев, литературных вкусов и культурной среды своего времени. Анализируются структурные и стилистические особенности тазкире, авторская позиция и их функция в системе классической восточной литературной критики. Обосновывается значение тазкире как важнейших источников по истории диванной литературы.

**X.A.Qadimova**

**The tazkira in divan literature and its characteristics**
**Summary**

The article examines the formation, development, and distinctive features of the tazkira genre in Divan literature from a theoretical and scholarly perspective. Tazkiras are analyzed not only as biographical sources but also as reflections of literary taste, aesthetic criteria, and the literary environment of their time. The study focuses on structural characteristics, authorial perspective, stylistic elements, and the critical function of tazkiras in classical Eastern literature. The article demonstrates that tazkiras serve as indispensable sources for the study of literary history and classical poetic tradition.

**Redaksiyaya daxil olub:** 15.12.2025

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN BİBLİOQRAFİK TƏSVİRİ
# БИБЛИОГРАФИЧЕСКОЕ ОПИСАНИЕ ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ
# BİBLİOGRAPHİC DESCRİPTİON OF USED LİTERATURE

Jurnalımızın son səhifələrində azərbaycanca, rusca və ingilis dilində "Təqdim olunan məqalələrə tələblər"i əks etdirmişik. Müəlliflər həmin tələbləri ciddi şəkildə nəzərə aldıqları halda bəzi müəlliflər mövcud qaydaları gözləmədən redaksiyaya məqalə gətirir, yaxud elektron poçtla göndərirlər. Bu isə, o deməkdir ki, təqdim olunan məqalə işlənmək üçün geri qaytarılmalı, yaxud da redaksiya tərəfindən redaktə edilməlidir. Belə məqalələr, adətən zəif olur, özündə elmi ideya əks etdirmir, təsviri xarakter daşıyır, məqalənin sonunda verilən ədəbiyyat siyahısı da necə gəldi formalaşdırılır.

2019-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının yeni Əsasnaməsi təsdiq olunmuş, dissertasiyaların, avtoreferatların, ədəbiyyat siyahısının tərtibinə yeni tələblər verilmişdir. Ölkəmizdə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərdə öz məqalələrini görmək istəyən alimlər, gənc tədqiqatçılar – doktorantlar və dissertantlar "İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i ilə tanış olmalı, həm dissertasiyalarında, həm məqalələrində, həm də konfrans materiallarında mövcud tələbləri nəzərə almalıdırlar.

"İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri və nümunələr"i aşağıdakı bölmələrə ayrılır: nəşrin növü; biblioqrafik təsvirin forması; nümunələr. Tələblərə diqqət yetirək:

***Çoxcildli nəşrlər*** belə yazılır:

1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.

2. Azərbaycan Milli Ensiklopediyası / Red. hey. sədri İ.H. Əliyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, – c. 8: Enollar – Fedin. – 2018. – 598 s.

***Müəllifi göstərilməyən nəşrlər*:**

Azərbaycan bayatıları / tərt. ed. B.Abdulla – Bakı: XXI – Yeni nəşrlər evi, –2004. –304 s.

***Müəllifi dörd nəfərədək olan nəşrlər,*** o cümlədən ***bir müəllifli nəşrlər*:**

Əlizadə, Ə.Ə. Qadın psixologiyası: Fəlsəfi-psixoloji esselər / Ə.Ə. Əlizadə. – Bakı: Təhsil, – 2015. – 416 s.

***İki və üç müəllifli nəşrlər*:**

Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Dərs vəsaiti. / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, – 2021. – 608 s.

***Müəllifi dörd və daha çox olan*** nəşrlər. ***Dörd və beş müəllifli*** nəşrlər:

Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti / Y.R. Talıbov, Ə.Ə. Ağayev, A.İ. Eminov [və b.] – Bakı: Adiloğlu, – 2003. – s. 48.

***Beşdən çox müəllifli nəşrlər*:**

Kurikulum bələdçisi: İzahlar və tətbiqlər / Ə.M. Abbasov [və b.] – Bakı: Elm və təhsil, – 2019. – 320 s.

***Jurnal məqalələri*:**

Məmmədli L.A. Şagirdlərin milli qəhrəmanların nümunəsində tərbiyə olunması // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2020. №6, – s. 59-62.

***Müəllifi üçdən çox olan*** jurnal məqalələri:

Rüstəmov, Q.Ə. Vibrasiyalı kəsmə prosesində müqavimət momenti dəyişməsinin tədqiqi / Q.Ə. Rüstəmov, İ.A. Yolçuyev, Ə.T. Həzərxanov [və b.] // Milli Aviasiya Akademiyasının Elmi Əsərləri, – Bakı: – 2005. №1, – s. 80-86.

***Konfrans materialları*:**

Аббасов, А.Н. Подготовка подростков и молодежи к семейной жизни // Материалы 66-й Международной научно-практической конференции на тему: «Актуальные вопросы науки», Москва: Спутник: -10 августа 2020, с. 33-37.

***Dissertasiyalar:***

Əmirəliyeva, İ.B. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2013. – 147 s.

***Dissertasiyanın avtoreferatı*:**

Əliyev, R.S. Yeniyetmələrin yenidəntərbiyəsi üzrə işin sistemi: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / - Bakı, 2003. - 29 s.

***Elektron resurslar*:**

Меликов, А. Легенда о любви [Звукозапись] / – Баку, 1994. – CD-ROM. Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm.

***Normativ-hüquqi sənədlər*:**

Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – 48 s.

***Qəzet məqalələri*:**

Abbasov, A.N. Pedaqoji internatura // Azərbaycan müəllimi. – 2020, 22 avqust. – s. 6.

***Arxiv materialları*:**

Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1.

Bakı Qızlar Universitetinin "Elmi əsərlər"inə pedaqogikanın, təhsil, təlim və tərbiyənin, didaktikanın, təhsilin idarə olunmasının müxtəlif məsələləri ilə bağlı məqalə yazan alimlərə, gənc tədqiqatçılara xahişimiz budur ki, istifadə edilmiş ədəbiyyatın siyahısını hazırlayarkən yuxarıda göstərilən qaydalara əməl etsinlər.

## TƏQDİM OLUNAN MƏQALƏLƏRƏ TƏLƏBLƏR

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.
2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.
3. Məqalənin mətni təxminən 6-8 səhifə olmalıdır. Məqaləyə Azərbaycan, rus və ingilis dillərində açar sözlər yazılır.
4. Məqalənin mətni Azərbaycan dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman — 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə təqdim olunmalıdır.
5. Məqalələr üç dildən — Azərbaycan, ingilis və rus dillərindən birində çap olunur. Məqalənin 3 (üç) dildə xülasəsi təqdim edilir. Xülasədə məqalənin adı, irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.
6. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar təqdim olunur: adı, atasının adı, soyadı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ünvanı, E-mail.
7. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə böyük hərflərlə məqalənin adı; ikinci sətirdə müəllifin adı, ata adı və soyadı, elmi dərəcəsi və elmi adı; üçüncü sətirdə iş yeri, vəzifəsi, daha sonra elektron poçtu (E-mail).
8. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.
9. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir.
10. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və orta ixtisas təhsili məktəbinin Pedaqoji Şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.
11. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.
12. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s. 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
13. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.
14. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
15. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.
16. Məqalə müəlliflərinin hüquqları qorunur.
17. Jurnalda "ardı növbəti nömrədə" adı altında seriya məqalələr dərc olunmur.
18. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.

## ТРЕБОВАНИЯ К ПРЕДСТАВЛЕННЫМ СТАТЬЯМ

1. Принимаются статьи, не представленные в других редакциях.

2. Статьи должны отражать результаты последних исследований, быть богатыми новыми идеями, в них должны быть соблюдены требования, предъявляемые написанию научных статей.

3. Представленные статьи должны отражать Orcid автора. Ключевые слова для статьи должны быть представлены на трех языках: азербайджанском, русском и английском. 3. Текст статьи должен быть представлен на диске вместе с электронным вариантом, с интервалом 1,5; шрифтом 14 Times New Roman - латинского алфавита на азербайджанском языке, кириллицы на русском языке, и английским алфавитом (США) на английском языке.

4. Статьи публикуются на одном из трех языков - азербайджанском, русском и английском. Резюме статьи предоставлено на 3 языках (азербайджанском, русском и английском). В статье должны быть отражены основные научные положения, изложенные в резюме, выводы, сделанные из исследования, должна быть представлена теоретическая и практическая значимость проблемы.

5. Статья должна быть написана в следующем порядке: на первой строке имя, фамилия и отчество автора (авторов); вторая строка содержит ученую степень и ученое звание (диссертант или докторант и т. д.); третья строка указывает место работы, должность; на четвертой строке представлено название статьи прописными буквами. Затем эта же информация повторяется на русском и английском языках.

6. Нежелательно иметь более трех соавторов.

7. Редакция имеет право вносить изменения и сокращения в статью.

8. Вместе со статьей должно быть предоставлено два отзыва специалистов: заведующих кафедрой или отделом, а также выписка из протокола Ученого совета вузов и педагогического совета общеобразовательного или среднего специального образования.

9. Авторы статьи несут ответственность за достоверность приведенных в статье фактов и информации. Предлагаемые научные положения должны принадлежать автору и должен быть указан источник используемых теоретических идей.

10. Ссылки следует давать на работы, опубликованные за последние 5-10 лет. Список литературы, приведенный в конце статьи, должен быть пронумерован не в алфавитном порядке, а в том порядке, в котором указанная литература появляется в тексте, например (1) или (1, стр. 119). Если та же самая литература повторяется в другом месте в тексте, то эта же литература должна быть указана под предыдущим номером.

11. Журнал публикует статьи, имеющие отношение к его профилю.

12. В конце научной статьи должна быть обоснована актуальность в соответствии с характером статьи и областью науки, четко указана научная новизна, важность ее применения, экономическая эффективность и т.д.

13. Затем предоставляется список использованной литературы.

14. При обнаружении фактов плагиата публикация статьи прекращается.

15. Права авторов статьи защищены.

16. Журнал не публикует серии статей под заголовком «продолжение в следующем

номере».

17. Резюме статей на разных языках должны быть одинаковыми и соответствовать содержанию статьи.

18. В конце статьи должно быть указано имя, отчество и фамилия рецензентов, их ученая степень и ученое звание; следующая строка должна содержать адрес электронной почты автора статьи.

19. В статью добавляется следующая информация об авторе: имя, фамилия, отчество автора (авторов), учреждение, где он работает (докторантом или диссертантом которого является) адрес учреждения, должность, ученая степень и звание автора(ов), домашний и рабочий телефоны, домашний адрес, электронная почта (Email).

**REQUIREMENTS FOR SUBMITTED ARTICLES**

1. Submitted articles should not be published or accepted for publication in other editions.
2. Articles should reflect the results of recent research, be rich in new ideas and they must comply with the requirements for writing scientific articles.
3.Submitted articles must reflect the author's Orcid. Keywords for the article must be presented in three languages: Azerbaijani, Russian and English.
4. The text of the article should be presented on the disk together with the electronic version, with an interval of 1.5; 14 point Times New Roman font - Latin alphabet in Azerbaijani, Cyrillic in Russian, and English alphabet (USA) in English.
5. Articles are published in one of three languages - Azerbaijani, Russian and English. A summary of the article is provided in 3 languages (Azerbaijani, Russian and English). The article should reflect the main scientific provisions presented in the summary, the conclusions drawn from the study, the theoretical and practical significance of the problem should be presented.
6. The article is written in the following order: on the first line the name, surname and patronymic of the author (s); the second line contains the academic degree and academic title (doctoral student or candidate for a degree, etc.); the third line indicates the place of work, position; the fourth line represents the title of the article in capital letters. Then in this order the same information is repeated in Russian and English.
7. It is undesirable to have more than three co-authors.
8. The Editorial Board has the right to make changes and reductions in the article.
9. Two expert reviews should be provided together with the article: heads of department or chair, as well as extract from the protocol of Academic Council of the higher school and the Pedagogical Council of general or secondary special education institutions.
10. The authors of the article are responsible for the accuracy of the facts and information provided in the article. The proposed scientific provisions should belong to the author and the source of used theoretical ideas must be indicated.
11. The articles should refer to works published in the last 5-10 years. The list of references given at the end of the article should not be numbered in alphabetical order, but in the order in which the indicated literature appears in the text, for example (1) or (1, p. 119). If the same literature is repeated elsewhere in the text, then the same literature should be indicated under the previous number.
12. The journal publishes articles related to its profile.
13. At the end of a scientific article, the relevance should be justified according to the nature of the article and the area of science, scientific novelty, importance of its application, economic efficiency, etc. should be clearly indicated.
14. Then a list of references is provided.
15.When the facts of plagiarism are discovered, the publication of the article is stopped.
16. The rights of the authors of the article are protected.
17. The journal does not publish a series of articles under the heading – continued in the next issue‖.
18. Summary of articles in different languages should be the same and consistent with the

content of the article.

19. At the end of the article the name, patronymic and last name of the reviewers, their academic degree and academic title should be indicated; the next line should contain the email address of the author of the article.

20. The following information about the author is added to the article: name, surname, patronymic of the author (authors), the institution where he works (doctoral student or candidate for a degree), address of the institution, position, academic degree and the title of the author (s), home and work phones, home address, email address.

## MÜNDƏRİCAT
## ОГЛАВЛЕНИЕ
## CONTENTS

**Sevinc Ağarəhim qızı Rəhimova.** Yaradıcılıq ömrün rahiyyəsidir
Цветущая жизнь творчества
The creativity that blossoms life ……….............……………………………………… 3

**PEDAQOJİ ELMLƏR**
**ПЕДАГОГИЧЕСКИЕ НАУКИ**
**PEDAGOGICAL SCIENCES**

***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***
***ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ***
***GENERAL PROBLEMS of PEDAGOGY***

**Reyhan Azadxan qızı Əhmədova.** Ağarəhim Rəhimovun hekayələrinin pedaqoji təsir mexanizmləri və müasir tətbiq imkanları
Педагогические механизмы воздействия рассказов Агарегима Рагимова и современные возможности их применения
Pedagogical impact mechanisms of Agaragim Rahimov's stories and their modern application possibilities ……………………………………………………………...... 7

**Səbinə Ceyhun qızı Hacızadə.** Din və təhsil münasibətlərində qlobal fərqliliklər: kollektivist və fərdiyyətçi yanaşmalar
Глобальные различия во взаимоотношениях религии и образования: коллективистский и индивидуалистический подходы
Global differences in religion and education: collectivist and Individualist approaches .. 12

**Fatimə Abil qızı Şükürova.** Şagirdlərin idrak fəallığı əsas pedaqoji problemi kimi
Сущность познавательной деятельности учащихся как основная
The essence of students' cognitive activity as the main pedagogical problem ………… 18

***TƏLİM TEXNOLOGİYALARI***
***ТЕХНОЛОГИЯ ОБУЧЕНИЯ***
***TEACHİNG TEXNOLOGY***

**Gülər Qismət qızı Nuriyeva.** Neyrotəhsil yanaşmaları vasitəsilə hiperaktiv uşaqlarda öyrənmə nəticələrinin artırılması
Улучшение результатов обучения у гиперактивных детей с помощью нейрообразовательных принципов
Improving learning outcomes in hyperactive children through neuroeducational approaches ……………………………………………………………………………… 23

**Reyhan Qəhrəman qızı Rüstəmova.** Ağarəhim Rəhimovun bədii yaradıcılığında tərbiyəvi missiya
Воспитательная миссия в художественном творчестве Агарэхима Рагимова
The educecational mission in the artistic creativity of Agharahim Rahimov .................. 28

**Günay Akif qızı Seyidova.** Təlim nəticələrinin ölçülməsində innovativ qiymətləndirmə modellərinin rolu
Роль инновационных моделей оценки в измере результатов обучения
The role of innovative assessment models in measuring learning outcomes …………… 32

**Сария Ариф гызы Гашими.** Образовательная среда как стимулятор развития и сохранения культурных ценностей
Mədəni dəyərlərin inkişafı və qorunmasının stimullaşdırıcısı kimi təhsil mühiti
The educational environment as a stimulator of the development and preservation of cultural values ……………………………………………………………………………… 36

**Səkinə Fuad qızı Səfərova.** Təlim prosesində azərbaycançılıq dəyərlərindən istifadə imkanları
Использование ценностей азербайджанизма в образовательном процессе
Using azerbaijanism values in the educational process ………………………………….. 42

***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRİNGİNG TECHNOLOGIES***

**Rəhiməxanım Rzabala qızı Məmmədzadə.** Tərbiyə texnologiyalarindan istifadə etməklə tələbələrin mənəvi keyfiyyətlərinin formalaşdirilmasi üzrə işin səmərəlilik göstəriciləri: Müəyyənləşdirici eksperimentin təşkili və nəticələri
Показатели эффективности работы по формированию нравственных качеств учащихся с использованием образовательных технологий: Организация и результаты определяющего эксперимента
Indıcators of the effectıveness of work on the formatıon of natıonal qualıtıes of students usıng educatıonal technologıes: Organization and results of the determining experiment ..48

**Sevda Caid qızı Novruzəliyeva, Arzu Ağanəhməd qızı Mirzəyeva.** Akademik etikanın elm-tədris sistemində rolu
Роль академической этики в системе науки и образования
The role of academic ethics in the science and education system .................................... 56

**Lamiyə Sabir qızı Rəhimova.** XVII-XVIII əsr Azərbaycan və Osmanlı-Türk klassik ədəbiyyatlarında vətənpərvərlik və qürbət motivləri
Патриотизм и мотив изгнания в классической литературе Азербайджана XVII–XVIII веков и Османской империи
Patriotism and the motif of exile in 17th–18th century Azerbaijani and Ottoman-Turkish classical literature ........................................................................................................ 63

**Əfsanə Şəmsəddin qızı İsmayılova.** Cəfər Cabbarlı hekayələrində qadın taleyi: patriarxal məhdudiyyətlərdən müasir perspektivə
Женская судьба в рассказах Джафара Джаббарлы: от патриархальных ограничений к современному взгляду
Women's fate in Jafar Jabbarli's short stories: from patriarchal constraints to a modern perspective ……………………………………………………………………………….. 74

**Firəngiz Mirbaba qızı Hadi.** Şəhid konseptinə ilkin baxış və onun bəşəri mahiyyəti
Первоначальный взгляд на концепт шахидства и его общечеловеческая сущность
An initial view of the concept of martyrdom and its humanistic essence ………………. 79

**Fidan Araz qızı Rüstəmova.** Məktəb və ailə əməkdaşlığının milli-mənəvi tərbiyənin gücləndirilməsində əhəmiyyəti
Значение сотрудничества школы и семьи в укреплении национально-нравственного воспитания
The importance of school-family collaboration in strengthening national and moral education ..................................................................................................................... 87

***MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ***
***ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ***
***HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT***

**Səma Ziyad qızı Xəlilova.** XIX əsrdə Azərbaycanda qızlar üçün xüsusi təhsil müəssisələri şəbəkəsinin formalaşması və inkişafı prosesinin əsas tendensiyaları
Основные тенденции в процессе формирования и развития сети специальных учебных заведений для девочек в Азербайджане в XIX веке
The main trends in the process of formation and development of a network of special educational institutions for girls in Azerbaijan in the 19$^{th}$ century ………………………. 94

***İBTİDAİ SİNİFLƏRDƏ TƏHSİL VƏ TƏRBİYƏ***
***ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ В НАЧАЛЬНЫХ КЛАССАХ***
***EDUCATION AND UPBRINGING IN PRIMARY CLASSES***

**Səfa Etibar qızı Bədirova.** İbtidai siniflərin Azərbaycan dili dərsliklərinin folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü
Воплощение национальнонравственных ценностей в фольклорных примерах на уроках азербайджанского языка в начальных классах
Embodiment of national-moral values in folklore examples of azerbaijan language lessons in primary classes ……………………………………………………………………... 99

**Zülfünaz Şahin qızı Şəfiyeva.** İbtidai sinif şagirdlərinin şəxsiyyət kimi formalaşmasında oyun əsaslı öyrənmənin faydalı xüsusiyyətləri
Положительные свойства игрового обучения в развитии личности учащихся начальной школы
The beneficial properties of game-based learning in the personality development of elementary school students ………………………………………………………… 103

***RİYAZİYYATIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДОВАНИЯ МАТЕМАТИКИ***
***METHODS OF TEACHİNG MATHEMATİCS***

**Fəxrəddin Feyzullah oğlu Əliyev, Ziba Novruz qızı Rəhimova, Dilbər Məhəmməd qızı Qasımzadə.** Bəzi qeyri-standart məsələlərin həllinə törəmənin tədbiqi
Применение производной к решению некоторых нестандартных задач
Application of the derivative to the solution of some non-standard problems ………. 107

**Qurban İsa oglu Əliyev, Səkinə İmran qızı Səfiyeva.** Qeyri-xətti tənliklərin vətərlər üsulu ilə həlli
Решение нелинейных уравнений методом сухожилий
Solution of nonlinear equations by tendon method ...................................................... 113

**Ruqiyyə Elçin qızı Məmmədova.** Həndəsi çevirmələrin məktəb riyaziyyatında nəzəri əsasları və tədrisi
Теоретические основы и преподавание геометрических преобразований в школьной математике
Theoretical foundations and teaching of geometric transformations in school mathematics ……………………………………………………………………….... 119

***TARİXİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***
***METHODS OF TEACHING HİSTORY***

**Leyla Əhməd qızı Həsənzadə.** Ümumtəhsil məktəblərində ümumi tarix kurslarinin tədrisində bədii ədəbiyyatdan istifadənin imkan və yolları
Возможности и пути использования художественной литературы в преподавании курсов всеобщей истории в общеобразовательных школах
Opportunities and ways of using fiction in the teaching of general history courses in general education schools ………………………………………………………… 124

### *XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*
### *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ*
### *METHODS OF TEACHING FOREIGN LANGUAGES*

**Вафа Гамид кызы Тагызаде.** Формирование межкультурной компетенции мультимедийными средствами на занятиях по иностранному языку в вузе
Xarici dil dərslərində multimedia vasitələri ilə mədəniyyətlərarası kompetensiyanın formalaşdırılması
Formation of intercultural competence through multimedia tools in foreign language classes at university ………………………………………………………………………….. 130

### *HƏYAT BİLGİSİNİN TƏDRİSİ METODİKASI*
### *METHODOLOGY OF TEACHİNG KNOWLEDGE OF THE WORLD*
### *МЕТОДИКА ПРЕПОДАВНИЯ ПОЗНАНИИ МИРА*

**Mirsədəf Qiyas qızı Ağayeva.** Təlim prosesində elmi dünyagörüşün aşilanmasi (həyat bilgisi fənni əsasında)
Формирование научного мировоззрения в учебном процессе (на основе предмета «основы жизни»)
Cultivation of scientific worldview in the learning process (based on the “life science” subject) ........................................................................................................................ 135

### *SÜNİ İNTELLEKT TEXNOLOGİYALARINDAN İSTİFADƏ*
### *USE OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES*
### *ИСПОЛЬЗОВАНИЕ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА*

**Raul İlham oğlu Murtazayev.** Rəqəmsal dünyada süni intellekt texnologiyalarinin inkişafi
Развитие технологий искусственного интеллекта в цифровом мире
Development of artificial intelligence technologies in the digital world ……………… 139

### *HƏRBİ PEDAQOGİKA*
### *ВОЕННАЯ ПЕДАГОГИКА*
### *MILITARY PEDAGOGY*

**Mehriban Nağı qızı Sərdarova.** Azərbaycan Respublikasında milli hərbi təhsilin inkişafında Heydər Əliyevin rolu
Роль Гейдара Алиева в развитии национального военного образования в Азербайджанской Республике
The role of Heydar Aliyev in the development of national military education in the Republic of Azerbaijan ........................................................................................................ 144

**Ramilə Bəbir qızı Alışova.** Hərbi terminlərin etimologiyası
Этимология военных терминов
The etymology of military terms ………………………………………………………… 154

### *TƏHSİLİN İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*
### *PROBLEMS OF EDUCATION MANAGEMENT*
### *ПРОБЛЕМЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ*

**Leyla Teymur qızı Teymurova.** Şagird kollektivinin səmərəli təşkili və idarəolunmasında ümumməktəb şagird özünüidarə orqanlarının rolu haqqında
Роль органов ученического самоуправления в эффективной организации и управлении ученическим коллективом
The role of school-wide student self-government bodies in the effective organization and management of the student collective …………………………………………………... 162

**Аиша Фаик кызы Аллахвердиева.** Инновационные подходы к управлению финансовыми ресурсами в педагогических вузах: опыт и перспективы в Азербайджане
Pedaqoji universitetlərdə maliyyə resurslarının idarə edilməsinə innovativ yanaşmalar: Azərbaycanda təcrübə və perspektivlər
Doctoral student at the institute of education of the Republic of Azerbaijan innovative approaches to financial resource management in pedagogical universities: experience and prospects in Azerbaijan ........................................................................................ 169

### *TƏHSİLİN KEYFİYYƏTİNİN TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİ*
### *QUALITY ASSURANCE IN EDUCATION*
### *ВОПРОСЫ ОБЕСПЕЧЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ*

**Nigar Namiq qızı Məmmədova.** Ali təhsil müəssisələrində daxili keyfiyyət təminatının formalaşmasında esg standartlarının rolu
Роль стандартов ESG в формировании внутренней системы обеспечения качества в высших учебных заведениях
The role of ESG standards in shaping internal quality assurance in higher Education institutions …………………………………………………………………………... 175

# PSİXOLOGİYA
# ПСИХОЛОГИЯ
# PSYCHOLOGY

## *ÜMUMİ PSİXOLOGİYA*
## *ОБЩАЯ ПСИХОЛОГИЯ*
## *GENERAL PSYCHOLOGY*

**Gülər Akif qızı Məmmədova.** Peşə fəaliyyətinin mənəvi və psixoloji aspektləri
Морально-психологические аспекты профессиональной деятельности
Moral and psychological aspects of professional activity ................................ 179

**Aynur Suleyman qızı Eyvazzadə.** Stressin psixoloji təbiəti və onun insan davranışına təsiri haqqında
Психологическая природа стресса и его влияние на поведение человека
The psychological nature of stress and its impact on human behavior ………………... 184

**Şəhla Adil qızı Şükürova.** Ağarəhim Rəhimovun yaradıcılığı kontekstində qəhrəmanların psixoloji portretləri və koqnitıv yanaşmaların obraz və hadisələrə təsiri
Психологические портреты героев и влияние познавательных подходов на образы и явления в контексте творчества Агарагима Рагимова
Psychological portraits of heroes and the influence of cognitive approaches on images and phenomena in the context of Agaragım Rahimov's work ............................................... 189

**Nərgiz Vüqar qızı Yeliyeva.** Ağarəhim Rəhimovun "Girdab" və "Səfalət" əsərlərində şəxsiyyətlərarası münasibətlər
Межличностные отношения в произведениях Агарахима Рахимова «Вихрь» и «Мизери»
Interpersonal relationships in Agarahim Rahimov's works "Whirlwind" and "Misery" .. 195

## *PEDAQOJİ PSİXOLOGİYA*
## *ПЕДАГОГИЧЕСКАЯ ПСИХОЛОГИЯ*
## *PEDAGOGICAL PSYCHOLOGY*

**Ayna Şirzad qızı Hacızadə, Sevinc Oktay qızı Rzayeva.** Universitet tələbələrində stressin yaranmasına təsir edən amillər
Возникновение стресса и факторы, влияющие на стресс у студентов университетов
The Emergence of stress and factors affecting stress in university students ………… 200

**Sevinc Raqub qızı Səmədova.** Şagirdlərin yaradıcı və müstəqil təlim fəaliyyətinin təşkilinə neyroelm əsaslı yanaşma
Нейроэлементный подход к организации творческой и самостоятельной учебной деятельности учащихся
Neuro-element approach to organizing creative and independent educational activities of students ………………………………………………………………………………… 205

**İlahə Allahverdi qızı Kərimova.** Müəllim-şagird münasibətlərinin səmərəli qurulmasinin pedaqoji -psixoloji şərtləri
Педагогико-психологические условия эффективного налаживания отношений учитель-ученик
Psychological and pedagogical conditions for the effective establishment of teacher-student relationships ........................................................................................ 211

# FİLOLOGİYA
# ФИЛОЛОГИЯ
# PHILOLOGY

***DİLÇİLİK***
***ЛИНГВИСТИКА***
***LİNGUİSTİCS***

**Naila Asker Nabiyeva.** A structural–semantic analysis of english noun phrases
İngilis dilindəki ismi söz birləşmələrinin struktur-semantik təhlili
Структурно-семантический анализ английских именных групп ............................ 216

**Naibə Elxan qızı Camalzadə.** Müasir alman dilində sintaktik quruluşların analizi və onların nəzəri əsasları
Анализ синтаксических конструкций современного немецкого языка и их теоретические основы
Analysis of syntactic structures in contemporary german and their theoretical foundations ……………………………………………………………………… 226

**Elnarə Eldar qızı Putayeva.** Defining the concept of “Linguocultural competence” and its role in intercultural communication
“Linqvokulturoloji bacarıq” anlayışının və onun mədəniyyətlərarası ünsiyyətdə rolunun müəyyən edilməsinə dair
Определение понятия «лингвокультурная компетенция» и ее роли в межкультурной коммуникации ........................................................................................................ 237

**Aytən Samir qızı Seyidova.** Mətnlərdə evfemizmlərin işlədilməsi
Использование эвфемизмов в текстах
The use of euphemisms in texts ……………………………………………………….. 246

**Lalə Mətləb qızı Rüstəmova.** Diskursun linqvistik-kommunikativ aspekti
Лингво-коммуникативный аспект дискурса
Linguistic-communicative aspect of discourse ........................................... 252

***ƏDƏBİYYATŞÜNASLIQ***
***ЛИТЕРАТУРВЕДЕНИЕ***
***LİTERARY CRİTİCİSM***

**Gülnar Ramiz qızı Qəmbərova.** Yeni dövrdə Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti: problemlər, perspektivlər
Состояние Азербайджанской детской литературы в новый период: проблемы и перспективы
The state of Azerbaijani children's literature in the new era: challenges and prospects ... 259

**Xuraman Abuzər qızı Qədimova.** Divan ədəbiyyatında təzkirə və onun xüsusiyyətləri
Тазкире в диванной литературе и его особенности
The tazkira in divan literature and its characteristics ........................................................ 264

***BAŞ REDAKTORDAN***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***
***FROM THE EDITOR IN CHIEF***

İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri
Библиографическое описание использованной литературы
Bibliographic description of used literature .................................................................. 269

Təqdim olunan məqalələrə tələblər ................................................................................ 271
Требования к представленным статьям ........................................................................ 272
Requırements for submıtted artıcles.................................................................................. 274

Texniki redaktor: Aləmzər Fətəliyeva
Dizayn-operator: Sevda Quliyeva
Korrektor: Lalə Əlizadə

Yığılmağa verilmiş: 25.11.2025
Çapa imzalanmış: 19.12.2025
Kağız formatı: 27 x 18
Çap vərəqi: 17,37 ç.v.
Sayı: 200 nüsxə

Jurnalın web səhifəsi: bgu.edu.az
Elektron poçt ünvanı: info@**bgu.edu**.az
Bakı, M.Sənani küç. 62
Tel: (012) 595-30-02;
(055) 360-67-98